https://socialsciences.az/ ISSN: 2710-0820

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

# ОБЩЕСТВЕННЫЕ НАУКИ

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

# SOCIAL SCIENCES

№ 2

BAKI – “ELM” – 2023

**“Sosial elmlər” jurnalı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestri və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı” na daxil edilmişdir.**

**BAŞ REDAKTOR:**
**Nərgiz AXUNDOVA,** akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Yaqub MAHMUDOV,** akademik

**MƏSUL KATİB:**
**Lamiyə QAFAR-ZADƏ,** tarix üzrə fəlsəfə doktoru, dosent

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Gövhər Baxşəliyeva (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

**REDAKSİYA HEYƏTİNİN XARİCİ ÜZVLƏRİ:**
Selma Yel (doktor, professor, Türkiyə), Toğrul İsmayıl (doktor, professor, Türkiyə)**,** İqor Turitsın (doktor, professor, Rusiya Federasiyası), Hakim Elnazarov (doktor, Böyük Britaniya), Djozgil Kim (professor, Cənubi Koreya), Jozef Tymanovski (doktor, professor, Polşa), Pavel Stavarz (doktor, Polşa), Meruyert Abuseitova (doktor, professor, Qazaxıstan).

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

**ГЛАВНЫЙ РЕДАКТОР:**
**Наргиз АХУНДОВА,** академик

**ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:**
**Ягуб МАХМУДОВ,** академик

**ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:**
**Ламия КАФАР-ЗАДЕ,** доктор философии по истории, доцент

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Говхар Бахшалиева (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусеибли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

**ИНОСТРАННЫЕ ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Сельма Йель (доктор, профессор, Турция), Тогрул Исмаил (доктор, профессор, Турция), Игорь Турицын (доктор, профессор, Российская Федерация), Хаким Эльназаров (доктор, Великобритания), Джозгил Ким (профессор, Южная Корея), Жозеф Тумановски (доктор, профессор, Польша), Павел Ставарз (доктор, Польша), Меруерт Абусеитова (доктор, профессор, Казахстан).

**АДРЕС РЕДАКЦИИ:**
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалийййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

**EDITOR-IN-CHIEF:**
**Nargiz AKHUNDOVA,** Academician

**DEPUTY EDITOR-IN-CHIEF:**
**Yagub MAHMUDOV,** Academician

**EXECUTIVE SECRETARY:**
**Lamiya GAFAR-ZADA,** Doctor of Philosophy in History, Associate Professor

**EDITORIAL BOARD MEMBERS:**
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Govhar Bakhshaliyeva (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of AN- AS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

**FOREIGN MEMBERS OF EDITORIAL BOARD:**
Selma Yel (doctor, professor, Turkey), Toghrul Ismayil (doctor, professor, Turkey), Igor Turitsyn (doctor, professor, Russian Federation), Hakim Elnazarov (doctor, Great Britain), Djozgil Kim (professor, South Korea), Jozef Tymanowski (doctor, professor, Poland), Pawel Stawarz (doctor, Poland), Meruert Abuseitova (doctor, professor, Kazakhstan).

**EDITORIAL ADDRESS:**
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St.
Phone: (+99412) 4925180; mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com
Website: https://socialsciences.az/

## MÜNDƏRİCAT


**BAŞ MƏQALƏ**

**Nərgiz AXUNDOVA.** HEYDƏR ƏLİYEV – DÜNYA SƏVİYYƏLİ SİYASİ LİDER ... 8

**TARİX**

**Allahverdi ƏLİMİRZƏYEV.** DÜNYA DAŞQINI ŞUMERLİLƏRİN TARİXİ VƏ MİFOLOJİ TƏSƏVVÜRLƏRİNDƏ ... 13

**Elxan QULİYEV.** XIII-XIX ƏSRLƏRDƏ AZƏRBAYCANDA ASTRONOMİYA ELMİ ... 25

**Əsəd QURBANLI.** ERMƏNİSTAN SSR-DƏ AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI ETNİK TƏMİZLƏMƏ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ NƏTİCƏLƏRİ (1988-1991-ci illər) ... 34

**Əzizə NƏZƏRLİ.** AZƏRBAYCAN XALQININ SOVET İŞĞALINA QARŞI ÜSYANLARI (1920-1921) ... 46

**Güntəkin NƏCƏFLİ.** QARABAĞIN XRİSTİAN ALBAN MƏLİKLƏRİNİN ETNİK KİMLİYİNİN ERMƏNİDİLLİ TARİXŞÜNASLIQDA ƏKSİ ... 56

**İsmayıl HACIYEV.** V.QRİQORYEVİN "NAXÇIVAN ƏYALƏTİNİN STATİSTİK TƏSVİRİ" ƏSƏRİ NAXÇIVAN TARİXİNİN MÜHÜM MƏNBƏYİ KİMİ ... 65

**Könül ALLAHVERDİ.** V-VI ƏSRLƏRDƏ BİZANS VƏ SASANİ İMPERİYALARININ MÜNASİBƏTLƏRİ ... 73

**Leyla TALIŞINSKİ.** ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR TƏHSİL SİSTEMİNİN QURULMASINDA ROLU (1993-2003) ... 82

**Vaqif ŞİRİNOĞLU.** CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNƏ CƏHDLƏR ... 87

**Tofiq NƏCƏFLİ, Fərəh HÜSEYN.** I ŞAH ABBAS DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNİN BÖYÜK MOSKVA KNYAZLIĞI İLƏ ƏLAQƏLƏRİ ... 98

**Ülvi ZƏRBƏLİYEV.** AZƏRBAYCAN QARAQOYUNLU ORDUSUNDA HƏRBİ VƏZİFƏLİLƏR ... 115

**Yeganə MƏMMƏDOVA.** NAXÇIVANDA İNGİLİS GENERAL-QUBERNATORLUĞUNUN GEOPOLİTİK MARAQLARI VƏ SÜQUTU ... 131

**ARXEOLOGİYA, ETNOQRAFİYA VƏ NUMİZMATİKA**

**Mustafa ŞABANOV.** ŞƏKİ XANLIĞININ BİLİNMƏYƏN M TİPLİ GÜMÜŞ SİKKƏLƏRİ VƏ AĞIRÇƏKİLİ NOMİNALLARI ... 139

**Nəcəf MÜSEYİBLİ.** XALKOLİT DÖVRÜ MUĞAN ARXEOLOJİ MƏDƏNİYYƏTİ ... 148

**Vəli BAXŞƏLİYEV.** OSMANTƏPƏ YAŞAYIŞ YERİ DAŞ DÖVRÜNÜN ABİDƏSİDİR ... 154

**FƏLSƏFƏ VƏ HÜQUQ**

**Araz ƏLİYEV.** FRANSIZ TƏDQİQATÇILARIN ƏSƏRLƏRİNDƏ TÜRK OBRAZININ TARİXİ XARAKTERİSTİKASI ... 169

**Arzu HACIYEVA.** MƏDƏNİ-TARİXİ İRSİMİZƏ DAHA BİR BAXIŞ BUCAĞI ... 180

**Xatirə QULİYEVA.** HEYDƏRİZM KONSEPSİYASI (PROBLEMƏ GİRİŞ) ... 190

**Oruc MƏMMƏDOV.** KORRUPSİYA HÜQUQPOZMALARINA GÖRƏ DÖVLƏT QULLUQÇULARININ XÜSUSİ NÖV İNTİZAM MƏSULİYYƏTİ: NƏZƏRİ-HÜQUQİ MODELİ ... 214

**SİYASİ ELMLƏR**

**Orxan MUSA.** HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCAN – İTALİYA HUMANİTAR VƏ MƏDƏNİ ƏMƏKDAŞLIĞINDA İŞTİRAKI ... 238

**Serqey KLİMOV.** "YUMŞAQ GÜC" ANLAYIŞININ İDEOLOJİ VƏ SİYASİ MƏNŞƏYİ ... 244

**SOSİOLOGİYA**

**Validə CƏFƏROVA.** UŞAQLAR ARASINDA İNSAN ALVERİNİN BAŞ VERMƏSİ SƏBƏBLƏRİ ... 253

**PSİXOLOGİYA**

**Aytən MÜTƏLLİMZADƏ.** ŞƏXSİYYƏTİN İNKİŞAFINA SOSİAL MEDİA PLATFORMALARININ MÜSBƏT VƏ MƏNFİ TƏSİRLƏRİ ... 261

**Şəhla İBRAHİMOVA**. PSİXOTERAPİYADA *BORDERLİNE* ... 267

**RESENZİYALAR**

Fərda Əsədovun Elxan Zal Karamanın "Хазарский простор" adlı kitabına resenziyası ... 274

Mübariz Ağalarlının Eynulla Mədətlinin "Pakistan: qısa tarixi-siyasi oçerklər" adlı kitabına resenziyası ... 281

## СОДЕРЖАНИЕ

### ГЛАВНАЯ СТАТЬЯ

**Наргиз АХУНДОВА.** ГЕЙДАР АЛИЕВ – ПОЛИТИЧЕСКИЙ ЛИДЕР МИРОВОГО УРОВНЯ ............................8

### ИСТОРИЯ

**Аллахверди АЛИМИРЗОЕВ.** ВСЕМИРНЫЙ ПОТОП В ИСТОРИКО-МИФОЛОГИЧЕСКОМ ВООБРАЖЕНИИ ШУМЕРОВ ..........13
**Эльхан ГУЛИЕВ.** НАУКА АСТРОНОМИИ В АЗЕРБАЙДЖАНЕ В XIII-XIX ВЕКАХ ..........25
**Асад ГУРБАНЛЫ.** ПРОВЕДЕНИЕ И РЕЗУЛЬТАТЫ ЭТНИЧЕСКОЙ ЧИСТКИ ПРОТИВ ..........34
АЗЕРБАЙДЖАНСКИХ ТЮРКОВ В АРМЯНСКОЙ ССР (1988-1991 гг.) ..........
**Азиза НАЗАРЛИ.** ВОССТАНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ПРОТИВ СОВЕТСКОЙ ОККУПАЦИИ (1920-1921) ..........46
**Гюнтекин НАДЖАФЛИ.** ОТРАЖЕНИЕ ЭТНИЧЕСКОЙ ИДЕНТИЧНОСТИ ХРИСТИАНСКИХ АЛБАНСКИХ МЕЛИКОВ КАРАБАХА В АРМЯНОЯЗЫЧНОЙ ИСТОРИОГРАФИИ ..........56
**Исмаил ГАДЖИЕВ.** СОСТАВЛЕННОЕ В. ГРИГОРЬЕВЫМ «СТАТИСТИЧЕСКОЕ ОПИСАНИЕ НАХЧЫВАНСКОЙ ПРОВИНЦИИ» КАК ВАЖНЫЙ ИСТОЧНИК ИСТОРИИ НАХЧЫВАНА ..........65
**Кёнул АЛЛАХВЕРДИ.** ОТНОШЕНИЯ ВИЗАНТИИ И САСАНИДСКОЙ ИМПЕРИИ В V-VI ВЕКАХ ..........73
**Лейла ТАЛЫШИНСКИ.** РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ СОВРЕМЕННОЙ СИСТЕМЫ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1993-2003) ..........82
**Вагиф ШИРИНОГЛУ.** ПОПЫТКИ ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПЕРИОД РЕСПУБЛИКИ. ..........87
**Тофиг НАДЖАФЛИ, Фарах ГУСЕЙН.** ВЗАИМООТНОШЕНИЯ ГОСУДАРСТВА СЕФЕВИДОВ И МОСКОВСКОГО ЦАРСТВА В ПЕРИОД ПРАВЛЕНИЯ ШАХА АББАСА I ..........98
**Ульви ЗАРБАЛИЕВ.** ВОЕННЫЕ ЧИНОВНИКИ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ КАРАГОЮНЛУ ..........115
**Егана МАМЕДОВА.** ГЕОПОЛИТИЧЕСКИЕ ИНТЕРЕСЫ И ПАДЕНИЕ БРИТАНСКОГО ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВА В НАХЧЫВАНИ ..........131

### АРХЕОЛОГИЯ, ЭТНОГРАФИЯ И НУМИЗМАТИКА

**Наджаф МУСИБЛИ.** МУГАНСКАЯ АРХЕОЛОГИЧЕСКАЯ КУЛЬТУРА ХАЛКОЛИТА ..........139
**Мустафа ШАБАНОВ.** НЕИЗВЕСТНЫЕ СЕРЕБРЯНЫЕ МОНЕТЫ ТИПА M И КРУПНЫЕ НОМИНАЛЫ ШЕКИНСКОГО ХАНСТВА ..........148
**Вели Б. БАХШАЛИЕВ.** ПОСЕЛЕНИЕ ОСМАН ТЕПЕ – ПАМЯТНИК ЭПОХИ КАМЕННОГО ВЕКА ..........154

### ФИЛОСОФИЯ И ПРАВО

**Араз АЛИЕВ.** ИСТОРИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ТУРЕЦКОГО ОБРАЗА В ТРУДАХ ФРАНЦУЗСКИХ ИССЛЕДОВАТЕЛЕЙ ..........169
**Арзу ГАДЖИЕВА.** ЕЩЕ ОДИН УГОЛ ЗРЕНИЯ НА НАШЕ КУЛЬТУРНО-ИСТОРИЧЕСКОЕ НАСЛЕДИЕ ..........180
**Хатира ГУЛИЕВА.** ПОНЯТИЕ ГЕЙДАРИЗМА (ВВЕДЕНИЕ В ПРОБЛЕМУ) ..........190
**Орудж МАМЕДОВ.** СПЕЦИАЛЬНЫЙ ВИД ДИСЦИПЛИНАРНОЙ ОТВЕТСТВЕННОСТИ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ ЗА КОРРУПЦИОННЫЕ ПРАВОНАРУШЕНИЯ: ТЕОРЕТИКО-ПРАВОВАЯ МОДЕЛЬ ..........214

### ПОЛИТИЧЕСКИЕ НАУКИ

**Орхан МУСА.** УЧАСТИЕ ФОНДА ГЕЙДАРА АЛИЕВА В АЗЕРБАЙДЖАНО-ИТАЛЬЯНСКОМ ГУМАНИТАРНОМ И КУЛЬТУРНОМ СОТРУДНИЧЕСТВЕ ..........238
**Сергей КЛИМОВ.** ИДЕЙНО-ПОЛИТИЧЕСКИЕ ИСТОКИ КОНЦЕПЦИИ «МЯГКОЙ СИЛЫ» ..........244

### СОЦИОЛОГИЯ

**Валида ДЖАФАРОВА.** ПРИЧИНЫ ТОРГОВЛИ ЛЮДЬМИ СРЕДИ ДЕТЕЙ ..........253

### ПСИХОЛОГИЯ

**Айтан МУТАЛЛИМЗАДА.** ПОЛОЖИТЕЛЬНОЕ И НЕГАТИВНОЕ ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ МЕДИА-ПЛАТФОРМ НА РАЗВИТИЕ ЛИЧНОСТИ ..........261
**Шахла ИБРАХИМОВА.** *ПОГРАНИЧНЫЙ* В ПСИХОТЕРАПИИ ..........267

### РЕЦЕНЗИИ

Рецензия Фарды Асадова на книгу Эльхана Зала Карамана «Хазарский простор» ..........274
Рецензия Мубариза Агаларлы на книгу Эйнуллы Мадатли «Пакистан: краткие историко-политические очерки» ..........281

## CONTENTS


### MAIN ARTICLE
**Nargiz AKHUNDOVA.** HEYDAR ALIYEV – WORLD POLITICAL LEADER ........ 8

### HISTORY
**Allahverdi ALIMIRZAYEV.** THE FLOOD IN THE HISTORICAL AND MYTHOLOGICAL IMAGINATION OF THE SUMERIANS ........ 13
**Elkhan QULIYEV.** THE SCIENCE OF ASTRONOMY IN AZERBAIJAN IN XIII-XIX CENTURIES ........ 25
**Asad GURBANLI.** IMPLEMENTATİON AND RESULTS OF THE POLICY OF ETHNIC CLEANSİNG AGAİNST AZERBAIJANI TURKS IN THE ARMENIAN SSR (1988-1991) ........ 34
**Aziza NAZARLI.** UPRISINGS OF THE AZERBAIJANI PEOPLE AGAINST THE SOVIET OCCUPATION (1920-1921) ........ 46
**Guntakın NAJAFLI.** REFLECTION OF THE ETHNIC IDENTITY OF THE CHRISTIAN ALBANIAN MELIKS OF KARABAKH IN THE ARMENIAN-LANGUAGE HISTORIOGRAPHY ........ 56
**Ismail HAJIYEV.** V. GRIGORIEV’S WORK "STATISTICAL DESCRIPTION OF NAKCHIVAN PROVINCE" AS AN IMPORTANT SOURCE OF NAKCHIVAN HISTORY ........ 65
**Konul ALLAHVERDI.** RELATIONS OF THE BYZANTINE AND SASANID EMPIRES IN THE V-VI CENTURIES ........ 73
**Leyla TALISHINSKI.** THE ROLE OF THE NATIONAL LEADER HEYDAR ALIYEV IN ESTABLISHING OF THE MODERN EDUCATIONAL SYSTEM IN AZERBAIJAN REPUBLIC (1993-2003) ........ 82
**Vagıf SHIRINOGLU.** ATTEMPTS TO STUDY THE HISTORY OF AZERBAIJAN DURING THE PERIOD OF THE REPUBLIC ........ 87
**Tofig NAJAFLI, Farah HUSEYN.** RELATIONS OF THE SAFAVID STATE AND THE KINGDOM OF MOSCOW DURING THE REIGN OF SHAH ABBAS I ........ 98
**Ulvi ZARBALIYEV.** MILITARY OFFICIALS IN THE AZERBAIJANI QARA-QOYUNLU ARMY ........ 115
**Yegana MAMMADOVA.** BRITISH GOVERNOR-GENERAL GEOPOLITICAL INTERESTS AND FALL IN NAKHCHIVAN ........ 131

### ARCHAEOLOGY, ETHNOGRAPHY AND NUMISMATICS
**Mustafa SHABANOV.** UNKNOWN M-TYPE SILVER COINS AND HEAVY DENOMINATIONS OF THE SHAKI KHANATE ........ 139
**Najaf MUSEIBLI.** MUGHAN ARCHAEOLOGICAL CULTURE OF THE CHALCOLITHIC PERIOD ........ 148
**Veli B. BAKHSHALIYEV.** OSMAN TEPE SETTLEMENT MONUMENT OF STONE AGE ........ 154

### PHILOSOPHY AND LAW
**Araz ALIYEV.** HISTORICAL CHARACTERIZATION OF THE TURKISH IMAGE IN THE WORKS OF FRENCH RESEARCHERS ........ 169
**Arzu HAJIYEVA.** ANOTHER ANGLE OF VIEW ON OUR CULTURAL AND HISTORICAL HERITAGE ........ 180
**Khatıra GULIYEVA.** THE CONCEPT OF HEYDARISM (INTRODUCTİON TO THE PROBLEM) ........ 190
**Oruj MAMMADOV.** SPECIAL TYPE OF DISCIPLINARY LIABILITY OF CIVIL SERVANTS FOR CORRUPTİON OFFENSES: THEORETICAL-LEGAL MODEL ........ 214

### POLITICAL SCIENCES
**Orkhan MUSA.** PARTICIPATION OF THE HEYDAR ALIEV FOUNDATION IN AZERBAIJANI - ITALIAN HUMANITARIAN AND CULTURAL COOPERATION ........ 238
**Sergey KLIMOV.** IDEOLOGICAL AND POLITICAL ORIGINS OF THE CONCEPT OF "SOFT POWER" ........ 244

### SOCIOLOGY
**Valida JAFAROVA.** CAUSES OF HUMAN TRAFFICKING AMONG CHILDREN ........ 253

### PSYCHOLOGY
**Aytan MUTALLIMZADA.** POSITIVE AND NEGATIVE EFFECTS OF SOCIAL MEDIA PLATFORMS ON PERSONALITY DEVELOPMENT ........ 261
**Shahla IBRAHIMOVA.** *BORDERLINE* IN PSYCHOTHERAPY ........ 267

### REVIEWS
Farda Asadov’s review of Elkhan Zal Karaman’s book “Хазарский простор” ........ 274
Mubariz Agalarli’s review of Eynulla Madatli’s book “Pakistan: qısa tarixi-siyasi oçerklər” ........ 281

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2023.2.8

**Nərgiz Axundova**
*AMEA-nın həqiqi üzvü*

# HEYDƏR ƏLİYEV – DÜNYA SƏVİYYƏLİ SİYASİ LİDER

**Ağıl olan yerdə zora ehtiyac yoxdur**
**H.Əliyev**

***Açar sözlər:*** *H.Əliyev, siyasət, qurtuluş, inkişaf, milli dəyərlər, iqtisadiyyat, dövlət quruculuğu*

XX əsrin sonu-XXI əsr dünya üçün yeni inkişaf perspektivləri açmış, ciddi çağırışlara cavab tələb etmişdir. Müstəqillik əldə etmiş Azərbaycan onun ilk ağır və ziddiyyətli dərslərindən azad olmağa, öz qüvvəsinə inanmağa çalışırdı. Dərin iqtisadi böhran, Qarabağ ətrafında baş verənlər, müharibə ilə gələn ərazi itkiləri, erməni həmlələri, dövlət quruçuluğundakı səhvlər- bunlar hamısı çağdaş tariximizdə yaşanılan hadisələrdi. Məhz bu zaman, 1993 ilin 15 iyununda Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayidişi baş verdi və böyük siyasətçi hakimiyyətin məsuliyyətini öz üzərinə götürməkdən qorxmadı. Onun qərarları, şəxsi keyfiyyətləri, idarəçilik üslubu artıq müasir Azərbaycan obrazının ayrılmaz hissəsi və öz ölkəsini sevən, onun gələcəyi üçün mübarizəyə hazır olan siyasi liderlər üçün canlı bir müvəffəqiyyət dərsliyidir.

Uzun illər, sovet dövründən başlayaraq, Heydər Əliyev Azərbaycanın ən nüfuzlu və öndə gedən siyasətçi olmuşdur və buna görə də onun dünyaya baxışları, siyasi fəlsəfəsi daimi maraq və tədqiqat mövzusuna çevrilmişdir. Burada demək olar ki, həmin fəlsəfənin təməl daşı-azadlıqdır, çünki H. Əliyevin hakimiyyətdə olma tarixinin bütün illəri – ölkəmizin dünyada azadlığı və vətəndaşların ölkə daxili azadlığı naminə dövlətin möhkəmləndirmə tarixidir. (8,c.1.s.132) Cəmiyyətin özünüdərketmə böhranı, onun daxilində müxtəlif seqmentlərin olması, ideologiya axtarışları ona gətirdi ki, H Əliyev Azərbaycan cəmiyyətinin birləşdirə bilən azərbaycançılıq ideologiyasını ortaya qoydu. Mənəvi dəyərlər, vətənpərvərlik, doğma dilə, tarixə və mədəniyyətə olan məhəbbət onun təsəvvüründə siyasi və iqtisadi vəzifələrlə bir sırada olan dəyərlərə çevrildi. "Milli dövlətçiliyimizin ideya əsasına çevrilmiş Heydər Əliyevin azərbaycançılıq ideologiyası müasir dünyada öz yerini müəyyənləşdirmiş və bütün dünyada yaşayan azərbaycanlılar üçün onları birləşdirəm amil olmuşdur" (7. s.230). Azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini, milli dövlətin ideoloji əsaslarını müəyyəşdirdi. Bunu unutmayan xalqımız isə Liderinin xatirəsinin əbədiləşməsi üçün təşəbbüskar kimi çıxış etdi. Nəticədə 10 mart 2004 ildə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Fərman imzalandı. Onun adı müəssisələrə, küçələrə, meydanlara, ali hərbi məktəbə, dövlət nişanına və s. verildi və bununla da böyük insana olan xalqın etimadı, hörməti və daimi dəstəyi nümayiş edildi .(1)

Qeyd edilən kimi, ölkəmizin ən mürəkkəb tarixi məqamında onun prezidenti seçilən Heydər Əliyev aydın başa düşürdü ki, ancaq milli birlik, dövlətçiliyin itirilməsi kimi ümumi təhlükənin dərki cəmiyyəti birləşdirə bilər və siyasi böhrandan çıxış yolu göstərər, sonra isə onun dirçəlişinə səbəb olar. Öz andiçmə mərasimində Ulu Öndər "bu çətin vaxtda Menim üzərimə qoyulan məsuliyyətin dərəcəsini anlayiram və bütün fəaliyyətimlə, həyatımla xalqin böyük etimadını və ümidlərini doğrultmağa çalışacam (10) deməklə, insanlara gələcəyə böyük ümidlər vermişdi. Və heç də təsadüfi deyil ki, H. Əliyevin Azərbaycan tarixinə töhfəsi onun qayıdış gününün Milli qurtuluş günü adı ilə milli bayram elan olunmasıdır. (1998-ci ildən). Həmin qayidiş Azərbaycan dövlətinin iqtisadi, siyasi, mədəni dirçəlişinə, müstəqilliyinin möhkəmlənməsinə səbəb oldu.

1990-i illərdə birinci Qarabağ müharibəsindən sonra, müxtəlif siyasi qüvvələrin yaranmış vəziyyətdən istifadə edib, ölkədə qarşıdurma yaratmaq istədiyi zaman məhz Əliyev hakimiyyəti nümayiş etdi ki, konstitusiya əsasları deklarasiya yox, ölkənin ictimai-siyasi həyatının həqiqi əsası olmalıdır, güclü lider isə bu əsasların toxunulmazlığını qoruyan şəxsdir. Onun hakimiyyəti altında 1993-2003 illərdə ictimai siyasi sistemin sabitləşməsindən onun konsolidasiyasına kimi çətin və şərəfli bir yol keçilmişdi. Hal -hazırda isə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə yeni bir mərhələdə, yeni sosial-iqtisadi səviyyədə və davamlı inkişaf yolundadır.

Qeyd etmək lazımdır ki, məhz Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan Respublikası həm beynəlxalq mühitdə və, ən vacibi, ölkə daxilində artıq sabit bir dövlət- Azərbaycanın qədim dövlətçılık ənənəsinin varisi kimi qəbul edilməyə başlandı. "Dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük nailiyyətimizdir və biz bunu qoruyub saxlayacağıq. (8, 1996, s.22.) Yenilənmiş Azərbaycanın siyasi və tarixi sabitləşməsinə həm də onun rəhbərinin dövlət idarəçilik mexanizmlərinin daim təkmilləşdirməsi, siyasi partiya sisteminin tənzimlənməsi və ən əsası Konstitusiya prinsiplərinə sadiqlik olmuşdur.

İqtisadi nailiyyətlər (neft siyasəti, əsrin müqaviləsi), beynəlxalq nüfuzun artması, xarici düşmən həmlələrinə əks olaraq yaranan milli birlik ona gətirdi ki, xalq və hakimiyyət, cəmiyyətdə fikir müxtəlifliyinin qalmasına baxmayaraq, əsas məqamlarda birləşdi. Onlardan ən vacibi isə Azərbaycan dövlətçiliyinin siyasi və tarixi dəyəri, onun bütün vətəndaşlar üçün ümumi evin olması idi. Çox təqdirə layiq haldır ki, son illərdə vətəndaşlarımız ölkəmizin siyasi, iqtisadi və sosial əsaslarının təkmilləşməsi və inkişafı daha çox düşünür, bu yolda səylər qoyur və Heydər Əliyev kursuna sadiq olaraq, "inqilabi məntiqdən" uzaqlaşaraq, təkamüllə üstünlük verirlər.

H. Əliyevin prezidentliyi dövründə ölkədə Azərbaycan tarixinin bütün mərhələlərinin, o cümlədən sovet dövrünün, təsəvvürlərini və nailiyyətlərini birləşdirib, irəliyə getmək və demokratik, müasir cəmiyyətdə yaşamaq istəyi gücləndi. Çünki insanlarımız öz gələcəyini, ailələrinin gələcəyini, elmi və əmək fəaliyyətini ölkələrinin inkişafında görürlər. Və əlbəttə ki, Azərbaycanın gələcəyinə olan inamı, bütün maneələrə baxmayaraq bu gələcəyi qurmaq istəyi 44 günlük Qarabağ müharibəsindən sonra dəfələrlə artmış oldu, Qarabağın tam azad olması isə milli qürur hissəni yüksəklərə qaldırdı.

Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti olandan demək mümkün oldu ki, ölkənin müasir siyasi sistemi də formalaşdı, bunu hakimiyyətlə cəmiyyətin birgə səyləri nəticəsində əldə etmək mümkün oldu və baş verən dəyişiklərin sabitlıyinə gətirdi. Liderin əsas dayağı isə "Yeni Azərbaycan" partiyası oldu. Onun haqqında ölkə başçısı demişdir "Yeni Azərbaycan partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxan zərurətdir. Yeni Azərbaycan partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmaqla ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır." (8, 2c., s.303) Bununla yanaşı, müxtəlif siyasi qurumların fəaliyyətinin genişlənməsi sabit çoxpartiyalı sistemin yaranmasına da gətirib çıxardı. Vəziyyət bu günə qədər də sabit qalmaqdadır. Beləliklə də, dövlətin həyata keçırdıyı kursa ictimaiyyətin dəstəyini əldə etmək mümkün olmuşdu.

Hələ 1992-ci ildə, Azərbaycan ziyalılarına müraciətində, sonra isə "Yeni Azərbaycan partiyasının proqramında öz dövlət konsepsiyasını izah etmışdir. Həmin müraciətdə ölkənin mövcud vəziyyəti təhlil olunmuş, siyasi və iqtisadi böhrandan çıxış yolları göstərilmişdi.

Heydər Əliyev cəmiyyətin vəhdətini ideologiya ilə yanaşı həm də milli mədəniyyətə gördü və mənəvi dəyərləri siyasi, iqtisadi sabitliyin əsas amili hesab edirdi. "Böyük mədəniyyətə sahib olan xalq həmişə qabağa gedəcək, yaşayacaq və inkişaf edəcək" (3. s.472). O, əmin idi ki, miqyaslı milli vəzifələri ümumi mənəvi əlamətləri olan cəmiyyət yerinə yetirə bilər və bu o zaman mümkündür ki, ölkədə doğma dilə, maddi və özünəməxsus mədəni dəyərlərə, əcdadların xatirəsinə və milli tarixin hər bir səhifəsinə hörmət olunur. Məhz bu milli sərvət milli birliyin və müstəqilliyin möhkəmlənməsinin əsas şərtlərindəndir. "Xalqın mənəvi dəyərləri, onun milli özünəməxsusluğu, dilinin hesabına yaşayır və inkişaf edir" (3. s.520; 2)

Bu vaxt ölkədə gedən demokratik dəyişikliklər milli və konfessional (dini) problemlərə də marağı artırdı. Sosial-mədəni problem olmaqla yanaşı, bu məsələlər həm də sırf siyasi xarakter də daşıyırdı. H .Əliyev Azərbaycanda yaşayan milli və dini azlıqların haqlarını qoruyan bir necə beynəlxalq sənədlərə imza atmışdı. 2002-ci ildə Avropa Şurasına milli azlıqların hüquqlarının təmin olunması haqqında hesabat təqdim olunmuş idi. Azərbaycanın bu istiqamətdəki siyasəti elə həmin il AŞ yüksək qiymətini almış və qeyd olunmuşdu ki, Azərbaycanın milli siyasət təcrübəsi bir çox dövlətlər üçün maraq və əhəmiyyət kəsb edir. (9. s.57; 4).

"Azərbaycanın çoxmilli tərkibi- bizim sərvətimizdi" (9 s.12)- deyən lider ölkəni separatizmdən qurtara bildi və milli qüvvələri birlik ideologiyası ətrafına yığa bilərək, multikultural Azərbaycanın qurucusu oldu. Azərbaycanlıların tolerantlıq prinsiplərinə sadiqliyini və onları yaşatmaq bacarığı cəmiyyətimizdə dövlət siyasətinin vacib istiqaməti olan mədəni plüralizm fenomeninin yaranmasına səbəb olmuşdu. (11, s.87)

XX əsrin əvvəlindəki böhrandan tədricən qurtulan Azərbaycan iqtisadiyyatda və dünya siyasətində də yeni mövqelərə çıxa bilmişdi. Heydər Əliyev bunun üçün ən optimal çıxış yolları tapmış oldu. İqtisadiyyatın sabitliyini birincı növbədə ölkənin neft strategiyası təmin etməli idi. Bu məqsəd ilə beynəlxalq neft konsorsiumu ilə Azəri- Günəş- Çıraqlı yataqlarının birgə istismarı üçün "Əsrin müqaviləsinin" imzalanması (20 sentyabr 1994) siyasi iradənin və qətiyyətin nümayişi idi. Müqavilə ətrafında olan ziddiyyətləri də məharətlə həll edən şəxs məhz H. Əliyev oldu. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması məqsədi ilə 1996-cı ildə Bakı-Novorossiysk, 1999-Bakı-Supsa neft kəmərlərinin inşası, Bakı-Tbilisi-Ceyhan kəmərinin əsasının qoyulması H. Əliyevin düşünülmüş iqtisadi siyasətinin nəticəsi oldu.2006-ci ildə işə düşən bu kəmər Şərq-Qərb enerji nəqliyyat dəhlizinin əsası oldu. Sonralar isə, genişlənərək, TANAP, TAP kimi qaz nəqliyyatı kəmərlərinə çevrildi.

1993-2003 illər ərzində iqtisadiyyatla bağlı 70 qanun, onun tənzımlənməsi ilə əlaqədar 30 dövlət proqramları imzalanmışdı. (5.s.198). Bu zaman ölkə infrastrukturunun inkişafı, yol- nəqliyyat sisteminin dünya kommunikasiya məkanına inteqrasiyası baş verdi ki, nəticədə Azərbaycan regionun vacib nəqliyyat nöqtəsinə çevrildi. Aqrar islahatlar, bazar iqtisadiyyatının əsaslarının yaradılması, vətəndaşların həyat səviyyəsinin artırılması – gələcək illərin dinamik inkişafı üçün zəmin yaratmışdır. Aqrar sahədə dəyişikliklər nəticəsində ölkədə 3 milyon 400 min vətəndaş torpaq mülkiyyətçisi oldu. (5.s.206). Azərbaycan iqtisadiyyatının inkişafı Heydər Əliyev tərəfindən dünya iqtisadiyyatına inteqrasiya nöqteyi-nəzərindən, dünyada əmək bölgüsü sistemi baxımından nəzərə alınırdı. 1997-ci ildən ölkəmiz Beynəlxalq Ticarət Təşkilatında müşahidəçı statusu ilə fəaliyyət göstərməyə başladı.

Azərbaycanın müstəqil dövlət Konstitusiyasının (1995) hazırlanmasında Heydər Əliyevin rolu danılmazdır. "Biz üzərimizə öz tarixi, milli ənənələrinə söykənən demokratik, hüquqi dövlət qurmaq vəzifəsini götürmüşük və bununla yanaşı dünya demokratiyasının qabaqcıl standartlarından istifadə edəcəyik" (6.s.22) deyən prezidentin sabit siyasi və hüquqi əsaslara sahib olan vətəndaş cəmiyyətinin yaranmasına qulluq edən sənədə imza atmışdır. İnsan haqlarına ölkədə yüksək əhəmiyyət verilməsinin bir bariz nümunəsi də 1998-ci ildə ümummilli lider tərəfindən təqdim edilmış "İnsan və vətəndaşın hüquq və azadlıqları sahəsində tədbirlər" haqqında fərman olmuşdur ki, bu da məsələni ümumdövlət səviyyəsinə qaldırmışdır. İnsan haqları haqqında dövlət proqramı hazırlanmış, ombusman institutu təsis edilmişdi. Azərbaycan dünyada insan haqları və azadlığı sahəsində mövcud olan bütün beynəlxalq konvensiyala qoşulmuş oldu.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə müasir Azərbaycanın siyasi sistemi tam formalaşdı və onun kursu ilə Azərbaycan cəmiyyəti dövlətin realliqda və gələcəkdə necə olmasını tam təsəvvür etdi.

Təbii ki, Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri də, beynəlxalq təhlükəsizlik və ədalət prinsipi olmuşdur. Bu problemlər bir biri ilə sıx bağlıdır. Tarix isə göstərir ki, beynəlxalq münasibətlərin bir aktoruna da ədalətsiz münasibət siyasi, iqtisadi və sosial böhranlara səbəb olur. Azərbaycanın ərazi bütövlüyü məsələsində qarşılaşdığı maneələr, ikili stan-

dartlar və Qarabağ probleminin həllində yaradılan çətinliklər də bunu sübut edirdi. Ölkə başçısı və Azərbaycan diplomatiyası o zaman milli suverenliyi və maraqlarını qorumaq, daxili təzyiqi qəbul etməmək şərti ilə hər bir dialoqa açıq olduğunu nümayiş etdirirdi.

Ermənistan –Azərbaycan Dağlıq Qarabağ probleminin danişıqlar yolu ilə həlli o zaman prioritet kimi götürülmüş və1994 ildə H. Əliyevin təşəbbüsü ilə Ermənistan və Azərbaycan arasında atəşkəsin elan edilməsi onun yeni bir nailiyyəti olmuşdu. Qarabağ məsələsi bütün beynəlxalq tədbirlərin gündəliklərinə salınmaqla, siyasi gündəmdən silinmədi (12.s.96).. Danışıqlar prosesinin nəticə verməsi səbəbindən, dövlət başçısı dünya dövlətləri ilə əlaqələrindən istifadə edərək Cənubi Qafqaz regionunda ciddi geosiyasi dəyişikliklər aparmağa başladı. Yuxarıda qeyd olunan qlobal iqtisadi proektlər bu sıradan olan addımlardandır.

2003-cü illədək siyasi fəaliyyətini davam edəm ümummilli lider Qarabağ ərazilərinin qaytarılması uğrunda yorulmadan çalışdı və, demək olar ki, onun hakimiyyəti dövründə bunun üçün beynəlxalq və milli hüquqi əsasların yaranmasına nail ola bildi.

Bu gün Azərbaycanda yeni inkişaf mərhələsinə keçıd üçün bütün imkanlar yaranmışdır. Dövlətimiz ərazi bütövlüyünü tam bərpa edib, ölkə rifahını və sosial ədalətin təmin olunmasına yönəlmiş layihələrinin həyata keçirilməsini təmin edir. Ümummilli lider Azərbaycan siyasəti üçün çox yüksək hədd qoyub getmışdi. Heydər Əliyevin siyasi xəttinin, məktəbinin davamçısı və ölkənin gələcəyi üçün məsuliyyəti öz üzərinə götürən Prezident, Ali baş komandan, Qarabağı işğaldan azad edən, İlham Əliyev dövlətçilik və idarəçilik məharətini özündə birləşdirib, müasir tipli, dünya səviyyəsində qəbul edilən güclü dövlət lideridir.

**Ədəbiyyat siyahısı**


1. Azərtac 11.03.2004
2. Ədəbiyyat qazeti 23.07.2009
3. Гейдар Алиев и культура. Т.2. Нурлар. 2008
4. .Гамидов Г. Идейное наследие Гейдара Алиева и роль ислама в состоятельности азербайджанского мультикультурализма. Восточноевропейский научный журнал. 2016. GyberLeninka
5.Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı .B. Azərnəşr.1998
6.Heydər Əliyev dövlətçilik haqqında. B. 2008
7.Heydər Əliyev və azərbaycançılıq məfkürəsi.B. 2002
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 c. B. 2013; 2002, 10 c.; 1996 c.27
9.Orucov H. Heydər Əliyev və Azərbaycanın milli siyasəti. Atatürk Araşdırmaları Mərkəzi. 2014
10. 10 oktyabr 1993. Respublika sarayındaki nitq.
11.Нагдалиева Ш. Азербайджанская модель мультикультурализма в межкультурной коммуникации: проблемы и решения – «Философская мысль» М. 2017.№ 10
12.Sərdarov Z. Heydər Əliyev və milli mübarizə tariximiz. B. 2008


**Резюме**

**Наргиз Ахундова**

**Гейдар Алиев – политический лидер мирового уровня**

В статье показаны некоторые аспекты политических взглядов общенационального лидера Азербайджана Гейдара Алиева. Его видение настоящего и будущего страны, а также создание им новых властных механизмов и структур управления государством. отмечены основные экономические преобразования, проведенные под руководством Г.Алиева, их значение для укрепления национального суверенитета.

Проанализированы основные направления внутренней и внешней политики, а также позиция национального лидера по карабахскомау вопросу, заложившая основу достижений в его разрешении.

***Ключевые слова:*** *Г.Алиев, политика, спасение, национальные ценности, экономика, государственное строительство*

**Summary**

**Nargiz Akhundova**

**Heydar Aliyev – world political leader**

The article shows some aspects of the political views of the national leader of Azerbaijan Heydar Aliyev, his vision of the present and future of the country, as well as his creation of new power mechanism azd staty governance structures, noted the main economic transformations carried out under the leadership of the goverment, their importance for strengthening the sovereignty of the country.

Were analyzed the main direction of domestic and foreign policy, the leader’s position on the Karabakh issue, which laud achievements in its resolution.

***Keywords:*** *H.Aliyev, policy, rescue, national values, economy, state building*

UOT 9
https://doi.org/10.59849/2710-0820.2023.2.13

**Allahverdi Əlimirzəyev**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*"Qədim dövr tarixi" şöbəsinin müdiri*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan*
*alimirzoev.60@mail.ru*

# DÜNYA DAŞQINI ŞUMERLİLƏRİN TARİXİ VƏ MİFOLOJİ TƏSƏVVÜRLƏRİNDƏ

***Açar sözlər***: *ümumdünya daşqını, mixi yazılı mənbələr, qədim xronologiya, Şumer tarixi, Şumer mifologiyası, Şərqin tarixi ənənəsi, ilk şəhər-dövlətlər.*

**Giriş**. Bəşər övladının tarixində qlobal təbii fəlakət sayılan dünya tufanı arxaik cəmiyyətlərin növbəti təkamülü üçün mühüm dönüş nöqtəsi olmuşdur. İri su hövzələri yaxınlığında məskunlaşmış xalqların gündəlik həyatı vaxtaşırı baş verən daşqınlardan, sel və subasmalarından asıllı olduğundan, dağıdıcı qüvvəyə malik bu tip təbii hadisələr zaman-zaman əfsanələşərək tarixə düşürdü. Əfsanənin şumerlilərə aid ən qədim variantının qeydə alındığı gil lövhə zədəli olduğundan bəşəriyyətin xilas olduğu yerin adı məlum deyil. 1920-1930-cu illərdə Leonard Vullinin başçılığı ilə Britaniya arxeoloqlarının Təll-əl-Mukayyarda (qədim Ur şəhəri), Leonard Veytlinlə Stiven Lenqdonun rəhbərliyi ilə ABŞ-Britaniya arxeoloqlarının Təll-Uxaymir və Təll-İnqarra təpələrində (qədim Kiş şəhəri) və Erix Şmidtin rəhbərliyi ilə Pensilvaniya muzeyinin əməkdaşlarının Təll-Farada (qədim Şuruppak şəhəri) apardıqları qazıntılarla bu təbii fəlakətin həqiqətən də Dəclə və Fərat çayları hövzəsində (Mesopotamiyanın cənubu, qədim Şumer) baş verdiyi təsdiqini tapmışdır. Daşqınların baş vermə faktı iki qədim mədəni təbəqə arasında qalınlığı 3,0-2,7 metr arasında dəyişən lil qatı ilə örtülmüş sterial qatın olması ilə sübut edilir. Kiş və Şuruppakdakı daşqınların I Erkən sülalələr dövründə, lakin qismən fərqli aralıqlarla (e.ə. XXIX-XXVII əsrlər) baş verdiyi ehtimal edilir. Kiş şəhərinin hətta 500 il aralıqla iki daşqına məruz qaldığı söylənilir. Bu daşqınlar zamanı bəzi yaşayış məntəqələri (Əl-Übeyd, Rəceybə və s.) birdəfəlik tərk edilsələr də, bəzilərində (Urda, Şuruppakda, Kişdə və s.) həyat əvvəlki axarı ilə davam etmişdir. Dağıdıcı daşqınlar Dəclə və Fərat çaylarının məcrasının dəyişməsinə də təsir göstərmişdir. Lakin, etiraf etmək lazımdır ki, nə arxeoloji qazıntıların nəticələrinin, nə də yazılı ilk mənbələrin təhlili, hələ ki, bu tufanın Dəclə və Fəratın mənbəyi rayonunda (Anadolunun şimal-şərqində Bingöl silsiləsi) iqlimin kəskin dərəcədə isinməsi ilə qarların əriməsi, yoxsa İran (Fars) körfəzində zəlzələ ilə əlaqədar su səviyyəsinin yüksəlməsi (sunami) səbəbindən baş verdiyinə aydınlıq gətirmək üçün yetərli deyil [8, c.33-36; 14, c. 105; 16, c.186-201; 35, pp.200-202, 216-217; 40, pp.35, 105, 142-143].

**Yazılı ilk mənbələr**. Şumerlilərin tufan haqqında ədəbi-mifoloji və tarixi ənənəsi kifayət qədər tədqiq olunub. Bu ilk mənbələrin əksəriyyəti 100 il bundan öncə Albert Klay tərəfindən toplanaraq nəşr olunmuşdur [19]. Hans Hilprextin rəhbərliyi ilə Pensilvaniya universitetinin əməkdaşları 1893-cü ildə Niffarda (şumerlilərin dini mərkəzi Nippur şəhəri) üzərində tufandan bəhs olunan əfsanənin yazıldığı gil tabletin fraqmentlərini tapmışlar. Hər iki üzü yazılı olan 6 sütunlu gil tabletdəki əfsanənin 1/3 hissəsinin məzmunu 1914-cü ildə ABŞ şumeroloqu Arno Pöbel tərəfindən bərpa olunmuşdur. İşarələrin paleoqrafiyasına əsasən e.ə. XVII əsrdə gil kitabəyə həkk olunmuş həmin əfsanədə tufan ərəfəsində tanrı Eanın (və ya Haya) məsləhəti ilə Ziusudra adlı kahinin gəmi düzəldərək xilas olmasından bəhs edilir.

Şəkil 1-də bu əfsanədən bir parça təqdim olunub; orada deyilir: **u$_4$-ba zi-ud-sud-ra$_2$ lu-gal-am$_2$ mu nig$_2$-gilim-ma numun lu$_2$-lu$_2$ uru-ag kur-bal kur dilmun-na$^{ki}$ $^{d}$Utu mu-un-ti-eš** "O vaxt ki, Ziusudra hökmdar oldu, meyvələrin adının [və] insanlığın himayədarı [kimi] növbəsi çatanda ölkəyə, Dilmun ölkəsinə, günəşin doğduğu [yerə göndərildi]." [33, pp.9-70; 19, p.69-72; 2, s.187-193].



Şəkil 1. Tufan haqqında Şumer əfsanəsindən fraqment

Bir qədər sonra Ziusudranın, atası Şuruppakın və babası Ubartutunun adları şumerlilərin tufanaqədərki hökmdar siyahılarının Herbert Veld-Blandelin şəxsi kolleksiyasında saxlanan W.B-62 şifrəli variantında (Əl-Xibbədən (qədim Zimbir, sonralar Sippar şəhəri) tapılmıpşdır, sonralar Oxfordun Aşmoleon muzeyinə bağışlanmışdır) oxundu (bax: şəkil 2). Mənbələrdə bu adlardan birincisi **zi-UD.-sud-du** (və ya **zi-u$_4$-sud-ra$_2$**), ikinci isim – **SU.KUR.RU.** (bəzi hallarda **SU.KUR.LAM.**) ideoqramları, üçüncü isim – **u-bar-du-du** (və ya **u-bara-tu$_3$-tu$_3$**) formalarında qeydə alınıb.



Şəkil 2. W.B-62. [31, pl., VIb].

Eyni vaxtda H.Veld-Blandelin şəxsi kolleksiyasında saxlanan digər siyahıda (W.B-444) Ubartutunun adı oxundu. Bu siyahının tufanla bağlı hissəsində (bax: şəkil 3) deyilir: "Zimbir şəhərindən sonra hakimiyyət Şuruppak şəhərinə verildi. Şuruppakda Ubartutu hökmdar oldu, 18600 il hökmranlıq etdi. [Cəmi:] 5 şəhərdə 8 hökmdar. Tufan onların üzərindən keçəndən sonra hökmranlıq göydən yerə endirildi, hakimiyyət Kiş şəhərinə keçdi." [26, pp. 74-77].



Şəkil 3. W.B-444 [31, pl., I].

Əl-Xibbədən və Xafacdan (qədim Tutub; Diyala çayı hövzəsində) tapılan digər siyahılarda (Nip. 3195 və UCBC 9-1819 inventar nömrəli gil tabletlər) Şuruppak şəhərinin tufanaqədərki hökmdarlarının qeydə alındığı hissə dağılıb. Bu səbəbdən həmin siyahılara Şuruppak hökmdarlarının daxil edilib, edilmədiklərini bilmirik [22, pp.43-50; 23, pp.57-58]. Onların isimləri Selevkilər dövründə (e.ə. IV-III əsrlərin qovşağında) tərtib olunmuş "Tufanaqədərki müdriklərin siyahısı"na da ("W-20030.7" şriftli mətn) düşməyib [16, c.223].

W.B-62 və W.B-444 əlyazmalarının məlumatları Selevki hökmdarı Antiox I Soterin sifarişi ilə Babilistanın tarixini yunan dilində qələmə almış Belruşa da (=Beros; e.ə. 345-275) məlum idi. Berosun əsərinin orijinal variantı bizə gəlib çatmayıb. Onun yazdıqları VIII-IX əsrlərdə yaşamış Georgi Sinkellin əsəri vasitəsilə dövrümüzə çatmışdır [19, p.82-83]. Hər üç mənbənin məlumatlarında xeyli fərqlər nəzərə çarpır (bax: cədvəl 1). Məsələn, Şumer əfsanəsində tufanın xəbərçisi Ea, Berosun əsərində Kronusdur (yunanca "Zaman"). Şumer ənənəsində tufanın 6 gün və 6 gecə, Berosun əsərində 7 gün və 7 gecə davam etdiyi bildirilir.

Şumerlilərin siyasi hegemonluğu dövründə daşqının baş verməsini təsdiq edən digər ikinci dərəcəkli mənbələr də mövcuddur. Məsələn, "Gilqameş, Enkidu və yeraltı dünya" əfsanəsinin 111-114-cü sətirlərində deyilir: "Hökmda-

rın qayığının önündə sular canavar kimi hər şeyi udur, Amankinin (su tanrısı Eanın təxəllüsü) qayığının arxasında sular aslan kimi kükrəyir" [5, c.218]. Bu geniş ifadə daşqının tanrılar üçün də problem yaratdığına işarə edir.

Şumer tufanının əfsanəvi qəhrəmanı Ubartutu, eləcə də oğlu Şuruppak "Şuruppakın nəsihətləri" adlı bədii-didaktik əsərdə də xatırlanırlar. Bu əsərin 4 nüsxəsi mövcuddur, Abu-Salabihdən (qədim Keş şəhəri) tapılan ən qədim nüsxə təqribən e.ə. 2580-ci ildə yazılıb. Lakin heç bir nüsxədə tufandan bəhs olunmur.

Babillilərin dünya tufanı haqqında mifik təsəvvürləri şərti olaraq "Gilqameş haqqında dastan" adı ilə tanınan bədii əsərdə əksini tapıb. Qeyd etmək lazımdır ki, I Uruk sülaləsinin beşinci hökmdarı olan Gilqameş Şumer bədii-mifoloji ədəbiyyatının populyar personajlarından idi. Onun şərəfinə 6 müstəqil, bir-biri ilə süjet bağlılığı olmayan 5 əfsanə yaradılmışdır, lakin onların heç birində Gilqameşin tufanla birbaşa bağlılığına işarə yoxdur. Babil mirzələri Gilqameş haqqında mövcud olan Şumer əfsanələri əsasında ümumiləşdirici epopeya yaradaraq sonuna dünya daşqını haqqında əfsanəni daxil etmişlər. E.ə. II minilliyin ikinci yarısında bu Babil əfsanəsi hurri, het və elam dillərinə tərcümə olunmuşdur. Maraqlıdır ki, elamdilli variantın fraqmentləri Qərbi Azərbaycandan, Sərdarabaddan (indikiArmavir, Urartu şəhəri Arqiştihinili) tapılmışdır

Babillilərin dünya daşqını haqqında mifoloji təsəvvürləri "Atraxasis" ("Üstün zəkalı") adlı digər, tamamilə müstəqil bədii əsərdə də əksini tapıb. İki əlyazma ilə təmsil olunan bu əsərdə tufanın 7 gün, 7 gecə davam etdiyi bildirilir. Dənizlər tanrısı Eanın məsləhəti ilə Atraxasis nəhəng gəmi düzəldir, ailə üzvlərini, sənətkarları, heyvanları yığaraq yaşadığı yerdən (şəhərin adı göstərilmir) uzaqlaşır, lakin harada xilas tapdığı haqqında heç nə deyilmir [19, pp.58-69].

**Tufanaqədərki hökmdarlar və xronologiya problemləri**.

Yazılı tarixi ənənəyə görə şumerlilərin siyasi təşkilatlanması tufana qədər mövcud olmuş şəhər-dövlətlərin əfsanələşmiş tarixindən başlayır. Şumerlilərin mifoloji təsəvvürünə görə Səma tanrısı An yeri və göyü yaradandan sonra ilk beş şəhəri tanrılar arasında paylamışdır; Eridu (indiki Abu-Şahrain) Nudimmuda (=Yer tanrısı Enki), Bad-tibira ("Misgərlər qalası", indiki Təll-əl-Mədain) Lulala (?), Larak (yeri müəyyən olunmayıb) Hendur-bil-saqa (və ya Pabil-saq), Sippar (indiki Təll-abu-Xabba) Utuya, Şuruppak tanrı Şuruppaka verilmişdir [2, s. 190]. Şumerlilərin tarixi ənənəsinə görə növbəti mərhələdə bu 5 şəhərdə (bir varianta görə Larsa altıncı şəhər olmuşdur) dövlət idarəçilik sistemi yaranmışdır.

Cədvəl 1.

| № | Şəhərlər və hökmdarlar (W.B.-444) | Şəhərlər və hökmdarlar (W.B.-62) | Şəhərlər və hökmdarlar (Berosa görə) |
|---|---|---|---|
| 1 | Eriduda Alulim | Eriduda Alulim | Babildə Alaros |
| 2 | Eriduda Alagar | Eriduda Alaqar | Babildə Alaparos |
| 3 | Badtibirada Enmenluanna | Larsada […]-kidunnu | Pautibiblonda Amelon |
| 4 | Badtibirada Enmenqalanna | Larsada […]-ukku (?) | Pautibiblonda Ammenon |
| 5 | Badtibirada Dumuzi | Badtibirada Dumuzi | Pautibiblonda Meqalaros |
| 6 | Larakda Ensibzianna | Badtibirada Enmenluanna | Pautibiblonda Daonos |
| 7 | Zimbirdə Enmenduranna | Larakda Ensibzianna<br>Zimbirdə Enmenduranna | Sipparda Euodoraxos<br>Laranxda Amempsinos |
| 8 | Şuruppakda Ubartutu | Şuruppakda Şuruppak (Ubartutunun oğlu), Ziusudra (Şuruppakın oğlu) | Şuruppakda Otiartes<br>Şuruppakda Xisutros |

Siyahılara əsasən demək olar ki, Bad-tibira şəhərində Şumerin dövlətçilik tarixi üçün həlledici olan yeni bir ənənənin təməli qoyulur; icmanın dini lideri şəhər başçısına çevrildiyindən hömkdarların isimləri qarşısına **EN** (şumercə "ali kahin") titulu əlavə olunur. Bad-tibiranın hakimi "çoban" Dumuzi ilahə İnannanın həyat yoldaşı olduğundan və ilahiləşdirildiyindən onun isminə bu titulun əlavə olunmasına ehtiyac qalmamışdır. Enme(n)duranki babillilərin təsəvvüründə lekanomantiyanın (su ilə falabaxma) və hepataskopiyanın (qara ciyərin vəziyyətinə görə falabaxma) banisi olmuşdur.

W.B-444 əlyazmasında **lugal-am$_3$** ("hökmdar oldu" ifadəsi adətən yeni sülalələrin baniləri üçün işlədilib. Maraqlıdır ki, bu ifadə tufanaqədərki xronikada yalnız Enmendurannaya (Sipparda) və Ubartutuya (Şuruppakda) tətbiq olunub [26, pp.29, 74-77]. Lakin tarixi ənənə Sippardakı sülalənin digər nümayəndələri haqqında heç məlumat saxlamayıb. Bad-tibira və Larak şəhərlərinin ilk hökmdarlarına "hökmdar oldu" ifadəsinin tətbiq olunmamasının səbəb həmin icmalarda ali dini liderlərin hakimiyyətinin irsi yolla ötürülmədiyi ola bilərdi.

Şumerlilərin tarixi ənənəsini əks etdirən mənbələrdə dünya daşqınının qəhrəmanı Ziusudra Ubartutunun (bir mənbədə Şuruppak adlı şəxsin) oğlu və Şuruppak şəhərinin hökmdarı kimi təqdim olunur. Bu mənbələrdə Ziusudranın 36000 və ya 64800 il, atasının isə 18600 və ya 28800 il hakimiyyətdə olduğu bildirilir [30, pp.2-3, pls., I, VI; 26, pp.74-77]. Ümumiyyətlə, tufanaqədərki bütün hökmdarların hakimiyyət müddəti astronomik rəqəmələrlə (72000-10800 il arası) ifadə olunub; bunun səbəbi müəmma olaraq qalır.

Ziusudra əvvəllər yaşadığı şəhərdə kahin kimi (şumercə: **gudu$_4$ abzu** "məbəd xidmətçisi, müdrik ağsaqqal") fəaliyyət göstərmişdir. **gudu$_4$** ideoqramı; "cadu" sözünün praformasıdır; akkadca qarşılığı **pašišu** [18, pp.253-255]). Babilistanın siyasi-mədəni təsiri ilə əlaqədar "paşişu" adlanan kahin zümrəsi e.ə. I minilliyin ortalarına qədər Elamda da mövcud olmuşdur. Məsələn, e.ə. VII əsrdə Elamın paytaxtı Suzda Şutruru adlı şəxs **bašišu riša** ("paşişuların başçısı") titulunu daşıyırdı [28, № 74, § 13]. Şumer ənənəsindən fərqli olaraq, əfsanənin Babil variantında Utnapiştim hətta "şuruppaklı adam" kimi (**amēlu šu-ri-ip-pa-ku-u$_2$**) göstərilir və Şuruppakın yox, Ubartutunun (teofor mənşəli isimdir: "Tanrı Tutunun (tanrı Eanın oğlu) himayəsində") oğlu kimi təqdim edilir. Analoji hal ilə I Uruk sülaləsinin ilk hökmdarlarının geneologiyasının təqdimatında qarşılaşırıq. Belə ki, Şumer hökmdar siyahısına görə bu sülalənin ilk hökmdarı Meskiaqqaşer Günəş tanrısı Utunun oğlu idi, Mekiaqqaşerdən sonra hakimiyyət oğlu Enmerkara keçmişdir [26, pp.84-87]. Şumer ədəbi ənənəsində isə Meskiaqqaşer və Enmerkar Günəş tanrısı Utunun oğulları kimi göstərilir. Görünür, Şuruppakla Ziusudra, eləcə də Meskiaqqaşerlə Enmerkar arasında ata ilə oğul arasında olduğu qədər böyük yaş fərqi var idi.

Tarixi və mifoloji ənənəyə hopan informasiyaları vahid rakursdan nəzərdən keçirdikdə Şumerdəki daşqınların vaxtını, təqribi də olsa, müəyyən etmək olur. Şumer eposlarında Uruk və Aratta şəhər-dövlətləri arasında vaxtı ilə mövcud olmuş diplomatik əlaqələrin bərpasından bəhs olunur. Cənubi Urmiya hövzəsində, yerli əhalinin "Aratta" adlandırdığı strateji əhəmiyyətli yerdə şumerlilər hələ e.ə. IV minilliyin sonlarında ticari koloniyalarını qurmuşlar. Analoji koloniyalar Uruk arxeoloji mədəniyyətinin sonlarında Suriyada (Həbibə-Kəbirə və Cəbəl-Aruda), Xuzistanda (Suz və Çoğa-Miş), Luristanda (Qodintəpə) və digər bölgələrdə də fəaliyyət göstərirdi. "Luqalbanda və Hurrum dağı" adlı Şumer dastanında Uruk şəhərindən (indiki İraqda Varka, Bibliyada Erex) Arattaya gedən yollardan birinin müasir İraqın Süleymaniyyə şəhəri yaxınlığından keçərək Urmiya gölü hövzəsindəki ərazilərə istiqamətləndiyi bildirilir. Bu yolun davamı "Lulubi dağlarından" (**kur-ra lu$_5$-lu$_5$-bi-a$^{ki}$**) keçirdi [4, pp.63, 138-139]. "Enmerkar və Aratta hökmdarı" eposunda isə Xuzistanın qərbindən keçən ikinci marşrut haqqında məlumat verilir. Eposun 572-577-ci sətirlərində deyilir: **a-ma-ru-ka gub-ba-me-eš a$_2$-a-mu-ru ba-ur$_3$-ra-ta $^{d}$Inanna nin-kur-kur-ra-ke$_4$ nam-lugal ki-ag$_2$ $^{d}$Dumu-zid-da-ke$_4$ a-nam-til$_3$-la-ka mu-un-ne-ne su$_3$-su$_3$ gu$_2$ ka-lam-ma-ka giš (?) mu-un-ne-en-gal$_2$** "tufanın ortasında qalanlar daşqın başlayandan sonra ilahə İnanna – bütün ölkələrin sahibi, tanrı Dumuzinin sevimlisi – onlara həyat suyu səpdi və bütün Şumerdə ağacları cücərməyə məcbur etdi" [11, c.203-204, 219, 225). Bu ifadəyə əsasən

güman etmək olar ki, Enmerkarın qasidi Luqalbanda Arattaya getmək üçün daşqın səbəbindən istifadəyə yararsız olan ənənəvi şimal marşrutundan yox, Xuzistanın dağlarından keçən şimal-şərq marşrutundan istifadə etmək məcburiyyətində qalmışdır [4, c. 3-13].

Enmerkar Uruk şəhərinin ilk sülaləsinin ikinci hökmdarı olmuşdur. Şumer hökmdar siyahılarının W.B-444 nüsxəsində onun 420 il hakimiyyətdə olduğu bildirilir [26, pp.86-87]. “Luqalbanda və Anzud quşu” eposunda onun dilindən belə ifadə işlədilir: “50 il boyunca kanallar çəkdim, məbədlər inşa etdim, əkin-biçinlə məşğul oldum, 50 il boyunca çalışdım. Çörəyin nə olduğunu bilməyən Martu ölkəsi sakinlərinin ölkəmin şimalına və cənubuna hücumuna qarşı quş ovlayanın toru kimi çöl boyunca divar ucalır. Lakin artıq taqətim tükənib.” [39, pp.150-151, 154-155]. Martu ölkəsi sakinlərinin, yəni qərbi sami mənşəli əhalinin Mesopotamiyanın cənubunda qeydə alınmaları W.B-444 nüsxəsi ilə də təsdiqini tapır. Həmin mənbədə Kiş şəhərinin I sülaləsinin şumermənşəli adlar daşıyan nümayəndələrinin ardınca, 20, 21-ci sırada 2 samimənşəli isim – İlku, İltasadum – göstərilir. Ədəbi və tarixi ənənənin hər iki məlumatını üzvi şəkildə birləşdirərək, T.Yakobsen belə qənaətə gəlmişdir ki, 50 il hakimiyyətdə olan Enmerkar İlku və İltasadumun, bizə görə həm də Ziusudranın, müasiri olmuşdur [26, pp.82-83, table I].

Uruk şəhərinin I sülaləsinin nümayəndələrinin siyahısında Enmerkardan sonra Luqalbandanın, “balıqçı” Dumuzinin və Gilqameşin isimləri sadalanır [26, pp.86-91]. Xronoloji baxımdan onlar Kiş şəhərinin I sülaləsinin son iki hökmdarının (Enmebaraqesi və Aqqa) müasirləri olmaqla I Erkən sülalələr dövrünün (e.ə. 2750-2615-ci illər) son nümayəndələri sayılırlar. Şumer ədəbi ənənəsinə görə Gilqameş I Kiş sülaləsinin sonuncu hökmdarları Enmebaraqqesi və onun oğlu Aqqa (və ya Aka) ilə döyüş meydanında qarşılaşmışdır. Hər üçünün də tarixi şəxsiyyət olması, əlavə olaraq, Diyala hövzəsində tapılmış saxsı qab qırıqları üzərindəki yazılar və Tummal məbədinin bərpasından bəhs edən mətnlə təsdiq olunur [40, p.163; 32, pp.198-202]. Maraqlıdır ki, Gilqameşlə Aqqanın döyüşündən bəhs edən bədii əsərdə bu hərbi qarşıdurmada Gilqameşin oğlunun da (hökmdar siyahısında varisi Urnunqal) iştirak etdiyi bildirilir [10, c.261, 264]. Döyüş ərəfəsində Uruk şəhərinin ali məclisi baş kahin olan Gilqameşə baş komandan səlahiyyətlərinin icrası üçün, əlavə olaraq, “hökmdar” (şumercə **lugal**) titulu vermişdi. Deməli, Aqqa ilə döyüşdə Gilqameşin azından 50 yaşı var idi. Əgər iddia olunduğu kimi bu döyüş həqiqətən də e.ə. 2615-ci ildə (I Erkən sülalələr dövrünün başa çatması) baş veribsə [9, c.162, 166-167] Gilqameş babası yaşındakı Ziusudra ilə e.ə. 2690-2680-ci illərdə görüşə bilərdi və təbiidir ki, Şuruppak şəhərini viran qoyan daşqın bu görüşdən 40-50 il əvvəl baş verməli idi.

Deyilənləri nəzərə alaraq, güman etmək olar ki, Şumer tarixi ənənəsində Ziusudranın şahidi olduğu dünya daşqını Enmerkarın zamanında baş vermiş tufanın eynidir. Faktiki olaraq, Gilqameş Utnapiştimin (=Ziusudra) nəvəsi yaşında olduğundan onların görüşdüyünü (Babil əfsanəsinə görə) istisna etmək olmaz. Babil ənənəsinə görə Gilqameş və onu Dilmun adasına aparan qayıqçı Urşa-nabi Utnapiştimi, yəni dünya daşqını zamanı bəşəriyyətin xilaskarını, canlı görən sonuncu şəxslər olmuşlar. Bu səbəbdən bir əsr sonra Şuruppak sənədlərində Gilqameşin və onun sələfi (mifik ənənəyə görə atası) “qulyabani” (şumercə **lil$_2$-la$_2$**) Luqalbandanın, əsatirlərdə isə anası Ninsunun ilahiləşdirilməsi normal qarşılanmalıdır [20, ss. 11, 14, text VAT 12760; 32, p.198).

Əgər L.Vullinin Urda aşkara çıxardığı daşqın Übeyd arxeoloji mədəniyyətini (yazıyaqədərki mərhələ) məhv etmişsə, I Erkən sülalələr dövründə baş vermiş tufan Cəmdət-Nəsr arxeoloji mədəniyyətinin süqutuna səbəb olmuşdur. Maraqlıdır ki, “daşqın”, “tufan” işarəsi (şumercə **URU$_2$** ideoqramı; **amaru**=akkadca **abubum**) Mesopotamiyanın yazı mədəniyyətində ilk dəfə Cəmdət-Nəsr dövrü (e.ə. 2800) sənədlərində qeydə alınıb və Şuruppakın təsərrüfat sənədlərində də işlənir [29, № 43]. Lakin bu sənədlərdə deyilən işarə “icma”, “yaşayış məskəni” anlamında işlənir. İşarənin ikimənalı olmasına səbəb ilk yaşayış məntəqələrinin taleyinin daşqından, tufandan asılı olmasıdır. Şumer tarixi və mifoloji ənənəsi Şuruppakda siyasi elitanın süqutu ilə nəticələnən daşqından sonra baş vermiş digər analoji təbii fəlakət haqqında heç bir informasiya saxlamamışdır. Görünür, I Er-

kən sülalələr dövründə qurulan kanallar, suötürücü arxlar, drenaj sistremləri o dərəcədə mükəmməl vəziyyətə gətirilmişdir ki, Dəclənin və Fəratın daşması şəhərlərin infrastrukturuna ciddi ziyan vura bilməmişdi.

Təll-Farada aparılan arxeoloji qazıntılar tufandan sonra Şuruppakda təsərrüfatın və inzibati infrastrukturun tədricən normallaşdığını göstərir. Şumerin dövlətçilik tarixinin II Erkən sülalələr dövründə Şuruppak şəhəri tufandan əvvəlki funksiyasını davam etdirirdi. Məhz Şuruppak sənədlərində ilk dəfə olaraq cənub şəhərlərinin hərbi-siyasi birliyini ifadə edən **KI.EN.GI.** (sonralar bu ideoqramlarla bütün Şumer ölkəsinin cənub hissəsi ifadə olunurdu) coğrafi termini ilə qarşılaşırıq [12, c.83]. E.ə. XXVI əsrdə Şuruppak cənub şəhərlərinin birliyinin iqtisadi-administrativ kordinatoru funksiyasını icra edirdi. E.ə. III minilliyin ortalarında Şuruppakın sahəsi 100 hektara çatırdı və orada təqribən 30 minə yaxın əhali yaşayırdı. Məbəd və icma təsərrüfatlarının fəaliyyətini əks etdirən 840 uçot sənədi aşkara çıxarılıb, lakin hər hansı dini tikilinin qalıqlarına rast gəlinməyib. 50-yə qədər qəbir tədqiq olunub; ölülər, qonşu şəhərlərdə olduğu kimi, evlərin döşəməsi altında, ya gil tabutlarda, ya da həsirə bükülmüş vəziyyətdə dəfn olunurdular. Məzarlardan daş, gil və mis qablar, balıqqulağından, hətta lacivərddən (Arattadan gətirilirdi) hazırlanmış muncuqlar, möhürlər, gümüş üzük və sırğalar və digər əşyalar tapılmışdır. Müqayisə üçün deyək ki, üç əsr əvvəl dağıdıcı tufana məruz qalan qonşu Ur şəhərində yalnız e.ə. XXV əsrdə belə zəngin qəbirlər inşa edilirdi [11, c.77-78]. Bütün bunlar onu deməyə əsas verir ki, Şuruppak şəhərini viran qoyan daşqın miqyasına görə Ur şəhərinin məruz qaldığı tufandan zəif olmuşdur və bu səbəbdən Şuruppakın sakinləri şəhərin infrastrukturunu qısa vaxtda bərpa edə bilmişlər. E.ə. II minilliyin əvvəllərində Şuruppak şəhəri birdəfəlik tərk edildiyindən daşqınla bağlı xatirələrin təfərrüatları unudulmuş və babilli mirzələrin yaradıcılığında bu olay daha da mifləşmişdi.

**Tufandan qurtuluş məkanı**.

Əfsanənin Şumer variantı xeyli zədəli olduğundan dünya daşqınının nə ilə nəticələndiyi, insanların harada xilas tapdığı haqqında suallar cavabsız qalır. "Gilqameş haqqında əfsanə"nin Babil variantında Şuruppak şəhərinin kahini Utnapiştimin Nisir dağında (**šadū KUR ni-sir** (hərfən: "Nisir ölkəsinin dağı") xilas olduğundan və buna görə də ölməzlik qazandığından bəhs olunur. Nisir dağı eposda 4 dəfə (XI gil lövhənin 32-36-cı sətirlərində) xatırlanır: "Gəmi Nisir dağında dayandı. Nisir dağı gəmini saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini bir gün, iki gün saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini üç gün, dörd gün saxladı, tərpənməyə qoymadı. Nisir dağı gəmini beş gün, altı gün saxladı, tərpənməyə qoymadı" [7, c.76].

Şuruppak şəhəri Fəratın sahilində yerləşirdi. Təbiidir ki, bu çay daşdığından Ziusudranın gəmisi Dəclə vasitəsilə Zaqros silsiləsi istiqamətinə hərəkət edərək Mesopotamiyanın hüdudlarını tərk etmişdir. Nisir dağı Mesopotamia sakinlərinə yaxşı məlum idi. XIX əsrin ortalarında Aşşur hökmdarı Aşşurbanapalın kitabxanasından bir kitabə (Qoyuncuq kolleksiyasında "K. 4415" kataloq sıra sayı ilə tanınan coğrafi məntəqələr sözlüyü) tapılmışdır. Bu ilk mənbədə [34, № 51 R, 21-23-cü sətirlər] belə paralelliklə qarşılaşırıq: **KUR ni-şir** = **KUR qu-ti-i** "Nisir dağı – qutilərin dağı" (bax: şəkil 4-dəki avtoqrafik təsvirin I sətrinin sol tərəfi).



Şəkil 4. Qutilərin Nisir dağı "K. 4415" sözlüyündə

Aşşur hökmdarı II Aşşurnazirapalın e.ə. 881-ci ildə lullubi tayfasının məskunlaşdığı Zamua ölkəsinə işğalçı yürüşünü tərənnüm edən kitabəsində (bax: şəkil 5) deyilir: "Babite şəhərindən çıxdım. Nisir dağına, hansını ki, Lullu ölkəsi[nin sakinləri] "Kinipa dağı" adlandırırlar, yaxınlaşdım. Bunasi şəhərini, möhkəm şəhəri, hansı ki, Muzasina[ya məxsusdur], ətrafındakı 30 məskənlə bir-bir tutdum. [Onun] döyüşçülər[i] qaçıb dağa sığındı. Aşşurnazirapal qəhrəman quş kimi izlədi onları. Dağ quşları kimi Nisir dağında [onların] adamlarından 326-sını öldürüb cəsədlərini [ətrafa] yaydı? Onun atlarını ələ keçirdi. Digər [döyüşçülərinin cəsədləri ilə] dağların yamaclarını toza bürüdü? Bütün 7 ayrı-ayrı şəhəri, hansılar ki, Nisir dağının ortasında idi [və] möhkəmləndirilmişdi, zəbt etdi, əsgərlərini?..." [1, s.23].

Lullubilərin məskunlaşdığı Zamua ölkəsinin qərbində yerləşən Nisir dağı II Aşşurnazirapalın salnamələrində 6 dəfə xatırlansa da, dəqiq yeri müəyyənləşdirilməyib. Bu salnamələrdən məlum olur ki, Nisir Babite aşırımından (Altın-Köprüdən Süleymaniyyəyə gedən yolun üstündəki Dərbəndi-Bazian keçidi) şimal-şərq istiqamətində yerləşən ilk dağ idi. XIX əsrin sonlarından tədqiqatçıların bir qismi bu dağı indiki Xalxalandağ və ya Tokmadağ rayonunda (İraqda, Altın-Köprüdən cənub-şərqdə), digərləri Sidikan yaxınlığında (Erbillə Rəvandüz arasında) lokalizə etmişlər. A. Billerbek Nisir dağını İraqın şərqindəki Pir-Ömər-Qudrun zirvəsi (Süleymaniyyədən 40 km şimal-qərbdəki Ulubulaq adlanan yerdə; hündürlüyü 2743 m) ilə eyniləşdirmişdir; hazırda bu fikrin tərəfdarları üstünlük təşkil edir [37, ss.272-273; 36, p.99; 25, pp.201-203; 27, p.288, not.353]. Bu ehtimallardan hansı birinin düz olmasından asılı olmayaraq, şübhə doğurmayan odur ki, Mesopotamianın akkaddilli sakinləri (aşşurlular və babillilər) şifahi ənənələrində yaşayan bu dağı əcdadlarının xilas yeri hesab edirdilər. Bu yerlə əlaqədar II Aşşurnazirapalın salnaməsində (şəkil 4-dəki avtoqrafik təsvirin 1-2-ci sətirləri) deyilir: **šadū ni-sir mâtu lu-ul-lu šadū ki-ni-ba i-qa-bu-šu-ni aq-ti-ri-ib**: "Lullu ölkəsi [əhalisinin] "Kinipa" adlandırdığı Nisir dağı" [24, pp.203-204, text A.O.101; 1, s.23]. Bununla belə, həmin mənbədə deyilir ki, Nisir dağı yaxınlığında yerləşən Larbusa şəhərini "əvvəllər heç kim görməmişdir." Görünür, babillilərdən fərqli olaraq, aşşurluların tarixi yaddaşında Kinipa/Nisir dağı dünya daşqınından qurtuluş yeri kimi iz qoymamışdır. Kinipa dağı lullubilərin Zamua ölkəsi ilə quti məskənlərinin sərhəddində, hər iki etnosun kompakt yaşadığı ərazidə, yerləşirdi. Təbiidir ki, şumerlilərin təsəvvüründə Ziusudranın gəmisinin xilas tapdığı dağın adı Kinipa idi. Tufana həsr olunmuş Şumer əfsanəsində dağın Akkad dilindəki adı – Nisir – yazıla bilməzdi, çünki e.ə. III minilliyin əvvəllərində Zaqros silsiləsində hər hansı zirvənin samimənşəli ad daşıması real görünmür.



Şəkil 5. Nisir dağı II Aşşurnazirapalın salnaməsində.

Mixi yazı sistemində -**sir**- işarəsinin həm də -**muš**- hesacını ifadə etdiyini nəzərə alaraq, son zamanlar bu dağın adını "Nimuş" hesab edirlər. Lakin bu fikir təsdiqini tapmır. İlk dəfə F.Deliç "Nisir" oronimini Akkad dilinin leksikonundakı **nasāru** ("qorumaq", "hifz etmək") feilinə bağlamışdır; bu izah əfsanənin mahiyyəti ilə həmahəng səslənir [21, s.105]. Akkad dilində bu feildən törəyən **nisirtu** "saxlanc yeri" termini də işlənirdi [17, p. 39, 276-279]. Lakin "Nisir" adı lullubilərin Kinipa oroniminin Akkad dilinə tərcüməsi hesab oluna bilməz. "Kinipa" oroniminin iki komponentdən yarandığını söyləmək olar. Oronimin birinci komponent (**kin**-) Urmiya və Van gölləri hövzəsinin qədim yer adlarında nəzərə çarpır: Kindari, Kua-Kindar, Kinablila, Kinabu, Kinahhi, Kinaki, Kinaştania, Kinqikanqi, Kinhuhtu, Kinqialkaziş, Kinihamanu, Kindiqiazu, Kinqiştilensah, Kindutauş və s. Bu toponimlərdəki bəzi komponentlərin lullubi dilinə aid olduğu şübhəsizdir. Lullubilərin **kin** termini **qinnu** ("mağara") formasında Akkad leksikonuna keçmişdir [13, c. 173]. Kinipa oroniminin ikinci komponenti (-**ipa** və ya -**eba**; mixi yazı sistemində samit səslərin kar və cingiltili növləri arasında işarə fərqi qoyulmurdu) Urartu mətnlərində xatırlanan **eba-ni** "vilayət" (-**ni** sonluğu urartuluların dilində lokativ formantdır) və türkdilli xalqların, o cümlədən azərbaycanlıların işlətdiyi *oba* sözünə uyğundur. Bu termin mixi yazılı mətnlərdə xatırlanan -**b**/-**p** sonluqlu toponimlərdə (Kinipa, Qurrusupa, Subi/Sunbi, Salaniba, Kukiaba, Tunube və s.), eləcə də müasir Azərbaycanın, Türkiyənin (Yüksekova, Güzelova, Yalova), Gürcüstanın (Qardabani, Katxubani) yer adlarında nəzərə çarpır.

Necə oldu ki, dünya daşqını zamanı insanlığın xilas olduğu bu dağ yəhudi və İslam dini təsəvvürlərində tamamilə fərqli məkanlara bağlandı?

E.ə. 737-ci ildə Madaya hərbi yürüşdən sonra III Tiqlatpalasarın göstərişilə yerli sakinlərin deportasiyasına start verilir. O zaman icmalararası münasibətləri pozmaqla gələcəkdə Aşşur dövlətinə qarşı gözlənilən iğtişaşların qarşısını almaq xarici siyasətin vacib istiqamətinə çevrilmişdi. Şəkil 5-də təsviri verilən fraqmentdə deportasiyalardan biri haqqında belə məlumat verilir:

"...qutilərin ölkəsindən, Sangibutu ölkəsindən əsirləri, Dur-Enlil şəhərinin 1200 sakinini, 6208 nakkablını, budiləri, Simirra, Arka, Usnuu şəhərlərindən, hansılar ki, dənizin sahilindədir, köcürtdüm. 588 budilini, Duna şəhərinin sakinlərini, 352 bilallını, 544 banitlini, 380 ..., 460 sanqiilulunu, Dur-Enlil şəhərinin sakinlərini, 457 qutili əsiri Bit-Sangibutudan Tuimmi şəhərinə köcürtdüm. [Daha] 555 qutili əsiri Bit-Sangibutudan Til-Karme şəhərinə göndərdim. Azad olan adamlara Aşşurdan hökmranlıq etdim..." [38, p.46, 68].

Sürgün olunanların yerinə II Sarqonun zamanında (e.ə. 722-705) İran yaylasına, onun oğlu Sinahheribin zamanında (eə. 705-681) Babilistana minlərlə yəhudi köçürülmüşdür. Əfsanələşmiş dünya daşqını haqqındakı olaylar elə o vaxtlar birbaşa təmas nəticəsində yəhudilərə, onlardan isə ərəblərə ötürülmüşdür. Yəhudi dini ənənəsini əks etdirən Əhdi-ətiqin "Varlıq" hissəsində daşqın zamanı insanlığın xilas olduğu yer **'RRT** adlanır [6, № 86:2]. Coğrafi mövqeyini və landşaft xüsusiyyətlərini nəzərə alaraq sonrakı nəsillər bu yeri Ön Asiyanan Dəmavənddən sonra ikinci uca zirvəsi olan Ağrıdağla (Türkiyənin şimal-şərqində; hündürlüyü 5137 m.) eyniləşdirmişlər. Eyniləşdirmənin sübutu üçün bu dağın qeyri-müsəlman ("Ararat") adı əlavə arqument kimi göstərilir. Hesab olunur ki, "Ararat" adı dağın yerləşdiyi qədim Biayni dövlətinə aşşurluların (şimal-şərqi samilərin) verdiyi **"**Urartu**"** terminindən törəmədir.

II Aşşurnazirapalın salnamələrində Dəclə ilə onun qolu olan Yuxarı Zab çayı arasındakı yaylada, qutilərin ölkəsi Kutmuhi ilə qonşuluqda yerləşən Habhu çarlığının hüdudları daxilində Arardi adlı dağ xatırlanır [6, № 23]. İlkin mərhələdə biaynililərin tayfa ittifaqlarına qoşulmayan Habhu e.ə. IX əsrin sonunda Urartu dövlətinin tərkibinə qatılmışdı. Görünür, Arardi/Ararti Aşşur dövlətinin şimal-şərq sərhədlərinə ən yaxın Urartu dağı olduğundan, aşşurlular simvolik olaraq bu dağın adını biaynililərin ölkəsinə şamil etmişlər. Məsələn, hesab olunur ki, II Sardurinin salnaməsində qeyd olunmuş **LU$_2$ u$_2$-ru-ur-da-a-ni** ("Ururdalıların ölkəsi") ifadəsi ilə urartulular nəzərdə tutulmuşdur [15, c.19-22]. Deyilənləri nəzərə alaraq, hesab edirik ki, yəhudi dini ənənəsindəki **'RRT** adlanan dağı Habhudakı Arardi/Ararti oronimi ilə eyniləşdirmək lazımdır.

İslam ənənəsi (Qurani-Kərim, XI Surə, 46-cı ayə) dünya daşqını zamanı insanlığın xilaskarı olan Nuhun gəmisinin Cəbəl-Cudidə, yəni "Cudi" adlanan dağda dayandığını bildirir. İngilis şərqşünası Arçibald Henri Seysdən başlayaraq əfsanənin İslam variantının tarixi köklərini və əhatə etdiyi coğrafiyanı tədqiq edən bəzi Qərb alimləri bu dağı Türkiyədə, Çivridən 32 km cənub-şərqdə yerləşən Cudidağla (hündürlüyü 2100 m) eyniləşdirməyin tərəfdarı kimi çıxış etmişlər. Cudidə qələbə kitabəsini həkk etdirən Aşşur şahı Sinahheribin zamanında bu dağ hələ də köhnə adı ilə (Nibur) tanınırdı və onun ətrafında (mətndə "Kutmuhinin sərhəddində") Tumurra, Şarim, Halqidda, Kibşa, Esama, Kua və Kana kimi şəhərlər salınmışdır [31, § 295]. III Tiqlatpalasarın zamanında Aşşur dövlətinin tərkibinə qatılan Tumme (qutilərin sürgün olunduğu yerlərdən biri) vilayəti də bu bölgədə yerləşirdi. Samimənşəli Akkad dilinin orfoqrafiyasında **-q-** və **-k-** samitlərinin erkən orta əsrlərin ərəf orfoqrafiyasında **-c-** foneminə çevrildiyi qanunauyğunluğunu nəzərə alaraq "Cudi" oronimini qutilərin etnik adına bağlamışlar [37, ss.272-273].

Səmavi kitablarda tufan əfsanəsinin Anadolunun şərqinə bağlanmasının bir səbəbi də lullubilərə məxsus "Kinipa" dağ və "Kinabu" şəhər (Anadolunun şərqində, Tur-Abdin dağlıq bölgəsində [24, p.201]) adlarının fonetik bənzərliyi ola bilər. Lullubilərin bu bölgədə yayılmaları Het dövlətinin rəsmi sənədləri ilə təsdiq olunur [3, s.25, 34-35].

**Nəticə**. Göründüyü kimi, Ön Asiyada məskunlaşan xalqların əsrlər boyu yaşatdığı tarixi, ədəbi ənənə və mifoloji təfəkkür dünya daşqını haqqındakı əfsanənin xoşbəxt sonluğunu lullubilərin və qutilərin kompakt yaşadığı ərazilərə bağlayırdı. Dünya tufanının səmavi kitablarda (Tövratda, İncildə və Qurani-Kərimdə) yazılan və genetik baxımdan bir-birinə bağlı olan versiyası Mesopotamiya coğrafiyasında baş verən təbii fəlakətin təsviri olsa da, Şumer-Babil versiyasının təkrarı deyil, tamamilə müstəqil əfsanədir. Bu aşağıdakı arqumentlərlə əsaslandırılır.
1. Noah/Nuh həmvətənlərini köhnə inanclarından imtina edib, təkallahlığa səslədiyindən icmasının qəzəbi ilə qarşılaşmışdı, Ziusudra/Utnapiştim isə belə bir missiya ilə çıxış etmirdi. "Gilqameş haqqında epos"un Babil variantında tanrı Eanın tufandan xilas olmaq üçün gəmi düzəltməsinə cavab olaraq Utnapiştim deyir: **[muna]-mi lu-pu-ul ālu um-ma-nu u ši-bu-tum** "Şəhərə, qoşuna və ağsaqqallara nə deyəcəyəm" [7, XI, 35]. Deməli, Noahdan/Nuhdan fərqli olaraq, yaşadığı icma Utnapiştimlə hesablaşırdı.
2. Səmavi kitablarda bəşəriyyətin xilas yeri kimi Cudi-dağ (Türkiyənin şərqində, Şırnak vilayətində), Babil versiyasında isə Nisir (=Kinipa; İraqın şimal-şərqində, Zaqros silsiləsində) göstərilir.
3. Şumer-Babil əfsanələrində deyilir ki, xilaskarlıq missiyası müqabilində tanrılar Ziusudra/Utnapiştimə əbədi həyat bəxş edərək, Dilmun adasına göndərirlər [2, s.192-193]. Səmavi kitablarda isə Noahın/Nuhun əbədi həyatla mükafatlandırılması qeyd olunmayıb.
4. Tufanın qəhrəmanı Şumer-Babil əfsanələrində və səmavi kitablarda mahiyyətcə fərqli adlarla göstərilir. Elmi ədəbiyyatda **Zi-ud-sud-du** (və ya **Zi-u$_4$-sud-ra$_2$**) və **Ut-na-piš-ti-im** (yiyəlik halda; adlıq halda **Ut-na-piš-tu-um**) adları "[Uzaq] günlərin nəfəsini [tapan]" tərcümə olunduğu halda [9, c.473], Noah ismi "rahatlıq, hüzur" sözü ilə əlaqələndirilir. Adlardakı semantik yaxınlığı ismin **Na-ah-ma-u$_2$(?)-li-el** yazılış forması ilə ("Gilqameş haqqında epos"un hurri dilindəki variantında) əsaslandırmağa çalışmışlar [36, p.160-161].

Belə uyğunsuzluqların sayını artırmadan da görünür ki, mixi yazılı ədəbiyyata hopan dünya daşqını olayı səmavi kitablarda əksini tapan tufan hekayəsinin ideya qaynağı olsa da, prototipi sayıla bilməz. Onlar eyni coğrafi arealda, lakin müxtəlif vaxtlarda baş vermiş təbii fəlakətə həsr olunublar. Səmavi kitablara daxil olan tufan olayının təsvirinin prototipi yəhudi dini ənənəsinə bağlanır və bu təbii fəlakətin nə zaman baş verdiyi gələcəkdə aşkara çıxarılacaq tapıntılarla sübuta yetirilə bilər.

Yazıda əksini tapan ilk dünya daşqını Şumer cəmiyyətinin siyasi cəhətdən təşkilatlanmasında başlanğıc nöqtəsi – I Sülalələr dövrünə (e.ə 2750-2615) keçid – olmuşdur. Bu hadisə cəmiyyətin ictimai, iqtisadi və mədəni həyatında növbəti yüzilliklər üçün də prioritet istiqamətlərin müəyyənləşdirilməsinə zəmin hazırladı.

**Ədəbiyyat siyahısı**


1. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi Solmaz Qaşqay). Bakı, 2006.
2. Samuel Noah Kramer. Tarih Sümer'de başlar. Istanbul, 2017.
3. Taş İ., Adalı S. Çivi yazısı geleneginde Lullu halkı // Kubaba. Arkeoloji-Sanat tarihi-Tarih dergisi. İstanbul, 2015, Sayı 24, 18 aralık.
4. Алимирзоев А. Путь в Аратту // Tarix institutu. Elmi əsərlər, 2017, cild 68, c. 3-13.
5. Афанасьева В.К. От начала начал. Антология шумерской поэзии, Санкт-Петербург, 1997.
6. Дьяконов И.М. Ассиро-вавилонские источники по истории Урарту // Вестник древней истории, 1951, № 2, с.255-356.
7. Эпос о Гильгамеше («О все видавшем»). Перевод И.М. Дьяконова. Москва-Ленинград, 1961.
8. Вулли Л. Ур халдеев. Москва, 1961.
9. История древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Часть I. Месопотамия. (Под ред. Дьяконова И.М.). Москва,1983.
10. Канева И. Т. Шумерский героический эпос. Гильгамеш и Агга // Вестник древней истории, 1964, № 3, с.245-267.
11. Канева И. Т. Шумерский героический эпос. Транскрипции, перевод, комментарии и выводные статьи. Энмеркар и верховный жрец Аратты // Вестник древней истории, 1964, № 4, 191-225.
12. Козырева Н.В. Очерки по истории Южной Месопотамии эпохи ранней древности (VII тыс. до н.э.-середина II тыс. до н.э.). Санкт-Петербург, 2016.
13. Липин Л.А. Аккадский (вавилоно-ассирийский) язык. Выпуск II, Словарь. Ленинград, 1957.
14. Ллойд С. Археология Месопотамии. Москва, 1984.
15. Мещанинов И.И. Шураа и Убурдан в клинописных памятниках ванского бассейна // Доклады Российской Академии Наук. Москва, 1924, с.19-22.
16. Рол Д. Генезис цивилизации. Москва, 2003.
17. Chicago Assyrian Dictionary. 1980, Vol 11, N, Part II.
18. Chicago Assyrian Dictionary. 2005, Vol. 12.
19. Clay A.T. A Hebrew Deluge story in cuneiform and other epic fragments in the Pierpont Morgan Library. New Haven, 1922.
20. Deimel A. Schultexte aus Fara. Leipzig, 1923.
21. Delitzsch F. Wo lag das Paradies? Leipzig, 1881.
22. Finkelstein A. Antediluvian Kings: A University of California Tablets // Journal of Cuneiform Studies, 1963, Vol. 17, №2, pp.39-51.
23. Glassner J.-J. Mesopotamian Chronicles. Atlanta: Copiright Society of Biblical Literature, 2004.
24. Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millenium BC (1114-859 BC). University of Toronto Press, 1990.
25. Herzfeld E. The Persian Empire. Wiesbaden, 1968.
26. Jacobsen T. The Sumerian King List. Chicago, 1939.
27. Kozad A.M. The Beginnings of ancient Kurdistan (c. 2500-1500 BC): a historical and cultural syntesis. Leiden University, 2012.
28. König F.W. Die Elamische Königsinschriften. Graz: Selbstverlag, 1965.
29. Labat R. Manuel d'éigraphie Akkadienne (signes, syllabaires, ideogrammes). La $6^0$ edition, Paris, 1988.
30. Langdon S. Historical Inscriptions: Containing principally the Chronological Prism W.-B. 444. London: Oxford University Press, 1923.
31. Luckenbill D.D. Ancient Records of Assyria and Babylonia. New York: Greenwood Press publishers, Vol. II. Historical records of Assyria from Sargon to the end, 1968.
32. Michalowski P. A Man called Enmebaragesi / Literatir, politik, and Recht in Mesopotamien. Heidelberg, 2003, pp.198-205.
33. Poebel A. Historical and Grammatical Texts, Vol. IV, № 1. Philadelphia: Published by

the Department of Archaeology, University of Pennsylvania, 1914.

34. Rowlinson H. The Cuneiform inscriptions of Western Asia. Vol. II, London, 1862.

35. Schmidt E. Excavated at Fara, 1931. // The Philadelphia Museum Journal, 1931, Vol. XXII, № 3-4, pp.193-217+XXVII plates.

36. Speiser E.A. Mesopotamian Origins. The Basic Population of the Near East. Philadelphia, 1930.

37. Streck M. Das Gebiet der heutigen Landschaften Armenien, Kurdistan und Westpersien nach den babylonisch-assyrischen Keilinschriften // Zeitschrift für Assyriologia, 1901, Band XV, ss. ss.257-382.

38. Tadmor H., Yamada Sh.The Royal Inscriptions of the Neo-Assyrian Period. Vol. 1. The Royal İnscriptions of Tiglat-pileser III (744-727 BC) and Shalmaneser V (726-722 BC), Kings of Assyria. Winona Lake, Indiana, 2011.

39. Vansthiphout H.L. Epics of Sumerian Kings: The Matter of Aratta. Atlanta: Society of Biblical Literature. Copyright 2003.

40. Zaina F. The Urban Archaeology of Early Kish. Bolonia, Printed in Juli 2020.

## Summary

**Allahverdi Alimirzayev**

### The Flood in the historical and mythological imagination of the Sumerians

Considered a global natural disaster in human history, the Flood was a major turning point for the evolution of archaic societies. During excavations carried out in the 1920-1930s. British archaeologists under the leadership of L. Woolley in Tell-Muqayyar (ancient city of Ur), employees of the Pennsylvania Museum under the leadership of L. Weitlin and S. Langdon on the hills of Tell Uhaimir and Tell-Ingarra (ancient city of Kish), as well as German archaeologists under the leadership of E. Schmidt in Tell-Fara (ancient city of Shuruppak), it was confirmed that such natural disasters actually occurred in the basin of the Tigris and Euphrates rivers (ancient Sumer). This is evidenced by the presence between two ancient cultural deposits of a sterile layer covered with silt, the thickness of which varies from 3.0 to 2.7 m. It is assumed that floods in Kish and Shuruppak occurred at different intervals in the Early Dynastic period I (XXIX-XXVII centuries BC).

The Sumerian historical and literary-mythological tradition about the Flood has been studied in sufficient detail. Most of the written sources more than a century ago were collected and published by A. Clay. In 1893, in Niffar (the Sumerian religious center of Nippur), employees of the University of Pennsylvania found fragments of a clay tablet on which the legend of the flood was written; it was studied by A. Poebel and S.N. Kramer. The clay book was significantly damaged, so we don’t know what led to the flood and where people found salvation. Sources reflecting the historical tradition of the Sumerians (a version of the Royal List) present Ziusudra, the son of Ubartutu, the hero of the global flood, as the ruler of the city of Shuruppak.

The Legend of Gilgamesh says that Utnapishtim (Babylonian version of Ziusudra) was saved on Mount Nisir and thus gained immortality. The annals of Ashshurnasirpal say that the Lullubeans called this mountain Kinipa. According to one inscription from the library of Ashshurbanipal, this mountain was located in the country of the Qutian tribes. Some researchers localized this mountain in the area of modern Khalkhalandag or Tokmadag (in Iraq, southeast of the Altyn-Kopru), others - near Sidikan (between Erbil and Rawanduz). A. Billerbeck equated this mountain to the peak of Pir Omar Qudrun in eastern Iraq (in a place called Ulubulak, 40 km northwest of Sulaymaniyah; height 2743 m). Therefore, it cannot be identified with the biblical Ararat, or the Koranic Jebel Judi.

***Keywords**: global flood, cuneiform sources, early chronology, history of Sumer, Sumerian mythology, historical tradition of the East, early city-states.*

## Резюме

**Аллахверди Алимирзоев**

### Всемирный потоп в историко-мифологическом воображении шумеров

Всемирный потоп, считающийся глобальным природным бедствием в истории человечества, стал важным поворотным моментом для эволюции архаических обществ. В ходе раскопок, проведенных в 1920-1930-х гг. британскими археологами под руководством Л. Вулли в Телль-Мукайяре (древний город Ур), сотрудниками Пенсильванского музея под руководством Л. Вейтлина и С.Лэнгдона на холмах Телль-Ухаймир и Телль-Ингарра (древний город) Киша), а также немецкими археологами под руководством Э. Шмидта в Телль-Фаре (древний город Шуруппак), было подтверждено, что подобные стихийные бедствия действительно произошли в бассейне рек Тигр и Евфрат (древний Шумер). Об этом свидетельствует наличие между двумя древними культурными отложениями, покрытого илом стерильного слоя, мощность которого варьируется от 3,0 до 2,7 м. Предполагается, что наводнения в Кише и Шуруппаке произошли разными интервалами в I раннединастический период (XXIX-XXVII вв. до н. э.).

Шумерская историческая и литературно-мифологическая традиция о всемирном потопе изучена достаточно подробно. Большинство письменных источников более века назад были собраны и опубликованы А. Клеем. В 1893 году в Ниффаре (шумерском религиозном центре Ниппура) сотрудники Пенсильванского университета нашли фрагменты глиняной таблички, на которой была написана легенда о потопе; она была исследована А.Пёбелем и С.Н.Крамером. Глиняная книга существенно повреждена, по этому, не знаем, что привело к потопу и где люди нашли спасение. Источники, отражающие историческую традицию шумеров (варианте Царского списка), представляют Зиусудру, сына Убартуту героя всемирного потопа как правителя города Шуруппак.

В «Легенды о Гильгамеше» говорится, что Утнапиштим (вавилонский вариант Зиусудры) был спасен на горе Нисир и таким образом обрел бессмертие. В анналах Ашшурнацирапала говорится, что луллубеи называли эту гору Кинипа. Согласно одной надписи из библиотеки Ашшурбанапала эта гора находилась в стране кутийской племени. Одни исследователи локализовали эту гору в районе современного Халхаландага или Токмадага (в Ираке, к юго-востоку от моста Алтын), другие – вблизи Сидикана (между Эрбилем и Равандузом). А. Биллербек приравнивал эту гору к вершине Пир-Омар-Кудрун на востоке Ирака (в месте под названием Улубулак, в 40 км к северо-западу от Сулеймании; высота 2743 м). Следовательно её нельзя идентифицировать с библейской Арарат, или коранической Джебель-Джуди.

***Ключевые слова****: всемирный потоп, клинописные источники, ранняя хронология, история Шумера, шумерская мифология, историческая традиция Востока, ранние города-государства.*

UOT 9301
https://doi.org/10.59849/2710-0820.2023.2.25

**Elxan Quliyev**
*Azərbaycan MEA-nın Şərqşünaslıq İnstitutunun elmi işçisi*
*elkhan2000@yahoo.com*
*Azərbaycan*

# XIII-XIX ƏSRLƏRDƏ AZƏRBAYCANDA ASTRONOMİYA ELMİ

***Açar sözlər:*** *XIII-XIX əsrlər, Azərbaycan, astronomiya, elm*

**Giriş.** Müxtəlif dövrlərdə Azərbaycanda astronomiya elminin inkişaf mərhələlərini araşdıran zaman görürük ki, VII yüzillikdə ərəb xilafət qoşunları Sasani imperiyasına vurduğu sarsıdıcı zərbələrdən sonra nəhəng imperiya sürətlə yıxılmağa başladı. Beləliklə, Sasani imperiyası daxilində yer almış bütün torpaqlar, o cümlədən Azərbaycan əraziləri bütövlükdə islam xilafətinə daxil edildi və ölkəmiz islam dünyasının bir parçasına çevrildi.

Bəhs edilən dövrün ilk yazılı mənbələri onu göstərir ki, müsəlmanların gündəlik məişət həyatındanda olan tələbatdan dolayı elmin iki sahəsi, yəni nücum (riyazıyyatla birlikdə) və tibb elmidigər sahələrdən daha tez öyrənilməyə başlanmışdır. Əlbəttə mənbələrə görə Azərbaycanda islamdan öncə də tibb və astronomiya sahələrində müəyyən uğurlar var idi. Amma bildiyimiz kimi, Qurani-kərim açıq şəkildə müsəlmanların diqqətini göy cismlərinə və nücum sahəsinə cəlb edir vəətta bəzi şəriət hökmləri birbaşa göy cisimləri ilə əlaqədar təyin edilməkdədir. Bu isə astronomiya elminin islam alimləri tərəfindən rəğbətlə qarşılanmasına səbəb olmuşdur. Zaman keçdikcə nücum, heyət, riyaziyyat, həndəsə, arifmetika və musiqi ilə bağlı Yunan, Hind və digər xalqlara mənsub olan alimlər tərəfindən qələmə alınmış elmi əsərlər ərəb dilinə tərcümə edilərək ümumi müsəlman cəmiyyətlərininistifadəsinə verildi (5, s. 68).

Digər tərəfdən,müxtəlif xalqların vahid bir dövlət tərkibinə qoşulması və bir-biri ilə əlaqədə olması müxtəlif elm sahələri və mədəniyyətlərin surətlə inkişafına təkan verdi. IX əsrdə bünövrəsi qüoyulan bu yüksəliş XIV əsrin sonlarına qədər davam etdi. Mübaliğəsiz deyə bilərik ki, IX-XIV əsrlərdə İslam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyük mədrəsə (universitet), rəsədxana, xəstəxana, əczaxana və kitabxanalar məhz müsəlman Şərqində yerləşir, ən güclü alimlər burada çalışırdılar (1, s. 46).

IX əsrdən sonra Ərəb xilafətinin zəifləməsi Azərbaycanda milli dövlətçiliyin bərpası prosesinin başlanması ilə nəticləndi. Həmin dövrdə Azərbaycan Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər və Şirvanşahlar dövləti kimi güclü müstəqil məmləkətlərin yaranması elm və mədəniyyətin inkişafına təkan vermiş oldu. Şirvanşahlar və Atabəylər elm və mədəniyyətə himayədarlıq edirdilər. Onlar saraylarına görkəmli alimləri toplayır və onlara elmi əsərlər yazmağı sifariş verirdilər. Sözügedən dövrlərdə ən inkişaf etmiş elm sahələri fəlsəfə, hüquq, ədəbiyyat, dilçilik, riyaziyyat, astronomiya, tibb və kimyasahələri olmuşdur (1, s. 46).

**Astronomiya elminin predmeti barədə**. Bəhs edilən dövrlərdə islam coğrafiyasında ərsəyə gəlmiş ilk yazılı mənbələrdə nücum elmi həm də “Heyət” və yaxud “Elm-e fələk” adlandırılmışdır. Astronomiya planet və göy cisimlərinin müşahidə edilməsi, astronomik cihazların hazırlanması və tətbiqindən bəhs edən bir sahədir. İbn Xəldun (1332-1406) “heyət” elmi haqqında yazır: “Heyət” elmi sabit və səyyar ulduzların hərəkətlərini öyrənən bir elmdir. Ulduzların keyfiyyətcə hərəkət traektoriyası və istiqamətləri planetlərin forma baxımında həndəsi fiqurlar yaratmasına da təsir edir. Ulduzların hiss olanan hərəkətlərinin nəticəsində yaranan bu fiqurlar onu sübut edir ki, yer kürəsinin mərkəz hissəsi və orbiti Günəş planetinin orbiti iləziddiyyət təşkil edir. Ulduzların planetlərə doğru qayıtması və istiqamətlənməsi bu planetlərin

ulduzlar uçun daşıyıcı olmaqla yanaşı həm də özlərinin daha böyük bir qalaktikanın içində hərəkət etdiklərini göstərir" (2, 2/1019).

Yunan və Latın ədəbiyyatında olduğu kimi, müsəlman alimləri tərəfindən qələmə alınmış məxəzlərə nəzər saldıqda bu mənbələrdə "astronomiya" və "astrologiya" terminləri vahid bir məna kəsb etdib, astronomik qaydalar ilə astronomiya elmi arasında hər hansı bir fərqin olmadığının şahidi oluruq. Başqa ifadə ilə desək, burada biz planet və ulduzların hərəkət və vəziyyətlərini öyrənən elm sahəsinin astronomik qaydalara aid olan məsələlərlə qaynayıb-qarışdığını görürük. Ərəb və farsdilli mənbələrdə bu iki termin arasında dəqiq bir fərq göstərilməmişdir (5, s. 102). Buna baxmayaraq, bəzi filosoflar astronomiya sahəsini riyaziyyat elminin bir istiqaməti hesab etmişlər. Başqaları isə bu sahənin qanunlarını və yaxud münəccimliyi təbiət fəlsəfəsinin bir istiqaməti, bəzən isə "Xəfiyyə" və ya "Qəribə" elminin ayrıca bir qolu hesab edirdilər (6, s. 70).

Yazılı qaynaqlara görə islam dönəmində nücum elmi üç əsas mənbədən, yəni Hind, Yunan və İran astronomiyasından qaynqalanırdı. Müsəlman alimləri əvvəlcə İran astronomiyası ilə tanış olub, sonra isə Hind astronomiyasından da istifadə etməyə başlamışlar. Amma Yunan astronomiyası yalnız bir neçə onil sonra müsəlman məmləkətlərinə gəlib çıxa bilmişdir (23, s. 35).

Monqolların hücumundan öncə müsəlmanlar arasında nücum elminin formalaşması prosesində İran və Azərbaycan alimlərinin rolu iki cəhətdən əhəmiyyət kəsb edirdi. Birincisi, Yunan və Hind nücum elminin ərəb dilinə tərcümə edilməsi. İkincisi isə İran və Azərbaycanda hələqədim dövrlərdən mövcud olan nücum qaydalarının müsəlmanlar tərəfindən davamlı şəkildə istifadə olunması məsələsi (23 .s 37).

**Monqollar dövründə astronomiya elminin yenidən dirçəlişi.** Bəhs edilən dövrlərdə hakim qüvvənin və hökmdarlar tərəfindən elmin bəzi sahələrinə göstərilən maraq və diqqət həmin sahələrin dünyəvi işlərdə onlara verə biləcək faydadan qaynaqlanırdı. Monqollar adətən bir işi görmək istədikdə əvvəlcə onun uğurlu olub-olmadığınıbilmək istəyirdilər. Bunun üçün onlar əsasən ulduzlar və ulduz falından istifadə edirdilər. Bu məsələ monqolların islam dünyasında "Nücum" elmi kimi tanınan və alimlər tərəfindən dərindən araşdırılan astronomiya elminə olan marağını daha da artırırdı (6, s. 72).

Yazılı mənbələrə görə Monqollar hər hansı bir ciddi məsələ ilə bağlı qərar qəbul edən zaman ulduzların vəziyyəti və ulduz falından bəhrələnməyə çalışırdılar. Məsələn, yeni hökmdarın təyin edilməsi, qurultayın nə zaman təşkil olunması və yaxud düşmən üzərinə qoşunların yeridilmə zamanının təyin olunması kimi mühüm məsələlər münəccimlərlə məsləhətli şəkildə və ulduzların vəziyyəti nəzərə alınaraq müəyyənləşdirilirdi (4, s. 71). Buna misal olaraq Nəsirəddin Tusinin Hülaku xana Bağdada hücumunun uğurlu nəticələnəcəyinə dair öncədən proqnoz verməsini də etmək olar (22, 1/30-31).

Bilindiyi kimi, Nəsirəddin Tusinin səyi və gərgin çalışmaları nəticəsində Azərbaycanın Marağa şəhərində möhtəşəm bir rəsədxana təsis edildi. Bu rəsədxanada Azərbaycandan, eləcə də islam Şərqindən və Çindən bir çox dünya səviyyəli alimlərin bir yerə toplanaraq birgə elmi fəaliyyət göstərməsi astronomiya sahəsində tam yeni bir səhifə açmış oldu.Bir məsələni də qeyd etməliyik ki, elmin konkret bir sahəsi üzrə təsis olunmuş və yalnız ulduzların və göy cisimlərinin müşahidə edilməsini hədəfləyən Marağa rəsədxanasında parallel olaraq riyaziyyat elmi də tədqiq edilir və araşdırılırdı. Azərbaycan və İran ərazilərində islamdan sonrakı dövrlərdə bir neçə rəsədxana təsis olunmuşdu ki, bunlardan Musa ibn Şakir övladlarının rəsədxanası, Riqqədə Bəqai rəsədxanası, Şirazda Abdürrəhman Sufi rəsədxanasını qeyd etmək olar (13, 2/84).

Azududövlə Deyləminin sarayında xidmət edən alim və münəccim Abdurrəhman Sufi astronomiya elmi ilə bağlı bir çox elmi əsərlər qələmə almışdır. Bu kitablardan ərəb dilində yazılmış "Surətül-kəvakib" (Ulduzların forması) adlı əsəri qeyd etmək olar ki, sonralar Nəsirəddin Tusi həmin kitabı fars dilinə tərcümə etmiş və onun elmi məlumatlarindan genişformada bəhrələnmişdir (11, s. 17).

İslam Şərqində hc.IV/m.IX əsrdən etibarən rəsədxanalar ümumi xarakter almağa başlamışdı. Səlcuqlu Məlikşah ilk şah rəsədxanasının əsasını hc.VI/m.XI yüzillikdə qoymuşdu (6, s. 73). Amma Marağa rəsədxanası inşa edildikdən sonra rəsədxanaların təsis edilməsi artıq bir ənənəvi xarakter daşımağa başlamışdır (22, 1/50-51).

Qeyd etmək lazımdır ki, XIII-XIV əsrlərdə elmin digər sahələri kimi, astronomiya (nücum) elmi də inkişaf etmiş və bu inkişaf prosesi dövrün bir çox tarixi mənbələrində öz əksini tapmışdır. Əllamə Şəmsəddin Amuli «Nəfaisülfünun fi əraisil-üyun» əsərində təbiət elmlərinin altıncı bölümünü məhz nücum elminə həsr etmişdir. Müəllif öz əsərində nücum elmini beş müxtəlif fəsillərə bölür: birinci fəsildə ulduzların təbiət aləminə göstərdiyi təsirlər barədə, II fəsildə səyyar (hərəkətli) və ya sabit ulduzların təsirinin güclü və yaxud zəif olması haqda, üçüncü fəsildə ulduzların təbiət aləminə göstərdiyi təsirləri inkar edənlər və nücum elminin kökündən yanlış olduğunu söyləyənlərə qarşı çıxış edərək irəli sürdüyü fikirləri barədə, dördüncü fəsildə səyyar ulduzların xüsusiyyətləri, son beşinci fəsildə isə bürclər, onların hansı reallıqlardan xəbər verdiyinə dair müfəssəl məlumat yer alır (9, c.3, s. 281-299).

Şəmsəddin Amuli özünün bu ensiklopedik əsərində günəş qalaktikası, yer kürəsi və qalaktikanın müxtəlif təbəqələrinə dair kifayət qədər maraqlı elmi mülahizələr irəli sürmüşdür. O, həmçinin elmə məlum olan planetlər, ulduzlar, onların yeri və hərəkət trayektoriyası ilə bağlı müxtəlif qrafiklər tərtib edərək onları izah etmişdir (9, c. 3, s 365).

Astronomiya sahəsində Nəsirəddin Tusi tərəfindən Marağa rəsədxanasında araşdırılaraq inkişaf etdirilən elmi fikir və düşüncələr sonralar onun şagirdləri, o cümlədən Mühyəddin Məğribi və Qütbəddin Şirazi tərəfindən daha dərin tədqiq edilərək təkmilləşdirilmişdir. Qiyasəddin Cəmşid Kaşani isə Səmərqənd rəsədxanasında “Zici Uluğbəy” əsərini qələmə almaqla Marağa məktəbinin ənənəsini yenidən bərpa edərək onu bir növ dirçəltmişdir (13, 1/193).

**Teymurilər dövründə astronomiya elminin inkişafı.** Teymurilər dövründə Azərbaycanda astronomoyia elmi kifayət qədər populyarlaşaraq inkişaf etmişdir. Həmin dövrdə, daha dəqiq desək Teymurilərin son dövrlərində Azərbaycandankənarda, Xorasanda Uluğ Bəy (1394-1449) hakimiyyətə gəlir və onun astronomiyaya olan marağı bu sahənin ciddi şəkildəinkişafına səbəb olur. Belə ki, o, dövrün tanınmış astronom alimi Qiyasəddin Cəmşid Kaşanini özünə vəzir seçir və nücumla bağlı bütün imkanları onun ixtiyarına verir. Uluğ Bəy Səmərqənddə böyük bir rəsədxana inşa etdirir və nücum sahəsində ciddi işlər görmək məqsədilə bu işi Qiyasəddin və Quşçuya tapşırır. Məhz, Qiyasəddin Cəmşid Kaşaninin səyi nəticəsində “Zici-Elxani” əsəri təshih edilir və bütün bu addımlar İran və Özbəkistan əraziləri ilə yanaşı Azərbaycanda da növbəti dəfəastronomiya elminin inkişaf etməsinə zəmin yaradır (20).

XVI əsrdə yaşayıb yaratmış astronomlardan Əhməd Təftərani, Molla Məsud Şirvani və Kamaləddin Qənəvinin şagirdlərindən olan Əbdüləli Bircəndinin (v. Hc. 906/m.1500) adını qeyd etmək lazımdır. Əbdüləli Bircəndidən bir neçə əsər zəmanəmizə qədər gəlib çatmişdir. Bu əsərlərdən “Əbad və əcram”, “Bist bab dər mərifət-e təqvim”, “Şərh-e zic-e Uluğ Bəy”, “Şərh-e bist bab dər mərifət-e üstürlab”, “Təzkirətü Nəsiriyyə fil-ilahiyyat Nəsirəddin Tusi” və s. (15, s. 24).

**Səfəvilər dövründə astronomiya elmi.** Səfəvilər dövründə ölkənin digər ərazilərində olduğu kimi Azərbaycan da sosial durumun nisbətən yaxşılaşaraq sabit şəraitin hökm sürdüyünün şahidi oluruq. Amma buna baxmayaraq bu dövrlərdə Azərbaycanda yaşamış alimlər əvvəlki alimlərin gördükləri işlər səviyyəsində yeni bir ixtira ortaya qoya bilməmişlər. Səfəvilər dövründə rəsmi dövlət nümayəndələri tərəfindən cəmiyyətdə yaradılmış dini-məzhəbi sıxıntılar səbəbindən bəzi alimlərimiz Hindistan və yaxud Osmanlı ərazilərinə köç etmək məcburiyyətində qalmışlar. Bu isə həmin ölkələrdə bir sıra elmi mərkəzlərin yaranmasına və bir zamanlar əsası Azərbaycanda, Marağa məktəbində qoyulmuş elmi nailiyyətlərin inkişaf prosesinin də həmin ölkələrdə davam etdirilməsinə səbəb olmuşdur. Nəticə etibarı ilə həmin dövrlərdə Azərbaycanda astronom və riyaziyyatçı alimlər öz elmi potensiallarını realizə etmək, dəqiq və əqli elmləri inkişaf etdirməkkimi faydalı işlərdənuzaqda qalmışlar. Çünki mənbələrdə verilmiş məlumatlardan aydın olur ki, Səfəvilər dövründə dəqiq və əqli elm sahələrinin tədris olunduğu bir çox elm ocaqları tədricən özünün əvvəlki əhəmiyyətini itirməyə başlamışdı. Belə ki, həmin mənbələrdə Səfəvilər dövlətinin qurulduğu gündən etibarən “Darülfün” mərkəzinin yarandığı dövrə qədər (1501-1851) daha çox fəlsəfə, hikmət, bir az da riyaziyyat sahəsi ilə məşğul olan alimlərin adları çəkilir (15, s. 24).

Bütün bunlara baxmayaraq Səfəvilər dövründə astronomiya elminə yeni yanaşma tərzi və yeni metod meydana çıxmağa başladı. Belə ki, bəhs edilən dövrdə əsasən astronomik hesablamalara diqqət yetirilir və bu məsələyə önəm verilirdi. Belə ki, həmin dövrdə astronomik cihaz düzəldənlər və hətta münəccimlərin özləri belə günəş saatları, qlobuslar, kompaslar, xüsusilə də müxtəlif üstürlab növlərinin istehsalı ilə məşğul olmağa başlamışdılar. Tarixi məxəzlərdə verilmiş məlumatlardan aydın olur ki, astronomik cihazlar içində ən mühüm alət hesab olunan üstürlabın ən dəqiq və keyfiyyətlisi məhz Səfəvilər dövründə ərsəyə gəlmişdir. Başqa ifadə ilə desək, Səfələr dövründəki astronomiyanın əsas xüsusiyyətlərindən biri də, həmin dövrdə müxtəlif növ üstürlabların istehsal edilməsindən ibarət olmuşdur (7, s. 24-25).

**Astronomik cihazlar.** Səfəvilər dövründə alimlər üstürlabdan başqa digər astronomik cihazlar, o cümlədən "Rüb əl-mücəyyib-ربع المجيَب/" (Rüb əl-məcəyyib - Quadrant), günəş saatları, kompas, qiblənamə və digər cihazlar da istehsal edirdilər. Bu cihazlar astronomiya elminin fəxr ilə yad etdiyi nailiyyətlərindən biridir. Amma çox təəssüflər olsun ki, dövrün mənbələrində bu cihazları dəqiq hesablamalar apararaq istehsal edən alimlər haqda heç bir məlumata rast gəlinmir. Buna baxmayaraq dünya alimləri astronomiya sahəsində qarşılaşdıqları məsələləri həll edən zaman beləb ir həqiqəti də anlayaraq etiraf etmişlər ki, qədim zamanlarda, o cümlədən Səfəvilər dövrünün alimləri astronomik cihazların planlaşdırılaraq hazırlanması sahəsində həqiqətən böyük işlər görmüşlər (7, s. 25). Şarden bununla bağlı yazır: "Səfəvilər doxsan dərəcəldə olan çox böyük "Rübi-dairə" (Rübi-dairə- quadrant of a circile) cihazına malikdirlər, amma heç vaxt ondan istifadə etmirlər. Həmçinin Ptolemeyin astronomik ölçü cihazları, "Zatül-həlqətəyn", digər texniki cihazların nümunələri də mövcuddur, lakin onlardan da istifadə edilmir. Amma burada (Avropanın) müasir astronomları tərəfindən geniş formada tətbiq edilən astronomik cihazlardan heç birinə, o cümlədən göy cisimlərini öyrənən cənub və üfüqi xəritəyə rast gəlinmir" (10, 5/146).

Üçbucaq və yastı formada taxta və metal materialdan hazırlanan "Rüb əl-mücəyyib" adlı cihazın düz baş hissəsində bir ip və bir şaqul asılmışdır. Səmavi cisimlərin bucaqları ölçülən və digər astronomik iş və fəaliyyətlər görülən zaman bu cihazdan istifadə olunurdu. Bu cihazın adı ilk dəfə Ptolemey tərəfindən çəkilmişdir. Bəhs edilən dövrdə əsasən iki cür astronomik kvadrant tətbiq edilirdi: Birincisi "Rüb əlmücəyyib", digəri isə "Rüb əd-dəstur" adlanırdı və bunların hər ikisi də Azərbaycan və İran alimləri tərəfindən hazırlanırdı. Fars dilində bu cihaz "Həkkaki Kamelən" adlanır. XVIII və XIX yüzilliklərdən sonra, xüsusilə də XX əsrdə kvadrant cihazı daha da təkmilləşdirildi, amma onun tətbiq edildiyi sahələrdə əsaslı heç bir dəyişiklik baş vermədi (12, s. 276).

Tarixi məlumatlardan aydın olur ki, sözügedən dövrdə mədrəsə və məscidlərdə istifadə olunan günəş göstərən cihazların istehsalı sahəsində əhəmiyyətli dərəcədə işlər görülmüşdür (3, s 298). Günəş saatlarının meydana çıxma tarixi hələ dəqiq məlum deyil. Belə ki, hətta arxeoloji tədqiqatlardan da aydın olur ki, hələ qədim dövrlərdə bu yana qum saatlarının müxtəlif növləri mövcud olmuşdur. Qeyd etmək lazımdır ki, dünya muzeylərində saxlanılan günəş saatları saatları içində Səfəvilər dövrünə aid olan və həmin dövrün alimləri tərəfindən hazırlanmış günəş saatı digər saatlardan gözəl dizayn, material, incəlik və üzərinə quraşdırılmış mexanizmlərinə görə başqa saatlardan seçilir və fərqlənir. Belə bir nümunələrdən biri də bürünc və gümüş materialdan hazırlanmışdır. Onun üzərində həkk edilmiş yazılardan aydın olur ki, bu saat Səfəvilər dövründə, yəni hc.950-1000-ci illərdə hazırlanmışdır. Bu saat sıfır dərəcəli orbitdən (orbit xətti) 60 dərəcəli orbitə qədər (Qafqazın ən şimal nöqtəsi) olan zaman üçün nəzərdə tutlmuşdur. Sözügedən saat, saatı sayan bir lövhədən, lövhə altlığından, bir qoruyucu hissə və bir kompasdan təşkil olunmuşdur (12, s. 279; 6, s. 26-27).

Bəhs edilən dövrün yazılı mənbələrinə görə Səfəvilər dövründə hazırlanmış üstürlab cihazları digər dövrlərdəkilərdən özünün dəqiqliyi və xüsusi zərifliyi ilə seçilirdi. Üstürlab cihazları müxtəlif məqsədlərlə istifadə edilirdi, amma onun əsas tətbiq sahələri aşağıdakı kimi qeyd edilmişdir: "Günəş və ulduzların hündürlüyünü öyrənmək, günəşin hansı səmtə təmayüllü olduğu müəyyən etmək, bürclərin meridian xəttində görünməsini, səhər və şəfəq saatlarını tapmaq, şəhərlərin coğrafi uzunluq və enini hesablamaq, günəşin müxtəlif şəhərdə nə zaman doğacağını müəyyən etmək, bürclər və dağların hündürlüyünün ölçülməsi, çayların ölçüləməsi və s.



شکل (۱) طرح کلی از اسطرلاب و اجزای تشکیل دهنده آن


شکل (۲) منبع: موزه آستان قدس رضوی.


شکل (۳)


شکل (٤) منبع: موزه آستان قدس رضوی

Səfəvilər dövründə, daha dəqiq desək bəzi Səfəvi hökmdarlarının hakimiyyətdə olduğu dövrlərlərdə Azərbaycanla bəzi Avropa dövlətləri arasında müəyyən əlaqələr formalaşmağa başlamışdı. Amma tarixi mənbələrdə verilmiş məlumatlardan aydın olur ki, bu əlaqələr daha çox hərbi sənayenin öyrənilməsi və mədəniyyət sahələri ilə məhdudıaşırdı. Məsələn, bəzi qüdrətli Səfəvi hökmdarları bir qrup yerli sənətkarları Avropaya göndərməklə və yaxud bəzi avropalı sənətkarları ölkəyə dəvət etməklə Qərb rəssamlıq, daş yonma və zərgərlik sənətinin sirlərini öyrənməyə və mənimsəməyə çalışmışlar. Amma bu cür fəaliyyətlər heç zaman elmi müstəvidə Qərb dünyasının yeni elmi düşüncəsini ölkə daxilinə gətirmək və onu geniş şəkildə yaymaq səviyyəsinə yüksələ bilməmişdir (21, s. 22-25).

**Qacarlar dövrü, Darül-fünun və astronomiya elmində yeni mərhələ.** 1760-cı ildə Qacarlar dövlətinin Azərbaycan və İranda qurulması ilə mərkəzləşmiş idarəçilik sistemi də qurulmuş oldu. Beləliklə, ölkədə nisbi sabitlik və cəmiyyət üçün təhlükəsiz bir şərait hökm sürməyə başlandı. Belə bir şəraitdə digər ölkələrdən səfirlər və turistlər Qacarlar hakimiyyətində olan ərazilərə səfərlər etməyə başladı və ticarət əlaqələri inkişafa doğru yönəldi.Avropa ölkələri qərb dünyasındabaş vermiş sənaye inqilabından sonrabu sənayeni dünya arenasında yaymağa və təbliğetməyə başlamışdılar. Sənaye ölkələrində istehsal olunan məhsulların satışı üçün bazarın və istehlakçıların olması da zəruri hesab olunurdu. Beləliklə, istemarçı və istismarçı təfəkkür tərzi region sərhədlərini aşaraq dünya arenasına çıxmağa başladı. Bununla pa-

rallel və yanaşı olaraq azad düşüncə və oyanış dalğası da genişlənməyə başlamışdı. Bütün bunlar isə təsirli amil olaraq Azərbaycanın, eləcə də Qacarlara tabe olan digər məmləkətlərin, o cümlədən İranın da tədricən yeni dünya düzəni və onun tələblərinə doğru hərəkət etməsinə səbəb oldu. Qacarlar dövründə bu mədəni hərəkatın başında duran şəxs əvvəlcə Fətəli sah Qacar, sonra isə Qaim Məqam Fərəhani olmuşdur. Fətəli şah Qacar ölkədə çapxananın təsis olunması, eləcə də şagirdlərin xaricdə təhsil almaq, kitab və qəzetlərin nəşr olunması barədə xüsusi fərmna imzalamışdı. Beləliklə, ölkədə "Darülfünun" və yeni sistem orta məktəblərin yaradılmasına şərait yaranmış oldu (15, s. 24).

Nasirəddin şah taxta çıxıb, ölkəni sakitləşdirdi və bir qədər sabitlik yarandı. Bundan sonra Mirzə Təqi Xan Əmir Kəbir cəmiyyətdə bəzi sosial islahatların aparılması istiqamətindən bir sıra mühüm addımlar atdı. Onun gördüyü işlərdən ən önəmlisi isə 1815-ci ildə "Darülfünun"un əsasının qoyulması olmuşdur. Məsələ ilə bağlı konkret olaraq bunu deyə bilərik ki, vəzifəsindən kənarlaşdırıldıqdan bir müddət sonra qətlə yetirilən nazirın gördüyü böyük işlərin müsbət təsir və nəticələriözündən sonra da qalmaqda davam etmişdir (24). Dövrün yazılı mənbələrində verilmiş məlumatlardan aydın olur ki, bu təhsil mərkəzində əsasən fizika və riyaziyyat fənlərinin tədrisi məsələsi prioritetlik təçkil etmişdir (15, s. 24). Hesab edirik ki,mövzumuzla bağlı Qacarlar dövrü, xüsusilə də "Darül-fünun"un təsis olunan tarixi dövr bizim üçün əhəmiyyətli ola bilər (8, s. 222).

Qacarlar dövlətinin qurulması tarixi (hc.1209/m.1795) ilə "Darül-fünun" mərkəznin təsis edilmə tarixi (hc.1268/m.1852) arasındakı dövrdə Azərbaycan və İranda bir sıra mühüm hadisələr baş vermişdir. Təxminən iki yüz il davam edən daxili çəkişmələrdən sonra ölkə daxilində nisbətən sabitlik hökm sürməyə başladı və bununla da Avropa ilə iqtisadi və mədəni əlaqələrin qurulması üçün münbit bir şərait yaranmış oldu. Qacar hökuməti Qərbin elm və sənaye sahəsində xeyli dərəcədə inkişaf etdiyinin fərqində idi. Beləliklə, Abbas Mirzə və Əmir Kəbir kimi yeni düşüncəli şəxsiyyətlər meydana çıxmağa başladı. Abbas Mirzənin səyi nəticəsində ilk yerli tələbə qrupu təhsil almaq üçün Avropaya yola salındı. Bu tələbələr vətənədöndükdən sonra isə ölkədə yeni elm sahələrinin, xarici dillərin, çap sənayesi və s. tədris olunması kimi mühüm sahələrdə böyük və əhəmiyyətli işlər görə bildilər (16, s 122-196).

Beləliklə, bəhs edilən dövrlərdə baş vermiş tarixi dəyişikliklər fonunda bəzi avropalı alimlərin Qacarların paytaxt şəhərinə, Tehrana gəlməsi üçün şərait yaranmış oldu. Bəzi yerli alimlər isə xarici dillər öyrənərək bir sıra elmi əsərləri fars dilinə tərcümə etdilər. Təbii ki, bu əsərlər arasında astronomiya elminə dair olan kitablar da mövcud idi. Bu kitabların bəziləri ilə tanış olmaq istəyənlər Məsumi Həmədani tərəfindən qələmə alınmış "Risalei dər heyət-e cədid" (Yeni həyat elminə dair risalə) adlı əsərə müraciət etmələri tövsiyə olunur (19).

Yuxarıda qeyd edilən dəyişikliklərdən dolayı ölkədə "Darül-fünun" mədrəsəsi təsis olundu və qısa müddət ərzində xarici dil bilənlərin sayı da artmağa başladı. Bu minvalla, "Dar ülfünun" texniki məktəb açıldıqdan sonra bir neçə onillik ərzində fars dilinə tərcümə edilmiş astronomiya elminə dair kitabların sayı xeyli artmış oldu. Bütün bunların nəticəsində yerli düşüncə sahibləri arasında yeni astronomiya və ənənəvi nücum (astronomiya) sahəsi ilə bağlı ciddi mübahisələr ortaya çıxmağa başladı. Məqalənin hazırkı bölməsində Azərbaycanda, eləcə də Qacarların tabeçiliyində ola digər məmləkətlərdə cəmiyyət arasında yeni astronomiya elminin yayılması və inkişaf etməsinə dair yeni məlumatlar verilmişdir.

**Tələbələrin xarici ölkələrə ezam edilməsi.** Qacarların hakimiyyətə gəlişi ilə tələbələrin Qərb ölkələrinə göndərilməsi üçün şərait yarnmış oldu. Qacarlar dövründə ilk dəfə olaraq Abbas Mirzənin böyük səyi nəticəsində hc.1226/m.1811-ci ildə iki tələbə xaricdə təhsil almaq üçün Londona göndərilmişdir. Qərara alınmışdı ki, onlardan biri rəssamlıq, digəri isə tibb ixtisası üzrə təhsil alsınlar. Birinci tələbə 18 ay sonra vərəm xəstəliyinə yoluxduğuna görə dünyasını dəyişmiş, amma ikinci təlbə, yəni Hacıbab adlı şəxs təhsilini davam etdirərək Oksford Universitetinə qədər gedib çıxa bilmişdir. Hacıbaba təhsil aldıqdan sonra ölkəyə dönmüş və Abbas Mirzə aparatında həkimbaşı vəzifəsinə qədər yüksəlmişdir (16, c. 1, s. 123-129).

Sonrakı tələbələr qrupunun sayı isə artıq beş nəfərdən ibarət olmuş və hc.1230/m. 1815-ci ildə İngiltərəyə yola salınmışdır. Bu tələbələr 4 ildən sonra ölkəyə qayıtmış və hər biri Abbas Mirzənin aparatında vəzifə almışdır. Beş nəfərdən ibarət olan həmin tələbələrdən bəzisi tüfənk və top istehsalı sahəsində çalışmaqla yanaşı, Avropa ölkələrində ingilis və fransız dillərində qələmə alınmış elmi kitabları fars dilinə tərcümə etməklə də məşğul olurdular. Onlardan Mirzə Saleh Şirazi adlı şəxs Məhəmməd şahın dövründə ölkədə "Kağəz-e əxbar" və yaxud "Ruznamey-e Mirza Saleh Şirazi" adlı ilk qəzetin buraxılmasına başlamışdır. O, xaricdə təhsil aldığı dövrdə tarix elmi, xarici dillər, çap sənayesi və hikmət sahələri üzrə ixtisaslaşmış bir mütəxəssisə çevrilə bilmişdir (16, c. 1, s. 224). Bu baxımdan, Mirzə Saleh Şirazini bəhs edilən dövrdə təməl elmlər üzrə xaricdə təhsil almış ilk tələbə və məzun hesab etmək olar. Mirzə Saleh Şirazi İngiltərədə təhsil aldığı dövrə dair müfəssəl bir səfərnamə də yazmışdır. O, öz səfərnaməsində Vilyam Herşel rəsədxanasında olduğu haqqında məlumat vermişdir. Səfərnamədə həmçinin onun Mirzə Cəfər adlı digər bir həmyerlisi ilə birlikdə Herşel, Herşelin bacısı və övladı ilə görüşdüyü, ona məxsus teleskopu yaxından müşahidə etdiyi və "Uranius" adlı yeni bir planet haqqında icmal şəkildə biliklər əldə etdiyinə dair məlumat verilmişdir (14, s. 356).

Fətəli şah və Məhəmməd şah Qacarın dövründə isə digər tələbə qrupları təhsil almaq və yaxud təcrübə toplamaq məqsədilə xarici ölkələrə, o cümlədən Rusiya, Fransa və hətta İtaliyaya ezam edilirdi. Tələbələr əsasən sənaye sahəsini - çap və nəşr sənəti, piyada və topçular dəstələrinin idarə olunması, parça-çit istehsalı, gülçülük, billur şüşələrin istehsalı, şəkərin emal edilməsi və qənd istehsalı tibb elmi kimi mühüm-strateji ixtisaslara yiyələnmək məqsədilə bu ölkələrə üz tuturdular. Zaman keçdikcə bəzi zəngin ailələr də təhsil almaq üçün öz övladlarını şəxsi vəsaitləri hesabına Avropa ölkələrinə göndərməyə başladılar. Amma bu qəbil tələbələrin ixtisaslarına nəzər saldıqda görürük ki, onlardan heç biri təməl elmlər və ya astronomiya sahəsinə üz tutmamışdır. Görünür bəhs edilən dövrdə ölkənin mühəndislik və hərbi sənaye sahəsinə olan tələbatı üstünlük təşkil etmişdir. Bütün qeyd olunanlara rəğmən təəssüflə onu deyə bilərik ki, həmin dövrdə elm sahəsində baş verən dəyişikliklər Azərbaycanda yeni astronomiya elminin inkişafına ciddi və köklü təsir göstərə bilməmişdir (8, s. 225).

Əmir Kəbirin sədrliyi dövründə bir neçə tələbə əvvəlcə bəzi peşə sahəsini - billur şüşələr və çuqun istehsalı, dülgərlik, çarxların, şamların və şəkərin emal edilərək qənd istehsalı kimi mühüm sahələrə yiyələnmək üçün Rusiyaya üz tutmuşdur. Bundan sonra əslən Kaşandan olan iki nəfər ipək parça ustası ipək istehsalatının sirlərini daha dərindən öyrənmək məqsədilə İstanbula göndərilmişdir (16, c. 1, s. 187-196).

Etimadüssəltənə Əmir Kəbirin bu istiqamətdə gördüyü işlərlə bağlı "Sədrüt-təvarix" adlı kitabında yazır: "Mirzə Təqi xan Atabəy Əzəm dövlət və millətin tərəqqisinə səbəb ola biləcək bütün səbəbləri əldə etməyə çalışırdı və bu məqsədlə bir neçə şagirdi Avropaya yola saldı...Onların hər biri elmin konkret bir sahəsi, o cümlədən həndəsə, dilçilik, coğrafiyaşünaslıq, tibb, riyaziyyat, astronomiya və astrologiya, rəssamlıq və hərbi biliklər üzrə ustad-müəllim səviyyəsinə qədər yüksələ bildilər..." (8, s. 225).

Bəhs edilən dövrdə xarici ölkələrə göndərilmiş tələbələrin statistik siyahısına nəzər saldıqda, hc.1275/m.1858-ci ildə yalnız bir nəfər tələbənin konkret olaraq astronomiya sahəsi üzrə Avropaya göndərildiyinin şahidi oluruq... Mirzə Mahmud Qumi adlı bir tələbə məhz astronomiya elmi üzrə təhsil almaq üçün Parisə göndərilmişdir. Bu şəxs yeddi il Parisdə qalaraq astronomiya və astrologiya (nücum və heyət) sahələrini nisbətən dərindən öyrənmişdir. Mirzə Mahmud Quminin özü və nəvələrindən qalan xatirəlrdə, onun adı "Danae" adlı kiçik bir planeti kəşf edən şəxs olaraq keçir. Hətta Qacarlar dövründə bu kiçik planetə "Mahmudi" adı verilmişdi (18, s. 194-397). Təəssüflər olsun ki, Mirzə Mahmud Qumi təhsil alıb Parisdən qayıtdıqdan sonra astronomiya ilə heç bir əlaqəsi olmayan sahələrdə çalışmışdır." (8, s. 226).

**Nəticə.** Nəticə etibarilə deyə bilərik ki, bəhs edilən dövrlərdə digər islam məmləkətlərində olduğu kimi, Azərbaycanda da astronomiya elmi müxtəlif inkişaf mərhələlərini keçərək öz layiqli yerini tuta bilmişdir. Hətta bəzi dövrlərdə, xüsusilə də Elxanilər dövründə elmin bu sahəsi Azərbaycanda kifayət qədər inkişaf edərək digər ölkələri ötüb keçə bilmişdir. Buna misal olaraq Marağa rəsədxanasını və onun elmi fəaliyyətini qeyd etmək olar. Əlbəttə dövrün ilk

yazılı mənbələrində verilmiş məlumatlara görə Azərbaycanda islamdan öncə də tibb və astronomiya sahələrində müəyyən uğurlar olmuşdur, amma bu nailiyyəti islamdan sonrakı dövrlərin səviyyəsi ilə müqayisə etmək olmaz. İslamdan sonrakı dövrlərdə müsəlmanların müqəddəs kitabı olan Qurani-kərim insanların diqqətini səma cisimlərinə və dolayısı yolla astronomiya elminə cəlb etdiyinə görə müsəlmanların bu sahəyə olan marağı daha da artmağa başlamışdır. Belə bir şəraitdə ümumilikdə islam dünyasında astronomiya sahəsi inkişaf etdirilmişdir. Qeyd olunanlardan göründüyü kimi, Azərbaycanda yaşayan yerli alimlər islamdan sonrakı dövrlərdə astronomiya elmi ilə yanaşı riyaziyyat və onun digər istiqamətlərinə, o cümlədən hesablama və həndəsə sahəsinə də xüsusi maraq göstərmişlər. Mənbələrdə alimlərimizin bu istiqamətdə Evklid və Pifaqordan geniş istifadə etdiyi barədə məlumat verilmişdir. Məhz bu cəhəti nəzərə alaraq deyə bilərik ki, sözügedən yüzillikdə astronomiya və astrologiya elminin inkişafı riyaziyyat, həndəsə və triqanametriya sahələrinin inkişafına borcludur.

### Ədəbiyyat siyahısı


1.Elxan Quliyev, XIII-XIV əsrlərdə Azərbaycanda elm və mədəniyyət (farsdilli mənbələr əsasında), AMEA Elm Tarixi İnstitutu, Bakı: “Elm və təhsil”, 2021, 266 s.

۲. ابن خلدون، عبد الرحمان، **مقدمه ابن خلدون**، ترجمه محمد پروین گنابادی،تهران، انتشارات علمی و فرهنگی ،۱۳۷۹,

۳. بنائی، امین و جمعی از نویسندگان (۱۳۸۰). **صفویان**، ترجمه و تدوین یعقوب آژند، تهران: مولی.

۴. بویل، ج.، **تاریخ ایران از آمدن سلجوقیان تا فروپاشی دولت ایلخانی**، جلد پنجم، ترجمه حسن انوشه، تهران ۱۳۸۰، امیر کبیر.

۵.حسین نصر، **علم و تمدن در اسلام**، ترجمه احمد آرام، تهران، شرکت انتشارات علمی و فرهنگی، ۱۳۹۹، چاپ ۷، ۳۲۰ ص.

۶.دکتر جمشید روستا، مهدیه محمودآبادی، **نقش و جایگاه منجمان و ریاضی دانان در اوضاع علمی ایران عصر ایلخانی**، مجله مطالعات ایرانی، دانشگاه ادبیات و علوم انسانی دانشکده شهید باهنر کرمان، سال سیزدهم، شماره بیست و ششم، پاییز و زمستان ۱۳۹۳، صص ۶۵-,۸۸

۷.زهرا اسفندیاری مهنی، بررسی تحول ابزار آلات نجومی در دوره صفوی (مطالعه موردی: اسطرلاب)، تاریخنامه خوارزمی – فصلنامه علمی – تخصصی – سال دوم بهار ۱۳۹۴ ، صص. ۵۰-,۲۳

۸.سید امیر سادات موسوی، تنجیم جدید پس از دارالفنون، تاریخ علم، دوره ۱۲، شماره ۲، پاییز و زمستان ۱۳۹۳، ص ۲۲۱-,۲۴۰

۹. شمس الدین محمد بن محمود آملی، نفائس الفنون فی عرایس العیون، بتصحیح و پاورقی آقای حاج میرزا ابو الحسن شعرانی، انتشارات اسلامیه، جلد یکم، چاپ سوم، ۱۳۸۹ ش.، ۵۹۵ ص.، جلد دوم، ۵۵۵ ص، جلد سوم، ۵۷۶ ص.

۱۰. شاردن، ژان، (۱۳۳۷)، سیاحتنامه شاردن، ترجمه محمد عباسی، ج ۵، تهران، امیر کبیر. ۱۴۶/۵.

۱۱.طوسی، خواجه نصیرالدین (۱۳۵۱)، **ترجمه صورالکواکب عبدالرحمن صوفی**، تصحیح سید معزالدین مهدوی، تهران: انتشارات بنیاد فرهنگ ایران.

۱۲.غزنی، سرافراز (۱۳۵۰). **اسطرلاب یا شمارشگر نجوم**، تهران: انتشارات وزارت علوم سابق.

۱۳. فرشاد، مهدی، **تاریخ علم در ایران**، تهران، امیر کبیر، ۱۳۶۵.

۱۴.میرزا صالح شیرازی. (۱۳۶۲ ش). گزارش سفر میرزا صالح شیارازی. پرایش، دیباچه و پانوشت از همایون شهیدی. تهران: موسسه انتشارات راه نو.

۱۵. محمد اخوان، عبدالحسن بصیره، سینا شیبانی، اسفندیار معتمدی، **دانشمندان فیزیک در ایران از دوره باستان تا پایان دوره قاجار**، نشریه نشاء علم، سال سوم شماره اول، دی ماه ۹۱، صص. ۲۷-۱۷.

۱۶.محبوبی اردکانی، حسین. (۱۳۷۰ ش). تاریخ موسسات تمدنی جدید در ایران، تهران: انتشارات دانشگاه تهران.

۱۷. محبوبی اردکانی، حسین. (۱۳۷۰ ش). تاریخ موسسات تمدنی جدید در ایران، تهران: انتشارات دانشگاه تهران.

۱۸. محمودی ، کیومرث، «مشار الملک». آینده، سال نوزدهم، ص. ۳۹۴-,۳۹۷

۱۹. معصومی همدانی، حسین. (۱۳۶۳ ش). «رساله ای در هیئت جدید». معارف، شماره ۲,

۲۰. نجوم و رسد ستارگان از زردشت تا الوغ بیگ
(
https://www.kojaro.com/2018/4/28/142102/%D
(8%AA%S8%A

۲۱.نوایی، عبدالحسن. (۱۳۶۰ ش). اسناد و مکاتبات سیاسی ایران، از سال ۱۰۳۸ تا ۱۱۰۵ ق. تهران.

۲۲.وصاف الحضرة شیرازی، شهاب الدین عبدالله، **تاریخ وصاف، (تجزیة الابصار و تزجیة اعصار)**، به اهتمام محمد مهدی اصفهانی، بمبئی، ۱۳۳۸،

۲۳.یونس کرامتی، **کارنامه ایرانیان (در زمینه نوآوریهای ریتضیات، نجوم و گاه شماری)**، «اهل قلم»، ۱۳۸۰، ۲۰۲ ص.

۲۴.یغما، ا. (۱۳۶۲). «مدرسه دارالفنون»، انتشارات سروا.

**Summary**

**Elkhan Quliyev**

**The science of astronomy in Azerbaijan in XIII-XIX centuries**

We highlight the stages of development of astronomical science in Azerbaijan in the XIII-XIX centuries, using the information reflected in Persian-language sources in the article. In order to meet the daily household needs of Muslims, mainly two fields of science - astronomy (in parallel with mathematics) and medical science began to be investigated earlier than other fields. Actually, according to sources, there were some achievements and development in the field of medicine and astronomy in Azerbaijan before Islam, but due to the fact that some verses of the Holy Quran drew the attention of Muslims to the heavenly bodies, the science of astrology was welcomed by Muslim scientists. Thus, scientific works about astronomy (nujum), mathematics, geometry, arithmetic, music, etc. written by Greek, Indian and other nationalities scholars were translated into Arabic and made available to the Muslims.
***Keywords:*** *XIII-XIX centuries, Azerbaijan, astronomy, science*

**Резюме**

**Эльхан Гулиев**

**Наука астрономии в Азербайджане в XIII-XIX веках**

В статье мы попытались осветить этапы развития астрономической науки в Азербайджане в XIII-XIX веках, используя информацию, отраженную в персоязычных источниках. Для удовлетворения повседневных бытовых нужд мусульман раньше других областей стали исследовать главным образом две области науки – астрономия (параллельно с математикой) и медицина. Согласно источникам, определенные успехи и развитие в области медицины и астрономии были достигнуты в Азербайджане еще до ислама, но в связи с тем, что некоторые аяты Священного Корана привлекли внимание мусульман к небесным светилам, наука астрология приветствовалась мусульманскими учёными. Так, научные труды ученых греков, индийцев и других национальностей по астрономии, математике, геометрии, арифметике, музыке и т. д. были переведены на арабский язык и сделаны доступными простым мусульманам.
***Ключевые слова:*** *XIII-XIX века, Азербайджан, астрономия, наука*

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2023.2.34

**Əsəd Qurbanlı**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın sovet dövrü tarixi" şöbəsinin aparıcı elmi işçisi, dosent, tarix üzrə fəlsfəfə doktoru*
*Azərbaycan*
*qurbanli.68@mail.ru*

# ERMƏNİSTAN SSR-DƏ AZƏRBAYCAN TÜRKLƏRİNƏ QARŞI ETNİK TƏMİZLƏMƏ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ NƏTİCƏLƏRİ (1988-1991-ci illər)

***Açar sözlər:*** *deportasiya, Azərbaycan, erməni, partiya, qaçqınlar, sovet, Ermənistan, Azərbaycan türkü*

**Giriş.**

Ermənistan Respublikası ərazisində Azərbaycan türklərinə qarşı həyata keçirilmiş deportasiya siyasətinin araşdırılması aktuallığı ilə diqqəti cəlb edir. Belə ki, Ermənistan SSR-dən azərbaycanlıların 1988-1991-ci illərdə tarixi torpaqlarndan deportasiyası tarixşünaslığımızda indiyə qədər bu məsələlər tam öyrənilməmiş, tarix elmimizdə problemə münasibətdə hələ də çatışmazlıqlar mövcuddur.Bu baxımdan 1988-ci ildə Ermənistan SSR-dən deportasiyası probleminin tarixi aspektdə araşdırılması və təhlil edilməsi zərurəti ortaya çıxır.

XX əsrin 80-ci illərinin axırlarında erməni millətçiləri üçün əlverişli tarixi şərait yarandı. Sov.İKP MK-nın Baş Katibi M.S.Qorbaçovun apardığı «Перестройка» siyasəti nəinki sovet cəmiyyətində yaranmış reqressiv inkişafı nizamlaya bilmiş, əksinə ölkənin bütün regionlarında mərkəzdənqaçma meyllərini xeyli gücləndirmişdi.

Üzdəniraq «erməni siyasətçiləri» və şovinist dairələri imperiyanın dağılmaqda, çökməkdə olduğunu hiss edir, dağılmaqda olan imperiyanın xarabalıqları altından böyük bir ərazi ilə çıxmaq istəyirdilər. Məhz bu məqsədlə də onlar Azərbaycanın tarixi tərkib hissəsi olan Dağlıq Qarabağa ərazi iddiaları etməyə və onu Ermənistana birləşdirmək üçün mübarizəyə girişdilər.

1988-ci il fevral ayının 20-də Stepanakertdə (Xankəndi) DQMV-nin XDS-nin sessiyası tərəfindən vilayətin Azərbaycanın tərkibindən ayrılıb, Ermənistana birləşməsi haqqında qərarından sonra Yerevanda və Ermənistanın bütün şəhər və rayon mərkəzlərində mitinqlər keçirilməyə başlandı.Mitinqlərdə «Qarabağ merna», («Qarabağ bizimdir», «Rədd olsun türklər») kimi millətçi şüarlar səslənirdi [38, s.12].

Respublikada, eləcə də regionda millətlərarası münasibətlər kəskinləşmiş,hər gün milli zəmində yeni-yeni toqquşmalar baş verir,bu toqquşmalar insanların faciəsi ilə nəticələnirdi.

Həmin ərəfədə, Ermənistan SSR-də azərbaycanlılara qarşı dövlət səviyyəsində aparılan bütün etnik təmizləmələrə, diskriminasiyaya baxmayaraq respublikada əhalinin 1979-cu il siyahıya alınmasının nəticələrinə görə Ermənistanda 161 mindən artıq türk (azərbaycanlı) əhali yaşayırdı [7].

Ermənistanda Azərbaycanın ərazi bütövlüyünə qarşı separatçılıq hərəkatının baş qaldırması ilə «Türksüz Ermənistan» planı gerçək siyasətə çevril- məyə başladı. Dağlıq Qarabağda baş verən hadisələrdən bəhanə kimi istifadə edən erməni millətçiləri Azərbaycan türklərinin tarixi torpaqlarından qovulmasını həyata keçirməyə başladılar.

Azərbaycanlılar ermənilərlə birlikdə Qarabağın Ermənistana verilməsinə tərafdar olmadıqlarına görə işdən qovulur, öz evlərindən çıxarılırdılar. Gorusdan, Qafandan, Dilican və Masisdən gəlmiş qaçqınların ifadələrinə görə, ermənilər azərbaycanlı evlərinə yandırıcı atır, yük maşınları ilə kəndlərə hücum edib yol qıra-

ğı evlər daşa basılır, onlardan tezliklə buradan çıxıb getmələri tələb edilirdi.

Həmin günlərdən öz təhlükəsizliklərinə təminat görmədiyinə görə 1988-ci ilin fevral ayının 20-25-də azərbaycanlıların ilk qaçqın dəstəsi Ermənistandan Azərbaycan SSR-ə gəlməyə başladı. Qaçqınlar əsasən türk (azərbaycanlı) əhalinin yığcam yaşadıqları İrəvan, Eçmiadzin, Leninakan, Kirovakan, Qafandan və başqa şəhərlərdən idilər. Ermənistan SSR-dən gəlmiş azərbaycanlı qaçqınların sayı 4000-nəfərdən çox idi [36, s.5-6].

Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların Azərbaycana üz tutması faktı Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun xüsusi tapşırığı ilə ictimaiyyətdən gizli saxlanılır, demək olar ki, əhaliyə bu barədə heç bir məlumat verilmirdi. Partiyalı rəsmi mətbuat isə əhalini şaiyələrə inanmamağa, təmkinli olmağı və emosiyalara uymamağa çağırırdı. Ermənilər Azərbaycan türklərini dədə-baba torpaqlarından qovmaqla bir tərəfdən onların arasına vahimə salmağa və hamılıqla Ermənistanı tərk etməyə, digər tərəfdən Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətin gərinləşdirilməsi və erməni-azərbaycanlı münaqişəsi törədilməsinə can atırdı.

Ermənilər bədnam separatçılıq əməllərinə haqq qazandırmaq məqsədilə Sumqayıt şəhərində erməni əhaliyə qarşı daha bir qanlı cinayət törətdilər.1988-ci il fevrahn 28-də milliyyətcə erməni olan, özünü azərbaycanli kimi təqdim etmiş Edik Qriqoryanın başçılığı altında növbəti fitnəkarlığa əl atdılar.Hadisələrin mərkəzi kimi Sumqayıtın məkan seçilməsi də təsadüfi deyildi.

Belə ki, hələ 1960-cı illərdən Ermənistandan bir çox azərbaycanlı ailələri Azərbaycana köçüb gəlmiş, onlar əsasən Abşeronda və Bakı şəhərində yerləşmişdi. Bu illərdə təkcə Qafan Şəhərcik qəsəbəsindən 280-dən çox ailə (1456 nəfər) Sumqayıt şəhərində yerləşmişdi [5, s.60]. Ermənistanda 1988-ci ilin əvvəlində təhqir olunmuş və alçaldılmış şəkildə qovulan qaçqın azərbaycanlıların bir qismi də həmin illərdə burada məskunlaşmış öz yaxınlarının yaşadığı Sumqayıt şəhərinə gəlmiş və burada sığınacaq tapmışdı.

Ermənistanda azərbaycanlılara qarşı baş verən hadisələr də onların təhrikçilik siyasətindən başqa bir şey deyildi.Eyni zamanda, ermənilərin DQMV-də, həm də Ermənistanda həmvətənlərimizə qarşı törətdiyi vəhşiliklər Sumqayıtda azərbaycanlıların kortəbii çıxışlarına səbəb olmuşdu.1988-ci il fevralın 28-də Sumqayıt şəhərində cinayətkar qrupların təhriki ilə erməni əhalisinə qarşı törədilən faciə və talanlar zahirən Ermənistandan axıb gələn çoxsaylı qaçqınlarla əlaqəli olsa da, erməni təhrikçiləri onların törədicisi olmuşlar [23].

Telekameralar əvvəlcədən planlaşdırılmış yerlərdə quraşdırılmışdır. Məqsəd, törədiləcək fitnəkarlığı lentə almaq və vəhşi azərbayçanlı, «əzabkeş» erməni obrazı yaratmaqla dünyada xristian həmrəyliyinə nail olmağa, münaqişələrin güya dini mahiyyət daşıdığını göstərmək idi.Ermənilərin törətdiyi bu faciə nəticəsində 26 erməni, 6 azərbaycanlı qətilə yetirildi. 200 mənzil qarət edilmiş, onlarca ictimai bina, avtobus, şəxsi maşınlar yandırılmışdı. Bu talanlara rəhbərlik etmiş və özünü azərbaycanlı kimi təqdim etmiş erməni Edik Qriqoryan şəxsən 26 erməninin qətlində iştirak etmişdi. E.Qriqoryanın bu hadisələrdə cinayəti istintaq yolu ilə təsdiqlənmişdir [23].

Hadisələrdən bir gün sonra Sumqayıtda ermənilər tərəfindən çəkilmiş kinolentlər xarici ölkələrin televiziya kanallarında nümaiş etdirildi. Ermənilər öz istəklərinə nail oldular.Bu hadisədən dərhal sonra ermənilər tərəfindən Xankəndin- də «Sumqayıt qurbanlarınm» xatirəsinə abidə ucaldılmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıt hadisələrini azərbaycanlıların ermənilərə qarşı «genosidi» kimi qiymətləndirdilər. Ermənistan Ümummilli Hərəkatının tanınmış lideri L.Ter-Petrosyan çox sonralar bu hadisəyə qiymət verərək bildirirdi ki, Sumqayıt hadisələrindən sonra Azərbaycan şok vəziyyətində idi. Əgər Mərkəzi hökumət Dağlıq Qarabağı Ermənistana birləşdirsəydi Azərbaycanlılar buna etiraz etməyəcəkdi [1, s.131].

Bütün bunlar göstərir ki, Sunqayıt hadisələri ermənilərin əvvəlcədən planlaşdırdığı və həyata keçirdiyi, dünya ictimaiyyətinə və bütün ermənilərə hesablanmış təhrikçi bir aksiya idi. Sumqayıt hadisələrindən sonra azərbaycanlılara qarşı qanlı antitürk hərəkatı daha da genişləndi. Ermənistanda ermənilər azərbaycanlilara qarşı etnik təmizləmə sıyasəti həyata keçirməyə başladılar.

Ermənistan KP MK-nın orqanı olan «Kommunist» qəzeti Sumqayıt hadisələrindən dərhal sonra Ermənistanı tərk etmiş azərbaycanlı qaçqınlar barədə məlumat verir, Qafan rayonundan azərbaycanlı ailələrin çıxıb getməsi haqqında həyəcanlı xəbərlər alındığı ictimaiyyatın diqqətinə çatdırırdı [41].1988-ci il fevral ayının 29-da Respublika televiziyası ilə çıxış edən Emənistan KP MK-nin I katibi K.S.Demirçiyan guya azərbaycanlıların Dağlıq Qarabağ və onun ətrafında baş vermiş hadisələrdən «narahat» olaraq yaşayış yerlərini tərk etdiyini bildirdi [33].

Azərbaycanlı qaçqınlar haqqında məlumatın bir neçə gün sonra respublika mətbuatında verməklə a ermənilər bununla bağlı ictimai rəyi başqa istiqamətə yönəldir, respublikanı tərk etmiş qaçqınlar axınını Sumqayıtda baş vermiş hadisələrlə əlaqələndirməyə cəhd edirdilər.

Münaqişənin ilk vaxtlarında Azərbaycan türklərinə qarşı hədə-qorxu, şantaj döyülmə kimi üsullardan istifadə olunurdusa, Sumqayıt hadisələrindən sonra bu münasibət daha kəskin formada özünü göstərməyə başladı.

Ermənistanın Ararat, İcevan, Qafan, Abovyan, Quqark və başqa rayonlarında vəziyyət gərginləşdi. Azərbaycan kəndlərinə kütləvi basqınlar edilir, azərbaycanlı əhali rayon mərkəzlərinə buraxılmır, yollar, kəndlər blokadaya alınmışdı. Mart ayının 3-dən etibarən Ermənistanda vəziyyət kəskin surətdə dəyişmiş, milli münasibətlərdə yaranmış gərginlik pik həddinə çatmışdı. Bütün Ermənistanı azərbaycanlılara qarşı mübarizə dalğası bürümüşdü. Baş verən cinayət hadisələrinin miqyası getdikcə çoxalır, onların qarşısını almaq üçün əsaslı tədbir görülmürdü.

Ermənistanda etnik zəmində toqquşmalar baş verir, Azərbaycan türklərinin vəziyyəti olduqca dözülməz idi. «Qarabağ» təşkilatının yerlərdə genişlənən fəaliyyəti, partiya-sovet rəhbərlərinin açıq-aşkar buna göz yumması Azərbaycan türklərinə qarşı mütəşəkkil hərəkətlərin kütləviləşməsinə və genişlənməsinə gətirib çıxartmışdı. Ermənistan SSR Daxili İşlər Naziri A.S.Şahinyan 1988-ci ilin martın 5-də respublikada yaranmış vəziyyət barədə respublika televiziyası ilə çıxışında milli zəmində toqquşma faktının qeydə alındığı barədə məlumat verirdi [34]. Hadisələr nəticəsində 20 mindən çox azərbaycanlı Ermənistandan qovulmuşdu. Azərbaycana pənah gətirmiş qaçqınların Bakıya, Sumqayıta və Gəncəyə gəlmələrinə Azərbaycanın o vaxtkı kommunist rəhbərliyinin göstərişi ilə hüquq-mühafizə orqanları hər vasitə ilə mane olurdu.

«Qarabağ» təşkilatının yerlərdə genişlənən fəaliyyəti, partiya-sovet rəhbərlərinin açıq-aşkar buna göz yumması Azərbaycan türklərinə qarşı mütəşəkkil hərəkətlərin kütləviləşməsinə və genişlənməsinə gətirib çıxartmışdı.

Sumqayıt hadisələrinin Ermənistan cəmiyyətində doğurduğu əks reaksiyadan, ermənilərin aşıb-daşan intiqam və qəzəb hissindən istifadə edən bu təşkilatlar «Qarabağ Komitəsi» və onun saqqallı üzvləri açıqdan-açığa fəaliyyətlərini gücləndirmiş, tezliklə Qarabağın Ermənistana birləşdirilməsi barədə hökumət tərəfindən xüsusi qərar qəbul edilməsini tələb edirdilər. Komitə həmçinin öz üzvlərinə tapşırırdı ki, «komitəçi»lər iş yerlərində partkom, profkom yığıncaqlarında özləri həmin vəzifələri yerinə yetirməlidirlər.

Ermənistan Yazıçılar İttifaqının üzvü V.Siradeqyan, Matenadaran adına Əlyazmalar İnstitutunun elmi əməkdaşı L.Ter-Petrosyan, Ermənistan EA-nın müxbir üzvü R.Kazaryan, V.Manukyan, yazıçı Sero Xanzadyan, Yerevan Dövlət Universitetinin kafedra müdiri B.Aragelyan, K.Nahapetyan və başqa erməni «ziyalıları» bu komitənin məqsədləri uğrunda fəal mübarizə aparırdılar [42].

K.Nahapetyan isə komitənin tələblərinin həyata keçirilməsinə qədər xalqı tətillərə, kütləvi aclığa çağırır, müdafiə dəstələrinin (oxu; silahlı dəstə - Q.Ə.) yaradılmasının zəruriliyini əsaslandırır, bunu əsas və vacib bir məsələ kimi dərhal həll etməyi təklif edirdi.Komitəçilər Respublika bank şöbəsində özlərinə yaxın olan etibarlı adamların adına komitənin lazım olan ehtiyaclarını ödəmək üçün iki hesab nömrəsi açmışdılar. İlk günlərdəcə həmin hesaba xeyli pul vəsaiti keçirilmişdi [42].

Komitənin rayonlardakı «saqqallı» üzvlərinə qoşulan, bəzi hallarda isə onların yedəyində gedən ayrı-ayrı rayon rəhbərləri azərbaycanlılara qarşı iqtisadi təzyiq metodundan istifadə edərək, azərbaycanlıların yaşadığı kəndlərə çörək, ərzaq və gündəlik tələbat mallarının verilməsini məhdudlaşdırırdılar. Ərzaq üçün şəhərlərə və rayon mərkəzlərinə getməyə məcbur olan azər-

baycanlılar döyülür, təhqir edilir, xəstəxanalara gedən xəstələrə isə heç bir tibbi yardım göstərilmirdi ki, bu da bəzi hallarda ölümlə nəticələnir, şəxsi təhlükəsizlikləri hüquq-mühafizə orqanları tərəfindən təmin edilmədiyindən yaşayış yerlərini məcburən tərk edirdilər.

Hadisələrin bu cür inkişafının gözlənilməz fəlakətli hadisələr törədəcəyi hiss edilir, bu qorxulu tendensiyanın qarşısının alınması zərurəti ortaya çıxırdı. 1988-ci il mart ayının 20-də Ermənistan KP MK Bürosu qeyd edirdi ki, Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçovun Azərbaycan SSR və Ermənistan SSR xalqlarına müraciətinə, Ermənistan KP MK plenumunun qərarlarına baxmayaraq respublikada vəziyyət gərgin olaraq qalır və «Qarabağ Komitə»si bu təhlükəni daha da artırırdı. MK bürosu bununla əlaqədar respublikada onlara qarşı yayılan şaiyələr nəticəsində azərbaycanlı millətindən olan əhalinin yaşayış yerini atıb getməsini bildirirdi.

Ermənistan KP MK Bürosu partiya təşkilatlarına tapşırırdı ki,bütün səylər «Qarabağ» komitəsinin fəaliyyətinin neytrallaşdırılmasına yönəltməlidirlər. Ona görə ki, indiki zamanda onların fəaliyyəti xalqın maraqları ilə uyğun deyil və siyasi cəhətdən zərərli xarakter daşıyır" [34].Əslində Mərkəzi Komitə baş verən hadisələrin qarşısını almalı idi. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, MK istər Qarabağda, istərsə də Ermənistanda milli münasibətlərin kəskinləşməsində, istərsə də separatizmin himayə edilməsində başlıca rol oynayırdı. Mərkəzi Komitə bürosunun bu qərarı əslində baş verənlərə münasibətdə öz məsuliyyətini sığortalamaq idi.

Ermənistan SSR Ali Soveti tərəfindən 24 mart 1988-ci ildə «Qarabağ Komitəsi» nin Konstitusiya uyğun gəlməyən zidd fəaliyyəti siyasi, təhlükəli xarakter aldığından qanundan kənar hesab edir və onun fəaliyyətini dayandırır [24].

Qarabağ Komitəsinin siyasi fəaliyyətinin qanunvericilik yolu ilə qanundan kənar edilməsi və dayandırılmasına baxmayaraq, komitə bir an da olsa öz siyasi fəaliyyətini dayandırmamış, Yerevanda, respublikanın digər şəhər və kəndlərində intensiv mitinqlər keçirir, Dağlıq Qarabağın tezliklə Ermənistana birləşdirilməsi üçün respublika rəhbərliyindən əməli addımlar atmağı tələb edirdilər.

Mart ayından başlayaraq güclü mitinqlər dalğası bütün Ermənistanı başdan-başa bürümüşdü. «Qarabağ» komitəsinin silahlı dəstələri azərbaycanlı kəndlərinə gedən yollarda quldurluq edir, erməni kəndləri yaxınlığından keçən azərbaycanlı maşınları daşa, gülləyə tutulur, uzun illər bir yerdə çalışdıqları azərbaycanlılar işdən qovulurdu. 1988-ci il may ayının 11-də isə Vedinin Şirazlı kəndində dəhşətli formada qırğınlar, talanlar baş verir, yüzdən artıq erməni dəstələri azərbaycanlı evlərini daşa basır, adamları döyür və öldürürdülər. Hadisələr nəticəsində 82 yaşlı Seyid Ağbalağa və iki yaşlı uşaq həlak olmuş, erməni hücumların nəticəsində daha 64 azərbaycanlı evi dağıdılmış, 8 mənzil yandırılmış, 330 ailənin əmlakı yandırılaraq talan edilmişdir. 80-dən artıq azərbaycanlıya isə bədən xəsarəti yetirilmişdir [20, s.26].

Erməni vəhşiliyinin qarşısının alınması üçün Naxçıvanda yerləşmiş Qıvraq hərbi hissəsinin bir qrup əsgərlərinin münaqişəyə müdaxiləsi nəticəsində hadisələr səngisə də, Şirazlı kəndlərinin azərbaycanlı əhalisi kəndi tərk etməli olmuş və Türkiyə sərhəddinə toplaşaraq 2 aydan artıq sərhəd məftilləri arasında yaşamalı olmuşdu [22, s. 27]. Şirazlıda baş verən faciəli hadisələrdən 3 gün sonra Ermənistan KP MK-nın II katibi Y.Koçetkov, Respublika Nazirlər Sovetinin sədr müavini Suren Harutyunyan hadisə yerində olub faktlarla tanış olsalar da, heç kim cinayət məsuliyyətinə cəlb olunmamışdır [20, s. 29].

Ermənistanda fəaliyyət göstərən müxtəlif siyasi təşkilatlar öz siyasi fəaliyyətini antitürk istiqamətində quraraq, fəal iş aparır, Azərbaycan türklərinin tezliklə respublika ərazisini tərk etməsini tələb edirdilər. «Birləşmiş ermənilər Komitəsi"nin Azərbaycan türklərinə ünvanladığı ültimatumda deyilirdi: «Erməni xalqı türk xocalarını, Tələti, Ənvəri, Camalı heç vaxt unuda bilməz. Ona görə ki, onlar milyonlarla erməni xalqının qırılmasına səbəb olmuşlar və indi də həmin qırğınlar daha faciəli formada davam edir. Ona görə də qırğınların səbəbkarları siz türklər, heç vaxt erməni xalqı ilə qardaşlıq edə bilməzsiniz. Tələb edirik ki, təcili surətdə bizim aramızdan rədd olasınız» [17].

Regionda baş verən hadisələr getdikcə daha qorxulu bir vəziyyət almaqda idi. Nəinki Qarabağda, həm də Ermənistanda faciələrlə mü-

şaiyət olunan ölüm və etnik qarşıdurma faktları, regionda dərinləşməkdə olan böhranın və separatizm nəticələrinin aradan qaldırılmasını qaçılmaz edir, bu sahədə əməli tədbirlərin həyata keçirilməsini tələb edirdi.

İstər Dağlıq Qarabağda, istərsə də Ermənistanda azərbaycan millətindən olan insanların konstitusiya hüquqlarının tapdalanması adi bir hala çevrilmişdi. Belə olan vəziyyətdə hamının Mərkəzi hökumətdən nə vaxtsa baş verən özbaşınalıqların qarşısını alacağına ümid etdikləri bir vaxtda Mərkəzi Komitənin Azərbaycan və Ermənistanın birinci katiblərini başqa kadrlarla əvəz etdi. Lakin bütün bu görülən siyasi tədbirlər regionda baş verən faciəli hadisələrin dramatik inkişafının qarşısını ala bilmədi.

S.Harutyunyan Ermənistan KP MK-nin I katibi vəzifəsinə təyin olunandan sonra Dağlıq Qarabağ məsələsinin həllini MK öz üzərinə götürmüş, «Qarabağ Komitəsi» və digər siyasi təşkilatlarla birgə hərəkət edirdilər. 1988-ci ilin 13 iyununda Yerevanda çoxminli mitinqdə çıxış edən S.Harutyunyan erməni xalqını arxayın edir və bildirirdi: «Dağlıq Qarabağ problemi Sov.İKP MK və SSRİ hökumətinin diqqət mərkəzindədir» [25]

Ermənistan Ali Sovetinin iyun ayının 15-də Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə daxil edilməsi qərarı vəziyyətin daha da gərginləşməsinə səbəb oldu.Ermənistan tərəfi hadisələrin normallaşdırılması tədbirlərindən danışsa da, açıq-aşkar antihumanist, antiazərbaycanlı mövqeyini davam etdirirdi. Ermənistan ərazisindən Azərbaycan türklərinin qovulub çıxarılması prosesi mart-iyun aylarında daha da gücləndi. Ermənistandan Azərbaycan SSR-ə gələn qaçqınların sayı 30 minə çatır, qaçqınlarla işləyən xüsusi informasiya mərkəzi yaradılmadığından itkin düşən, ailəsini itirən adamların da sayı çoxalmışdı.

Azərbaycan kommunist rəhbərliyi Dağlıq Qarabağa gedən yolları kəsərək qaçqınların bu istiqamətə, hətta qohumlarının yanına belə getməsinə imkan vermir, hətta ermənilərlə sövdələşib evini dəyişmək üçün razılığa gələn qaçqınlar da bu imkandan məhrum edilmişdilər. Qaçqınlar əsasən Şuşada və Dağlıq Qarabağda məskunlaşmaq istəsələr də, ermənilər, xüsusən də Ermənistanın rəsmiləri Mərkəz qarşısında Dağlıq Qarabağ əhalisinin demoqrafik tərkibinin qaçqın düşmüş azərbaycanlılar hesabına dəyişdirilməsinə etiraz etdilər.

Ermənistanda millətçi təşkilatlarının ilk həmləri zamanı Moskvaya, Bakıya şikayətə gələn nümayəndələr öz yerlərinə məyus halda qayıdırdılar. 1988-ci ilin aprel-may aylarında türk əhalini öz yerlərinə qaytarmaq cəhdləri də baş tutmadı. Geri qayıtmaq istəyən əhaliyə qarşı daha amansız hücumlar başlandı. Ermənistanın hüquq mühafizə orqanları dinc əhalini müdafiə etmək əvəzinə qəsdən laqeydlik göstərir hətta açıq formada erməni terrorçularına şərait yaradırdılar [8, s. 88]. SSRİ DİN-nin rayonda olan qüvvələri isə bu hadisələri seyr edir, azərbaycanlılara heç bir kömək etmirdilər. Rayonda baş vermiş kütləvi iğtişaşlar zamanı 3 mindən artıq azərbaycanlı rayon ərazisini tərk etmişdi [18]

Erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş zorakılıq hərəkətlərini SSRİ Ali Soveti Rəyasət Heyətinə göstərilən ciddi təzyiq kimi də qiymətləndirmək olar. Onlar bu cinayətkar hərəkətləri ilə Sovet İttifaqının ali qanunverici hakimiyyət orqanına təzyiq göstərməklə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərarının təsdiqinə nail olmaq istəyirdilər.

Masis rayonunda baş vermiş iğtişaşlar o qədər ciddi idi ki, bu faktı heç cür gizlətmək mümkün deyildi. 1988-ci ilin 19 iyununda respublika televiziyasında çıxış edən Ermənistan SSR Ali Soveti sədri Q.M.Voskanyan Masis qəsəbəsində və kəndlərində baş vermiş hadisələrlə bağlı bildirirdi ki, 17 iyundan başlayaraq, bir dəstə erməni gənclərin Yerevandan gələrək qəsəbədə və kəndlərdə törətdiyi hadisələrdə 8 azərbaycanlının yaralanmışdır [32].

1988-ci ilin iyul ayının 18-də SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan SSR-nin və Ermənistan SSR-nin sərhədlərinin konstitusiya əsasında müəyyən edilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün və yolverilməz hesab etdikdən sonra «Qarabağ» komitəsi dövlət orqanlarına təzyiq göstərir, 18 iyul qərarını baykot edir, milli münasibətləri qızışdırırdı [25].

Ermənistandan Azərbaycana gəlmiş azərbaycanlı qaçqınlar barədə respublikanın kütləvi informasiya vasitələri 10 iyul 1988-ci ildən etibarən ilk dəfə olaraq azərbaycanlı qaçqınlar ba-

rədə xəbərlər verdi. «Azərinform»un məlumatında bildirilirdi ki, Ermənistanda yaranmış mürəkkəb, gərgin vəziyyətlə əlaqədar olaraq azərbaycanlı qaçqınlar kütləvi surətdə respublikamıza gəlməyə başlamışdır. Bakıya,Sumqayıta, Gəncəyə, Dağlıq Qarabağa gedən yollar qaçqınların üzünə bağlandığından çətin vəziyyət yaranmışdı. Adamlar vağzallarda yol qıraqlarında gecələyirdilər. Fermalara, məktəb binalarına, tarla düşərgələrinə, xüsusi yerlərə yerləşdirilənlərin sayı gündən-günə artırdı.

Azərbaycan hökuməti ilk dəfə olaraq ərazi mübahisələrinin doğurduğu gərginlik nəticəsində yaranmış qaçqınlar problemi ilə üzləşdi. Ermənistandan qovulmuş azərbaycanlıların sayı o qədər çox idi ki, Azərbaycan hökuməti Qaçqınların işi üzrə xüsusi komissiya yaratmışdı. Komissiyanın məlumatında qaçqınların sayı 20 min nəfər (4 min ailə) olduğu göstərilirdi [3].

Azərbaycanlıların həyatı üçün yaranmış real qorxu və vəziyyətin həddən artıq ciddi olması, kütləvi qaçqın axını ilə əlaqədar Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, M.S.Məmmədov və Azərbaycan SSR Ali Soveti sədr müavini N.Fətəliyev Ermənistanda azərbaycanlıların yaşadıqları kəndlərdə olmuş, onların çoxsaylı şikayətlərinə baxmışlar [3].

O dövrdə baş verən hadisələri, xüsusən azərbaycanlılara qarşı qanlı zorakılıq faktlarını az-çox obyektiv əks etdirən materiallara Azərbaycanın kütləvi informasiya vasitələrində demək olar ki, rast gəlinmir, sonradan qəzet səhifələrində çap olunan yazılarda xəbərlər təhrif olunurdu.SİTA-nın baş direktoru L.P.Kravçenko sonralar bildirirdi ki, əgər əvvəldən Stepanakertdə (Xankəndində) ilk mitinqlər başladığında kütləvi informasiya vasitələri dəqiq mövqe tutsaydılar belə böyük faciələr baş verməzdi... [20, s. 97].

Ermənistandan Azərbaycan türklərinin öz tarixi torpaqlarından qovulması mərhələ-mərhələ həyata keçirilirdi. Dağlıq Qarabağda başlanan erməni separatizmi, eləcə də Ermənistanda azərbaycanlılara qarşı başlanan kütləvi zorakılıqlar Azərbaycan ictimaiyyətində narazılığın artmasına səbəb olur, Ermənistanın Azərbaycana və onun türk əhalisinə qarşı təcavüzkar siyasi xətti Azərbaycanda istər-istəməz anti-erməni əhval-ruhiyyəsini gücləndirirdi.

Noyabr ayının əvvəllərindən başlayaraq bütün Ermənistanda Azərbaycan türkləri əleyhinə mitinqlər keçirilir, onların dərhal qovulması tələb edilirdilər.

1988-ci ilin noyabrın 4-də «Alimlər və yenidənqurma uğrunda mübarizə» yə həsr olunmuş, İrəvan şəhərində keçirilən mitinqdə çıxış edən, komitə fəallarından Ermənistan Elmlər Akademiyasının müxbir üzvü R.Kazaryan türklərin qovulması barədə mitinq iştirakçılarına çağırış edərək bildirirdi: «Dəstələrin köməyi ilə köçürülməni təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı təmizləmək üçün nadir imkanlar verilmişdir. Mən bunu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm» [37,s.15].

Dağlıq Qarabağda, xüsusən də Ermənistanda baş verən hadisələrlə bağlı noyabr ayının 16-dan başlayaraq Bakı şəhərində mitinqlər keçirilir, Ermənistanın təcavüzkarlıq hərəkəti pislənilir, azərbaycanlı əhalinin təhlükəsizliyi üçün heç bir tədbir görülmədiyi Mərkəzi hökumətdən təcavüzkarın cilovlanması üçün qəti tədbirlər görülməsi tələb edilir, azərbaycanlıların konstitusiya hüququnun tapdalanmasının qarşısını almaq üçün onların yaşadığı regionda Muxtar Vilayət yaradılması tələb olunurdu [9]. Bu tələblərdən narahat olan Ermənistan rəhbərliyi noyabrın 22-də Ali Sovetin sessiyasını dayandırmış, deputatları- rayon rəhbərlərini yerlərdə guya yerlərdə «qayda-qanunu bərpa etmək» məqsədilə bu ad altında rayonlara göndərmişdi. Əslində isə onlara noyabrın 28-dək Ermənistan SSR-dən azərbaycanlıların Ermənistandan köçürülməsini həyata keçirmək tapşırıq verilmişdi.

Hətta hadisələrin qarşısının alınması məqsədilə noyabrın 24-də İrəvan şəhərinin hərbi komendantlığın yaradılması belə [44] vəziyyəti düzəltmək iqtidarında belə deyildi. V.N.Samsonovun rəhbərlik etdiyi qoşun hissələri Ermənistan hökumətinə tabe etdirilmiş, bəzi hallarda respublika rəhbərliyinin göstərişini həyata keçirir, azərbaycanlı əhalinin təhlükəsizliyini qorumaq kimi funksiyanı yerinə yetirmək əvəzinə, yoxlanılmamış yalan məlumatlar verməklə əhali arasında çaşqınlıq yaradır, ermənilərin qisasçılıq hisslərini daha da qızışdırırdı.

Ermənistan SSR Daxili İşlər Nazirliyinin 28 noyabr məlumatında isə deyilirdi ki, respub-

likanın rayonlarında, xüsusən də ermənilərlə - azərbaycanlıların qarışıq yaşadığı rayonlarda gərgin vəziyyət davam edir, milli zəmində ağır nəticələrə gətirib çıxaran hadisələr qeydə alınmışdır.Bir sıra rayonlarda-Quqarkda, Kalininoda, Vardenisdə, Gorusda azərbaycanlılar və ermənilər arasında silahlı atışmalar qeydə alınmışdır. Ermənilər yolları kəsərək, daş ataraq, təsadüfi hallarda hətta odlu silahdan da istifadə edərək avtonəqliyyat vasitələrinin hərəkəti üçün təhlükə törədirdilər [27].Azərbaycan SSR-də qaçqın salınmış azərbaycanlıların işi üzrə yaradılmış komissiyasının məlumatında noyabrın əvvəlindən 30 noyabra qədər respublika ərazisini 40.652 nəfər azərbaycanlının tərk etdiyi bildirilirdi [28].

Noyabr ayının 24-dən başlayaraq Masis (Zəngibasar) rayonunun Zəhmət, Dostluq, Zəngilər, Rəncbər və başqa azərbaycanlılar yaşayan kəndlərində «komitəçi»lər RİK-in sədri Gevorkyanla və Rayon Daxili İşlər şöbəsinin rəisi vəzifəsini icra edən İsgəndəryanla birlikdə azərbaycanlı əhaliyə ültimatum verilir, onlardan tezliklə rayon ərazisini tərk etmələrini tələb edilirdi [40, s.154].

Armenpressin Ermənistan Daxili İşlər Nazirliyinə istinadən yaydığı xəbərdə Masis, Ararat, Noyomberyan, Spitak, Quqark və başqa azərbaycanlılar yaşayan rayonlarda vəziyyətin olduqca ağır olması, toqquşmalar nəticəsində xeyli insanların yaralandığı bildirilirdi [41].Quqark rayonunda ermənilərin törətdiyi vəhşiliklər nəticəsində 30-dan çox azərbaycanlı qətlə yetirilmiş, təkcə Şaumyan (Vartana) kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülərək yandırılmışdı.V.N.Samsonovun 2 dekabr 1988-ci ildə verdiyi məlumatda isə erməni vəhşiliyindən yaxa qurtarmaq üçün Şaumyan, Arcut, Hallavar, Gözəldərə və başqa kəndlərdəki azərbaycanlı əhalisinin dağlara çəkildiyi deyilirdi [13].

Yerevanda rus dilində çıxan Ermənistan KP MK-nin «Kommunist» qəzeti özünün «Fəlakət anı, məsuliyyət anı» məqaləsində isə yazırdı: «Noyabrın 26-da Kirovakanın 500 nəfərlik əhalisi Qarabağ hərəkatı fəallarının təxribatçı çıxışlarından təsirlənərək elə mitinqdən birbaşa Şaumyan kəndinə üz tutdular. İki gün kənddə toqquşmalar oldu, atışma da qeydə alındı. Ölənlər var. Kuybışev kəndində də iğtişaşlar törədilib, orada da ölənlər var. Hərəkat fəallarından təşkil olunmuş postlarda, «özünümüdafiə bölmələri» olan yollarda da özbaşınalıqlar artıb. Azərbaycanlılar yaşayan kəndlərə ərzaqla kömək edən ermənilər də vəhşicəsinə döyülüblər. O yerə çatıb ki, hərəkat fəalları «cavab tədbirlər» şüarları arxasında gizlənərək respublikamızın zəhmetkeşləri, qeyri-erməni əsilli insanlara qarşı kin-küdurət yayırlar. Ən qəbuledilməzi, alçaq hərəkət isə odur ki, «Qarabağ» komitəsi siyasi oyunlarına uşaqları da qatır. Amasiya kəndinin mərkəzində keçirilən nümayişi misal çəkək, burada xalq nəzarəti rayon komitəsi sədrinin oğlunun başçılığı altında 30 məktəbli azərbaycanlıları işdən qovmaq şüarları səsləndiriblər» [50].

Spitak rayonunda da eynilə analoji hadisələr baş verir, RİK sədri V.Haycyan, RDİŞ-nin rəisi Sarkisyan, Ermənistan DTK rayon şöbəsinin sədr müavini Mehrabyanın noyabrın 28-də rayonun Saral və Qursalı kəndlərinə 34 avtobus və 40 yük maşınları ilə gəldiyi və onlardan iki saat ərzində rayon ərazisini tərk etməyi tələb edilmişdi [39, s.352].

Armenpressin Ermənistan Respublikası Daxili İşlər Nazirliyinə istinadən yaydığı xəbərdə Masis, Ararat, Noyomberyan, Spitak, Quqark və başqa azərbaycanlılar yaşayan rayonlarda vəziyyətin olduqca ağır olması, toqquşmalar nəticəsində xeyli insanların yaralandığı bildirilirdi. Verilən məlumatda ermənilər tərəfindən azərbaycanlıların öldürülməsi faktı gizlədilir, bu haqda demək olar ki, məlumat verilmirdi [33].

V.N.Samsonovun 2 dekabr 1988-ci ildə verdiyi məlumatda isə Quqark, Kalinino, Stepanavan rayonlarında baş vermiş toqquşmalarda artıq ölüm hadisələrinin olduğu xəbər verilir, Ermənistanın bütün azərbaycanlılar yaşayan rayonlarında vəziyyətin kəskin və ağır olması göstərilirdi [29].

Armenpressin Respublika Daxili İşlər Nazirliyinə istinadən yaydığı xəbərdə Masis, Ararat, Noyomberyan, Spitak, Quqark və başqa azərbaycanlıların vəziyyətinin olduqca ağır olması, toqquşmalar nəticəsində xeyli insanların yaralandığı, hətta ölüm hadisələrinin baş verdiyi,qorxu və narahatçılığın hökm sürdüyü bildirilirdi.

Azərbaycan SSR-də isə Ə.Vəzirovun göstərişi azərbaycanlılarla qaçqınlarla bağlı faktla-

rın mətbuat səhifələrinə çıxarılması qadağan edilmişdi. «Azərinform» Azərbaycan Daxili İşlər Nazirliyinə və Səhiyyə Nazirliyinə istinadən yaydığı xəbərdə azərbaycanlıların Ermənistanda kütləvi zorakılığa məruz qalmasını şaiyə və uydurma adlandırırdı [13].

«Qarabağ» komitəsi avantüristlərinin çağırışı ilə partiya, sovet işçilərinin də komitəçilərə qoşulmuş, ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə onlar adamların kütləvi surətdə qovulmasında fəal iştirak edirdilər Bu cür «missiya» ilə partiya-sovet rəhbərləri Kirovakanda, Stepanavanda, Artaşatda və azərbaycanlıların yaşadıqları rayonlarda bir-bir gəzirdilər. Komitənin yerli özəklərinin təşəbbüsü ilə rayon və kəndlərdə mitinqlər təşkil edilərək azərbaycanlılardan öz evlərini tərk etmələri tələb edilirdi [50].

Azərbaycanlı əhalinin təhlükəsizliyi Ermənistanda hüquq-mühavizə orqanları tərəfindən qorunmadığından əslən Ermənistandan olan azərbaycan vətəndaşları Azərbaycan hökumətindən onların ailələrinin təhlükəsizliklərinin təmin olunması üçün təhlükəsizlik tədbirləri görülməsini tələb edirdilər.Bakı şəhəri hərbi komendantının məlumata görə, yaranmış vəziyyətlə bağlı Azərbaycan KP MK-nın məsul işçiləri, Ermənistanın Quqark, İcevan, Krasnoselsk, Vardenis, Qafandan olan nümayəndələri noyabrın 30-da dörd zabit qrupu ilə birlikdə bu rayonlarda olmuş və müəyyən edilmişdir ki, bu rayonlarda azərbaycanlı əhalinin vəziyyət hələ də ağırdır [12].

1988-ci ilin payızından, oktyabr-noyabr aylarından başlayaraq Ermənistanda Azərbaycan türklərinə qarşı yeni faciəli hadisələr törədilir, bütün yaşayış məntəqələrində mütəşəkkil mübarizə aparılır, evlər yandırılır,adamlar öldürülürdü. Ermənistan SSR Daxili İşlər Naziri U.Harutyunyan rəsmi şəkildə bildirirdi ki, respublikanın bir sıra rayonlarında vəziyyət nəzarətdən çıxıb, hətta «...respublikanın səkkiz rayonunda toqquşma,ölüm hadisəsi, ağır bədən xəsarəti ilə nəticələnmiş, evlər və şəxsi əmlak yandırılmışdır...» [30].

Komendant həmçinin bu rayonlarda vəziyyətin hələ də ağır və çox vaxt qeyri-müəyyən olduğunu qeyd edir, Ermənistanda vəziyyətin necə yaxşılaşdırmağın, azərbaycanlı vətəndaşların həyatını, şərəfini və ləyaqətini necə qorumaq haqqında fikrimi və təkliflərimi yazılı surətdə Sov.İKP MK-nın xüsusi olaraq yaradılmış komissiyasına bildirmişəm. Mən həmçinin Yerevan şəhəri xüsusi rayonun komendantı general-leytenant V.N.Samsonova sərəncam vermişəm ki, şəraiti normal hala salınması üçün zəruri olan yerlərdə, bütün yaşayış məntəqələrinə əsgəri qarnizonlar göndərsin.Eyni zamanda o, bildirirdi ki, bu il dekabrın 1-də Bakı şəhəri xüsusi rayonu zabitlərinin, Azərbaycan SSR Nazirlər Sovetinin, habelə Qafan, Sisyan və İcevan rayonlarından köçmiş azərbaycanlıların nümayəndələrinin birgə səyyar qrupu həmin rayonlarda vəziyyəti ətraflı yoxlamaq məqsədilə vertolyotlarla oraya yola düşmüşlər.Ararat və Masis rayonlarında da eyni vəziyyəti Yerevan şəhəri xüsusi rayonu hərbi komendatının əsgəri qüvvələri yerinə yetirəcəklər [12].

Əlbəttə ki, bütün bunlar azərbaycanlı əhalinin ermənilər tərəfindən işgəncələrə və zorakılığa məruz qaldığını göstərməklə bərabər, həm də vəziyyətin nəzarətə alınması və sabitləşdirilməsi barədə generalın təkliflərinin nədən ibarət olduğu aydın olur.M.Tyaqınov və hərbi komendantlıq Ermənistanda yaşayan azərbaycanlı əhalinin təhlükəsizliyini yerindəcə təmin etmək əvəzinə, onların Azərbaycana köçürülməsini ən asan və optimal yolunu tapmış, bunu çıxış yolu görür və bundan sonra azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi prosesinə başladı [12].

Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistanda azərbaycanlıların sıx yaşadıqları yaşayış məntəqələrindən onların köçürülməsi üçün Bakı şəhəri xüsusi rayonunun hərbi komendantı M.Tyaqunov ilə birlikdə gördüyü tədbirlər nəticəsində dekabrın 1-dən 2-dək Masis rayonundan, 3800, Spitakdan 400 nəfər, Ararat rayonundan 450 nəfər, Kalinino rayonundan 150 nəfər, Kirovakandan 482 nəfər, Stepanavandan 614 nəfərin hərbi vertolyotlarla Azərbaycan ərazisinə daşındığı bildirirdi. Azərbaycan hökumət tərəfindən verilən digər məlumatda isə dekabrın 2-dək azərbaycanlı qaçqınların sayının 80 mini keçdiyi aydın olur [13].

Görülən tədbirlər nəticəsində Stepanavan və Masis rayonlarından azərbaycanlılar tamamilə köçürülmüş, Qafan rayonunun Girətağ,

Kürdlər, Çaykənd, Pürülü, Payəqan, Hacabad yaşayış məntəqələrinin axırıncı azərbaycanlı sakinləri (130 ailə) avtomobil nəqliyyatı ilə əsgəri bölmələrin mühafizəsi altında Qafan rayon mərkəzinə gətirilərək elektrik qatarı ilə Zəngilana köçürülmüşdü [6].

Ermənistan SSR-dəki daimi yaşayış yerlərini tərk etmiş əhali ilə iş üzrə respublika hökumət komissiyasının iclasında Nazirlər Sovetinin sədri H.Seyidov Ermənistandan Azərbaycana 110 mindən çox azərbaycanlı qaçqının gəldiyi bildirirdi [11].

Ermənistan KP, «Qarabağ» komitəsi və digər millətçi təşkilatlar və sovet hərbçiləri birgə hərəkət etdilər. Bu həm də dövlət səviyyəsində həyata keçirilmiş deportasiya idi. Noyabrın 25-i ilə dekabrın 5-i arasındakı on gün ərzində isə ən dəhşətli, qanlı cinayətlər törədildi. 200 mindən çox azərbaycanlı həmin günlərdə Ermənistan ərazisindən deportasiya edilmişdi.

Azərbaycan Respublikası Qaçqınlar Cəmiyyətinin 1997-ci il tam olmayan məlumatında Azərbaycana Ermənistandan 42.107 (ailə) 210.535 nəfər azərbaycanlı qaçqın gəlmişdir.Bu məlumat doğru deyil.Belə ki, bu siyahıya qaçqın gəlmiş ailələrin əsgərlikdə olan, Azərbaycanda, Rusiyada oxuyan tələbələr daxil edilməyib.Bütün bunları nəzərə alsaq 1988-1991-ci illərdə Azərbaycan SSR-ə 250 mindən artıq azəbaycanlı qaçqın gəlmişdi.

Sov.İKP MK və SSRİ Nazirlər Soveti «Azərbaycan SSR-də və Ermənistan SSR-də vətəndaşların konstitusiya hüquqlarının çox kobud surətdə pozulması haqqında» 5 dekabr və «Vətəndaşları daimi yaşayış yerlərindən getməyə vadar edən Azərbaycan SSR və Ermənistan SSR yerli orqanlarının hərəkətləri haqqında» 6 dekabr 1988-ci il tarixl qərarlarında SSRİ hökumətinin narahatlığı ifadə edilir, vəzifəli şəxslərin iştirakı ilə ekstremist əhval-ruhiyyəli qruplar milli əlamətə görə vətəndaşların daimi yaşayış yerlərindən kütləvi surətdə köçüb getməsinə yönəlmiş hərəkətləri pislənilirdi [14]. Əslində azərbaycanlıların tarixi vətənlərindən deportasiyasından sonra belə bir qərarın verilməsi Azərbaycan SSR-dən ermənilərin köçməsinin qarşısını almaq, onların hüquqlarının qorunması ilə bağlı idi.

Ermənistandan Azərbaycan türklərinin vəhşiliklə qovulması təsadüfi hadisə deyildi, respublika partiya rəhbərlərinin Mərkəzi hökumətlə birgə razılaşdırılmış və birgə həyata keçirdikləri ardıcıl siyasətin nəticəsi idi. Ermənistan KP MK-nın 1989-cu ildə qəbul etdiyi qərar da bunu təsdiq edir. Ermənistandan Azərbaycan türklərinin vəhşiliklə qovulması respublika rəhbərliyinin Mərkəzi hökumətlə razılaşdırılmış və birgə həyata keçirdikləri ardıcıl siyasətin nəticəsi idi.

Ermənistan KP MK-nın 1989-cu ildə qəbul etdiyi qərar da bu faktı təsdiq edir. Ermənistan KP MK ümumi şöbəsinin müdiri L.Çaxmaxçyan «Pravda» qəzeinə məlumatda göstərirdi ki, Ermənistanda Stepanavan, İcevan, Yeğeqnadzor, Quqark, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyomberyan rayonlarında vətəndaşların konstitusiya hüquqları kobud surətdə pozulmuş, vəziyyəti sabitləşdirmək və millətlərarası toqquşmaların qarşısını almaq üçün tədbir görülməmiş, rayon rəhbərləri tərəfindən azərbaycanlı əhalinin kütləvi surətdə köçməsi təşkil edilmişdir [46].

Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri Q.Puqonun iştirakı ilə 10 fevral 1989-cu ildə Sov.İKP MK-nin «Azərbaycan SSR və Ermənistan SSR-nin vəzifəli şəxslərin qanunazidd fəaliyyəti haqqında» 15 iyun 1988-ci il tarixli qərarının gedişi haqqında qərarında deyilirdi: «Ermənistanda millətlərarası zəmində vətəndaşların konistitusiya hüquqları gobud şəkildə pozulmuş, rəhbər vəzifəli şəxslər tərəfindən azərbaycanlı əhalinin ölüm (23 qətl) hadisələri ilə müşaiyyət olunan kütləvi qovulmasını təşkil etmişlər» [45]. O, həmçinin bildirdi ki, Azərbaycandan ermənilərin, Ermənistandan isə azərbaycanlıların nəticədə hər iki respublikadan 300 mindən çox qaçqın gündəlik iş yerini, evini tərk etmişdir ki, bu da həddindən artıq gərgin daxili-siyasi şərait yaradır [45].

«Qarabağ Komitə»si və fəalları respublikada millətlərarası münasibətlərin kəskinləşdirilməsində, iğtişaşların təşkilində, respublikada sosial-siyasi gərginliyin yaradılmasında və on minlərlə azərbaycanlıların doğma torpaqlarından qovulmasında böyük rol oynadılar [47].

1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən 675 cinayət işi qaldırılmış, onlardan 283-ü istintaq aidiyyatı üzrə Azərbaycan SSR-ə göndərilmişdir. Azərbaycan SSR-dən Ermənistana təhqiqat üçün 138 cina-

yət işi daxil olmuşdur [8]. Erməni tərəfinin doğru olmayan məlumatında isə 1988-1989-cu illərdə milli zəmində cəmi 25 nəfər azərbaycanlı öldürülmüş, onlardan 11 nəfərin isə Quqark rayonundan olduğu bildirilirdi [45].

Azərbaycan Respublikası Qaçqınlar Cəmiyyətinin tərtib etdiyi siyahıda isə 1988-1989-cu illərdə Ermənistanda milli zəmində 227 nəfər azərbaycanlı türk həlak olmuş, minlərlə adam şikəst edilmişdir [6].

1988-ci ilin axırlarınadək Ermənistan ərazisində mövcud olmuş Azərbaycan türkləri yaşadıqları 22 rayondan, 170 təmiz və 94 qarışıq yaşayış məntəqələrindən zorakılıqla deportasiya edilmişdi.

Ermənistan SSR-də axırıncı Nüvədi kəndi də 1991-ci ilin avqustun 8-nədək müdafiə olunsa da, avqustun 7-dən 8-nə keçən gecə ermənilər tərəfindən boşaldıldı.Bu işdə onlara Kryuçkovun KQB ordusunun Nüvədidə yerləşən əsgəri hissələri kömək edirdi. «Azərinform»un Azərbaycan DTK-ya istinadən yaymış olduğu xəbərdə Nüvədinin boşaldılması əməliyyatına Ermənistan Daxili İşlər Nazirinin müavini Q.Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi [17].

Nəticə. Beləliklə, bu nəticəyə gəlmək olar: 1) Ermənistandan axırıncı türk kəndi Nüvədinin boşaldılması ilə ermənilərin etnik təmizləmə siyasəti XX əsrin 90-cı ilin əvvəlində başa çatdı; 2) XX əsrin 80-ci illərin axırlarında Azərbaycan türklərinin Ermənistan SSR-dən deportasiyası ilə xalqımıza qarşı təcavüz və cinayətlərin yeni dalğası başladı; 3) Erməni təcavüzü nəticəsində xalqımız soyqırıma məruz qaldı. Masisdə, Şirazlıda, Qafanda, Quqarkda ermənilər türk əhaliyə qarşı dəhşətli qırğınlar və talanlar törətdilər; 4) Bu siyasətin həyata keçirilməsində partiya-sovet orqanları və şovinist erməni dairələr xüsusi fəallıq göstərdilər;5)Azərbaycan türklərinin və başqa etnik qrupa mənsub xalqların deportasiyası ilə Ermənistan türksüz monoetnik respublikaya çevrildi.

### Ədəbiyyat siyahısı

1.Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. deportasiya. soyqırım. qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.

2.Azərbaycanlı qaçqınlarla iş respublika komissiyasında «Kommunist» qəz., Bakı: 1988, 28 noyabr, №282

3.Azərinformun xəbəri. «Kommunist» qəz., Bakı: 1988,10 iyul, №162

4.Deportasiya. Bakı: Azərbaycan Ensiklopediyası, 1998, 440 s.

5. Əsədov S. Ömür yaddaşı. Didərginlər. 1918-1920, 1948-1953, 1988-1989, Bakı: Gənclik 1990, s.56-107

6.Ələkbərli Ə. Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı (Sənədlərin dili ilə). Bakı: Nurlan, 2008, 560 s.

7.Həsənova L.L. Azərbaycanlılar Ermənistan SSR-də, ermənilər Azərbaycan SSR-də. Tarixi demoqrafik təhlil (1920-1989-cu illər). Bakı Universiteti xəbərləri, 1999, №4.

8.Həsənli H. Faciələrin xronikası yaradılmalıdır. «Vətən səsi» qəz., avqust 1990, №30.

9. Lenin adına meydanda mitinq. «Kommunist» qəz., Bakı: 1988, 23 noyabr, №272

10. «Kommunist»и qəz., Bakı: 1988, 30 noyabr №277

11. «Kommunist» qəz., Bakı: 1988, 8 dekabr, №285

12. «Kommunist» qəz., Bakı: 1988, 2 dekabr, №280

13. «Kommunist» qəz., Bakı: 1988, 3 dekabr, №281

14. «Kommunist» qəz., Bakı: 1988, 7 dekabr, №284

15. «Kommunist» qəz., Bakı: 1988, 3 dekabr, №277

16. Kərimli A. Zəngəzurun qeyrət qalası - Nüvədi. Bakı: Azərbaycan, 1996, 76 s.

17.Nüvədi hadisələrinə dair. «Həyat» qəz., 10 avqust, 1991, №153

18. «Sovet Ermənistanı» qəz., Yerevan: 1988-ci il, №32

19.Vəliyev İ. Sənədlərin dili ilə. «Gün», qəz., 14-20 noyabr, №01-02, 2004

20. Vəliyev İ. Qaçqınlıq. Bakı: Önər, 1996, 104 s.

21.Vəliyev İ. Dünya susur, tarix susmur. Bakı: Gənclik, 1994, 432 s.

22.Vəlizadə İ., Muradov B. Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 1996, 172 s.

23.Бунятов З.Почему Сумгаить? История Азербайджана по документами и публикациям. Баку: Елм, 1989, 354стр.

24.В Призидиума Верховного Совета Армянской ССР «Коммунист» Ереван, 25 март 1988, №72

25.В Призидиума Верховного Совета Армянской ССР «Коммунист» Ереван, 14 июнь 1988, №142

26.В ЦК КП Армении "Коммунист" Ереван, 26 июль 1988, №176

27.В МВД Армянской ССР «Коммунист» Ереван, 29 ноябрь 1988, №278

28.В комиссии Совета Министров Армянской ССР по вопросом беженцев из Азербайджанской ССР. «Коммунист» Ереван, 1 декабрь 1988, №280

29.В МВД Армянской ССР. «Коммунист» Ереван, 3декабрь 1988, №282

30. В МВД Армянской ССР «Коммунист» Ереван, 9 декабрь 1988, №286

31.В Бюро ЦК КП Армении «Коммунист» Ереван, 23 март 1988, №69

32.Выступление председатель Президиума Верховного Совета Армянской ССР Г.М.Восканяна по Армянскому телевидению 19 июня 1988 г. «Коммунист» Ереван, 21 июн, 1988, №146

33.Выступление I секретаря ЦК КП Армении К.С.Демирчяна по Армянскому телевидению 29 февраля 1988 г. «Коммунист» Ереван, 1 март, 1988, №51

34.Выступление МВД Армянской ССР А.С.Шагиняна по Армянскому телевидению. «Коммунист» Ереван, 8 март 1988, №57

35.Газ., «Экспресс хроника», 16 апрелья 1991, №16

36. Дашдемиров А. Карабахский конфликт в контексте перестройкий. «Вестьник Аналитики» №3, 2005 г.стр.191

37.Двадцать месяц за борьбы (сборник выступлений). Ереван: Изд.АОД, 1989, 45стр.

38.Ереванлы А.О. Черное холодное лето 1988 года (Ереванские события). Баку: Елм, 2001, 120 стр.

39.История Армянская народа. Ереван: Ер.ГУ, 1980, стр. 364-365.

40.История Азербайджана по документами и публикациям. Баку: Елм, 1989, 354стр.

41. «Коммунист» Ереван, 3 март 1988, №53

42.«Коммунист» Ереван, 22 март 1988, №68

43. «Коммунист» Ереван, 26 июль 1988, №176 по Армянскому телевидению

44. «Коммунист» Ереван, 25 ноябрь 1988, №276

45. «Коммунист». Москва, Политическая литература, 1983, №8, стр. 115-116.

46. «Правда». Москва, 10 январь, 1989 г., №17

47. «Правда» Москва, 6 январь, 1989 г., №4

48. «Правда». Москва, 18 январь, 1989 г., №18

49.Сообшения Арменпресс «Коммунист» Ереван, 11 декабрь 1988, №280

50.Час беды и час ответственности. Газ., «Коммунист», Ереван, 13 декабрь, 1988, №290.

## Summary

**Asad Gurbanli**

### Implementation and results of the policy of ethnic cleansing against Azerbaijani Turks in the Armenian SSR (1988-1991)

The article is devoted to the problem of the deportation of Azerbaijani Turks from the Armenian SSR in 1988-1. In the article, for the first time, the history and roots of the deportation of Azerbaijanis, as well as the political guarantor, are shown on the basis of historical facts. Political events that took place in the region in these years, and numerous refugee problems caused by

Armenian ethnic nationalism in the region were investigated. The ethnic discrimination suffered by compatriots in the Armenian SSR, and at the same time the activities of the Armenian Party-Soviet organizations in this direction are analyzed in detail on the basis of Azerbaijani Armenian sources.

**Keywords:** *deportation. Azerbaijan, Armenian, party, refugees, Soviet, Armenia, Azerbaijiani Turkish*

## Резюме

**Асад Гурбанлы**

### Проведение и результаты этнической чистки против азербайджанских тюрков в Армянской ССР (1988-1991 гг.)

Статья посвящена проблеме депортации азербайджанских тюрков из Армянской ССР в 1988-1991 годах. В статье впервые на основе исторических фактов показаны история и корни депортации азербайджанцев, а также политический гарант. Были исследованы политические события, происходившие в регионе в эти годы, и многочисленные проблемы беженцев, вызванные армянским этническим национализмом в регионе. Этническая дискриминация, которой подвергались наши соотечественники в Армянской ССР, и в то же время деятельность армянских партийно-советских организаций в этом направлении подробно проанализированы на основе азербайджанских и армянских источников. я Ключевые слова депортация, азербайджанец, армянин, партия, беженцы, советский. Армения.

**Ключевые слова:** *депортация, Азербайджан, Армения, партия, беженцы, Советский, Армянин, Азербайджанский тюрк*

UOT 94(479.242)
https://doi.org/10.59849/2710-0820.2023.2.46

**Азиза Назарли**
*Институт истории им.А.А.Бакиханова НАНА*
*Ведущий научный сотрудник отдела Истории Азербайджана советского периода, доктор философии по истории, доцент*
*azizaenvernazarli@mail.ru*

# ВОССТАНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ПРОТИВ СОВЕТСКОЙ ОККУПАЦИИ (1920-1921)

***Ключевые слова:*** *Азербайджанская Республика, Азербайджанский революционный комитет, Н.Нариманов, XI Красная Армия, оккупация, восстание.*

Тема, поднятая в представленной статье, является очень актуальной. Она обусловлена фальсифицированием историками в течение 70 лет темы установления советской власти в Азербайджане, которая преподносилась ими как «победа трудящихся масс над антинародным буржуазным правительством с помощью XI Красной Армии». Народные восстания в период советской оккупации стали интерпретироваться как вооружённое сопротивление контрреволюции, а их беспощадное подавление как борьба с бандитизмом.

В нашей статье сделана попытка дать многочисленные восстания в различных регионах Азербайджана комплексно как единое вооружённое сопротивление азербайджанского народа против оккупации его Родины со стороны Советской России и установления большевистской власти.

Как известно, 27 апреля 1920 г. независимая и демократическая Азербайджанская Республика (май 1918 – апрель 1920 гг.), признанная де-факто Верховным Советом Антанты, прекратила своё существование в результате оккупации Северного Азербайджана со стороны Советской России.

С первых дней оккупации насаждался диктаторский режим. Основным средством для закабаления азербайджанского народа и вынуждения его признать советскую власть было сознательное насаждение в массовом сознании тотального страха. Именно для этого применялся террор на государственном уровне, а это вызвало справедливое возмущение, гнев народа и привело к Движению Сопротивления во многих уездах.

Бурную деятельность развил Временный Революционный Комитет (ВРК) Азербайджана, выпускавший от имени Н.Нариманова (он приехал в Баку только 16 мая 1920 г.) одно за другим обращения к населению с призывом к сплочению вокруг Советской власти. В обращении от 28 апреля 1920 г. говорилось: «Всем же, кто станет поперёк великого пути, предстоящего рабоче-крестьянскому Азербайджану, пощады не будет … каждый, кто посмеет воспользоваться неокрепшим ещё порядком для смуты, провокации, разбоя, грабежа и мародёрства, все враги народа, продолжающие или начинающие борьбу с новым порядком, будут безжалостно сметены с лица земли» [27, с.271].

В обращении ВРК к аскерам (солдатам) Азербайджанской армии с призывом помогать Красной Армии в борьбе за Советскую власть от 29 апреля 1920 года строго предупреждалось, что: «отныне Азербайджанская Советская Республика становится союзницей Российской Советской Республики и никакие вооружённые столкновения с Красной Армией не должны иметь места» [27, с.272].

А в Обращении Азревкома к населению Азербайджана с призывом к заключению братского союза с Советской Россией и оказанию помощи Красной Армии от 29 апреля

1920 года уже звучала неприкрытая угроза: «на белый террор буржуазии и помещиков мы ответим массовым беспощадным красным террором» [23, сс.13; 27, с.277].

Гамид Султанов, назначенный народным комиссаром внутренних дел, издал 29 апреля 1920 года свой первый приказ об арестах и конфискациях, с которого начались жесткие репрессии Советской власти против местного населения [11, с.64]. Он стоял во главе борьбы против «контрреволюционеров, мятежников», т.е. тех, кто выступал против насильственной советизации Азербайджана.

29 апреля 1920 г. была организована Азербайджанская Чрезвычайная Комиссия (АзЧека, АЧК). Не имея ещё в то время в достаточном количестве своих сил, АзЧека работала совместно с Особым отделом XI Красной Армии. А на местах, в более крупных районах были организованы местные ЧК при особых отделах дивизий [33, с.39].

Руководил Особым отделом XI Красной Армии Семён Андреевич Панкратов, отличившийся особой жестокостью к защитникам идеи независимости [11, с.68]. Матрос, большевик, один из руководителей азербайджанской ЧК, он участвовал в расстреле офицеров армии Азербайджанской Республики [31, с.465].

Трагические последствия для азербайджанского народа имел приказ Азревкома от 2 июня 1920 г. «О борьбе с контрреволюцией» [11, с.65], результаты которого дали знать о себе на протяжении первых десятилетий советской власти тысячами погубленных жизней, исковерканных человеческих судеб.

Был дан старт началу жестоким репрессиям против коренного азербайджанского населения. 17 мая 1920 г. политбюро АКП(б) приняло постановление о создании в Баку трудового (концентрационного) лагеря. Начались повальные аресты и убийства. По словам исследователя Ш.Гусейнова, «притаившиеся под коммунистической личиной дашнаки вкупе с русскими фанатиками – шовинистами и отдельными обманутыми национальными холуями принялись в массовом порядке изолировать от общества и уничтожать в первую очередь интеллигенцию, людей думающих, не желающих склониться перед новым оккупационным режимом. Главной мишенью большевистских властей были поборники независимости – те, кто хранил в своих сердцах, в плоти и крови идеалы 28 Мая» [22, с.34].

Самым вопиющим фактом была реорганизация, а фактически ликвидация национальной армии. 7 мая 1920 г. Азревком постановил передать с 1 мая все военно-морские силы республики в распоряжение Красной Армии и Красного Флота Советской России [21, с.292]. Это и привело к взрыву возмущения среди населения Азербайджана, не желавшего подчиняться советским порядкам.

Однако ни насильственное принуждение, ни многообещающие заявления новой власти не могли заставить народ смириться с фактической оккупацией своей страны. Во многих регионах Азербайджана создавались вооружённые отряды, которые выступали против Советской власти, против присутствия в республике XI Армии. Во главе восстаний стояли лидеры независимости, военные, беки, духовные лица.

М.Б.Мамедзаде писал, что основным ядром повстанцев была национальная армия. Сначала восстала Гянджа, одновременно с ней Тертер, Агдам, Барда, Гейчай, Шеки, Губа, Лянкяран [15, сс.154-155].

Самым первым и крупным восстанием против большевистской власти было Гянджинское восстание. Гянджинское восстание (26-31 мая, а по некоторым данным 4 июня 1920 г.), возглавляли полковник Джахангир бек Кязимбеков, полковник Хасунбеков, генерал Джавад бек Шихлинский, Гаджи Аскер оглы Мухаммедали, Теймур бек Новрузов, Сары Алекпер, Гасым Колахани, Татоглу Гасан, братья Хойские, Гамбар Алекперов и принц-полковник Мухаммед Мирза Каджар. Количество восставших превышало 10 тыс. человек [1, сс.396; 9, с.65]. Гарабахское восстание (Шуша, Агдам, Барда, 29 мая – 13 июня 1920 г.) возглавил руководитель Кавказской Исламской Армии турецкий генерал Нуру Паша и полковник Зейналов [2, с.130]. В Гарабахе антисовет-

ское восстание поддерживалось шеститысячной национальной армией Азербайджана и турецкими офицерами [26, с.150]. Целью восстания было восстановление утерянной власти национального правительства. В народной памяти сохранилась героическая деятельность 28 солдат и 4 офицеров азербайджанской армии, боровшихся против оккупантов, вылившаяся в «Легенду о 32-х». В Гарабахе было 1200-1500 повстанцев [19, с.30]. Против восставших в регионе жестокость проявила 32 дивизия, одна бригада 20-й стрелковой дивизии, бронеавтомобили, военные самолёты и 18 конная дивизия [19, с.30]. Агрессивное поведение военнослужащих Красной Армии и неприятие советского режима послужило причиной Загатальского антисоветского восстания. Загатальским восстанием (6-18 июня 1920 г.) руководил военный Ахмедиев и имам села Тала Хафиз Эфенди [2, сс.452-453]. В Загатальском округе и Шеки в восстаниях участвовали представители высших слоёв, духовенство и турецкие военные [26, с.150]: Муслим Эфенди, Мухаммед Эфенди, Башир бек Галачиев, Молла Мухаммед Дибиров и др. [16, с.173]. В Загатальском восстании (июнь 1920 г.) участвовало 1 тыс. человек. В этом регионе расположились 37-й, 39-й и 40-й конные полки 7-й конной дивизии XI Красной Армии. Они понесли большие потери. Чтобы спасти 7-ю дивизию на помощь пришли 58-я пехотная бригада, 27-й бронеотряд и представители командования – коммунисты. 18 июня части XI Красной Армии вошли в г.Загатала, и начались кровавые расправы над населением. Без суда и следствия было расстреляно 36 виднейших представителей местного населения [19, с.33-34]. В телеграмме Кирова из Ростова в Москву Чичерину, Ленину от 9 июля 1920 г. говорится, что 19 июня в 23 часа он прибыл в Ростов, говорил с коммунистами, приехавшими из Грузии. Киров пишет, что «есть данные предполагать, что выступление в Гандже мусаватистов Азербайджана тщательно подготовлялось в самом Тифлисе … Только что говорил с Орджоникидзе, находящимся в Баку. Он сообщает следующее: в Елизаветпольской губернии было крупное восстание, подавленное после шестидневных боёв. Елизаветполь пострадал от артиллерии. Сейчас идут восстания в Шуше и Агдаме. Восстания организуются мусаватистами. Грузины определённо намерены использовать Закатальский округ, как базу против советского Азербайджана в связи с событиями в Елизаветпольской губернии. Сегодня ночью выезжаем в Тифлис через Баку. Киров» [29, лл.1, 2]. В июле 1920 года начались волнения в городе Шамахы. Причиной послужили незаконные действия Первого Грузинского полка, 90% численного состава которого составляли армяне. Этот полк уничтожил населённый пункт Кюрдамир, а отправленная вслед за ним 18-я стрелковая дивизия уничтожила более половины местного населения. Жестокое обращение красноармейцев послужило основной причиной недовольства коренного населения [26, с.150]. Губинское восстание (23 августа – 10 сентября 1920 г.) возглавляли депутат Азербайджанского Парламента от партии Иттихад Хамдулла Эфенди Эфендизаде и Маил. В возглавляемом подполковником Азербайджанской Армии Эфендиевым отряде были и турецкие офицеры [2, с.347]. Соратниками Хамдуллы Эфенди в этом восстании были его брат Шамсаддин Эфенди, турецкий офицер Исмаил Али Эфенди, Саттар Эфендиев, офицер национальной армии Шюкюр бек Исмаилбеков, Ариф Эфенди Шихзаде [18, с.137], а также А.Зизикский и шихлярские беки [26, с.150]. Следует указать, что ещё 27 апреля 1920 года, когда большевистский бронепоезд вторгся в Азербайджан, Х.Эфендизаде со своими сторонниками попытался его остановить. Однако силы были неравны, и пришлось отступить [1, с.325]. Восставшие сельчане Хачмаса, Дивичи, Гусара и Губы составили 7-8 тыс. человек [19, с.36].

В Лянкяранском уезде тоже, как известно, вспыхнул антисоветский мятеж (июнь-декабрь 1920 года) [2, с.455]. В Лянкяранском восстании участвовало 6-10 тыс. человек [19, с.39]. В районе Зуванда воевали около 4 тыс. человек [19, с.40]. Их лидером был мусаватист Султан бек Гулубеков [19, с.40]. Характеризуя восстания в Лянкяране,

большевики писали, что незаконные действия и жестокое обращение солдат Гарабахского полка, состоявшего в основном из красноармейцев-армян, вызвали негодование коренного населения [26, с.150]. Возглавляли его Габиб бек Салимов и турецкий офицер Юсиф Джамал бек, активное участие принимали отряды Шахверана, Рамазана и Гудрата Моллаага оглу. В январе 1921 года в Лерике под руководством Шахверана, а в феврале 1921 года в Лянкяране под руководством Наджафкули хана снова вспыхнули мятежи [2, сс.455, 164]. Наджафкули хан призывал мусульман к священной войне против большевиков [26, с.150]. Силы восставших составляли свыше 6 тысяч человек [24, с.350]. В Астаре в августе 1921 года опять вспыхнул мятеж, в котором участвовали отряды Рашид хана, Гусейнали хана, Шахверана, Атахана, Наджафкули хана и его брата Ахмед хана [2, с.167].

В южном регионе Азербайджана движение сопротивления имело свои специфические особенности. Как известно, этот регион граничит с Ираном, и у мятежников была возможность переходить на территорию соседнего государства, а у солдат XI Армии такой возможности, естественно, не было. Такая ситуация создавала условия для большего размаха Движения Сопротивления. В Лянкяранском уезде Движение Сопротивления под руководством Гусейна Рамазана, Гулама Тагиева и турецкого полковника Джамал бека очень беспокоило бакинских большевиков, которые получили телеграмму из Лянкярана, в которой предупреждалось, что если до вечера не будет выслана дополнительная военная сила, здесь могут свергнуть Советскую власть. Телеграмма ясно свидетельствовала о сложной общественно-политической ситуации в уезде. Первоначально разрозненные силы впоследствии объединились и стали выступать единым фронтом, успешно осуществив несколько операций. Например, отряд Гулама Тагиева 4 июня 1920 года окружил и разгромил армейскую часть из 200 человек. Во время нападения воинских частей на Зювандский участок из 400 красноармейцев 100 были убиты. Для советской власти большую опасность представляли повстанцы под руководством Наджафгулу хана, Гусейнали хана и Асад хана Талышинского. Ни военные операции XI Армии, ни тактика переговоров с повстанцами не имели успеха. Большевики добились успеха в борьбе с повстанцами, применив хитрый политический приём. Азревком издал указ о помиловании добровольно сдавшихся повстанцев, что сильно ударило по Движению Сопротивления. Гулам Тагиев и Гусейн Рамазан отказались от руководства восстанием и вернулись к мирной жизни, а Шахверан, перешедший в Иран, был там убит. Движение Сопротивления в южном регионе стало ослабевать [24, с.326].

Восстали и другие регионы. В Габале против оккупантов началась священная война – джихад. Летом 1920 года сельчане Мюшкюрлю (Шамхор) поднялись на борьбу с советским режимом. Отряды были многочисленны. В селе Гарадонлу (Имишли) выступил отряд Сарыхана Ширванского, насчитывавший 4 тысячи повстанцев [2, с.347]. В Лянкяранском уезде в отряде генерала Салимова было 1500 повстанцев. Они получали помощь из Персии людьми и снаряжением [13, с.86; 24, с.290]. В Лянкяранском уезде действовали также отряды Гулама Тагиева, Ислам Халил бека и др. численностью в несколько тысяч человек [24, с.336]. В Джавадском уезде отряд Ширванхана (Сарыхан Ширванлы) и Моллы Али-Ахунда насчитывал 3000 человек, на берегу реки Куры – 800 человек, в Шамкире – 500. Здесь к восставшим примкнули женщины и дети [13, с.86]. 3 июня отряд Ширванхана напал на 2-й Кавалерийский полк 28-й стрелковой дивизии. К восставшим примкнули персидские азербайджанцы (5000 чел.) [24, с.288]. В ноябре 1920 года в долине р.Дзегам (Гянджинский уезд) вспыхнуло восстание, во главе которого стоял сильный отряд Намаза. В январе 1921 года это восстание было подавлено [24, с.335, 336]. В начале 1921 года недовольство выразило население Агдаша. Движение возглавил турецкий подданный Гусейн Эфенди Омар-заде. Объявив себя главнокомандующим Кавказской национальной армии,

Г.Омар-заде призывал население «к борьбе против бесчинств и беззаконий, творимых представителями советской власти» [26, с.151].

Особо секретно-оперативная директива начальника штаба XI Красной Армии от 26 мая 1920 г. предписывала «начальникам районов при подавлении восстания не ожидать приказа – «отмена», так как всегда может быть нарушена связь. Действовать самостоятельно, проявляя полную инициативу для беспощадного истребления восставших, расстреливая без суда все подозрительные элементы… Мелкие вспышки подавлять с суровой жестокостью и беспощадностью…» [9, сс.61-62].

Эти директивы незамедлительно претворялись в жизнь. Так, в сентябре 1920 года с жестокостью было подавлено Губинское восстание, в котором участвовало 5-6 тыс. человек [24, с.335]. В ходе этой операции было убито свыше 400 крестьян. Некоторые сёла загорелись от снарядов [7, л.69]. В другом архивном документе говорится, что число жертв достигло 500 человек [6, л.59]. В подавлении губинского восстания активное участие приняли А.Караев и Гогоберидзе [2, с.346].

Бывший Консул Дании в Баку Манассен написал о масштабах азербайджанской трагедии: «После недавнего восстания татар в Елизаветполе большевики провели суровые карательные операции, в результате которых было убито до 75% населения города» [25, с.345].

Один из активных участников Гянджинского восстания Гачаг Мамедгасым уже в эмиграции в 1964 году вспоминал лидеров Шейхли Джахангир бека, Гаджи Аскер оглу Мухаммедали, Гачаг Ганбара, Сары Алекпера, Татоглу Гасана. Он указал, что ему была поручена охрана территории «Дёрдйол», где от трупов людей и лошадей некуда было ногой ступить. Люди, спасаясь от обстрела со стороны большевиков, бежали в сторону запада. Но путь им преградила река Гушгара, которая текла с огромной скоростью, принося с собой камни. Такое явление произошло впервые. Дети, девушки, старики, старухи бросались в реку и тонули. В воде были уничтожены арбы, полные людьми. Женщины кричали «Спаси нас, Гасым» («Qasım lələ, bizi qurtar»). Потерпевшее поражение Гянджинское восстание перешло в новое русло. Восставшие решили продолжить борьбу, создать гачагские отряды, убежать в горы и мстить за пролитую кровь. Мемуарист указывает, что среди десятков тысяч добровольных борцов, погибших за народное дело, были Сары Гафар из села Чанагчи, Мухамедали из села Саро, Мустафа ага и Малик из Гедабека, Меджид ага из Ягубинского Ущелья (из Шыныха), Мика и Гамза из Хиннинского Ущелья, Абузар сын Моллы Зейнала из Дагбасана, Абдулла, Гаджилар из Айыблы, Рустам и братья-сыновья Рамазана, внуки Абдулкерима Гусейн и Али Зюльгадарли и их родственники из Гараджаамирли (Шамкир), Шуайиб и его брат Мухаммед из Загатала, Абдулмеджид сын Гаджи Билала из посёлка Джар, Гадир и его братья из села Гарвенд (Гарабах). Эта борьба, начавшись в мае 1920 года, продолжилась в последующие 12 лет [12, сс.273-274].

Джейхун бек Гаджибейли в журнале «Азербайджан» (1952, №2), издававшемся в Париже, писал, что тюркская кровь, пролитая в Гяндже в мае месяце, смыла пятно позора от событий 27 апреля [12, с.275].

В Гяндже Красная Армия уничтожила 13.000 мусульман, главным образом женщин, детей, стариков. XI Армия тоже понесла потери – 8,5 тыс. человек [9, сс.83-84]. От дивизии Великанова и нескольких частей XI Армии, дислоцированных в Гяндже, осталось всего 150 солдат [9, сс.18, 50]. По другой версии, в Гяндже погибло 23 тысячи людей: восставших и местного мирного населения – 12 тыс., а оккупантов – 11 тыс. [12, с.272].

8 июня 1920 г. Председатель Азербайджанской Делегации на Конференции Закавказских Республик, бывший Заместитель Председателя Азербайджанского Парламента, Доктор Гасан бек Агаев в записке Дипломатическому представителю Республики Армении при правительстве Грузинской Республики, выражая протест по поводу советской оккупации, констатировал, что в

Гяндже было убито до 8-ми тысяч мусульман, а 1500 мусульманок при занятии города были изнасилованы русскими красноармейцами [30, л.37].

Вспыхнувшее в Нахчыване антисоветское восстание, охватившее Абракунус (сёла Сураб, Аразин, Абракунус) и Шахбузский район (село Кечили и др.), тоже было подавлено с большой жестокостью. Из 89 арестованных повстанцев 50 были расстреляны, остальные – приговорены к лишению свободы на различные сроки, а 3 человека (из них двое с семьями) сосланы [14, с.103].

XI Армия с жестокостью подавила и Загатальское восстание [2, с.455]. В Загатале после подавления восстания у восставших красноармейцами было изъято свыше 6 тысяч иностранных ружей, карабинов, берданок, 8 пулемётов и большое количество пистолетов и другого военного оружия [8, с.44].

Осенью 1920 года в подавлении восстаний в Нухе и Шуше участвовали даже авиаторы. Эффективность их боевых ударов была настолько высокой, что уже на другой день после воздушного налёта на Нуху восстание было с жестокостью подавлено [20, с.113].

С большой жестокостью подавила XI Армия народное восстание и в Гарабахе (сам Левандовский прибыл сюда), после которого прокатилась волна репрессий по всему региону.

Последовавшие зимой 1920-1921 годов восстания в Дагестане, Губинском уезде, Ханналинском ущелье (Шамхорского и Товузского уездов) и прочих районах организовывались, вооружались и руководились уже из Тифлиса [33, с.42].

Приведём цитату из Информационной справки «Азербайджан продолжает сопротивляться», составленной азербайджанской делегацией в Париже на основе сведений, поступивших от повстанческой азербайджанской организации в Грузии, датированной августом 1920 года: «Нам пишут из Батума от 25 июля: Несмотря на все драконовские меры, принимаемые большевистскими комиссарами в Баку в целях не разрешения выезжать из Азербайджана, немало народу успело оставить пределы вчера ещё мирного и богатого, а сегодня стонущего под игом московских большевиков и обобранного ими Азербайджана. Немало азербайджанцев уже в Батуме – есть интеллигенты, члены бывшего парламента, бывшие чиновники азербайджанского правительства, купцы и пр. Все они рисуют положение своей страны весьма мрачно: русские большевики продолжают свою разрушительную работу, не щадя никого и ничего. Вся власть узурпирована ими, и два народных комиссара из местных татар являются лишь игрушкой в руках пришлых «товарищей»… Приказам последних о реквизициях всего добра местного населения нет конца, ежедневно происходят в буквальном смысле ограбление несчастного мирного населения: силой отнимают всё, что находят, скот, муку, рис, яйца, не говоря уже о нефти, рыбе, хлопке, в огромном количестве вывозимых в Россию, куда с награбленным добром азербайджанцев отправлены все паровозы и вагоны, имевшиеся в Азербайджане. Население терроризировано, знаменитая «чрезвычайка» действует вовсю, чтобы вывести из «красного» Азербайджана антибольшевистскую крамолу. Недавно в городах Нухе, Шемахе и Шуше арестовали десятки видных деятелей мусульман, доставили в Баку и здесь посадили в тюрьму, совершенно переполненную антибольшевистами. Но, несмотря на все ужасы, население Азербайджана продолжает оказывать сопротивление – и активное и пассивное – против своих угнетателей и узурпаторов, русских большевиков. Во многих местах образовались партизанские отряды, коими руководят местные деятели. Крестьяне массами пополняют ряды поборников избавления страны от нашествия русских большевиков. Говорят о случаях, когда все мужчины селений, попрятав своих жён и детей, где возможно, распродавали свои пожитки и шли в отряды против угнетателей. Чаша терпения переполнилась, и особенно после трагедии в городе Гяндже (Елизаветполь), где «доблестной» Красной армией убито 15.000 мусульман, решимость бороться объяла всех от мала до велика. В такой атмосфере хуже всего чувствуют себя «народные» комиссары из местных татар.

Мало того, и они, несмотря на свой заимствованный большевизм, не могут быть довольны порядками «ленинского рая», штыками и «чрезвычайкой», внедряемых в совершенно чуждую для большевиков мусульманскую среду» [31, сс.466-467].

Уместно привести следующий архивный материал, из которого усматривается, что восстания в Азербайджане являлись предметом интереса Армении. Чиновники Армении следили и доносили данные о восстаниях. В Тифлис Леграну из Иравана 13 ноября 1920 г. была отправлена телеграмма от Силыня. Силынь стоял во главе командования в Армении и был фактически советником армянского представительства. «… По секретным данным мусаватского доклада азербайджанцев французской военной миссии от 18 октября сего года организацией восстания в Азербайджане руководит русский кавалерийский офицер мусульманин, пользующийся популярностью в Азербайджане и Борчалинском уезде. Подготовлено преимущественно в сёлах по железнодорожной линии ячейки, во главе которых сейчас стоят почётные крестьяне этих сёл. При восстании ячейки разворачиваются в отряды, начальниками коих будут эти крестьяне и начштабами офицеры русской добрармии и турецкой службы. Таких офицеров зарегистрировано 200 человек. Восстание начнётся между Грузинской границей и Евлахским мостом. По занятии Ганджи повстанцы двинутся в Баку, где их поддержит Кубинский уезд. К азербайджанцам примкнут борчалинские татары и закатальские лезгины. Движение будет начато конными партизанами, в начале будут нападения на красноармейские части, перережут провода, испортят железную дорогу … Провоз оружия военприпасов и денег предположен через Грузию. Для начала восстания уже есть винтовки русские и турецкие, считают необходимым иметь 15 миллионов грузинских рублей, 10 млн. ружейных патронов русских и турецких, 100 пулемётов Льюиса и 50 пулемётов Максима. Фамилию организатора и подписавшего этот доклад пока установить не удалось точно …» [28, лл.236,237,300].

Следует отметить, что народные антисоветские восстания продолжались в течение нескольких лет, с 1920 до 1924 гг. произошло 54 широкомасштабных вооружённых восстания [15, с.154]. В 1924-1925 гг. ещё два крупных выступления против советской власти произошли в Хачмазе и Курдистане [26, с.151].

В сентябре 1924 года Топчибашев писал: «В течение последних четырёх лет восстания следовали за восстаниями в упомянутых трёх республиках. В одном Азербайджане со времени большевистского вторжения имело место 56 восстаний. Такое же положение сложилось на Северном Кавказе и в Грузии. В действительности, господство большевиков на Кавказе являлось лишь перемежающимся положением между восстаниями и репрессиями, ведущими к разрушению края» [32, с.99].

Справедливое возмущение народа против оккупантов было интерпретировано советскими властями как «белый террор». С апреля 1920 года до августа 1921 года в результате подавления этого «террора» в Азербайджане погибло 48 тысяч человек. Среди репрессированных большое место занимали представители национальной интеллигенции [10, с.81]. Из среды народа выбыли лучшие сыновья и дочери Родины: интеллигенция и патриоты.

Н.Нариманов в статье «Провокация мусавата и дашнаков» (31 мая 1920 г.) признавал: «Кровь в Гяндже льётся рекой. Босые, с непокрытыми головами бегут из города женщины, дети. Это – итог мусаватской провокации» [27, с.287]. Таким образом, обвинив во всём мусаватистов, Председатель Азревкома и Совнаркома Азербайджанской ССР не упоминает, что для жестокого подавления восстания в Гянджу было послано 8000 красноармейцев [17, с.92].

Выступая на заседании Бакинского Совета 20 июня 1920 г., Нариманов сказал, что Красная Армия и Советская власть «не любит шутить», «думать, что революция наша, переворот произойдёт бескровно, было бы, конечно, с нашей стороны наивно. Мы, конечно, знали, что после медового месяца настанет кровавый месяц, когда нужно бу-

дет поставить точку над «и» и сказать, что власть рабочих и крестьян сумеет себя защитить». Он выразил «глубокую благодарность Красной Армии в лице нашего дорогого Красного героя тов.Левандовского» [27, с.302].

26 августа 1920 года Политбюро ЦК АКП(б) постановило централизовать руководство по ликвидации восстаний в АССР в руках четвёрки. От особого отдела, Азревкома, ЦК и Наркомвоенмора в четвёрку вошли Панкратов, Нариманов, Каминский, Караев [4, л.2].

Мамедэмин Расулзаде в журнале «Yeni Qafqasiyə» (Стамбул, 27 апреля 1927 г.) опубликовал статью, в которой были слова, очень красноречиво характеризующие обстановку в Азербайджане после оккупации: «Этапирование в Соловки, подвалы «чека», кровавые волны Каспия, залпы расстрельного взвода на высокой стене в баиловской тюрьме в горячие сердца героев, окровавленные рубашки, матери, оторванные от младенцев, чтобы отправиться на расстрел, – короче говоря, несгибаемость и героическое сопротивление, готовящие большое возмездие – вот тяжёлый, но славный путь борьбы, выбранный теми, для кого честь превыше всего!» [22, с.234].

Сами чекисты в «Кратком информационном отчёте о деятельности Азербайджанской Чрезвычайной комиссии (май 1921 – май 1922 гг.)», который был вручён делегатам 2-го Всеазербайджанского съезда Советов (Баку, 28 апреля 1922 г.), отмечали, что «первый отпор контрреволюционного натиска настолько был сильным и решительным, что июнь-декабрь 1920 г. вполне можно охарактеризовать периодом жестокого поражения азербайджанской, а вместе с ней и всей закавказской контрреволюции» [33, с.41]. Так, чекисты действовали с не меньшей жестокостью, уничтожая патриотов, выступивших за сохранение независимости своей Родины.

Карательные органы расширяли свою деятельность и полномочия. В начале 1921 года борьба Советской власти против патриотов – повстанцев приняла более организованный характер. 10 января 1921 г. АКП(б) и Азербайджанское Советское правительство приняли специальный план по ликвидации бандитизма, исполнение которого было поручено Народному Комиссариату Внутренних дел, Чрезвычайной Комиссии (ЧК) и Особому отделу XI Армии [11, с.68].

На заседании Азревкома 14 января 1921 г., после обсуждения проекта декрета о слиянии Верховного революционного и Военно-полевого трибуналов АССР, проект декрета был одобрен с добавлением: «Приговоры утверждаются Революционным Комитетом АССР» [3, с.43].

В Шамхорском уезде Движение Сопротивления было настолько мощным, что Азревком в целях решительного, быстрого и беспощадного искоренения бандитизма 16 мая 1921 года издал «Постановление об организации временной чрезвычайной тройки по борьбе с бандитизмом в Шамхорском уезде» в составе члена ревтрибунала республики Бабы Алиева, начальника Шамхорской милиции и политбюро Рустама Алиева и председателя шамхорского уездисполкома Мирзы Садыхова. Комиссии предоставлялись права самостоятельно расследовать и окончательно разрешать дела о всяких проявлениях бандитизма в уезде и подвергать виновных наказанию по её усмотрению, вплоть до расстрела на месте [23, сс.483,484].

По постановлению Совнаркома от 29 мая 1921 г. была организована Центральная Чрезвычайная тройка по борьбе с бандитизмом во главе с председателем АЧК. Во всех уездах также были организованы уездные Чрезвычайные тройки. Центральной Чрезвычайной тройке предоставлялось право немедленного расстрела по отношению ко всем уличённым бандитам, в особенности их главарям, или передачи в Верховный трибунал для доследования и суда. А Чрезвычайные тройки в уездах все дела по бандитизму после предварительного расследования передавали для суда выездным сессиям Губернского и Верховного Ревтрибуналов, или доставляли с арестованными в АЧК [33, с.45]. С июня по октябрь 1920 года председателем АЧК был Баба Алиев, участ-

вовавший в расстреле деятелей АДР [31, с.465].

26 августа 1921 года Политбюро ЦК АКП обсудило вопрос о борьбе с бандитизмом в Бакинском районе. Оно одобрило действия военного командования в лице начальника гарнизона, двинувшего воинские части на население. Борьба с бандитизмом в Бакинском районе была поручена комиссии из трёх лиц в составе заведующего отделом Управления Баксовета, представителя АзЧека и Начальника гарнизона под председательством начальника гарнизона [5, л.84].

Азербайджанцы понесли жестокое наказание за свой патриотизм и служение любимой Родине, за то, чтобы эта Родина продолжала оставаться суверенной, демократической и процветающей. Патриоты были объявлены бандитами, контрреволюционерами, головорезами и негодяями. А те, кто проводил незаконные репрессии и казни, подавлял народные восстания, не зная пощады по отношению к своим жертвам, в 1920-е годы награждались и, делая карьеру, продвигались по службе. Люди, погубившие национальную независимость Азербайджана, стали называться её «освободителями».

Мы, современные азербайджанцы, не должны забывать уроки истории. Тема истории советской оккупации и Движения сопротивления будет актуальна до тех пор, пока в мире существует опасность оккупации одной страны со стороны другой.

## Список литературы


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə, I c. Bakı: Lider, 2004. 440 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, II c. Bakı: Lider, 2005. 470 s.
3. Azərbaycan İnqilab Komitəsi və xalq komissarları soveti iclaslarının protokolları (1920-1922-ci illər). Bakı: Çaşıoğlu, 2009, 554 c.
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA): f.1, s.1, iş 22.
5. ARPİİİSSA: f.1, s.2, iş16.
6. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA): f.2095, s.1, iş 16.
7. ARDA: f.2095, s.1, iş 19.
8. Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2000, 568 s.
9. Bayramov X. Gəncə üsyanı – 1920. Sənədlər və materiallar. Bakı: Ləman NP MMC, 2010, 290 s.
10. Çıraqzadə V. İstiqlal yollarında: tarixi oçerklər / red. M. Əsədova. Bakı: Azərnəşr, 1992, 82 s.
11. Əliyarlı İ., Behbudov T. Azərbaycanın daxili işlər nazirləri. Bakı: Mütərcim, 2008, 536 s.
12. Hüseynov R. Yurdun adındakı "can". Bakı: Elm, 2010, 904 s.
13. Katibli M. Çingiz İldırım. (Bioqrafik oçerk). Bakı: Azərbaycan, 1964, 118s.
14. Qasımov C. Yaddaşın bərpası. Bakı: Mütərcim, 1999, 256 s.
15. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
16. Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın Şimal-Qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı: Aspoliqraf, 2008, 376 s.
17. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.
18. Rüstəmbəyli M. Carpışan qüvvələr. Bakı: Maarif, 1991, 188 s.
19. Turan A., Bayramlı C. 17 illik mücadilə Azərbaycanda sovet işğalına qarşı milli müqavimət hərəkatı. 1920-1937. Bakı: "QHT Nəşriyyatı", 2016, 256 s.
20. Алый стяг над Закавказьем. Воспоминания ветеранов партии / сост. А.Г.Мискин; ред. Д.П.Гулиев. Баку: Азернешр, 1980, 320 с.
21. Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. 1918-1920 гг. Сборник документов. Баку: Элм, 1971, 392 с.
22. Гусейнов Ш. Нравственное наследие и современность. Баку: Чанлибел, 2007, 528 с.
23. Декреты Азревкома (1920-1921 гг.). Сборник документов. Баку: Азернешр, 1988, 519 с.

24. Кадишев А.Б. Интервенция и гражданская война в Закавказье. Москва: Военное издательство Минобороны СССР, 1960, 510 с.

25. Максвелл Н. Азербайджанская Демократическая Республика. Документы Национального архива Индии. Баку: Турхан ИПО, 2018, 404 с.

26. Мамедова Ш. Антисоветские выступления в Азербайджане в 1920-1930-е гг. // Вопросы истории, 2012, №3, с.

27. Нариманов Н.Н. Избранные произведения: В 3-х т. Т.2, 1918-1921. Баку: Азернешр, 1989, 768 с.

28. Российский Государственный архив социально-политической истории (РГАСПИ): ф.64, оп.1, д.21.

29. РГАСПИ: ф.80, оп.4, д.57.

30. РГАСПИ: ф.84, оп.3, д.281.

31. Топчибаши А.М. Парижский архив 1919-1940 гг.: В 4-х кн. Кн.1, 1919-1921 / Составители Г.Мамулиа и Р.Абуталыбов. Введение, перевод и примечания Г.Мамулиа, научн. Ред. канд. ист. наук И.Агакишиев. Москва: Художественная литература, 2016, 568 с.

32. Топчибаши А.М. Парижский архив 1919-1940. В 4-х кн. Кн.3, 1924-1930. Составители, предисловие, перевод и примечания Г.Мамулиа и Р.Абуталыбов, научн. Ред. проф. И.Агакишиев. Москва: Художественная литература, 2017, 720 с.

33. Чекисты Азербайджана. Документы, очерки, рассказы. Баку: Азернешр, 1981, 293 с.

## Xülasə

**Əzizə Nəzərli**

### Azərbaycan xalqının sovet işğalına qarşı üsyanları (1920-1921)

Məqalədə 1920-ci ildə Azərbaycan Cümhuriyyətinin işğalı və yeni sovet quruluşunun yaranmasından bəhs olunur. Azərbaycan xalqı müstəqilliyinin itirilməsilə barışmaq istəmədi və işğala qarşı mübarizə apardı. Məqalədə göstərilir ki, Respublikanın bir neçə regionlarında işğala qarşı üsyanlar qalxdı. XI Qırmızı Ordu bu üsyanları qəddarlıqla yatırdı və cəza tədbirlərini həyata keçirdi.

***Açar sözlər:*** *Azərbaycan Cümhuriyyəti, Azərbaycan inqilab komitəsi, N.Nərimanov, XI Qırmızı Ordu, işğal, üsyan.*

## Summary

**Aziza Nazarli**

### Uprisings of the Azerbaijani people against the soviet occupation (1920-1921)

The article deals with the occupation of the Azerbaijan Republic in 1920 and the establishment of a new Soviet system. The Azerbaijani people did not want to come to terms with the loss of independence and were fighting against the occupation. The article shows that uprisings against the occupation roze in several regions of the Republic. XI The Red Army brutally suppressed these uprisings and carried out punitive measures.

***Keywords:*** *the Republic of Azerbaijan, revolutionary Committee of Azerbaijan, N.Narimanov, XI Red Army, occupation, the uprising.*

**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.56**

**Güntəkin Nəcəfli**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan*
*guntekin.cemil@gmail.com*

# QARABAĞIN XRİSTİAN ALBAN MƏLİKLƏRİNİN ETNİK KİMLİYİNİN ERMƏNİDİLLİ TARİXŞÜNASLIQDA ƏKSİ

***Açar sözlər:*** *Qarabağ, alban məlikləri, ermənidilli tarixşünaslıq, milli ideologiya*

XIX əsrin sonlarından başlayaraq tarixi "Qarabağ ərazisinin qədim erməni torpağı olduğu" haqqında uydurma konsepsiya "inkişaf etməyə" başladı. Bu konsepsiyaya görə, "tarixi Ermənistanın bir parçası olan Qarabağ XVIII əsrin ortalarında köçəri türk tayfaları tərəfindən zəbt olunmuş" və burada xanlıq yaranmışdı, burada yaşayan xristian məliklər isə ermənidirlər". Bu yolla ermənidilli tarixşünaslıqda Qarabağa ərazi iddiaları ilə bağlı olan siyasi iddia ortaya qoyuldu, sonralar bu iddia bütün erməni tarixşünaslığında öz əksini tapmış, tədricən milli ideologiyaya çevrilmişdi. Beləliklə, Qarabağda qədim Alban dövlətçiliyinin etno-mədəni irsinin qorunub saxlanmasının parlaq təzahürü olan alban məlikləri tarixinin erməniləşdirilməsi, onların etnik kimliyinin saxtalaşdırılılması ermənidilli tarixşünaslığın aparıcı mövzularından hesab olunur.

Ermənidilli tarixşünaslıqda Azərbaycan ərazisində mövcud olan qədim Albaniya dövləti (e.ə.IV əsr- b.e.705) "Şərqi Ermənistan" kimi təqdim edərək, alban irsi üzərində sonralar bərqərar olmuş Qafan alban, habelə Xəmsə alban məlikliklərinin tarixi mənimsəyərək "erməni xalqının tarixi" kimi təqdim edilir. Və iddia olunur ki, 1555-ci ildə "Ermənistan"nın Osmanlı Türkiyəsi ilə Səfəvi İranı arasında bölüşdürülməsindən sonra Türkiyənin nəzarətinə keçən "Qərbi Ermənistan"da - Zeytun, Sasun, Şatax, Moksa və İsyanda (Diyarbəkr) "kiçik bəyliklərin" izləri qalmışdır. İranın tərkibinə keçən "Şərqi Ermənistan"da isə Sünik və Ərsakda da oxşar knyazlıqlar qorunub saxlanılmışdır.

Beləliklə, Azərbaycanın Zəngəzur bölgəsində olan Qafan alban məlikliyi ermənidilli tarixşünaslıqda "*Sünik çarlığı*", Qarabağın Xəmsə alban məliklikləri isə "*Ərsakın erməni məliklikləri"* kimi təqdim olunur. Təqdim edilən məqalədə Qarabağ məliklərinin tarixi, əsasən etnik kimlik məsələsinin ermənidilli tarixşünaslıqda vəziyyəti nəzərdən keçirilir.

Ermənidilli tarixşünaslıqda "Ermənistanın son orta əsrlər tarixində mühüm rol oynamış" Qarabağ məlikliyinin tarixi XVI-XVIII əsrlərdə mövcud olmuş beşlik 1744-cü ildən Xəmsə məlikləri adı ilə təqdim edilir.

**Xəmsə məlikliyinə daxil olan mahallar:**

1) **Gülüstan** – Kürəkçayın sahilindən Tərtər çayına qədər olan ərazidə yerləşirdi. XVII əsrin əvvəllərindən Gülüstan hakimləri məlik Bəyləryanlar idilər. Onların iqamətgahı Gülüstan kəndindəki Gülüstan qalasında və Talış kəndi yaxınlığındakı Horeka monastırı ilə üzbəüz olan sarayda yerləşirdi. Mahalın ərazisi müasir dövrdə təxminən keçmiş Ağdərə rayonunun şimal-şərqini əhatə edirdi.

2) **Çiləbörd** – Tərtər və Xaçın çayları arasında yerləşirdi. Mahalın hakimləri Xaçın məlikləri Həsən Cəlal nəslinin davamçıları məlik israillilər idilər. Onların iqamətgahları qədim Möhrətağ sarayında və eləcə də ermənilərin "Mayrakağak" (Ana şəhər – G.N.) adlandırdığı Kahakatex qalasında yerləşirdi. Mahalın ərazisi müasir dövrdə keçmiş Ağdərə rayonun əsas hissəsini və Kəlbəcər rayonunun şərqini ehtiva edir.

3) **Xaçın** – eyniadlı çayın vadisini əhatə edərək Qarqar çayı sahilinədək uzanır. Xaçın mahalının hakimləri qədim Albaniya hökmdarları nəslindən olan Həsən Cəlal övladları idilər.

Onların qalaları Xanaberd* adlanırdı. XIV əsrin sonlarından etibarən bu ailənin nümayəndələri irsi olaraq Alban (Gəncəsər) katolikosluğu taxtına malik idilər. Mahalın ərazisi müasir dövrdə keçmiş Əsgəran rayonunun əsas hissəsini və keçmiş Ağdərə rayonunun cənub hissəsini əhatə edirdi.

4) **Vərəndə** – Qarqar çayı və Kirs-Ziyarət silsiləsi arasında yerləşirdi. XVII əsrin əvvəllərindən Vərəndə hakimləri ermənlərin "Avetaranots" (Bibliya evi – G.N.) adlandırdıqları Çanaxçı qəsəbəsində əyləşmiş məlik Şahnəzəryanlar idilər. Mahalın ərazisi müasir dövrdə keçmiş Əsgəran rayonunun cənub hissəsini və bütün Xocavənd, o cümlədən Xocalı rayonunun ərazisini əhatə edirdi.

5) **Dizaq** – ərazisi ermənilərin "Dizapayt" adlandırdığı Ziyarət dağ silsiləsi və "İşxanaget" adlandırdıqları Quruçaydan başlanır, Araz çayına və Xudafərin körpüsünə qədər uzanırdı. XVII əsrin əvvəllərindən mərkəzi Tuğ kəndində yerləşən, eyniadlı qala idi və burada məlik Yeqanlar (məlik Avanlar) hakim idilər. Mahalın ərazisi müasir dövrdə Hadrut qəsəbəsini, Cəbrayıl və Füzuli rayonlarının ərazisini əhatə edirdi.

İnzibati cəhətdən Azərbaycan Səfəvi dövlətinin böyük əyalətlərindən biri olmuş Gəncə-Qarabağ bəylərbəyiliyi XVI əsrin əvvəlindən XVIII əsrin ortalarınadək irsi olaraq Ziyadoğlu Qacarlar nəslinə məxsus idi. 1593-cü il məlumatına görə, bu əyalət 7 sancağa, 36 nahiyəyə bölünürdü. Burada qeydə alınan 1,3 mindən çox toponimik vahidlərin təqribən hamısı azərbaycanlılara məxsus idi. Toponimlərdən heç biri ermənilərə məxsus olmamışdır. Səfəvi hakimiyyətinin son dövründə Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibində yerli inzibati-ərazi vahidi kimi beş xristian məlikliyi yaranmışdı. 1736-cı ildə Muğan qurultayında Nadir xan Əfşar şah seçilərkən onun hakimiyyətini qəbul etməyərək, keçmiş Səfəvi sülaləsinin bərpasını arzulayan Gəncə-Qarabağ bəylərbəyiliyi və digər Qacarlar sülaləsinin nümayəndələrinin imtiyazlarını əllərindən almış, xristian məlikləri Qarabağ bəylərbəyiliyinin idarəçiliyindən çıxararaq birbaşa Azərbaycan canişini təyin etdiyi qardaşı İbrahimin sərəncamına vermişdi [bax: 1, s.76-77].

Bu hadisə erməndilli tarixşünaslıqda "Ərsak məliklərinin müstəqilləşməsi", "ayrıca erməni bəylərbəyliyinin yaradılması" kimi təqdim olunur. Hakop Papazyana görə, Ərsak məliklərinin türklərə (Osmanlı – G.N.) qarşı mübarizədəki xidmətlərini yüksək qiymətləndirən Nadir şah, onların Xəmsə məliklikləri adlı birliyin tərkibində özünüidarəsini təsdiq etdi. Dizaq mahalının hakimi məlik Yeqan Xəmsə məliklərinin başçısı təyin edildi. O, bilavasitə Təbrizdən hökmdarlıq edən Nadir şahın qardaşı İbrahim xana tabe idi və Ərsakın beş məlikliyindən vergi yığaraq şah xəzinəsinə keçirirdi. Beləliklə, "*Cənubi Qafqazda gürcü Kartli-Kaxet valiliyi ilə yanaşı, ilk dəfə olaraq tarixi Ərsak torpaqlarını və ona bitişik Araz sahilinə qədər uzanan əraziləri özündə birləşdirən ayrıca erməni bəylərbəyiliyi – Xəmsə mahalı yaradıldı*" [27, էջ:78-79].

Ermənidilli tarixşünaslıqda Mikael Çamçyandan başlayaraq bütün erməni "tədqiqatçıları" "Ermənistan"ın şərq hissəsi adlandırdıqları Qarabağın (Ərsak-Xaçın) maddi-mədəniyyətinə sahib olmağı, burada yaşayan xristian əhalinin etnik tarixinin saxtalaşdırılmasını hər zaman diqqət mərkəzində saxlamışlar. Hələ XIX əsrin 90-cı illərində Gevond Alişanın (1820-1901) Venesiyada çap etdirdiyi "Vətən xatirələri", "Sisakan", "Albaniya" əsərlərində müxtəlif tarixi dövrlərdə qeyd etdiyimiz məsələlər: Qarabağın inzibati-siyasi quruluşu, məliklərin tarixi və etnik tərkibinin təsvirində öz əksini tapmışdır.

Ermənidilli tarixşünaslıqda Qarabağ məliklərinin tarixi ilə bağlı yazılmış əsərləri xronoloji cəhətdən 3 dövrə aid edə bilərik.

**1. XIX əsrin sonu XX əsrin əvvəlləri:**

Qarabağ məliklərinin tarixinin kompleks şəkildə ilk təqdimatı ermənilərin "klassik" hesab etdiyi, Vərəndə məlikləri nəslindən olan tarixçi-publisist Raffinin (Hakop* məlik Hakopyan, 1835-1888) adı ilə bağlıdır. Ticarətlə məşğul olan Raffi Qarabağa, Zəngəzura dəfələrlə səyahət etmiş və bu əraziləri qarış-qarış gəzmişdi. O, 1881-ci ildə Qarabağa səyahət edərək məliklərin tarixinə dair xeyli material toplamış,

* Ermənidilli tarixşünaslıqda qalanın adı "Tarxanaberd", "Xoxanaberd" və ya "Xavxanaberd" kimi də təqdim edilir.

* Hakop şəxs adı (rus dilində Akop) ibranicə Yaqob, ərəbcə Yaqub adının erməniləşdirilmiş formasıdır.

bir ildən sonra *"**Xəmsə məlikləri**"* adlı kitabını çap etdirmişdi [30]. Bu səyahət nəticəsində kitabda məliklərin yaşadığı bölgələrin coğrafi sərhədlərinin təsviri aydın təqdim edilsə də, məliklərin siyasi tarixi ilə bağlı olan məlumatların çoxu şifahi xalq deyimlərinə əsaslanır. Raffi özü də "xalq əfsanələri və deyimlərin" Qarabağ məlikliklərі tarixinin mühüm hissəsini təşkil etdiyini qeyd edirdi. Raffinin bu əsəri rus dilinə tərcümə olunsa da, onun seçilmiş əsərlərində erməni dilində dəfələrlə yenidən çap edilmişdir [31]. Raffi Xaçın məlikliyinin yerli, digər məliklərin isə Qarabağa gəlmə olduqlarını özündən daha əvvəl qələmə alan Qarabağnamə müəlliflərinin verdikləri məlumatlarını təsdiq etmişdir. Məliklərin "erməni dövlətçiliyi"nin davamı olduğunu iddia edən Raffi kitabının bütün bölmələrində Qarabağ məliklərini "Xəmsə məlikləri" və yaxud "Artsax (Ərsak-G.N.) məlikləri" adlandırmışdır.

Digər tədqiqtçı Xankəndindən 5-6 kilometr şimal-şərqdə yerləşən Xnacax kəndində anadan olmuş, müəyyən müddət ərzində Şuşada pedaqoji fəaliyyət göstərmiş Makar Gevorq Barxudaryandır (1832-1906). Qarabağlı yepiskop M.G.Barxudaryan 1890-cı ildə Qarabağa səyahətə çıxır və əsasən xristian əhalinin yaşadığı yerlərdəki epiqrafik materialları toplayaraq bir sıra əsərlər nəşr etdirmişdir. Onun *"**Alban ölkəsi və qonşuları**"* adlı kitabı 1893-cü ildə Tiflisdə, *"**Ərsak tarixi. Qarabağın maddi mədəniyyət abidələri**"* isə 1895-ci ildə Bakıda fəaliyyət göstərən "Aror" mətbəəsində nəşr edilmişdir. Əsərin 1949-cu ildə M.M.Yarqulyan tərəfindən erməni dilindən rus dilinə tərcümə edilmiş variantı əlyazma şəklində AMEA Tarix İnstitutunun elmi arxivində saxlanılır.[*] Biz bu kitabın 1999-cu ildə İrəvanda nəşr olunmuş variantından istifadə etmişik [15]. Müəllif epiqrafik yazıları toplayıb tədqiq etmiş, həm də monastırlarda və bəzi şəxslərdə olan əlyazmaların üzünü köçürmüşdür. M.G.Barxudaryan özü bütün bu işi Albaniya tarixini yazmaq üçün materialların toplanması mərhələsi hesab edirdi. O, toplanmış materiallar əsasında o, iki cildlik *"**Albaniya tarixi**"* əsərini yazmışdı. Kitabın I cildi 1902-ci ildə Valarşabadda[*] [13], II cildi isə 1907-ci ildə Tiflisdə [14] çap edilmişdir.

Baqrat Ulubabyan "**X-XVI əsrlərdə Xaçın knyazlığı"** adlı əsərində Makar Barxudaryanı tənqid edərək yazır: "*Bəzən o (Makar Barxudaryan - G.N.), mövcud olan materiallarda verilmiş məlumatlara münasibətdə yersiz nəticələrə gəlir. Daha çox qəbuledilməz olan isə, tarixi prosesin bu və ya digər əlaqəsi haqqında çatışmayan material əvəzinə, öz təxəyyülünü və ya ehtimalını ortaya qoyur* [*27,* Էջ:18].

Sonralar Makar Barxudaryanın bu topoqrafik əsərindən Azərbaycan tədqiqatçıları da elmi tədqiqatlarında dəfələrlə istifadə etmişlər. Əsər həmin dövrdə Qarabağda mövcud olmuş toponimlərin mənşəyinin araşdırılması üçün əvəzedilməzdir. Kitabda istifadə olunan onomastik materiallar, o cümlədən toponimlər, şəxs adları, coğrafi məkanlar və maddi mədəniyyət nümunələri adlarının əksəriyyəti Azərbaycan türkcəsindədir. Əsərdə Qarabağ məliklərinin nəsilləri, onlara məxsus epiqrafik abidələr üzərində yazılar, müxtəlif dini abidələr və s. haqqında məlumat əldə etmək mümkündür.

XIX əsrin sonunun ermənidilli tarixşünaslığında Qarabağ məlikərinin tarixinin müəyyən məqamları öz əksini çoxcildlik toplularda tapmışdır. Yervand Lalayanın hazırladığı XXVI cilddən ibarət **"Etnoqrafik jurnal"**ın ilk sayı 1896-cı ildə Şuşada, digərləri isə 1897-1916-cı illərdə Tiflisdə nəşr edilmişdir. Həmin jurnalda Qarabağın, Zəngəzurun tarixinə dair maraqlı məqalələr mövcuddur. Bu məqalələrdə Qarabağın etnoqrafiyası, folkloru, arxeologiyası, litoqrafiyası, tarixi, hüququ, incəsənəti ilə bağlı materiallar və araşdırmalar dərc olunmuşdur. **"Vərəndə"** [22] və **"Gəncə əyaləti"** [23] adlı məqalələrdə məliklərin ictimai həyatı, onların mülkləri, nəsilləri və s. haqqında maraqlı məlumatlar vardır.

1913-1914-cü illərdə nəşr edilmiş "**Erməni məliklikləri haqqında materiallar**" toplusunda Qarabağın xristian məliklərinin etnik tarixi, məlik ailələri ilə bağlı olan məqalələr təqdim edilir. Toplunun I buraxılışında katolikos Qaregin Hovsepyanın ***"Cagavan kolleksiyası"*** [18]

[*] Təəssüf ki, hal-hazırda AMEA Tarix İnstitutunun elmi arxivində 2010, m.1662 saylı qovluqda bu əsərin yalnız II hissəsinin tərcüməsi mövcuddur.

[**] Valarşabadın əsası Arşaki hökmdarı Valar şah (194-216) tərəfindən qoyulmuşdu [bax: 8, c.116]. Ermənilər bu istilahı da özəlləşdirərək "Vağarşapat" şəklinə salmışlar.

və yepiskop Karapetin Xaxbakyanların və Proşyanların məlik evləri (ailələri) haqqında məlumatlar yer almaqdadır [19]. Toplunun II buraxılışında K.Ter-Mkrtçyanın ***"Dopyanlar və məlik Şahnazaryanlar"*** [26] adlı məqaləsi dərc etdirmişdir. Burada müəllif məlik Şahnazaryanların mənşəyinin Dopyan (Proş), yəni "erməni məlik ailəsindən" olduğunu göstərmişdir. Qeyd edək ki, müəllif burada əsasən məlik Şahnazaryanların Qeqarkuni (Göyçə - G.N) tarixinə diqqət yetirir və onların Vərəndə qolunun tarixinə qısaca toxunaraq onu ayrıca araşdırma mövzusu olduğunu qeyd edir. [26, էջ: 137].

**2. Sovet imperiyası dövrü:**

Sovet imperiyası dövrünün ermənidilli tarixşünaslığında Qaregin Hovsepyanın Qarabağ və Zəngəzurun məlik ailələrinin tədqiqinə həsr edilmiş ***"Ermənistan tarıxində Xaxbakyanlar və ya Proşyanlar***" adlı əsərinin I cildi 1828-ci ildə Valarşapadda nəşr edirmişdir [Հովսեփ]. Həmin kitabın II cildi 1942-ci ildə Yerusəlimdə, III cildi isə 1943-cü ildə Nyu Yorkda erməni dilində nəşr edilmişdir. Qeyd edək ki, kitabın adından da göründüyü kimi, müəllif öz "tədqiqatlarında" qeyd edilən məliklərin "erməni məlik ailəsinə mənsub olduqları"nı iddia etmişdir.

"Qarabağın dağlıq ərazinin azadlıqsevər əhalisinin erməni xalqının çoxəsrlik tarixində rolu", habelə 1722-1734-cü illərdə Qarabağda baş verən hadisələr və ayrı-ayrı məlik ailələrinin tarixi Leo adlandırılan Arakel Babayanın ümumiləşdirilmiş "əsərlərində" ətraflı təsvir edilmişdir [24-II, էջ: 56; 24-III, էջ: 56].

Qarabağ məliklərinin tarixi Aşot Hovhannisyanın əsərlərində təqdim edilmişdir. Onun 1957-və 1959-cu illərdə İrəvanda çap etdirdiyi "***Erməni azadlıq fikir tarixinin oçerkləri***" adlı iki cildlik kitabında "əsrlər boyu erməni milli azadlıq hərəkatının öncülləri" kimi çıxış edən Qarabağ məlikləri "erməni milli dövlətçiliyinin nümunəsi", "əsrlər boyu erməni dövlətçilik ənənələrini qoruyub saxlamış, yaşatmış qurum, knyazlıq" və s. kimi təqdim edilir [20, էջ: 243-278, 453-487].

1965-ci ildə saxta "erməni soyqırımının 50 illiyi" qeyd edildikdən sonra yazılmış ***"Erməni xalqının tarixi"*** adlı ümumiləşdirilmiş əsərdə və 1975-ci ildə H.Jamkoçyan və digər "araşdırmaçılar" tərəfindən hazırlanmış, irihəcmli "***Başlanğıcdan XVIII əsrin sonuna qədər erməni xalqının tarixi"*** [21] adlı kitabda da ənənəvi erməni saxtakarlığı davam etdirilmişdir.

XX əsrin 70-ci illərindən etibarən ermənidilli tarixşünaslıqda Qarabağda mövcud olmuş ayrı-ayrı məliklərin tarixi ilə bağlı olan "araşdırmalara" daha çox təsadüf olunur. Baqrat Ulubabyanın 1975-ci ildə İrəvanda nəşr etdirdiyi "**Xaçın knyazlığı X-XVI əsrlərdə**" adlı irihəcmli (454 səhifə) əsərində Xaçın məlikliyinin sələfi olan Xaçın knyazlığının sərhədləri ətraflı təsvir edilmiş, onların mülkləri, nəsilləri və s. haqqında ətraflı məlumat verilmişdir [*27,* էջ: 214-215]. Hətta Baqrat Ulubabyan kitabın sonunda "Göstəricilər siyahısı"nın təqdim olunduğu səhifədə xüsusi bir qeyd yazmışdır: *"Albanlar", "Alban ölkəsi", "Artsax", "Uti", "Xaçen", "Xaçen işxanları", "Qarabağ", "Qarabağ məlikləri"nin adları və anlayışları kitabın demək olar ki, bütün səhifələrində qeyd olunduğu üçün bu siyahıya daxil edilməmişdir"* [*27,* էջ: 442]. Müəllif Xaçın knyazlığının qurucusu Həsən Cəlaldan danışarkən onu Cəlalyan deyil, Həsən Cəlal Dövlə adlandırmışdır [*27,* էջ: 19-22, 26, 85-86, 134-136, 140-141, 158, 168, 179 və s.].

Kim Kaqramanyanın 1979-cu ildə İrəvanda nəşr etdirdiyi "***Gülüstan məliklərinin tarixinə dair materiallar***" [16] adlı məqaləsində adı çəkilən məlikliyin tarixi ilə bağlı yığcam məlumat verilmişdir. Burada Gülüstan kəndinin ətrafında yerləşən XIX əsrin ortalarına aid bir neçə məzar daşının fotosu və onlar üzərindəki yazılar təqdim edilmişdir. Bu epiqrafik abidələrdə oxunan ifadələr bir daha Gülüstan məliklərinin erməni mənşəli olmadığından xəbər verir. Yazını olduğu kimi təqdim edirik:

*1. ԱՅՍ Է ՀԱՆԳԻՍՏ ԻՍԱՅ[Խ]ԱՆ ԱՂԻՆ // ՍԱ ԷՐ ՈՐԴԻ ՄԵԼԻՔ ՊԵԿԼԱՐԻՆ ՔՎ. ՌՄ (ays e hanqist İsay[x]an ağin // sa er vordı melık Beklarin)* Bu sakin İsaj(x)an ağa // məlik Bəylərin oğludur [16, էջ:113].

*2. ԱՅՍ Է ՏԱՊԱՆ ՄԱՐԵԱՆԻՆ ՈՐ Է // ԿՈՂԱԿԻՑ ԻՍԱ ԽԱՆ... ՄԵԼԻՔ (ays e tapan Mareanin vor e // koğagih İsa xan...*

*melik)* Bu yaxınlıqdakı tapan*// Mareanın oğlu İsaxan məlikindir [16, էջ:114].

İsaxan ağanın adı, məzar daşı üzərindəki digər ifadələr və eləcə də onun həyat yoldaşının yaxınlıqda yerləşən məzarının kitabəsi də təsdiq edir ki, bu məliklər erməni mənşəli deyildir. Həmçinin, kitabədən göründüyü kimi, XIX əsrin ortalarında Qarabağ məliklərinin, o cümlədən Gülüstan məliklərinin məzar daşlarında, onların soy adlarının sonluqlarında emənilərin əlavə etdiyi “yan” şəkilçisi yoxdur.

Bu baxımdan Hakop Papazyanın 1985-ci ildə Ermənistan EA “İctimai Elmlər Bülleteni”ndə nəşr etdirdiyi “***Məlik Yeqanın qəbul otağının girişindəki yazı***” adlı məqaləsi maraq doğurur. Müəllif yazır: *“Dizaq məliyi Yeqanın qəbul otağının girişində hazırlanmış və 1982-ci ildə S.Barxudaryanın “Erməni yazıları məcəlləsi”nin V cildində çap etdirdiyi kitabə elmi dövriyyəyə etibarlı ilkin mənbə kimi daxil ola bilmədi. Yazının dialektikasında orfoqrafik və kobud səhvlərin olması onu deşifrə etməyi xeyli çətinləşdirir. Yazının üslubunun və dilinin xüsusiyyətlərini, həmçinin müasir ermənidilli və farsdilli mənbələrdə rast gəlinən Məlik Yeqan haqqında məlumatları nəzərə alaraq yazının yeni, düzəliş edilmiş oxunuşunu təklif edirik ki, bu da fikrimizcə, müəyyən məsələləri, xüsusən XVIII əsrin 20-30-cu illərində baş vermiş hadisələri işıqlandırmağa yardım edə bilər”* [29, էջ: 85].

**3. XX əsrin sonu-XXI əsrin əvvəlləri:**

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi iddiasının ortaya çıxması və Sovet imperiyasının dağılmasından sonra ermənidilli tarixşünaslıqda “Artsağın erməni məlikləri”nin tarixi ən prioritet mövzuya çevrildi.

Baqrat Ulubabyan öz sələflərindən və sovet imperiyası dövründə yazdıqlarından fərqli olaraq 1994-cü ildə İrəvanda çap etdirdiyi ***“Ərsak tarixi, başlanğıcdan günümüzədək”*** adlı əsərində Qarabağ məliklərinin etnik kimliyini saxtalaşdırmaqdan çəkinməmiş “Erməni məlikləri” adlı xüsusi başlıq ayırmışdır [28, էջ:129-130]. Kitabda Qarabağ məliklərinin XVII-XIX əsrin sonunadək olan tarixindən bəhs edilir. B.Ulubabyan: *“Məliklik dövründə kəndli yalnız öz məliyinin əmr və qaydalarına tabe idi və hər cür təzyiqdən qorunurdu. Məlik həm də öz vətəndaşlarının rifahı, onların iqtisadi qüdrəti ilə maraqlanırdı, ... məlik təkcə öz mahalının sahibi deyil, həm də qayğıkeş ata idi”* [28, էջ: 181-182] – yazmaqla məliklərin yalnız mahal sahibi olduğunu etiraf etmişdir.

Qarabağ məliklərinin maddi-mədəniyyət tarixinin araşdırılması ermənidilli “tarix elmində” daha çox diqqət yetirilən mövzulardandır. 2001-ci ildə İrəvnda Artak Qulyanın “***Ərsak və Sünik məliklərinin sarayları”*** adlı əsəri nəşr olunmuşdur [17]. Foto materiallarla zəngin olan bu kitabda da ənənəvi erməni saxtakarlığı özünü göstərmişdir. Qarabağ və Zəngəzurun XV-XVIII əsrlərə aid məlik sarayları “*tarixi Ermənistanın şərq bölgəsinin nadir abidələri”* adlandırılır və bu abidələrin *“orta əsr erməni memarlığında yeri və rolu”* qiymətləndirilir [17, էջ: 185-186].

Artaq Maqalyanın 2007-ci ildə İrəvanda nəşr olunan ***“XVII-XIX əsrlərdə Ərsak məlikləri və məlik ailələri”*** adlı əsərində [25] Raffidən sonra demək olar ki, kompleks şəkildə Qarabağın Xəmsə məliklərinin tarixi bu kitabda tədqiqata cəlb edilmişdir. Kitabda məliklərin ordusu, məlik ailələrinin məhkəmə prosesləri, vergi məsələləri, məliklərin mahallarda mənəvi işlərdə iştirakı və ən əsası məlik ailələrinin şəcərəsi təqdim edilmişdi. Məlikləri bir neçə əsr boyu “*erməni milli azadlıq hərəkatının bayraqdarı”*, Qarabağ xanlığını isə *“erməni Ərsakının tarixində müvəqqəti bir hadisə”,* “Ərsak məlikləri erməni dövlətçiliyinin təzahürü kimi” təqdim edən müəllif onların etnik cəhətdən erməni olduqlarını kitabın bütün bölmələrində vurğulamışdır [25, էջ.103-111, 112-146 və s.].

Azərbaycan ordusunun II Qarabağ müharibəsində rəşadətli qələbəsindən sonra ermənilərin Ərsak (Qarabağ) mövzusunda təqdim etdikləri “tədqiqatlar”da daha çox Qarabağ məliklərinin maddi mədəniyyət abidələrinin tarixinə diqqət yetirilir. Tiqran Aleksanyanın 2022-ci ildə İrəvanda nəşr olunan ***“Xaçen knyazlığı ərazisində orta əsr abidələrinin tədqiqi”*** [12] adlı kitabı da bu qəbildəndir. Kitabda Xaçın hakim-

* Tapan sözü erməni dilində heç bir məna bildirmir, bu dildə məzar ifadəsi “gezerman” (գերեզման), “dambaran” (դամբարան), məzar daşı isə ”gezermanakar” (գերեզմանաքար) adlanır. Qarabağ məliklərinin məzar daşı üzərindəki epiqrafik yazıda isə albanlarda olduğu kimi məzar “tapan” (տապան) adlanmışdır. Albanlar öz kilsə və monastırlarına “tapınaq” deyirdilər.

liyi ərazisindəki orta əsr abidələrinin fotoları və siyahısı, həmçinin bölgənin işğal altında olduğu zaman bu abidələrdə aparılan qanunsuz qazıntıların "nəticələri" də təqdim olunmuşdur.

**4. İlkin qaynaqların saxtalaşdırılması**

Qarabağın xristian məliklərinin adından Rusiya çarlarına ünvanlanan erməni dilində hazırlanmış məktubların əksəriyyətində etnik kimlik məsələsi, həmin məktubların rus dilinə tərcüməsi zamanı erməni tarixçiləri tərəfindən saxtalaşdırılmışdır. Məsələn, 1723-cü ilin martında Qarabağ məliklərindən 4-nün ətrafdakı dağıdıcı hücumlardan qorunmaq üçün I Pyotra ünvanladıqları məktubdakı "*alban türkləri*" ifadəsi [2, л.л.2-2об; л.л.10-11] məktubun rus dilinə tərcüməsi zamanı "*alban müsəlmanları*" ifadəsi ilə əvəz edilmişdir [5, с.30-31; 11, с.15-16; 6, p.15].

Bəzi sənədlər nəşr zamanı erməni tarixçiləri tərəfindən ya tərcümə edilmədən, ya da tərcüməsi saxtalaşdırılaraq təqdim edilir. Məsələn, Gəncəsər katolikosu Herses I Pyotra ünvanlandığı 1723-cü il mart tarixli məktubunda Alban ölkəsinin Qarabağ və Şirvan xristianlarının adından müraciət etdiyini qeyd etmişdir [3, л.1]. Sənəd ilk dəfə tərcümə edilmədən və haradan götürüldüyü göstərilmədən Ezov tərəfindən çap edilmişdir [9, с.344-345]. Lakin həmin sənədin Yuri Barseqov tərəfindən tərcüməsi zamanı sənədin adında dəyişiklik edilmiş, katolikos Nersesin "bütün ermənilərin adından müraciət etdiyi" yazılmışdır [7, с.38-39]. Bununla da, Y.Barseqov XVIII əsrin I rübündə Qarabağda yaşayan əhalinin erməni olduğu haqqında fikir yaratmağa çalışmışdı.

Qarabağın xristian alban məliklərinin ləzgilərin dağıdıcı hücumlarından qorunmaq üçün 20 mart 1724-cü ildə I Pyotra ünvanladıqları erməni dilində yazılmış digər məktubda məliklər:
- *Biz albanıq və millətə görə Utiyik* (*Մէք Աղուվանք էմք և ազգով Ուտիք (Mek Ağuvank yemk yev azqov Utik)* yazılmışdır. Erməni tarixçiləri həmin sənədi nəşr edərkən erməni dilində saxlamış, rus dilinə tərcümə etməmişlər [4, л.л.27-27об; 5, с.30-31].

Eyni saxtalaşdırmanı XVIII əsrin II yarısına aid sənədlərdə də izləmək mümkündür. 1781-ci il 2 sentyabr tarixində Qarabağın xristian məliklərindən Adəm, Bəylər, Babay, Arzman, Danil və Mxitar adlı kovxaların adından imperator II Yekaterinaya məktub göndərilmişdi. Həmin sənədin erməni dilində olan variantında məliklər özləri haqqında *"biz Arşaki və Alban taxt-tacının çarları nəslinə məxsusuq"* ifadələrini yazmışlar [8, л.5-6; 6, p.80]. Həmin sənədi rus dilində təqdim edərkən erməni müəllifləri bu cümləni *"biz qədim erməni rəisləri nəslindənik"* ifadələri ilə əvəz etmişlər [4, с.183-184; 11, с.15-16].

**Nəticə:**

Ermənidilli tarixşünaslıqda Qarabağın xristian alban məliklərinin etnik kimliyinin saxtalaşdirilməsi Azərbaycana qarşı torpaq iddialarının əsas istiqamətlərindən biridir. Məqsəd Azərbaycanın xristian irsinin mənimsənilməsi, alban etnosunun maddi və mənəvi tarixinin erməniləşdirilməsi yolu ilə saxta tarix yaratmaq, Qarabağın aborigen əhalisinin ermənilərdən ibarət olduğunu iddia etməkdir.

Ermənidilli tarixşünaslıqda Qarabağ məliklərinin tarixi ilə bağlı yazılmış əsərlərdə məliklərin etnik tarixin saxtalaşdırılmasının səciyyəvi cəhətlərini ümumiləşdirsək, aşağıdakı nəticəyə gəlmək mümkündür:

XIX əsrin sonu XX əsrin əvvəllərində yazılmış kitablarda məliklərin etnik kimliyi ilə bağlı daha az saxtalaşdırma müşayiət olunur. Bu dövrdə yazılmış əsərlərin əksəriyyətində Qarabağın xristian məlikləri "erməni məlikləri" kimi deyil, Qarabağın Xəmsə məlikləri və yaxud Ərsak məlikləri kimi təqdim edilmişdir.

Sovet imperiyası dövründə ayrı-ayrı məliklərin tarixinin öyrənilməsinə daha çox diqqət ayrılmış və bu məliklərin etnik kimliyinin erməni kimi təqdim edilməsinə daha çox cəhd edilmişdir.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi iddiasının ortaya çıxması və Sovet imperiyasının dağılmasından sonra ermənidilli tarixşünaslıqda "Artsağın erməni məlikləri"nin etnik tarixinin ifrat dərəcədə saxtalaşdırılması ən prioritet mövzuya çevrilmişdir. Məqsəd Qarabağın xristian alban məliklərin etnik kimliyinin saxtalaşdırmaqla ermənilərin Azərbaycana qarşı ərazi iddiasına hüquqi don geyindirməkdən ibarətdir.

Ümid edirik ki, bu istiqamətdə görüləcək işlər Qarabağın xristian alban əhalisinin tarixi ilə bağlı bir sıra açılmamış məqamlara aydınlıq gətirməyə, həm də erməni saxtalaşdırmalarına tutarlı cavab verməyə imkan verəcəkdir.

## Ədəbiyyat siyahısı


1. Nəcəfli, G.C. Qarabağın xristian alban məlikləri //Bakı: İpək yolu. Azərbaycan Universiteti, "Xüsusi buraxılış", 2021, s.73-82.

2. АВПРИ (Архив Внешней Политики Российской Империи), СРА (Сношения России с Арменией), ф.100/4 д.1, л.л.2-2об; л.л.10-11.

3. АВПРИ, СРА, ф. 100, 1723. д.1, л.1.

4. АВПРИ, СРА, ф. 100/4.1724, д.1, л.л.27-27об.

5. Армяно-русские отношения в первой трети XVIII века. (Сб. Документов. Под редакцией Ашота Иоаннисяна), т.II, ч.II, Ереван, 1967.

6. Махмудов Я.М., Наджафли Г.Дж. Переселение армян на земли Северного Азербайджана в XIX веке – неопровержимая правда истории. Баку, «Турхан», 2020.

7. Нагорный Карабах в международном праве и мировой политике. Документы и комментарий (Сост., отв. ред., авт. вступ. ст. и коммент. д. ю. н., проф. Ю.Г. Барсегов) т. I. Москва, «Кругъ», 2008.

8. РГВИА (), ф.52, оп.1/194, дело 270.

9. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи. СПб., 1852.

10. Эзов Г.А. Сношения Петра Великого с армянским народам. (Документы). СПб., 1898.

11. Mahmudov Y.M., Najafli G.G. The relocation of Armenians to the lands of North Azerbaijan in the 19th century is an historical truth. Baku, "Turkhan", 2020.

12. Ալեքսանեան Տ. Միջնադարեան յուշարձանների ուսումնասիրութիւնը Խաչենի իշխանութեան տարածքում. Երևան, 2022 *(Aleksanyan T. Xaçın knyazlığı ərazisində orta əsr abidələrinin tədqiqi. İrəvan, 2022).*

13. Բարխուտարեանց Մ., Պատմութիւն Աղուանից, հ. Ա, Վաղարշապատ, 1902, *(Barxudaryan M. Albaniya tarixi. cild I, Vağarşapat, 1902)*

14. Բարխուտարեանց Մ., Պատմութիւն Աղուանից, հ. Բ, Թիֆլիս, 1907 *(Barxudaryan M. Albaniya tarixi. cild II, Tiflis, 1907)*

15. Բարխուտարեանց Մ., Աղուանից երկիր եւ դրացիք: Արցախ, Երեւան, 1999 *(Barxudaryan M. Albaniya ölkəsi və qonşuları, Ərsak. İrəvan, 1999)*

16. Ղահրամանյան Կիմ, Նյութեր Գյուլիստանի մելիքության պատմության վերաբերյալ «ՎՈՆ», 1979, թիվ 12, էջ.112 *(Каграманян К., Материалы по истории Гюлистанского меликства, «ВОН»,1979, № 12, с.112)*

17. Ղուլյան Ա. Արցախի Մելիք ամրոցները և Սյունիքը: Երեւան, 2001 *(Qulyan A. Ərsak və Sünik məliklərinin sarayları. İrəvan, 2001)*

18. Հովսեփյան Գ. Ջագավանի հավաքածու. Գիրք 1. Վաղարշապատ, 1913; *(Hovsepyan Q. Cagavan kolleksiyası. I kitab, Vağarşapat, 1913)*

19. Հովսեփյան Գ. Խախբակյանները կամ Պռոշյանները Հայաստանի պատմության մեջ. Վաղարշապատ, 1928 *(Hovsepyan Q. Ermənistan tarixində Xaxbakyanlar və ya Proşyanlar. Vaqarşapat, 1928)*

20. Հովհաննիսյան Ա. Դրվագներ հայ ազատագրական մտքի պատմության. գիրք առաջին, Հայկական ՍՍՌ ԳԱ Հրատարակչություն, Երևան, 1957 *(Hovhannisyan A. Erməni azadlıq fikir tarixinin oçerkləri, I kitab, Ermənistan SSR EA nəşriyyatı, İrəvan, 1957).*

21. Ժամկոչյան Հ.Գ. և ուրիշներ, Հայ ժողովրդի պատմություն սկզբից մինչև 18-րդ դարի վերջ, Երևան, 1975 *(Jamkoçyan H.G. və başqaları, Başlanğıcdan 18 əsrin sonuna qədər erməni xalqının tarixi, İrəvan, 1975)*

22. Լալայան Ե., Վարանդա. 1) Մի երկու խօսք Վարանդայի պատմական նցեալի մասին // «Հանդես ազգագրութեան»,

Թիֆլիս, Գիրք Բ 1897, էջ 5-8 *(Lalayan E., Vərəndə. 1) Vərəndənin tarixi keçmişi haqqında bir neçə kəlmə // "Etnoqrafiya jurnalı", Tiflis, kitab II, 1897, s.5-8).*

23. Լալայան Ե., Գանձակի շրջանի Ե. Ազգություն. // «Հանդես ազգագրութեան», Թիֆլիս, Գիրք Զ 1900, էջ 231-232 *(Lalayan, Gəncə rayonu E. Milliyyət: // "Etnoqrafiya jurnalı", Tiflis, kitab VI, 1900, s.231-232)*

24. Լեո. Հայոց պատմություն. հ. II: Երևան, 1967; Լեո. Հայոց պատմություն. հ. III: Երևան, 1968 *(Leo. Erməni xalqının tarixi, II cild, İrəvan, 1967; III cild, İrəvan, 1968)*

25. Մագալյան Ա. Արցախի մալիքները և 17-19-րդ դդ. Երեւան, 2007 (*Maqalyan A. 17-19-cu əsrlərdə Ərsak məliklikləri və məlik ailələri. İrəvan 2007*).

26. Տեր-Մկրտչեան Կ., Դօտեանք և Մելիք-Շահնազարեանք, // «Նիւթեր հայ մելիքութեան մասին», պրակ Բ, Էջմիածին, 1914 *(Ter-Mkrtcyan K., Dopyanlar və Məlik-Şahnazaryanlar, // "Erməni məlikliyi haqqında materiallar", II buraxılış, Eçmiədzin, 1914)*

27. *Ուլուբաբյան Բ., Խաչենի իշխանությունը X-XVI դարերում, Երևան, 1975 (Ulubabyan B., X-XVI əsrlərdə Xaçın knyazlığı, İrəvan, 1975).*

28. Ուլուբաբյան Բ.Ա. Արցախի պատմություն. սկզբից մինչև մեր օրերը, Երևան, 1994 *(Ulubabyan B.A. Ərsak tarixi, başlanğıcdan günümüzədək, İrəvan, 1994)*

29. Փափազյան Հ. Մելիք Եգանի ընդունարանի մուտքի վիմագիր արձանագրու-անագրու-անագրու-անյու *(Papazyan H. Məlik Eqanın qəbul otağının girişindəki yazı // İctimai elmlər bülleteni. 1985. No5. s.75-78).*

30. Րաֆֆի. Համսայի մելիքությունները, Թբիլիսի,1882 *(Raffi. Xəmsə məlikləri, Tiflis, 1882)*

31. Րաֆֆի, Երկերի ժողովածու, հ. IX, Երևան, 1987; հ XII, Երևան, 1999 *(Raffi. Seçilmiş əsərləri, IX cild, Yerevan, 1987; XII cild, İrəvan, 1999)*

## Резюме

**Гюнтекин Наджафли**

### Отражение этнической идентичности христианских албанских мелики Карабаха в армяноязычной историографии

В статье освещаются некоторые важные аспекты отражения этнической идентичности албанских-христианских меликов Карабаха в армяноязычной историографии. В армяноязычной историографии значительно преувеличивают роль пяти христианских меликств, существовавших на территории Карабаха, пытаясь представить практически каждое меликство как «образец армянской национальной государственности», как княжество, веками сохранившее традиции армянской государственности, одновременно стараясь доказать, что армяне являются исконно местным населением исторической территории Карабаха.

В статье дана классификация армяноязычной историографии и согласно данным первоисточников было доказано, что фамилия ни одного албанского мелика Карабаха не имеет отношения к армянскому происхождению. В письмах, адресованных Петру I и Екатерине II в XVIII в., карабахские меликства представлялись потомками албанской и аршакской династии.

***Ключевые слова:*** *Карабах, албанские меликства, армяноязычной историографии, национальная идеология*

## Abstract

### Guntakin Najafli

### Reflection of the ethnic identity of the Christian Albanian meliks of Karabakh in the Armenian-language historiography

The article highlights some important aspects of the reflection of the ethnic identity of the Albanian-Christian meliks of Karabakh in the Armenian-language historiography. In Armenian-language historiography them exaggerate the role of the five Christian meliks that existed in Garabagh, try to present each melikdom as an "example of Armenian national statehood", as an structure, the principality that "have preserved and maintained the traditions of Armenian statehood for centuries", and so on. At the same time, they are trying to prove that the Armenian population is a native people of the historical Garabagh territory.

In the article, the classification of Armenian-language historiography is given and Basing on primary sources, is proved that none of the Albanian meliks of Garabagh were of an Armenian descent. In the 18th century, the Garabagh meliks, in their letters to Peter I and Catherine II introduced themselves as representatives of the Albanian or Arshaki dynasty.


***Keywords***: *Garabagh, Albanian meliks, Armenian-language historiography, national ideology*

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2023.2.65

**İsmayıl Hacıyev**
*AMEA Naxçıvan Bölməsinin*
*sədri, akademik*
*haciyev.i1951@gmail.com*

# V.QRİQORYEVİN "NAXÇIVAN ƏYALƏTİNİN STATİSTİK TƏSVİRİ" ƏSƏRİ NAXÇIVAN TARİXİNİN MÜHÜM MƏNBƏYİ KİMİ

*Məqalədə çar Rusiyasının Azərbaycanı işğal etməsi dövründə və ondan sonra bölgənin ictimai-siyasi və iqtisadi potensialını öyrənmək üçün əraziyə göndərdiyi tədqiqatçılar və onların fəaliyyətindən bəhs edilir.*

*Vasili Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsərinin Naxçıvan tarixinin öyrənilməsində mühüm mənbələrdən biri olduğu əsaslandırılır və buradakı fakt və hadisələr tədqiqata cəlb edilir. Əsərdə Naxçıvan xanlığının, sonra isə Naxçıvan əyalətinin siyasi, iqtisadi, mədəni həyatı haqqındakı vəziyyətdən bəhs edilir. İşğaldan sonra ermənilərin Naxçıvan əyalətinə köçürülmələri və yerləşdirilmələri, demoqrafik vəziyyətdə baş verən dəyişikliklər tədqiqata cəlb edilir. Əhalinin milli tərkibi, dairələrin strukturu, idarə edilməsi, kənd təsərrüfatının inkişafı, ticarət əlaqələri, vergilərin toplanması, iqta torpaqlarının xan, bəy və sultanlara verilməsi kimi məsələlərdən də bəhs edilir. Müəyyən edilir ki, bəzi çatışmazlıqlarına baxmayaraq V.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsəri Naxçıvanın XIX əsr tarixini öyrənmək üçün tarixi əhəmiyyət daşıyan mühüm mənbədir.*

***Açar sözlər:*** *Vasili Qriqoryev, Naxçıvan əyaləti, XIX əsr, statistik təsvirlər, köçürmə, milli tərkib, kənd təsərrüfatı.*

Naxçıvan bölgəsi özünün zəngin və qədim tarixi, coğrafi mövqeyi, qiymətli abidələri və mühüm ticarət əhəmiyyətinə görə Rusiyanın qabaqcıl ziyalıların-tarixçilərin, etnoqrafların, iqtisadçıların, diplomatların, səyyahların nəzər-diqqətini cəlb etmişdir. Naxçıvan bölgəsi Rusiya tərəfindən işğal edildikdən sonra (1828) yeni torpaqlarda əvvəllər mövcud olan qayda-qanunu və vəziyyəti öyrənmək məqsədilə çarizim öz məmurlarını həmin yerləri yazılı surətdə təsvir etməyi tapşırmışdı.

Çar hökuməti iqtisadi siyasətini həyata keçirməklə ilk növbədə Azərbaycanın təbii zənginliklərinə maraq göstərirdi. O, faydalı qazıntılarla zəngin olan rayonların öyrənilməsi üçün mütəxəssislər göndərirdi. Bir çox mütəxəssislər Qərbi Azərbaycanın çay yataqlarında qızılın olub-olmadığını öyrənməklə məşğul olurdular. Rusiya hökuməti Azərbaycanda ipəkçiliyin inkişafının mənfəətli olmasını nəzərə alaraq, kənd təsərrüfatının bu sahəsinin yüksəlişi üçün bir sıra tədbirlər görürdü. Nəticədə Azərbaycan Rusiya ipək sənayesinin ən mühüm xammal bazasına çevrilirdi [1, s.61].

Çar hökumətinin məqsəd və vəzifələri Azərbaycanı müstəmləkəyə, xammal bazasına çevirməyə yönəlsə də, bu şəraitdə Azərbaycan iqtisadiyyatının ipəkçilik və balıqçılıq təsərrüfatı kimi mühüm sahələrinə rus kapitalı daxil olurdu. Nəticədə, Azərbaycanın yeraltı sərvətlərinin aşkara çıxarılması sahəsində görülən tədbirlər, obyektiv olaraq Azərbaycanın iqtisadi inkişafına kömək edirdi.

İşğaldan sonra rus çarizmi əzəli Azərbaycan torpaqları olan Naxçıvan və İrəvan xanlıqları əsasında "Erməni vilayəti" yaratdı. Çar hökuməti "Erməni vilayəti"ni yaratdıqdan beş il sonra, 1833-cü il iyunun 23-də "Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi [2, s.121]. İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə bölündü. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı [9, s.448].

Çar hökuməti bir müddət sonra, 1840-cı ildə "Erməni vilayəti"ni ləğv etmiş, beləliklə, əslində həmin ideyanın kökündən yanlışlığı təsdiq olunmuşdu.

Çar hökuməti Naxçıvan və İrəvan vilayətlərini hərtərəfli öyrənmək üçün V.Qriqoryev və U.Şopeni bu ərazilərə göndərmiş və onlar XIX əsrin 20-30-cu illərində araşdırmalar aparmışdır. Bunlarla yanaşı, çar hökuməti bu ərazilərdə 1831-ci ildən 1897-ci ilədək kameral siyahıyaalmalar da həyata keçirmişdir.

Hər iki müəllifin çap etdirdiyi kitablar Naxçıvan və İrəvan əyalətlərinin öyrənilməsi üçün bu gün də aktuallığını saxlamaqla mühüm tarixi mənbə rolunu oynayırlar.

Bu kitablardan birinin – "Naxçıvan əyalətinin statistik təsviri" (1833) əsərinin müəllifi Vasili Qriqoriyevdir. Kitab tarixi – etnoqrafik baxımdan orijinal olmaqla yanaşı Naxçıvan əyalətini öyrənmək üçün əhəmiyyətli mənbələrdən biridir.

Tarixçi Musa Quliyev Vasili Qriqoriyevin tərcümeyi-halından bəhs edərək qeyd edir ki, o, 1803-cü ildə Rusiyanın Sankt-Peterburq şəhərində məmur ailəsində anadan olmuşdur. Peterburq gimnaziyasında təhsil aldıqdan sonra Vasili maliyyə idarələrində çalışmışdır. Hətta ömrünün son illərində həqiqi saray müşaviri olmaqla bərabər dövlət xəzinə departamentinin vitse-direktoru və şöbə rəisi vəzifəsində işləmişdir [6].

Onu da qeyd edək ki, 1821-ci ildə kiçik dövlət məmuru kimi xidmətə başlayan V.Qriqoryev bu vəzifədə 50 ildən çox çalışmışdır.

1825-ci ildə o, Qafqazda xidməti ezamiyyətdə olmuş, 1828-ci ildə isə V.Qriqoriyev yenidən Qafqaza xəzinə məmuru kimi bir neçə illiyə işləməyə göndərilmişdi. V.Qriqoryevi Gürcüstanda P.D.Zavileyskinin yanında işləməyə göndərmişdilər. Onun Tiflisə ezam edilməsinin əsas səbəbi Naxçıvan əyalətinin iqtisadi-statistik təsvirinə aid kitabın yazılması idi. O, Tiflisdə A.Bestujev – Marlinski və A.Qriboyedovla görüşəndə onlara da belə bir kitab yazmaq tapşırığı verildiyini deyib.

V.Qriqoryev 1829-cu ilin bir neçə ayında Naxçıvanda yaşamış, kitabı üçün materiallar toplamışdır. Nəticədə, "Naxçıvan əyalətinin statistik təsviri" adlı çox sanballı tarix kitabını yazmışdır. Onun bu kitabı əvvəlcə "Тифлисские ведомости" (Tiflis xəbərləri) qəzetində 1831-ci ildə hissə-hissə çap olunmuşdur. Çox maraqlıdır ki, kitabla bağlı "Современник" jurnalının redaktoru A.S.Puşkin tərifləyici bir rəy nəşr etdirmişdir [6].

Vasili Qriqoryevin bəhs olunan – "Naxçıvan əyalətinin statistik təsviri" kitabı 1833-cü ildə Sankt-Peterburq şəhərində nəşr edilmişdir. Kitab iki bölmə və beş fəsildən ibarətdir. Birinci bölmə Naxçıvan dairəsinə, ikinci bölmə isə Ordubad dairəsinə həsr edilmişdir.

V.Qriqoryev kitabda diyarın coğrafiyası, iqlimi, ərazisi, inzibati bölgüsü, şəhərlər və şəhər həyatı haqqında əhatəli məlumat verir. Burada, eləcə də Naxçıvan diyarının həyatı, sənətkarlıq, ticarət, əkinçilik, maldarlıq, əhalinin sayı və sosial tərkibi, əhalinin geyimi, qonaqpərvərliyi, yeməkləri, maarifin inkişafı, səhiyyə işləri barədə və digər sahələrlə bağlı olan məsələlərə də geniş yer verilir.

Təsadüfi deyildir ki, akademik İsa Həbibbəyli bu tarixi mənbəni Naxçıvan bölgəsi üçün ilk qiymətli ensiklopediya adlandırır və yazır ki, V.Qriqoryevin bu kitabı onun yüksək elmi səviyyəyə və dərin biliyə malik olan bir müəllif olduğunu sübut edir [8, c.56]. Müəllif məqalədə haqlı olaraq göstərir ki, "kitabdakı bir neçə məlumat natamam halda verilmiş, demoqrafik məsələyə həsr edilmiş bölmədə statistik rəqəmlərin və məlumatların şişirdilməsi halları ilə qarşılaşırıq". Bu və Naxçıvana dair digər rus müəlliflərinin kitab və məqalələrində bu cür hallarla rastlaşırıq. Bu da səbəbsiz deyildir. Belə halların olmasına səbəb həmin müəlliflərin erməni mənşəli tərcüməçilərdən və məmurlardan aldıqları məlumat və materiallardan istifadə etməsi olmuşdur. "Bu cür hallar gərgin əməyin və böyük zəhmətin bəhrəsi olan kitabın əhəmiyyətini azaldır" [8, s.56].

Tarixçi Yaşar Rəhimov haqlı olaraq göstərir ki, "ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə, V.Qriqoryev bu kitabın özündə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin tarixinə dair zəngin məlumatları əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbədir" [5, s.13].

Əsərin ciddi əhəmiyyətindən biri onun ümumiləşdirici xarakterə malik olmaqla tarixi Naxçıvan ərazisini əsasən əhatə etməsidir. Təbii ki, müəllif məsələləri o dövrkü inzibati-ərazi

bölgüsünə uyğun araşdırmışdır. Ona görə də Şərur və Sədərək bölgələrinin müəyyən əraziləri haqqında məlumatlar verilməmişdir [3, s.46].

Kitabda ayrı-ayrı məsələlərlə bağlı verilmiş cədvəllər, statistik məlumatlar ciddi elmi əhəmiyyət kəsb edir. Burada yaşayış məskənlərinin quruluşu, əhalinin dini, milli-etnik tərkibi, ermənilərin əraziyə köçürülməsi ilə əlaqəli dəyərli məlumatlar vardır. Kitabda məşğuliyyət sahələri ilə yanaşı bazar münasibətləri, bazarların quruluşu, ticarət əlaqələri, əyalətdən satışa çıxarılan mallar, bura gətirilən ərzaq və sənaye məhsulları, karvan yolları və s. ilə bağlı geniş məlumatlar vardır. Əhalinin məşğuliyyətindən bəhs edərkən onun təbii-coğrafi şəraitə uyğun olaraq əkinçilik, maldarlıq, ev peşəsi, ticarət, insanların müəyyən qisminin kiçik manufaktura sahəsində çalışdığı qeyd edilir.

Kitabda siyasi məsələlərdən yeri gəldikcə bəhs edilir. Bununla əlaqədar V.Qriqoryev yazırdı: "Keçən yüzilliyin axırlarında – 1790-cı ilədək Naxçıvan əyaləti müstəqil xanlıq idi. Naxçıvan xanlığı Naxçıvan, Ordubad, Mehri və Qafan mahallarından ibarət idi. Xanlıq yerli xanlar tərəfindən irsi olaraq idarə olunurdu. Həmin xanlardan axırıncısı Kəlbəli xan idi. Ağıllı və cəsur insan olan Kəlbəli xan Gürcü çarı İraklinin dostu idi" [9, s.49].

Müəllif Ağa Məhəmməd xanla Kəlbəli xanın münasibətlərinə də aydınlıq gətirərək yazır: "Ağa Məhəmməd xan bölgəni zorla özünə tabe etdirə bilməyəcəyini dərk etdi və hiylə işlədərək Kəlbəli xanı öz düşərgəsinə dəvət etdi. Kəlbəli xan o düşərgəyə çatan kimi əliüstü gözlərini çıxartdılar və Tehrana sürgün etdilər. Orada 6 il ciddi nəzarət altında yaşadı. Bu baş verənlərdən sonra Naxçıvan xanlığı həm müstəqilliyini, həm də Mehri və Qafan mahallarını itirdi. Həmin mahalları Qarabağa verdilər. Naxçıvan xanlığının idarəçiliyində Naxçıvan, Ordubad və Dərələyəz mahalları yaradıldı. Kəlbəli xanın əmisi oğlu Abbasqulu xan hakim təyin edildi. Fətəli şah hakimiyyətə gəldikdən sonra Kəlbəli xanı həbsdən azad edib, ona İrəvanda yaşamağa icazə verdi" [9, s.49-50].

V.Qriqoryev yazır ki, Kəlbəli xan ikinci dəfə həbs olunsa da, Abbas Mirzə onu üçüncü dəfə Naxçıvan xanı təyin etdi: "Amma iki il keçməmiş Kəlbəli xanı yenidən Tehrana çağırıb, orada həbs etdilər. Bu həbs də onun iradə və hünərini zəiflətmədi. O, yenidən Abbas Mirzənin əmri ilə Naxçıvana hakim təyin edildi. Kəlbəli xan üç il hakimlik edəndən sonra Məkkəyə getdi. Məkkə ziyarətindən geri qayıdan Kəlbəli xan Təbrizdə dayanmalı oldu və bu zaman o, Abbas Mirzə tərəfindən görüşə dəvət olundu. Kəlbəli xan həmin görüşdə faciəli surətdə dünyasını dəyişdi" [9, s.50].

"Naxçıvan əyalətinin statistik təsviri" kitabında Kəlbəli xanın Naxçıvanda yox, İrəvan xanlığında yaşamasına da aydınlıq gətirilmişdir. Qeyd olunur ki, müstəqil olan İrəvan xanlığı qətiyyətsiz və zəif iradəli Məhəmməd xan tərəfindən idarə edilirdi. Naxçıvanlılar arasında böyük hörmətə malik olan Kəlbəli xanın İrəvanda olması xəbərini eşidən əyanlar da öz ailəsi ilə birlikdə ora köçürdülər. Kəlbəli xan tezliklə Məhəmməd xanın etimadını qazandı və xanlığın etibarlı adamına çevrildi.

V.Qriqoryev əsərində Naxçıvan əyalətinin inzibati-ərazi quruluşunu izah etməklə yanaşı, onun dörd mahaldan – Naxçıvan, Xok, Əlincə və Dərələyəzdən – ibarət olduğunu, onların strukturunu, idarə edilməsini də tədqiqata cəlb etmişdir. Naxçıvan mahalı 47 kənddən, 3045 evdən ibarət olmaqla, əsas şəhəri Naxçıvan idi [9, s.65]. Şəhər 4 məhəllədən – Əlixan, Şahab, Sarvanlar və Qurdlardan – ibarət idi. Naxçıvan şəhərinin qalası olduğuna görə şəhəri idarə edənlər qalabəyi və kələntər adlanırdılar. Qalabəyilər qala divarları içərisində yerləşən xan sarayının və şəhər qapılarının açarları üçün məsuliyyət daşıyırdılar [6, s.36].

Qala şəhərlərinin inzibati və hərbi idarəçiliyini həyata keçirən qalabəyi ilə yanaşı, şəhərlərin bir də iqtisadi idarəçiliyini həyata keçirən şəxslər var idi ki, onlar darğa adlanırdı. V.Qriqoryev Naxçıvan şəhərindən bəhs edərkən göstərir ki, əsrin başlanğıcında şəhər idarəçiliyində iki şəxs önəmli rol oynayırdı. Bunlardan biri darğa, digəri isə əsasbaşı idi. Darğa adlanan şəxs şəhərin, xüsusən bazarların fəaliyyətinə və təhlükəsizliyinə gündəlik nəzarət edirdi. O, ərzaq məhsullarının qiymətini müəyyənləşdirirdi [9, s.54]. Əsasbaşı isə gecələr şəhərdə sabitliyin təmin olunması ilə vəzifələndirilmişdi. Əsasbaşı bəzən keşikçibaşı da adlanırdı. Həm darğa, həm də əsasbaşı bazarda və satıcıdan – piştaxta arxasında olandan 15 gümüş qəpik toplayırdı [9, s.54]. Əsərdə idarəetmədə müəyyən mövqe-

yə malik olan eşikağası, mirab, mirbölük, kəndxuda, məlik, axund, qazi, molla və başqaları haqqında da izahedici məlumatlar verilir.

Burada hərbi sahə, onun tərkibi (800 piyada, 200 atlı), idarə olunmasındakı hərbiçilər (sərbaz, qullarağası, naib, yüzbaşı, sultan və b.), onların vəzifə səlahiyyətləri təhlilə cəlb edilmişdir. Əsərdə müsəlmanlar arasında olan imtiyazlı təbəqələrin tərkibi də verilir. Aydın olur ki, 4 xan, 47 sultan və bəy, 3 axund, 10 molla, 18 seyid, 34 nəfər xan nökərləri və 386 nəfər tabeli müsəlmanlar var idi [9, s.69].

Əlincə mahalından bəhs edərkən orada 18 kəndin və 718 evin, Xoy mahalında 8 kəndin və 235 evin, Dərələyəz mahalında isə - qərb hissəsində 362 evin, şərq hissəsində isə 44 kəndin və 910 evin olması qeyd edilir. Müəllif Culfanı kənd yaşayış yeri kimi göstərməklə, qırmızı daşdan tikilmiş 25 evin, Gal kəndində iki mərtəbəli binaların da olduğu və 700 evi özündə birləşdirdiyini yazır.

“Statistik təsvirdə” İran ermənilərinin Naxçıvana köçürülməsinə, onların əyalətin müxtəlif kəndlərində və Naxçıvan şəhərində yerləşdirilməsi də verilmişdir. Qeyd edilir ki, 1828-ci ildən sonra Naxçıvan əyalətinə 2551 erməni ailəsi gəlmişdir ki, bunlardan 416 ailə Naxçıvan şəhərində, 1869 ailə Naxçıvan dairəsinin kəndlərində, 266 ailə isə Ordubad dairəsinin kəndlərində yerləşdirilmişdi. Məlum olduğu kimi, köçürmədə əsas məqsəd Naxçıvan əhalisinin milli tərkibində ermənilərin üstün rolunu təmin etmək idi.

Əsərdə Ordubad dairəsinin sərhədləri, dağları, çayları (Gilançay, Üstüpüçay, Vənəndçay, Əylisçay, Ordubadçay), meşələri, torpaq quruluşu, yolları, iqlimi, əhalisi haqqında məlumat verilir. Azad insanlar sırasına 3 axund, 75 molla, 30 seyid, 1 xan, 60 bəy mənşəli və 10 nəfər xan nökərləri olduğunu göstərir. Ordubadın naibi Şıxəli bəy və onun köməkçisi rus zabiti olduğunu qeyd edir. Şəhərin 5 məhəllədən (Ambaras, Kür-Tatar, Sər-şəhər, Mingis və Üçtərəngi) ibarət olduğunu, 6 karvansara, böyük bazarın olduğu, əhalinin daha çox bağçılıqla məşğul olduğunu vurğulayır [9, s.193-195]. Ordubad dairəsinin beş mahaldan (Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv) ibarət olması, heyvandarlığın və ticarətin geniş intişar tapdığını göstərir. Ordubad tacirləri yerli ticarətlə yanaşı, Moskva, Həştərxan, Təbriz, Rəşt və b. şəhərlərlə ticarət işləri aparırdılar.

Ordubad dairəsi ilə bağlı, onun mahalları ilə əlaqədar bir neçə cədvəl də kitaba daxil edilmişdir. Cədvəllərdə Ordubad mahalının, eləcə də Ordubad şəhərinin, kəndlərinin əhalisi, onun milli tərkibi, verdikləri vergilərin növü və miqdarı əksini tapmışdır. Bu xarakterli göstəricilər Əylis, Dəstə, Çənnəb və Biləv mahalları üzrə də verilmişdir. Beləliklə, Ordubad dairəsində 1777 evin olduğu göstərilir ki, bunun da 1155-i müsəlman ailələrə aid edilir [9, s.251].

Başqa bir cədvəldə kəndlər üzrə əhalinin sayı və onlardan toplanan vergilərin miqdarı göstərilir.

“Statistik təsvirdə” Naxçıvan əyalətində yaşayan xan, bəy və sultanlar, onlara verilən tiyul torpaqları haqqında məlumatlar da verilir. Kəndlərin bunlardan kimə aid olması da göstərilir. 24 xan, bəy və sultanın tiyul torpaqları sadalanır. Pul və natura ilə toplanan vergilərdən də bəhs edilir. Eyni ilə bu məlumatlar Naxçıvan dairəsinin mahalları üzrə də göstərilir.

“Naxçıvan əyalətinin statistik təsviri” əsərində Naxçıvan əyalətinin təsərrüfat həyatına çox geniş yer verilmiş, təsərrüfatın çoxcəhətli və rəngarəng olduğu göstərilmişdir. Bölgənin torpaqları yararlı olmaqla yanaşı, həm də çox bərəkətli idi. Ərazinin quruluşundan asılı olaraq burada taxıl, pambıq, çəltik, üzüm və bostan bitkiləri yetişdirilirdi. Mənbədə şəhərin ətrafı ilə birlikdə şumlanan torpaq sahəsinin 600 xalvar* olduğu, onun yarısında isə pambıq, çəltik, bostan bitkiləri əkildiyi göstərilir: taxıl məhsulları əkilən ərazi 250 xalvar, pambıq əkilən sahə 20 xalvar, çəltik əkilən sahə 10 xalvar, bostan bitkiləri əkilən sahə 20 xalvar. Şəhər ərazisində 21 meyvə və üzüm bağı yerləşir ki, onların 11-i daha geniş sahəni əhatə edir. Bağların əhatə etdiyi ərazi 30 xalvara qədərdir [9, s.70].

Kitabın 2 fəslində - IV və V fəsillərində əkinçilik, bağçılıq və başqa təsərrüfat sahələrinin təsnifatı verilmişdir. V.Qriqoryev yazır ki, Xok mahalının torpaqları burada buğda, arpa və pambıq əkmək üçün əlverişlidir. Dərələyəz mahalının əkinə yararlı torpaqları əsas etibarı ilə gilli və qara torpaqlar idi. Bu mahalın torpaqla-

* Xalvar ölçü və çəki vahididir. Burada xalvar torpaq sahəsi ölçüsü olub, onda birin yarısına bərabərdir.

rında buğda, arpa, noxud və meyvə yetişdirilirdi. Diyarın demək olar ki, bütün mahallarında taxıl əkirdilər. Yazlıq və payızlıq əkinlərdən istifadə olunurdu. Diyarda ildə 10 min xalvar buğda toplanırdı [9, s.86].

Naxçıvan şəhərinin ətraf ərazilərində və bu mahalın 13 kəndində əkilən dənli bitkilərdən biri də çəltik idi. Çəltik Naxçıvan, Əlincə mahalının kəndlərində və Dərələyəz mahalının qərb tərəfində ən çox əkilən bitki idi. Çəltik Naxçıvan mahalının kəndlərində - Şıxmahmudda, Xəlillidə, Kültəpədə, Uzunobada, Ağadizədə, Didivarda, Nəzərabadda, Xalxalda, Şahbuzda, Qarababada, Cəhridə, Təzəkənddə, Nehrəmdə, Əlincə mahalının Əbrəqunus, Culfa, Camaldın, Saltax, Xanağa kəndlərində, Dərələyəzin qərb hissəsində və Naxçıvan şəhərində əkilirdi [9, s.88]. V.Qriqoryevin yazdığına görə 1828-ci ildə Naxçıvan dairəsində 500 xalvara yaxın və ya 10 min pud çəltik yığılmışdı.

"Statistik təsvir"dən aydın olur ki, Naxçıvan diyarının əhalisi pambıqçılıqla da məşğul olurdu. Pambıq əsasən Naxçıvan şəhərində, Naxçıvan mahalının 19 kəndində (Didivar, Nəzərəbad, Uzunoba, Oruc-Dizə, Ağadizə, Şıxmahmud, Yarımca, Xəlilli, Kültəpə, Süst, Bulqan, Qaraçux, Qahab, Qoşadizə, Yamxana, Təzəkənd, Tumbul, Nehrəm, Qızılburun), Xok mahalının bütün kəndlərində, Əlincə mahalının 4 kəndində (Culfa, Əbrəqunus, Ərəzin, Şurut) əkilirdi [9, s.89]. V.Qriqoryevin verdiyi məlumata görə, 1828-ci ildə Naxçıvan bölgəsində 300 xalvara yaxın və yaxud 6 min pud pambıq yığılmışdı [9, s.89].

Mənbədən məlum olur ki, Naxçıvan bölgəsində üzüm bağları da mövcud idi və bunların ümumi sahəsi 30 xalvar idi. Burada daha çox kişmişi üzüm sortu becərilirdi və o, çox məhsuldar idi. Qeyd olunur ki, bir xalvar üzüm sahəsindən 400 batmana yaxın üzüm yığılırdı.

Əhalinin təsərrüfat həyatında bostançılığın da xüsusi yeri var idi. Kitab müəllifi qeyd edir ki, XIX əsrin 20-ci illərində diyarın əkilən torpaqlarının 50 xalvarında bostan əkilmişdi. Əldə olan məlumata görə, buradan yarım milyon pud bostan məhsulları yığılırdı. Bostançılıqla Naxçıvan və Əlincə mahalının 30-a yaxın kənd əhalisi məşğul olurdu.

Naxçıvan diyarında əhalinin müəyyən qismi maldarlıqla da məşğul olurdu. Dərələyəz mahalının şərqində yaşayan əhalinin başlıca məşğuliyyəti maldarlıq idi. V.Qriqoryevin verdiyi məlumata görə buranın torpaqları əkinçilik üçün yararlı olmadığından maldarlığa üstünlük verilirdi. Qoyunçuluq daha geniş yayılmışdı. İqlim, coğrafi şərait, otlaqların olması qoyunçuluq üçün əlverişli şərait yaradırdı. V.Qriqoryev yazır ki, mal-qaradan "mal pulu" adlı vergi alınırdı. Belə ki, 1 camış üçün gümüş pulla 1 manat, 1 ulaq üçün 50 qəpik, 1 yük atı üçün 2 manat 20 qəpik vergi alınırdı. Qoşqu sistemində istifadə olunan öküz və kəl üçün, südverməyən heyvandan "mal pulu" alınmırdı [9, s.104]. V.Qriqoryev göstərir ki, Naxçıvan dairələrində 10 min kəl və camış, 1500 at, 200 qatır, 800 uzunqulaq, 15 min qoyun və keçi qeydə alınmışdı. Maldarlıq Ordubad kənd əhalisinin də əsas məşğuliyyəti idi.

"Statistik təsvir"də Naxçıvanda duz istehsalı, onun daşınması və satışı haqqında da məlumat vardır. Şıxmahmud kəndi yaxınlığındakı mədəndən çıxarılan duzun müxtəlif yerlərə ixrac edilməsi, bu zaman qatırlardan istifadə edilməsi də qeyd edilir. V.Qriqoryev yazır ki, duz çıxarılması hüququ XIX əsrin əvvəllərində Şıxmahmud kəndinin sakinlərinə verilmişdi [9, s.114].

Naxçıvan duzunun keyfiyyətindən bəhs edən müəllif yazır: "Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan, Naxçıvanın bütün kəndlərindən, Ordubaddan karvanlar bura gəlir, Naxçıvan duzu alıb aparırdılar" [9, s.17, 115]. V.Qriqoryev yazır ki, bir batman duz bir Naxçıvan abbasısına və ya səkkiz gümüş qəpiyə satılırdı.

Qeyd etməliyik ki, 1828-ci ilədək duz mədənləri Kəlbəli xanın ixtiyarında idi. Həmin illərdə Şıxmahmud, Cəhri və Süst kəndləri əhalisinin bir hissəsi bu mədənlərdə duz çıxarılmasına təhkim olunmuşdu.

V.Qriqoryevin verdiyi məlumata görə, duz mədəni satış yolu ilə xərcini ödəyəndən sonra ildə min tümən, gümüş pulla dörd min manat gəlir gətirirdi. Buna əsasən, satıcı duzun hər batmanından və onu ixrac edərkən də hər yükdən əlavə olaraq 8 qəpik alırdı [9, s.114].

Müəllif Naxçıvan əyalətində toplanan vergilərdən də bəhs edir. Kitabda qeyd olunur ki, xəzinə əsasən ticarətdən gələn qazanc və yığı-

lan vergilər hesabına doldurulurdu. Bölgə ərazisində aparılan ticarətdən ən çox gəlir "rahdari" gömrüyündən əldə edilirdi. Bazara daxil olan malların və satılan məhsulların əksəriyyətindən rahdari gömrüyü toplanırdı. Əsas gəlir mənbəyi hesab olunan rahdari gömrüyü toplamaq hüququ icarəyə verilirdi. İldə 1300 tümənə həmin "vəzifə"ni almış icarədar bazara gətirilən bütün mallardan gömrük toplamaq hüququna malik idi. At və dəvə ilə gətirilmiş hər ipək, boyaq, sap və pambıq yükü üçün sahibkar icarədara 4 manat 20 qəpik və ya 2 manat 50 qəpik verməli idi. Bundan başqa, qənd, həna, dəmir məmulatı, yağ, bal, tütün və s. satan tacir 2 manat 12 qəpik rahdari gömrüyü verməli idi [9, s.111].

V.Qriqoryev yazır ki, boyaqçılara vacib olan qırmızı boyaq bitkisi (marena), həmçinin İrandan gətirilmiş müxtəlif məhsullar üçün tacirdən 1 manat 60 qəpik miqdarında rahdari, xurma və saxsı qablar üçün satıcıdan 25 qəpik gömrük alınırdı. Məhsulun satılıb-satılmamasından asılı olmayaraq satıcı geri qayıdarkən rahdari gömrüyü verməli idi. İrandan gətirilən toxunma parçalara görə 2 manat 40 qəpik həcmində gömrük alınırdı. Naxçıvan xanlığından aparılan üzüm, nar, noxud və düyü üçün gümüş pulla 62 qəpik, bu məhsulların şəhər bazarına gətirilməsi üçün daha artıq gömrük alınırdı.

Naxçıvanda ən yüksək qazancı icarədar duz mədənlərindən əldə edirdi. O, duz satışından ildə min tümən qazanırdı. İcarədar 1 batman duz üçün 8 qəpik, duzun daşınması üçün bir o qədər də gömrük haqqı alırdı. Əldə olunan gəlirin dörddə biri duz mədənlərində işləyənlərə verilirdi

Tütün satışından gömrük toplamaq hüququ ildə 15 tümənə icarəyə verilirdi. Şəhərdə yalnız icarədarın tütün satmağa ixtiyarı var idi.

Gətirilən faktlardan aydın olur ki, XIX yüzillikdə Naxçıvan əyalətində vergi sistemi çox mürəkkəb olmuşdur. Boyaqçılıq, təzə və quru meyvələrin, çörək və dənli bitkilərin satışı da icarəyə verilirdi. Xəzinəyə 370 tümən ödəyən şəxs boyaqçılıqda icarə hüququ qazanırdı.

Culfa yaxınlığındakı Araz keçidindən gömrük almaq hüququ da icarəyə verilirdi. Həmin hüquq Culfadan olan yüksək rütbəli bir nəfərə 160 tümənə verilmişdi. V.Qriqoryev yazır ki, bundan əlavə icarədar xəzinəyə ildə topladığı gömrüyün dörddə bir hissəsini də verməli idi. Mənbədə Araz çayının üstündəki körpüdən keçirilən yükə görə gömrük alınması qeyd olunur: "Hər yüklü və ya yüksüz at üçün 8 qəpik, hər qaramal üçün 8 qəpik, hər ailəyə görə 50 qəpik, dəfn olunmaq üçün Xorasana aparılan müsəlman cənazəsi üçün 50 qəpik alınırdı"[9, s.115].

V.Qriqoryev bəhs olunan əsərində Naxçıvan və Ordubadın sosial həyatından az da olsa bəhs etmişdir. Bölgədəki şəhərlər, onların sosial inkişafı, əhalinin sosial tərkibi, əkilə biləcək torpaqlardan qeyri-bərabər istifadə etmələri, şüşə istehsalı, bölgədə sosial zümrə və təbəqələrin formalaşması kimi məsələlərə də diqqət yetirilir.

İqtisadi əlaqələr və ticarət məsələləri də araşdırılmışdır. Ordubad şəhərində tacirləri dərəcələrə bölən V.Qriqoryev yazırdı ki, Ordubad tacirlərindən 10 nəfəri topdansatışla, 30 nəfəri şəhərdə pərakəndə satışla, 4 nəfəri isə xırda alverlə məşğul olurdu [9, s.192]. Ordubad şəhərində yerli ticarətlə məşğul olanların əksəriyyətinin müsəlmanlar olduğunu göstərir. Tacirlərin bir çoxu İran mallarını Təbriz bazarlarından, Avropa mallarını isə Tiflisdən alır, həmin mallarla bərabər taxıl da alıb gətirirdilər.

İstehsal olunan ipək məhsulu yerli bazara çıxarılırdı. Ordubad ipəyindən hazırlanmış nəfis parçalar Rusiya və Avropa bazarlarında yüksək qiymətləndirilirdi. Xam pambıq materialı da xaricə ixrac edilirdi. İxrac məhsulları içərisində ərik qurusu da mühüm yer tuturdu [9, s.197]. İpək parçalara və saplara, ipliklərə xarici bazarda böyük tələbat var idi. Ordubad fabriklərində hər il 700 puddan çox ipək hazırlanırdı və Moskvaya göndərilirdi. Naxçıvandan ixrac edilən mallar içərisində ağ və qırmızı bez, şərab, duz, küncüt yağı var idi.

V.Qriqoryev bəhs olunan kitabında əyalət əhalisinin mədəni inkişafı haqqında da bəhs edir. Qeyd olunur ki, azərbaycanlılar maarifi yüksək dərəcədə sevir və ona yiyələnməyə böyük həvəs göstərirlər. Lakin bununla belə əhalinin böyük əksəriyyəti savadsızdır, təhsillə ancaq mollalar məşğul olurlar. Sonralar məktəbə çevrilmiş məsciddə təhsil verən mollalar şagirdlərinə daha çox Quran ayələrini öyrətməyə çalışırdılar [9, s.41].

Azərbaycanda olduğu kimi, Naxçıvanda da kəndlilər yerli istismarçıların və rus xəzinəsinin ağır vergilərinin güclü təzyiqi altında əzilirdilər. V.Qriqoryev yazır ki, karvansaralardan, də-

yirmanlardan, ipəkəyirmə müəssisələrindən əlavə vergilər tələb edilirdi.

V.Qriqoryev tərəfindən tərtib edilmiş bu mənbədə Naxçıvan mahalı, eləcə də Naxçıvan şəhəri, Dərələyəz, Xok mahallarında, bölgənin başqa ərazilərindəki tarixi-memarlıq abidələrinin və qalaların yerləşdiyi mövqe, onların funksiyaları, quruluşu və s. haqqında məlumatlar vardır.

Mənbədə Naxçıvan bölgəsinin etnoqrafiyasına aid olan məlumat və materiallar xüsusi maraq doğurur. Həmin mənbədə bölgənin yaşayış məskənləri və evləri, tikinti materialları, geyim və bəzəklər, əhalinin yemək və içkiləri və s. haqqında zəngin etnoqrafik məlumatlar verilib.

Beləliklə, V.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" əsərinin təhlilindən aydın olur ki, müəllif tapşırıq əsasında XIX əsrin 20-ci illərin sonunda Naxçıvanda olmuş, müşahidələr aparmış, tədqiqat üçün materiallar toplamış, Naxçıvanın tarixi, mədəniyyəti, iqtisadi vəziyyəti, etnoqrafiyası və digər sahələri ilə bağlı əhəmiyyətli kitab ortaya qoymuşdur. Bu gün də Naxçıvanın həmin dövr tarixini öyrənmək üçün bu kitab qiymətli və əhəmiyyətli mənbə kimi mühüm dəyərə malikdir.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan tarixi. Yeddi cilddə, IV cild (XIX əsr). Bakı: "Elm", 2007, 504 s.
2. İrəvan necə varsa: keçmişdən bu günə. Bakı: "Astroliqraf LTD" MMC, 2022, 520 s.
3. Qədirzadə H.Q. V.Qriqoryevin Naxçıvan əyalətinin statistik təsviri" əsərində əhalinin məşğuliyyəti və ticarət məsələləri Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri. Beynəlxalq İpək yolu konfransı (16-17 oktyabr 2015-ci il. Naxçıvan). Naxçıvan, 2015, s. 45-46.
4. Naxçıvan tarixi. Üç cilddə, II cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, 528 s.
5. Rəhimov Y. Naxçıvan XIX əsr rus mənbələrində. Bakı: "Elm və təhsil", 2014, 180 s.
6. Rəhimoğlu (Quliyev) M. Tariximizlə bağlı qiymətli mənbə: "Naxçıvan əyalətinin statistik təsviri". 525-ci qəzet, 2017, 7 fevral.
7. Şahverdiyev Z. Naxçıvan bölgəsi: XIX-XX əsrin əvvəllərində. Bakı: "Elm", 2008, 264 s.
8. Акпероглы И. Взгляд со стороны // «Ирс» (Наследие). Международный Азербайджанский журнал. Москва, 2007, №3 (27), с. 56-60.
9. Статистическое описание Нахичеванской провинции. Составитель В.Г.Санкт-Петербург: Типография Департамента Внешней Торговли, 1833, 263 с.
10. Шопен И.И. Исторический памятник Армянской области в эпоху её присоединения к Российской Империи. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1852, 1231 с.


**Summary**

**Ismail Hajiyev**

**V. Grigoriev's work "Statistical description of Nakchivan province" as an important source of Nakchivan history**


The article deals with researchers and their activities sent to the territory by Tsarist Russia to study the social-political and economic potential of the region during and after the occupation of Azerbaijan.

Vasily Grigoriev's work "Statistical description of the Nakhchivan province" is substantiated as one of the important sources in the study of the history of Nakhchivan and the facts and events here involved to the research. The work deals with the conditions on the political, economic and cultural life of Nakhchivan Khanate and then Nakhchivan province. After the occupation, the transfer and accommodate of Armenians in Nakhchivan province, the changes in the demographic situation are involved in the research. Issues such as the national composition of the population, the structure of districts, management, development of agriculture, trade relations, collection of taxes, and giving of

igta lands to khans, beys and sultans are also discussed. It is determined that, some certain shortcomings, V. Grigoriev's work "Statistical description of Nakhchivan province" is an important historical source for studying the history of Nakhchivan in the XIX century.

***Keywords:*** *Vasili Grigoriev, Nakhchivan province, XIX century, statistical descriptions, transfer, national composition, agriculture.*

## Резюме

**Исмаил Гаджиев**

## Составленное В.Григорьевым «Статистическое описание Нахчыванской провинции» как важный источник истории Нахчывана

В статье рассказывается об исследователях и их деятельности, направленных царской Россией в регион для изучения общественно-политического и экономического потенциала региона во время и после оккупации Азербайджана.

Обосновано, что работа Василия Григорьева «Статистическое описание Нахчыванской провинции» является одним из важных источников при изучении истории Нахчывана, и факты и события, описанные здесь, привлекаются к исследованию. В работе рассказывается о политической, экономической и культурной жизни Нахчыванского ханства, а затем и Нахчыванской провинции. К исследованию привлекаются переселение и расселение армян в Нахчыванскую провинцию после оккупации, изменения демографической ситуации. Также упоминаются такие вопросы, как национальный состав населения, структура округов, управление ими, развитие сельского хозяйства, торговые отношения, сбор налогов, передача земель икта ханам, бекам и султанам. Установлено, что, несмотря на определенные недостатки, работа В.Григорьева «Статистическое описание Нахчыванской провинции» является важным источником исторического значения для изучения истории Нахчывана XIX века.

***Ключевые слова:*** *Василий Григорьев, Нахчыванская провинция, XIX век, статистические описания, расселение, национальный состав, сельское хозяйство.*

UOT 94
https://doi.org/10.59849/2710-0820.2023.2.73

**Könül Allahverdi**
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitinun dissertantı*
*Azərbaycan*
*konul0506@mail.ru*

# V-VI ƏSRLƏRDƏ BİZANS VƏ SASANİ İMPERİYALARININ MÜNASİBƏTLƏRİ

***Açar sözlər:*** *Bizans, Sasani, I Qubad, I Yustinian, I Xosrov, İpək yolu, Hunlar, Qafqaz keçidi, Velisariy, Mesopotamiya, İberiya, Lazika.*

***Giriş***

395-ci ildə Roma imperiyasının parçalanması ilə yaranan Şərqi Roma və ya Bizans imperiyasının xarici siyasəti özündə Qədim Roma imperiyasının ənənələrini birləşdirməklə yanaşı mövcud olduğu dövrün tələbatlarınıda əks etdirirdi. Mövzuda Sasani və Bizans imperiyaların həm siyasi, həm də ticari münasibətləri bununla əlaqədar yaranan münaqişələr tədqiq edilmişdir. Hər iki imperiya dünya ağalığına cəhd göstərməklə yanaşı, dünya ticarətinə də nəzarətə sahib olmaq istəyirdi. Bu iki dövlət arasında baş verən ardı-arası kəsilməz müharibələr təkcə sərhədlərin tez-tez dəyişməsi ilə deyil, həmçinin beynəlxalq ticarətin inkşafına da zərbə vurmaqla nəticələnirdi. Bizans və Sasani dövləti arasında baş verən müharibələrin ən başlıca səbəbi Bizansın Çindən gələn ticarət yolunu tutmağa cəhd etməsi idi. 395-ci ildən sonra Bizans imperiyası Avropa torpaqlarının müəyyən hissəsindən məhrum olmuş, dövlətin əsas gəlir mənbəyi Şərqdə cəmlənmişdi. Məhz buna görə də, şərq torpaqlarını daha çox müdafiə edirdi. Mərkəzləşmiş dövlətə sahib olan Sasani dövləti də xarici siyasətində ticarətə daha çox diqqət yetirməyə başlamışdı. Ticarət beynəlxalq diplomatiya vasitəsi olaraq, iki imperiya arasında mübarizə ünsürünə çevrilmişdi. Beləliklə, sosial-iqtisadi və geosiyasi səbəblər Bizans və Sasani imperiyalarını Yaxın Şərqdə ağalıq uğrunda təbii rəqibə çevirirdi.

**V əsrdə Bizans -Sasani münasibətləri**

V əsrin əvvəllərində Bizans Sasanilərə qarşı "sakitləşdirmək" siyasəti yürüdürdü. Ümumiyyətlə, bu dövrdə hər iki imperiya arasında baş verən hadisələri anlamaq üçün Sasani dövlətinin daxilində baş verən hadisələri nəzərə almaq lazımdır. 399-cu ildə hakimiyyətə gələn I Yezdəgird (399-420) Sasani əyanlarını ənənəvi üsulla tabe edə bilmədiyindən özünə yeni müttəfiqlər axtarmağa məcbur olmuşdu. Bu yeni müttəfiqlər hələ II Şapur (309-379) dövründə təqib olunan xristian əhalisi olmuşdu [13, s.50]. Sasani dövlətinin xristian əhalisinə bir sıra imtiyazlar verməsi Bizansla münasibətləri yumşaltmaya bilməzdı. V əsrin əvvələrinədək hakimiyyətdə olan Arkadi (383-408) özündən əvvəlki hökmdarlar kimi qotlarla olan problemin həlli ilə məşğul olmuşdur.

Bu problemlərlə mübarizə aparan Arkadi Sasanilərlə ancaq diplomatik təmasda ola bilərdi. Konstantinopol sarayında özünə dayaq tapa bilməyən imperator Arkadi, Sasani şahı Yezdəgirdə (399-420) az yaşlı oğlunu "*qəyyumu və qoruyucu"* olmasını vəsiyyət etmişdi. I Yezdəgird bu təklifi qəbul etmişdir. Kesariyalı Prokopinin qeyd etdiyinə görə, "*Yezdəgird imperator Arkadinin ölümündən dərhal sonra Roma senatına basilevs Feodosinin qəyyumu olmasını rədd etmədiyini və onun əleyhinə olan istənilən sui-qəsdə cəhd edən hər bir kəsi müharibə ilə təhdid edən ismarıc göndərmişdi*" [28, II.10. s.11]. 412-ci ildə xristianlara Sasani dövləti hüdüdlarında yerli müstəqil xristian kilsəsi yaratmaq imkanı verilmişdi. Müvəqqəti olaraq, Armeniya[1] üstündə mübahisə dayanmış oldu. Bu

[1] Armeniya – 387-ci ildə Roma imperatoru Valentinlə II Şapur arasında bağlanmış müqaviləyə əsasən Armeni-

dövr Bizans və Sasani tarixində hər iki tərəfin bir-birinə sülhsevər siyasəti yürütdükləri ən nadir dövr hesab edilə bilər. Avropa sərhədlərindən hunların və digər xalqların basqınları Bizans imperatorlarına daha çox Qərb yönümlü siyasət yürütməyi məcbur edirdi. Arkadidən sonra hakimiyyətə gələn digər imperatorlarda eyni siyasəti həyata keçirmişdilər.

V əsrdə hər iki dövlət arasında məlum olan ilk toqquşma imperator II Feodosinin (408-450) hakimiyyəti illərində baş vermişdi. V Bəhramın (421-438/39) hakimiyyəti illərində yenidən xristianlar təqib olunmağa başladı. Bizans tacir karvanlarının soyğunçuluğa məruz qalması da, münaqişəyə bəhanə oldu [14, s.116]. 415-ci ildə Sasani dövlətinin Armeniya taxtına öz şahzadəsini oturtması burada Bizans təsirinə zərbə demək idi. Buna cavab olaraq, Bizans tərəfdarları Suzianda od məbədini yandırdılar. İki il davam edən müharibədən sonra 422-ci ildə "100 illik" barışıq imzalandı; müqaviləyə əsasən *status quo ante bellum* qəbul edildi [14, s.193]. Sasani imperiyası xristian dininə, öz növbəsində Bizans imperiyası isə atəşpərəstlik dininə öz ərazilərində sitayiş sərbəstliyi verirdi. Bu bənd Bizans dövlətinə sərf edirdi, çünki imperiya daxilində atəşpərəstlər azlıq təşkil edirdi. Bunun əksinə olaraq, Sasani imperiyasında xristianlar çoxluq təşkil edirdi [13, s.51]. Bununla yanaşı Bizans Qafqaz qapılarını qorumağı öz öhdəsinə götürürdü. Qafqaz qapıları, Qafqazın dağlıq keçidlərindən ibarətdir. Bu keçidlər vasitəsilə hər iki dövlətin ərazilərinə Şimali Qafqaz xalqlarının hücümları olurdu.

İmperator Feodosinin dövrü hunların Attilanın başçılığı altında birləşib nəinki, Qərbi Roma imperiyasının, eləcədə Şərqi Roma imperiyasına da təhdid olması ilə səciyyəvidir. V Bəhramın isə öz növbəsinədə Orta Asiyadan Sasani dövlətinin ərazisinə hücüm edən hunlarla apardığı mübarizə, bir daha Sasani hakim dairələri ilə Bizans hakim dairələri arasında vəziyyəti yenidən sabitləşdirməyə məcbur etdi.

Sonrakı illərdə Bizans və Sasani dövləti arasında ciddi toqquşmalar baş vermədi. Belə ki, Bizansa 422-ci il sülhü ilə möhkəmləndirilmiş beynəlxalq vəziyyət sərf edirdi. Sasani dövlətinin başı isə Orta Asiyadan onun torpaqlarına hücüm edən Eftal dövlətinə (Ağ Hun)[1] qarışmışdı. Lakin V Bəhram Gurun varisi II Yezdəgirdin (439-457) hakimiyyətə gəlməsi ilə yenidən Qərbə maraq artmış oldu.

Hakimiyyətə gəldikdən dərhal sonra Yezdəgird Bizansla müharibəyə hazırlaşdı. Hərbi döyüşlər 441-ci ildə başladı. Ancaq yenidən Orta Asiyadan, Ağ Hun dövləti tərəfindən gələn təhlükə Sasani dövlətini 442-ci ildə sülh bağlamağa məcbur etdi. Hər iki imperiya sərhəddə qalalar tikməməyi öz üzərinə götürürdü. Müqaviləyə əsasən bizanslılar Sasanilərə Qafqaz keçidini qorumaq üçün pul ödəyəcəklərdi.

Sasani şahı II Yezdəgird (439-457) 442-ci ildən etibarən hunlara qarşı mübarizə aparmışdır. Böyük cəhdlərə baxmayaraq, hunları tabe edə bilməyən Sasanilər 452-453-cü illərdə ağır məğlubiyyətə uğradılar. Bundan istifadə edən bizanslılar Lazikanı[2] işğal etdilər.

Sasani-Bizans müharibələri uzun bir fasilədən sonra I Anastasi (491-518) və I Qubad (488-531) dönəmində yenidən alovlandı [3, s.26; 7, s.31]. 363-cü ildə iki imperiya arasında bağlanmış 120 illik müqaviləyə əsasən imperator İovian (363-364) Armeniya və Mesopotamiya sərhədlərindən beş əyaləti və möhkəm müdafiə şəhəri olan Nisibisi (indiki Nusaybin) Sasanilərə güzəştə getməli idi. Bundan əlavə birbirlərinə düşmən müdaxiləsi olan zaman köməklik göstərməyi öhdələrinə götürmüşdülər [2, s.3; 25, s.14; 30, s.22]. Bu öhdəlik, xüsusən V əsrdə Qafqazdan hər iki dövlətə təhlükə törədən hunların hərbi yürüşlərinə qarşı yönəlmişdi. Sasani şahları hunlara qarşı kömək üçün daim hərbi yardım istəsələrə də, Bizans bunun əvəzinə maddi yardım göndərməklə məsələni həll edirdi [18, s.352]. Tarixdə Qubadın atası Firuz şahın Eftal dövləti ilə müharibə aparması və ağır məğlubiyyətə uğraması məlumdur. Bağlanmış müqaviləyə əsasən Eftalitlərə ödəniləcək məbləğ sona çatanadək oğlu şahzadə Qubad zamin olaraq onlar da girov qalmışdır. Hakimiyyətə gəldikdən sonra isə daxili çəkişmələr zə-

ya Roma Armeniyası və Pers Armeniyası olmaqla iki hissəyə bölündü.

[1] Eftal və ya Ağ hun dövləti – IV-VI əsrlərdə mövcud olmuşdur. Dövlətin ərazisinə Orta Asiya, Əfqanıstan və Hindistanın şimal-qərb hissəsi, Türkütanın şərq hissəsi daxil idi.

[2] Lazika – bizim eranın IV-VI əsrlərində indiki Gürcüstan respublikasın Qara dəniz sahillərində mövcud olmuş dövlət. Bizans mənbələrində coğrafi ərazi adı kimi istifadə olunurdu.

minində taxtdan devrilmiş, 498-ci ildə Eftalitlərin köməyi ilə yenidən hakimiyyətini bərpa etmişdir. Bu səbəbdən onlara borclanmışdır [28, I, 3-5, s.13-31]. Lakin buna baxmayaraq, Qubad imperiyanın şərq sərhədlərində sülhü təmin etmiş oldu. Belə olduğu təqdirdə Bizansla mübarizəni fəallaşdırmaq üçün şans əldə etdi. Bunun nəticə olaraq, Qafqaz da döyüş meydanlarından biri oldu. Eftal dövlətinin hökmdarının yardıma görə ona olan borcunu geri istəməsi bu mübarizəni daha da alovlandırdı. Belə ki, bu borcu qaytarmaq imkanı olmayan Qubad Bizansdan Qafqaz keçidini qorumaq üçün ödədəyi illik xəracın verilməsini tələb etdi.

Daha əvvəl əldə olunmuş razılığa əsasən Bizansın Sasanilərə ödəməli olduqları vergini göndərməməsi ilə əlaqədar olaraq, Sasanilərin Bizansın şərq torpaqlarına yürüş təşkil etməsi bu mübaribənin səbəblərindən biri hesab edilir. [4, s.98]

491-ci ildə imperator Zenonu əvəz edən I Anastasi Sasanilərin digər müqavilələrdə əldə olunmuş razılaşmaların şərtlərinə riayət etmədiklərini və özlərinində barbar tayfalari ilə geniş müharibələr apardıqlarını əsas gətirərək I Qubadın ödəniş tələbini rədd etdi. Qubadın müharibəyə başlamasına digər bir səbəb kimi tarixçilər bizanslıların Eftalitlərin Sasani dövlətinin şərq torpaqlarına hücüma, erməniləri isə üsyan etməyə təhrik etməsi göstərilir [14, s.133]. Lakin müharibə başlayandan sonra Ağ Hunların Sasani ordusu ilə birlikdə Bizans ordusuna qarşı vuruşması Bizansın siyasi hiyləsinin baş tutmadığını sübut edir.

Sasanilər hərbi yürüşə Bizansın növbəti dəfə ödəniş tələbinin rədd etməsindən sonra 502-ci ildə başladılar. Müharibə Bizans Mesopotamiyasında gedirdi. 502-503-cü illərdə Amida (indiki Diyarbəkir) və Nisibis (indiki Nusaybin) kimi şəhər mərkəzlərinə qarşı sürdürülən mühasirələr nəticəsində orada Sasani hakimiyyət qurulmuşdu [2, s.7]. Sasanilərin digər iri şəhərləri, məsələn Edessanı (indiki Urfa) işğal etmə cəhdləri uğursuz oldu. Hər iki tərəfdən ərəb tayfalarının fəal iştirak etməsi həm Sasaniləri, həm də bizanslıları qorxudurdu. Hərbi yürüş zamanı şah özü şəxsən orduya başçılıq edirdi. Bunun əksinə olaraq, Bizans ordusunda vahid idarəçilik yox idi. Ordunun baş komandanları arasında isə rəqabət mövcud idi. Bu kimi səbəblər Bizansın uğursuzluğuna gətirib çıxardı. Döyüşlər 506-ci ildə qurtardı. Bizans tarixçisi Prokopi bunun səbəbini I Qubadın hər iki cəhbədə - həm Bizansla, həm də hunlarla müharibə aparmaq niyyətində olmaması ilə izah edir: "*Sonra perslər romalılarla sülh bağladı. Beləki, onların hunlarla müharibəsi uzanırdı. Bu müharibənin yeddinci ilində baş verdi"*. [28, I, IX, 24, s.77] Bağlanmış sülh muqaviləsinə görə iki il əvvəl Amidanı işğal etmiş Sasani qoşunları buranı tərk etmələri üçün bizanslılardan 1000 libr (təxminən 327,5 kq) qızıl xərac aldılar [13, c.54].

523-cü ildə iqtisadi maraqlarını ideoloji maraqlarla möhkəmlətmək istəyən I Qubad İberiya çarı Gurgendən atəşpərəstlik dinini qəbul etməsini tələb etdi. Gurgen tərəfindən rədd cavabı alan şah oraya hərbi yürüş təşkil etdi və Tiflisi mərzban idarə etməyə başladı. Məğlub olan Gurgen Bizansa, I Yustinə (518-527) sığındı və onu köməyə çağırdı. Bu hadisə döyüş qüvvələrini Qərbə yönəltmiş Bizansın xarici siyasətində köklü dəyişiklərə səbəb oldu. Bununla əlaqədar olaraq, Bizans bu əraziyə ordu göndərdi. Nəticədə bu Sasani və Bizans imperiyaları arasında uzun surən müharibələrə gətirib çıxartdı. I Yustinin hakimiyyətinin son illərində başlayan müharibə onun varisi I Yustinianın dövründə daha da alovlandı. 527-ci ildən başlayan Bizans və Sasani mübaribələri 532-ci il *əbədi sülhün* bağlanmasınadək davam etdi.

527-ci ildə I Yustinian Bizans taxtına çıxdı. Hakimiyyətinin ilk illərində hərbi qüvvələrinin böyük qismini Avropaya yönəltdi. Vandallar, ostqotlar Bizans imperiyasının hakimiyyəti altına girmək məcburiyyətində qaldılar. Ancaq bu qələbələr imperiyaya baha başa gəlirdi. Beləki, Bizans iqtisadi sahədə çətinliklər yaşamağa başladı. Ordunu Qərbə yönəldilməsi isə şərq sərhədlərinin Sasanilərin istilasına açıq buraxmış oldu.

Şərqdəki hərbi uğursuzluğu aradan götürmək üçün I Yustin özünün iki ən yaxşı sərkərdəsi Sitta və Qərb cəhbəsində uğurlar əldə etmiş Velisarini orduya rəhbərlik etmək üçün Pers Armeniyasına göndərir [30, s.97]. 528-də Sasani ordusu hun tayfaları olan sabirlərlə ittifaqa girərək birgə Roma Armeniyasına daxil oldular. Lakin baş verən iki döyuşdə Bizans sərkərdəsi Sitta tərəfindən darmadağın edildilər

[20, s.149]. Həmin ilin yazında Velisari imperator I Yustiniandan Darada istehkam tikmək əmri alır. Ümumiyyətlə, Velisarinin Şərqə gəlişi ilə yenidən canlanma baş verdi. O, Darada olan hərbi birlikləri bir araya topladı və qalaları bərpa etdi. Vaxt qazanmaq məqsədilə isə Sasani sarayına elçilər göndərir, müxtəlif istiqamətdə hərbi yürüşlər təşkil edirdi. Qalanın tikilməsindən narahat olan Sasanilər inşaatın dayandırılmasını tələb etdilər [29, s.442]. Bizans tərəfindən bu tələb rədd edildiyi üçün Sasani ordusu qalaya doğru irəlilədi və şiddətli bir döyüş başladı. Sasani ordusu bizanslıları Daranın içərilərinə doğru qovdular. Tikintisi başa çatmayan qala yerlə-yeksan edildi. Sasani ordusu xeyli əsirlərlə Nisibisə geri döndülər [26, s.34; 23, s.157.].

Ordunu yenidən təşkil edən Velisari 530-cu ildə Dara yaxınlığında Sasani ordusu üzərində qələbə qazandı. Tərəflər arasında danışıqların başlanmasına baxmayaraq, Sasanilər barış istəmirdilər [22, s.373; 24, s. 28]. Sasani ordusunun qarşısını almaq istəyən bizanslılar 531-ci ildə Kallinik (Rakka) döyüşündə məğlub oldular. Tarixçi Zaxariyanın verdiyi məlumata əsasən, bu döyüşdən qisa bir müddət sonra Sasani ordu hissələri Roma Armeniyasına daxil oldu və Martiropol (Meyyafarikin-Silvan) şəhərini tutdular. Onlara qarşı Sittanın komandanlığı altında Bizans ordusu həmin ilin sonlarına Amidaya doğru irəlilədi. Lakin gözlənilmədən 531-ci ilin sonunda şahənşah I Qubad vəfat etdi [31, s.228-229; 20, s.152.]. Onun yerinə taxta I Xosrov keçdi. Bizans tarixçisi İohann Malala bu dövrdə hun tayfaları olan sabirlərin Armeniyaya talanedici yürüşləri haqqında məlumat verir. Bu yürüşdə Sasanilərin əli olduğunu hesab edən Bizans Sasani sarayına səfir göndərir. Lakin Sasanilər bunu təkzib edir. Yustinian sərkərdə Dorofeyi onların üzərinə göndərir. Bunu eşidən sabirlər geri öz ölkərinə qayıdır [15, s.162].

532-ci il hər iki hökmdar üçün uğurlu olmamışdı. Sasani dövləti üçün bir adət halını almış iqtidar dəyişimi sonrası yaranan daxili üsyanlar Xosrov dönəmində də baş qaldırdı [25, s.55]. Bizansda isə Mavilər və Yaşıllar olaraq adlandırılan qruplar Nika üsyanını başlatmışdılar [30, s.100; 29, s.56-57]. Məşhur bizanşşünas Georg Ostroqorskinin də qeyd etdiyi kimi, "*Mərkəzi iqtidar və xalqın siyasi təşkilatlanmaları arasında şiddətli mübarizə yarandı*" [8, s.66]. Bu hadisələr və aparılan müharibələrin bir nəticə verməməsi də hər iki dövlətə "*əbədi sülh"* adı verdikləri bir anlaşma imzalamağa məcbur etdi. Sülhə əsasən, Bizans Qafqaz qapılarının müdafiəsi üçün Sasanilərə xərac ödəyəcək, buranın müdafiəsi Sasanilərin öhdəliyində qalacaqdı. Eyni zamanda, Dara istehkam bölgəsi olaraq qalacaq, lakin Mesopotamiya hərbi birliklərinə komandanlıq Darada deyil, daha əvvəl olduğu kimi Konstantinopolda yerləşəcəkdi [24, s.29]. Müqaviləyə görə, Bizans son dövrdə işğal etdiyi Faranqi şəhərini (indiki Ərzurumun İspir ilçəsində yerləşir) və Bolu qalasını geri qaytaracaq, əvəzində isə Sasanilər Lazikada Bizansla sərhəddə zəbt etdikləri qalaları qaytaracaqdı [13, s.63].

Beləliklə, 502-ci ildən Sasani hökmdarı I Qubadın I Anastasi üzərinə hücumu ilə başlayan otuz illik müharibə başa çatdı [5, s.146]. Bu razılaşmaya əsasən, Bizans işğal etdiyi qalaları tərk etməyi boynuna götürürdü. Əvəzində Nisibini təhdid edən Dara qalası, Lazika isə bizanslıların, İberiya isə Sasanilərin əlində qaldı[30, s.101]. I Yustinian bu barışdan sonra dərhal üzünü Qərbə çevirdi.

## VI əsrdə Bizans-Sasani imperiyaslarının siyasi münasibətləri: I Yustinian və I Xosrov Ənuşirvan siyasi rəqib kimi

Tarixdə Ənuşirvan "*ölümsüz adam"* adıyla tanınan I Xosrovun dövrü, Sasani tarixinin ən parlaq dövrü hesab edilir. O, hakimiyyətə gəldikdən sonra ölkə daxili müharibələri dayandırmış, sülh və əmin–amanlığa nail olmuşdur. Məzdəkilər üsyanını yatırdan Xosrov ordusunu Bizansa qarşı gücləndirmək məqsədilə islahatlar aparmışdı. Xosrovun hakimiyyətdə olduğu illərdə Bizansla üç böyük müharibə olmuşdur. Bu müharibələr Bizans imperatorları I Yustinian (527-565), II Yustin (565-578) və II Tiberinin (574-582) zamanında baş vermişdir. Roma imperiyasını yenidən qurmaq istəyən I Yustinian Qərbdə hərəkət sərbəstləyinə sahib olmaq üçün Sasani dövləti ilə müharibəni dayandırdı. Sonra isə Afrikanı Vandallardan, İtaliyanı Ostqotlardan, İspaniyanın bir qismini Vestqotlardan geri aldı [6, s.55]. Qərbdə olduğu kimi, Şərqdə də müdafiəni möhkəmlətmək məqsədi

ilə qalalar tikdirir, ordunu gücləndirirdi. Bizans diplomatiyası orduda həyata keçirdiyi tədbirlərlə bütün dünyada imperiyanın nüfus və etibarını təmin etməyə çalışırdı. Münasib surətdə pul və hədiyyələr paylayaraq, imperiyanın düşmənlərini bir-birindən məharətlə ayırmaqla sərhəddəki barbar tayfalarını Bizans hakimiyyətini altına alaraq zərərsizləşdirirdi [1, s.39]. Tarixi ədəbiyyatda Bizans və Sasani dövləti arasında bağlanmış "*əbədi sülh"* siyasi və diplomatik qələbə kimi qiymətləndilir [16, s.329]. Ancaq iqtisadi siyasi nöqteyi-nəzərdən *"əbədi sülhü"* qələbə hesab etmək olmaz. Çünki, ipək ticarətinə önəm verən Yustinian heç bir uğur qazana bilməmişdi. N.B.Piqulevskayanın yazdığına görə, *"Qədimdən etibarən Çindən həm quru, həm də dəniz yolu ilə gətirilən ipək ticarəti Yaxın Şərqdə öz aralarında hakimiyyət uğrunda mübarizə aparan Sasani və Bizans maraqlarını bağlayan əsas ünsür idi"* [17, s.3-8].

Bizansda ipək qızıla bərabər tutulurdu. Hələ I Yustinin (518-527) hakimiyyəti dövründə Bizans ipəyi Sasanilərdən alırdı. Sasanilər isə ipəyi öz siyasi oyunlarında məharətlə istifadə edirdilər. Bizans imperiyasını zəiflətmək üçün "*Sasanilər ipəyin qiymətini qaldıraraq Bizansdan daha çox pul qoparmaq və onu hərbi, siyasi cəhətdən zəiflətməyə çalışırdılar*" [12, s.43]. Məhz buna görə, I Yustinian ipək ticarətini Hind okeanı vasitəsilə daşınmasını təmin etmək məqsədilə 531-ci ildə Efiopiya ilə razılığa gəlməyə çalışmışdı. Lakin efiopiyalılara Hind okeanındakı limanlarında Sasanilərin inhisarını aşmaq müvəffəq olmamışdı [12, s.44]. Lazikanı öz təsir dairəsində saxlamaqla Bizans Qara dəniz ticarətində tam nəzarəti əldə etməsinə baxmayaraq, Sasanilər karvan yollarının böyük bir hissəsinə nəzarət edirdilər. Sasani şahı I Xosrov isə Lazikanın itirilməsi ilə barışa bilmir, Bizans imperatorunun siyasi və hərbi fəaliyyətindən isə narahat idi. Bizans tarixçisi Prokopinin yazdığına görə, *"Bir müddət gecdikdən sonra Velisarinin İtaliyada imperator üçün əldə etdiyi uğurlardan irəli gələrək Xosrov artıq özünü cilovlaya bilmirdi. O, əldə olunmuş razılaşmanı pozmaq üçün ağlabatan hər hansı bir bəhanə axtarırdı, perslər çox dərdlənirdilər və artıq sülh bağladıqlarına peşman idilər"* [28, II,I,1, s.261]

Bizans mənbələrinin verdiyi məlumatlara görə, "*şahənşah gizlicə rəqibə qarşı müharibəyə hazırlaşırdı* [ 12, s.329]. Prokopi **«Gizli tarix» (Historia Arcana)** əsərində isə əksinə olaraq, Xosrov barəsində xoş sözlər yazmasa belə Yustinianın Xosrovun uğurlarını qisqandığını bildirir [9, s.101].

Müharibəyə səbəb olan məsələlərdən biri də, iki fərqli dövlət olan Qassanilər (Fələstin və Suriya sərhədlərində yaranmış ərəb dövləti) və lahmidlərin Hirə dövləti (IV əsrdə Mesopotamiyada və Suriya sərdədlərində yaranmış ərəb dövləti) arasında rəqabəti idi. Belə ki, Bizans ilə müttəfiq olan Qassanilərə qarşı Hirə dövləti Sasanilərin tərəfini saxlayırdı. Bu iki dövlət Nayre bölgəsində (indiki Suriya), ticarət yolları uğrunda çəkişmələri Sasani və Bizans imperiyalarını qarşı-qarşı gətirdi. Prokopi yazırdı ki, "*Sarasinlər (Bizans tarixçiləri ərəbləri belə adlanrırdı) arasında mübahisəyə səbəb olan torpaqlar Strata adlanırdı. O, Palmira şəhərinin cənubunda yerləşirdi.* [28, II,I,6, p.261]. Orta əsrlərdə yaşamış islam tarixçisi və ilahiyyatçısı Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri özünün "**Tarixul-uməmi ər-rusul vəl-muluk**" əsərində müharibəyə səbəb kimi bəhanəni ərəblər arasında olan mübahisəni göstərirdi [32, s. 239; 21, s.456-457]. Təbii olaraq o da, öz növbəsində Bizans və onun tərəfdarlarını günahkar bilirdi.

Müharibəyə səbəb digər problemlər də mövcud idi. 539-cu ildə İtaliyada sərkərdə Velisari tərəfindən məğlubiyyətə uğradılan qot kralı Vitiqisin səfiri kömək üçün Sasani sarayına gəldi [28, II,III,1, s.265]. Təsadüfi deyildi ki, hunların Bizansın Avropa torpaqlarına hücumları da artmışdı. Bu bitməyən siyasi intriqa və inamsızlıq Bizans və Sasani dövləti arasında 540-cı ildən 545-ci llədək davam edən ağır döyüşlərə gətirib çıxardı [14, s.146].

I Yustinianın Qərbdə gücünün tükənməyindən istifadə edən I Xosrov Bizansa müharibə elan etdi. 530-540-ci illərdə hərbi yürüşə başlayan Sasanilər Velisarinin cəhdlərinə baxmayaraq, Suriyanı yandırıb talan edərək özlərinə Aralıq dənizinədək yol açdılar. 540-da Antioxiyaya (indiki Antakiya) hücüm edən Xosrov oranı yerlə yeksan etdi [6, s.57].

541-ci ildə Velisari Kiçik Asiyada Sasanilərə qarşı vuruşan orduya komandanlıq etməyə

başladı. Müharibə eyni zamanda Qafqazda da gedirdi. Bu region, əsasəndə Lazika Bizans üçün böyük əhəmiyyət kəsb edirdi. Belə ki, bu bölgə onu Şimal tayfalarından qoruyur və Sasani dövlətinin Qara dənizə çıxışını əngəlləyirdi. Aqafiy yazırdı ki*, "o (Yustinian) persların müharibədə üstünlük əldə edəcəyi təqdirdə Qara dənizindən üzərək Roma (Bizans) imperiyasının daxili vilayətlərinə maneəsiz daxil olacaqlarından narahat idi*" [10, 2,18. s. 34]. Ticari nöqteyi nəzərdən isə, bu bölgənin əhəmiyyəti Aralıq dəniz sahili şəhərləri ilə sıx əlaqədə olması idi. Qara dəniz sahilində yerləşən Petra şəhərinin Bizansın təyin etdyi vali tərəfindən ticarətin özəlləşdirməsi Lazika hökmdarının Sasanilərdən kömək istəməsinə səbəb oldu. Poti və Kutaisiyə hücum edən Sasanilər yerlilərin köməyi ilə bizanslıları məğlub etdilər. 552-ci ildə beş illik barışıq bərpa olundu. Bizans tarixçisi Menandrın yazdığına görə, *"Şərq bölgələrində və Armeniyada perslar və romalılar (bizanslılar) arasında saziş başa çatdı; Lazikada isə sadəcə razılıq əldə olundu"* [27, s.71]. Uzunmüddətli danışıqlardan sonra 562-ci ildə Darada əlli illlik sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Sasanilər Lazikadan imtina edirdilər. Böyük xərac verərək barışıq əldə edən I Yustinian xristianlığın Sasani imperiyasi hüdudlarında təbliğ edilməməsi şərtini də qəbul etdi. Tərəflər əvvəlki sərhədlər hüdudlarına qayıtmağı və ərazi bütövlüklərini tanımağı öz üzərilərinə götürürdülər. Bizans üçün vacib olan məsələ Qara dənizin Cənub-Şərq sahil vilayəti olan Lazikanın Sasanilər tərəfindən təmizlənməsi oldu. Başqa sözlə desək, Sasanilər Qara dəniz sahillərində möhkəmlənə bilmədilər [11, s.202]. Sasani şahı I Xosrovun Qara və Aralıq dənizinə çıxmaq cəhdi uğursuzluğa düçar oldu [12, s.334].

I Yustinianın apardığı müharibələr imperiyanın ümumi vəziyyətinə ölümcül təsir edirdi. Əhalinin müflis olması, dövlətin gəlir mənbələrinin aşağı düşməsi dövlətin iqtisadi vəziyyətinə zərbə vururdu. I Yustinian ipək ticarətində Bizansın Sasani dövlətindən asılılığını aradan götürmək üçün Qırmızı dəniz limanlarından Hindistana yol tapmağa cəhd edirdi. Lakin Şərqi birbaşa birləşdirəcək yeni ticarət yolları açmağa müvəffəq ola bilmədi [11, s.232]. Bizansın vəziyyəti Yustinian öldükdən sonra daha da pisləşdi. Balkanlarda slavyanlar və avarlar, İtaliyada isə lanqobardlar ağalıq etməyə başladı. 572-ci ildə isə Yəmən Sasanilər tərəfindən tutuldu. Bununlada, Qırmızı dənizdən Şərqə keçən yol tamamilə bağlandı [12, s.44]. Bizans üçün bu ticari siyasətin iflası demək idi.

**Nəticə**

Məqalədə aşağıdakı elmi nəticəyə gəlinmişdir. Birinci, V-VI əsrlərdə Ön və Cənubi Asiya ölkələri hər iki qüdrətli imperiya arasında münaqişələrə cəlb olunurdular. Bu münaqişə bir necə yüzilliklər davam etmiş, təkcə çox saylı insan itkisi ilə deyil, həm də həmin ölkələrdə sosial, iqtisadi və mədəni böhrana səbəb olmuşdur.

İkincisi, V əsr ərzində hər iki imperiya arasında stabil münasibətlər mövcud idi. Qeyd olunduğu kimi, imperator Arkadi və Sasani şahı I Yezdəgird arasında dostluq münasibətləri mövcud olmuşdur. Arkadi hətta, oğlunun qəyyumluğunu I Yezdəgirdə həvalə etmişdir. Həmçinin nəticəyə gəlinmişdir ki, hunlara qarşı mübarizə hər iki dövləti bir-birlərinə güzəştə getməyi məcbur edirdi. Qərbdə hun və digər barbar tayfalarının hücümü ilə üzləşən Bizans Qafqazdan gələ biləcək hər hansı bir təhdidə qarşı önləm almağa məcbur olurdu. Bunun üçün o, Sasani dövlətinə daim xərac verməli olacaqdı. Hunların həm Bizans, həm də Sasani impeyaralarına hücümları onların xarici siyasətinə əsaslı təsir edirdi.

Üçüncü, Bizans Sasani münasibətləri VI əsrdən etibarən kəskin surətdə dəyişdi. Demək olar ki, dinc siyasi münasibətləri kəskin münaqişələr əvəz etdi. Nəticəyə gəlinmişdir ki, buna səbəb imperiyanın siyasi və ticari maraqlarının dəyişməsi oldu. Bizans imperiyasının şərq əyalətlərində sənətkarlığın və ticarətin inkişafı onun digər Şərq dövlətləri ilə ticarətə marağının artmasına səbəb oldu. Ölkə daxilində ipəyə olan tələbatın çoxalması isə İpək Yolu uğrunda Sasani dövləti ilə mübarizəyə gətirib çıxartdı. Yaxın Şərqdə İpək Yoluna hakim olan Sasani imperiyası öz növbəsində, bu üstünlüyünü Bizansa qarşı məharətlə istifadə etmişdir.

Dördüncü, demək olar ki, Bizans siyasi gücünün ən yüksək zirvəsinə, Roma imperiyasının əvvəlki qüdrətini bərpa etmək istəyən imperator I Yustinianın hakimiyyəti illərində çatdı. Bizanslılar qonşu ölkələri öz təsir dairəsində saxlamaq üçün onların adət-ənənələrini, hərbi gü-

cünü, ölkə daxili münasibətlərini, yerli təsir gücünə malik şəxsləri araşdırır və öyrənirdilər. Tayfalar arasındakı ədavətdən istifadə edərək onları qarşı-qarşıya gətirərək zəif düşürürdülər. Bizans xarici siyasətində kilsə missionerlərinin xidmətlərindən də istifadə edilirdi. Onlar digər ölkələrdə xristianlığı təbliğ edərək öz ölkələrinə siyasi dayaq yaradır, xristianlığı qorumaq adı altında hərbi yürüşlər təşkil edirdi. Sasanilərə qarşı I Yustinian hər cür siyasi üsüllardan istifadə etmişdi: ilk öncə cəld və həlledici qələbə əldə etməyə çalışmış, daha sonra isə Sasani hərbi qüvvəsini I Anastasi dövründən mövcud olan status-kvo ilə qarşısını almağa cəhd etmişdir. Nəhayət, öz diplomatiyası ilə Sasanilərə qonşu olan xalqlarla hərbi ittifaq yaradaraq onun siyasi mövqeyinə zərbə vurmağa çalışmışdı və ya böyük miqdarda qızıl verməklə siyasi tarazlığı qorumuşdur. Yustiniana dövləti qısa bir zaman içərisində xarici siyasət baxımından gücləndirmək müvəffəq olsa da, bu möhtəşəm uğurlardan sonra o, öz xələflərinə daxildən tükənmiş, iqtisadi baximdan tamamilə sarsılmış bir dövlət buraxmış oldu.

### Ədəbiyyat siyahısı


1. Diehl, C. Bizans imparatorluğu tarihi / C. Diehl, çeviri A. Gökce Bozkurt. -İstanbul: İlgi kültür sanat yayımcılıq Ltd. Şti, -2017. -65 s.
2. Honigman, E. Bizans devletini doğu sınır / E. Honigman, çev. Fikret Işıltan. -İstanbul: Üniver. Yayınları, -1970. -282 s.
3. İşaltan F. Urfa bölgesi tarihi, (başlanğiçtan h. 210, m. 825'e kadar) / F. Işaltan. İstanbul: Edebiyat Fakültesi Basimevi, -1960. -165 s.
4. İpek, A. Yukarı Mezopotamiyada Sasani siyaseti // TESAM Akademi Dergisi-Turkish Journal of TESAM Akademy, Temuz, 2017, 4 (2), ss. 85-109. İSSN: 2148 – 2462
5. Kütük, A. İmparator I Justinianos'un ilk yıllarında Bizans imperatorluğu'nun Mezopotamya sınırı (527-532) // Tarih Okulu Dergisi (TOD), Haziran 2014, yıl 7, sayı XVIII, ss. 141-164. DOI NO: http://dx.doi.org/10.14225/Joh483
6. Lemerle, P. Bizans Tarihi / P. Lemerle, çeviren Galip Üstün. -Istanbul: İletişim yayınları "Cep Üniversitesi dizisi", -1994. -135 s.
7. Mansfield, P. Orta Doğu tarihi / P. Mansfield, Nicolas Pelhamın katkısıyla, inglisce çev. Ümit Hüsrev. Istanbul: Yolsal, say. yay., -2012. -664 s.
8. Ostrogorsky, G. Bizans Devleti Tarihi / G. Ostrogorski, cev. Fikret Işıltan, 9. Baskı. -Ankara: Türk Tarh Kurumu, -2017. -582 s.
9. Procopius. Bizansın Gizli tarihi, latınca adı Historica Arcana / çevirən Emrah Peksoy. -Ankara: Say yayımları, -2018. -152 s.
10. Агафий Миринейский. О царствовании Юстиниана / перевод, ст. и примеч. М. В. Левченко, -Москва-Ленинград: Изд-во Академии наук СССР, -1953. -224 с.
11. Васильев, А.А. История Византийской империи. Время до крестовых походов (до 1081 г.): [в 2 томах] / пер. с англ. А.Г. Грушевой, -Санкт-Петербург: Изд-во «Алетейя», -1998. Т. 1. -490 с.
12. Гумилёв, Л.Н. Древние тюрки / Л.Н. Гумилёв. -Москва: Наука, -1967. -504 с.
13. Дмитриев, В.А. Борьба Римской (Византийской) империи и Сасанидского Ирана за преобладание в Передней Азии (III-VII вв.) / В.А. Дмитриев. -Псков: ПГПУ, -2008. -148 с.
14. Дашков, С.Б. Цари царей Сасаниды: Иран III-VII вв. в легендах, исторических хрониках и современных исследованиях / С.Б. Дашков. -Москва: изд-во «СМИ-АЗИЯ», -2008. -352 с.
15. Иоанн Малала. Хронография. Книги XIII-XVIII / отв. ред. Н.Н. Болгов. -Белгород: НИУ «БелГу», -2014. -200 с.
16. История Византии: [в 3-х томах], главный редактор академик С.Д. Сказкин. -Москва: «Наука», -1967. -Т. 1. -524 с.
17. Пигулевская, Н.В. Производство шёлка в Византии и Иране V-VII вв // -Ленинград: Византийский Временник, -1956. т.10 (XXV), -с. 3-8.
18. Успенский, Ф.И. Исторія Византійской имперіи: [в 3 томах] / Ф.И. Успенский. Санкт-Петербургъ: изданіе Брокгоузаъ-Ефронъ, -т. 1. -1913. 872 с.
19. Чаглаян, Е. Византийско-Сасанидский соперничество в международный торговле в V-VII вв // Muş: Anemon Muş Alparslan Sosyal Bilimler Dergisi, -2020. 8 (2), -s. 645-55. ORCID: 0000-0001-5462-2954

20. Шувалов, П.В. Секрет Армии Юстиниана: Восточноримская армия в 491-641 гг / П.В. Шувалов. -Санкт-Петербург: изд-во, «Петербургское Востоковедение», -2006. -304 с.

21. Шмитт, А. Э. Ат-Табари, История пророков и царей // -Ташкент: Материалы по истории Средний Азии и Ирана// Учёные записки института востоковедения Академия Наук СССР, -1958. Том XVI, -с. 444-469.

22. Bury, J.B. The History of the Later Roman Empire, from Arcadius to Irene, (MS/ 395-800) / J.B. Bury. -London: Macmillan and Co. and New York, -1889. -482 p.

23. Cameron, A. Procopius and the Sixth Century / A.Cameron. -Duckworth: University of California Press. Berkeley and Los Angeles, -1985. -297 p.

24. Diehl, C. Yustinian's Goverment in the East // The Cambridge Medievel history. New-York: the Macmilian company, -1913. -vol. II, -p. 25-52.

25. Foord, E. The Byzantine empire / E. Foord. -London: Adam and Charles Black, -1911. -431 p.

26. Lord Mahon. The Life of Belisarius / Lord Mohan. -London: John Murray, Albemarle Street, -1848. -460 p.

27. Menandr, the Guardman. The history of Menander the Guardsman / R. C. Blockey, -printed in Great Britain by Redwood Burn Ltd. Trowbridge, Wiltshire, -1985. -305 p.

28. Procopius. History of the war / with an English translation by H. B. Dewing: [in six volumes]. Book I and II, -London: William Heinemann, New-York: The Macmillan Co, -1914. -583 p.

29. Rawlinson, G. Seven Great Monarchies of the Ancient Eastern World: [in 7 vol.] / G.Rawlinson. -New-York: John W. Lovell Company, -1875. -vol. III. -596 p.

30. Venning, T. A chronology of the Byzantine empire / T.Venning. -UK: Palgrave Macmillan, -2006. -817 p.

31. Zachariah of Mtylene. The Syriac Chronicle Known as That of Zachariah Mtylene / transl. F. J. Hamilton, E. W. Brooks, -London: Methuen & Go, -1899. 334 p.

32. Nöldeke T. Geschichte der Perser und Araber zur Zeit der Sasaniden: aus der arabischen Chronik des Tabari übersetzt und mit ausführlichen Erläuterungen und Ergänzungen versehen / T. Nöldeke. -Leyden: E. J. Brill, -1879. -503 s.

## Summary

**Konul Allahverdi**

### Relations of the Byzantine and Sassanid empire in the V-VI centuries

V and VI centuries are important in the political history of the East the political and economic relations of the Byzantine and Sassanid empires, and the conflicts that occurred between them in his connection are the main subject of the article. The relations of the Byzantine and Sassanid empires of the V and VI centuries differed from sharply from both political and commercial points of view. In the V century Byzantium, which purcued a policy of stabilization in relations with the Sassanid state, focused more on the West. The Huns and other peoples raiding the European borders of the Byzantine Empire forced him to put his interests in the East in the background. In the Sassanids, in turn, to protect the eastern borders from the raids of the Huns who invaded from Central Asia. It was the military campaigns of the Huns that increased the essence of the Caucasian goat. Having trouble protecting its western borders, Byzantium was forced to turn to the Sassanid state to prevent the threat from the Caucasus. He even paid tribute to the Sassanids to protect this passage.

The period of silence, which lasted about 100 years, ended in the sixth century under Emperor Justin I and his successers (518-602). Political processes and conflicts in the Middle East And

Caucasus brought the two powerful empires of the against each other. Another reason for this conflict was the struggle for the Silk Road. The most striking period of the Byzantine Empire was the reign of Emperor Justinian I, and the Sassanid Empire lived during the reign of Khosrov Anushirvan I. The desire of these two powerful rulers to rule in the East made them inevitable to become potential rivals.

***Keywords:*** *Byzantine, Sassanid, Gubad I, Justinian I, Khosrov I, Silk Road, Huns, Caucasian pass, Velisariy, Mesapotomy, Iberia, Lazica.*

**Резюме**

**Кёнул Аллахверди**

**Отношения Византии и Сасанидской империи в V-VI веках**

Политические и экономические отношения Византийской и Сасанидской империй, занявшие важное место в политической истории Востока в V и VI веках, а также возникшие, в связи с этим разногласия между этими государствами являются основной темой статьи. Отношения Византийской и Сасанидской империй V и VI веков различаются как с политической, так и с торговой точек зрения. В V веке Византия, проводившая политику стабилизации по отношению к государству Сасанидов, больше ориентировалось на Запад. Гунны и другие народы совершавшие набеги на Византийскую империю от европейских границ, вынудили её отодвинуть на второй план свои интересы на Востоке. В свою очередь Сасаниды тоже были заняты защитой восточных границ от набегов гуннов, нападавших из Средней Азии. Именно военные походы гуннов придали большую значимость Кавказской проходу. Имея проблемы с защитой своих западные границы, Византия была вынуждена пойти на уступки государству Сасанидов, чтобы предотвратить угрозу со страны Кавказа. Он даже выплачивала дань Сасанидам за защиту этого прохода.

Затишье, длившееся почти 100 лет, закончилось в VI веке в правление династии I Юстина (518-602) в Византии. Политические процессы и конфликты на Ближнем Востоке и Кавказе привели к столкновению двух могущественных империй указанных Другой причиной этого конфликта была борьба за Шелковый путь. Византийская империя пережила самый яркий период своего существования при императоре Юстиниане I, а Сасанидская империя-при Хосрове I Ануширване. Стремление этих двух могущественных правителей к господству на Востоке сделала их потенциальными соперниками.

***Ключевые слова:*** *Византия, Сасаниды, Губад I, Юстиниан I, Хосров I, Шелковый путь, гунны, Кавказский проход, Велисарий, Месопотамия, Иберия, Лазика.*

**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.82**

**Leyla Talışinski**
*Azərbaycan Tibb Universiteti,*
*tarix üzrə fəlsəfə doktoru*
*Azərbaycan*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR TƏHSİL SİSTEMİNİN QURULMASINDA ROLU (1993-2003)

***Açar sözlər:*** *Heydər Əliyev, təhsil müəssisələri, beynəlxalq konvensiyalar, Azərbaycan Tibb Universiteti, özəl tədris müəssisələri,məcburi köçkün və qaçqınlar.*

Heydər Əliyev haqlı olaraq müasir Azərbaycanın yaradıcısı və memarı sayıla bilən ümummilli liderdir. Heydər Əliyevin fəaliyyəti o qədər zəngindir ki, onun araşdırılmasına daima ciddi ehtiyac duyulur. Müstəqil dövlət quruculuğu modelinin həyata keçirilməsi kontekstində Ümummilli lider Heydər Əliyevin zəngin siyasi və dövlət irsinin xüsusilə müasir tarixi reallıqlarda öyrənilməsi son dərəcə vacibdir.

H.Əliyevin siyasətində dövlətimizin möhkəmləndirilməsi üçün bir sıra prioritet istiqamətlər mövcud idi – iqtisadiyyatımızın, hərbi gücümüzün möhkəmləndirilməsi, eyni zamanda, sosial-mədəni sahənin də daima diqqət mərkəzində saxlanılması idi. Bunun üçün o, çoxsaylı qərar və sərəncamlar qəbul etdirərək yeni qurulmuş dövlətimizi siyasi və iqtisadi böhrandan çıxarmağa çalışırdı. H.Əliyev uzaqgörən lider kimi gənc nəslin tərbiyəsinə və dünya standartlarına uyğun savad almasına böyük diqqət və önəm verirdi. Ulu Öndərin buna yönəlmiş tövsiyələri çox önəmli idi. Heydər Əliyev deyirdi: "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil sisteminin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərini müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar" [1]. H.Əliyevin bu tapşırıqları çox önəmliydi, çünki keçid dövrünü yaşayan Azərbaycanın təhsil sisteminin vəziyyəti 90-cı illərin əvvəllərində heç də ürəkaçan deyildi.

İqtisadi, siyasi və mənəvi həyatdakı ziddiyyətlər hökümətin qarşısında böyük çətinliklər qoyurdu. Təhsilə kifayət qədər vəsait ayırmaq hələ mümkün olmurdu. Yeni, müstəqil dövrə qədəm qoyan təhsil müəssisələrinin maddi bazası xeyli zəifləmişdir. Qarabağa daxil olan rayonlarımızın düşmən tərəfindən işğalı zamanı yüzlərlə tədris müəssisəsi, o cümlədən 855 məktəbəqədər uşaq müəssisəsi, 693 ümumtəhsil məktəbi, 85 musiqi məktəbi, 4 texnikum və 1 ali məktəb binası düşmən əlinə keçmiş, qarət edilmiş, dağıdılmışdır. Digər tərəfdən, 90-cı illərin əvvəllərində zəif təşkilatçılıq və nəzarətsizlik üzündən bir çox məktəb binaları, sinif otaqları "zirək" işbazların əlinə keçmiş və başqa məqsədlər üçün istifadə olunurdu. Maddi vəziyyət ağır olduğundan minlərlə müəllim təhsil sistemini tərk etmiş, bəziləri isə xarici ölkələrə üz tutmağa məcbur olmuşdular.

Müstəqil Azərbaycan Respublikasının rəhbərliyi qarşısında mühüm vəzifələrin içərisində təhsil sisteminin yenidən qurulması və keçmiş sovet hakim-əmrlik ideologiyası təzyiqindən xilas olması idi. Həmin dövrdə milli təhsil konsepsiyası həyata keçirilməyə başlamışdır. 1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə "Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası" təşkil olundu. Dünya Bankı, milli və xarici

ekspertlərin köməyi ilə Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu. Dünya Bankı bu proqramın həyata keçirilməsi üçün 35 il müddətinə 5 milyon dollar həcmində kredit ayırdı.

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsili sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Təhsil ocaqları sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamaqla bərabər, onların müasir Avropa texnologiyaları ilə zənginləşdirilməsinə başlanıldı. 40-dan çox xarici ölkənin, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Türkiyə və Israilin təhsil sistemi, təlim texnologiyaları, idarəetmə modelləri öyrənildi və nəzərə alınmağa başladı. Bir çox xarici ölkələrin təhsil ocaqları ilə birbaşa əlaqələr quruldu və müəllim-tələbə heyətinin mübadiləsi aparılmağa başladı [4].

Azərbaycan Respublikası ərazisində "Avropa Regional Dövlətlərində təhsil kurslarının ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında" UNESCO tərəfindən 21 dekabr 1979-cu ildə Parisdə qəbul olunmuş konvensiyasına Azərbaycanın 16 iyul 1996-cı ildə qoşulması haqqında Heydər Əliyevin qərarı imzalaması, "Qara Dəniz Region ölkələrinin Mədəniyyət, Təhsil, Elm və informasiya sahəsində əməkdaşlığı" haqqında (6 mart 1996 il) konversiyasının 9 mart 1996-cı ildə təsdiq edilməsi, habelə "Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması" haqqında 1997-ci il aprelin 11-də Lissabon şəhərində imzalanmış konvensiyasına 30 sentyabr 1997-ci il Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təsdiq edilməsi buna sübutdur [2]. "Azərbaycan təhsil sistemi UNESKO, YUNISEF, YNEVOK, ISESKO, Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil proqramları ilə məşğul olan qurumlarla əməkdaşlıq edilməyə başlanıldı. Onların vasitəsilə hər il yüzə yaxın təhsil işçisi müasir tədris texnologiyaları ilə tanış olmaq üçün xarici ölkələrə ezam olunurdu. 1998-ci ildən Respublikada həmin təşkilatların dəstəyilə "Addım-addım", "İngilis dili", "Debat", "Vətəndaş təhsili" (1999-cu ildən) proqramları fəaliyyət göstərirdi" [4]. Azərbaycanın nüfuzlu ali təhsil müəssisələri Avropa İttifaqının maliyyələsdirdiyi TEMPUS/TASIS proqramına cəlb olunmuşdur. 2003-cü ilədək bu proqram çərçivəsində respublikamızın ali məktəblərinə göstərilən maliyyə-texniki yardımı 3370000 avro təşkil edirdi [3].

Azərbaycanın 20 faizi torpaqlarının erməni tapdağı altında olması H.Əliyev kimi vətənini canından artıq sevən şəxsiyyəti olduqca bərk narahat edirdi. Buna görə də hərbi yolla da olsa əzəli torpaqlarımızın azad edilməsi istisna edilmirdi. Müdafiə Nazirliyi üçün zabit kadrların Rusiyadan asılığının aradan qaldırılması və ali rütbəli milli kadrlarımızın hazırlanması üçün H.Əliyevin sərəncamlarına əsasən bir neçə hərbi təyinatlı təhsil ocaqları yaradıldı,o cümlədən 1998-ci ildə C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı təsis edilmişdir və bu qərarların nə dərəcədə önəmli olduğunun biz, 44-günlük II Qarabağ müharibəsi zamanı şahidi olduq.

Ali təhsil müəssisələrinin inkişafı və yenidənqurulması ilə yanaşı, həm paytaxtda, həm də Respublikanın ayrı-ayrı rayonlarında texnikumlar şəbəkəsi yenilənir, kolleclər yaradılırdı. 2002-ci ilin avqustunda Təhsil Nazirliyinin qərarı ilə Bakıda fəaliyyət göstərən bəzi texnikumlar – Kommersiya, İnşaat, Əli Bayramlıda Sənaye, Ağdam, Gəncə, Şamaxı, Lənkəran, Şuşa Kənd Təsərrüfatı kimi tədris ocaqları ləğv edilərək, onların əvəzinə Bakı Dövlət İqtisadiyyat və Humanitar (Bakı Plan – Uçot Texnikumun bazasında), Bakı Dövlət Sosial-İqtisadi (Bakı Plan-Iqtisadiyyat Texnikumu bazasında), Bakı Dövlət Rabitə və Nəqliyyat (Bakı Rabitə Kolleci və Dəmir Yolu Nəqliyyatı texnikumlarının bazasında) kollecləri təşkil edildi. Yerlərdə ləğv edilmiş texnikumların bazasında Sumqayıt Dövlət Texniki, Sabirabad, Ağdam, Quba, Şamaxı, Tovuz, Qazax Dövlət Sosial-Iqtisadi, Lənkəran, Ağdaş Dövlət Humanitar, Göyçay, Bərdə və

Zaqatala Dövlət İdarəetmə və Texnologiya, Naxçıvan və Şəki Dövlət Texniki kollecləri yaradıldı.

Təhsil sisteminin təşkilində mühüm yeniliklərdən biri – 1992-ci ildən ali və orta ixtisas məktəblərinə qəbul imtahanların test üsulu ilə aparılmasının tətbiqi olmuşdu. Bunun ən ümdə məqsədi – qəbul zamanı qeyri-obyektivliyin, mənfi halların qarşısını almaq idi. Qəbul sistemi getdikcə təkmilləşir, abituriyentlərin biliyinin aşkar olunmasına imkan yaradan müasir vasitələr tətbiq olunurdu. 1993-cü ildən respublikanın ali məktəblərində (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə ali müəssisələrdən başqa) çoxpilləli ali təhsil sistemi–dördillik bakalavr və ikiillik magistratura səviyyəsi tətbiq olunmağa başladı və 1997-ci ildə ilk dəfə magistraturaya qəbul keçirildi.

Heydər Əliyev Azərbaycana müstəqillik dövründə rəhbərlik etdiyi zamanlarda, hətta ölkəmizdə müharibənin yaratdığı ağır iqtisadi və sosial çətinliklərinə rəğmən, təhsil müəssisələrinin yeni görkəm alması ilə bərabər tədrisin keyfiyyəti, məzmunu və təyinatı dövrün reallıqlarına və gələcək inkişafına uyğunlaşdırılır, önəmli islahatlar aparılırdı. Buna misal olaraq, Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutu, Lənkəran Dövlət Universiteti fəaliyyətə başlamasını göstərmək olar. Azərbaycan Dövlət Neft-Kimya İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Konservatoriyasının statusu artırılaraq akademiyaya çevrilmişdilər. 1996-cı ildə Bakı Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası yaradılmış, Polis Məktəbi isə Polis Akademiyası adlandırılmışdır. Bakıdakı Azərbaycan Dövlət Pedaqoji İnstitutu – Azərbaycan Pedaqoji Universitet, Politexnik İnstitutu – Azərbaycan Texniki Universitet (1991), Azərbaycan Tibb İnstitutu – Azərbaycan Tibb Universiteti (1991) kimi aparıcı tədris müəssisələri yenidən qurulmağa başlamışdır. ATU-nun 9 mərtəbəli korpusunun tikintisi maliyyə çatışmamazlığı ucbatından bir neçə il ləngidilirdi. Yalnız xalqımızın tələbi ilə H.Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün tikinti-quruculuq işləri sürətləndirilirdi. Nəhayət, 1998-ci ildə Ulu Öndərin şəxsi iştirakı ilə bu möhtəşəm tədris korpusunun açılışı oldu. Tanınmış professor Surxay Musayev bu haqda belə yazmışdır: "16 min kv. m. sahəyə malik tədris binasında universitetin 11 kafedrası, 1 milyona yaxın kitab fondu olan əsaslı kitabxana, tibbi-informasiya mərkəzi və "Təbib" nəşriyyatı yerləşdirilmişdir. Tədris binası eyni zamanda 2500 nəfərə yaxın tələbəni qəbul etmək imkanına malikdir" [5].

H.Əliyev həkim kadrların hazırlanmasına daima diqqət ayırırdı və iki il sonra, yəni 2000-ci ildə 4 № stomatoloji poliklinikasının bazasında "Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikasının yaradılması" haqqında qərar qəbul edildi. Ulu Öndərin hər bir qərarı zaman keçdikcə daha aydın hiss olunur və nə dərəcədə vaxtında və səmərəli olduğunu hər bir vətəndaşımız görür.

Həmişə gənc nəslə qayğı ilə yanaşan Prezident Heydər Əliyevin 2001-ci ilin sentyabr ayında verdiyi sərəncamına əsasən ali məktəblərin əlaçı tələbələrinə Prezident təqaüdü təsis edildi. Eyni zamanda, H.Əliyevin hakimiyyəti dövründə bir neçə ali tədris müəssisəsi yaradılmışdır və Respublikada özəl ali məktəblərin geniş şəbəkəsi meydana gəlmişdir: Qərb Universiteti (1991), Bakı Biznes Universiteti (1993), Asiya Universiteti (1993), Xəzər Universiteti (1991), Təfəkkür Universiteti (1995), Azərbaycan Universiteti (1991), Qafqaz Universiteti (1993), Odlar Yurdu Universiteti (1995), Beynəlxalq Münasibətlər Universiteti (1991), Ali İctimai-Siyasi Kollec və başqa ali təhsil müəssisələri fəaliyyət göstərməyə başlamışdır ki, onlardan bəziləri sonradan bağlandı, bir çoxu isə bugün də uğurlu fəaliyyətini davam etdirir. Göstərilən özəl universitetlərin əksəriyyəti 90-cı illərin lap əvvəllərində təsis olunsa da onların maddi-texniki bazasının gücləndirilməsi məhz Heydər Əliyev hakimiyyəti dövrünə təsadüf edirdi. Ancaq hər bir yeni qurulmuş cəmiyyətdəki kimi təhsil sahəsində əhəmiyyətli irəliləyişlə yanaşı, ciddi çatışmamazlıq və nöqsanlar da mövcud idi. Məktəblərdə, xüsusən, ali təhsil ocaqlarında qeyri-obyektivlik halları aşkar edilirdi. Özəl məktəblərdə dərslərin keyfiyyətinə layiqincə diqqət yetirilmirdi. Bu kimi neqatıv hallara qarşı dövlətimiz mübarizə apararaq ali təhsil müəssisələrində müasir texnologiyaların tətbiq olunması ilə həmin çatışmamazlıqları aradan qaldırmışdır.

Təhsil müəssisələrinin tədris proqramına yeni fənlər salındı: təsərrüfat sistemini aşılayan, bazar iqtisadiyyatı ilə bağlı tətbiqi elmlərin, xarici dillərin, informatika sahəsinin bütün istiqamətlərinin tədrisinə, kompüter savadının geniş yayılmasına diqqət artırılmış, zamanın tələbinə uyğun beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, menecment, marketinq kimi ixtisaslar üzrə kadr hazırlığına başlanılmışdır. H.Əliyevin "azərbaycançılıq" ideyasının bərqarar olunması üçün gənc nəslin mədəni, siyasi savad səviyyəsinin yüksəldilməsinə diqqət xeyli artırılmışdır. Bu məqsədlə 1997-ci ildən başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" xüsusi əhəmiyyət kəsb edirdi. Bu məktəblərdə gənclərə ölkəmizdə müstəqilliyin, dövlətçiliyin, tərəqqinin təmin olunmasında Heydər Əliyev siyasətinin incəlikləri, xarakterik cəhətləri öyrədilirdi.

Hər zaman sadə insanların rifahının yaxşılaşdırılmasına çalışan H.Əliyevin tapşırığına əsasən Respublikada keçmiş qaçqın və məcburi köçkün ailələrdən olan uşaqların təhsil alması üçün münasib imkanlar yaradılmışdır. 2000-2001-ci dərs ilində onlar üçün ölkəmizin müxtəlif regionlarında 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 12 texniki-peşə məktəbi, 5 orta ixtisas məktəbi və 3 orta ixtisas məktəbinin filialı, 1 ali məktəb, 234 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığın xətti ilə 90-cı illərin ortalarında çadır şəhərciklərində yüzlərlə yığma sinif otağı quraşdırılmış, minlərlə məktəbli dərs ləvazimatı ilə təmin olunmuşdur. YUNISEF-in köməyi ilə öz dədə-baba torpaqlarından qaçqın və köçkün düşmüş ailələrin uşaqları üçün 14 rayonda 35 Uşaq İnkişaf Mərkəzi yaradılmışdı. Bu məktəblərdə 13 minə yaxın şagird və tələbələrin təlim-tərbiyəsi ilə 20 minə yaxın təhsil işçisi öz peşə fəaliyyətlərini davam etdirirdi.

Əgər biz, 2000-ci illərin statistik rəqəmlərinə nəzər salsaq onda görərik ki,2001-ci ildə Azərbaycan Respublikası əhalisinin 2 milyon 901 min nəfəri ümumi orta, 694 min nəfəri orta ixtisas, 612 min nəfəri tam ali təhsilli idi. Yaşı 15-dən yuxarı olan hər min nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta və 158 natamam orta təhsilli şəxs düşürdü. Bu, olduqca yüksək göstəricilər idi və həmin rəqəmlər, əlbəttə, zaman keçdikcə dəyişir, əhalinin sayı artdıqca təhsil alan insanlarımızın sayında da ciddi artım müşahidə olunur.Bütün bunlar, şübhəsiz ki, dahi liderimiz Heydər Əliyevin əsasını qoyduğu və yürütdüyü uğurlu xarici və daxili siyasətin qazandığı sabitliyin nəticəsində mümkün olmuşdur.

Beləliklə, məqalənin sonunda bəzi nəticələr haqqında məlumat vermək istərdik:

- Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın hər bir sahəsində böyük inkişaf yolunun təməli qoyuldu;
- H.Əliyevin tapşırıqları və qərarları ilə təhsil sisteminin yenidən qurulmasına başlanıldı və ciddi islahatların aparılması ilə gələcək strategiya müəyyənləşdirildi;
- H.Əliyevin səyləri nəticəsində Azərbaycan Respublikasının təhsil sistemində yeniliklər baş verərək dünyada qəbul olunmuş konvensiyalara qoşulması baş tutdu. Bu da öz növbəsində peşəkar kadrlarımızın xarici ölkələrdə də diplomların tanınmasına gətirib çıxartdı;
- H.Əliyevin qəbul etdiyi saysız qərar və sərəncamlarına əsasən bütün fəaliyyətdə olan təhsil müəssisələrinin maddi-texniki bazasının yenidən qurulması və gücləndirilməsi baş verdi;
- Ulu Öndər H.Əliyevin uğurlu hərbi strategiyası nəticəsində bugün böyük qəhrəmanlıq göstərən, yüksək peşəkarlığa malik olan ali rütbəli kadr potensiyalı yarandı;
- Ümummilli lider H.Əliyevin müdrik siyasətinə görə Azərbaycanı xaricdə təmsil edəb yeni kadrların meydana çıxmasına şərait yaradıldı;
- Hər zaman "Uşaqlar – bizim gələcəyimizdir", – söyləyən Heydər Əliyev daima onların qayğısına qalaraq (hətta qaçqın və köçkün şəhərciklərində), savad almaları üçün əlindən gələni edirdi;
- Müasir Azərbaycan Respublikasının təhsil sistemində layiqli yer tutmuş bir çox özəl ali təhsil müəssisəsi yaradılaraq yüksək elm və bilik potensialı olan kadrların hazırlanmasında böyük rol oynamışdır.

Məqalənin sonunda qeyd etmək istərdik ki, Azərbaycan təhsil sisteminin elə bir sahəsi yox idi ki, Heydər Əliyev ona xüsusi diqqət

ayırmasın. Ölkəmizin gələcəyi gənc nəsildən asılıdır və buna görə də müdrik Ümümmilli liderimiz hər bir vətəndaşımızın ilk növbədə yüksək savada və mənəviyyata malik olması üçün daima çalışırdı.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və 11.01.2014. https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf

2. Avropa Şurası və Azərbaycan: Sülh, əmin-amanlıq və demokratiya naminə. Avropa Şurası və Azərbaycan . Sülh, əmin-amanlıq və demokratiya naminə: (Heydər Əliyev haqqında) /Azərbaycan Respublikası Prezidentinin Katibliyi.- Bakı, 2001.- 239 s.

3. Ulu öndər Heydər Əliyev təhsil haqqında "Azərbaycan müəllimi" 2010, 10 dekabr, s.4.

4. Hüseynova H. Azərbaycan Avropaya interqrasiya prosesləri sistemində (1991-1997-ci illər. Bakı: Hərbi nəşriyyat, 1998, 205 s.

5. Musayev S.Tibb təhsili sisteminin inkişafinda heydər əliyev mərhələsi "Azərbaycan". -2010.-28 avqust.- №188.-S.3.

**Резюме**

**Лейла Талышински**

**Роль Общенационального Лидера Гейдара Алиева в создании современной системы образования Азербайджанской Республики (1993-2003)**

Статья посвящена исследованию истории создания системы образования независимой Азербайджанской Республики в период правления Гейдара Алиева в 1993-2003 годах. Здесь представлены интересные данные о вновь созданных многочисленных учебных заведениях всех уровней образования, совершенствования их материально-технической базы. Г.Алиев уделял большое внимание подготовке высшего и среднего офицерского состава для МО Азербайджанской Республики. Впоследствии мы стали свидетелями Результатов этой кадровой политики особенно во время II Карабахской войны.

***Ключевые слова:*** *Гейдар Алиев, учебные заведения, международные конвенции, Азербайджанский Медицинский Университет,частные учебные заведения, вынужденные переселенцы и беженцы.*

**Summary**

**Leyla Talishinski**

**The role of the National Leader Heydar Aliyev in establishing of the modern educational system in Azerbaijan Republic (1993-2003)**

The article is devoted to the study of the history of the creation of the education system of the independent Republic of Azerbaijan during the reign of Heydar Aliyev in 1993-2003. Interesting data is presented here on the newly created numerous educational institutions of all levels of education, improving their material and technical base. Heydar Aliyev paid great attention to the training of senior and middle officers for the Ministry of Defense of the Republic of Azerbaijan.Subsequently, we witnessed the results of this personnel policy during especially the Second Karabakh War

***Keywords:*** *Heydar Aliyev, educational institutions, international conventions, Azerbaijan Medical University, private educational institutions, internally displaced persons and refugees.*

**UOT 94 (479/24)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.87**

**Vaqif Şirinoğlu**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*baş elmi işçisi, tarix elmləri doktoru*
*Azərbaycan*
*vaqif.abishov1955@gmail.com*

# CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNƏ CƏHDLƏR

**Giriş:** 1917-ci ilin fevral inqilabı və oktyabr bolşevik çevrilişindən sonra Rusiya imperiyasının dağılmasının davam etməsi, dünyada, eləcə də Güney Qafqazda baş verən çaxnaşmalar fonunda millətin və vətənin müdafiəsinə qalxan ziyalılarımız 1828-ci ildə Guzey Azərbaycanda itirilmiş dövlətçiliyini bərpa etmək*, torpaq bütünlüyünü, millətin varlığını qoruyub saxlamaq üçün çox ciddi siyasi, sosial-iqtisadi və mədəni işlər görmüşdülər.

Bu işlərdən ən möhtəşəmi müstəqil və demokratik Azərbaycan Xalq Cümhuriyyətinin (AXC-nin) qurulması olmuşdur. K.İsmayılov haqlı olaraq qeyd edir ki, İslam dünyasında ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda yaranması XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş mütərəqqi ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi dəyişikliklərin, xalqımızın görkəmli şəxsiyyətlərinin, mütəfəkkir ziyalılarının millətin oyanışı və dirçəlişi uğrunda apardıqları inadlı mücadilənin məntiqi nəticəsi olmuşdur (13, s. 213).

Bundan sonra, onların qarşısında AXC-ni siyasi, iqtisadi və hərbi cəhətdən möhkəmləndirmək, xarici düşmənlərin məkrli planlarını pozaraq Vətən torpaqlarını düşmən tərəfindən işğalına imkan verməmək, nəhayət dünyanın güc dövlətlərinə Cümhuriyyəti de-fakto və ya de-yure tanıtmaq kimi çox çətin, amma şərəfli bir vəzifələr dururdu.

Yuxarıda qeyd olunan məsələlərin həlli prosesində AXC hökuməti təhsil və elm sahəsinə də xüsusi diqqət verirdi. AXC-nin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri Hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi oldu. Azərbaycan Hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanmasına, bu sahədə orta, texniki və ali təhsilin yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi.

AXC Hökumətinin 1-3-cü kabinələrində maarif naziri Nəsib bəy Yusifbəyli idi. N.Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumət kabinəsində bu vəzifəyə Rəşid bəy Qaplanov, 5-ci Hökumət kabinəsində isə əvvəlcə Həmid bəy Şahtaxtinski, sonra isə Nurməmməd bəy Şahsuvarov təyin olunmuşdular (4, s. 11).

Xalq Maarif Nazirliyinin (XMN-nin) təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu (4, s. 12).

AXC Hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər (4, s. 12).

Cümhuriyyətin Xalq Təhsili sahəsində ən mühüm tədbirlərində biri də məktəblərin milliləşdirilməsi, yəni ana dili-türk dilində tədrisə keçid oldu. AXC Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsilli məktəbi və 637 ibtidai məktəb fəa-

* burada vaxtı ilə Guzey Azərbaycanda mövcud olmuş xanlıq idarəçilik sisteminin bərpası deyil, tarixi dövlətçilik təcrübəsinə əsaslanaraq, yeni, demokatik bir dövlətin qurulmasından bəhs olunur.

liyyət göstərirdi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi (4, s. 12).

1919-cu il dekabr ayının 2-də "Məktəblərin milliləşdirilməsi ilə bağlı orta məktəblərdə bəzi fənlərin həcmi və xüsusiyyətlərinin dəyişdirilməsi haqqında" XMN Rəşid bəy Qaplanovun orta məktəb direktorlarına göndərdiyi məktubu maraq doğurur. Həmin məktubda qeyd olunurdu ki, milli müqəddəratın təyinetmə ideyasının reallığa çevrildiyi, Rusiya dövlətçiliyinin Azərbaycan dövlətçiliyi ilə əvəz olunduğu Azərbaycan ərazisində məktəblər öz köhnəlmiş əvvəlki dövrünü qoruyub saxlaya bilməzdi. Məktubda, həmçinin, orta məktəbləri bu dövlətçilik ruhunda köklü şəkildə dəyişmək lazım olduğu və buna ancaq məktəbin milliləşdirilməsi ilə nail olmaq mümkün olacağı qeyd olunurdu (5, s. 220-225; 10, v. 64, 67). Bu məktubda tarix fənninin tədrisi ilə əlaqədar diqqətçəkici bir məqam da var. Belə ki, məktəblərdə rusiya tarixi ayrıca fənn kimi keçilməsi ləğv olunurdu, onun yerinə Türk tarixi fənni tədris olunmalı idi. Rusiya tarixi ümumi tarix fənninin tərkibinə daxil edilir və orta məktəblərdə həmin fənnin mövzusu kimi tədris olunmalı idi. Coğrafiya, ümumi tarixi və Türk tarixi ilə əlaqədar orta məktəblər üçün hazırlanmış yeni tədris proqramına görə 2-ci sinifdə 2 saat, 3-cü sinifdə 1 saat olmaqla türk tarixinin epizodik kursu tətbiq edilməli idi (5, s. 163; 11, v. 4).

XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya da yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və başqaları cəlb edilmişdilər (4, s. 12).

XMN-nin yanında komissiyanın aparığı böyük işin nəticəsi olaraq türk dilində aşağıdakı zəruri dərsliklər tərtib edilmişdir: "Türk əlifbası", üç hissədən ibarət "Tazə elmül-hesab", "İkinci il", "Ədəbiyyat dərsləri", "Müntəxabat", "Yeni məktəb", "Müəllimi-sərf", "Sərfi-türki", "Türk çələngi", "Tarixi-təbiə", "Rəhbəri-cəbr", "iki hissədən ibarət "Coğrafiya", "Hikməti-təbiə" (14, s. 99). Eyni zamanda Universitetdə dərs deyəcək müəllimlər üçün də bəzi kitablar tövsiyə olunurdu.

Araşdırılan problem konkret bir sahəni - "Cümhuriyyət dövründə Azərbaycan tarixi konsepsiyasının yaradılmasına cəhdlər" adlı mözunu əhatə etdiyinə görə məqalədə əsas diqqət məhs bu sahəyə yönəldilib.

Əlbəttə, bir məqalə həcmində qoyulan problemin tam araşdırılıb başa çatdığını iddia etmək doğru olmazdı. Heç şübhəsiz, sonrakı mərhələdə araşdırılan problemlə əlaqədar yeni-yeni tədqiqat əsərləri yazılacaqdır.

Təqdim olunan məqalə hazırlanarkən, əsasən AXC dövründə təhsillə əlaqədar qəbul olunmuş dövlət sənədlərindən, "Azərbaycan" qəzetinin (rus variantı) səhifələrində Şərq xalqlarının və Azərbaycan xalqının tarixi ilə əlaqədar işıq üzü görmüş (1918-1920-ci illər) məqalələrdən, eləcə də "Müsəlman şərqini öyrənən cəmiyyət"in materiallarından istifadə olunub.

İlk olaraq qeyd etmək lazımdır ki, Çağdaş Azərbaycan tarixşünaslığında Azərbaycan tarixi konsepsiyasının yaradılmasına cəhdlərlə əlaqədar mövzunu ilk dəfə gündəmə gətirən tarix elmləri doktoru, professor Kərim Şükürov olmuşdur. K.Şükürovun üç cildlik "Azərbaycan tarixi" əsərinin birinci cildində "Azərbaycan tarixi konsepsiyasının yaradılmasına cəhdlər (1918-1920-ci illər)" adlı bir bənd var (15, s. 63). K.Şükürov həmin mövzunun araşdırılması üçün müəyyən istiqamətlər göstərmişdi. Həmin istiqamətlər problemlə əlaqədar müəyyən məlumatların verilməsi və bəzi ədəbiyyatların göstərilməsindən ibarətdir.

Təqdim olunan məqalədə "Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə cəhdlər (1918-1920-ci illər)"ə aydınlıq gətirilməsi üçün o dövrün dövrü mətbuatında "Azərbaycan tarixi", eləcə də "Türk xalqlarının tarixi" ilə əlaqədar yazılmış əsərlərin, AXC dövründə qəbul edilmiş dövlət sənədlərinin (bu sənədlər içərisində 1919-cu ilin dekabr ayında Azərbaycan Xalq Maarif Naziriliyi tərəfindən ümumtəhsil məktəbləri üçün hazırlanmış proqram xarakterli "Orta məktəb şagirdləri üçün türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi" (Proqramı) və dördüncü dərəcəli kurslar üçün tərtib olunmuş "Türk xalqları tarixinin sistematik kursunun proqramı"nı qeyd etmək olar) və "Müsəlman şərqini öyrənən cə-

miyyət"in materiallarının üzərindən təhlillər aparılır.

Məqalə hazırlanarkən ilkin olaraq aşağıdakı bir neçə suala cavab tapmağın vacibliyi əsas götürülüb: birincisi, Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə, ümumiyyətlə cəhdlər olubmu?; ikincisi, "Azərbaycan tarixi", eləcə də "Türk xalqlarının tarixi" ilə əlaqədar o dövrün dövrü mətbuatında çap olunmuş əsərləri Azərbaycan tarixinin öyrənilməsi üçün ilkin cəhdlər sırasına aid etmək olarmı?; üçüncüsü, XMN xətti ilə "Orta məktəb şagirdləri üçün türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi"nin (proqramının) və "Türk xalqları tarixinin sistematik kursunun proqramı"nın hazırlanmasını Azərbaycan tarixinin öyrənilməsi istiqamətində ilkin addımlardan hesab etmək olarmı?; dördüncüsü, 1919-cu ilin noyabr ayından fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin nəzdində tarix-filologiya fakültəsinin açılması və burada tədris olunan Türk xalqları tarixini Azərbaycan tarixinin öyrənilməsi istiqamətində görülən işlər sırasına aid etmək olarmı?

Yuxarıda qeyd olunan suallara müəyyən aydınlıq gətirmək üçün, təqdim olunan məqalədə (məqalənin həcmi nəzərə alınmaqla) ilk olaraq o dövrün dövlət sənədləri və "Azərbaycan" qəzetinin materialları üzərindən təhlillərə üstünlük verilib.

AXC-nin hakimiyyəti dövründə Tarix elminin, xüsusilə Türk xalqları tarixinin sistemli şəkildə öyrənilməsi üçün orta, texniki və ali məktəblərdə tarix fənninin tədrisi ilə bağlı çox mühüm qərarlar qəbul edilmiş, xüsusi izahat vərəqələri və proqramlar hazırlanmışdır.

"Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə cəhdlər"in ilk rəsmi işartılarını 1919-cu ilin dekabr ayında Orta məktəb şagirdləri üçün tərtib olunmuş "Türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi" (bundan sonra qısaldılmış formada "İzahat vərəqəsi" yazılacaq. "İzahat vərəqəsi"ni, həm də "Proqram" kimi də qəbul etmək olar. Burada üç bölmə var idi: "ümumi hissə", "fərdi qeydlər. 4-cü sinif kursu", "digər siniflər üçün") və Türk xalqları tarixinin sistematik kursunun dördüncü dərəcəli kursları üçün yazılmış proqramı (bundan sonra qısaldılmış formada "Proqram" yazılacaq) üzərindən izləmək mümkündür.

Yuxarıda qeyd olunan birinci sənədin, yəni "İzahat vərəqəsi"nin maraq doğuran əsas tərəfi, ilk dəfə olaraq Türk xalqları tarixinin tədrisi ilə əlaqədar sistematik izahat vərəqəsinin hazırlandığını (proqram xarakterli) qeyd etmək olar. İkinci sənədin əsas cəhəti isə Türk xalqları tarixinin sistematik kursunun dördüncü dərəcəli kursları üçün "Proqram"ın hazırlanması idi.

İlkin olaraq orta məktəb şagirdləri üçün tərtib olunmuş "Türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi"ni qısa təhlil etməyə çalışaq. "İzahat vərəqəsi"nin "ümumi hissəs"i adlanan bölməsində Türk xalqları tarixinin tədrisi yeni olduğu, amma bu təlimin çətinliyi təkcə məsələnin yeniliyi ilə əlaqədar olmadığı qeyd olunmuşdur. Burada çətinliklər bir neçə amillə əlaqələndirilmişdir ki, onlardan da əsas olanlardan biri təlimin yeni olması; ikincisi, ümumilikdə Şərqin, xüsusən də türk xalqları tarixinin tədqiq edilməməsi; üçüncüsü isə, tədris üçün lazım olan çap dərsliklərinin tam olmaması və cari tədris ilinin əvvəlində onların yaradılmasının mümkünsüzlüyü idi.

"İzahat vərəqəsi"ndə Şərq tarixinin bütün mərhələləri araşdırılarkən, mümkün qədər, öyrənilən hadisələrdə türk xalqlarının roluna və Azərbaycan haqqında öyrənilən dövrə aid tədqiq olunanlardan əldə edilən məlumatlara diqqət yetirilməsinin vacibliyi göstərilmişdi (5, s. 257-259; 10, v. 64, 67).

"İzahat vərəqəsi"nin "Fərdi qeydlər. 4-cü sinif" adlı növbəti bölməsində bu kursun ilkin olaraq giriş xarakteri daşıdığı və türklərin geniş məkanda göründüyü zaman Asiyada mövcud vəziyyətlə tələbələri tanış etməyi qarşıya məqsəd kimi qoyulduğu qeyd olunmuşdur. Burada 4-cü kursda tədris olunacaq tarix fənni iki hissəyə bölünmüşdür: Qərb tarixi və ya Ön Asiya tarixi və Mərkəzi Asiya tarixi (5, s. 259; 10, v. 61-65).

"İzahat vərəqəsi"ndə səlcuqluların tarixini araşdırarkən Qərbdəki müxtəlif səlcuq sülalələrini, xüsusilə də Kiçik Asiyada osmanlıların yüksəlişinə qədər hakimiyyəti əlində saxlayan səlcuqluların, həmçinin səlcuqları əvəz edən azərbaycanlı və digər Atabəylərin də qeyd olunmasının lazım olduğu göstərilmişdi (5, s. 259-260; 10, v. 61-65).

"İzahat vərəqəsi"ndə İranda Ərdəbilli Şeyx Səfiəddinin üzərində dayanmaq tövsiyə olunur (5, s. 260-262; 10, v. 61-65).

Beləliklə, "Türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi"nin qısa təhlili onu göstərir ki, həqiqətən də Cümhuriyyət dövründə "Azərbaycan tarixi"nə, eləcə də ümumtürk tarixinə diqqət artırılmışdı. Məsələn, "İzahat vərəqəsi"ndə Azərbaycan haqqında öyrənilən dövrə aid tədqiq olunanlardan əldə edilən məlumatlara diqqət yetirilməsinin, Azərbaycanın orta təhsil müəssisələrinin şagirdlərinə, milli mənsubiyyətindən asılı olmayaraq, yaşadıqları regionun tarixini sistemli şəkildə öyrədilməsinin, eləcə də səlcuqluları əvəz edən azərbaycanlı və digər Atabəylərin də qeyd olunmasının vacibliyi göstərilmişdi.

Araşdırılan mövzu ilə əlaqədar digər bir sənədin – "Türk xalqları tarixinin sistematik kursunun proqramı"nın da əhəmiyyəti qeyd olunmalıdır. "Proqram" dördüncü dərəcəli kurslar üçün nəzərdə tutulmuşdur. "Proqram"da Makedoniyalı İsgəndərin monarxiyasının süqutu və VI əsrə qədər olan dövrdən, Şərqdə müsəlman siyasi sisteminin parçalanmasına qədərki hadisələri özündə əks etdirən mövzular yer almışdır (5, s. 253-265; 10, v. 61-65). Burada əsas üstünlük Şərq tarixinə verilmişdir. "Proqram"da Səfəvilər sülaləsinin meydana gəlməsi, Şah İsmayı, Şah Təhmasib, Şah Abbas, XVII əsrin ikinci yarısı XVIII əsrin birinci yarısı İran tarixi, Əfqanıstanın qısa tarixi, o cümlədən əfqanların İranı ələ keçirməsi, Nadir şah və onun yürüşləri, onun ölümündən sonra ixtişaşlar dövrü, Qacarlar sülaləsinin başlanması kimi mövzular öz əksini tapmışdır.

"Türk xalqları tarixinin sistematik kursunun proqramı"nı XMN R.X.Qaplanov və Ümumtəhsil məktəbləri şöbəsinin müdiri A.X.Usubbəyova imzalamışdılar (5, s. 265-266; 10, v. 61-65).

Ümumiyyətlə, 1919-cu ildə Türk xalqlarının tarixi kursları üzrə izahat vərəqəsinin və proqramının hazırlanmasını həm Türk xalqları tarixinin, həm də Azərbaycan tarixinin öyrənilməsi baxımından müsbət qiymətləndirilməldir. Burada təkrar da olsa, bir məqamı xüsusi olaraq vurğulamalıyıq ki, bəhs olunan illərdə Azərbaycan tarixi Türk xalqları tarixinin içərisində tədris olunurdu.

1919-cu il sentyabr ayının 22-də orta məktəb islahatı komissiyasının iclasında (5, s. 163-165; 11, v. 4-5) ümumi tarix və Türk xalqlarının tarixi ilə əlaqədar irəli sürülən fikirlər daha çox diqqəti cəlb edir. İclasın protokolunda yazılanlardan belə məlum olur ki, XMN tərəfindən coğrafiya, ümumi tarix və Türk tarixi ilə əlaqədar tərtib olunmuş yeni proqrama bəzi əlavələrin olunmasının vacibliyini təklif edilmişdir. Həmin təklifə görə proqrama 2 və 3-cü siniflərdə Türk tarixinin epizodik kursunun, 4-cü sinifdə isə Zaqafqaziya və Asiyanın, ona qonşu olan ölkələrin (Kiçik Asiya, İran və Türküstanın) tarixinin tədrisi nəzərdə tutulmuşdur. 2-ci siniflər üçün türk tarixi fənnindən epizodik kursun proqramında Türk boylarının köçəri həyatı, VI əsrdən başlayaraq qurulmuş Türk dövlətləri və hökmdarlarının (II Əbdül Həmiddə daxil olmaqla) tarixinin yer alması da təklif olunurdu. Həmin təklif olunan mövzuların içərisində türkmən Qaraqoyunlu və Ağqoyunluların, Şah Abbasın, Nadir şahın da adları var idi. Əlavə olaraq, orta məktəb islahat komissiyası Türk tarixi müəllimləri üçün bələdçi ola biləcək bəzi kitabları yenidən nəşr edilməsi, Türk tarixinin epizodik kursunun tərtibi üçün müsabiqə elan edilməsi, Lev Aleksandroviç Zimin tərəfindən Türk tarixi üzrə dərsliyin tərtib edilməsi və sair bu kimi təklifləri irəli sürülmüşdür (5, s. 163-165; 11, v. 4-5).

Türk xalqları tarixinin epizodik kursunun "Proqram"ında Türküstan hökmdarları – Şeybani xan, Abdulla xan, Abdulqazi və başqaları, həmçinin Azərbaycan və Şah Abbas, Nadir şah və Şirvan xanları haqqında da tarixi məlumatların verilməsi nəzərdə tutulmuşdur (5, s. 225-229; 10, v. 74).

Yuxarıda gətirilən misallar bir daha onu qeyd etməyə imkan verir ki, hələ Bakı Dövlət Universitetinin (BDU-nun) "tarix-filologiya" fakültəsinin fəaliyyətə başlamasına qədər orta məktəblərdə və gimnaziyalarda Türk tarix fənni kursunun sistemli tədris edilməsi ilə yanaşı, tədris proqramında orta məktəblərdə oxuyan III və daha yuxarı siniflərin şagirdlərinin tarixi biliklərini inkişaf etdirmək üçün Azərbaycan haqqında tarixi məlumatların verilməsi bəndi də öz əksini tapmışdır.

1919-cu il sentyabr ayının 1-də Parlamentin 70-ci iclasının gündəliyinə salınmış 24 mə-

sələdən 2, 3 və 4-cü məsələlər bilavasitə təhsillə bağlı olmuşdur. Gündəlikdəki 2-ci məsələ "Azərbaycan hökumət darülfünunun təşkili haqqında qanun layihəsi", 3-cü məsələ "Əcnəbi məmləkətlərə yüz nəfər tələbənin hökumət tərəfindən göndərilməsi haqqında qanun layihəsi; 4-cü məsələ "Xalq kitabxanaları üçün kitab almaqdan ötəri bir milyon rüblə buraxılması haqqında qanun layihəsi idi (6, s. 31).

BDU-nun yaradılması ilə əlaqədar Azərbaycan Parlamentinin qəbul etdiyi Qanunda Universitetin nəzdində açılması nəzərdə tutulan 4 fakültədən birinin tarix-filologiya (şərq şöbəsi də daxil olmaqla) fakültəsinin olması (8, v. 64-65) və bu hadisəni gələcəkdə Türk xalqları tarixinin və Azərbaycan tarixinin dərindən öyrənilməsi baxımından da yüksək qiymətləndirilməlidir.

Hökumətin qərarına əsasən BDU-nun rektoru Razumovski Vasili İvanoviç, "tarix-filologiya fakültəsi"nin dekanı, ümumi tarix kafedrasının dosenti Nikolay Aleksandroviç Dubrovski təyin olunmuşdur (5, s. 10; 9, v. 83).

Beləliklə, "Türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi" və Türk xalqları tarixinin sistematik kursunun dördüncü dərəcəli kursları üçün yazılmış proqramı üzərindən aparılmış təhlillər, eləcə də BDU-nun nəzdində "tarix-filologiya fakültəsi"nin fəaliyyətə başlaması 1918-1920-ci illərdə orta, texniki və ali məktəblərdə "Türk xalqlarının tarixi"nin ("Azərbaycan tarixi" daha çox "Türk xalqlarının tarixi" proqramı çərçivəsində öyrənilməsi nəzərdə tutulmuşdur) vahid və sistemli proqram çərçivəsində tədris olunmasına başlandığını deməyə imkan verir.

1918-1920-ci illərdə mətbuatda aparıcı mövqe tutan "Azərbaycan" qəzetinin səhifələrində Azərbaycan və şərq xalqlarının, xüsusi ilə Türk xalqlarının tarixi ilə əlaqədar maraqlı məqalələr çap olunmuşdur. Həmin məqalələrdən Şəfi bəy Rüstəmbəyovun "Azərbaycan Respublikasının yaranma tarixi" (31, 7 dekabr 1918, №54), S.M.Mixaylovun "Türk xalqlarının tarixi oçerkləri" (28, 18 dekabr 1918, № 63), İ.Seqalın "Azərbaycan Respublikasının meydana gəlmə tarixi" (32, 28 may 1919, № 110), A.Şepotevin "Azərbaycan: onun keçmişi və bu günü ilə" (33, ٨ fevral 1919, № 29), Adil xan Ziyadxanın "Azərbaycanın siyasəti, ədəbiyyatı və tarixinin oçerkləri" (23, 25, 27, 29 mart 1919, № 61, 62, 64, 66 və 6, 12 aprel 1919, № 72, 76), L.Ziminin "Şərq məsələsi: keçmişdə və indi" (26, 24, 25 fevral 1920, № 36, 37), "İran və Azərbaycan" (30, 1, 6 iyul 1919, № 135, 140; 1, 3 yanvar 1920, № 1, 3) adı ilə çap olunmuş məqalələri misal göstərmək olar. Yuxarıda adları qeyd olunan məqalələrdən bəziləri problemin araşdırılması zamanı təhlil olunub.

1918-1920-ci illərdə "Azərbaycan" qəzetinin səhifələrində Azərbaycan tarixi ilə əlaqədar 5 məqalə çap olunmuş. Həmin məqalələrdən yalnız üçündə - "Azərbaycan: onun keçmişi və bu günü ilə", "Azərbaycanın siyasəti, ədəbiyyatı və tarixinin oçerkləri", "İran və Azərbaycan" adlı məqalələrdə Azərbaycan tarixi ilə əlaqədar geniş və müəyyən qədər sistemli məlumatlar öz əksini tapmışdır. Şəfi bəy Rüstəmbəyovun "Azərbaycan Respublikasının yaranma tarixi", İ.Seqalın "Azərbaycan Respublikasının meydana gəlmə tarixi" adlı məqalələri yalnız qısa bir dövrü əhatə edir.

Şəfi bəy Rüstəmbəyovun "Azərbaycan Respublikasının yaranma tarixi" (31, 1918, № 54) adlı məqaləsində AXC-nin yaranmasına qədər və ondan sonrakı vəziyyətlə əlaqədar bəzi məlumatları əldə etmək mümkündür. Məsələn, məqalədə bolşeviklərin Petroqrad və Moskvada siyasi hakimiyyəti ələ keçirməsindən sonra Güney Qafqazda yaranmış vəziyyətlə əlaqədar qısa bir məlumat verilmişdi. Ş.Rüstəmbəyov, Rusiyanın mərkəzində bolşeviklərin hakimiyyəti qurulduqdan sonra regionda həmin hakimiyyəti tanımayan bir Zaqafqaziya komissarlığının yaradıldığını və həmin iclasda Ümumrusiya Müəssislər Məclisinin çağrılmasına qədər Zaqafqaziya Seyminin çağrılması qərara alındığını qeyd etmişdir. O, Seymin birinci iclasını fevral ayının 14-ü göstərmişdi. Lakin Ş.Rüstəmbəyovun Zaqafqaziya Seyminin yaranma səbəbini və tarixini düzgün qeyd etməmişdir. Əldə olunan sənədlərdə Seymin yaranma səbəbi Ümumrusiya Müəssislər Məclisinin buraxılmasından sonra (yanvar 1918-ci il) Cənubi Qafqazda qanunvericilik səlahiyyətlərinə malik Seymin yaradılmasına qərar verildiyi və onun yaranma tarixi fevral ayının 10-na (yeni təqvimlə fevralın 23-nə) təsadüf edildiyi qeyd olunmuşdur.

Azərbaycan dövlətinin yaranmasını xalqın iradəsi və siyasi vəziyyətin tələb etdiyini qeyd

edən Ş.Rüstəmbəyov, Azərbaycanda yaşayan xalqlar arasında həmrəyliyin yaradılmasını, qonşu dövlətlərlə mübahisəli məsələlərin sülh yolu ilə həlli və davamlı ittifaqın yaradılmasını Azərbaycan hökumətinin uca prinsipləri hesab etmişdir.

A.Şepotevin “Azərbaycan: onun keçmişi və bu günü ilə” (33, 1919, № 29) adlı məqaləsində tariximizlə əlaqədar daha geniş və maraqlı məlumatlar verilmişdir. Müəllif, məqalənin əvvəlində Azərbaycanın adını “Odlar yurdu” kimi qeyd etmiş, millətin adını isə doğru olaraq Türk adlandırmışdı.

Qafqazda türkləri yanlış olaraq “tatarlar” adlandırmasının əleyhinə gedən A.Şepotev, türk mənşəli xalqın Şərqi Zaqafqaziyanın bütün bölgələrini əhatə etdiyini yazmışdır. Onun məqaləsində Şirvan, Quba, Qarabağ, İrəvan, Gəncə, Bakı və Lənkəran xanlıqlarının adları qeyd olunmuşdur.

A.Şepotev məqaləsinin sonunda türk qoşunlarının Azərbaycandan getməsi (1918-ci ilin oktyabrın 30-da imzalanmış Mudros sazişindən sonra-V.Ş.), ingilislərin gəlməsi (17 noyabr 1918-ci il-V.Ş.), parlamentin açılışı (7 dekabr 1918-cil), Xan Xoyskinin başçılığı altında üçüncü hökumət kabinetinin koalision əsaslarla yenidən qurulması (26 dekabr 1918-ci il-V.Ş.), Avropaya nümayəndə heyətinin göndərilməsi (sentyabr 1918-ci il-V.Ş.) və sair tarixi hadisələr haqqında da qısa məlumatlar vermişdir.

Bir müddət AXC Hökumətində xarici işlər nazirinin birinci müavini vəzifəsində çalışmış, bəzi hallarda nazir vəzifəsini icra etmiş, daha sonra Guzey Azərbaycanın İran Qacarlar dövlətində ilk səfiri kimi fəaliyyət göstərmiş Adil xan Ziyadxanın “Azərbaycanın siyasəti, ədəbiyyatı və tarixinin oçerkləri” adlı məqaləsi “Azərbaycan” qəzetinin 23, 25, 27, 29 mart və 6, 12 aprel 1919-cu il tarixli saylarında çap olunmuşdur (24, mart 1919, № 61, 62, 64, 66; aprel 1919, № 72, 76 ). Birinci məqalənin (“Azərbaycan” qəzetinin 23 mart tarixli sayı) “Ön söz” hissəsində məqalənin yazılmasının səbəblərinə aydınlıq gətirən Adil xan Ziyadxanın yazdıqlarından belə məlum olur ki, o, oktyabr ayının 30-da (1918-ci il) Xarici İşlər Nazirliyində işə başlayan kimi ölkədəki hazırkı siyasi vəziyyətlə bağlı məruzə hazırlamalı idi. Amma onun hazırladığı məruzə “oçerk”* formasını almışdır. “Oçerk”də siyasətlə yanaşı, Azərbaycanın tarixi və ədəbiyyatı ilə əlaqədar məsələlər də şərh olunmuşdur. O, məqaləsində yazırdı ki, bu ağır dönəmdə hər bir vətəndaş bir damla da olsa öz xalqına xeyir gətirməyə çalışmalıdır. Bunu özünün mənəvi borcu hesab edən Adil xan Ziyadxan, hazırda bizim dövlət binamızın bünövrəsinin qoyulduğunu qeyd etmişdir (24, 1919, № 61).

A.Ziyadxan məqalədə “Azərbaycan” adının yaranmasını iki fərqli baxışdan, daha doğrusu iki rəvayətə (versiyaya) uyğun izah etməyə çalışmışdır. Birinci rəvayətə görə guya “Azərbaycan” adı fars sözü olan “Azerpatiqan”dan yaranıb, mənası da “odun mədəni” deməkdir; ikinci rəvayətə görə isə guya “Azer-Babeqan”, yəni “Babəkin odu” deməkdir.

Məlumdur ki, Azərbaycan tarixşünaslığında Azərbaycan adının etimologiyası ilə bağlı digər versiyalar da vardı. Məsələn, sovet dönəmində yazılmış üç cildlik “Azərbaycan tarixi”nin 1-ci cildində yazılırdı ki, Atropatena Azərbaycanın elmə məlum olan ən qədim adıdır və yunan mənbələrindən bizə gəlib çatmışdır. Daha sonra o, dəyişərək farslarda “Ader-Badaqan”, ermənilərdə “Ater-patakan” və “Atrpatakan”, ərəblərdə “Adərbaycan” və “Azərbaycan”, yəni “odlar yurdu” formalarını almışdır. Bu da atəşpərəstliyin burada geniş yayılması ilə bağlı idi (27, s. 44).

Çağdaş dövrün elmi məhsulu olan yeddi cildlik “Azərbaycan tarixi” kitabının birinici cildində Atropatenanın adının yaranması əlaqədar qeyd olunurdu ki, Ätarpätakan(a) forması Mada dialektlərinə gedib çıxır. Bu ad Ätarpät adından və -akän(a) şəkilçisindən ibarətdir və yuxarıda qeyd edildiyi kimi, “Atropata məxsus olan [torpaq]” deməkdir. Bu nöqteyi-nəzər Strabonun müddəası ilə yaxşı uzlaşır. Strabon yazmışdır ki, Atropat Madası “öz adını sərkərdə Atropatın adından almışdır” (1, s. 228).

Hal-hazırda “Azərbaycan” adının yaranması ilə əlaqədar yuxarıda qeyd olunan versiyalardan daha çox sərkərdə Atropatın adından yaranması versiyası üzərində dayanılmaqdadır.

* *Oçerk* – epik növün həcm etibarilə hekayəyə yaxın janrıdır. Hekayədən fərqli olaraq, *oçerk* faktiki həyat materialı, sənədlər əsasında yazılır.

Türklərin Azərbaycan ərazisində mövcudluğu ilə bağlı maraqlı təhlillər aparan, Azərbaycanda xalqların tarixi yerdəyişməsinin dəqiq vaxtının müəyyənləşdirilməsinin asan olmadığını qeyd edən A.Ziyadxan, öz fikirlərini bir az da dəqiqləşdirmək və təsdiqləmək üçün türk xalqları tarixinin bilicisi German Vamberin* əsərinə müraciət etmişdir. O, German Vamberin əsərindən gətirdiyi "indiki Azərbaycan ərazisində, qədim zamanların Atropatenasında qədim İran xalqı elementinin türk xalqı tərəfindən nə vaxt və necə sıxışdırıla biləcəyinə qərar vermək çətindir" iqtibasından sonra yazırdı ki, indi növbə tarixçilərimizdədir. Bununla da. A.Ziyadxan, tarixçilər qarşısında doğma türk irqinin tarixini öyrənmək məsələsini qoymuşdur.

İ.Seqalın "Azərbaycan Respublikasının meydana gəlmə tarixi" (32, 1919, № 110) adlı məqaləsində Seymdə gedən proseslər və bu proseslərin gedişində Cümhuriyyət liderlərinin fəaliyyəti qələmə alınmışdır. Onun məqaləsində Seymin və orada təmsil olunan müxtəlif fraksiyaların fəaliyyəti, o cümlədən Türk-müsəlmanları təmsil edən partiya fraksiyaları və onların üzvləri haqqında dəqiq məlumatlar verilmişdi.

Müəllif, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixində ən mühüm yeri Azərbaycanın siyasi partiyalarının çoxşaxəli fəaliyyəti tutacağını qeyd etməklə Azərbaycandakı siyasi partiyaların rolunu yüksək qiymətləndirmişdi.

Erməni-bolşevik quldurlarının Kürdəmirə qədər qarşılarına çıxan hər şeyi məhv etmələrindən yazan İ.Seqal, Ərzurum vilayətində, Qars əyalətində, sonra isə İrəvan quberniyasında ermənilərin müsəlmanlara qarşı dəhşətli vəhşiliklər törətmələrindən bəhs etmişdir.

"Azərbaycan" qəzetinin səhifələrində çap olunmuş "İran və Azərbaycan" (30, 1919, № 135) adlı digər bir məqalədə tariximizlə bağlı bəzi məqamlar öz əksini tapmışdır. Məqalədə Azərbaycanın ərazisi belə təsvir edilmişdir: Qərbin və Şərqin coğrafiyaçıları və tarixçilərinin fikrincə, Azərbaycan Şərqi Zaqafqaziya, İrəvan, Naxçıvan, İran Azərbaycanı, Xəmsə, Tarim, Talış, Gilan ətrafı, Həmədan və Qəzvin bölgələrinin bir hissəsi (30, 1919, № 135). Məqalədə "bütün azərbaycanlıların eyni tayfadan, eyni qandan olması ilə mübahisə etmək olarmı-?" sualına "Amerika və İngiltərənin qərəzsiz alimlərinin" fikirləri ilə aydınlıq gətirməyə çalışılmışdır. Məqalədə professor Nikela Qrabilsin fikirləri olduğu kimi verilmişdi: "1907-ci ildə Amerika Arxeologiya Cəmiyyətinin bir qrup alimi bu ölkəni öyrənmək üçün Amerikadan Azərbaycana yola düşdü. Bu ekspedisiya öz hesabatında qeyd edirdi: "... Azərbaycanın bölgələrində gil məmulatları və hər cür qab-qacaq şəklində arxeoloji türk antik dövrünə rast gəldik. Bəzi sikkələr və tarixi abidələr üzərində uyğur dilində yazılar qorunub saxlanılmışdır. Uyğur dili qədim Azərbaycan dövlətinin* rəsmi dili idi. Həmin professor ingilis aliminin əsərlərindən aşağıdakı parçaları sitat gətirir: "Turanla bağlı araşdırmalar getdikcə genişlənir. Orta Asiyanın bütün ərazilərində biz türk xalqının mədəniyyətinin qalıqları ilə rastlaşırıq. Bizə aydındır ki, fars hər tərəfdən türklər tərəfindən mühasirəyə alınmışdır. Qədim farsların, yəni arilərin ilk müharibələri Azərbaycan türkləri ilə olub. Müəllif yazırdı: türklərin farsların zühurundan çox-çox əvvəl Azərbaycanı hədəf aldıqlarına dair çoxlu dəlillər var. Professor Nikela Qrabils "Şərq məsələsi" kitabında iddia edir ki, Azərbaycan həmişə türklərə məxsus olub, arilər isə müvəqqəti məskunlaşıblar (30, 1919, № 135).

S.M.Mixaylovun "Türk xalqlarının tarixi oçerkləri" (28, 1918, № 63) adlı məqaləsində türklərin Altay və Orta Asiyadakı fəaliyyətlərindən, Çinin mövqeyindən, türklərin farslarla döyüşdə qalib gəlmələrindən və Bizansla ittifaq qurmalarından bəhs olunur.

Beləliklə, "Azərbaycan" qəzetinin səhifələrində "Azərbaycan tarixi" və "Türk xalqlarının tarixi" ilə əlaqədar işıq üzü görmüş məqalələrin təhlili onu deməyə əsas verir ki, həmin məqalələrdə əksini tapmış tarixi hadisə və faktlar sonrakı illərdə Azərbaycan və Şərq xalqları tarixinin, xüsusilə Türk xalqları tarixinin yazılmasında və sistemli öyrənilməsində müəyyən istiqamətverici əhəmiyyətə malik olmuşdur. Eyni zamanda həmin məqalələrdəki tarixi hadisələrin şərhi və təhlili bəhs olunan illərdə Azərbaycan

* German Vamberger – (19 mart, Hudermarkt, Avstriya – 15 sentyabr 1913, Budapeşt) – macar şərqşünası, səyahətçi, poliqlotu idi.

* bu cür yanaşma maraq doğursa da, uyğur dilinin Azərbaycanda mövcud olan hansı dövlətə aid olunduğunu müəyyən etmək mümkün olmadı.

tarixinin öyrənilməsi istiqamətində ciddi cəhdlərin olduğunu göstərən əsas amillərdən də hesab etmək olar.

"Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə cəhdlər (1918-1920-ci illər)" adlı məqalənin hazırlanmasında "Müsəlman şərqini öyrənən cəmiyyət"in materiallarından da istifadə olunub. Həmin materiallar "Azərbaycan" qəzetinin 23 yanvar (17, 1920, № 15), 6 fevral (29, 1920, №22), 26 fevral (18, 1920, № 38), 9 mart (19, 1920, № 48), 20 mart (22, 1920, № 57), 26 mart (23, 1920, № 61), 3 aprel (20, 1920, № 67) və 20 aprel (21, 1920, № 77) tarixli saylarında çap olunmuşdur.

1920-ci il yanvar ayının 19-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyətə başlayan "Müsəlman şərqini öyrənən cəmiyyət"in ilk yığıncağı keçirilmişdi. Həmin yığıcaqda prof. Zimin tərəfindən cəmiyyətin məqsəd və vəzifələri haqqında qısa məruzə edilmişdir. Sonra İ.Belyayevin XV əsr Osmanlı tarixçisi İbn-Bibinin salnaməsinə əsasən hazırlamış olduğu Kiçik Asiya səlcuqlarının saray həyatı haqqında məruzə oxunmuşdur. Üçüncü məruzə isə Nəbioğlunun "Bakıda Xan sarayının vəziyyəti" ilə əlaqədar olmuşdur. Nəbioğlunun məruzəsində, eyni zamanda sarayın müxtəlif fotoşəkilləri və rəsmləri nümayiş etdirilmişdir. Məruzə və müzakirələrdən sonra cəmiyyətin sədri prof. Zimin, sədr müavini İ.Belyayev, katibi, müəllim Seydiyev və xəzinədar Sübhanverdixanov seçilmişdilər. Yığıncaqda yaxın vaxtlarda Xan sarayına ekskursiya təşkil etməyi rəyasət heyətinə tapşırılmışdır (17, 1920, № 15).

Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən "Müsəlman şərqini öyrənən cəmiyyət"in əsas məqsədlərində biri də müsəlmanların yaşadığı ölkələrin, əsasən də Azərbaycanın və ona yaxın olan bölgələrin arxeoloji, lingivistik, tarixi və mədəni baxımdan öyrənilməsinə kömək etmək olmuşdur. Belə ki, yanvarın 19-da keçirilmiş yığıncaqda "Müsəlman şərqini öyrənən cəmiyyət"in "İslam dininə etiqad edən xalqların məskunlaşdığı ölkələrin, əsasən Azərbaycanın və ona yaxın olan bölgələrin, habelə müsəlman mədəniyyətinin inkişafına bu və ya digər təsiri olmuş tarixi-mədəni amillərin hərtərəfli öyrənilməsinə töhfə vermək məqsədi daşığı göstərilmişdi (29, 1920, № 22). Həmin yığıncaqda yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün cəmiyyətə üzv olan şəxslərin eyni istiqamətdə ciddi çalışmaları, yığıncaqların keçirilməsi, məruzələrin hazırlanması, öz əsərlərini çap etdirmələri və elmi ekspedisiyaların təşkil olunması tövsiyə olunmuşdur.

"Müsəlman şərqini öyrənən cəmiyyət"in sonuncu yığıncaqlarının birində, Xalq Maarif Nazirliyi müdirliyi tərəfindən "Cəmiyyət"i öz himayəsinə götürməyi və bu ilin elmi işləri üçün 102.650 rubl məbləğində xüsusi kreditin ayrılması xahişi ilə müraciət olunması qərarı qəbul etmişdir (21, 1920, № 77). Həmin yığıncaqda araşdırılması nəzərdə tutulan aşağıdakı elmi işlər təklif olunmuşdur:

1) Tiflis şəhərində ərəb, fars və türk dilində tarixi əlyazmalara baxılması, Azərbaycana və müsəlman Şərqinə aid olan materiallarla tanışlıq;

2) Arxeoloji baxımdan Zaqatala rayonunun tədqiq edilməsi və yerli kurqanların çəkiliş planları və s.;

3) Yevlax stansiyasından 40 verst aralı, qədim Albaniyanın paytaxtı, indiki Bərdə kəndinin tədqiqi;

4) Quba qəzasında fəaliyyət: Toxtamış xanın 1388-ci ildə pul kəsdirdiyi Şabran şəhərinin axtarışı; X əsrə aid hesab olunan Müşkir rayonu xarabalıqlarının tədqiqi və Quba ləhcəsinin öyrənilməsi üçün materialların toplanması;

5) Gəncə şəhərində tədqiqatlar: "Leyli və Məcnun" və digər poemaların müəllifi, XII əsr şairi Şeyx Nizaminin məzar abidəsinin araşdırılması; Şah Abbas dövrünün abidəsinin (yaşıl məscid) öyrənilməsi; Çingiz xan və Qara Göz haqqında rəvayətlərin toplanması;

6) Bakı şəhəri ətrafında olan aşağıdakı tarixi abidələrin (çəkiliş planları, kitabələr, ornamentlər və s.) araşdırılması: Xilə (Suraxanı) məscidi, Bülbülədəki İmamzadənin qəbri, Mərdəkanda gözətçi qülləsi və qədim əşyalar (21, 1920, № 77).

Beləliklə, "Müsəlman şərqini öyrənən cəmiyyət"in aktiv fəaliyyəti nəticəsində Şərqin, o cümlədən Azərbaycan tarixinin, arxeologiyasının, mədəniyyətinin və lingivistikasının öyrənilməsində ciddi cəhdlər göstərildiyini qeyd etmək olar.

**Nəticə**

Beləliklə, "Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə cəhdlər (1918-

1920-ci illər)" adlı mövzunun ilkin araşdırılması zamanı AXC dövründə qəbul edilmiş dövlət sənədlərinin ("Türk xalqları tarixinin sistematik kursuna izahat vərəqəsi" və Türk xalqları tarixinin sistematik kursunun proqramı") bir qisminin və "Azərbaycan" qəzetinin səhifələrində "Azərbaycan xalqının tarixi", Şərq xalqlarının tarixi və "Türk xalqlarının tarixi" ilə əlaqədar çap olunmuş məqalələrin, eləcə də "Müsəlman şərqini öyrənən cəmiyyət"in Azərbaycan tarixi, arxeologiyası, lingivistikası və mədəniyyəti ilə əlaqədar gördüyü işlərin üzərindən aparılan təhlillər onu deməyə imkan verir ki, həqiqətən də bəhs olunan illərdə (1918-1920-ci illərdə) Azərbaycan tarixinin dərindən öyrənilməsinə cəhdlər olunmuşdur.

Nəhayət, sonda onu da vurğulamaq lazımdır ki, Cümhuriyyət dövründə Azərbaycan tarixinin öyrənilməsinə cəhdlərin davam etdirilməməsinin əsas səbəblərindən biri də (ən əsas səbəb) 1920-ci ilin aprel ayında Rusiyanın Guzey Azərbaycana hərbi təcavüzü nəticəsində AXC-nin süqut etməsi olmuşdur.

## Ədəbiyyat siyahısı


1. Azərbaycan tarixi. Yeddi cilddə. I c. (Ən qədimdən-b.e. III əsri). Məsul redaktor: akademik İqrar Əliyev. Bakı. "Elm". – 2007. – 520 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V c. (1900-1920-ci illər). Məsul Red.: AMEA-nın müxbir üzvü Mahmud İsmayılov, t.e.n. Nigar Maksvell. Bakı. "Elm". – 2008. – 696 s.
3. Azərbaycan tarixi. 3 cilddə, III c., Bakı: - Elm. – 1973. – 598 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II c. Bakı: Lider nəşriyyat". – 2005. – 472 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil siyasəti (sənədlər toplusu). Məs. red.: t. e. d. Paşayev Ataxan, Red.: fil.e.d., prof. Rəsulov Əsgər. Bakı: "Elm və təhsil". – 2018. – 468 s.
6. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (II kitab Stenoqrafik hesabatlar). – Bakı: "Azərbaycan" nəşriyyatı. – 1998. – 992 s. S. 31.
7. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 895, siy. 3, iş 192, v. 3-5.
8. ARDA, f. 895. siy. 1, iş 9, vər. 64-65.
9. ARDA, f. 51, s. 2, iş.4, v. 83.
10. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 393, siy.1, iş 69, v. 64, 67.
11. ARDTA, f.315, siy.1, iş 1195, v. 4.
12. Bakıxanov A.A. Gülüstan-irəm. (Fars dilindən tərcumə edəni M. Əskərli) – Bakı: Minarə. – 2000. – 224 s.
13. İsmayılov K. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycançılıq məfkurəsi. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2018, № 2 (62). Bakı: Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri. – 2018. – . s. 213-234.
14. Nəzərli Ə. Azərbaycan Cühmuriyyətində Xalq Təhsili (1918-1920). Bakı: Xəzər Universitəsi nəşriyyatı. – 2018. – 240 s.
15. Şükürov K. Azərbaycan tarixi. Üç hissədə. I hissə. Elmi-nəzərivə praktik problemləri. Elmi redaktoru: t.e.n.B.Şabiyev. Bakı: Bakı Universiteti nəşriyyatı. – 2004. – 234 s.
16. Беленький С. и Манвелов А. Революция 1917 года в Азербайджане (хроники событий). Баку: АЗГИЗ «а»,1927, 253 с. С. 36.
17. В обществе изучения мусульманского востока. Газ. Азербайджан, 23 января 1920 г., № 15.
18. В Университете. Заседание общества изучения мусульманского Востока. Газ. Азербайджан, 26 февраля 1920 г., № 38.
19. В Университете. Заседание общества изучения мусульманского Востока. Газ. Азербайджан, 9 марта 1920 г., № 48.
20. В Университете. Газ. Азербайджан, 20 марта 1920 г., № 67.
21. В Университете. В о-ве изучения мусульманского востока. Газ. Азербайджан, 20 апреля 1920 г., № 77.
22. Заседание общества изучения мусульманского Востока. Газ. Азербайджан, 20 марта 1920 г., № 57.
23. Заседание общества изучения мусульманского Востока. Газ. Азербайджан, 20 марта 1920 г., № 61.
24. Зиатхан Адил хан. Очерки из истории, литературы и политики Азербайджана. //Газ. Азербайджан, 23, 25, 27, 29, марта, 6, 12 апреля 1919 г., № 61, 62, 64, 66, 72, 76.

25. Зиатхан Адил хан. Очерки из истории, литературы и политики Азербайджана. //Газ. Азербайджан, 25 (12) марта 1919 г. № 62.

26. Зимин Л. Восточный вопрос в прошлом и настоящем. Газ. Азербайджан. 24, 25 февраля 1920 г., № 36, 37.

27. История Азербайджана. В трех томах. Т.I. Баку: Академии Наук Азербайджана. – 1958. – 424 с.

28. Михайлов С.М. Очерки из истории тюркского народа. Газ. Азербайджан. 18 (5) декабря 1918 г., № 63.

29. О задачах общества изучения мусульманского Востока. Газ. Азербайджан, 6 февраля 1920 г., № 22.

30. Персия и Азербайджан. //Газ. Азербайджан, 1, 6 июля 1919 г., № 135, 140; 1, 3 января 1920, № 1, 3.

31. Рустамбеков Шафи бек. История образования Азербайджанской Республики. //Газ. Азербайджан. 7 декабря (24) ноября 1918 г., № 54.

32. Сегал И. Страница из Бахманлинское царство История возникновения Азербайджанской республики. // Газ.Азербайджан. 28 Мая 1919 г., № 110.

33. Щепотев А. Азербайджан с его прошлым и настоящим. //Газ.Азербайджан. 1919 г., № 2

## Summary

**Vagif Shirinoglu**

### Attempts to study the history of Azerbaijan during the period of the Republic

One of the first and most important measures implemented in the field of education during the rule of ADR was the nationalization of schools. Since the schools operating in the territory of Northern Azerbaijan could not preserve their previous outdated era, the history of Russia was canceled as a separate subject in schools, and the history of the Turkic peoples was taught instead.

During the REPUBLIC, very important decisions were made regarding the teaching of history in secondary, technical and higher schools for the systematic study of history, in particular the history of the Turkic peoples, and special explanatory leaflets and programs were prepared.

“The Society studying the Muslim East” in the academic year 1919-1920, the “viewing historical manuscripts in Arabic, Persian and Turkish languages in the city of Tiflis, familiarization with materials related to Azerbaijan and the Muslim East”; “the archaeological exploration of the Zagatala district and plans for photographing local kurgans”; “the exploration of the present village of Barda, the capital of ancient Albania”; “the search for the city of Shabran, where Tokhtamish Khan minted money in 1388 in the Guba province”; “the author of “Leyli and Majnun” and other poems in Ganja city, the grave monument of the 12th century poet Sheikh Nizami” and other similar monuments were considered to be investigated.

The preliminary analysis of the decisions passed by the ADR government in the field of education, the articles published on the pages of the “Azerbaijan” newspaper about “Azerbaijan history”, the history of Eastern peoples and especially “History of Turkic peoples” and the works of “Society studying the Muslim East” on the history, archaeology, culture and linguistics of Azerbaijan gives us reason to say that there were indeed “attempts to study the history of Azerbaijan in the period of the REPUBLIC”.

***Keywords:*** *Republic, History of Azerbaijan, history of the Turkish peoples, South Caucasus, Ministry of Public Education.*

## Резюме

**Вагиф Шириноглу**

**Попытки изучения истории Азербайджана в период Республики**

Одной из первых и важнейших мер, осуществленных в сфере образования в период правления АДР, была национализация школ. Поскольку школы, действовавшие на территории Северного Азербайджана, не могли сохранить свою прежнюю устаревшую эпоху, историю России как отдельный предмет в школах отменили, а вместо нее преподавали историю тюркских народов.

При РЕСПУБЛИКЕ были приняты очень важные решения по преподаванию истории в средних, технических и высших учебных заведениях для систематического изучения истории, в частности истории тюркских народов, подготовлены специальные разъяснительные листовки и программы.

«Общество изучения мусульманского Востока» в 1919-1920 учебном году, «просмотр исторических рукописей на арабском, персидском и турецком языках в г. Тифлисе, ознакомление с материалами, относящимися к Азербайджану и мусульманскому Востоку»; «археологическая разведка Загатальского района и планы фотосъемки местных курганов»; «исследование нынешней деревни Барда, столицы древней Албании»; «поиски города Шабрана, где Тохтамыш-хан чеканил деньги в 1388 году в Губинской губернии»; «Исследованными считались автор «Лейли и Меджнун» и других поэм в городе Гянджа, могильный памятник поэта 12 века шейха Низами» и другие подобные памятники.

Предварительный анализ решений, принятых правительством АДР в области образования, опубликованных на страницах газеты «Азербайджан» статей об «Истории Азербайджана», истории народов Востока и особенно «Истории тюркских народов» и Работы «Общества изучения мусульманского Востока» по истории, археологии, культуре и языкознанию Азербайджана дают нам основание говорить о том, что действительно были «попытки изучения истории Азербайджана в период РЕСПУБЛИКИ».


***Ключевые слова:*** *Республика, история Азербайджана, история тюркских народов, Южный Кавказ, Министерство народного просвещения.*

**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.98**

**[1]Tofiq Nəcəfli, [2]Fərəh Hüseyn**
*[1]AMEA A.A.Bakıxanov adına Tarix institutunun*
*"Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin müdiri, t.e.d., dosent.*
*[2]AMEA A.A.Bakıxanov adına Tarix institutunun*
*"Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d., dosent.*

# I ŞAH ABBAS DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNİN BÖYÜK MOSKVA KNYAZLIĞI İLƏ ƏLAQƏLƏRİ

***Açar sözlər:*** *I Şah Abbas, Azərbaycan, Səfəvilər, Moskva, Boris Qodunov.*

## Giriş

XVI əsrin başlanğıcında təkcə Azərbaycan torpaqlarını deyil, eyni zamanda qonşu ölkələrin ərazilərini də əhatə edən, Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrilən Azərbaycan Səfəvi dövlətinin yaranması ilə diplomatik əlaqələr tariximizin yeni mərhələsi başlandı. Səfəvi dövləti Asiya və Avropanın demək olar, əksər dövlətləri ilə diplmatik əlaqələr yaratdı. Azərbaycan Səfəvi dövlətinin xarici siyasətində qonşu dövlətlərlə, o cümlədən Böyük Moskva knyazlığı ilə münasibətlər önəmli yer tuturdu. Səfəvi və Moskva dövlətləri arasında ənənəvi olaraq mövcud olmuş ticarət əlaqələri XVI əsrin ikinci yarısından etibarən Volqa-Xəzər yolunun aktivləşməsi sayəsində daha da canlanaraq geniş vüsət almışdır. Bu dövrdə iki dövlət arasında artıq sistematik xarakter almış diplomatik münasibətlərdə ticarət əlaqələri ilə yanaşı antiosman hərbi ittifaqının yaradılması məsələsi də ciddi müzakirə predmeti olmuşdu. Problemə aid araşdırmalarda Moskva və Səfəvi dövlətləri arasında sıx dostluq və müttəfiqlik münasibətlərinin yaranması qeyd olunur. Rusiya və sovet tarixşünaslığında formalaşmış ümumi fikrə görə, I Şah Abbas Moskva knyazlığı ilə Osmanlı dövlətinə qarşı ittifaq yaradılmasına təşəbbüs etmiş və hətta hərbi yardım müqabilində Dərbənd və Bakı şəhərlərini* şimal dövlətinə təslim etməyi də vəd etmişdi [18, s.67, 68; 32, s.279; 27, s.275; 28, s.271, 272; 15, s.58; 29, s.64; 12, s.200, 201; 10, s.31, 32]. Lakin mənbələrdəki məlumatların diqqətlə araşdırılması və onların regionda baş verən proseslər ilə əlaqəli şəkildə təhlili bu tezisin səthi yanaşmadan qaynaqlandığını və həmin dövr kəsiyində Səfəvi-Moskva münasibətlərinin əsl mahiyyətini nəinki açıqlamadığını, hətta təhrif etdiyini müəyyən etmişdir.

### *1. Boris Qodunovun ekspansionist cəhdlərinə qarşı I Şah Abbasın diplomatik gedişləri*

I Şah Abbasın hakimiyyətə gəlməsilə təxminən eyni vaxtda Moskva dövlətində hakimiyyəti faktiki olaraq ələ alıb çar Fyodorun (1584-1598) adından ölkəni idarə edən qaynı Boris Qodunov həm Qərb, həm də Şərq dövlətlərilə münasibətlərdə aktiv xarici siyasət yürütmüşdü. Uzun illər çar IV İvan Qroznının (1547-1584) yaxın çevrəsində olub onun "çalışqan tələbəsi" [21] kimi yetişən və sələfinin "Şərq siyasətini" davam etdirən Boris Qodunovun hakimiyyət dövrü xüsusilə Qafqaz və Xəzəryanı bölgələrə ekspansionist xarakterli siyasətilə seçilirdi.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi şəraitində Cənubi Qafqaz regionunda möhkəmlənməyə can atan B.Qodunov hakimiyyətinin məqsədyönlü siyasəti nəticəsində 1587-ci ilin sentyabr ayında Kaxeti çarlığı Moskva dövlətinin himayəsinə keçdi. II Aleksandr bunun müqabilində ildə çara 50 top ipək, qızıl və gümüş saplarla toxunmuş 10 xalı göndərməyə razı oldu [38, s.60-61]. Gürcüstana göndərilmiş Birkin və Pivov adlı rus elçiləri Kaxetiya çarı II Aleksandrı and içdirərək *"onun və övladlarının bütün İveriya ölkəsi ilə birlikdə [rus] çarından təbəəliyini qəbul edərək hökmdarın əli altında olmasını"* təsdiq etmişdilər [18, s.63; 14, s.32].

* Sonradan bu şəhərlərə Şamaxı şəhəri də əlavə olundu.

Həmin dövrdə Kaxeti daxil olmaqla bütün Cənubi Qafqaz regionu faktiki olaraq Osmanlı dövlətinin işğalı altında olduğu üçün Səfəvi hakimiyyəti rus dövlətinin bu fəaliyyətinə açıq şəkildə reaksiya verməmişdi, hərçənd ki, Kaxeti çarlarının ənənəvi olaraq Qızılbaş dövlətinin vassalları olduqlarını nəzərə alsaq, Qəzvin sarayı bu məsələyə, əlbəttə ki, laqeyd qala bilməzdi. Kaxetini öz təsir dairəsinə cəlb etməyə çalışan rus çarının atdığı bu addımlar iki dövlət arasındakı münasibətləri xeyli gərginləşdirdi.

Buna görə də, rus çarı Fyodr öz elçisini Səfəvi sarayına göndərərək iki dövlət arasındakı münasibətləri nizama salmağa çalışdı. 1588-ci ilin sonlarında rus elçisi Qriqori Vasilçikov Qəzvinə gəldi. Q.Vasilçikovun Səfəvi sarayına göndərilməsində əsas məqsəd iki dövlət arasında dostluq münasibətlərinin yaradılması və Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılmasını müzakirə etmək idi. 1589-cu il aprelin 9-da I Şah Abbas sarayda rus elçisini qəbul etdi. Q.Vasilçikov gətirdiyi hədiyyələri və məktubu şaha təqdim etdi. Rus çarı göndərdiyi məktubunda iki dövlət arasında dostluğun möhkəmləndirilməsi üçün ilk növbədə Xəzərsahili vilayətlərdən Osmanlıların qovulmasında maraqlı olduğunu, Şah Məhəmməd Xüdabəndənin vəd etdiyi Dərbənd və Bakı şəhərlərinin verilməsini xatırlatdı [15, s.110; 10, s.33]. Lakin I Şah Abbas Bakı, Dərbənd və Şamaxı şəhərlərinin rus çarına yalnız o halda “güzəştə” getməyə hazır olduğunu bildirdi ki, bu şəhərlər ruslar tərəfindən osmanlılardan azad edilməlidir. Elçinin geri dönməsinə icazə verildi, şahın cavab məktubu da ona təqdim olundu [42, s.163; 15, s.113].

P.P.Buşev Q.Vasilçikovun I Şah Abbasla apardığı danışıqlar barədə yazır ki, I Şah Abbas Osmanlı dövləti əleyhinə hərbi ittifaq bağlayaraq nəzarət etmədiyi iki mühüm şəhəri Moskva dövlətinə güzəştə getməklə bağlı suala birbaşa cavab vermədi. O, açıq şəkildə bildirdi ki, ruslar bu şəhərləri öz qüvvələri ilə Osmanlılardan geri almalıdırlar. Əgər Dərbənd və Bakını şah ordusu azad edərdisə, bu şəhərlərin güzəştə gedilməsindən söz ola bilməzdi. Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması təklifinə də I Şah Abbas birbaşa cavab vermədi [15, s.113; 10, s.33].

Beləliklə, Q.Vasilçikovun missiyası konkret uğur qazanmasa da, Moskva dövləti ilə Azərbaycan Səfəvi dövləti arasında rəsmi diplomatik əlaqələrin inkişafına təkan verdi. 1590-cı il İstanbul sülhünə görə Azərbaycanın və Dağıstanın Xəzərsahili vilayətləri Osmanlı dövlətinin əlində qaldığı üçün tərəfləri yeni danışıqlara vadar etdi.

Volqa – Xəzər ticarət yolunun Osmanlı nəzarətindən azad edilməsi kimi vacib məsələdə ümumi marağın olması Səfəvi dövləti ilə Moskva knyazlığının yaxınlaşması üçün müəyyən zəmin yaratdı [40, s.744]. Lakin bu yaxınlaşma gözlənilən nəticəni vermədi. Çünki bu dövrdə Moskva dövləti Livoniya ilə uzunmüddətli müharibə nəticəsində zəiflədiyi üçün daxili böhran keçirirdi. Çar Fyodr İvanoviç, həmçinin daxili və xarici siyasətə rəhbərlik edən Boris Qodunov Osmanlı dövləti ilə müharibə məsələsini həll edə bilmədilər. Bununla da Moskva I Şah Abbas hökumətinin təklifindən istifadə edə bilmədi. Moskva dövləti yalnız dağlı knyazlarını öz tərəfinə çəkərək Şimali Qafqazda Osmanlı dövlətinin mövqeyini zəiflətməyə çalışdı [27, s.276].

Buna baxmayaraq, Səfəvi hökmdarı şimal qonşusu ilə siyasi və iqtisadi əlaqələr yaratmağa xüsusi diqqət yetirirdi. O, bu məqsədlə 1592-ci ildə tanınmış tacir Hacı Xosrovun rəhbərliyi altında 50 nəfərlik ticarət heyətini iki dövlət arasında ticarət əlaqələri yaratmaq üçün Moskvaya göndərdi. I Şah Abbas açılacaq ticarət yolu ilə Moskvadan silah və sursat idxal etmək niyyətində idi. Səfəvi şahı göndərdiyi elçi vasitəsi ilə rus çarından Həştərxan limanında yerli məmurlar tərəfindən saxlanılan dörd Səfəvi gəmisinin azad edilməsini tələb etmişdir. Eyni zamanda o, firuzə daşlarla bəzədilmiş olan bir taxtı rus çarına vermək üçün yeni bir heyəti Moskvaya göndərdi. 1593-cü il oktyabrın 6-da çar I Fyodr tərəfindən qəbul edilən Səfəvi elçisi I Şah Abbasın göndərdiyi məktub və hədiyyələri ona təqdim etdi. Səfəvi elçi heyəti çardan sonra bütün işləri öz əlində saxlayan Boris Qodunovla görüşdü. O, iki dövlət arasında ticarət əlaqələrinin yaradılmasını münasib bilərək çarın adından və özünün yazmış olduğu məktubları və I Şah Abbasa çatdırılacaq hədiyyələri elçiyə təqdim etdi [41, s.66; 4, s.290].

Hacı Xosrovun rəhbərliyi altında Səfəvi elçi heyətinin Moskvadan qayıtmasından bir ay sonra I Şah Abbasın Hacı İsgəndər adlı elçisi ti-

carət məqsədi ilə Moskvaya gəldi. O, Səfəvi şahının göndərdiyi məktubu çara təqdim etdi, gətirdiyi qalxan, dəmir güzgü və məxmər parçaların qarşılığında ruslardan sincab, tülkü dərisi, zireh, fil dişi və mum hazırlamaq üçün istifadə olunan iç yağı istədi [44, s.154; 4, s.290].

I Şah Abbasın hakimiyyəti dövründə Moskva dövlətilə diplomatik münasibətlərdə aktual məsələlərdən biri də Kaxeti çarlığı ilə bağlı vəziyyət idi. Yuxarıda qeyd etdiyimiz kimi 1587-ci ildə Kaxeti çarı II Aleksandr Moskva dövlətinə biət edərək bu dövlətin himayəsini qəbul etmişdi. Həmin dövrdə məsələyə açıq müdaxilə etmək imkanı olmayan I Şah Abbas bu problemi də diplomatik yolla həll etməyə üstünlük vermişdi. O, II Aleksandrın oğlu Konstantinin Səfəvi sarayına girov olaraq göndərilməsinə nail olmuşdu. 1594-cü ildə rus çarı Fyodr Andrey Zveneqorodski adlı elçisini 63 nəfərlik bir heyətlə Səfəvi sarayına göndərdi. Rus çarı elçi vasitəsilə göndərdiyi məktubunda Səfəvi şahına yazırdı: "Sizin Osmanlılarla sülh bağladığınızdan xəbər tutduq. Bu xəbər bizdə çaşqınlıq yaratdı. Çünki bu durumda necə ola bilər ki, bir tərəfdən bizə ittifaq yaratmaq təklif edirsiniz, digər tərəfdən də düşmənlə sülh bağlayırsınız" [41, s.67; 6, s.266]. Kreml sarayı knyaz Andrey Zveniqorodskiy adlı səfiri vasitəsilə çarın Kaxetini himayəsi altına aldığı üçün I Şah Abbasın himayəsində olan Konstantinin Moskva dövlətinə təslim edilməsini istəmişdi. Cavabında I Şah Abbas rus səfirinin Konstantinlə şəxsən görüşüb danışmağı və onun özünün razılığı şərtilə buna icazə verəcəyini bildirmişdi. Lakin müsəlmanlığı qəbul etmiş və müsəlman xanımla evlənmiş gürcü şahzadəsi Səfəvi dövlətini tərk etmək istəmədiyini bildirərək rus səfiri ilə görüşdən imtina etmişdi [25, s.263-264; 18, s.195]. İsgəndər bəy Münşi rus elçisinin Səfəvi sarayına gəlişini təsdiq edərək yazır: "Onlar rus padşahı tərəfindən şahın yanına gələrək, layiqli töhfə və hədiyyələr gətirdilər. Elçi bir mötəbər rus əmiri idi. Rus dövləti məhəbbətamiz bir məktub yazaraq çoxlu məsələlərdən söhbət açmışdı. Əlahəzrət zilləllah şah elçinin qədəmini alqışladı, kafər olsa belə qonağa ehtiram göstərdi" [2, c.935; 4, s.291]. İsgəndər bəy Münşi daha sonra yazır: "... Rus elçisinə qayıdış rüxsəti verildi və onlara layiqli ənamlar təqdim olundu. Türkman qorçisi İmamqulu bəy Pakizəni rus padşahına elçi təyin edib, onu layiqli töhfə və hədiyyələrlə rus elçilərinə həmrah etdilər. Onlar Gilanda gəmiyə oturub dəniz yolu il rəvan oldular" [2, s.938-939; 4, s.291]. I Şah Abbas Moskvaya göndərdiyi elçisi vasitəsilə Osmanlı dövləti ilə bağlanmış sülhün səbəblərinə aydınlıq gətirdi. O, davamlı olaraq elçilərin göndərilməsini, rus qüvvələrinin Həştərxana doğru Səfəvilərin sərbəst keçməsi üçün yolun düşməndən təmizlənməsi və Osmanlılarla müharibəyə müştərək hazırlıqla bağlı məsələləri çara çatdırdı. Bu təkliflər çar tərəfindən müsbət qarşılandı.

1599-cu ildə I Şah Abbas Pakizə İmamqulu bəyi, Vasili Tyüfyakin və Semyon Yemelyanovun səfarətinin ardınca isə Pirqulu bəyi Moskvaya elçi göndərdi. F.Hüseynin fikrincə, I Şah Abbasın Azərbaycan şəhərlərini Moskva dövlətinə güzəştə getmək cəhdi diplomatik manevrdən başqa bir şey deyildi. XVI yüzilliyin sonu-XVII yüzilliyin əvvəllərində Səfəvi dövlətinin Moskva dövlətilə diplomatik əlaqələri təsdiq edir ki, Səfəvilərin Azərbaycan şəhərlərini ruslara güzəştə getməsinin heç bir hüquqi əsası yox idi; çünki qeyd olunan şəhərlər Osmanlı dövlətinin nəzarəti altında idi. Rusiyanın tələblərinə Səfəvilər diplomatik manevrlərlə cavab vermişdi. Osmanlı dövləti əleyhinə ittifaq yaradılması və şəhərlərin güzəştə gedilməsi kimi ciddi bir məsələnin müzakirəsi üçün rusların bütün tələblərinə baxmayaraq, Səfəvi şahı tərəfindən səlahiyyətli nümayəndə heyəti göndərilməmişdi [17, s.121, 122; 4, s.291-292].

XVII əsrin əvvəllərində Osmanlılar tərəfindən işğal olunmuş əraziləri azad etməyə təşəbbüs edən I Şah Abbas parallel olaraq Gürcüstanda da Səfəvi hakimiyyətini bərpa etmək siyasətinə başladı. Bu məqsədlə o, Konstantindən istifadə etdi. Onun əlilə Moskva dövlətinin himayəsini qəbul etmiş atası çar Aleksandrı 12 mart 1605-ci ildə suiqəsd nəticəsində qətl etdirdi [18, s.64, 65]. Karamzin bu hadisəni belə təsvir edir: *"Osmanlı ilə müharibədə çarın köməklik edəcəyi ümidilə Aleksandrın Rusiya ilə əlaqəsinə uzun müddət dözmüş Abbas, qalib gəldikdən sonra əcdadlarının mülkü sayılan torpaqda artıq bizim [rusların – T.N.,F.H.], xəyali də olsa, hökmranlığımızla barışmaq istəmədi. O, Borisin [Qodunov – T.N.,F.H.] siyasi sistemini fəhm etdi; gördü ki, biz onun Sultan ilə*

*arasında qan tökülməsinə sevinirik, özümüz isə bundan qaçınırıq; oğula [Konstantinə – red.] atasını [Aleksandrı – red.]qətl etməyi əmr etdi, güya ki Türklərə meyl etdiyinə görə, amma əslində Rusiyanın təbəəliyini qəbul etdiyinə görə; uzaq, vəfasız şəfaətçi axtarışında olan zavallı Aleksandr [bu] təkəbbürlü və ağılsızca [hərəkətilə] yaxınında olan iki zülmkarını qıcıqlandırırdı"* [18, s.65, 66].

Qeyd etmək lazımdır ki, hakimiyyət uğrunda mübarizə və gürcü feodallarının üsyanı nəticəsində Konstantin də qətl olunmuş və Kartlidə hakimiyyətə II Aleksandrın nəvəsi Teymuraz gətirilmişdi. Lakin bu hadisələrdən sonra da Gürcüstanda vəziyyət mürəkkəb olaraq qalırdı. Moskva dövlətində taxta çıxan yeni çar IV Vasili Şuyskinin (1606-1610) Səfəvi sarayına İvan Romodanovski adlı elçisi döstanə bir məktub gətirməklə yanaşı xristian bir ölkə olan Gürcüstana edilən hərbi yürüşlərdən narazılığını bildirmişdi. Elçini ehtiramla qarşılayan I Şah Abbas aldığı məktub müqabilində çarın adına göndərdiyi iki məktubda Osmanlılara qarşı müharibədə qazandığı zəfərlərdən Moskva hakimiyyətini xəvbərdar etmiş və rus çarını bir daha Osmanlılara qarşı savaşa dəvət etmişdi [41, s.95; 6, s.268].

Rus çarı seçilən Boris Qodunov (1598-1605) Azərbaycan Səfəvi imperiyası ilə əlaqələri inkişaf etdirməyə çalışdı. 1600-cü ildə o, hakimiyyət dəyişikliyinin iki ölkə arasındakı əlaqələrə zərər verməyəcəyini I Şah Abbasa çatdırmaq üçün knyaz Aleksey Zassekineni Səfəvi sarayına göndərdi. Rus elçisi Osmanlılara qarşı Avstriya-Macarıstan, Moskva və Səfəvilər arasında ittifaq yaradılmasının vacibliyini söyləyərək çar tərəfindən Səfəvilərə hər zaman hərbi yardım göndəriləcəyinə təminat verdi. Eyni zamanda rus çarı Səfəvi şahına elçisi vasitəsilə iki ov iti, bir ayı və iki samur göndərdi [40, s.95; 6, s.268]. Rus elçisi knyaz Alekseyin yanında Boris Qodunovun taxta keçməsini təbrik etmək üçün Moskvaya göndərilən Səfəvi elçisi Pirqulu bəy Təkəli də vardı [19, s.155; 4, s.292].

B.Qodunov hakimiyyəti dövründə Moskva dövlətinin ekspansionist planları Gürcüstanla məhdudlaşmayıb Səfəvi dövlətinin tərkib hissəsi olan Gilan vilayətinə də şamil olunurdu. Təxminən eyni vaxtda Qızılbaş dövlətinə qarşı qiyam qaldırmış Gilanın Kiya sülaləsindən olan hakimi Xan Əhmədin Moskva çarına himayə üçün müraciət etməsi burada da Kaxeti ssenarisinin təkrarlanması təhdidini yaradırdı. Və nəzərə alsaq ki, qiyamçıların müraciəti Moskva rəsmiləri tərəfindən böyük rəğbətlə qarşılanmışdı bu təhdidin reallaşması ehtimalı da olduqca yüksək idi. Gilan xanın 1590-cı ilin may ayında *"Kremldə mehribanlıqla qarşılanan"* Hacı Həsən adlı elçisi *"xoş xəbərlər"* ilə geriyə qayıtmışdı [15, s.138, 149, 151 ]. Həmin missiya haqqında P.Buşev yazır ki, *"Moskvada Xan Əhmədin de-fakto tanınmasına "yox" deyə bilməzdilər... [çünki] Gilandan keçən Rus-İran ticarətinin uğuru ondan* (Xan Əhməddən – red.) *asılı idi"* [15, s. 149].

P.Buşevin qeyd etiyi kimi, *"Moskva çarı timsalında özünə himayəçi əldə etməyə"* və Səfəvi taxtına etdiyi *"xəyanətə görə qaçılmaz cəzadan qurtulmağa"* çalışan "Çar (Xan) Əhməd" (rus arxiv mənbələrində o məhz belə adlandırılır) 1591-ci ilin yayında Hacı Həsənin ardınca Türkəmil adlı nüfuzlu Gilan tacirinin rəhbərliyi ilə Moskvaya yeni elçi heyəti göndərmişdi [15, s.149-151]. 1592-ci ilin may ayında Kreml sarayında qəbul edilmiş Gilan elçisi çar Fyodora Xan Əhməd adından müraciət edərək onu öz himayəsi altına almasını və *"[çarın] xidmətində olan tatarları Buxara xanına olduğu kimi ona (Xan Əhmədə – T.N., F.H.) da göndərməsini"* xahiş etmişdi [15, s.153]. Çarın adından Türkəmilə bildirilmişdi ki, *"Biz... Gilan çarı Əhmədi təbəəliyimizə almaq istəyirik və alacayıq və bizə xidmət edən tatarları ona göndərəcəyik"* [25, s.155]. Beləliklə, Gürcüstanı artıq öz təbəəliyinə almış Moskva dövləti ümidverici vədlər ilə qiyamçı gilanlı Xan Əhmədin də separatist meyllərinə rəvac verirdi.

### 2. *Səfəvi-Moskva diplomatik münasibətlərində Azərbaycanın şimal şəhərlərinin Moskva dövlətinə verilməsi məsələsi*

Bununla yanaşı Moskva dövləti Dağıstanda Səfəvi dövlətilə ənənəvi münasibətləri olan Tarku şamxallığını da özünə tabe etməyə cəhd edirdi. Beləliklə, sadaladığımız bu amillərin hər biri zahirən diplomatik xarakterdə və hətta müttəfiqlik səviyyəsində olduğu təəssuratı bağışlayan Moskva-Səfəvi münasibətlərində ciddi qarşıdurma yarada biləcək münaqişə ocağı idi. Məhz bu məqamda Osmanlılar əleyhinə ittifa-

qın bağlanması müqabilində Xəzəryanı Azərbaycan şəhərlərinin Moskva dövlətinə təslim edilməsi məsələsinin də diplomatik münasibətlərdə müzakirə predmetinə çevrilməsi Moskva dövlətinin ekspansionist planlarının tərkib hissəsi kimi görünürdü. Qeyd etməliyik ki, olduqca müəmmalı şəraitdə ortaya çıxan bu layihənin Moskva hakimiyyətinin Səfəvi dövlətindən olan müəyyən qüvvələrlə sövdələşməsi əsasında hazırlanmış olduğu təsəvvürünü yaradır. Çox maraqlıdır ki, rus rəsmiləri Osmanlı dövləti əleyhinə ittifaqın yaradılması müqabilində Dərbənd və Bakı şəhərlərinin Moskva dövlətinə vəd edilməsi təklifinin Səfəvilər tərəfindən irəli sürüldüyünü iddia etsələr də, sonuncular ilkin mərhələdə bunu təkzib edirdilər. Qeyd etmək lazımdır ki, bu məsələ 1587-ci ildə Kremldə Şah Məhəmməd Xudabəndənin elçisi kimi qəbul edilən tacir Hadı bəyin irəli sürdüyü təklifindən sonra Səfəvi-Moskva diplomatik münasibətlərinin predmetinə çevrilmişdi. Hadı bəyin (rus mənbələrində o "Andi bəy" adlandırılırdı) şəxsiyyəti və əsl məramı haqqında aşağıda daha ətraflı şəkildə bəhs olunacaq. 1590-cı ilin may ayında isə həmin Hadı bəy yenidən, bu dəfə I Şah Abbasın elçisi Budaq bəy ilə birlikdə Moskvaya gələrək Kremldə qəbul edilmişdi. Həmin görüş əsnasında Moskva rəsmiləri Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılması müqabilində Azərbaycan şəhərlərinin güzəşt edilməsi təklifinin Səfəvi şahı tərəfindən irəli sürüldüyünü iddia etsələr də, Budaq bəy buna qarşı çıxaraq inkar etməyə çalışmışdı [15, s.136]. P.Buşevin yazdığına görə, Budaq bəy Hadı bəyi təkzib etmiş və rus tərcüməçilərini onun söylədiklərini doğru tərcümə etmədiklərində ittiham edərək, demişdi ki, Hadı bəy *"bizim hökmdarımızın əmrilə danışmayıb, və ya tərcüməçilər (doğru) tərcümə edə bilməyiblər"* [15, s.136; 25, s.210]. Buna cavab olaraq rus məmurları bildirmişdilər ki, Hadı bəy ilk səfəri zamanı şahın adından rus çarına "düşmənə" qarşı ittifaq təklif etmiş və ondan odlu silahla silahlanmış qoşun göndərməsini xahiş etmişdi, çünki şah Dərbənd, Bakı, Şamaxı, Şirvanı türklərdən geri almaq, aldıqdan sonra isə Dərbəndi və Bakını ruslara vermək, qalanlarını isə özündə saxlamaq niyyətindədir [25, s.136; 15, s.59]. Rus tərəfinin təzyiqi altında Budaq bəy, P.Buşevin ifadə etdiyi kimi "məsuliyyətsiz" şəkildə bəyan etmişdi ki, I Şah Abbas nəinki bu iki şəhəri, türklərin işğal etdiyi digər şəhərləri də rus hökmdarına güzəşt etməyə hazırdır [15, s.137].

Mənbə məlumatlarından görünür ki, Moskva dövlətilə Osmanlı dövləti əleyhinə ittifaqın bağlanması və əvəzində Azərbaycan şəhərlərinin təslim edilməsi məsələsində iki dövlətin diplomatik nümayəndələri arasında ciddi mübahisə yaranmış və bu mübahisədə rus tərəfinin istinad etdiyi yeganə əsas Hadı bəyin 1587-ci ildəki səfəri zamanı Moskva rəsmilərilə görüşü zamanı verdiyi vədlər idi. Halbuki, elə Hadı bəy özü də Kreml sarayında danışıqlar zamanı etdiyi bu təklifdən çox tezliklə faktiki olaraq boyun qaçırmışdı. Bu, onun rus diplomatı Qriqori Vasilçikov ilə söhbəti zamanı baş vermişdi. Vasilçikov, Hadı bəyin təklifindən ruhlanan Moskva hakimiyyətinin onunla birlikdə Qəzvin sarayına göndərdiyi mötəbər diplomatik heyətin başçısı idi. Bu müştərək heyət hələ yolda ikən məlum olmuşdu ki, Qızılbaş taxtına 1587-ci ildə Şah Məhəmməd Xudabəndənin yerinə I Şah Abbas çıxmışdı. Moskva görüşlərinə və danışıqlarına dair hesabat hazırlayıb yeni şaha təqdim etmək qərarına gələn Vasilçikov ilə Hadı bəy arasında bu zaman məhz şəhərlərin Moskva dövlətinə təslim edilməsi məsələsi üstündə ciddi mübahisə yarandı. Belə ki, rus rəsmilərilə görüşü zamanı Hadı bəy hərbi ittifaq müqabilində Səfəvi dövlətinin Dərbənd və Bakı şəhərlərini güzəşt edəcəyi barədə Şah Məhəmməd Xüdabəndənin adından irəli sürdüyü təklifdən geri çəkilərək təkid edirdi ki, hesabatda yazılsın ki, o, yəni Hadı bəy *"[Moskva dövlətinin] Dərbənd və Bakıya qoşun göndərməsi və Səfəvi dövlətilə birləşərək bu şəhərləri geri alıb sonradan Səfəvi dövlətinə təslim etməsi"* təklifi ilə Şah tərəfindən Rus çarına göndərilmişdi. Bu söhbəti bütünlüklə qələmə aldığı *"Stateynıy spisok"* adlı sənəddə Vasilçikov qeyd edir ki, o, opponentinin ifadələrindəki bu dəyişkənliyinə qəti şəkildə etiraz edərək bildirmişdi ki, Hadı bəy *"doğru danışmır və rus hökmdarının hüzurunda o bir kəlmə də olsun deməmişdi ki, şəhərlərin geri alınmasından sonra rus çarı onları şaha təslim etməli olacaq"* [15, s.65, 66].

P.Buşevin fikrincə, taxta yeni çıxmış şahın reaksiyasından güya ehtiyat etdiyi üçün Moskva rəsmilərilə görüşü zamanı irəli sürdüyü təkliflərdən imtina edən Hadı bəyin bu cür şübhəli

davranışının, həmçinin bundan sonra baş verən digər hadisələrin təhlili belə ehtimal etməyə əsas verir ki, Səfəvi dövlətinin düçar olduğu mübhəm bir vəziyyətdə Xəzəryanı Azərbaycan şəhərlərinin Moskva dövlətinə vermək təklifinin ortaya çıxması mərkəzi hakimiyyətin zəiflədiyi və özbaşınalığın hökm sürdüyü şəraitindən sui-istifadə edərək rəsmi dairələrin arxasından iş görən müəyyən qüvvələrin avantürist təşəbbüsü idi. Səfəvi sarayının nümayəndəsi kimi Moskvaya gələn Hadı bəy də böyük ehtimalla həmin qrupun maraqlarını ifadə edirdi. Əğər bu ehtimal doğrudursa, Hadı bəyin əslində kimin maraqlarını ifadə etdiyi və onun arxasında hansı qüvvələrin durduğu sualı ortaya çıxır. Bu kontekstdə Hadı bəyin şəxsiyyətinin müəyyənləşdirilməsi araşdırdığımız məsələnin mahiyyətinin açıqlanması baxımından olduqca vacibdir. Rus mənbələri Hadı bəyin Hacı Həsən adlı nüfuzlu Gilan tacirinin qardaşı və ya bacısı oğlu (племянник) olduğunu yazırlar. Dəfələrlə Həştərxana səfərlər etmiş Hacı Həsən özü isə, mənbələrdə qeyd olunduğu kimi, həm də Gilan hakimi Xan Əhmədin etibarlı şəxslərindən biri olmuşdu [15, s.85]. Bu yaxınlığı nəzərə alan P.Buşev, Hadı bəyin Gilana *"qanı ilə bağlı"* olduğunu qeyd edir [15, 96].

Tədqiq etdiyimiz dövrdə Gilanda baş verən hadisələr və ümumiyyətlə, bu vilayətin hakimi Xan Əhmədin* Səfəvi dövlətinə qarşı apardığı separatist siyasəti fonunda Qızılbaş dövlətinin düçar olduğu ağır şəraitdə gilanlı bir emissarın Moskva sarayında peyda olması təsadüf kimi görünmür. Çünki müstəqillik meyllərində olan və Səfəvi dövlətinin mərkəzi hakimiyyətinə qarşı siyasət yürüdən Gilan hakimləri mütəmadi şəkildə xarici dövlətlərin dəstəyini arayırdılar.

Hadisələrin cərəyan etdiyi dövrdə Səfəvi dövlətinə qarşı kəskin separatist mövqedə olan Xan Əhməd dəstək üçün Osmanlı dövlətinə müraciət etmiş, bu dəstəyi almadıqdan sonra ümidlərini Moskva dövlətinə bağlamışdı. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Gilan hakimlərinin bu dövrdə Moskva dövlətilə yaxınlaşmaları sadəcə siyasi deyil, eyni zamanda iqtisadi maraqlardan qaynaqlanırdı. Məlum olduğu kimi, Gilan əyaləti tədqiq etdiyimiz dövrdə əsas ixrac əmtəəsi olan xam ipəyin istehsalına və satışına görə Səfəvi dövlətində aparıcı mövqedə idi. XVI əsrin ikinci yarısından etibarən Volqa-Xəzər ticarət yolunun aktifləşməsi beynəlxalq ticarətdə Gilan əyalətinin rolunu daha da artırmış oldu. Həştərxanda öz ticarət evlərini təsis etmiş və Moskva dövlətilə birbaşa ticarət əlaqələri qurmuş Gilan tacirləri bunun sayəsində böyük gəlir əldə etmək imkanı qazanmışdılar. Lakin 1578-ci ildə başlayan Osmanlı-Səfəvi müharibəsi nəticəsində Şirvanda möhkəmlənən Osmanlılar şimala gedən ticarət yollarını öz nəzarətinə almaqla Səfəvi-Moskva ticarət əlaqələrini və xüsusilə Xəzər dənizinin qərb sahillərilə hərəkət edən Gilan tacirlərinin bu sahədəki fəaliyyətini zərbə altına qoymuşdular. Yaranmış vəziyyətdə aydındır ki, Xəzəryanı bölgənin Moskva dövlətinin nəzarəti altına keçməsi və nəticə etibarilə bu dövlətlə vasitəçisiz, birbaşa ipək ticarətinin gerçəkləşdirilməsi Gilan hakim təbəqəsinin maraqlarını iqtisadi cəhətdən təmin edirdi. Bununla yanaşı Moskva dövlətilə yaxınlaşma və onun himayəsinə sığınma Gilanın qiyamçı hakimi Əhməd xanın ümidlərinə cavab verirdi [17, s.117].

Bu tarixi reallıqların işığında belə bir ehtimal yaranır ki, iki Xəzəryanı şəhəri Dərbənd və Bakını Moskva dövlətinə təslim etmək müqabilində Osmanlı dövləti əleyhinə ittifaqının yaradılması təklifilə Səfəvi sarayının elçisi kimi Kremldə peyda olmuş Hadı bəy Gilan hakimlərinin arzusunu ifadə etmiş və hətta onların təlimatı ilə hərəkət etmişdi. Bu ehtimalın doğruluğuna rus mənbələrindəki məlumatlar ciddi şəkildə haqq qazandırır. Yuxarıda qeyd etdiyimiz kimi, Hadı bəy ilə birgə Səfəvi dövlətinə göndərilən rus heyətinin Gilanda Xan Əhmədin adamları tərəfindən tam iki ay müddətində saxlanılmasına və paytaxt Qəzvinə yola düşməsinə müxtəlif bəhanələrlə maneçilik törədilməsinə qəzəblənən Vasilçikovun rus heyətinə qarşı edilən bu haqsızlıqlara və ya özünün ifadəsi ilə desək, törədilən *"böyük şərəfsizliklərə"* [15, s.85] cavab olaraq Hadı bəyin üzünə dediyi sözlər mülahizələrimizi doğrulayacaq mahiyyətdədir: *"Sənin (Hadı bəyin – red.) hakimin Xan Əhməd*

* 1568-ci ildə I Şah Təhmasibin qəzəbinə uğrayan Xan Əhməd Şiraz yaxınlığındakı İstəxr qalasına həbs edildi. 1578-ci ildə Şah Məhəmməd Xudabəndə tərəfindən həbsdən azad edilərək yenidən Gilanda hakimiyyətə gətirildi və hətta dostluq əlaməti olaraq I Şah Təhmasibin qızı ilə evləndirildi. Lakin bundan sonra belə o, yenidən Səfəvi sarayından üz döndərdi [28, s.261, 272; 15, s.149].

*bizim hökmdarımız çar əlahəzrətləri ilə şah əlahəzrətləri arasında qardaşlıq, dostluq və məhəbbət[in bərqərar olmasını] istəmir... biz düşünürdük ki, sən birbaşa Qızılbaş yurdundansan, sən isə Gilan torpağının adamısan.., və bizə [indi] elə gəlir ki, sən bizim hökmdarımız çar həzrətlərinə cəfəngiyat ilə gəlmisən"* [25, s.44]. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, bizim *"cəfəngiyat"* kimi tərcümə etdiyimiz söz orijinal mətndə *«безделье»* kəlməsilə ifadə olunmuşdur ki, bunun müasir rus dilindəki *"vaxtı boşuna keçirmək"* mənasından başqa, əski rus dilində istifadə olunan məhz *"yalan danışmaq, kələk gəlmək, hiylə işlətmək"* kimi mənaları var [bax: 31, s.336].

Osmanlılar əleyhinə ittifaqın bağlanmasının şərti kimi Azərbaycan şəhərlərinin Moskva dövlətinə güzəşt edilməsi təklifinin bir sövdələşmə olmasına və Səfəvi hakimiyyətinin əsl niyyətini əks etdirməməsinə dair mülahizə sonrakı, xüsusilə Gilan ilə bağlı hadisələrlə təsbit olunur. 1592-ci ilin may ayında I Şah Abbas şəxsən özünün başçılıq etdiyi ordu ilə Gilana yürüş təşkil edərək orada Səfəvi hakimiyyətini bərqərar etdikdən dərhal sonra Moskvaya göndərdiyi Hacı Xosrov adlı elçisi Kreml hakimiyyətini bu barədə məlumatlandırmış və xəbərdarlıq etmişdi ki, *"Gilan vassallıqdır, orada hökmdarımızın [Şah Abbasın – T.N.,F.H.] canişinləri oturur və indiyədək Gilanda hökmdarımızın canişini kimi Xan Əhməd otururdu"* [25, s.187]. Elçi həm də bildirmişdi ki, Xan Əhmədin osmanlılarla əlaqəyə girməsi və sonradan da Osmanlı tərəfinə keçməsi məlum olduqda I Şah Abbas Gilana Məhəmmədqulu xan adlı öz yaxın adamını təyin etmişdi. Beləliklə, bu elçiliyin əsas məramı Gilanda Səfəvi dövlətinin suverenliyinin bərpa olunması barədə şimal qonşunu xəbərdar etmək idi. Hacı Xosrovun başçılıq etdiyi bu elçilik heyəti ilə bağlı xüsusilə diqqəti çəkən məqam isə ondan ibarətdir ki, ona qədər olan diplomatik təmasların və o cümlədən, Gilana hərbi səfərin hazırlandığı ərəfədə, 1591-ci ildə Qaya adlı elçinin başçılığı ilə Moskvaya ezam olunan missiyanın* əsas müzakirə predmetlərindən olan Azərbaycan şəhərlərinin şimal qonşuya təslim olunması məsələsi bu dəfə, ümumiyyətlə, nəzərdə tutulmamışdır. Bunun səbəbi isə, zənnimizcə, ondan ibarət idi ki, Gilanda Səfəvi hakimiyyətini bərpa edib möhkəmlədikdən və nəticə etibarilə şimaldan gələn təhdidi aradan qaldırdıqdan sonra Moskva dövlətilə Azərbaycan şəhərlərinin təslimi ilə bağlı diplomatik oyunu davam etdirməyə artıq ehtiyac qalmamışdı. Halbuki Kreml sarayı bundan sonra da Azərbaycan şəhərlərinə olan iddialırından əl çəkməmiş və Səfəvi sarayına göndərdiyi diplomatik elçiliklər vasitəsilə məsələni gündəmdə saxlamağa çalışmışdı.

Səfəvi sarayının bu məsələdə uzlaşmaya gəlmədiyini görən Kremlin diplomatik dairələri nəhayət təşəbbüsü öz üzərinə götürərək hərbi ittifaqın layihəsini tərtib edib 1595-ci ildə 75 nəfərdən ibarət ehtişamlı bir elçilik heyəti ilə qızılbaş dövlətinə göndərmişdilər. Həmin müqavilə layihəsinin rus diplomatik xidməti tərəfindən həm çar Fyodor, həm də I Şah Abbasın adından tərtib olunan mətnində göstərilirdi ki, Səfəvi tərəfi rus qoşunları ilə birlikdə Dərbənd, Şamaxı və Bakı şəhərlərini osmanlılardan geri alıb Moskvaya təslim etməli və *"bundan sonra böyük hökmdar əlahəzrət şah Abbas həmin şəhərlərə müdaxilə etməməlidir"* [25, s.372]. Lakin bu diplomatik missiyanın aqibəti faciəli və rus tərəfi üçün uğursuz oldu: belə ki, heyətin böyük səfir ranqında olan rəhbərləri knyaz Vasiliy Tyufyakinin və dyak (katib) Semen Yemelyanovun hər ikisinin yolda vəfat etməsi və elçiliyin başsız qalması səbəbilə heyət üzvləri gətirdikləri sənədləri, o cümlədən müqavilə mətnini qızılbaş hökmdarına təqdim etməmək qərarına gəldilər.

Bu dövrdə Səfəvi-Moskva diplomatik münasibətlərinin təhlili göstərir ki, I Şah Abbasın qonşu şimal dövlətilə təmaslarında əsl məqsədi onunla hər-hansı bir şərtlə hərbi ittifaq bağlamaqdan deyil, neytrallaşdırmaqdan ibarət idi [17, s.121, 122]. Arxiv sənədlərinin məlumatlarını əsaslı şəkildə təhlil edən P.Buşev də I Şah Abbasın Moskva dövlətilə siyasi münasibətlərində hərbi ittifaqın yaradılması məsələsinin heç vaxtı yer almadığı qənaətinə gəlmiş və bu fikrini hətta daha qəti şəkildə ifadə etmişdir: *"Aydındır ki, o [Şah Abbas – T.N.,F.H.] nəinki uzaq və tanımadığı Avropaya, hətta daha yaxın olan Moskvaya də bel bağlamırdı və yalnız özünə güvənirdi, bir də Terek [çayı] üzərindəki sərhəddin mühafizəsində Moskva dövlətindən hansısa bir köməyə ümid edirdi"* [15, s.339, 341].

* Elçi Qayın Moskvaya ezam olunmasının əsas məqsədinin təhlilinə dair [bax: 17, s.119, 120].

Beləliklə, I Şah Abbasın siyasəti nəticəsində Səfəvi dövlətinin tədricən qüvvətlənməsi və öz mövqelərini bərpa etməsi sayəsində Osmanlılar əleyhinə ittifaqın bağlanması və onunla bağlı olan Azərbaycan şəhərlərinin təslimi məsələsi rus tərəfinin bütün cəhdlərinə və təkidlərinə baxmayaraq aradan qaldırılmışdı.

Yeni çar seçilən Boris Qodunov (1598-1605) Azərbaycan Səfəvi imperiyası ilə əlaqələri inkişaf etdirməkdə maraqlı idi. 1600-cü ildə o, hakimiyyət dəyişikliyinin iki ölkə arasındakı əlaqələrə zərər verməyəcəyin I Şah Abbasa çatdırmaq üçün knyaz Aleksey Zassekineni Səfəvi sarayına göndərdi. Rus elçisi Osmanlılara qarşı Avstriya-Macarıstan, Moskva və Səfəvilər arasında ittifaq yaradılmasının vacibliyini söyləyərək çar tərəfindən Səfəvilərə hər zaman hərbi yardım göndəriləcəyinə təminat verdi. Eyni zamanda rus çarı Səfəvi şahına elçisi vasitəsilə iki ov iti, bir ayı və iki samur göndərdi [6, s.266-267; 17, s.120-121; 4, s.292]. Rus elçisi knyaz Alekseyin yanında Boris Qodunovun taxta keçməsini təbrik etmək üçün Moskvaya göndərilən Səfəvi elçisi Pirqulu bəy Təkəli də vardı [19, s.155; 4, s.292]. Lakin Səfəvi-Osmanlı müharibəsinin başlanması, Krım tatarlarının bölgədəki fəaliyyəti və Böyük Moskva knyazlığında daxili ixtişaşların başlanması elçilərin get-gəlini çətinləşdirdiyi kimi, iki ölkə arasında siyasi və iqtisadi sahədə müqavilənin bağlanmasına mane oldu. Göndərilən elçi heyətləri dostluq və yardım vədlərini təzələmək, qarşılıqlı niyyətlərini və tələblərini bəyan etməkdən irəli gedə bilmədi. Bununla da Moskva və Səfəvi dövlətləri Osmanlılara qarşı birgə hərəkət edə bilmədilər [6, s.267-268].

### *3. 1603-1612-ci illər Səfəvi-Osmanlı müharibəsi zamanı və ondan sonrakı dövrdə diplomatik əlaqələr*

XVII əsrin əvvəllərində I Şah Abbas Osmanlı imperiyasının daxili iğtişaşlar və üsyanlar nəticəsində zəifləməsindən istifadə edərək ona qarşı müharibəyə başlamağa qərar verdi. Səfəvi şahı rus çarının yardımını əldə etmək məqsədi ilə 1603-cü ilin avqustunda öz elçisi Laçın bəyi Moskvaya göndərdi. Çar Boris Qodunov şahın hədiyyələrini qəbul etsə də, onun səmimiliyinə inanmadı [7, s.43-44; 4, s.292].

Bu zaman Moskva dövləti Osmanlı dövlətinin Almaniya və Səfəvi dövlətləri ilə müharibə aparmasından istifadə edərək Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışdı. 1603-cü ildə çar Boris Qodunov öz elçisi Yaroslavskini İsfahana göndərərək I Şah Abbasa ordularını Osmanlılar üzərinə göndərsə və onlarla hər hansı bir sülh bağlamayacağı təqdirdə ona yardım edəcəyini bildirdi [8, s.253].

I Şah Abbas öz elçisinin Moskvadan qayıtmasını gözləmədən yaranmış əlverişli vəziyyəti nəzərə alaraq Osmanlı dövlətinə qarşı müharibəyə başladı. Səfəvi-Osmanlı müharibəsinin qızğın dövründə çar Boris Qodunov Qafqazın yerli feodal hakimlərinin Osmanlıları müdafiə etməsinin qarşısını almaq üçün voyevoda Butirlin və general Pleşeyevin rəhbərliyi altında rus ordusunu Dağıstana göndərdi. Rus ordusunun Dağıstana yürüşü bilavasitə I Şah Abbasın Cənubi Qafqazda Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları gücləndirdiyi bir dövrdə başlamışdı. Moskva hökuməti bu addımı ilə Səfəvi şahı ilə danışıqları bərpa edərək Dərbənd, Bakı və Şamaxını güzəştə getməyə vadar etmək niyyətində idi [22, s.35]. Lakin rus çarının bu niyyəti özünü doğrultmadı.

İvan Butirlinin başçılığı altında 10 minlik rus ordusu 1604-cü ilin aprelində Dağıstana girərək Göysu və Tarku qalalarını ələ keçirdi. 1605-ci ilin yazında Şirvan bəylərbəyi tərəfindən göndərilən Osmanlı ordusu və topların yardım etdiyi Enderey xanı Sultan Mahmat və Adil Gərayın rəhbərliyi altında Dağıstan qüvvələri Tarkunu mühasirəyə aldı. Şəhəri boşaldaraq geri çəkilən 7 minlik rus ordusu Tarku ilə Qazıyurd arasında baş verən döyüşdə məğlub oldu. İvan Buturlin və general Pleşeyev də daxil olmaqla ruslar qılıncdan keçirildi. Sunja, Sulak və Terek çayları üzərindəki bütün qalalar Osmanlı və dağıstanlı qüvvələr tərəfindən ələ keçirilərək dağıdıldı [9, s.86; 4, s.293].

Lakin bu müddət ərzində Səfəvi ordusu Azərbaycan ərazilərini Osmanlı işğalından tamamilə azad etdi. Səfəvi şahı rus çarına göndərdiyi məktubunda Azərbaycanın Osmanlı işğalından azad edilməsi barədə məlumat verdi. Lakin çar Boris Qodunovun ölümü ilə bağlı Moskvada vəziyyət qarışdığı üçün şahın göndərdiyi məktuba cavab gecikdi [41, s.95; 6, s.268; 4, s.293]. Çar Vasili Şuyskinin hakimiy-

yəti dövründə Moskva dövlətinin daxili çəkişmələr dövrünə daxil olması ilə Səfəvi dövləti ilə qarşılqlı əlaqələrdə müəyyən çətinliklər yarandı. Çar Vasili Şuyskinin elçisi I Şah Abbasla görüşü zamanı Moskvada hakimiyyət dəyişikliyi və yeni hökumətin Həştərxanda Səfəvi tacirlərinin üsyançıların soyğunçuluğuna məruz qalmasında günahsız olduğunu bildirdi. Həmçinin Həştərxanda çar hakimiyyətinin bərpa olunduğu və şahdan gələn elçilərin Moskvaya keçməsi və lazım olan hər şeyi təmin etmək tapşırıldığı deyilirdi [11, s.164].

İki dövlət arasında əlaqələrdə fasilənin olmaması, Moskvaya münasibətdə I Şah Abbasın xarici siyasət xəttinin qorunub saxlanması, onun anti-Osmanlı yönümlü olması ilk dəfə tarixşünaslıqda T.K.Korayev tərəfindən əsaslandırılmışdır [bax: 20, s.182]. Bu nöqteyi-nəzərlə razılaşmaq olar ki, onu Moskva dövləti üçün çətinliklər dövründə Səfəvi dövlətinin xarici siyasət istiqaməti öz aktuallığını itirmir. Ancaq Səfəvi-Moskva münasibətləri çətinliklər dövründə birtərəfli xarakter alır, çünki səfirliklər yalnız I Şah Abbas tərəfindən göndərilirdi [33, s.11]. Çətinliklər dövründə Səfəvi dövləti ilə Moskva arasında münasibətlərin kəsilməsi və ya saxlanması məsələsinin özü əhəmiyyət kəsb edirmi? Fikrimizcə, daha önəmlisi və doğrusu, XVII əsrin əvvəllərində Moskva dövlətinin xarici siyasətində Səfəvi vektorunun davamlılığının qorunub saxlanması məsələsidir [11, s.161].

Həqiqətən də, Səfəvi dövləti tərəfindən iki dövlət arasında qarşılıqlı əlaqələrdə heç bir fasilə özünü göstərməmişdi. 1608-ci ilin fevralında I Abbas öz elçisi Əli bəyi Moskvaya göndərdi. Elçi qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu: Rusiyadakı vəziyyətlə tanış olmaq, Moskva tərəfindən kəsilən diplomatik əlaqələri və ticarəti bərpa etmək, ruslardan Terek, Sunja və Göysu çayları boyunca Səfəvi ordusunun arxa cəbhəsində təhlükəsizliyi təmin etmək üçün Osmanlı dövləti ilə müharibədə kömək istəmələrini xahiş etmək. Elçi heyəti şah qoşunları tərəfindən Osmanlı əsirliyindən azad edilmiş rus əsgər və zabitlərini təhvil verməli idi. Lakin Səfəvi elçisi Moskva yaxınlığında tutuldu və II Yalançı Dmitrinin əsgərləri tərəfindən qarət edildi. Fırıldaqçı ordusu paytaxtdan qovulduqdan sonra Səfəvi elçisi 1613-cü ilin yazına qədər Nijni-Novqorodda saxlanıldı. 1613-cü ildə Romanovlar sülaləsinin hakimiyyətə gəlməsi ilə elçi Moskvaya dəvət edildi və çar Mixail Fedoroviç (1613-1645) tərəfindən qəbul edildi [13, s.146]. Lakin I Şah Abbasın elçisinin Moskvaya göndərildiyi andan keçən beş il müddətində hər iki ölkədə daxili siyasi vəziyyət elə dəyişdi ki, elçi Əli bəyin qarşısında qoylan vəzifələr öz aktuallığını itirdi. Belə ki, 1612-ci ildə Səfəvi şahı Osmanlı dövləti ilə müharibəni zəfərlə başa vurdu və uğurlu sülh müqaviləsi bağladı, Moskva dövləti isə on illik daxili təlatüm və xarici müdaxilədən sonra bərbad vəziyyətdə idi. Nəticədə səfirlik keçmiş dostluq münasibətlərinin bərpası ilə məhdudlaşdı, Romanovlar sülaləsinin taxt-taca çıxmasının qanuniliyini tanıdı [13, s.146; 4, s.293].

1612-ci ildə Səfəvi və Osmanlı dövlətləri arasında İstanbul müqaviləsinin bağlanmasından sonra I Şah Abbas Dağıstan və Gürcüstanla bağlı fəal siyasət yeritməyə başladı. O, 1615-ci ildə Kaxetidə baş verən üsyanı yatırdı və Şamaxıdan Dağıstan və Şimali Qafqaz hakimlərinə itaət göstərmələri üçün nümayəndə göndərdi. Bu dövrdə beynəlxalq münasibətlər rus çarının xeyrinə deyildi. O, qərbdə Polşa və İsveçlə, cənubda isə Krım xanlığı ilə müharibə vəziyyətində idi. Buna görə də, Səfəvilərlə münasibəti gərginləşdirmək istəmirdi. Polşa və İsveçlə müharibədə dağıdılmış təsərrüfatı bərpa etmək üçün xeyli vəsait tələb olunurdu. Buna görə də, Moskva hökuməti Səfəvi dövləti ilə ticarətə böyük ümid bəsləyirdi [4, s.294-295].

I Şah Abbasın Azərbaycan və Şərqi Gürcüstanı Osmanlı işğalından azad etməsindən sonra Böyük Moskva knyazlığı ilə qonşu olmasını nəzərə alan rus çarı I Mixail Səfəvi dövləti ilə dostluq əlaqələri yaradılmasına xüsusi əhəmiyyət verirdi. 1614-cü il yanvarın 30-da o, hakimiyyətə keçməsini xəbər vermək və iki dövlət arasında siyasi münasibətləri bərpa etmək üçün M.N.Tixonovu Səfəvi sarayına göndərdi. Elçi heyəti Türküstan üzərindən Məşhədə gəldi, lakin I Şah Abbas bu zaman Qafqazda olduğu üçün rus elçisi oraya hərəkət etməli oldu. 1614-cü il dekabrın 14-də I Şah Abbas Qızılağacdakı ordugahında rus elçisini qəbul etdi. Rus elçisini səmimi qarşılayan Səfəvi şahı Romanov xanədanının şərəfinə xoş sözlər söylədi: “Mənim böyük qardaşım rus çarına de ki, əgər pul və hərbi qüvvə lazımdırsa mən ona verməyə hazı-

ram. Əgər ehtiyac olarsa mən də çəkinmədən ondan istəyəcəyəm" [41, s.96; 6, s.268-269; 4, s.295]. Rus elçisi M.N.Tixonov iki dövlət arasında Səfəvi-Osmanlı müharibəsi zamanı kəsilmiş olan dostluq əlaqələrini bərpa etməyə çalışdı. Səfəvi dövləti bu məsələyə ciddi əhəmiyyət verməsə də, Moskva knyazlığına hərbi və maddi yardım göstərməyə hazır olduğunu bildirdi, əvəzində isə Krım xanının Şimali Qafqaza və Azərbaycana yürüşlərinə mane olmaq üçün rusların Göysu çayı üzərində qala tikərək qarnizon yerləşdirilməsini xahiş etdi [28, s.47; 22, s.357]. Bir müddət sonra rus elçisinin geri dönməsinə icazə verildi. 1615-ci il yanvarın 28-də M.N.Tixonov Səfəvi şahının elçisi Polad bəylə birlikdə Moskvaya qayıtdı. Səkkiz aydan sonra Moskvaya çatan I Şah Abbasın elçisi Polad bəy 1615-ci il avqustun 14-də rus çarı tərəfindən qəbul edildi. I Şah Abbas elçisi vasitəsilə Azərbaycan ərazilərinin Osmanlı işğalından azad edildiyini xəbər verərək, iki dövlət arasında ticarət əlaqələrini inkişaf etdirmək üçün ciddi əngəllər aradan qaldırıldığına görə çardan rus tacirlərini ticarət aparmaq üçün göndərməsini istəmişdir [6, s.271-272].

1616-cı ildə Osmanlı dövlətinin Səfəvilərə qarşı yeni müharibəyə başlaması ilə şimal sərhədlərinin təhlükəsizliyi məsələsi yenidən gündəmə gəldi. Səfəvi hökuməti şimal sərhədlərinin təhlükəsizliyini Rusiyanın Göysu və Sunj çayları üzərində müdafiə qalalarını möhkəmləndirməsi hesabına əldə etmək niyyətində idi. Lakin Moskva dövlətinin xarici siyasi vəziyyəti bu tədbirin həyata keçirilməsinə imkan vermədi [4, s.295-296].

Qeyd etmək lazımdır ki, I Şah Abbas Osmanlılara qarşı Qafqazda müharibə apardığı zaman Səfəvi tacirləri Həştərxanda rus qarətçilərinin əlinə keçmişdi. Bundan xəbər tutan rus çarı dərhal İvan Brixov adlı elçisini türkcə yazılmış məktubla I Şah Abbasın yanına göndərmişdir. 1615-ci ilin oktyabrında Tiflis yaxınlığında rus elçisini qəbul edən I Şah Abbas rus çarının düşmənləri ilə heç bir əlaqə yaratmayacağına təminat vermişdi. Bu hadisədən bir neçə il sonra gürcü şahzadələrindən biri I Şah Abbasa qarşı rus çarından himayə və kömək tələb etdiyi üçün I Şah Abbas bundan çox qəzəblənmiş və iki dövlət arasında əlaqələrin kəsilməsi barədə əmr vermişdi. Lakin rus çarı buna razı olmadığı üçün iki dövlət arasındakı gərginliyi aradan qaldırmaq və Polşa ilə müharibəni başa çatdırmaq üçün maliyyə yardımı almaq məqsədi ilə öz elçisini Səfəvi sarayına göndərdi [6, s.269-270; 4, s.295].

Polşa ilə müharibəni davam etdirən rus çarına hərbi silah və sursat almaq üçün böyük maliyyə vəsaiti tələb olunurdu. Buna görə də Səfəvi sarayına göndərilən rus elçiləri Leontiyev və Baryatinski şahdan maliyyə yardımı almağa çalışdı. 1617-ci ilin sonlarında rus elçisi Leontiev şahdan 7 min gümüş pul ala bildi ki, bu da rus çarını təmin etmədi [30, s.48; 4, s.295-296].

1618-ci ilin payızında Polşa ilə müharibəni başa çatdırmaq üçün maliyyə yardımı almaq məqsədi ilə knyaz M.Baryatinski Səfəvi sarayına göndərildi. Xəzər dənizi yolu ilə Dərbəndə gələn rus elçisi Şirvandan keçərək Ərdəbilə və oradan da Qəzvinə gəlmişdir. 1618-ci il noyabrın 14-də şəhər meydanında Səfəvi şahı tərəfindən qəbul edilən rus elçisi gətirdiyi hədiyyələri ona təqdim etmişdir. I Şah Abbasla görüşən elçi rus çarı adından maliyyə yardımı göstərilməsini xahiş etmiş, əvəzində Səfəvi tacirlərinin Həştərxanda toxunulmazlığına təminat vermişdir. I Şah Abbas rus elçisinə verdiyi cavabda iki ölkənin yaxın qonşu olduğunu və bu qonşuluqda araya nifaq salacaq üçüncü bir ölkəyə (Gürcüstan nəzərdə tutulurdu – T.N., F.H.) ehtiyac olmadığını söylədi. Maliyyə məsələsində I Şah Abbasın tərəddüd etdiyini başa düşən rus elçiləri şahın hüzurundan könülsüz ayrıldılar. 1619-cu ilin sentyabrında rus elçisi Gilan yolu ilə geri qayıtdı. Bununla belə, rus təbəələrinə Səfəvi ərazisində ticarət aparmağa icazə verildi [42, s.96-97; 4, s.296-297]. İsgəndər bəy Münşi təsdiq edir ki, 1618-ci ildə "... o uca sülalənin əmir və knyazlarından ibarət böyük bir elçi heyəti Xəzər dəryası və çöllərindən keçərək Şirvanın Dərbəndinə gəldi və hümayun şah məiyyətinin ardınca Ərdəbildən çıxıb Qəzvin darüssəltənəsinə çatdı. O elçi də, səadət meydanında şahla görüş səadətinə yetişdi və mütərcim vasitəsilə padşah tərəfindən özlərinin ehtiyac xahişini və möhkəm birlik istəyini ərz edərək türk dilində uzun bir məktubu şaha təqdim etdi" [3, s.1674; 4, s.297].

Bu dövrdə rus çarı ilə I Şah Abbas arasında diplomatik əlaqələr daha da gücləndi. Moskva dövlətinin nüfuzunun getdikcə artması rus çarı-

nı Səfəvi sarayına göndərilən elçilərin artmasında da özünü büruzə verdi. Belə ki, 1614-1618-ci illər arasında Moskva səfirləri Brexov, Afanasyev, Şaxmatov, Leontiyev, Timofeyev və Baryatinski elçi kimi I Şah Abbasın sarayına göndərilmişdi [29, s.99; 4, s.296].

1617-ci ildə Osmanlı ordusunun Azərbaycana növbəti yürüşü zamanı Şimali Qafqaz yolunun bağlanılması məsələsi Səfəvi dövləti qarşısında öz kəskinliyi ilə yenidən ortaya çıxdı. Bu məsələnin həlli Moskva ilə Osmanlı dövləti arasında münasibətləri daha da pisləşdirsə də, Moskva hökuməti Səfəvi dövləti ilə əlaqələri möhkəmləndirməkdə maraqlı olduğu üçün şahın xahişini yerinə yetirmək qərarına gəldi. Çünki Osmanlı dövlətinin Xəzər dənizi sahillərində və Şimali Qafqazda möhkəmlənməsi Moskvanın maraqlarına tamamilə zidd idi. Rus tacirlərinin Azərbaycanla ticarət əlaqələrinə zərbə vura bilərdi. Osmanlı dövlətinin bölgədə öz mövqeyini möhkəmləndirməsi nəinki Səfəvi imperiyasının, eyni zamanda öz təsirini cənuba doğru genişləndirmək və regionda iqtisadi və siyasi mövqeyini möhkəmləndirməyə çalışan rus çarının maraqlarına cavab vermirdi. Tezliklə Moskva dövlətinin Sunj və Göysu çayları üzərində möhkəmləndirilmiş müdafiə sistemini inşa edərək Azərbaycana uzanan Şimali Qafqaz yolunu nəzarət altına alması, Osmanlı ordusunun və Krım tatarlarının şimaldan Səfəvi imperiyasına hücumlarının qarşısını kəsmiş oldu [4, s.296].

Göründüyü kimi, Azərbaycan torpaqlarının Osmanlı işğalından azad edilərək Səfəvi imperiyasının sərhədlərinin bərpa edilməsindən sonra rus çarının Şimali Qafqazdakı rus qalalarını bərpa etməsinə Səfəvi şahı etiraz etmədi. Məhəmməd Tahir Vahidin verdiyi məlumata görə, I Şah Abbas dövründə Səfəvi dövləti ilə Moskva knyazlığı arasında əlaqələr yaxşı olmuş, bu iki dövlət arasında daimi səfirlik mübadiləsi həyata keçirilmiş və Səfəvi şahları bir qayda olaraq buna riayət etmişlər [43, s.55; 1, s.41]. A.Y.Şpakovskinin yazdığı kimi, bu iki dövlət arasındakı səfirlik mübadiləsində ənənəvi bir fikrə rast gəlirik: “Atalar və babalar kimi dost olaq, bir-birimizə məhəbbətlə yanaşaq, düşmənə qarşı birlikdə dayanaq”. Moskva knyazlığının Səfəvi dövləti ilə diplomatik əlaqələri məhz Osmanlı dövlətinə qarşı yönəlmişdi. Buna görə də, həmişə səfirlərə verilən tapşırıqlarda Osmanlı-Səfəvi münasibətlərinin öyrənilməsi tələb edilirdi. Həm də Moskva səfirləri Səfəvi sarayında Moskva dövlətinin qüdrətli və güclü olması haqqında fikir yaratmalı və bunu onlara təqdim etməli idilər [37, s.20, 21; 1, 41-42].

XVII əsrin əvvəllərində I Şah Abbasın Osmanlı dövlətinə qarşı hrbi əməliyyatlarda əldə etdiyi uğurlar Moskvanı narahat etdiyi üçün Səfəvi sarayına ardıcıl olaraq göndərilən elçiləri vasitəsilə bunu şaha çatdırırdı. Şübhə yoxdur ki, Osmanlı imperiyası ilə müharibə aparan I Şah Abbasa rus çarı ilə münasibətləri inkişaf etdirmək tələb olunurdu. Üstəlik də Gürcüstana yürüş zamanı gürcü çarı Teymuraz Moskvaya müraciət edərək çara onu öz himayəsi altına almasını istəmişdi. Çar Mixail Fyodoroviç bu xahişi böyük məmnuniyyətlə qəbul etməklə, həm də Səfəvilərə bəzi ciddi mesajlar vermişdi. Münasibətləri korlamaq istəməyən və Moskva dövlətini müəyyən müddətə neytrallaşdırmağa çalışan I Şah Abbas 1622-ci ildə Gürcüstanın və Teymurazın sonrakı taleyi ilə bağlı danışıqlar zamanı rus elçilərinə onda İsa peyğəmbərə aid müqəddəs xitonun olduğunu söyləyir. Əlbəttə ki, bu, gərgin vəziyyəti müəyyən qədər yumşaltmaq, Moskvanı hələlik neytrallaşdırmaq məqsədilə atılmış bir addım idi. 1625-ci ilin martında Səfəvi elçisi Rusan bəylə Polad bəy rizəni I Şah Abbasın patriarx Filaretə və onun oğlu çar Mixail Fyodoroviçə hədiyyəsi kimi Moskvaya gətirir [36, s.27; 4, s.297]. Bu, balaca bir qutunun içərisində bir az qızartdaq, solğun, çox köhnə olduğu ilk baxışda adi görünən parça idi. Göz yaşları içərisində rizəni öpərək qəbul edən çar Mixail Fyodoroviç və atası mitropolit Filaret Nikitiç onu kilsədə xüsusi hazırlanmış yerə qoyurlar və bundan sonra çar müqəddəs hədiyyənin əvəzində minnətdarlıq əlaməti olaraq Səfəvi şahına çoxlu hədiyyələr göndərir. Səfəvi elçisi Rusan bəylə birlikdə knyaz Qriqori Tyufyakin, Qriqori Feofilatov və Panov I Şah Abbasın sarayına yola salınır [36, s.27-28; 4, s.297]. Beləliklə, I Şah Abbasın hədiyyəsi iki dövlət arasında münasibətlərin yaxşılaşmasına şərait yaratdı.

### 4. Azərbaycan Səfəvi imperiyasının Moskva dövləti ilə ticarət əlaqələri

Səfəvi dövləti ilə Böyük Moskva knyazlığı arasında qarşılıqlı münasibətlərin əsas siyasi mövzusunu osmanlılara qarşı birgə mübarizə aparmağın yollarının müzakirəsi təşkil etsə də, hər iki dövlət iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə böyük əhəmiyyət verirdi. Dövlət səviyyəsində qurulan ticarət münasibətlərində hədiyyələr xüsusi yer tuturdu. Hədiyyələr mübadiləsində əsas məqsəd hökmdarların saray ehtiyaclarını zəruri mallarla ödəməkdən ibarət idi. Məhz buna görə də, hər iki dövlət bir-birinə göndərdiyi səfirliklərin tərkibində hökmən ticarət dairələrinin təmsilçiləri də olurdu. İki dövlət arasında hədiyyələr mübadiləsi formasında ticarət əməliyyatları aparan tərəflər öz mallarını topdansatış qaydada dəyişməyə daha çox üstünlük verir, bu yolla daha çox qazanc əldə etməyə çalışırdılar. Böyük Moskva knyazlığı ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirən I Şah Abbas Moskva sarayına ünvanlanmış fərmanlarla rus çarından ona göndərdiyi hədiyyələrin əvəzinə qiymətli mallar verilməsi və Səfəvi tacirlərinə yardım göstərilməsi xahiş edilirdi [41, s.66]. Bəzən elə olurdu ki, çar məmurları tərəfindən ədalətli qiymət qoyulmadığına görə Səfəvi tacirləri Moskvaya apardıqları hədiyyələri geri qaytarmağa məcbur olurdular. Buna görə də, Səfəvi elçilərinin Moskvaya apardıqları hədiyyələrin rus tacirlərinə deyil, çar xəzinəsinə vermək və əvəzində eyni dəyərdə hədiyyələr almaq daha sərfəli idi. I Şah Abbasın Moskvaya elçisi Hadi bəylə birlikdə göndərdiyi tacir Əli Xosrov çara apardığı hədiyyələri təqdim edəndə ona bildirildi ki, malların yaxşıları xəzinə üçün seçilib götürüləcək, yerdə qalan mallar isə tacirlərə satıla bilər. Lakin o, bu təklifi qəti şəkildə rədd edərək bildirmişdi: “Əlahəzrət şah məni buraya ticarət etmək üçün göndərməmişdir. O, bütün bəxşişlərin çar xəzinəsinə verilməsini buyurmuşdur. Hökmdar buyururdu ki, hədiyyələrin əvəzinə çar xəzinəsindən başqa heç kimlə alış-veriş etmə, əgər hamısını götürməsələr, geri qaytar, hamısını götürsələr – ver, satma. Alver etmək olmaz” [38, s.35; 5, s.274]. Bu, Səfəvi tacirlərinin hədiyyə mübadiləsində şahın göstərişlərini dəqiqliklə yerinə yetirdiyini göstərir.

I Şah Abbasın rus çarlarına ünvanlanmış rəsmi məktublarında onun tacirlərinə sarayı üçün lazım olan malların alınmasına kömək göstərilməsi, zəruri malların gömrüksüz idxal-ixracına icazə verilməsi xahiş olunurdu [25, s.226-227; 38, s.37]. Səfəvi tacirlərinin gömrüksüz ticarətinə o halda icazə verilirdi ki, həmin malların Səfəvi hökmdarına aid olmasını təsdiq edən şah fərmanı olsun. Xəzinə ticarətinin üstünlüyü onda idi ki, hökmdarın göndərdiyi elçiliyin tərkibində xəzinə malları aparan tacirlər xüusi qaydada gedən tacirlərdən fərqli olaraq gömrük qüsumlarından azad edilirdilər. Belə ticarət mübadiləei zamanı hər iki hökumətin səfirləri apardıqları malları sərhəddən gömrüksüz keçirməyə səy göstərir, sərhəd məntəqəsindəki məmurlar isə digərinin mallarına rüsum qoymağa çalışırdılar. Səfəvi gömrük məntəqələrində adətən səfirlərin gətirdikləri hədiyyələr və mallar yoxlanılırdı, ancaq rüsum alınmırdı. Ticarət adamlarının və rəsmi hökmdar sənədi olmayan nümayəndələrin malları üzərinə gömrük rüsumu qoyulurdu. 1623-cü ildə rus çarı Mixail Romanovun xəzinə malı ilə Səfəvi dövlətinə göndərdiyi tacir Fedot Kotov yazırdı ki, Kür çayı üzərindəki körpüdən keçən hər dəvə yükünə görə iki abbası rəhdari ödənilirdi [35, s.63, 73; 5, s.276]. Görünür, Kotov xəzinə malı aparsa da, xüsusi elçi statusuna malik olmadığına görə apardığı malın tərkibində Səfəvi şahına hədiyyələr olmadığına görə Cavadda rəhdari rüsumu ödəmişdi. Tacir belə bir sənədə malik olsaydı, ondan gömrük rüsumu, sözsüz ki, alınmazdı.

Səfəvi səfirləri də Moskva dövlətinə gətirdikləri şah mallarına və hədiyyələrə görə gömrük rüsumu ödəmirdilər. Ancaq Moskvanın prikaz məmurları çalışırdılar ki, heç olmasa, malların adlarını və bağlamaların sayını qeyd etdirsinlər. Məqsəd gömrüksüz ticarətin həddini müəyyənləşdirmək və xüsusi imtiyazların tətbiqini yalnız xəzinə malları ilə məhdudlaşdırmaq idi. I Şah Abbas və çar Mixail Romanov dövlətlərinin iqtisadi maraqlarına uyğun olaraq, iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün zəruri olan bütün tədbirləri görürdülər. Mixail Romanov 1615-ci ildə I Şah Abbasa yazırdı: “Sizin gilanlı Hacı Murtuzaya, bizim böyük rus dövlətində sizin üçün istənilən qədər rüsumsuz mal almağa imkan vermişik” [16,

s.98; 5, s.278]. Çar Mixail Romanov öz ölkəsində Səfəvi tacirləri, xüsusilə şahın göndərdiyi hədiyyə və məhsulları gətirən səfir və tacirlər üçün güzəştli iqtisadi şərait yaratmağa çalışırdı. Bu məqsədlə o, 1618-ci ildə Həştərxan və Kazan voyevodalarına fərmanlar göndərmişdi. Həmin çar fərmanında səfirlər vasitəsilə göndərilən şah malları ilə ticarətin hökmən rüsumsuz aparılması qanuni tələb kimi irəli sürülmüş və bildirilmişdi ki, bundan sonra da şahın fırmanı olan Səfəvi tacirlərindən rüsum alınmayacaqdır [38, s.38; 5, s.279].

Qeyd etmək lazımdır ki, hər iki tərəfdən rüsumsuz ticarət hüququndan yalnız şahın və çarın səfirləri, hökmdarın malları ilə ticarət edənlər, yaxud, saraya yaxınlığına görə belə bir imtiyaz əldə edən tacirlər yararlana bilirdilər. Rüsumsuz ticarət mübadiləsi, təbii ki, Səfəvi və Moskva hökmdarları üçün çox faydalı idi. Ancaq rüsumsuz ticarət hüququ daimi olmayıb müəyyən müddət üçün nəzərdə tutulurdu. Belə ticarətin faydalı olduğunu görən Moskva hökuməti bəzi malların sərbəst şəkildə ayrı-ayrı tacirlər tərəfindən Səfəvi ölkəsinə ixracını qadağan etmiş, həmin mallar azad ticarət dövriyyəsindən çıxarılmışdı. “Fərmanlı mallar” adı daşıyan məhsullar üzərində dövlət xəzinəsinin inhisarı elan olunmuşdu. Çar Mixail Romanov 23 may 1618-ci ildə knyaz M.Baryatinski, zadəgan İ.Çiçerin və dyak (mirzə) M.Tyuxindən ibarət nümayəndə heyətini maliyyə yardımı almaq məqsədilə Səfəvi sarayına göndərən zaman elçi heyətinin rəhbəri knyaz M.Baryatinskiyə tapşırmışdı ki, “Hamıya tapşırılsın və özün də möhkəm nəzarət et ki, heç bir ticarət adamı qadağan olunmuş malları özü ilə götürməsin və sən də şahın yanına gedəndə heç bir şunqar, şahin, qırğı və başqa quşlar götürmə” [38, s.39-40; 5, s.279-280].

Çar Mixail Romanovun Həştərxan voyevodası knyaz Prozorovskiyə göndərdiyi 1621-ci il 7 yanvar tarixli fərmanında ixracı qadan olunmuş malların uzun siyahısı verilmişdir. Fərmanda deyilirdi: “Bizim fərman sizə çatan kimi Həştərxanda olan bütün rus ticarət adamlarına belə bir sərancam verin ki, Həştərxana alış-veriş üçün gələn şah səfirlərinə və ticarət adamlarına adi qırğını, vəhşi quşları, kərkincəkləri, dələ və vəhşi sincabları və qırmızı tülküləri baha qiymətə satsınlar, ucuzlaşdırmasınlar. Şunqar, şahin və ağ qırğıları, samur və diri samurları, tülkü və diri vaşaqları qətiyyən satmasınlar. Çünki həmin heyvanlar və quşlar bizdən şaha hədiyyə kimi göndərilir, onları ucuz tutmaq olmaz və bizim dövlətdən həmin heyvanlar və quşlar şaha başqa cür verilə bilməz” [38, s.40-41; 5, s. 280-281].

Səfəvilərin ehtiyac duyduğu bir çox malların ixracının çar tərəfindən qadağan olunması I Şah Abbası narazı salmışdı. Buna görə də, I Şah Abbas 1622-ci ilin sentyabr ayında Həştərxan voyevodasına göndərdiyi türkcə fərmanda ticarət nümayəndələrinə lazımi malların alınmasına maneçilik törədilməsinə imkan verilməməsini, öz nümayəndəsi mazandaranlı Ağa Həsənin tələb olunan malları almasına imkan yaradılmasını diqqətə çatdırmışdı: “Biz bir-birimizə müjdə ilə elçilər göndəririk və indi yüksək taxt-tac padşahı ilə aramızda – əvvəlkindən də yaxşı – dostluq və qardaşlıq yolu keçibdir. Bu birlik sayəsində bizim tacirlərimiz daim maraqlandığımız malları və hər cür əşyaları almaq üçün onun ölkəsinə gəlirlər. İndi də bizə belə söz-söhbətlər gəlib ki, vaxtaşırı müəyyən adamlar maneçilik tərədirlər, sifariş etdiyimiz malları və hər cür əşyaları almaq mümkün olmur. İndi biz şahımızın taciri, gözəl əxlaqlı, etibarlı mazandaranlı Ağa Həsəni göndəririk. Şücaət mərkəzi, qüdrət sığınacağı – yüksək taxtlı xeyirxah padşahla dostluğumuz həmişəkindən daha güclü olduğuna görə – yuxarıda adı çəkilən taciri lazım olan hər şeylə təmin etməli, onu müşayiət etməli və heç bir halda [bu əmrləri] laqeyd qoymamalı ki, tacir ən yaxşı malları və hər cür şeyləri əldə edə bilsin, lazım olduğu zaman evə qayıda və döndükdən sonra şücaət mərkəzinin hərəkətlərindən məmnunluğunu bildirsin” [37, s.29, 30]. Səfəvi şahının fərmanından da görünür ki, iki dövlət arasında dostluq münasibətləri son dövrlərdə daha da möhkəmləndiyinə görə bu cür hallar yol verilməzdir.

Qeyd etmək lazımdır ki, çar Mixail Romanovun qoyduğu qaydaya görə, Səfəvi tacirlərinə ancaq Həştərxan və Kazan şəhərlərinə sərbəst şəkildə daxil olmaq hüququ verilmişdi. Bu qayda pozulduqda Moskva ticarət nümayındələri dərhal öz dövlətlərinə bu haqda məlumat verirdilər. Görünür, Moskva dövlətinin bu qaydası rus tacirlərinin maraqlarını müdafiə etməsindən irəli gəlirdi. 1627-ci ilə aid şikayət ərizəsində

Moskva ticarət nümayəndələri öz hökumətlərindən xahiş edirdilər ki, Qızılbaş və Buxara tacirləri Həştərxan və Kazan şəhərlərindən başqa dövlətin içərilərinə buraxılmasınlar. Moskva hökuməti müvafiq sərəncam vermişdi: "Həmin tacirlər Həştərxan və Kazandan başqa heç bir şəhərə və Moskvaya buraxılmasınlar" [25, s.287, 288; 5, s.283]. Ancaq buna baxmayaraq, zəruri hallarda Səfəvi ölkəsindən gələn səfir və elçilərə dövlətin daxili şəhərlərinə, hətta Moskvaya sərbəst hərəkət etməyə icazə verilirdi. Bu zaman səfirə xüsusi etimadnamə təqdim edilirdi. Moskvaya qədər bütün voyevodalara tapşırılırdı ki, onların hərəkətinə mane olmasınlar [38, s.30].

I Şah Abbas dövründə Səfəvi dövlətindən rus çarına hədiyyələr şəklində göndərilən və ümumi qaydada Moskva dövlətinə ixrac edilən mallar içərisində ipək parçalar – zərbaft, zərxara, atlas, kemxa, kisəyi, tafta, darayi, maral dərisi, yapıncı, bez, pambıq, neft, boyaq, müxtəlif boyalı və işləməli ipəklər, qızılbaş məxməri, yun və ipək xalçalar, qızıldan və parçadan qurşaqlar, qızıl və gümüşlə bəzədilmiş qumaş belbağı, üzərində qatar-qatar mirvari düzülmüş örtüklər, rəhgli iplik, süzgəcli bardaq, kasalar, qiymətli daşları olan müztəlif üzüklər, qotazlar, kamanlar, yəhərlər, yüyənlər, qılınclar, polad tiyəli xəncərlər, yumşaq dərilər, qədəh və boşqablar, daraqlar, hil, sarıkök, ənlik, göy kağızlar, təbil, billurlar, saroçin darısı (çəltik) və s. əsas yer tuturdu [25, s.129-131, 157, 167; 26, s.417-418, 443]. Səfəvi tacirləri və onların gətirdikləri mallar ilk gəldikləri Həştərxanda gömrük nəzarətçiləri tərəfindən yoxlanılır və qeydiyyata alınırdı. Səfəvi tacirləri öz malları ilə birlikdə Həştərxanda "Gilan" adlanan karvansara tipli rastbazarda yerləşirdilər. Belə rastbazarlardan biri Moskva şəhərində fəaliyyət göstərirdi. 1628-ci ildə Moskva hökuməti Həştərxan voyevodasına belə bir tapşırıq vermişdi: "Həştərxana öz məhsulları ilə gələn Qızılbaş, Buxara və Gilan ticarət adamlarını "Gilan" və "Buxara" rastbazarlarında yerləşdirin. Onların həmin bazarlardan başqa yerdə mal saxlamağa və ticarət etməyə icazə verilməsin" [34, s.42]. XVII əsrin ilk onilliklərində Moskva dövlətindən Səfəvi ölkəsinə hədiyyələr və sərbəst ticarət qaydasında mal ixracında müxtəlif ov quşları və xəzli heyvanlar üstünlük təşkil etmişdi [38, s.47].

***Nəticə***

Beləliklə, Azərbaycan Səfəvi imperiyasının Böyük Moskva knyazlığı ilə qaşılıqlı əlaqələrinin təhlili göstərir ki, XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvi dövlətinin məruz qaldığı işğallar və düçar olduğu ağır şəraitdə Səfəvi hökmdarı şimaldan gələn real təhlükə qarşısında düşünülmüş siyasət yürüdərək diplomatik vasitələrlə bu təhlükəni neytrallaşdırmaq və aradan qaldırmaq və iqtisadi əlaqələri inkişaf etdirmək məqsədini güdürdü. Və tarixi proseslərin gedişatı bu siyasətin uğurla nəticələndiyini göstərdi.

I Şah Abbas dövründə Səfəvi imperiyası ilə Moskva dövləti arasındakı siyasi və iqtisadi əlaqələr Osmanlı imperiyasının regionda yeritdiyi siyasətlə bilavasitə sıx bağlı olmuşdu. Rus çarının Osmanlılara qarşı düşmən münasibəti və onların Cənubi Qafqaz hüdudlarından qovulmasında maraqlı olması Səfəvi şahını Moskva dövlətini bu münaqişəyə cəlb etməyə vadar etmişdi. Lakin Moskva dövləti daxili və xarici siyasətin mürəkkəbliyi üzündən o dövrdə güclü olan Osmanlı imperiyası ilə birbaşa hərbi toqquşmaya cəsarət etmədi. Eyni zamanda yaranmış şəraitdə öz şansını itirmək istəməyən Moskva dövləti Səfəvi imperiyasını hər vəchlə Osmanlı imperiyasına qarşı müharibəyə təhrik edərək, ona hərbi yardım göstərəcəyinə vədlər verməkdən çəkinmədi. İki dövlət arasında uzun sürən üzücü danışıqlar heç bir nəticə vermədiyi kimi, I Şah Abbas Moskva dövlətinin heç bir yardımı olmadan Osmanlılar üzərində tam qələbə qazanaraq işğal olunmuş Azərbaycan ərazilərini azad etməyə nail oldu.

**Ədəbiyyat siyahısı**


1. Həsənəliyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyət illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı, Elm, 2011.
2. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi. Fars dilindən tərcümə t.e.d. Ş.F. Fərzəliyevindir. I Kitab. Bakı, 2010.
3. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab. Fars dilindən tərcümə t.e.d. Ş.F.Fərzəliyevindir. Bakı, Şərq-Qərb, 2014.

4. Nəcəfli H.T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı: Turxan NPB, 2020.

5. Süleymanov M.N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2012..

6. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Berikan Yayınevi, Ankara, 2013, s.268.

7. Kurat N.A. Rusiya tarihi. Başlangıçdan 1917-ye Kadar. Ankara, Türk Tarih Kurumu Basımevi, 1993.

8. Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1578-1612). İstanbul, 1993.

9. Sadık M. Bilge. Osmanlı devleti ve Kavkasya. Eren Yayınçılık, İstanbul, 2005.

10. Алиев М.Ф. Азербайджано-русские отношения (XV-XIX вв.). часть I, Баку, «Элм», 1985.

11. Андреев А.А. Шах Аббас и русская Смута: дискуссия в историографии о развитии российско-иранских отношений // Новое прошлое / The New Past, 2021, № 4, с. 156-173.

12. Ашурбейли Б.С. История города Баку. Баку, Элм, 1992.

13. Базиленко В.И. Православная Россия и шиитский Иран: по страницам истории отношений (XVI – нач. XX вв.). //Христианское чтение №2 (37), 2011, с. 139-185.

14. Белокуров А.С. Сношения России с Кавказом 1578-1613 гг., Выпуск 1, Москва Университетская типография, Страстной бульвар, 1889.

15. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. (по русским архивам) Изд. «Наука». Москва, 1976.

16. Бушев П.П. История посольства и дипломатических отношений Русского и Иранского государства. 1613-1621 гг. (по русским архивам). Москва: Наука, 1987

17. Гусейн А.Ф. К вопросу об обещании шаха Аббаса I уступить Московсуому государству Дербент, Баку и Шемаху. Вопросы истории, 2010, № 9, с.113-124.

18. Карамзин М.Н. История Государства Российского, том X. Санкт-Петербург, Типография Н.Греча, 1824.

19. Книга Орудж-бека Байата. Дон-Жуана Персидского. Перевод с английского, введение и коментарии д.и.н. Октая Эфендиева, к.и.н. Акифа Фарзалиева. Баку, Элм, 1988.

20. Кораев К.Т. Московская Русь и Сафавидский Иран в Прикаспии XVI-XVII вв: Соседство, соперничество, сосуществование // Исторический вестник, 2015, № 11 (158), с.154-199.

21. Кортунов А. Борис Годунов: попытка внешнеполитического транзита, 21 января, 2022, https://russiancouncil.ru/analytics-and-comments/analytics/boris-godunov-popytka-vneshnepoliticheskogo-tranzita/

22. Кушева Н.Е. Русско-дагестанские отношения в XVI-XVII вв. Махачкала, 1954.

23. Моисеев М. «Проваленная миссия». Посольство М.Н.Тиханова в Иран в 1613-1615 годы, Мининские чтения, Сборник научных трудов по истории Смутного времени в Росси начала XVII в. В память 400-летия Нижегородского Подвига, Нижний Новгород, Изд-во Кварц, 2012, с. 351-360.

24. Наджафли Г.Т. Взаимоотношения Азербайджанского государства Сефевидов с Россией в XVI-XVII вв. //Вопросы истории. – М.: 2015. – №4. – с. 122-136.

25. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Изданы под редакцией Н.И.Веселовского, том I. Спб.-Петербург, 1890.

26. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией, Изданы под редакцией Н.И.Веселовского, том II. Спб.-Петербург, 1898.

27. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. «Сборник статей по истории Азербайджана». Вып. I. Баку, Изд-во АН *Азер*байджанской ССР, 1949.

28. Пигулевская В.Н. Якубовский Ю.А., Петрушевский П.И., Строева В.Л., Беленицкий М.А. История Ирана с древнейших времен до конца XVIII в. Ленинiград, Изд-во Ленинградского университета, 1958.

29. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, Элм, 1981.

30. Сеидова М.Г. Азербайджан во взаимоотношениях Сефевидской империи и Русского государства, (по русским источникам). Баку, Нурлан, 2004.

31. Словарь современного русского литературного языка, том I. Москва-Ленинград, 1948.
32. Соловьев М.С. История России с древнейших времен, В 15 книгах: книга 5, Москва, Изд-во социально-экономической литературы, 1961.
33. Тивадзе Г.Т. Иранский вопрос во внешней политике Московского государства в конце XVI и начале XVII вв. Автореферат дис. … канд. ист. наук. Тбилиси: 1966.
34. Фехнер В.М. Торговля Русского государства со странами Востока в веке. Москва: Государсвенное изд-во культурно-просветительной литературы, 1956.
35. Хождение купца Федота Котова в Персию. Москва: Изд. Восточной литературы, 1958.
36. Широкорад А. Друзя и враги России. Персия-Иран. Империя на Востоке. Москва: Вече, 2010.
37. Шорохов А.В., Слесарев А.Т. Фирман персидского шаха Аббаса I астраханскому воеводе из фондов Российского государственного архива древних актов. // Источниковедение, Клио № 4(148), 2019, с. 28-33.
38. Шпаковский Я.А. Торговля Московской Руси с Персией в XVI и в XVII вв. /Сборник статей. Выпуск VII. Киев, Топография И.И.Чоколова, 1915, с. 1-54.
39. Allen E.D.W. Russion Embassis to the Georgian Kings 1589-1605, Vol., I, Cambridge, Cambridge University Press, 1970.
40. Mathee R. “Anti-Ottoman Politics and Transit Rights The Seventeenth-Century Trade in Silk between Safavid Iran and Musscovy”, *Cahirers du Monde russe*, Vol. 35, no. 4 (Oct. – Dec., 1994), pp. 739-761.
41. Mehdəvi A.H. Tarix-i revabıt-ı xarici-i İran: Ez ibtida-i devran-i Səfəviyye ta payan-ı ceng-i dovvom-Cihanı (1500-1945), Müessese-i İntişarat-ı Emir Kebir. Tehran, 1377.
42. Mihriban N.E.M. I Şah Abbas-ı Kebir. Şirket-i Mütalaat və neşr-i kitab-ı Parsa. Tehran, 1387.
43. Vəhid Məhəmməd Tahir. Sərqozaşte Şah Abas devvom. Be kuşeşe Səttar Əvdi. Tehran, 1334.
44. Tevekkuli F. Revabıt-ı İran və Rusiya der asr-ı Safeviyye. Mecmua-i Makalat-ı Hemayeş-i Safeviyye der göstere-i tarih-i İran zemin. Hazırlayan Maksud Əli Sadıqi, İntişarat-ı Sütude, Təbriz, 1383.

**Summary**

**Tofig Najafli, Farah Huseyn**

**Relations of the Safavid state and the kingdom of Moscow during the reign of Shah Abbas I**

The seizure of most territories of Azerbaijan and the Caspian coastal areas of Dagestan by the Ottoman army during the Safavi-Ottoman war in 1578-1590 years resulted with blocking of the Volga-Caspian trade route that was a serious blow on the economic relations between the Azerbaijan Safavid state and the Moscow kingdom. The common interest to release the Volga - Caspian trade route from the control of the Ottoman Empire created certain groundings for rapprochement of the Safavid state with the Moscow kingdom from the political view point. In this article the level of relations of the Azerbaijani Safavi state under Shah Abbas I with Moscow kingdom in was studied and using the sources of the time were analyzed.

The Safavid state of Azerbaijan was looking for ways to ally with the Moscow state in the struggle against the Ottoman occupation in the South Caucasus and Azerbaijan. During the period of Shah Abbas I, the political diplomatic and economic relations of the Safavid state with the Moscow kingdom were investigated, and detailed information was given about the diplomatic delegations sent to Isfahan and Moscow and the exchange of envoys between the parties.

***Keywords:*** *Shah Abbas I, Azerbaijan, Safavids, Moskva, South Caucasus.*

## Резюме

**Т.Г.Наджафли, Фарах Гусейн**

**Взаимоотношений государства Сефевидов и Московского царства в период правления Шаха Аббаса I**

В результате Османо-сефевидской войны 1578-1590 гг. большинство территорий Азербайджана и прикаспийские области Дагестана были окупированы османской армией. Это привело к закрытию Волжско-Каспийского торгового пути, нанесло серьёзный удар по экономическим связям азербайджанского государства Сефевидов с Московским княжеством. Сефевидский шах и московский князь были заинтересованы в «освобождении» Волжско-Каспийского торгового пути от Османского контроля. Общность интересов создала определённую почву для политического сближения азербайджанского государства Сефевидов и Московского княжества. В представляемой статье предпринята попытка определить уровень исследования истории московско-сефевидских отношении в современно турецкой историографии на основе критического анализа первоисточников рассматриваемого периода.

В борьбе за освобождение Южного Кавказа и Азербайджана от османской оккупации Сефевидский шах Аббас I (1587-1629) стремился заключить военно-политический союз с Московским княжеством. Сефевидское государство Азербайджана искало пути объединения с Московским государством в борьбе против османской оккупации на Южном Кавказе и в Азербайджане. В период шаха Аббаса I были исследованы политико-дипломатические и экономические отношения государства Сефевидов с Московским царством, даны подробные сведения о дипломатических делегациях, направляемых в Исфахан и Москву, и обмене посланниками между сторонами.


***Ключевые слова:*** *Шах Аббас I, Азербайджан, Сефевиды, Москва, Южный Кавказ.*

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2023.2.115

**Ülvi Zərbəliyev**
*Gəncə Dövlət Universitetinin əyani doktorantı*
*Azərbaycan*
*ulvizerbeliyev@gmail.com*
*ORCID-0000-0003-1148-3813*

# AZƏRBAYCAN QARAQOYUNLU ORDUSUNDA HƏRBİ VƏZİFƏLİLƏR

***Açar sözlər:*** *Azərbaycan Qaraqoyunlu dövləti, Qara Yusif, əmirül-üməra, bukavul, təvaçi.*

## Giriş

Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsi baxımından tarix elminin qarşısında bir sıra mühüm problemlər durmaqdadır. Bu problemlərdən biri də Azərbaycan Qaraqoyunlu dövlətində ordu quruculuğunun tədqiq olunmasıdır. XV əsrin əvvəlləri Azərbaycanda yadelli ağalığına son qoyulması və dövlətçiliyimizin bərpa olunması ilk növbədə Qaraqoyunlu Qara Yusifin başçılığı altında qaraqoyunluların hərbi-siyasi fəaliyyəti ilə bağlıdır.

Qaraq Yusifin rəhbərliyi altında Qaraqoyunlu ordusunun Teymuri şahzadələrinə qarşı apardığı uğurlu hərbi əməliyyatlar dövrünün sınaqdan çıxmış ən mükəmməl süvari ordusuna sahib olan Qaraqoyunluların düşmən üzərində zəfərlər qazanmasına, tarixi ənənələrə söykənən yerli dövlətçiliyimizin bərpa olunmasına gətirib çıxardı. Azərbaycan Qaraqoyunlu ordusunun hərbi quruluş etibarı ilə Elxanilər və Teymuri dövlətlərinin hərbi sistemindən müəyyən məsələlərdə öz payını almışdı. Xüsusən, Mərkəzi Asiya tipli ordu quruluşuna malik olan Qaraqoyunlular yaşadıqları coğrafiya ilə əlaqədar olaraq Yaxın Şərqin hərbi adət-ənənələrinə də hakim idilər. Buna görə ordunun quruluşu və istifadə edilən silahlar özündən əvvəlki dövlətlərin hərbi birləşmələrində mövcud olan silahlarla eynilik təşkil edirdi. Dövrün əsas hücum silahları olan qılınc, ox və yay, müxtəlif başlıqlı toppuzlar, nizə və mızraqlar Qaraqoyunlu dövlətinin də silahlarının əsasını təşkil edirdi. Orduda istifadə olunan hərbi vəzifəlilərə gəldikdə isə özündən əvvəl fəaliyyət göstərmiş dövlətlərlə müəyyən oxşarlıqlar olsa da, müəyyən fərqli çalarlara da sahib idilər. 1408-ci ilin aprelində Təbriz yaxınlığında Sərdrud döyüşündə Teymuri Əbu Bəkri və atası Miranşahı ağır məğlubiyyətə uğradan Qara Yusif Teymurilərin Azərbaycandakı ağalığına son qoyaraq mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövlətini yaratdı.

Teymuri ordusuna qarşı mübarizədə Qara Yusifin dövrünün mükəmməl döyüş silahları ilə təchiz edilmiş süvari qoşunları əhəmiyyətli rol oynadı. Düşmən üzərində zəfərin qazanılmasında Qara Yusifin dövrünün tanınmış hərbi strategi kimi həyata keçirdiyi və uğurla başa çatdırılan döyüş taktikası mühüm rol oynadı. Bununla yanaşı, qələbənin təmin edilməsində Qaraqoyunlu ordusunun hərbi cəhətdən təşkili, qoşun hissələri arasında qarşılıqlı əlaqənin lazımi səviyyədə təşkil edilməsi əsaslı rol oynadı.

### *1. Baş komandan*

Hərbi səfərlər zamanı Qaraqoyunlu hökmdarları yürüşdə iştirak edirdilərsə, ordunun baş komandanı bilavasitə hökmdar olurdu. O, döyüşə gedən ordunun başına keçib döyüş meydanında heç çəkinmədən döyüşər və ordunu şəxsən idarə edərdi. O, hərbi səfərə çıxıcağı, ya də düşmən hücumu zamanı ölkədəki bütün mövcud hərbi qüvvələrlə birlikdə hərəkət edərdi. Hökmdarın döyüşə girmədən əvvəl əmirlərlə müəyyən məsləhətləşmələr aparması ənənə halını almışdı [18, s.86; 14, s.276]. Həsən bəy Rumlu Qara Yusifin Teymuri Əbu Bəkrlə döyüşdən əvvəl əmirlərini topladığını və onların fikirlərini öyrəndiyinə diqqət yetirərək yazır: "Qara Yusif isə Ərzincana yola düşdü. O, Kürdüstana, Vana və Vostana basqın edib istila bayrağını ucaltdı və Avnik qalasını Əmir Dol-

dayın əlindən aldı. Qara Yusifin əzəmət və şövkətinin [xəbəri] ardıcıl və mütəmadi surətdə Mirzə Əbu Bəkrə çatdığı üçün o, həmin zaman Sultan Əhməd Cəlairin üzərinə getmək istəsə də, bu yürüşdən əl çəkib Qara Yusiflə savaşa yollandı. O tərəfdən Qara Yusif də türkman əmirlərini toplayıb onlara dedi: – Biz ata-babalarımızın yolu ilə getməliyik. Yayda Aladağ yaylağına gedərik, qışda isə Diyarbəkr qışlağına və Fərat kənarına yürüyərik. Bizim cağatay qoşunları ilə ədavət etməyimiz məsləhət deyildir. Türkmanlar dedilər: – Əgər Sahibqiranın Azərbaycanda qoyduğu əmirlər həyatda olsaydılar, biz onlarla vuruşmazdıq. Bir halda ki Mirzə Əbu Bəkr onları öldürmüşdür və [onların yerinə] bir dəstə əclafı yüksəltmişdir, onlardan qətiyyən qorxumuz yoxdur. Qara Yusif türkman əmirlərinin sözlərinə sevindi. O, xəyal kimi yüksəyə uçan oxlarının qorxusu ilə qartalları göyün zirvəsində pərən-pərən salan və əjdaha görkəmli nizələrinin heybəti ilə aslanları meşədən qaçmağa məcbur edən, seçkin və təcrübəli ərlərlə, döyüşdə sınaqdan çıxmış igidlərlə hərb meydanına yönəlib Mirzə Əbu-Bəkrin qarşısında səf çəkdi" [9, s.54]. Qaraqoyunlu hökmdarı döyüş və barış anında daim baş komandan vəzifəsini daşıyırdı. Hökmdarların yanlarında daim hassa qüvvələri olardı. Hassa qüvvələri hökmdarla birlikdə hərəkət edərdilər. Dövrünün digər türk dövlətlərində olduğu kimi Qaraqoyunlu hökmdarları da döyüşlərdə ordunun mərkəzində yer alırdı. Bütün hərbi işlərdə ən yüksək məqam sahibi hökmdar idi [30, s.113; 36, s.66]. Qaraqoyunlu hökmdarları çətin döyüşlərdə belə çox yaxşı baş komandan olduqlarını təsdiq etdimişdilər.

### *2. Şahzadələr*

Hökmdarın vəliəhdi olan şahzadələr uyğun yaşa gəldikləri zaman bir vilayətə rəhbər təyin edilər və lələri ilə birlikdə onlara tapşırılan bölgəni idarə edərdilər. Şahzadələr hökmdarlar kimi çox izdihamlı və müntəzəm saray təşkilatına sahib olduqları kimi, toplanan iqta gəlirinə uyğun müvafiq əsgər toplamaq səlahiyyətinə sahib idilər. Hökmdardan sonra orduda ən səlahiyyətli şəxs kimi onlar qəbul edilirdilər. Şahzadələr lazım olduqda hökmdarın fərmanına uyğun olaraq səfərə çıxmaq üçün onun yanına gedib birlikdə hərbi səfərə çıxır və döyüşürdülər. Əbubəkr Tehrani Qaraqoyunlu hökmdarı Cahanşahla Teymuri Babur Mirzə arasında Xorasana yiyələnmək uğrunda mübarizəni təsvir edərək yazır: "Babur Mirzə Şiraz hakimliyinə Səncər Mirzəni, Yəzd hakimliyinə isə Şahrux Mirzənin qızının oğlu olan Xəlil Mirzəni təyin etdi və tələsik Yəzd yolu ilə Xorasana getdi. Sonra Cahanşah Mirzə Məhəmmədi Mirzəni İsfahandan, Pirbudaq Mirzəni isə Şirazdan öz yanına çağırdı. Onların hər biri hakim olduqları yerdə... atalarının əmrinə əsasən Quma yollandılar" [10, s.177]. Həsən bəy Rumlu Cahanşahın 1458-ci ildə Herata yürüşü barədə məlumat verərək yazır: "Bu vaxt Mirzə Pirbudaq on səkkiz min nəfər yaxşı silahlanmış süvari ilə Quhistan yolundan tam sürətlə gəlib çatdı. Əsgərlər ürəkləndilər. Onun gəlməyinin səbəbi bu idi ki, Xorasanın və Şahrux sultanın taxtının və məmləkətinin fəthi xəbəri Farsda yayıldıqda bir-birinin ardınca xəbər çatdı ki, Xorasanın ətrafında və yan-yörəsində bir sıra düşmənlər qızğın aslanın pəncəsindən qaçan vəhşi ceyranlar kimi heyran və sərgərdan qalsalar da, fürsət gözləyirlər ki, əgər macal tapsalar, hücuma keçsinlər. Buna görə də Mirzə Pirbudaq Fars və İraqdan Xorasana yollanıb, atasının ordusuna qoşularaq mənqəlay şəklində yola çıxdı" [9, s.221].

Qaraqoyunlu ordusunda şahzadələr ümumiyyətlə döyüşlərdə ordunun cinahlarına, bəzən də ön qüvvələrə rəhbərlik edərdilər. Bəzi vaxtlarda isə hökmdarın əmri ilə müstəqil hərbi səfərlərə çıxırdılar.

### *3. Əmirül-üməra*

Qaraqoyunlu hərbi təşkilatında əmirlər, səlahiyyət və nüfuz baxımından hökmdar və şahzadələrdən sonra gəlirdilər. Onlar orduya komandanlıq etməklə yanaşı, vilayətləri idarə edilməsi kimi vəzifələri də icra edirdilər. Buna görə bəzi vilayətləri şahzadələr idarə etdiyi kimi, digər vilayətləri də tanınmış əmirlər idarə edirdilər. Əmirlərin böyük əksəriyyəti tayfa başçısı olduğu üçün onların sərəncamında müəyyən sayda qoşun olurdu. Döyüş zamanı onlar sahib olduqları qüvvələrlə hökmdarın və ya şahzadənin ordusuna qatılaraq öz hərbi vəzifələrini yerinə yetirirdilər [22, s.39-40].

Qaraqoyunlu dövlətində əmirlər tutduqları vəzifələrə görə digər əmirlərdən fərqlənmişdi-

lər: "Əmirül-üməra", "əmirül-əzəm" və "əmiri-divan". Azərbaycan Qaraqoyunlu dövlətinin hərbi təkilatında hökmdardan sonra birinci yerdə əmirül-ümərа dururdu, o, hökmdarın qatılmadığı hərbi yürüşlərdə ordunun baş komandanı olurdu [7, s.95; 3,45; 4, s.29]. Əmirül-ümərа vəzifəsinə təyin edilən əmirdə yüksək hərbi keyfiyyətlərin olması tələb olunurdu. Əmirül-ümara "müharibənin sirlərini, düşmən əsgərlərini sındırmağın yolunu bilən, döyüş qızışanda gözdən yayınaraq əl-ayağı boşlamadan əsgər bölüklərini döyüşə gətirən, qoşunun cərgələrinə qarışıqlıq düşdüyü hallarda onu tezcə qaydaya salmağı bacaran adam" ola bilərdi [2, s.73]. Əmirül-ümərа vuruş meydanını seçərkən dörd məsələni nəzərdə tutmalı idi: 1. Həmin yerdə su olub-olmadığını; 2. Əsgərlərin saxlandığı ərazini; 3. Düşmən əsgərlərinin yerləşdiyi yerdən bir qədər yüksəkdə olmağı; 4. Vuruş meydanının qarşısının geniş və açıq olmasını [2, s.101; 4, s.30].

Qaraqoyunlu dövlətinin ilk vaxtlarında Qara Yusifin hakimiyyəti dövründə əmirül-ümərа vəzfəsini öncə Bistam bəy Cagirli [9, s.55], sonra isə Əmir Qaraman tutmuşdu [9, s. 55; 4, s.30]. İllər ötdükcə hökmdarlar kimi əmirül-ümərаlar da dəyişilmiş, amma bu yüksək mənsəb yenə də idarəçilikdə aparıcı rollardan birini oynamışdır.

Bəzən hökmdar əmirül-ümərаnın istəyinə qarşı çıxa bilmir və onun rəyi ilə istər-istəməz hasablaşmalı olurdu. Belə ki, Qara Yusif əsir aldığı Cəlairi hökmdarı Sultan Əhmədi öldürmək istəmədiyinə baxmayaraq, əmirül-ümərа Bistam Cagirlinin istəyinə qarşı durmaqdan çəkinmiş və ölüm hökmünü vermişdi [9, s.71; 4, s.31-32]. Bəzən ali dövlət vəzifələri olan əmirül-ümərа və divan əmiri vəzifələri eyni şəxs tərəfindən idarə olunurdu. Əbubəkr Tehrani yazır: "Cahanşah Mirzə Təbrizdə... əmirül-ümərа və sahibi-divan olan Şahəli Bayramini bir neçə xəyanətdə ittiham edib həbsə aldı və qalaya göndərdi" [10, s.212-213; 4, s.32].

M.X.Yınancın fikrincə, əmirül-ümərа nüfuzlu divan işçisi olub, hökmdarın şəxsən iştirak etmədiyi hərbi yürüşlərdə baş komandan vəzifəsini icra edirdi. Sultanın əmirlərdən ən böyüyü məhz əmiri-əzəm olurdu [35, s.264]. Hökmdar hər hansı səbəbdən paytaxtı tərk edədər başqa yedə getdikdə və ya ölkəni tərk etdikdə əmirül-ümərа onu əvəz edirdi. "Tüzükati-Teymuri" əsərində yazılır: "Əmirül-ümərа o adam ola bilər ki, məclisdə və vuruşmada mənim müavinim olsun və bacarıqla qoşunu idarə edə bilsin, ona kimsə müxalifət etsə, cəzalandırmağı bacarsın" [2, s.73; 4, s.32].

Əmirlər Qaraqoyunlu dövlətinin idarə sistemində olduğu kimi, hökmdarın seçilməsində də böyük nüfuz sahibi idilər. Bunu Quru Yusif"un ölümündən sonra Əmir Qaraman və onun xatunu Qədəm Paşa Qara Yusifin oğlanlarından birini hökmdar təyin etmək istəsələr də, uğur qazana bilmədilər [9, s.95].

#### *4. Əmirlər*

Azərbaycan Qaraqoyunlu dövlətində orduya rəhbərliyi hökmdar və şahzadələrdən sonra əmirlər həyata keçirirdi. Əmirlərin əksəriyyəti qoşun başçıları olurdu [14, s. 277; 6, s.85-86]. Əmirlər müharibə zamanı valisi olduqları vilayətin qoşunu ilə hökmdarın ordusuna qatılırdılar. Onlar döyüş vaxtı hökmdarın və ya şahzadələrin əmri altında olurdular. Əbubəkr Tehraninin yazdığına görə, əmirlər arasından böyük əmir (əmiri-Bozorq) ayrılmışdır [10, s.78]. "Qızılbaşlar tarixi"nin verdiyi məlumata görə, Əli bəy Ağacəri Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə böyük əmir *("əmiri-bozorq")* olmuşdu [5, s.6; 6, s.95-96]. Həsən bəy Rumlu yazır ki, "Qara Yusif Türkmanın böyük əmirlərindən sayılan və tiyul şəklində Sultaniyyə, Ərdəbil və Muğan ölkəsinə malik olan Əmir Bistam Cagirlü" idi [9, s.85].

Qaraqoyunlu dövlətində ordunun ən yüksək zümrəsi şahla bir tayfadan olan əmirlər təşkil edirdi. Qaraqoyunlu ordusunda əmirlər tutduqları mövqeyə görə iki yerə bölünürdülər: 1. Əllərində soyurqal olan və böyük imtiyazlara malik böyük əmirlər; 2. Kiçik əmirlər.

"Böyük əmir" istilahı altında əllərində böyük hərbi səlahiyyətləri olan əmirlər nəzərdə tutulur. Onlar yüksək toxunulmazlıq hüququna və müstəsna səlahiyyətlərə malik idilər. Əli bəy Ağacəri Qaraqoyunlu Cahanşahın dövründə böyük əmir idi [10, s.133]. Əbubəkr Tehrani yazır ki, Cahanşah İraq və Farsı aldıqdan sonra iyirmi min atlı və piyadanı Əmir Ərəbşaha qoşub Ərzincana göndərdi. Yaqub Alpaut və Əli bəy Ağacəri övladları kimi böyük və şanlı əmirləri də onlara qoşdu [10, s.133]. Həsən bəy Rumlu

yazır ki, Bistam Cagirlinin oğlu Bayəzid bəy Cagirli Cahanşahın böyük əmirlərindən biri olmuşdu [9, s.138]. Qaraqoyunlu böyük əmirləri arasında Qara Yusifin əmirül-ümərası Əmir Bistam Cagirli, onun oğlu Cahanşahın divan əmiri Bayəzid bəy Cagirli, Əmir Cəlaləddin Tərxan, Hüseyin bəy Sədli, Rüstəm Tərxan, Şahsuvar bəy, Əmir Əlişəkər Baharlı, Qasım Pərvanəçi, Əbülfəth Bistami, Əmir Şahəli, Pir Ömər, Şadi bəy və Şahqulu bəyi xüsusilə tanınırdılar [bax: 9, s.59, 165-168, 128, 239; 2, s.12-13, 22-24; 14, s.277; 6, s.86].

"Kiçik əmirlər" zümrəsinə daxil olan əmirlər "qoşun əmiri" də adlanırdı. Onlar müxtəlif qoşun dəstələrinə başçılıq edirdilər. Əmirlər arasında həmçinin "tuğ və nağara əmirləri" də var idi [14, s.278; 6, s.86]. Sərhədləri qoruyan əmirlər də "kiçik əmirlər" zümrəsinə daxil idilər. Müharibələr zamanı ələ keçirilən qənimətlər çox hallarda əmirlər arasında bölüşdürülürdü ki, hökmdar bununla da onları özündən razı salmaq və gələcək döyüşlərə rəğbətləndirmək istəyirdi. Elə hal da olurdu ki, döyüşdə əmirlərin ələ keçirdiyi hər hansı bir yer elə onun özünə bağışlanırdı [4, s.63; 6, s.96].

Dövrün qaynaqlarında Qaraqoyunlu əmirləri mənsub olduqları tayfadan toplanılan ordularının başında hökmdarın xidmətinə qatılar və ya müstəqil şəkildə ayrı-ayrı hərbi səfərə göndərilirdi. Belə ki, Əmir Ərəbşah Ayinli, Əli bəy Ağacəri Cahanşah tərəfindən Ərzincana hərbi səfərə göndərilmişdi [10, s.133].

Əmirlər orduda əsgərlər arasından ən böyük rütbə sahibi olan insandır. Onların özlərinə aid qoşunları mövcuddur. Döyüş zamanı əmirlər öz ordusu ilə birlikdə hökmdarın, ya da şahzadənin ordusuna hakimi olduğu vilayətin qoşunu ilə qatılaraq öz vəzifəsini yerinə yetirirdilər. Onlar döyüş zamanı hökmdarın və ya şahzadənin əmri altında döyüşürdülər. Əmirlərin hər birinin özünə aid xüsusi qoşunu mövcud idi. Əmirlərin qılıncları hökmdarın və ya şahzadələrin qılıncları kimi qızıldan olurdu [37, s.76]. Hakimiyyəti dövründə Cahanşah əmirlərə çox dəyər vermiş və onların şəninə xoş sözlər söyləməkdən çəkinməmişdir. O, əmirlərindən Əmir Cəlaləddin Tərxana böyük və kəramətli əmir, zamanın əmirlərinin xeyirlisi və bağışlayan məliyin lütfünə məxsus olan şəklində müraciət etmişdir [14, s.278; 6, s.86]. Cahanşahın Yəzdə olan Atik caminin mavi rəngli kaşı ilə bəzədilmiş giriş qapısı üzərindəki kitabəsində əmrilərinə təriflər söyləmişdir. Bu kitabədə "Tanrı bizə nemətlər bəxş etmişdir, bizim sarayımız bu nemətlərin ən gözəl qismi olan məşhur əmirlər və dövlətini sevənlərlə bəzənmişdir. Və dövlətin gözü, məmləkətin əksər yerləri onların gözəl siması ilə işıqlanmışdır. Bu əmirlərin hər biri xoşbəxtlik və böyüklük göyünün günəşi, bəxtiyarlıq və hökmdarlıq fələyinin xoşbəxt ulduzlarıdır" ifadələrlə öyməsi onlara xüsusi önəm verdiyini göstərir [14, s.278].

Qaraqoyunlular dövründə əmirlik vəzifəsi nəsildən-nəslə keçməsi ənənəvi hal almışdı. Belə ki, Cahanşahın tanınmış əmirlərindən olan Bəyazid Cagirli vəfat edən zaman onun qardaşı Əbülfəth bəy Cagirli böyük əmir seçilərək onun yerini tutmuşdu [9, s.228; 4, s.59-60].

Əmirlərə xidmətlərinə və qazandıqları hörmətə görə böyük torpaq sahələri – soyurqallar paylanılırdı. Onlar döyüş başa çatdıqdan sonra həmin yerlərə gedib mülkü işlər ilə məşğul olurdular. Ancaq hökmdar yeni döyüşə gedən zaman yenidən öz qüvvələri ilə onun ətrafında toplanardılar. Döyüş meydanına gedərkən Cahanşahın ətrafında böyük əmirlər olardı, döyüş vəziyyətinə görə qışlağa çəkilən zaman böyük əmirlər də hökmdarla birlikdə qışlardı, bəzən də ayrı qışlardı. Həsən bəy Rumıu yazır: "Baharın əvvəllərində gecə ilə gündüz bərabərləşdiyi vaxt Mirzə İsgəndər Türkman böyük əmirlərlə Çuxursəd və Sürməlü qışlağından çıxıb darüssəltənə Təbrizə yollandı. Qardaşı Cahanşah padşah da Qızılağac qışlağından çıxıb darülirşad Ərdəbilə gəldi və Əmir Bayəzid Bistam və bəzi Şirvan əmirləri ilə ittifaqda Sərab yolundan keçərək hədsiz əzəmət və şövkətlə hərəkət bayrağını Təbrizə doğru qaldırdı" [9, s.146]. Cahanşah İraq tərəfə səfərə çıxdığında Dərgəzin qəsəbəsində qışlarkən, Məhəmmədi Mirzə, Əmir Bayəzid Bistami, Əmr Şahsuvar Bayrami kimi böyük əmirlər də Reydə qışlamışdılar [14, s.279].

Hökmdarın əmri olmadan əmirlərin öz başına hərəkət etmək səlahiyyətləri yox idi, ümumiyyətlə hökmdarın əmr etdiyi şəkildə hərəkət edib, öz torpaqlarına dönə bilirdilər. Belə ki, Pirbudağı öldürdükdən sonra Təbrizdə qışlayan Cahanşah böyük əmirlərin hər birini Diyabakir səfərinə kömək etmək üçün sahib olduqları vi-

layətlərə göndərmişdir. Əmirlər arasında zaman-zaman xəyanət edən, onun əmrinə etməyən şəxsən Cahanşah tərəfindən cəzalandırılmış, böyük zəfərlərdə payı olsn bəzi əmirlər isə mükafatlandırılmışdır. Belə ki, Cahanşahın əmirül-ümərası Əmir Şahəli Bayramini bir neçə xəyanətdə günahlandıraraq qalada zindana atdırmışdı [9, s.247]. Cahanşah oğlu Həsən Əlinin qiyamını yatırdıqdan sonra Təbrizə gəlmiş və Əmir Ərəbşahı divan əmiri təyin etmiş, Əmir Pirzad Buxari ilə Savalan bəyi də ali mənsəblərə yüksəltmişdi [9, s.280].

Əmirlər döyüş əsnasında əhəmiyyətli bir qərar qəbul etmək məqsədilə həmişə birlikdə məşvərətə toplaşar və dövlət üçün ən uyğun qərarı birlikdə verərdilər. Belə ki, Cahanşah Uzun Həsənə qarşı yürüşə çıxan zaman Çapaqçurda tərəflərin ön qüvvələri arasında baş verən döyüş Ağqoyunluların qələbəsi ilə başa çatdığına görə Cahanşah əndişəyə apılmış və Əntur mövqeyində qalaraq dərgah əmirləri və ordu başçıları ilə məsləhətləşdikdən sonra qərara alınmışdı ki, ordunu qışlaqlara göndərsin [9, s.252].

Tanınmış əmirlər hakimiyyətə şahzadələrin gətirilməsində də yaxından iştirak edirdilər. Belə ki, Baharlı tayfasına mənsub əmirlər başda Əlişəkər bəyin oğlu Pirəli olmaqla Cahanşahın öldürülməsindən sonra Ağqoyunlu hakimiyyətinə qarşı müqavimət göstərdilər və şahzadələrdən Əbu Yusuf Mirzəni taxta çıxartdılar [9, s.274].

### *5. Təvaci*

Müharibə gözlənildiyi təqdirdə tabeliyindəki əyalətlərə gedərək, hərbi qüvvə toplayan və ayrı-ayrı qoşun dəstələri arasında əlaqə yaradan əmirlər təvaçi adlanırdı. Onlar döyüşçüləri səfərbər edir, ordunun yerini bildirirdilər. Döyüşçülərin sayı və ordunun müharibə qüdrəti onun “təvaçi dəftəri” adlanan xüsusi kitabçasında qeyd edilirdi. Burada həmçinin, əsgərlərin hansı əmirə bağlı olduğu, adları, ləqəb və mövqeləri də yazılardı [9, s.252; 36, s.286; 3, s.70; 4, s.65].

Təvacilər uğurlu döyüşlərdən sonra qənimətin paylanmasında da böyük rol oynayırdı. Hərbi səfərlər zamanı ov mərasimi təşkil etmək də təvacinin vəzifəsi idi. Təvacilərin bir başqa vəzifəsi isə səfər əsnasında düşmən ordugahının yaxınlığında qərargahın qurulmasını təmin etmək idi.

Döyüş zamanı məğlub olan düşmənin mallarının yağmalanması üçün dağılan əsgərlərin toplanması və nizamın bərpa olunmasında da təvacilər əhəmiyyətli rol oynayardılar. Hərbi səfər zamanı lazım olan kanalların açılması, qoşunun dayanacağı yerlərinin təşkil edilməsi, toy və əyləncə məclislərinin təşkil edilməsi kimi işlər bəzən yasavul, bəzən də maliyyə məmuru mühəssil ilə birlikdə təvacilərə tapşırılırdı. Səfərə çıxan əmirlər və vilayət hakimləri də əsgərlərinə lazım olan ləvazimatı da təvacilərə bildirirdilər [13, s.177]. Bununla da, peşəsi əsgər olmayan təvacilər bu şəkildə ordunun iaşəsinin təmin olunması baxımından da məsul idilər [28, s.217].

Təvaçilər tanınmış, etibarlı bəylərdən seçilirdi. Belə ki, “1457-ci ildə Cürcan valisi olan Əmir Baba Həsən Qarqın mazandaranlıları çox sıxışdırırdı. Bu səbəbdən onlar Cahanşah padşahı Xorasana getməyə həvəsləndirdilər. Ona görə də Türkman hökmdarı Reyə gəlib, ətrafa və məmləkətlərə təvaçılar yollayaraq zəfər nişanlı əsgərlərin toplanması haqqında fərman verdi. O, Əmir Bayəzid Bistama və Məhəmmədi mirzəyə məktub (nişan) göndərdi ki, Reyə qayıtsınlar” [9, s.214; 14, s.280]. Yuxarıda qeyd etdiyimiz kimi, Cahanşah İsfahanı ələ keçirərkən ordunun tavaçısı Seyid Əhməd Təvaçını qala divarlarını dağıtmaq məqsədilə İsfahana göndərmişdi. O, vilayətdən bel və külünglə təmin olunmuş təqribən əlli minə yaxın adam topladı və İsfahanın qala divarlarını yerlə yeksan edərək hamarlamışdı [10, s.176; 9, s.190; 14, s.281].

Vilayətlərə göndərilən təvaçilər yerli hakimlərə toplanış məntəqəsinin yeri, tələb olunan qoşunun və hərbi ləvazimatın sayı haqqında məlumat verirdilər. Hərbi yürüş zamanı təvaçilər dəstələr arasında əlaqə yaradır, qəniməti yığır, sayır, paylanmasında iştirak edir, yerli əhali arasından yardımçı dəstələr təşkil dib ona rəhbərlik edirdilər. Orduya rəsmi baxış və döyüş zamanı təvaçilər ordunun təşkilinə və tərtibinə cavabdeh olduqları üçün hərbi dəstələrə təyin dilmiş yeri göstərirdilər [11, s.110; 1, s. 253].

Təvaçilər qoşun toplamaqdan savayı, müxtəlif tapşırıqları yerinə yetirir və döyüşlərdə ya-

xından iştirak edirdilər. Əbubəkr Tehrani yazır ki, 1457-ci ilin oktyabrında Cahanşah bütün qoşunun yığışmasını gözləməyib yola düşdü və Xar vilayətinə çatanda, Əmir Bayəzidi və Pirzad bəy Buxarini Seyid Əbdülkərimi qarşılamaq üçün Firuzkuh vilayətinə göndərdi. Özü isə Məhəmmədi Mirzə və digər əmirlərlə birlikdə Abi-Barik, Simnan və Damğan yolu ilə hərəkət edib Bistam yaxınlığındakı Şahrud qəsəbəsinin bir fərsəxliyində düşərgə saldı. Sonra özü Məhəmmədi Mirzə, Əbülfəth bəy Təvaçi və digər əmirlərlə birgə hücuma keçib Astrabada yollandı [10, s.185]. 1466-cı ildə Cahanşah Bağdadda oğlu Pirbudağın üsyanını yatıran zaman Pirbudağı Cahanşahın təvacisi Pir Məhəmməd bəy və şahzadə Məhəmmədi Mirzə öldürmüşdülər [10, s.185; 9, s.246; 3, s.70]. Cahanşah Pirbudağı öldürdükdən sonra Pir Məhəmməd bəy Təvacini Bağdada hakim təyin etmişdi [38, s.360]. 1467-ci ildə Uzun Həsən Cahanşahı Çəpaxcurda öldürən zaman öldürülən Qaraqoyunlu əmirləri arasında Cahanşahın təvaçisi Rüstəm Alpaut da var idi [9, s.253].

İlkin qaynaqlarda Qaraqoyunlu hökmdarı Cahanşahın Pir Məhəmməd, Rüstəm Alpaut, Pirbudağın isə Əlişəkər oğlu Məhəmməd bəy kimi təvacilərinin olduğu qeyd olunur [10, s.199; 9, s.253; 3, s.70].

### *6. Qazıəsgər*

Qaraqoyunlu dövlətində məhkəmə və dini işlərə qazılar baxırdılar. Ən yüksək dini vəzifə “sədr” və ya “sədarət” adlanırdı. Sədrin nəzarəti altında məhkəmə və şəriət işlərinə baxan Sədarət divanı adlanan məclis fəaliyyət göstərirdi. Vilayətlərdə məhkəmə işlərinə qazılar, dini işlərə müftilər baxırdı. Sədarət divanı mədrəsələrə nəzarət edir və onların təftişini həyata keçirirdi [34, s.302-303; 6, s.83]. Məhkəmə işlərini həyata keçirən qazı haqqında mülahizə yürüdərkən iki qazıdan danışmaq lazımdır: 1. Dövlət və mülki işlərə baxan şəriət qazısı; 2. Hərbi işlərdə qayda-qanun yaradılmasına çalışan qoşun qazısı (qaziyi-ləşkər). Şəriət qazısı yerlərdə mübahisəli məsələlərin həllinə çalışır, qoşun qazısı isə orduda dini iş və təbliğat aparır, günahkar hərbçiləri mühakimə edirdi [4, s.71; 6, s.83].

Ordu (qoşun) qazısı kimi tanınan qazıəsgər Türk-İslam dövlətlərinin ordularında xidmət göstərmişdi [21, s.149; 26, s.40]. Qazıəsgər Sədarət divanının nəzarəti altında ordu ilə bağlı məsələlərdə şəriətə uyğun qərar verirdi. Eyni zamanda əsgərlərə aid hüquqi işlərə də baxırdı [29, s.208].

1417-ci il avqustun 11-də Qaraqoyunlularla Məmlüklər arasında yaranmış anlaşılmazlıqların aradan qaldırılması üçün Qara Yusifin öz Qazıəsgəri Hamidüddini elçi kimi Məmlük sultanı Məlik Müəyyədin sarayına qiymətli hədiyyələr və məktubla yola salması Qaraqoyunlu dövlətində orduda əsgərlər arasındakı hüquqi məsələlərə baxan qazıəsgərin olduğunu, müəyyən vaxtlarda hətta elçilik vəzifəsini də yerinə yetirdiyini göstərir [20, s.417; 24, s.193-194; 30, s.97; 26, s.40-41].

### *7. Nökərlər*

Qaraqoyunlu ordusunun ən döyüşkən hissəsini etibarlı, yaxın dost mənasını verən nökərlər təşkil edirdi. Onlar həmişə hökmdarı müşayiət edər, onun xüsusi mühafizəçisi kimi öz sadiqliyini təsdiq etdirmiş döyüşçülərdir [29, s.270]. Azərbaycan Qaraqoyunlu dövlətinin yaranmasında bilavasitə iştirak edən nökərlər, qaynaqlarda “hassa nökərləri” kimi qeyd olunmuşdur [17, s.579]. Nökərlər, türkmanlar arasından seçilərdilər.

Hassa nökərləri ordunun əsas özəyini təşkil edirdilər. Onlar hökmdarı tək qoymaz, getdiyi yerdə onu müşayiət edərdilər. Qaraqoyunlu şahzadələrinin və bəylərin də əsgərlərinə nökər deyilirdi. Boy nökərləri türkmanlardan təşkil olunduğu halda, hökmdarın yanında olan nökərlər tanınmış əmirlərin və digər etibarlı şəxslərin övladları arasından seçilirdi [31, s.437]. Hökmdarın hassa əsgərləri maaşlarını divandan alırdılar. Cahanşah əmirlərə və əsgərlərə kömək etmək üçün İraq xəzinəsinin toplandığı Tarom şəhərindən 4 min Təbriz tüməni gətirdi və borc kimi əmirlərə verdi ki, məvaciblərinə uyğun şəkildə öz adamları arasında bölüşdürsünlər [10, s.193; 14, s.281]. Qara Yusif əsgərlərinin maaşlarını vaxtında almalarına çox diqqət yetirirdi və bu iş üçün ayrıca təşkilat yaratmışdı [36, s.80].

Qara Yusif Dəməşq zindanında olan zaman onun nökərləri ayrı-ayrı əmirlərin xidmətinə girmişdi. Əbubəkr Tehrani yazır ki, Dəməşq əmilür-ümərası Misir sultanı ilə düşmənçilik edirdi, buna görə şəhərdə narahatçılıq və qarı-

şıqlıq hökm sürürdü. Belə fitnə-fəsadın artdığı vaxtda Qara Yusif Dəməşqdə səpələnmiş və hərəsi bir əmirin nökəri olan türkmanları toplayıb qaçdı və Cura getdilər. Cura, Raqqə və Ruhada əmirlik edən Dəməşq Xacənin qardaşı Göycə Musanın yanına gəldilər [10, s.58].

Hökmdarların yanından ayrılmayan nökərlər həmişə hökmdarın köməyinə tələsir və onlara verilən bütün vəzifələri yerinə yetirirdilər. İlkin qaynaqlar Qara Yusifin nökərləri arasında Pir Öməri xüsusi qeyd etməkdədir. Qara Yusuf Dəməşqdə həbsxanada olarkən onun yaxın nökəri Pir Ömər bəy su sataraq özünün və onun ailəsinin dolanışığını təmin etməyə çalışırdı [10, s.58; 25, s.68]. Pir Ömər Qara Yusifin ən sadiq nökərlərindən biri kimi onun demək olar ki, bütün savaşlarına qatılmış və rəşadət göstərmişdir [30, s.103]. Qaru Yusif onun xidmətlərini yüksək qiymətləndirmiş, Ərzincanı ələ keçərdikdən sonra Pir Öməri oraya hakim təyin etmişdi [10, s.62; 9, s.66]. “Nəsrəddin” ləqəbini daşıyan Pir Ömər Qara Yusifin vəziri səviyyəsinə qədər yüksəlmişdi. Bu məlumatlar nökərlərin hökmdarın ən güvəndiyi adamlar arasında yer aldığını, onların zaman keçdikcə dövlətin idarə olunmasında ən yüksək vəzifələrdə xidmət göstərdiyini təsdiq edir [38, s.360]. Qara Yusif tərəfindən Ərzincan hakimi təyin olanan və zəmanəsinin çox şücaətli sərkərdəsi olan Pir Ömərin də öz sadiq nökərləri olmuşdu. 1420-ci ildə Pir Ömər Qara Osman Bayandurla döyüşdə əsir alınaraq öldürülən zaman onun sadiq nökərləri də öldürülmüşdü [10, s.63].

Yuxarıda qeyd etdiyimiz kimi, bəzən hökmdarın nökərləri onun müvafiq əmrlərini can-başla icra edirdilər. Belə ki, Qara Yusifin nökərləri Mardin valisi Məlik Salehi zəhərləyərək öldürmüşdülər [9, s.66-67].

Nökərlər zaman-zaman xidmətləri müqabilində hökmdarlar tərəfindən hədiyyələrlə də mükafatlandırılırdılar. Cahanşah hərbi səfərlər başa çatdıqdan sonra ziyafətlər təşkil edib hədiyyələr təqdim etdiyi kimi, nökərlərinə atlar, qızılı naxışlı yəhərlər, paltarlar, kəmərlər, papaxlar bağışlardı [12, s.25]. Nökərlər hökmdarlar üçün xüsusi və əhəmiyyətli olmuşdur. Şah Qubad əmisi Cahanşaha atası İsgəndərin öldürüldüyünü deyəndə, onun sözünə inanmayaraq xəbər göndərdi ki, “əgər doğru deyirsənsə, qardaşımın ən inanılmış nökəri Hələvəri öldür, başını hüzuruma göndər. Əmisinin bu fərmanı gələn kimi Hələvəri öldürdü, başını əmisinin yanına göndərdi” [10, s.94]. Bu hadisədən də anlaşıldığı kimi, nökərlərin öldürülməsi ən azı hökmdarların öldürülməsi qədər vacibdir. Çünki nökərlər hökmdarlara ən yaxın adamlar idi.

Qaraqoyunlu dövlətində nökərlər xidmət etdikləri hökmdara, şahzadəyə tam itaət göstərir və onların əhəmiyyətli miqdarda hərbi gücünü meydana gətirirdilər. Şahzadələr cəzalandırılan zaman onların nökərləri də öldürülərdilər. Belə ki, Cahanşah oğlu Pirbudağın üsyanını yatıraraq onu öldürtdükdən sonra Pirbudağın əl-Asfahiyyə camaatından olan nökərlərini də öldürmüşdü [40, s.354; 25, s.68].

Qaraqoyunlu tayfalarından seçilən boy nökərləri hökmdara hər zaman hərbi dəstək vermişdilər. 1467-ci ilin payızında Cahanşah Uzun Həsənə qarşı yürüşə çıxan zaman yanında sadiq nökərləri də yer almışdı. Uzun Həsən Cahanşahı qarşılamaq üçün səfərə çıxdığı zaman qarovulları Cahanşahın ordusunu qışlağa göndərdiyini, özü isə hassa əsgərləri, əmirləri, boy nökərləri və övladları ilə ordugahda qaldığını bildirdilər [9, s.252; 14, s.282]. Bu, hökmdarın nökərlərinin bilavasitə savaşa qatıldığını göstərir.

Qaraqoyunlular dövründə nökərlik etibar və sədaqət tələb edən bir qurumdur. Hökmdarlar hər vəziyyətdə onlara etibar etməli olurdular. Lakin Cahanşah bəzən öz nökərlərinə şübhə ilə yanaşırdı. Belə ki, Cahanşah Məhəmməd Süfrəçini Uzun Həsənin yanına elçi yollayan zaman onlar arasında baş verən dialoqda Uzun Həsənin “Mən onun xidmətində olan Şah Əli Bayraminin və digər əmirlərin tayı deyiləm ki, onun hüzuruna gələm. Həm də Cahanşah xoflu bir adamdır. O dərəcədə ki, hətta öz nökərlərindən də şübhəyə düşür. Necə ki, öz nökərlərindən biri olan Məhvəkdən xoflanmış və axırda onu qətlə yetirmişdir” [10, s.219] ifadəsində nökərlərlə bağlı Cahanşahın həssaslığını göstərdiyi kimi, nökərlərin əhəmiyyətini də ortaya qoymuşdur.

### *8. Yurtçi*

Dövrün ilkin qaynaqlarında ordu işlərini təşkil edən kəslər yurtçi adını daşımışdı. Onlar ordunun, şahzadələrin və qarovulların yerləşəcəkləri yeri təyin edərdilər [39, s.268]. Hökmdarların yaylaq, qışlaq dövrlərində, ov məra-

simlərində tədbir iştirakçıları üçün əvvəlcədən məskənlər müəyyənləirdi. Əmirlər, vəzirlər, inaqlar, bitikçilər, qazılar, seyidlər, imamlar, hərbi hissələr oz məskənlərini dəqiq bilməli və həmin yerdə qalmalı idilər. Qaraqoyunlu hökmdarının yaylaq, qışlaq dövrlərində, ov mərasimlərində tədbir iştirakçıları üçün əvvəlcədən məskənlər müəyyənləşirdi. Əmirlər, vəzirlər, inaqlar, bitikçilər, qazılar, seyidlər, imamlar, hərbi hissələr öz məskənlərini dəqiq bilməli və həmin yerdə qalmalı idilər. Bu məqsədlə münasib yerin seçilməsi və tədbir iştirakçılarının yerləşdirilməsi yurtçinin əsas vəzifəsi sayılırdı [8, s.325; 14, s.255; 6, s.91]. Ordunun baş yurtçisi hökmdarın fərmanı ilə təyin olunurdu. Yurtçi ilk növbədə hökmdar çadırı üçün yer ayırır, sonra şahzadələr, əmirlər, vəzirlər, digər dövlət əyanları və əsgrlər üçün ərazi müəyyənləşdirirdi. Şahzadələr və əmirlər hökmdar çadırının sağ cinahında, vəzir və divan sahibləri sol cinahda yerləşdirilirdi. Yurtçi hərbi vəzifə hesab edilirdi [8, s.325; 6, s.91]. Yurtçilər, Qaraqoyunlu əmirləri arasından və bəzən də aşağı rütbəli hərbçilərdən seçilirdi. Hərbi yürüşlər məqsədilə salınmış yurtlar bəzən geniş ərazini əhatə edirdilər. Vəziyyət dəyişdikdə, ilk növbədə oylaqlarda ələf qıtlığı yarandıqda yurtçilər yeni ərazilər axtarmalı və yeni yurtlar salmalı idilər [8, s.326; 6, s.91]. Yurtçi ilk növbədə ərazinin mansibliyini yoxlamalı idi: oranın yaxşı havası, içməli suyu, otlağı olmalı idi. Yurtlar adətən yaşayış məskənlərindən uzaqda təkil olunurdu. Yurtçi ilk növbədə haökmdar çadırını üçün yer ayırır, sonra isə şahzadələr, əmirlər, vəzirlər, digər dövlət əyanları və əsgərlər üçün ərazi müəyyənləşdirirdi. Şahzadələr və əmirlər hökmdar çadırının sağ cinahında, vəzir və divan sahibləri sol cinahında yerləşdirilməli idilər. İnaqlar hökmdar çadırın yaxınlığında oturmalı idilər [8, s.325].

Yurtçi hərbi vəzifə hesab olunduğuna görə yürüşlərdə də iştirak edirdilər. 1457-ci ildə Cahanşahın Teymuri Sultan İbrahimlə Astrabadda baş verən döyüşündə yurtçuların verdiyi məlumat şəhərin ələ keçirilməsində əsaslı rol oynamışdı [10, s.185-186; 6, s.91-92]. Əbubəkr Tehrani bununla bağlı yazır: "... Cahanşah Məhəmmədi Mirzəni və Əbülfəth bəyi qabaqda hücuma göndərdi və özü də onların ardınca hərəkət etdi. Onun yanındakı əmirlər, sərkərdələr və boy nökərləri dördnala çapırdılar. Elə sürətlə getdilər ki, iki günə səhər günəş çıxanda Astrabad şəhərinin darvazasına çatdılar. Şəhər əhalisi düşmən qoşununun glişindən xəbərsiz idi, birdən yaxınlaşan dəstəni görüb qorxuya düşdü və öz evlərinə qaçdı. Bu xəbər Baba Həsənə çatdırıldı və o, həm qarşıda, həm də arxada düşmən olduğunu görüb, qaçdı. Sultan İbrahimə elə bildi ki, Baba Həsən onun qorxusundan qaçıb, ona görə cəsarətlə Astrabada doğru hərəkət etdi. Yolda ona belə xəbər verdilər ki, sərhəddə olan türkmanlardan təqribən min nəfər süvari Astrabadın boş olduğunu bilib və hücum çəkərək şəhərə gəlib. Sultan İbrahim sürətini artırdı və Əbu Səid meyrəmi qabağa göndərdi. Onlar yolda ikən Cahanşah Mirzənin yutçiləri bundan xəbər tutdular və şəhərə gəlib bunu ona bildirdilər... O, Məhəmmədi Mirzəni və Bayəzid Cagirlini onların qarşısına göndərdi" [10, s.186; 14, s.255-256]. Cahanşah dövründə Rüstəm Yurtçi, Rüstəm Tərxanın Ağqoyunlular üzərinə hərbi səfəri zamanı onun ordusunda olmuşdu [10, s.146; 39, s.185].

### *9. Yasavul*

Bu termin monqol sözü olan "yasa"dan (qanun, qayda) yaranmışdır. Yasanın hökmlərini yerinə yetirən məmurlar "yasavul" adlanırdı. Yasavul dövlət aparatında olan ən mühüm vəzifələrdən bridir. Yasavullar hərbi yürüşlər dövründə və döyüş anlarında bütün hərbi birləşmələr və hissələr üçün döyüş yerlərini müəyyənləşdirir, əmirləri və döyüşçüləri həmin yerə gətirir, onların öz mövqelərini tərk etməmələrinə nəzarət edirdilər. Yasavullar qurultay, böyük toy məclisləri və şənliklər keçirilən vaxtlarda da əmin-amanlığı qoruyurdular. Döyüşə hazırlıq görülərkən, yeni hərbi hissələr təkil olunarkən xüsusi yasavullar təyin olunurdular və bu iş onlara tapşırılırdı. Yasavullar yürüş zamanı hərbi hissənin önündə və hər iki cinahda gedir və əsgərlərin nizamlı və ahəngdar hərəkətini təmin edirdilər. Yasavullar bütün hərbi bölmələrdə fəaliyyət göstərirdilər [8, s.324].

Yasavullar bukavul ilə birlikdə qurultayda və toy məclislərində hər boyun yerləşəcəyi mövqeyi müəyyən etmək, bu xüsusda ixtilafların ortaya çıxmasına mane olmaq və hökmdar adına verilən əmrləri qurultay iştirakçılarına çatdırmaq kimi vəzifələrə də sahib idi. Bu sə-

bəbdən yasavul, adət-ənənəyə nəzarət edən ordu müfəttişi də hesab olunurdu. Əsgərlərin cəzalandırılmaı işi də yasavulun vəzifəsinə daxil idi. Görünür, digərlərinə ibrət olsun deyə, hökmdarın qarşısında həyata keçirilən cəzalandırma prosesi də yasavulun vəzifəsinə daxil idi [23, s.40].

İ.H.Uzunçarşılı yazır ki, əmir yasavulun ətrafında ona tabe olan yasavullar da olurdu. Yasavullar müharibə vaxtı əsgərlərin geri qayıtmasının qarşısını alan bir birlik kimi Osmanlı ordu alayının çavuşlarına bənzəyirdilər. Səltənət sarayında yasavulbaşı taxt qarşısında dayanırdı. Əgər xüsusi qanun olsaydı, bu adam taxtın qarşısında, böyük çadırın qapısının yanında dayanmalı idi [36, s.228-229].

Yasavullar hökmdarın və ya əmirin şəxsi xidmətlərinə girə, sarayda və ya orduda xidmət edə, dövlət işlərində yüksək vəzifələrə yüksələ bilirdilər. Hərbi işlərlə bağlı əmrləri ünvanlarına çatdırmaq yasavulun vəzifəsi idi [15, s.74].

Qaraqoyunlu ordusunda yasavulların olduğunu Cahanşahın oğlu Pirbudağın Qənaşirinin nəzarətində olan Sircan qalasını ələ keçərmək üçün göndərdiyi əsgərlər arasında rast gəlməkdəyik. Əbubəkr Tehrani yazır: "Sircan qalası hələ də Qənaşirinin əlində idi. Nəhayət, Pirbudaq Mirzə Əlişəkər bəyin oğlu Məhəmmədi, Barik bəyi və Dəvə bəyi böyük bir dəstə ilə Sircan qalasını almağa göndərdi. Onlar qalanı mühasirəyə aldılar. Əlvənd Mirzə bu xəbəri eşidib, qəflətən hücum etdi və onları darmadağın etdi. Əlişəkər bəyin oğlu Məhəmmədi, Dəvə bəyi və Şeyx Məhəmməd Yasavulu əsir tutdu. Barik bəy qaçıb Şiraza getdi. Əlvənd Mirzə Əlişəkər bəyin oğlu Məhəmmədi, Dəvə bəyi və tutduğu digər adamları Süleymani qalasına göndərdi və tutduğu adamların təqribən yüz nəfərini qılıncdan keçirdi" [10, s.182; 9, s.199]. Şeyx Məhəmməd Yasavulun Pirbudağın qoşununda yer alması bu vəzifənin Qaraqoyunlu ordusunda olduğunu təsdiq edir.

### *10. İnaqlar*

İnaqlar hərbi işlərdə yaxından iştirak etmişlər. "İnaq" termini "bəxtiyar, uğurlu", "inanılmış şəxs", "dost", "həmsöhbət" məna kəsb edir. İnaqlar dövlət idarəsində məsləhətçi kimi fəaliyyət göstərdikləri üçün hökmdarın hüzurunda hərbi məsələlərin həllində öz məsləhətlərini verirdilər. Onlar həm də hərbi yürüşlərin təkilində, səfərbərliyin həyata keçirilməsində iştirak edirdilər. İnaqlar daha kiçik hərbi bölmələrdə də fəaliyyət göstərirdilər [8, s.323].

Hökmdarlar etimad etdiyi adam olan inaqlar vasitəsilə uyğun hesab edilən yerlərə ən əhəmiyyətli və gizli əmrləri çatdırırdılar [36, s.79]. İnaqlara nüfuzlu bəylərdən rəhbər seçilirdi.

İnaqlar hökmdarın güvəndiyi şəxslər olduğu üçün çox zaman mühüm vəzifələr onlara həvalə edilirdi. Belə ki, 1410 ildə Qara Yusif ilə Cəlayiri Sultan Əhməd arasında baş verən döyüşdən sonra Cəlayiri Əhməd qaçaraq bir bağçanın oyuğunda gizləndi. Bağçanın sahibi yaşlı başmaqçı bu barədə Qara Yusifə məlumat verdi. O, da Şeyx Dursunu, Şeyx Hacını, Mahmud İnağı və Satılmışı Sultan Əhmədi gətirmələri üçün göndərdi [9, s.70; 30, s.84-85].

Hökmdarın yanında olduqları üçün əsgəri təhsil alan inaqlar, zaman-zaman əhəmiyyətli xəbərlərin hökmdara çatdırılmasında da önəmli rol oynayırdılar. Necə ki, Uzun Həsən Diyarbəkirdən Cahanşahı qarşılamaq üçün yola çıxdığı xəbəri Cahanşaha kimsə çatdırmağa cəsarət göstərə bilməmişdi. Həsən bəy Rumlu yazır: "Pirzad bəy Buxari, Şah Hacı bəy Həmədani, Rüstəm Yaqubi, Pir Məhmad və onun qardaşı, Qurmişi Şəki, Əmənoğlu Hüseyn, Lələ Səfərşah, Şeyx Bəhlul Cağatay kimi əmirlər, digər sərdarlar və inaqlar dəstəsi asiman nişanlı dərgaha gəldilər. Padşah onların toplanmasının səbəbini soruşdu. Məhrəm nədimlərdən və həmdəm müqərrəblərdən olan Qazı Abdulla ərz etdi ki, "məgər bir xəbər eşitməmişsiniz?". Ona görə də türkman hökmdarı əmirləri çağırıb xəbərin nədən ibarət olduğunu onlardan soruşdu. Onların məşvərəti ilə yükləri ("ağruq") zəfər nişanlı ordugahın üç fərsəxliyində yerləşən Boyan qalasına göndərdi. Bir dəstəni də qaravulluq etməyə yolladı. Özü isə nəfis vücudu ilə dərgah əmirləri və ordunun qalan hissəsi ilə atlanıb [Həsən padşahı] qarşılamağa tələsdi" [9, s.249; 14, s.254-255].

Qaraqoyunlular dövründə inaqlar hərbi səfərlərə də qatılırdılar. Belə ki, Babür Mirzə Şiraza getdiyi zaman Cahanşah Teymurilərin vəziyyətinin zəiflədiyini düşünərək oğlu Pirbudağı, Əmir Bəyazid Bistamı, Əmir Əlişəkər kimi əmirlərin yanında inaqları da vəzifələndirərək İraqı almaq üçün göndərmişdir. Həmçinin, Ca-

hanşah Teymurilərə qarşı mübarizə aparmaq üçün Xorasana hərəkət etdiyi zaman Əlaüddövlənin oğlu Sultan İbrahimin Astrabada çatdığını və yanına Babur Mirzənin oğlu Şah Mahmud Mirzəni götürdüyü xəbərini aldı. O, oğlu Məhəmmədi Mirzəni və Əbülfəth bəyi qabaqda hücuma göndərdi, özü də arxadan hərəkət etdi. Əmirlərdən, inaqlardan və boy nökərlərindən hər biri sürətli gedən dəvələrlə Cahanşahın yanında hərəkət etdilər [33, s.226; 14, s.255]. Qaraqoyunlu hökmdarı 1467-ci ildə Uzun Həsənə qarşı Diyarbəkrə yürüş edən zaman Xoyun Sökmənova meydanında öz qərargahını qurmuş, Pirzad bəy Buxari, Şah Hacı bəy Həmədani, Rüstəm Yaqubi, Pir Məhmad və onun qardaşı, Qurmişi Şəki, Əmənoğlu Hüseyn, Lələ Səfərşah, Şeyx Bəhlul Cağatay kimi əmirlər, digər sərdarlar və inaqlar dəstəsi asiman nişanlı dərgaha gəldilər [33, s.278; 9, s.250]. Dövrün qaynağının verdiyi bu məlumatdan aydın olur ki, inaqlar hökmdarın bilavasitə iştirak etdiyi hərbi səfərlərə qatılmışdılar.

1467-ci ilin noyabrında Muş döyüşündə Uzun Həsən Cahanşahı məğlub etdikdən sonra ələ keçirdiyi əsirlər arasında inaqlar da vardı [9, s.253; 25, s.72]. Bu, inaqların hökmdar ilə birlikdə döyüşdə iştirak etdiyini bir daha təsdiq edir.

### *11. Bukavul*

Tarixi ədəbiyyatda bukavul termini şənlik təkilatçısı, süfrəyə və xörəyin dadına baxan məmur kimi keçsə də, onlar ordu hissələrində çox yüksək mövqe tutmuşlar.

Digər türk dövlətlərində olduğu kimi Azərbaycan Qaraqoyunlu dövlətində də hökmdarın zəhərlənmək qorxusu dövlətçiliyin yetkinləşməsinin əlaməti kimi qəbul edilir, yemək-içməyin yoxlanılması dövlət işi kimi qəbul edilirdi. Bu işi bukavul adlı məmurlar yerinə yetirirdilər. Çaşnigir də adlanan bukavul sarayda mətbəxə və yeməklərə nəzarət edən, qablara zərərli şeylərin qoyulmamasına nəzarət edən, zəhərləndiyi halda hökmdarın hüzurunda yeməyin dadına baxan şəxsdir [36, s.274; 14, s.253].

Qaraqoyunlu dövlətində bukavullar bu vəzifələrdən başqa digər mühüm vəzifələri də yerinə yetirirdilər. Bukavul ordu hissələrində əmirlərdən sonra ən yüksək və böyük hesab olunan şəxsdir. Bukavullar ordunun və ordu hissələrinin quruluşu və effektiv fəaliyyəti üçün dəqiq tədbirlər görməli, Ali divandan ordu üçün ayrılmış təxsisatı almalı, əldə edilmiş qənimətləri ordu hissələri arasında ədalətlə bölməli, orduda nizam-intizamın möhkəmlənməsinə çalışmalı idilər. Baş əmir istisna olmaqla, bütün hərbi heyət ordu bukavuluna tabe idi. Hər bir ordu tüməndə tümən bukavulu olduğu kimi, bukavullar daha kiçik hərbi hissələrdə – minliklərdə və yüzlüklərdə də fəaliyyət göstərirdilər [8, s.323-324; 27, s.233-234].

Teymurilər və Qaraqoyunlular dövründə ordunun ehtiyaclarını ödəmək üçün lazımi məhsulların tədarükü üçün bölgələrə bukavullar göndərilirdi. Belə ki, Cahanşah 1456-cı ildə Əcəm İraqında və Xorasanda Teymuri Babur Mirzəyə qarşı mübarizə zamanı Xorasan bölgəsinə getməyə qərar verdi, Reydə yerləşdi və qoşun toplamaq və sursat tədarük etmək məqsədilə ölkənin hər bir yerinə elçilər və bukavullar göndərdi [33, s.225; 10, s.185; 12, s.51; 6, s.90-91]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah oğlu Pirbudağın üsyanını yatırmaq üçün Bağdad üzərinə yürüşə qərar verərək ordu toplamaq məqsədilə ölkənin hər tərəfinə bukavullar göndərmişdi [33, 242; 14, s.254; 6, s.91].

Azərbaycan Qaraqoyunlu dövlətində bukavullar elçi vəzifəsini də yerinə yetirmişdilər. Cahanşahla Şiraz valisi olan oğlu Pirbudaq arasında ixtilaflar yaran zaman qərara gəldi ki, Şirazı Pirbudaqdan alıb başqa oğlu Məhəmmədi Mirzəyə versin, İsfahanı isə birbaşa öz divanına tabe etsin. O, Şiraza hərəkət edən zaman Pirbudağın pərvanəçisi və ən yaxın adamlarından olan İbrahimşah bəy peşmanlıq yoluna qədəm qoyub onun yanından qaçdı və ona tapşırılan darvazanı baxımsız buraxıb Cahanşahın adamlarında Şirazın fəth olunacağına ümid yaratdı. Onun qaçışından sonra sülh söhbəti ortaya çıxdı. Pirbudağın anası oğlunun xahişi ilə sülh danışığında vasitəçi oldu. Belə qərara alındı ki, Pirbudaq Şirazı təslim edib, Tustər tərəfə getməlidir. Bir müddət keçəndən sonra, eləcə də nankorluq yolundan dönüb atasına itaət yoluna qədəm qoyduğu hamıya bəlli olanda, o, yenidən Şiraza qayıdıb hakimlik edəcəkdir [10, s.195]. Pirbudaq həmin qərara əsasən Tustər tərəfə getdi. Lakin Şiraz Cahanşahın əlinə keçdikdən sonra o, bağladığı əhdi pozaraq Şirazı Pirbuda-

ğa verməməyə çalışdı. Buna görə, üç bukavulunu Tustərdə olan Pirbudağın yanına elçi göndərdi və onu Bağdada getməyə razı salmağa çalışdı [40, s.345; 25, s.73].

Belə ki, 1466-cı ildə Cahanşahın ordusunun Əhlət tərəfə hücumu xəbəri Uzun Həsənə çatsa da, o, bu xəbərə biganə qaldığı halda, Cahanşah onun yanına elçi göndərərək razılığa gəlmək istəyir. Cahanşahın Aynal adlı bukavulu elçi kimi Uzun Həsənin yanına gəldi, hədiyyə kimi ona qızıl qılınc kəməri və çoxlu parçalar təqdim etdi. Uzun Həsən qızıl qılınc kəməri belinə bağladı və dedi: "Qızıl kəmər göndərmək səltənət işlərini təhvil vermək deməkdir" [33, s.263; 10, s.205; 9, s.247; 14, s.254; 6, s.91].

Qaraqoyunlu hökmdarı Cahanşah Uzun Həsənə qarşı yürüşə başlayan zaman yanında kifayət qədər qüvvə olmadığını nəzərə alaraq qoşun toplamaq üçün ayrı-ayrı vilayətlərə bukavullar göndərdi. Məhəmmədi Mirzəni İsfahandan, Əbu Yusif Mirzəni Şirazdan, əmirləri Savə və Sultaniyyə yaylaqlarından və digər vilayətlərdən yanına çağırdı [33, s.271; 10, s.221; 12, s.69-70]. Bu, bir daha göstərir ki, bukavullar əsas vəzifələrindən başqa təvaçi vəzifəsini də yerinə yetirmişdilər.

### 12. *Pərvanəçi*

Qaraqoyunlu dövlətində hökm və yarlıqlar Pərvanəçi divanında hazırlanırdı. Qaraqoyunlu fərmanlarının üzərində hökmdarın möhürü, yanında da vəzirlərin adı yazılırdı. Fərmanın altında və sağ tərəfində pərvanəçilərin adının qeyd olunması onun pərvanəçi divanında hazırlandığını göstərir. Həsənəli dövründə 1467-ci ildə Göyçə və Urut vilayətləri üçün verilmiş fərmanın kənarında "Saray qulu Mir Əli Pərvanəçinin" adı qeyd edilmişdi [14, s.263-264; 6, s.81-82]. Bu dövrdə pərvanəçilər fərman yazmaqla yanaşı hərbi yürüşlərə də qatılırdılar. Uzun Həsən Cahanşah üzərində qazandığı qələbə ilə bağlı Osmanlı sultanı II Mehmedə göndərdiyi məktubunda yazırdı: "Cahanşah ordusunu və oğlanlarını toplayaraq Ağqoyunlular üzərinə hərəkət etdi. O, Muş yolundan keçərək mənim nəzarətimdə olan Çəpaxcura gəldi. Mən yeddi gündən sonra ona doğru gəldim. Onunla mənim aramda iki fərsəx yol qaldıqda mən yolu bağladım. Böyük oğlum Xəlil üç minlik süvari ilə həmin gün Cahanşahın ən böyük əmirlərindən olan Əmir Qasım Pərvanəçi də otuz nəfərlik məşhur əmirlərdən və beç minlik nəfərlik dəstə ilə qarovulluğa gəlmişdilər" [19, s.274; 14, s.264; 6, s.82]. Məktubdan göründüyü kimi Cahanşah dövründə pərvanəçilər lazım gəldikdə öz vəzifələrindən savayı hərbi yürüşlərdə də iştirak edirdilər. Vəzifəsinin müəyyən mənada mirzəçilik olmasına baxmayaraq, pərvanəçiyə hərbi tapşırıqlar da həvalə olunur, ona diplomatik missiyanı yerinə yetirilməsi tapşırılır, hətta döyüşlərdə iştirak etmək də həvalə olunurdu. Əbubəkr Tehrani yazır ki, Cahanşah Qaraqoyunlu Şiraza hakim təyin etdiyi oğlu Pirbudağı dikbaşlığına görə cəzalandırmaq üçün Şiraza yollananda Ucanda Pirbudağın dəstəsinin hücum xəbərini aldı, oğlu Məhəmmədi Mirzəni, Əmir Şahəlini, Əmir Əlişəkəri və Əmir Qasım Pərvanəçini böyük əmirlərlə min beş yüz atlı ilə hücuma göndərdi. Baş verən döyüşdə Pirbudağın kəşfiyyat dəstəsi məğlub oldu. "Bir neçə gün keçdikdən sonra Pirbudağın pərvanəçisi və ən yaxın adamlarından olan Şadı bəyin oğlu İbrahimşah bəy peşmanlıq yoluna qədəm qoyub onun yanından qaçdı və ona tapşırılmış darvazanı baxımsız buraxıb Cahanşah Mirzənin düşərgəsinə gəldi. Onun qaçmağı Pirbudağın süqutunu yaxınlaşdırdı və eyni zamanda Cahanşahın adamlarında Şirazın fəth olunacağına ümid yaratdı [10, s.195; 4, s.46; 14, s.264; 6, s.82].

Cahanşah tərəfindən Qasım Pərvanəçi həm də Yəzd hakimi təyin edilmişdi. 1467-ci ilin noyabrında Uzun Həsən Çapaxcur döyüşündə Cahanşahı məğlub edib öldürən zaman tanınmış Qaraqoyunlu əmirləri də ələ keçirilərək öldürülmüşdü. Həsən bəy Rumlu bununla bağlı yazır: "Qətlə yetirilmiş əmirlər arasında divan əmiri Pirzad bəy, tuğaçı Rüstəm bəy Alpavut, Lələ Səfərşah, Qurmişi, Yəzd valisi Qasım Pərvanəçi və Əmənoğlu Hüseyn vardı. Onların hamısı tuğ və nağara sahibi, tümən və minlik sərdarı idilər" [9, s.253; 25, s.51].

### 13. *Əmiraxur*

Qaraqoyunlu ordularında minik heyvanlarına nəzarət və nəqliyyat məsələlərinə rəhbərlik etmək əmiraxurun öhdəsinə düşürdü. Qoşunun əsas minik vasitəsi olan at ilxılarının ümumi sayı haqqında hökmən əmiraxurun məlumatı olmalı idi. Sultan Əhməd Cəlairinin məğlub olub

qaçmasından sonra əsir alınmış düşmən əmiraxurlarına Qara Yusifin verdiyi suallar bu fikrin təsdiqi üçün səciyyəvidir. Həsən bəy Rumlu yazır: "O əsnada Qara Yusif Türkman, sultanın miraxurlarını toplamışdı və onlardan sultanın əhvalını, onun yanında neçə at gətirdiyini, indi yanında neçə at ola biləcəyini və onun atlarından neçəsinin öz qoşununun əlinə düşdüyünü soruşurdu" [9, s.70; 3, s.62; 4, s.68; 6, s.96]. Müharibə vaxtı ordu ilə hərəkət edən əmiraxurlar da şəxsən döyüşürdülər. Əbubəkr Tehrani yazır: "... Qasım Əmiraxurun başçılıq etdiyi qoşun Nəsibin və Mardinin bəzi hissələrini qarət edib geri döndü" [10, s.130; 4, s.68].

### *14. Daruğa (şihnə)*

Uyğur dilində "vilayət valisi" mənasını verən daruğa sözü, eyni zamanda, idarə etmək, yönləndirmək, müşahidə etmək mənalarını da daşıyır. Şəhər daruğası həm də xəzinədarlıq orqanının vergi yığımına nəzarət edən ən yüksək nümayəndəsidir. Bundan əlavə, daruğalar olduqları yerlərdə hərbi işləri görmək, istəsələr bölgənin hərbçiləri ilə döyüşə getmək, fövqəladə vəziyyətlərdə bir yerin vergisini toplamaq üçün təyin oluna bilərdilər [11, s.115; 14, s.270].

Vilayətlərdəki daruğalar maliyyə və inzibati işlərə cavabdeh olduğu halda, siyasi səlahiyyətlərə də sahibdirlər. Qaraqoyunlu hökmdarları lazım bildikləri zaman ələ keçirdikləri vilayətlərin inzibati və maliyyə işlərinə nəzarət etmək üçün daruğalar təyin etmişlər. Daruğalar həm də şəhərin mühafizəsi ilə mşğul olmuşdu. Belə ki, 1406-ci ilin oktyabrında Qara Yusif Əbu Bəkrlə döyüşdə qələbə çaldıqdan sonra Naxçıvana getdi. Bu zaman Təbriz şəhərinin tanınmış simalarından olan Xoca Seydi Məhəmməd Keçəçi Qara Yusifin hüzuruna gələrək Teymuri Əbu Bəkrin Təbrizdə törətdiyi qarət və talanlar barədə məlumat verdi və onu Təbrizə doğru hərəkət etməyə çağırdı. Qara Yusif Təbrizin mühafizəsi üçün bir dəstə və daruğa göndərdi" [9, s.55; 30, s.74; 12, s.5; 14, s.270; 25, s.53]. Qaraqoyunlu hökmdarı şəhərləri ələ keçirən zaman ilk olaraq oraya daruğa təyin dilirdi. Belə ki, 1458-ci ildə Cahanşah Heratı ələ keçirən zaman Pirzad bəy Buxarini Heratın daruğası təyin etmişdi [9, s.219; 16, s.114; 14, s.270]. Qaraqoyunlu şahzadələri də idarə etdikləri vilayətlərdə daruğalar təyin edirdilər. Belə ki, Pirbudaq iki aydan artıq Qum şəhərini mü-hasirədə saxlasa da, şəhər hakimi Dərviş Əli Mirək ciddi müqavimət göstərdi. "Axırda o məmləkətin başbiləni olan Xoca Yəhya Qumi şəhəri Mirzə Pirbudağa təslim etdi. Dərviş Əli Mirək əsir alınıb zəncirə vuruldu. Sonra Mirzə Pirbudaq Qumu daruğaya tapşırıb hərəkət bayrağını Cürbadəqan tərəfə yüksəltdi" [9, s.189].

Həsən bəy Rumlu yazır: "Cahanşah padşah Azərbaycan hüdudundan İraqa yanaşıb İsfahan əyalətini Xoca Mahmud Heydərə həvalə etdi və hökm göndərdi. Xoca Mahmud hökumət işlərini və sərdarlıq vəzifələrini yerinə yetirməklə məşğul oldu. Qış bitdikdən sonra [Cahanşah] İsfahanı öz oğlu Məhəmmədi mirzəyə verdi və onun göndərdiyi daruğa Lələ Məhəmməd şəhərə gəldi" [9, s.190; 15, s.53].

1458-ci ildə Heratdan qayıdan Cahanşahla oğlu Pirbudaq arasında münasibətlərin pozulmasında Yəzd daruğasının rolu az omamışdı. Belə ki, Pirbudaq Heratdan Yəzdə gəlmiş, şəhər əhalisinə zülm edərək onlar üzərinə ağır vergilər qoymuş və Satılmış əl-Şirəçini şəhərə təhsildar təyin etmişdi. O, Cahanşahın yanında olan şəhərin daruğası Qənbər əl-Xəznəcinin xanımına və övladlarına qarşı pis davranmışdı. Qənbər əl-Xəcnəci şəhərə qayıdan zaman baş verənlərdən xəbar olmuş, xanımının, qızının və oğlunun başını kəsərək Cahanşahın önünə gətirmiş, "sənə xidmət etməyə davam etməyin cəzası budur" demişdi. Cahanşah nə baş verdiyini soruşduqda, baş verənləri anlatmışdı. Buna görə Cahanşah xəbər göndərərk Pirbudaqdan Satılmışı tələb etmişdi. Ancaq Pirbudaq Satılmışı göndərməməkdə israrlı olmuşdu. Satılmışın Cahanşahın təyin etdiyi Yəzd daruğasına qarşı bu pisliyi etməsi Cahanşahla oğlu Pirbudaq arasında münasibətlərin pozulmasına səbəb oldu [40, s.342-343; 25, s.53-54]. Bu bir daha göstərir ki, daruğalar təyin edildikləri şəhərdə tam səlahiyyət sahibi olmuş, onlara qarşı edilən hərəkətlər hökmdara qarşı edilmiş hərəkət hesab edilmişdir. Bu hadisədən sonra Cahanşahla oğlu Pirbudaq arasında münasibətlər gərgin olaraq qalmış, hər ikisi bir-biri haqqında təmkinli hərəkət etməyə çalışmışdır.

Qaraqoyunlu dövlətinin ayrı-ayrı şəhərlərində daruğaların mühüm nüfuza sahib olmasını 1467-ci ilin payızında Uzun Həsən Cahanşahı

məğlub etdikdən sonra Qaraqoyunlu vilayətlərini ələ keçirmək üçün Qaraqoyunlu daruğalarına elçilər göndərərək onları tabe olmağa çağırması təsdiq edir [29, s.203; 14, s.270-271].

Elxanilər və Cəlairilər dövründə olduğu kimi, Qaraqoyunlu dövlətində də daruğa və şəhnə istilahı işlənmişdi. Bilindiyi kimi, monqollar döyüşlər zamanı zəbt etdikləri vilayətə, şəhərə, mahala, kəndə şəhnə təyin edirdilır və onlar "basqaq" kimi də tanınırdılar. Şəhnələr şəhərdə əmin-amanlığı qorumalı, cinayətkarları və qanun pozanları, qiymət, çəki, ölçü və s. pozğunluqlarına yol verənləri məsuliyyətə cəlb etməli idilər [8, s.349]. Cahanşahın 1449-cu il 23 may tarixli Tatev və Vağadi monastırlarının torpaq vergisindən azad edilməsi adlı fərmanında daruğa və şəhnə istilahı yanaşı işlənmişdi. "Keçmiş hökmdarlar və cahanı itaətinə alan padşahın fərmanı üzərinə əski zamanlardan bəri Tatev və Vəğadi monastır torpaqlarının məhsulları onlara aid olub, zəvvarların ehtiyaclarının təmin olunması üçün onlara verilmişdir. Bütün daruğalar, şəhnələr, məliklər və Orot bölüyünün kəndxudaları ölkələr fəth edən xaqanın ali fərmanına uyğun olaraq" qeyd olunan monastır torpaqlarında əkin və məhsul biçininə qarışmamalıdırlar [41, s.163, 245]. Qaraqoyunlu hökmdarı Cahanşahın Tatev və Vağadi monastır torpaqlarının vergi mükəlıəfiyyətlərdən azad edilməsi haqqında fərmanında da "Kapanat, Arran və Arazbar ölkəsinin əmirləri, hakimləri, daruğaları, mütəvəkkilləri, amilləri, məmurları, əmir tümənləri, xüsusən şəhnələri, müqəddəm və məlikləri..." ali fərmanla tanış olsunlar [41, s.164, 247]. Fərmandan da göründüyü kimi, daruğa və şəhnə yanaşı işlənmişdir. Ancaq görünən odur ki, bu dövrdə şəhnə daruğadan rütbəcə xeyli aşağı vəzifə olmuşdur.

### 15. Qəcərçi (bələtçi)

Qaraqoyunlu ordusunun hərbi yürüşləri zamanı mühüm rol oynayan qəcərçilər (bələdçilər) əsas marşrutları bilən bacarıqlı şəxslərdən seçilirdi. Ordunun əməliyyatı zamanı onlar orduya bir növ bələdçi kimi xidmət edirdilər. Qəcərçilər ordunun hərəkət edəcəyi marşrutun təyini, şəhər və ya qalaların xüsusiyyətləri, səfər marşrutunun coğrafiyası haqqında orduya geniş məlumat verirdilər. Qaraqoyunlu hökmdarları öz yürüşlərində daim qəcərçilərdən istifadə etdikləri üçün bu işi çox zaman ordunun böyük əmirlərinə həvalə edirdilər. Yüksək rütbəli əmirlərdən başqa ölkə yollarını yaxşı bilən əsgərlər də qəcərçi vəzifəsini yerinə yetirə bilirdilər. Əmir Teymur əmirzadə Pir Məhəmmədin Van gölü hövzəsinə getməsini əmr edəndə o, bu əmri yerinə yetirdi. Vilayət əsgərlərindən biri qaçıb əmirzadə Pir Məhəmmədin yanına gəldi və vilayətin yollarını yaxşı bildiyini, icazə verilsə orduya qəcərçi olmaq istədiyini söylədi. Pir Məhəmməd bu əsgərə güvənərək ona xələt verdi və Şeyx Əli Bahadırı mənqəlay təyin edərək qəcərçi ilə birlikdə yola saldı. Lakin qəcərçi yolda Şeyx Əli Bahadırı bıçaqla öldürdü və özü də ələ keçərək edam edildi [32, s.158-159].

Ağqoyunlu Qara Yülük Osman bəy Əmir Teymurun Anadolu səfərlərində onun ordusunda qəcərçi vəzifəsini yerinə yetirmiş və Teymur ordusunun Sivasa hərəkətinə yardım etmişdi. O, eyni zamanda Əmir Teymurun Dəməşq səfərində də qəcərçi vəzifəsini yerinə yetirmişdi [33, s.44; 10, s.55; 26, s.47]. Əbubəkr Tehrani yazır ki, Rüstəm Tərxanın başçılığı altında Qaraqoyunlu ordusunun Anadoluda Uzun Həsənə qarşı yürüşü zamanı Ağqoyunlulardan qaçaraq Qaraqoyunlulara sığınan və ətrafı yaxşı tanıyan Ağ Ağman Əlinin oğlu qəcərçi vəzifəsini yerinə yetirmişdi [33, s.129-130; 10, s.114; 26, s.47].

Ölkəyə gələn elçilər bəzən saxlanılaraq təşkil olunacaq hərbi səfərlərdə qəcərçi kimi istifadə edilirdilər. 1391-ci ildə Toxtamış xanla müharibədən bir qədər əvvəl Toxtamış xan Əmir Teymurun yanına iki elçi göndərmişdi. Elçilər Əmir Teymur sarayında böyük ehtiram görsələr də, əmir onların qayıtmasına icazə verməmiş və elçilərdən qəcərçi kimi istifadə etmişdi [34, s.186].

### Nəticə

Azərbaycan Qaraqoyunlu ordusunun hərbi cəhətdən təşkili və qoşunda iştirak edən hərbi vəzifəlilərin hər biri üzərinə düşən mühüm vəzifələrin öyrənilməsi bir daha göstərir ki, Qara Yusif və varisləri dövründə əldə olunan zəfərlər hərtərəfli təmin edilmişdir. Belə ki, düşmənə qarşı yürüşə başlayan Qaraqoyunlu qoşunun hərbi vəzifəliləri hərbi səfərlərin, eləcə də düşmənlə əsaslı döyüşdə ordunun baş komandanının tətbiq etdiyi döyüş taktikasına uyğun olaraq qələbənin əldə olunmasına öz töhfəsini vermiş-

dir. Nəzərə alsaq ki, Qaraqoyunlu ordusu orta çağların əksər türk-müsəlman dövlətlərində olduğu kimi onluq say sistemindən istifadə etmiş, qoşunun hər bir hərbi vəzifəlisi ilə yanaşı texniki təminatı həyata keçirən hərbi vəzifəliləri də zəfərin təmin olunmasında yaxından iştirak etmişdir.

**Mənbə və ədəbiyyat**


1. Azərbaycanın hərb işi tarixi, c. 1, Bakı, Hərbi nəşriyyat, 2006.
2. Əmir Teymurun vəsiyyətləri. Özbəkcədən çevirəni Məti Osmanoğlu. Bakı: Azərnəşr, 1991.
3. Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə), Bakı: Elm, 1983.
4. Fərzəlibəyli Ş.F. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı: Elm-təhsil, 2003.
5. Qızılbaşlar tarixi. Fars dilindən tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı: Azərbaycan nəşriyyatı, 1993.
6. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Bakı: Çaşıoğlu, 2012.
7. Petruşevski İ.P. XV əsr Azərbaycan dövlətlətləri, //Azərbaycan SSR Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, 1 cild, Bakı: 1951, s. 49-108.
8. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı: Elm və təhsil, 2003.
9. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu: 2017.
10. Tehrani Ə. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi Rahilə Şükürova. Bakı: Elm, 1998.
11. Aka İ. Timur ve Devleti, TTK Basımevi, Ankara: 1991.
12. Aka İ. İranda Türkmen Hakimiyeti (Kara Koyunlular Devri)., TTK Yayınları, Ankara: 2001.
13. Alan H. "Tavacı", DİA, İstanbul: 2011, c. XXXX, s. 177-178.
14. Arayancan A.A. Karakoyunlu Cihan Şah ve Dönemi (Siyaset-Teşkilat-İktisad-Din ve Kültür) 1438-1467, (Doktora Tezi), Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara: 2010.
15. Barthold W. Uluğ Beg ve Zamanı, Çev. İsmail Aka, TTK Yayınları, Ankara: 1997.
16. Bitlisi Şerefhan. Şerefnâme, Osmanlı-İran tarihi, 2. cilt. Farscadan çeviren Osman Aslanoğlu. Nubihar, İstanbul: 2014.
17. Efendiyev O.A. "Kara-Koyunlu, Ak-Koyunlu ve Safevî Devletlerindeki Mülkî ve Askerî Teşkilâta Bakış", Yeni Türkiye Kafkaslar Özel Sayı-II 21/72, Temmuz-Aralık 2015, s. 578-586.
18. Erdem İ. "Akkoyunlu Ordusunu Oluşturan İnsan Unsuru", A.Ü.D.T.C.F. Tarih Araştırmaları Dergisi, c.15, sayı 26, Ankara: 1991, s. 85-92.
19. Feridun bey. Münşaat üs-selatin. c.I. Darü't-Tıbbati'l-Amire, İstanbul: 1274.
20. İbn Tagrıberdi. En-nucumuz-zahire (Parlayan yıldızlar), Arapçadan Çeviri D.Ahsen Batur, Selenge Yayınları, İstanbul: 2013.
21. İpşirli M. "Kazıasker", DİA, c. XXV, TDV Yayınları, Ankara: 2002, s. 140-143.
22. İslamova N. "Kara-Koyunlu Devleti'nin Kuruluşu ve Ordusu", Gazi Egitim Fakültesi Dergisi, 29, Temmuz 2009, s. 29-44.
23. Kanat C. Ortaçağ Türk Devletlerinde Suç ve Ceza, Küre Yayınları, İstanbul: 2010.
24. Kopraman K.Y. Mısır Memlükleri Tarihi Sultan al-Melik al-Muayyad Şeyh al-Mahmudi Devri (1412-1421), Kültür Bakanlığı Yayınları, İstanbul: 1989.
25. Korkmaz A. Kara-Koyunlu ordusunda insan unsuru ve görevliler //Genel Türk Tarihi Araştırmalar Dergisi, Cilt 3, Sayı 5, Ocak 2021, s. 65-76.
26. Korkmaz A. Kara-Koyunlu Devletinin Askeri Teşkilatı, Efe Akademi Yayınları, Ankara, 2022.
27. Manz B.F. Timurlenk – Bozkırların Son Göçebe Fatihi, Çeviren: Zuhal Bilgin, 2. Baskı, Kitap Yayınları, İstanbul: 2006.
28. Paydaş K. "Akkoyunlularda Devlet Teşkilatı", Türkler, Yeni Türkiye Yaynları, Ankara: 2002, c. VII, s. 212-220.
29. Paydaş K. Ak Koyunlu Devlet Teşkilatı, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Doktora Tezi, Ankara: 2003.

30. Sümer F. Kara Koyunlular (Başlangıç-tan Cihan-Şah'a kadar), TTK, Ankara: 1992
31. Sümer F. Kara-Koyunlular, DİA, c. XXIV, TDV Yayınları, İstanbul: 2001, s. 434-438.
32. Şami Nizameddin. Zafername, Terc. Necati Lugal, TTK Yayınları, Ankara: 1987.
33. Tihranî Ebu Bekr-i. Kitâb-ı Diyârbekriyye, Çev. Mürsel Öztürk, Kültür Bakanlığı Yayınları, Ankara: 2001.
34. Yakubovskiy A. Y. Altın Ordu ve Çöküşü, Çev. Hasan Eren, TTK Yayınları, Ankara: 2000.
35. Yınanç M.H. Akkoyunlular, İslam Ansiklopedisi, c. 1, MEB, İstanbul: 1979, s. 251-270.
36. Uzunçarşılı İ.H. Osmanlı Devleti Teş-kilatına Medhal, TTK Yayınları, Ankara: 1988.
37. Uzunçarşılı İ.H. Anadolu Beylikleri, Akkoyunlu ve Karakoyunlu Devletleri, TTK Yayınları Ankara: 2011.
38. Əbru Hafiz. Zübdətüt-təvarix-i Baysunquri, Be kuşeşe Seyyid Kəmal Hac Seyyid Cəvadi, c. III, Sazman-ı Çap və İntişarat-ı Vəzarət-i Fərhəng və İrşad-ı İslami, Tehran: 1380.
39. Həsənzadə İ. Hökumət-i Türkmanan-ı Qaraqoyunlu və Ağqoyunlu dər İran. Tehran: Səmt, 1392.
40. Əl-Bağdadi Abdullah b. Fəthullah. Əl-Düvəlül-İslamiyyə fî əl-Şark. Tah. Tarık Nafi əl-Həmdani. Beyrut: Dar və Məktəbətül-Hilal, 2010.
41. Персидские документы Матенада-рана, I Указы, Выпуск первый (XV-XVII вв.). Составил А.Д.Папазян. Ереван: Из-во Академии Наук Армянской ССР, 1956.

## Summary

**Ulvi Zarbaliyev**

### Military officials in the Azerbaijani Qara-qoyunlu army

A number of important problems regarding the studies on the late medieval history of Azerbaijan remains to be addressed. One of these problems is the study of army building in the Azerbaijani Qara-qoyunlu state.

Qara-qoyunlu received its share in certain issues from the military system of the Elkhans and Timurid states in terms of military structure. The structure of the army and the weapons used were the same as those in the military formations of the previous states. Although the military officers had certain similarities with the states that existed before it, they also had certain different sides.

Cavalry troops, equipped with sophisticated weapons of the era of Qara Yusuf, played an important role in the fight against the Timurid army. The battle tactics implemented by Qara Yusuf, a well-known military strategist of his time, played an important role in the victory over the enemy. Undoubtedly, the military organization of the Qara-qoyunlu army and the proper level of interaction between the army units played a crucial role in ensuring the victory.

Among the military officials in the Qara-qoyunlu army there were the commander-in-chief, amir al-umara, amirs, tawachi, gazi-asgar, yurtchi, yasavul, bukavul, inak, gajarchi, etc.

***Keywords:*** *Azerbaijani Qara-qoyunlu state, Qara Yusuf, amir al-umara, bukavul, tavachi.*

## Резюме

**Ульви Зарбалиев**

### Военные чиновники азербайджанской армии Карагоюнлу

Остается решить ряд важных проблем, связанных с изучением позднесредневековой истории Азербайджана. Одной из таких проблем является изучение строительства армии в азербайджанском государстве Карагоюнлу.

Свою долю в некоторых вопросах Кара-гоюнлу получил от военной системы государств Эльханидов и Тимуридов по военному устройству. Структура армии и используемое вооружение были такими же, как и в воинских формированиях предыдущих государств. Хотя офицеры имели определенное сходство с существовавшими до него государствами, они имели и определенные отличия.

Важную роль в борьбе с тимуридской армией сыграли кавалерийские войска, оснащенные современным вооружением эпохи Кара Юсуфа. Важную роль в победе над врагом сыграла тактика боя, реализованная Кара Юсуфом, известным военным стратегом своего времени. Несомненно, решающую роль в обеспечении победы сыграла военная организация армии Карагоюнлу и должный уровень взаимодействия между армейскими частями.

Среди военных чиновников в армии Кара-Коюнлу были главнокомандующий, амир аль-умара, амиры, тавачи, гази-аскер, юртчи, ясавул, букавул, инак, гаджарчи и др.


***Ключевые слова:*** *Азербайджанское государство Кара-Гоюнлу, Кара Юсуф, амир аль-умара, букавул, тавачи.*

UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2023.2.131

**Yeganə Məmmədova**
*Tarix üzrə fəlsəfə doktoru*
*AMEA Naxçıvan Bölməsinin doktorantı*
*Naxçıvan, Azərbaycan*
*ymemmedova49@gmail.com*

# NAXÇIVANDA İNGİLİS GENERAL-QUBERNATORLUĞUNUN GEOPOLİTİK MARAQLARI VƏ SÜQUTU

***Açar sözlər:*** *Azərbaycan Cümhuriyyəti, Naxçıvan, general-qubernatorluq, erməni iddiaları, geopolitika*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan ərazisində ingilis general-qubernatorluğunun təşəkkülü yalnız Naxçıvanda deyil, Azərbaycanda, ümumiyyətlə bütün Cənubi Qafqazda gedən geopolitik maraqların və böyük dövlətlərin qarşıdurmasından meydana gələn zəruri tarixi reallığın nəticəsi olmuşdur. I dünya müharibəsinin acı nəticələri də bu proseslərin ana qaynağı sayıla bilər. Ərazilərin yenidən bölüşdürülməsi, dünya dövlətlərinin qarşı-qarşıya gəlməsi, qalib və məğlub tərəflər arasında qeyri-bərabər nəticələrin meydana çıxması, "Parçala, hökm sür" siyasətinin qabarıqlığı, mənafelərin qanlı savaş və zorakılıqlarla həyata keçirilməsi, kiçik xalqlardan öz ambisiyalarını yeritmək üçün istifadə olunması və s. kimi fəaliyyətlər mövcud situasiyanın doğurduğu acı və qorxunc reallıqdır. I dünya müharibəsinin sonucunda Türkiyənin və onun müttəfiqlərinin məğlubiyyəti Cənubi Qafqazda da təbii olaraq ağır durumun yaranmasına şərait yaratdı. Naxçıvanda ingilis general-qubernatorluğunun yaranması da bu acınacaqlı tarixi situasiyalardan meydana gəldi. Əslində bu general-qubernatorluğun yaranması elə Araz-Türk Respublikası ilə bağlı idi. Belə ki, əsas məqsəd olaraq ermənilərin Araz-Türk Cümhuriyyətinin zəiflədilməsi üçün atdığı siyasi addımlardan biri də Naxçıvanda ingilis general-qubernatorluğunun yaradılması idi. Bunun üçün daşnaklar ingilislərə bu ərazilərdə qubernatorluq yaratmaqla mövcud situasiyanı öz xeyirlərinə dəyişməyə can atırdılar. Məhz ermənilərin təklif və xüsusi canfəşanlığı ilə ingilislər 1919-cu ilin yanvarında Naxçıvanı işğal etdilər [5, s. 41].

Göründüyü kimi Araz-Türk Respublikasının süqutunu məhz bu təcavüz aktı sürətləndirmişdi. 1919-cu ilin yanvarında Naxçıvanın işğalı Naxçıvanda qurulan Araz-Türk Respublikasının da həmin ilin martında ləğvinə gətirib çıxarmışdı [4, s. 335].

1919-cu ildə Naxçıvanda yaradılan ingilis general-qubernatorluğu burada möhkəmlənmək üçün xüsusi imtiyaza malik olan yerli nümayəndələrdən istifadə edirdilər. Böyük Britaniya hökuməti ona rəğbətlə yanaşan Cəfərqulu xandan bu məqsədlə siyasi avantüra olaraq istifadə edirdi. Məlumdur ki, Araz-Türk Respublikasının rəhbəri Əmir bəy Nərimanbəyov ilə Cəfərqulu xanın arasında münaqişə var idi (qeyd edək ki, Naxçıvan xanı Cəfərqulu xanı bu şəxs deyil, arasındakı zaman məsafəsi də çoxdur) [10, s. 105]. Əmir bəy Nərimanbəyov ilə Cəfərqulu xan arasındakı qarşıdurma təbiidir ki, Cəfərqulu xanın Naxçıvan idarəçiliyinin başında Əmir bəyi deyil, özünü görməsindən irəli gəlirdi. İngilislər şəxsi ambisiyanın bu qorxunc fəsadından məharətlə istifadə etdilər və qurmaq istədikləri ingilis general-qubernatorluğunun Cəfərqulu xanla əlaqələrini məqsədyönlü şəkildə qüvvətləndirdilər. Çünki ölkənin rəhbəri Əmir bəy Nərimanbəyov bu zaman oyundan kənar vəziyyətə düşür və Naxçıvanın mənimsənilməsi üçün ingilis əli güclənirdi.

İngilis general-qubernatorluğunun yaradılmasında əsl məqsəd ermənilərin və onların havadarlarının bu torpaqları itirə bilməsi və əsrlik

planlarının pozulması qorxusundan irəli gəlirdi. Azərbaycan Cümhuriyyətinin qubernatorluq yaradıb Xosrov Bəy Sultanovu onun başına keçirməsi bu hadisələrə təkan verdi. Ermənilər bu ərazilərdə müvəqqəti də olsa, ingilis general-qubernatorluğu yaradılması vacibliyini gündəmə gətirdilər və təəssüf ki, buna nail ola bildilər [4, s. 338].

Tədqiqatımızda olan stenoqrafik məlumatlarda məhz ingilis general-qubernatorluğunun yaranmasını şərtləndirən faciəli tarixin acı görüntüsü ilə rastlaşırıq. Azərbaycan Parlamentinin 1919-cu il, 19 iyul, 53 nömrəli iclasında göstərilir: "Azərbaycan Cümhuriyyətinin Qarabağda yaratdığı general-qubernatorluğun yaradılmasından sonra ermənilər qorxuya düşmüş, saya gəlməyən qanlı qırğın törətmiş, general-qubernatorluğu hüquqi olaraq tanımaq istəməmiş, İyunun 4-nədək erməni milli şurası general-qubernatoru qəbul etməyib, onunla ancaq ingilis heyəti vasitəsiylə əlaqədə bulunurdu. Bu surətdə erməni milli şurası hökuməti qəbul etməyirdi, hətta yepiskopu da general-qubernatorla görüşməkdən mən etmişdir və ancaq ayın 4-5-dən sonra görüşmüşlərdir" [3, s. 583-586].

Göründüyü kimi yanvarda yaranan general-qubernatorluğun hələ iyul ayında qəbul olunmaması, bunun əvəzində paralel olaraq ingilislərin yaratdığı üsuli-idarənin tanınması və tərəf rolunda çıxış etməsi Azərbaycan Cümhuriyyətinin Ali Qanunverici orqanı olan parlamentin müzakirə mövzusu olmuşdur. Əslində bu onu göstərir ki, vəziyyət çox qarışıq olmuş, ingilis general-qubernatorluğu yaransa da, Azərbaycan Cümhuriyyətinin general-qubernatorluğunu da tanımağa və onunla müzakirə aparmağa məcbur olmuş, birmənalı olaraq bu ərazidə vahid idarəetmə imkanı mümkün olmamışdır. İngilis general-qubernatorluğu harada yaranmasından asılı olmayaraq söz sahibi ola bilməmişdir.

Azərbaycan Cümhuriyyətinin parlamentinin 10 mart, 1919-cu ildə keçirilən 21 nömrəli iclasında Naxçıvanla bağlı parlamentdə general-qubernatorluğun dəstəyi barədə də eyni mövzuda müzakirə getmiş, Azərbaycan hökumətinin parlamentə göndərdiyi məktub-müraciət əsasında ölkənin Cənub-Şərqinin Naxçıvan olduğu elan edilərək bu ərazidə də general-qubernatorluğun yaradılması müəyyən edilmiş, Naxçıvana heyət göndərilməsi haqqında qərar qəbul olunmuşdur [3, s. 262-264].

Bu müzakirə onu göstərir ki, Azərbaycan Cümhuriyyətini idarə edən təfəkkürlü və vətənsevər insanlar hər zaman Naxçıvanı diqqətdə saxlamışlar. Eyni zamanda göstərdiyimiz son iclasın 1919-cu ilin 10 martında keçirilməsi təsadüfi hadisə deyil, tarixi zərurətin meydana çıxardığı adekvat siyasi reaksiyadır. Qeyd edək ki, məhz bi zaman Naxçıvanda Araz-Türk Respublikasının süquta uğraması Naxçıvan torpaqlarının ermənilərin əlinə keçməsi üçün böyük fürsət doğurmuşdur. Elə bu ərəfədə aşkar olaraq erməni mənafeyini müdafiə edən ingilis general-qubernatorluğunun yaradılması və məhz buna qarşı Azərbaycan Cümhuriyyətinin Naxçıvanda yaratmaq haqqında qərar verdiyi Naxçıvan general-qubernatorluğunun müdafiəsiz Naxçıvan əhalisini bir siyasi mərkəz ətrafında cəmləmək cəhdindən irəli gəlmişdir. Hər halda tarixi məntiq bu nəticəni deduktiv olaraq meydana qoyur.

– Ərazi iddiaları;

Naxçıvanı işğal edən ingilislərin qurduğu ingilis general-qubernatorluğu və onlarla birgə olan Erməni idarəçiliyi hər zaman olduğu kimi bu müvəqqəti qurum vasitəsilə ərazi iddiaları irəli sürmüşdür. Bu barədə M.Ağayev göstərir ki, ərazi mənimsəmə istiqmətində aşağıdakı ərazilərin ermənilərə keçməsi tələb olunurdu: "İngiliz Hükümetinin İrevan temsilcisinin Ermenistan yetkilileriyle görüştüğü zaman, Ermeniler, Rusyanın eski hudutlarında bulunan bazı bölgeleri Ermenistan arazisi dahilinde görmek istediklerini bildirmişlerdi. Ermenilerin talep ettikleri araziler şunlardı:

1. Nahçivan dahil bütün İrevan eyaleti;
2. Kars ve çevresi;
3. Tiflis sancağının Ahelkelek kazasının iki nahiyesi [1, s. 80].

Göründüyü kimi, ingilis general-qubernatorluğunun burada açıq təcavüz niyyətləri ermənilərin mənafeyinin həyata keçirilməsi istiqamətində bəyan olunur. Bu gün hətta üç ölkənin (Azərbaycan, Gürcüstan, Türkiyə) ərazisində mövcud olan torpaqların o zaman saxta "Böyük Ermənistan" ərazisinə çevrilməsi iddiaları sadəcə xülya deyil, faktiki reallıq olaraq dəyərləndirilmiş, hətta bu planın həyata keçirilməsi üçün mühüm praktik addımlar atılmışdır. Ancaq bu

gün göründüyü kimi, ermənilər qismən buna nail olsalar da (İrəvan əyaləti), bütünlüklə öz məkrli məqsədlərinə çata bilməmişlər ki, bu da Azərbaycan Cümhuriyyətinin, Türkiyənin və qəhrəman Naxçıvan əhalisinin böyük mücadiləsinin nəticəsidir.

İngilis general-qubernatorluğunun bu əraziləri Ermənistana ilhaq etmək istəməsi eyni zamanda Böyük Britaniyanın həyata keçirdiyi doktrinal siyasətin tərkib hissəsi idi. Təbiidir ki, ingilislər ermənilərdən maraqlarını təmin etmək üçün istifadə edirdilər. Ümumiyyətlə, ermənilər öz mənafelərinə uyğun olaraq gah Rusiyanın, gah Böyük Britaniyanın, gah da Amerika Birləşmiş Ştatlarının əlaltısına çevrilmişlər ki, bu prosesdə də Böyük Britaniya aktiv funksiyada iştirak edirdi. Y.Qazıyev yazır ki, nə Rusiya, nə Qərb dövlətləri erməniləri təsadüfi olaraq seçməmişdi. Qərb dövlətləri və Rusiya Osmanlı İmperiyasını parçalamaq üçün XIX əsrin əvvəllərindən etibarən müxtəlif planlar reallaşdırmışdılar. İmperiya ərazisində aysorlar, yunanlar, xristian ərəblər yaşasalar da, erməni azlığı daha çox diqqəti çəkirdi. Bu, onların xarakterindən-satqınlığından, şəraitə uyğun olaraq din və məzhəblərini dəyişmək xislətindən irəli gəlirdi [8, s. 16].

Təbiidir ki, qarşılıqlı olaraq ermənilər bu aşağılanmanı qəbul edir, öz mənafelərini təmin etmək üçün bütün güclü dövlətlərlə əlbir olur, onların bölgədə maşasına çevrilir və öz niyyətlərinə çatmağın vasitəsi kimi müxtəlif dövlətlərin siyasətini qəbul edirdilər. İngilis general-qubernatorluğu da məhz bu məqsədlə meydana çıxmışdı. Əvvəldə də qeyd etdiyimiz kimi, nəinki Naxçıvanı, bütün Qafqazı, Türkiyəni və tamam türk torpaqlarını ermənilər ələ keçirib öz ərazilərinə çevirmək iddiasından bu gün də imtina etməmişlər. Məhz ingilis-general qubernatorluğunun həyata keçirə bilmədiyi işğal aktını ardıcıl olaraq həyata keçirən erməni şovinizmi hər zaman öz məkrli planlarını həyata keçirir, bu istiqamətdə həddindən artıq vəhşiliklər törədir və bu gün də törətməkdə davam edirlər. Məhz ingilis general-qubernatorluğunun ermənilərin xeyrinə irəli sürdüyü ərazi iddiaları bu baxımdan dəyərləndirilməli, bu iddiaların miqyasına diqqət yetirilməli, erməni xislətinin əsl mahiyyəti aşkarlanıb hər zaman meydana qoyulmalıdır.

– Naxçıvan Azərbaycana birləşmək istiqamətində;

Naxçıvanın Azərbaycan Cümhuriyyətinə birləşmək ideyası həm genoloji-milli, həm də siyasi-iqtisadi reallıq idi. Naxçıvan əhalisi Araz-Türk Respublikası zamanında da bu arzularını dilə gətirmişdilər. Naxçıvan əhalisi yaxşı anlayırdı ki, əzəli torpaqlardan ayrı düşmək yalnız məğlubiyyətlə nəticələnə bilər. Xüsusilə Rusiyanın və Qərbin bu əraziləri ermənilərə "bağışlamaq" cəhdləri plan olaraq işə düşdükdən sonra Naxçıvanın Azərbaycan Cümhuriyyətinin ərazisinə çevrilməsi faktiki tarixi zərurət idi. İ.Hacıyev bu barədə göstərir ki, bunun üçün hətta Azərbaycan Cümhuriyyətinin nümayəndəsi M.Mirbağırovun başçılığı ilə nümayəndələrin 1919-cu il, fevralın 23-də Araz-Türk Respublikasının hökumət üzvləri ilə Naxçıvanda iclası olmuş, Naxçıvanlılar Azərbaycanın tərkibində olmaq arzularını ifadə etmişlər. Naxçıvanın könüllü olaraq Azərbaycan Cümhuriyyətinə birləşməsi haqqında qanuni akt imzalanmışdır. Akt hökumət üzvləri, Milli Şura üzvləri və onların nümayəndələri tərəfindən imzalanmış, hökumət möhürü ilə təsdiq edilmişdir [6, s. 54].

Mövcud situasiyanı müşahidə edərkən aydın olur ki, bu aktın imzalanması məhz ingilislərin Naxçıvana gəlişi, Araz-Türk Respublikasının süquta doğru gedişi ərəfəsində baş tutmuşdur. Əlbəttə, bu da Azərbaycan Cümhuriyyətinin qabaqcıl nümayəndələrinin hər zaman Naxçıvanla əlaqələrini saxladığını, bu torpaqların düşmən əlinə keçməsinə mane olduğunu aydın biçimdə sərgiləyir.

Mövcud durumda bu aktın bağlanması bir baxımdan da mühüm əhəmiyyət daşıyırdı. Xarici qüvvələrin, ermənilərə verilən yardımın, soyqırım və aclığın doğurduğu fəlakətlər Naxçıvanın İrana birləşməsi kimi meylləri də artırmışdı. A.Hacıyev yazır ki, Naxçıvan demək olar ki, bütün dünyadan təcrid edilən, üç tərəfdən də ermənilərlə mühasirəyə alınan, Azərbaycan Respublikasının yardımına ümidini itirmiş müsəlmanlar xarici aləmlə əlaqəni ancaq İran vasitəsilə saxlaya bilərdilər. Təbiidir ki, bu şəraitdə İrana birləşmək kimi meyllər də artmışdı [5, s. 46].

Tarixi şəraitin bu kimi çıxılmaz aqressiv vəziyyətində Azərbaycan Cümhuriyyətinin Naxçıvan ilə akt bağlaması əhalinin baxış tər-

zində sabitlik yaratdı və Naxçıvanın birmənalı olaraq Azərbaycanın tərkib hissəsi olduğunu Naxçıvan əhalisinin yaddaşında assosiativ olaraq bütünlüklə bərpa etdi, yanlış meyllərin aradan qalxmasına səbəb oldu. Təbiidir ki, qarşılıqlı olaraq bunda Naxçıvanın vətənsevər əhalisinin də rolu tarixi situasiyanın dəyişməsinə təkan verdi. Bu kimi addımlar sürətlə həll oluna bilməsə də, Naxçıvan torpaqlarının Azərbaycanın tərkibində qalması üçün gələcəkdə də açdığı savaş və mücadilənin əsasını qoydu.

Azərbaycan Cümhuriyyəti ilə Araz-Türk Respublikası arasında imzalanan bu birləşmə aktı mövcud vəziyyətdə təəssüf ki, daha sonra ingilislərin müdaxiləsi nəticəsində tam olaraq özünü doğrultmadı. Bunun əsas səbəbləri Azərbaycan Cümhuriyyətinin ağır tarixi şəraitdə fəaliyyəti, xarici qüvvələrin ardıcıl olaraq ölkəyə müdaxiləsi, eyni zamanda Naxçıvan ərazisini demək olar ki, işğal altında saxlayan Böyük Britaniyanın təcavüzü idi. Əlbəttə, Böyük Britaniya siyasi hiyləgərlik göstərib, Azərbaycan Cümhuriyyətini təmsil edən nümayəndələrə bu ərazilərə işğal məqsədi ilə gəlmədiklərini söyləyirdi və ingilis general qubernatoru inandırmağa çalışırdı ki, buraya daxili işlərə qarışmaq üçün deyil, sakitliyi bərpa etmək üçün gəlmişlər [5, s. 43, 44], ancaq bütün Dünya dövlətçilik tarixində işğalçı dövlətlər məhz “sakitliyi bərpa etmək üçün xalqın tələbi ilə o əraziyə gəldiyini” elan etmişdir. İngilis general-qubernatorluğunun bölgədə soyqırım törədən erməniləri dəstəkləməsi, müxtəlif ərazi iddialarında erməni şovinistlərin mövqeyini müdafiəsi, daxili çəkişmə yaradıb Cəfərqulu xanı tanıyaraq Araz-Türk Respublikasının süqutunu reallaşdırması, “dəmir yolu, telefon-teleqraf xətləri üzrə nəzarət və Araz-Türk Respublikası əhalisindən vergi toplanması hüququnu öz əllərinə keçirməsi bunun əksini aydın şəkildə təsdiq edir [5, s. 47].

Araz-Türk Respublikası süqut etdikdən sonra ingilis general-qubernatorluğunun daha da azğın siyasəti Böyük Britaniyanının işğalının dəqiq göstəricisidir. Hətta İngilislər sonrakı dövrdə Naxçıvan ərazisini Ermənistana verməyi aşkar elan etdilər və bunun üçün naxçıvanlılara rəsmi sənəd də təqdim etmişdilər [5, s. 50, 51].

Beləliklə, ingilis general-qubernatorluğu Naxçıvan ərazisində erməni iddialarını reallaşdırmaq istiqamətində faktiki addımlar atdı, müvəqqəti olsa da buna nail oldu, hətta Naxçıvanda “erməni idarəçiliyi” adında idarə üsulunu da elan etməyə nail oldu [4, s. 339, 340].

Ancaq naxçıvanlılar təbiidir ki, buna qarşı mücadilə aparmağa başladılar. Xüsusilə, ingilislərin bölgəni tərk etmək məcburiyyəti meydana çıxdıqda ermənilər yalnızlaşdılar və məğlubiyyətləri daha da artdı, “1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyüşlər erməni "idarəçiliyi"nin bölgədən qovulması ilə nəticələndi. Mahalda daşnak “ağalığı”na son qoyulduqdan sonra siyasi şəraitin yaxşılaşmasına müsbət təsir göstərən bir proses getdi, erməni icmaları yığıncaqlar keçirərək rəsmi sənədlərlə Azərbaycan hökumətini tanımaq məcburiyyətində qaldılar” [4, s. 340]. Bu baxımdan ermənilər nəinki iddia etdikləri ərazilərin Naxçıvanda əldə edilməsinə nail ola bilmədilər, hətta Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə məcburən barışmalı oldular. Təbiidir ki, bu ağır prosesdə Azərbaycan dövlətçiliyinin, Azərbaycan uğrunda savaşan qazilərin mühüm mücadiləsi əhəmiyyətli rol oynadı.

– Naxçıvanda daxili çəkişmələrin faciəvi sonucu;

Qısa xülasə olaraq Naxçıvanda baş verən proseslərdə hər zaman olduğu kimi daxili çəkişmələrin törətdiyi mənfi sonuclara nəzər yetirmək ehtiyacı meydana çıxır. Naxçıvanda əvvəldə də qeyd etdiyimiz kimi ingilis hakimiyyətinin bərpası üçün Araz-Türk Respublikasının rəhbəri Ə.Nərimanbəyov ilə eyni hökumətin fəxri üzvü Cəfərqulu xan və onların tərəfdarlarının qarşıdurması mühüm rol oynamışdır.

İ.Hacıyev göstərir ki, bu dövrdə Naxçıvanda Cəfərqulu xanın tərəfdarları ilə Araz-Türk Respublikası arasındakı münasibətlər lazımi səviyyədə deyildi. Bu isə təhlükəli vəziyyət yaradırdı [ 6, s. 54].

A.Hacıyev də bu təhlükənin miqyasının nə qədər böyük olduğunu qeyd edərək yazır ki, diplomatik yolla Ermənistan respublikasının daşnak rəhbərliyi ilə belə münasibətləri qaydaya salmaqla öz hakimiyyətini saxlamaq məqsədinə can atan Cəfərqulu xan çox ehtiyatlı və olduqca hiyləgər siyasət yeridirdi [5, s. 37].

Demək Cəfərqulu xan öz hakimiyyətini saxlamaq üçün hətta ermənilərin tələblərini qəbul edə bilərdi ki, bu da həm Naxçıvan, həmçi-

nin Azərbaycan Cümhuriyyəti üçün çox sarsıdıcı zərbə olardı. A.Hacıyev göstərir ki, İngilis idarəçiliyinin elan olunmasında məhz Cəfərqulu xanın törətdiyi fitnə-fəsadların mühüm rolu olmuşdu. Naxçıvan ərazisində ingilis general-qubernatorluğu elan edildiyi gün respublikanın daxili vəziyyətinin sabitliyi ciddi sürətdə pozulmuşdu [5, s. 41] ki, bu da Cəfərqulu xanın Əmir bəylə toqquşmasından, tabe olmamasından irəli gəlirdi. Ermənilərin də İngilis general-qubernatorluğunun yaradılması üçün müraciət etməsi qüvvələrin zəifləməsindən istifadə məqsədi güdürdü. Təbiidir ki, bu niyyətlərinə çatıb Araz-Türk Respublikasının da süqutunu sürətləndirə bildilər.

– İngilis general-qubernatorluğunun erməni himayədarlığı;

Həmişə olduğu kimi, ingilislər İngilis general-qubernatorluğunun timsalında erməni şovinizmini müdafiə edir, ermənilərin törətdikləri dəhşətli soy qırğınına göz yumur, erməni havadarlığını və yaxud himayəçiliyini yenə də göstərirdilər. Əlbəttə, bu ən başlıca olaraq Böyük Britaniyanın işğal etdiyi siyasətin tərkib hissəsi idi. Əvvəldə də qeyd etdiyimiz kimi, ermənilər hər zaman böyük dövlətlər üçün öz maraqlarını həyata keçirən siyasi alət olmuş, qarşılıqlı olaraq özləri də bu siyasətdən bəhrələnmişlər. İngilis general-qubernatorluğunun da havadarlığı erməni maraqlarına deyil, ingilis maraqlarına söykənirdi. Mövcud siyasi reallıqda, geopolitik mənafeyin həyata keçirilməsində ermənilər Böyük Britaniyaya lazım idi və bu baxımdan onların erməniləri müdafiə etməsi aşkar səviyyədə strateji maraq olaraq meydana çıxırdı. Bu cəhətdən ingilislər yuxarıda göstərdiyimiz kimi yalnız Naxçıvanı deyil, Zəngəzuru da Erməni idarəçiliyinə verməyi planlaşdırmışdılar. İ.Hacıyev yazır ki, Cənubi Qafqazda mövqeyini möhkəmlətmək istəyən, açıq və gizli şəkildə erməni daşnaklarına dəstək verən ingilislər Zəngəzurun Qarabağ general-qubernatorunun idarəçiliyindən çıxarılıb Erməni Milli Şurasının tabeçiliyinə verildiyini bəyan edirlər. Azərbaycan hökumətinin qəti etirazlarına baxmayaraq, general Tomson öz qərarını dəyişmir [7, s. 52].

Elə bu antihumanist siyasi aqressiyanın nəticəsində Zəngəzurda da əvvəlki kimi yenə də soyqırımlar davam etmiş, 1919-cu ilin martında artıq Ermənistanın silahlı qüvvələri Zəngəzurda 115 azərbaycanlı kəndini viran qoymuş, 50 mindən artıq əhalinin qaçqın düşməsinə səbəb olmuşdu [7, s. 52].

Naxçıvanda isə bu tarixi şəraitdə nəinki soyqırımlara şərait yaradılırdı, hətta Naxçıvan ərazisində “Erməni İdarəçiliyi” adında Qurumun da meydana çıxması mümkün olmuşdu. Akademik tarixi qaynaqda bu barədə qeyd olunur ki, bir sıra ingilis-erməni birgə hazırlıq tədbirlərindən (general Devinin Naxçıvana səfəri, onun və Dronun imzaladıqları əmr, Ermənistanın baş naziri Q.Xatisyanın bölgəyə gəlişi və s) sonra 1919-cu il mayın ortalarından iyulun axırlarınadək mahalda daşnak "idarəçiliyi" peyda oldu [4, s. 339, 340].

Əlbəttə, bu təsadüf deyildi. Qeyd etdiyimiz kimi, bölgədə mövcud olan bütün böyük güclər- Rusiya, Böyük Britaniya, ABŞ və s. hər zaman ermənilərə havadarlıq etmiş və qarşılıqlı şəkildə ermənilər də onlardan öz mənafelərinə uyğun formada bəhrələnmişdilər. Hələ 1826-28-ci illərdə Rusiya-İran müharibəsi nəticəsində Şimali Azərbaycanı Rusiya işğal edən zaman da Çar hökumətinin Naxçıvan və İrəvan xanlıqları ərazisində yaratdığı Erməni Vilayəti müvəqqəti inzibati idarə vahidi də buna əyani sübutdur [10, s. 144].

Unutmaq olmaz ki, Çar hökuməti Cənubi Qafqazın işğalını başa çatdırdıqdan sonra yalnız 1840-cı il, 10 aprel qanunu ilə “Erməni Vilayəti”ni ləğv etdi [10, s. 145].

Göründüyü kimi Böyük Britaniya da məhz öz siyasətini eyni xarakterdə yürüdür, ermənilərin mənafeyini qabardır və bu baxımdan yerli əhalinin sıxışdırılmasına, zəifləməsinə şərait yaradırdı. Təbiidir ki, bu dəhşətli siyasi şəraitdə Naxçıvanın da çox gərgin, çətin və hətta acınacaqlı realıqda mövcudluğunu saxlaya bilməsi az qala mümkünsüz görünürdü. Azərbaycan Cümhuriyyətinin bu dövrlərdə Naxçıvanı diqqətdə saxlaması və Naxçıvan əhalisinin mübarizə və mücadiləsi qurulan faciəvi planların qarşısını ala bildi və bu ərazilərdə “Erməni İdarəçi”liyinin hakim status əldə etməsini əngəllədi. Belə ki, “Müəyyən hərbi-maliyyə və siyasi-mənəvi səciyyəli hazırlıq işlərindən sonra 1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyüşlər erməni “idarəçiliyi”nin bölgədən qovulması ilə nəticələndi. Mahalda daşnak “ağalığı”na son qoyulduqdan sonra siyasi şəraitin yaxşılaşmasına

müsbət təsir göstərən bir proses getdi, erməni icmaları yığıncaqlar keçirərək rəsmi sənədlərlə Azərbaycan hökumətini tanıdılar [4, s. 340].

– İngilis general-qubernatorluğunun tənəzzülü.

İngilis general-qubernatorluğunun Naxçıvanda ləğvi və yaxud tənəzzül etməsi yalnız Naxçıvanla bağlı deyil, ümumiyyətlə ingilislərin Azərbaycandan, hətta Qafqaz ərazisindən faktiki cəhətdən getməsi ilə əlaqəlidir. 1919 il mayın 10-da B.Britaniya komandanlığı ingilis hərbi şurasının Cənubi Qafqazdan çıxmaq qərarı barədə Azərbaycan və Gürcüstan hökumətlərinə məlumat verdi [2, s. 132].

Eyni zamanda paralel olaraq İngilis general-qubernatorluğunun Naxçıvanda fəaliyyətinin sona çatması əslində bu irtica idarəçilik sisteminin tənəzzülü idi. Çünki ingilis general-qubernatorluğu bu ərazidəki geosiyasi maraqlarını tam şəkildə həyata keçirə bilmədən Naxçıvan ərazisini tərk etməyə məcbur qaldı. İngilis general-qubernatorluğunun ən mühüm məqsədlərindən biri təbiidir ki, Naxçıvan ərazisini erməni idarəçiliyinə verərək Rusiyanın burada apardığı və aparacağı siyasi avantürizm ilə eyni mahiyyət daşıyırdı. Yəni, Azərbaycan Cümhuriyyəti ilə Naxçıvanın və bu vasitə ilə də Türkiyə ilə Azərbaycanın quru ərazilərlə əlaqsini kəsmək məqsədi güdürdü. Lakin İngilis general-qubernatorluğu ermənilərin də böyük həvəslə ümid bəslədiyi bu məkrli planı həyata keçirə bilmədən Naxçıvanı tərk etmək məcburiyyətində qaldı. Qeyd etmək lazımdır ki, bu kontekstdə fikirlər fərqlidir. Misal üçün, E.Şıxəliyevin prizmasına görə, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi "Böyük Ermənistan" dövlətini yaratmasa da, Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmişdi [11, s. 55].

Bu kontekstdə eyni tarixi sitasiyadan çıxış edən İ.Hacıyev isə yazır ki, İngilislər diyarı öz qoşunları ilə tutaraq, əhalinin açıq etirazlarına baxmayaraq bu torpaqları zor gücünə daşnaklara verdi. Lakin ingilis qoşunları çıxıb getdikdən sonra dərhal hər yerdə əsl partizan müharibəsi başlandı və daşnak qoşunları darmadağın edilərək ərazidən qovuldu [7, s. 57].

"Azərbaycan tarixi"ni akademik mənbə olaraq qəbul etdiyimiz üçün bu qaynağa da bu aspektdən yanaşdıqda da eyni baxış bucağını və tarixi məlumatların doğurduğu nəticəni aydın görə bilirik: "Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəza əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi. İngilislərin Naxçıvanı Ermənistanın idarəçiliyinə vermək ideyası Azərbaycanla Türkiyənin arasını kəsmək, ümumilikdə Türkiyə ilə qalan müsəlman xalqları arasında xristian erməni dövləti yaratmaq barədə Kerzon planının tərkib hissəsi idi" (2, -11, 356). [4, s. 356].

Onu da qeyd etmək lazımdır ki, əslində bütün tədqiqatçılar eyni kontekstdə qismən fərqli baxış nümayiş etdirsələr də, nətică etibarilə ingilis siyasətinin bu bölgədə fiaskoya uğramasını təsdiq edirlər.

Göründüyü kimi, ingilislərin məkrli planı həyata keçmədən iflasa uğramışdı ki, bunda da Azərbaycan Cümhuriyyətinin, Türkiyənin, xüsusilə də Naxçıvanın qəhrəman rəşadətli əhalisinin mühüm rolu var idi. Qeyd etmək lazımdır ki, hətta bütün işğalçı dövlətlərin Qafqaz idarəçiliyinin rəhbərliyində təmsil olunan şəxsləri də Naxçıvan əhalisinin mücadilə və müqavimətinin qarşısını ala bilmədilər. İ.Hacıyev bu barədə yazır ki, Müttəfiq dövlətlərin Zaqafqaziyadakı Ali Komissarı olan Haskel "neytral zona" ("müttəfiq zona") yaradılması təklifi ilə çıxış edir, Naxçıvanın idarə olunmasının Ermənistana verilməsinə ciddi-cəhdlə çalışırdı. O, Naxçıvan əhalisinin inadlı müqavimətini görüb fikrindən əl çəkdi [7, s. 116].

Onu da qeyd etmək vacibdir ki, Böyük Britaniyanın Osmanlı Türkiyəsinin Qafqaza girişinin qarşısını kəsmək planı yalnız ingilisləri deyil, bütün Müttəfiq dövlətləri ilgiləndirirdi. Çünki bu ərəfədə I Dünya müharibəsinin qanunları üstünlük təşkil edirdi ki, Böyük Britaniya da Müttəfiq dövlətlərin aparıcı dövləti olaraq bu kimi siyasi planları həyata keçirirdi. Bu baxımdan bu siyasi xətt Rusiyadan, ABŞ-dan və yaxud digər dövlətlərdən fərqli olmayaraq Türkiyəyə qarşı idi. Çünki Türkiyə Almaniyanın müttəfiq dövləti olaraq Böyük Britaniyanın da

yerləşdiyi Müttəfiq Dövlətlər Blokuna qarşı dayanmışdı [9, s. 70]. Əlbəttə, bu dövrdə artıq I dünya müharibəsi sona çatmışdı, bir çox müttəfiqliklər pozulmuşdu, lakin xarici münasibətlər Türkiyə ilə demək olar ki, eyni formada qalmış, siyasi qarşıdurmalar əvvəlki qaydada davam etməkdə idi. Bu dövrdə Müttəfiq dövlətlərin Türkiyə ərazisini də işğal etməsi bunu əyani şəkildə təsdiq edir. S.Mustafayeva, Z.Cavadova yazırlar ki, Dördlər ittifaqının üzvlərindən biri də Osmanlı imperiyası idi. 1920-ci ilin avqustun 10-da Parisin yaxınlığındakı Sevrdə Türkiyə ilə müqavilə imzalandı Bu müqavilə tarixdə Sevr müqaviləsi adlanır. Türkiyəyə aid olan mülklər qalib dövlətlər arasında bölüşdürüldü. Qalib dövlətlər Türkiyənin öz ərazisini də hissələrə böldülər [9, s. 178, 179].

Ancaq Böyük Britaniya buna baxmayaraq hər zaman Türkiyədən ehtiyat edirdi. Bu təsadüfi reaksiya deyil, faktiki durumun dəyərləndirilməsi idi. Tədqiqatçılar qeyd edirlər ki, Sevr sülhü Türkiyə üçün ölüm təhlükəsi olsa da, qalib dövlətlər onu həyata keçirə bilmədilər. Hətta formal da olsa, bu sənəd qüvvəyə minmədi. Sultan Türkiyəsi hələ onun altına imza atmamışdan qabaq İstanbul, Şərqi Frakiya, İzmir və digər rayonlar imperialist dövlətlərinin qoşunlarından təmizləndi. Anadolunun tutulmamış hissələri isə Türkiyə Böyük Millət Məclisi tərəfindən idarə edilirdi [9, s. 179, 180].

Təbiidir ki, bu kimi dəhşətli regional fəlakətin mövcud olduğu, geosiyasi ekpansional aqressiv xarici müdaxilələrin mövcud olduğu dövrdə Türkiyə də artıq Azərbaycan Cümhuriyyətinə yardım edə bilmirdi və yaxud çox çətinliklə dəstək olurdu. Belə bir dövrdə Azərbaycan Cümhuriyyətinin və Naxçıvan əhalisinin sarsılmaz müqaviməti ingilis hegomonluğunun məkrli planlarının qarşısını ala bildi.

**Ədəbiyyat siyahısı**


1. Ağayev M. Milli mücadele yıllarında Türkiye ve Azerbaycan ilişkileri (doktora tezi). Türkiye, İstanbul, 2006, 377 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cilddə, I cild. Bakı: Lidernəşr, 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar) I cild. Bakı: Azərnəşr, 1998, 976 s.
4. Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, 696 s.
5. Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 124 s.
6. Hacıyev İ. Araz-Türk Respublikası // "Təfəkkür" jurnalı, №1(10) – 2016.
7. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, Əcəmi NPB, 2012, 192 s.
8. Qazıyev Y. Erməni məsələsi (yalanlar və gerçəklər). Bakı: Nurlar, NPM, 2009, 344 s.
9. Mustafayeva S. Cavadova Z. Birinci dünya müharibəsi dövründə beynəlxalq münasibətlər. Dərs vəsaiti. Bakı: ADPU nəşr, 216 s.
10. Naxçıvan ensiklopediyası. II cilddə, I cild. Naxçıvan, 2005, 360 s.
11. Şıxəliyev E.A. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: Əcəmi" NPB, 2016, 144 s.


**Резюме**

**Егана Мамедова**

**Геополитические интересы и падение британского генерал-губернаторствав Нахчывани**

В этом исследовании была подробно исследована историческая ситуация в Нахчыване. В этом контексте были рассмотрены существование, организация, геополитические интересы британского генерал-губернаторства в Нахчыване как формы правления. На основе исторических источников были пролиты свет на исторические события, произошедшие в Нахчыване, и замечено, что коварные политические намерения, которые хотел осуществить здесь британский генерал-губернатор. Для этого были учтены особая роль Азербайджанской

Демократической Республики и положительные результаты борьбы и борьбы народа Нахчывана в этой напряженной исторической ситуации. В результате таких жертв было выяснено, что земли Нахчывана остались в составе Азербайджана, а до сведения президента был доведен тот факт, что планы британцев подарить эти территории армянам были сорваны и они были вынуждены покинуть Нахчыван. научное сообщество в исследовании. Время от времени, как и на других территориях Азербайджана, население Нахчывана, проявившее большую решимость и настойчивость в предотвращении захвата Нахчыванской территории армянами, успешно и победоносно вышло из сложной исторической ситуации. Исторические свидетельства показали, что британское государство, стоящее во главе государств, стремящихся к мировой гегемонии, пришло в упадок на Южном Кавказе, а также в Нахчыване, и что они неспособны реализовать свои геополитические интересы в этих странах. области.

***Ключевые слова:*** *Азербайджанская Республика, Нахчыван, генерал-губернатор, претензии Армении, геополитика*

**Summary**

**Yegana Mammadova**

**British governor-general**
**geopolitical interests and fall in Nakhchivan**

In this study, the historical situation in Nakhchivan was extensively investigated. In this context, the existence, organization, geopolitical interestsы of the British governor-generalship in Nakhchivan as a form of governance were considered. On the basis of historical sources, the historical events that happened in Nakhchivan were shed light on, and it was observed that the insidious political intentions that the British governor general wanted to implement here fell. For this, the special role of the Azerbaijan Democratic Republic and the positive results of the struggle and struggle of the people of Nakhchivan were taken into account in this tense historical situation. As a result of such sacrifices, it was clarified that the lands of Nakhchivan remained part of Azerbaijan, and the fact that the plans of the British to gift these territories to Armenians were broken and they were forced to leave Nakhchivan was brought to the attention of the scientific community in the study. From time to time, like other territories of Azerbaijan, the Nakhchivan population, who showed great determination and perseverance in preventing the seizure of the Nakhchivan territory by the Armenians, successfully and victoriously emerged from the difficult historical situation. It has been made clear with historical evidence that the British state, which is at the head of the states seeking world hegemony, has declined in the South Caucasus, as well as in Nakhchivan, and that they are unable to realize their geopolitical interests in these areas.

***Keywords:*** *Republic of Azerbaijan, Nakhchivan, governor general, Armenian claims, geopolitics*

**UDC 737.1**
**https://doi.org/10.59849/2710-0820.2023.2.139**

**Mustafa Shabanov**
*Ministry of Foreign Affairs of the Republic of Azerbaijan,*
*National Commission of the Republic of Azerbaijan for UNESCO*
*mustafa.shabanov@gmail.com*
*Azərbaycan*

# UNKNOWN M-TYPE SILVER COINS AND HEAVY DENOMINATIONS OF THE SHAKI KHANATE

***Keywords:*** *Shaki Khanate, hoard, coin, 5 shahi, 6 shahi, 8 shahi (2 abbasi)*

According to the information we have obtained, from the end of November 2022 to July 2023, significant number of silver coins of the Shaki Khanate were found scattered in the area of an old residence (called Armudlu) near Aydinbulag village of Shaki, one of the ancient cities of Azerbaijan. We were able to obtain about 70 photos of these coins from various sources on the internet. On the other hand, since we saw only a part of the said coins, we believe that the number of coins found in the above-mentioned hoard was several hundred pieces in total. On the other hand, in 2023, some of these coins were reported to be sold to foreign countries. In February 2023, we noticed that a photo and data of one of these coins was posted on the Zeno.ru – Oriental Coins Database [6, #308127], but the well-known numismatist Stephen Album on the abovementioned portal had difficulty in expressing a clear opinion about this coin type, and in his note asked for help in identification. So this type of coin was not recorded in any catalogue before. Further research revealed that an example of this coin type was sold as recently as September 2021 at an auction led by Stephen Album [5, 41/634]. In the said auction, it was stated in the description of the coin that a part of the verse of Zand *("shod aftab o mah zar o...")* was recorded on the coin, and for this reason, the coin was classified as a subtype of C-type. S.Album has recorded this coin type with the code "A-2048var." for his future edition of checklist. In general, the fact that one example of this coin type was sold at auction in the USA as recently as 2021 suggests that the coins in question were found in 2021 or earlier. Along with these coins, D-type coins of the Shaki Khanate, previously unknown to numismatics, with the denomination of 2 *abbasi*s and some coins struck in other khanates were also found. One example of 2 *abbasi*s denomination coins was known to us from the same source since 2020. The mentioned once again confirms that the said coins were not found in November 2022, but a few years ago, in parts, most probably, from the same place. During the research, it became known to us that in 2009, a hoard of similar coins was found in another region of Azerbaijan and handed over to the National History Museum of Azerbaijan. Unfortunately, the hoard in question has not been involved in scientific research or published yet.

It should be noted that the coin photos presented in the article are not of the same visual quality, as we obtained them from various sources on the internet. Nevertheless, these coins are of great importance from the point of view of scientific research. Initially, we thought to include photos of all coins known to us from the mentioned hoard in the article, but later, due to the increasing number of coin samples every day, we decided to highlight in the article only photos of coin samples that show the main differences.

Coins included in the study can be divided into 2 groups according to their type: M-type and D-type coins.

### M-type coins

On the obverse of the M-type coins studied for the first time, there is an inscription in Persian نظم کار جهان سیم و زر است *"nazmkar-e jahan sim wa zar ast"* (It is copper and silver that set the world in order) in two lines. The last letter of the particle است *"ast"* is extended as *kashidah*. On the reverse, the inscription ضرب نخوي *"duriba nukha"* (struck in Nukha/Nukhwi) is written in two lines. In the inscription, the last letter of the word ضرب *"duriba"* was extended as a *kashidah*.

The dates of the coins placed in the space at the bottom of the coin. The observed dates are 1210 and 1211 AH. Dates are sometimes marked inside a cartouche with various ornaments, and sometimes

without a cartouche. The sign indicating zero is sometimes engraved among the previous digits.

The examined M-type coins can be divided into 2 half-types: half-type I has the invocation ياعزيز *"ya ‘aziz"* in the blank part of the reverse cartouche at 12 o’clock, while half-type II does not contain such as inscription. Some coins have the symbol "↑" on their reverse dies.

It should be noted that among the khanates that existed in the South Caucasus in the second half of the 18th century - the first quarter of the 19th century, the inscriptions mentioned on the obverse of the M-type coins were not found on the coins of any other khanate. However, although we found superficial information about the presence of the same inscription on one of the coin types of Agha Muhammad Shah Qajar during the mentioned period, unfortunately, we did not find any confirming coin examples either in the mentioned source or in other open internet resources. It is possible to assume that some example of M-type coin was confused with the coin of Agha Muhammad Shah Qajar. The reason for falling into such a mistake, in our opinion, could be the similarity of the spelling of the cities of Nukha نخوي and Khoy خوي. It is known that the evocation يا محمد *"ya Muhammad"* was used on the coins of Agha Muhammad Shah Qajar. However, on M-type coins, the evocation ياعزيز *"ya ‘aziz"* was used. Thus, we think that there is still no serious evidence that the mentioned coin type is related to the coin types of Agha Muhammad Shah Qajar. However, it should be noted that in the mentioned period, Agha Muhammad Shah Qajar marched to Azerbaijan, and in the struggle for power in the Shaki Khanate; Muhammad Hasan Khan used the troops of Agha Muhammad Shah Qajar in a fierce battle against his brother Salim Khan near the village of Goynuk [1, p. 132].

In historical sources, it is mentioned that Muhammad Hasan Khan was in power in Shaki in 1198-1210 AH, Salim Khan in 1210-1211 AH, and Muhammad Hasan Khan again in 1211-1219 AH [3, pp. 5-12]. Also, it is reported that Salim Khan came to power in *Jumada al-Awwal* 1210 AH (November-December 1795) and left power in *Dhu al-Qa'dah* 1211 AH (April-May 1797) [1, p. 270]. Thus, it is clear that the said coins were struck during the reign**s** of Muhammad Hasan Khan and Salim Khan.

We can conditionally divide the M-type coins studied into 2 groups according to their weight: those weighing 3 grams or more, and those weighing 2.78 grams or less. A smooth linear circle is dominated at the obverse cartouche of coins with a weight of 3 g and more, and an eight-pointed star ornament is engraved at the obverse cartouche of coins with a weight of 2.78 g and less. Depending on the minting technology, the coins were minted on both circular and oval discs.

According to our observations, the average weight of M-type coins is 3.14 g for sub-type 1 (based on the measurement of 16 coins) and 2.76 g for sub-type 2 (based on the measurement of 5 coins).

It is possible to conclude that the mentioned sub-types were struck with different weight standards or in different denominations. As a result of our observations, it was known that since 1205 AH, coins with the denomination of *abbasi* were struck in the Shamakhi Khanate in the weight of 12 *nukhud*s/*nokhud*s (2.304 g). Since Shaki and Shamakhi khanates are located in the same economic and commercial zone, these values have been the same in Shaki Khanate since 1207 AH. In the years 1209-1211 AH, due to short-term economic fluctuations, the weight of the *abbasi* denomination coins decreased in the Shaki Khanate, and according to our observations, this value decreased to the weight of 10 *nukhud*s (1.92 g). During the study, the average weight of 17 such coins was 1.90 g. We believe that the weight reduction observed in the *abbasi* denomination coins struck in 1209-1211 AH of the Shaki Khanate and of the Shamakhi Khanate in 1207-1210 AH should not be considered an official change of the weight standard. This should be viewed as a short-term fluctuation in coin weights. In this regard, it will be more correct to take 2.30 g of the weight standard for 1 *abbasi*. In the Shaki Khanate in 1211 AH, not only 4 *shahi*s *(abbasi)* denomination coins, but also 5, 6 and 8 *shahi*s denomination coins were struck. The trend of decrease in coin weights up to 2 *nukhud*s weights was not observed in coins with denominations of 5, 6 and 8 *shahi*s. This decrease was reflected only to coins with denominations of 4 *shahi*s (*abbasi*). From this point of view, it is still not possible to fully clarify why the weight standard of *abbasi* denomination coins struck on the same dates differs from coins struck in other denominations. On the other hand, it could also be related to coin grading (purity) issues (i.e., there is a possibility that different grades were applied to different denominations). The weight standard of the studied coins could be 6 *shahi*s for sub-type 1 coins and 5 *shahi*s for sub-type 2 coins. So, in the mentioned period, 1 *abbasi* was considered equal to 4 *shahi*s and if *abbasi* theoretically amounted to

2.304 grams, it is possible to assume that the theoretical weight of sub-type 1 of M-type coins was 3.456 grams, and sub-type 2 coins was 2.88 grams. Thus, the examined coins are distinguished among the khanates existing in the South Caucasus not only by the inscriptions on them, but also by their denominations.

**D-type coins**

D-type coins of the Shaki Khanate are well known to numismatics long ago. D-type coins were struck in Ganja, Shamakhi (Shirvan), Shaki [4], Darband and Guba khanates. These coins were initially struck in the Shamakhi Khanate in the early 80s of the 12th century (in *hijri* calendar). On the obverse of these coins, the evocation *"ya saheb oz-zaman"* [5] يا صاحب الزمان is placed. It is known that the coins with this evocation were struck in Isfahan and Shiraz during the reign of Azad Khan from the Hotaki Afghans (1163-1170 AH / 1750-1757 AD) [see: 4, pp. 284-285, A-2733.1; 6, #92116].

D-type coins of the Shaki Khanate are struck with the mint name either Shaki or Nukha. Regarding whether the words Shaki شكي and Nukha نخوى written on the coins indicate the same or different mints, we believe that two different mints operated in the Shaki Khanate during the mentioned period. The fact that some of the coins struck on the same dates - in 1209 AH were struck with the word Nukha, and the other with the word Shaki - also strengthens our opinion. It is well known from history that in 1772 (1185-1186 AH), the city of Shaki was flooded as a result of the flooding of the Kish River, and the population moved to the nearby city of Nukha [2, p. 148]. Based on the coins studied, the mint at Shaki was active at least from 1207-1209 AH, where silver coins were struck. Although there is a wide variety of copper coins struck at the Shaki Mint, since the date is not marked on them, we cannot say exactly what years these coins were struck, but we assume that the mint in Shaki either ceased to operate when the mint in Nukha started operating, or its activity was more limited (for example, only with the striking of copper coins) continued. It is interesting that the striking of silver coins at the Shaki mint continued in 1241-1242 AH with the name of Fath `Ali Shah Qajar, and these coins are considered to be the last coins of the Azerbaijani khanates in the South Caucasus. This suggests that the Shaki mint was not completely abolished during active operating period of the Nukha mint.

It is interesting that the striking of D-type coins in the Shaki Khanate began in 1207 AH. 1207 AH is also the date of the first known coins of the Shaki Khanate. Thus, in the Shaki Khanate, D-type coins were struck as a mint name of Shaki in 1207-1209 AH, and as a mint name of Nukha from 1209 AH. Coins of Shaki Khanate struck in 1209 AH are distinguished by a special floral design on the obverse. These coins were struck in 1209-1211 AH. It is interesting that on the reverse of these coins the word رايج *"raij"* is written instead of an evocation in a special cartouche at 12 o'clock. Although this word appeared before in the form of a countermark, it is included in these coins as one of the main inscriptions of the coin.

The next striking of D-type coins was carried out in 1220s AH. In 1210-1212 AH, M-type coins were also minted. It is also known that striking of C-type coins *("shod aftab o mah zar o...")* began in Shaki Khanate in 1213 AH.

The reason why we include D-type coins in this article is mainly related to the denominations of these coins. Thus, some of the aforementioned coins found in Aydinbulag were struck in the denomination of 2 *abbasi*s. It should be noted that in the Shaki Khanate, the striking of coins with denominations of 2 *abbasi*s was not known to numismatics before. As mentioned in Table 2, the average weight of 2 *abbasi*s-denominated coins studied is 4.46 grams (on the based of measured 7 coins). Dates 1211 and 1212 AH written on the studied coins. The date of some coins is not legible. Thus, it is not excluded that these coins were struck in 1210 AH. If the theoretical weight of 1 *abbasi*-denominated coins was 2.304 g for the mentioned period, then the theoretical weight of 2 *abbasi*s denominated coins should be 4.608 g. At the same time, we are of the opinion that future scientific research can further clarify points related to coin denominations.

The discovery of a new type of coin struck in the Shaki Khanate is important from the point of view of studying the history of Azerbaijan, numismatics, especially the economic life of the

[4] It is recorded in the coins with the mint name Nukha and Shaki.

[5] This expression, which means the *O Master of Time*, refers to Hazrat Mahdi (as), the 12th Imam. According to the Shi‘ite faith, Hazrat Mahdi (as) will be absent and will appear shortly before the Day of Judgment. Sufi sheikhs, on the other hand, say that anyone who wants to reach his soul to Allah before the death, and who wants to see the 12th Imam via the *dhikr* and *salatul-hajat* (desire) from Allah, could definitely see Him.

period of the Azerbaijani khanates. Also, the circulation of heavy coins in the Shaki Khanate in the mentioned period sheds light on the study of the economic life of the khanate period from a different perspective. Of course, as each new discovery enriches the numismatics, it also brings to light many unknown issues. We believe that an in-depth study of the economic life of the Shaki Khanate is possible only with a comprehensive approach to the coin system of the khanate period. In this regard, we hope that the coins studied in the article and our analysis of the coins will help to conduct future numismatic research.

## References


1. Tahirzadə Ədalət, Şəkinin Tarixi Qaynaqlarda, Azərbaycan Milli Elmlər Akademiyası. Şəki Regional Elm Mərkəzi, Bakı, 2005;
2. Ağaoğlu Rəşat Ahmet, Şirvân ve Arrân bölgeleri muhaddisleri, İstanbul, 2020;
3. Абдул-Латиф-Эфенди, Материалы по Истории Азербайджана. История Шекинских Ханов, текст и перевод: А.Дадашев, Баку, 1926;
4. Album Stephen, Checklist of Islamic Coins, Third edition, Santa Rosa, 2011;
5. Stevealbum.com – S.A.R.C. Auction;
6. Zeno.ru – Oriental Coins Database.



## Xülasə

**Mustafa Şabanov**

**Şəki Xanlığının bilinməyən M tipli gümüş sikkələri və ağırçəkili nominalları**

Məqalədə Şəki Xanlığına məxsus, bu günədək elmə məlum olmayan sikkə tipindən (M tipi) və ağır çəkili nominallardan bəhs olunur. Tədqiq olunan M tipli sikkələrin əksər hissəsinin Şəki şəhərinin Aydınbulaq kəndi ərazisindən tapıldığı bildirilir. Bu sikkələr üzərində *"nəzmkar-i cahan sim və zər əst"* (Dünyanı nizamlayan mis və gümüşdür) yazısı yer alıb. Sözügedən dəfinədə həmçinin, Şəki Xanlığının 2 abbası nominallı sikkələri və D tipli sikkələrin bəzi variantları da ilk dəfə aşkar olunub və məqalədə tədqiq edilib. Məqalədə bu sikkələrin zərb yeri, tarixi, nəzəri çəkiləri, eləcə də M və D tipli sikkələrin digər xüsusiyyətləri təhlil olunub. Tədqiq olunan sikkələrin əsas fərqlilikləri əks etdirən nümunələrinin fotoları məqaləyə daxil edilib.

***Açar sözlər:*** *Şəki Xanlığı, dəfinə, sikkə, 5 şahı, 6 şahı, 8 şahı (2 abbası)*



## Резюме

**Мустафа Шабанов**

**Неизвестные серебряные монеты типа М и крупные номиналы Шекинского ханства**

В статье речь идет о неизвестном до сегодняшнего дня типе монет (тип M) и крупных номиналах Шекинского ханства. Сообщается, что большая часть изученных монет типа M была найдена в селе Айдынбулаг города Шеки. На этих монетах есть надпись *«назмкар-е джахан сим ва зар аст»* (Медь и серебро приводят мир в порядок). Монеты номиналом 2 аббаси и некоторые варианты монет типа D Шекинского ханства также были обнаружены в том же кладе впервые и исследованы в статье. В статье анализируются место чеканки, дата, теоретический вес этих монет, а также другие особенности монет типа M и D. Фотографии исследуемых монет показывают основные отличия также включены в статью.

***Ключевые слова:*** *Шекинское ханство, клад, монета, 5 шахи, 6 шахи, 8 шахи (2 аббаси)*

*Table 1*

**New M-type silver coins of the Shaki Khanate and their characteristics**

| Coin No. | Source | Obverse | | Sub-type and denomi-nation | | Reverse | | | Date | Weight (g) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cartouche | Inscriptions | | | Cartouche | Inscriptions | | | |
| 1 | Aydinbulag hoard | Around the inscriptions there is a smooth linear circle, a space and a smooth liner circle. | نظم کار جهان سیم و زر است<br>*“nazmkar-e jahan sim wa zar ast”*<br>It is copper and silver that set the world in order. | 1 | 6 shahi | Around the inscriptions there is a smooth linear circle, a space, a smooth linear circle and a dotted circle. | The date ۱۲۱۰ "1210" is marked within a special ornament in the part of the cartouche with a space in the direction of 6 o'clock and the evocation یاعزیز *"ya ‘aziz"* is marked in the direction of 12 o'clock. | ضرب نخوي<br>*“duriba Nukha”*<br>Struck in Nukha. | 1210 | 3.20 |
| 2 | | | | | | | | | | 3.37 |
| 3 | | | | | | | | | | 3.16 |
| 4 | | | | | | | | | | 3.10 |
| 5 | | | | | | | The date ۱۲۱۱ "1211" is marked on the empty part of the cartouche at 6 o'clock and the evocation یاعزیز *"ya ‘aziz"* is marked in the direction of 12 o'clock. | | 1211 | 3.20 |
| 6 | Zeno #308127<br>(Aydinbulag hoard) | The cartouche around the inscriptions consists of an eight-pointed star. | | 2 | 5 shahi | | There is a "↑" symbol on the empty part of the cartouche in the direction of 12 o'clock and the date in the direction of 6 o'clock. | | 1211 | 2.75 |

**Table 2**

**D-type silver coins of the Shaki Khanate and their characteristics**

| Coin No. | Source | Obverse | | Reverse | | Denomination | Date | Weight (g) |
|---|---|---|---|---|---|---|---|---|
| | | Cartouche | Inscrip-tions | Cartouche | Inscriptions | | | |
| 7 | Zeno #260257 | Around the inscriptions there are smooth linear and dotted circles. | يا صاحب الزمان<br>*“ya saheb oz-zaman”*<br>O Master of Time! | Around the inscriptions there is a smooth linear circle and a space. Date is marked in central circle. | ضرب شكي١٢٠٧<br>*“duriba shaki 1207”*<br>Struck in Shaki, 1207. | *1 abbasi* | 1207 | 2.09 |
| 8 | Oghuz hoard (2017) | Around the inscriptions there is a smooth linear, dotted and smooth linear circles. | | Around the inscriptions there is a smooth linear circle, a space and again a smooth linear circle. Date is marked in the blank area of the direction of 6 o'clock. | ضرب شكي١٢٠٨<br>*“duriba shaki 1208”*<br>Struck in Shaki, 1208. | | 1208 | 2.00 |
| 9 | Aydinbulag hoard | Around the inscriptions there is a dotted circle connected to each other with the smooth lines. | | Around the inscriptions there is a circle consists of the small circles. Date is marked inside of central circle. | ضرب شكي١٢٠٩<br>*“duriba shaki 1209”*<br>Struck in Shaki, 1209. | | 1209 | 1.92 |
| 10 | SARC Auction 38/707 | Around the inscriptions there is a smooth linear circle and a circle with floral patterns. | | Around the inscriptions there are a smooth linear circle, a space and a smooth linear and dotted circles. There is an invocation رايج *“raij”* in the blank area of the direction of 12 o'clock and a date at the direction of 6 o'clock. | ضرب نخوي١٢٠٩<br>*“duriba Nukha 1209”*<br>Struck in Nukha, 1209. | | | 1.88 |
| 11 | Aydinbulag hoard | | | | ضرب نخوي١٢١٠<br>*“duriba Nukha 1210”*<br>Struck in Nukha, 1210. | | 1210 | 1.95 |
| 12 | | | | | | | | - |
| 13 | | | | | | | | 191 |
| 14 | | | | | ضرب نخوي١٢١١<br>*“duriba Nukha 1211”*<br>Struck in Nukha, 1211. | | 1211 | 1.87 |
| 15 | Zeno #41347 | Around the inscriptions there are a six petals cartouche, a smooth linear circle and "+" symbol in the folds of the petals. | | Around the inscriptions there are a six petals cartouche, a smooth linear circle, a circle consisting of “⁖” symbol and a flower bud symbol in the folds of the petals. | ضرب نخوي١٢٢٠<br>*“duriba Nukha 1220”*<br>Struck in Nukha, 1220. | | 1220 | 2.31 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 16 | Zeno #72958 | Around the inscriptions there are a six petals cartouche, a smooth linear circle and "*" symbol in the folds of the petals, as well as there is a flower bud symbol at the directions of 3 and 9 o'clock. | | Around the inscriptions there are a six petals cartouche and a smooth linear circle. | ضرب نخوي ١٢٢١<br>*"duriba Nukha 1221"*<br>Struck in Nukha, 1221. | | 1221 | 2.33 |
| 17 | SARC Internet Auction 21/976 | Around the inscriptions there are a six petals cartouche, a smooth linear and dotted circles and "*" symbol in the folds of the petals, as well as there is a "∴" symbol at the directions of 3 and 9 o'clock. | | Around the inscriptions there are a six petals cartouche, a smooth linear circle and a flower bud symbol in the folds of the petals. | ياعزيز<br>ضرب نخوي ١٢٢١<br>*"ya'aziz, duriba Nukha 1221"*<br>Ya'Aziz, struck in Nukha, 1221. | | 1221 | 2.28 |
| 18 | Aydinbulag hoard | Around the inscriptions there are a smooth linear circle, a space and "❖" symbol at the direction of 3 o'clock. | | Around the inscriptions there are a smooth linear circle, a space, a smooth linear and dotted circles.<br>Date is marked at the space (blank) part of the cartouche at the direction of 6 o'clock. | ضرب نخوي ١٢١١<br>*"duriba Nukha 1211"*<br>Struck in Nukha, 1211. | *2 abbasi* | 1211 | 3.98 |
| 19 | | Around the inscriptions there are a smooth linear circle, a space, a smooth linear and dotted circles. | | Around the inscriptions there are a smooth linear circle, a space, a smooth linear and dotted circles.<br>There is an invocation ياعزيز *"ya 'aziz"* at the blank part of the cartouche at the direction of 12 o'clock. | ضرب نخوي ١٢١٢<br>*"duriba Nukha 1212"*<br>Struck in Nukha, 1212. | | 1212 | 4.59 |
| 20 | | Around the inscriptions there are a smooth linear circle, a space, a smooth linear and dotted circles, as well as there is a "→" symbol at the direction of 9 o'clock. | | | ضرب نخوي ...<br>*"duriba Nukha ..."*<br>Struck in Nukha, .... | | - | 4.26 |

**PHOTOS OF THE COINS**



1



2



3



4



5



6



7



8



9



10



11



12



13



14



15



16



17



18



19



20

**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2023.2.148**

**Nəcəf Müseyibli**
*Tarix elmləri doktoru, professor*
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri*
*Azərbaycan*
*necef_museibli@mail.ru*

# XALKOLİT DÖVRÜ MUĞAN ARXEOLOJİ MƏDƏNİYYƏTİ

Arxeoloji mədəniyyət məfhumu konkret coğrafiyada və müəyyən zaman çərçivəsində, klassik dövlətlərin yaranma mərhələsinə qədərki dövrlərdə yayılmış maddi mədəniyyətin, dəfn adətlərinin ümumiliyini özündə birləşdirir. Bəzi arxeoloji mədəniyyətlər ilk dövlətlərin erkən mərhələləri ilə eyni zamanda paralel mövcud olmuşlar. Azərbaycanda son illər aparılan araşdırmalar elmdə qəbul edilmiş arxeoloji mədəniyyətlərin fərqləndirici xüsusiyyətlərinə əlavələr etməyə, bu mədəniyyətlərin lokal variantlarının müəyyən edilməsinə, eyni zamanda yeni arxeoloji mədəniyyətlərin kəşf edilməsinə şərait yaratmışdır. Bu baxımdan Muğan bölgəsində uzun illər aparılmış, lakin nəticələri kifayət qədər nəşr və təhlil edilməmiş arxeoloji qazıntılar diqqəti cəlb edir.

Şimali Azərbaycanda Neolit (e.ə. VII minilliyin sonları –VI minillik) və Xalkolit (e.ə. V minillik-IV minilliyin ortaları) dövrlərinin erkən əkinçi-maldar mədəniyyətləri Naxçıvan, Mil-Qarabağ, Gəncə-Qazax və Muğan bölgələrində yayılmışdır. Muğan digər bu bölgələrdən bir qədər kənar, lokal coğrafiyada yerləşir. Bu səbəbdən bölgənin qədim əhalisinin yaratdığı mədəniyyət digər bölgələrin mədəni ənənələrindən müəyyən dərəcədə fərqlənir. Bu vaxtadək Muğanda Neolit dövrünə aid abidə aşkar edilməmişdir.

Muğan bölgəsinin xeyli hissəsi hazırda Cənubi Azərbaycan (indiki İran) sərhədləri daxilindədir. Bu vaxta qədər aparılmış arxeoloji tədqiqatlar nəticəsində Muğan düzündə, xüsusilə də Cəlilabad rayonu ərazisində Xalkolit (Eneolit) dövründən başlayaraq Orta əsrlərədək bütün tarixi mərhələlərə aid abidələrin olduğu müəyyən edilmişdir. Bölgədə arxeoloji abidələrin – qədim yaşayış yerlərinin və qəbir abidələrinin sıx yerləşməsi burada qeyd edilən tarixi mərhələlərdə yaşayışın intensiv olduğunun göstəricisidir.

Muğanda əsas arxeoloji tədqiqatlar Cəlilabad rayonu ərazisində aparılmışdır. İlk geniş, uzun müddətli qazıntı işləri Azərbaycan arxeologiya elmində mühüm xidmətləri olmuş mərhum arxeoloq Fərman Mahmudovun adı ilə bağlıdır. Onun bu bölgədəki başlıca tədqiqatları Əliköməktəpəsi yaşayış yerində apardığı arxeoloji qazıntılar olmuşdur. Abidə 1966-cı ildə qeydə alınmış, 1971-ci ildən başlayaraq on il müddətində geniş qazıntı işləri aparılmışdır. 1980-cı ildə Əliköməktəpəsində qazıntı işləri müvəqqəti dayandırılmışdır. Ümumilikdə 600 $m^2$ sahə qazılmışdır ki, bu da Xalkolit dövrü abidələrinin tədqiqatları üçün olduqca böyük göstəricidir. Mədəni təbəqənin ümumi qalınlığı isə 5 m-dən artıq olmuşdur **(5, s. 53).**

Bu, olduqca maraqlı abidə Muğanın Xalkolit dövrü tarixinin böyük bir mərhələsinin – e.ə. V minilliyin ortaları-ikinci yarısının başlıca xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdir. F.Mahmudov Əliköməktəpəsinin qazıntılarının nəticələri əsasında 80-ci illərdəki nəşrlərində düzgün istiqamət müəyyən edərək "Muğanda Zaqafqaziya eneolitinin yerli variantının olduğunu" yazmış və bunu e.ə. V minilliyin sonu - əvvəllərinə aid etmişdir **(5, s. 66)**. Lakin son illərin elmi araşdırmaları kontekstində bu nəticələrə düzəlişlərin edilməsi qaçılmazdır.

İlk növbədə qeyd edilməlidir ki, keçən əsrin 70-80-ci illərində Cənubi Qafqazda erkən əkinçilik mədəniyyətləri abidələrinin hamısı bir qayda olaraq Eneolit dövrünə, onların xronologiyası isə e.ə. V-IV minilliklər çərçivəsinə daxil edilirdi **(11)**. Əliköməktəpəsi abidəsi də elmdəki bu mədəni ənənələrlə bağlı olaraq Qarabağın

İlanlıtəpə, Çalağantəpə, Naxçıvanın I Kültəpə kimi yaşayış yerləri ilə müqayisəli təhlil edilirdi və bu abidələrin mədəni ənənələri kontekstində seçilirdi. Buna görə də F.Mahmudov Əliköməktəpəsini Cənubi Qafqaz Eneolitinin yerli variantı hesab etmişdir.

Lakin qeyd etmək vacibdir ki, son iyirmi ildə aparılmış arxeoloji tədqiqatlar Qarabağın və Naxçıvanın **(2)** yuxarıda qeyd edilən abidələrinin Əliköməktəpəsindən bir neçə yüz il daha qədimə – Neolit dövrünə və fərqli ənənələrə aid olduğunu göstərmişdir. Əliköməktəpəsinin memarlıq qalıqları, arxeoloji materialları həmin Neolit abidələrinin belə tapıntılarından əsaslı şəkildə fərqlənir. Bu səbəblərdən Əliköməktəpəsi bütün bu abidələrin mənsub olduqları xronoloji və mədəni baxımdan tam fərqli arxeoloji komplekslərin lokal variantı ola bilməzdi.

Fikrimizcə Əliköməktəpəsində aşkara çıxarılmış erkən əkinçilik dövrü maddi mədəniyyət qalıqları müstəqil arxeoloji mədəniyyətdir. Xalkolit dövrünün orta mərhələsinə aid bu mədəniyyəti "Muğan arxeoloji mədəniyyəti" adlandırmaq daha düzgündür. Burada aşkar edilmiş memarlıq qalıqları, keramika, daş, sümük məmulatları abidənin və ümumiyyətlə bu mədəniyyətin fərqli xüsusiyyətlərə malik olduğunu göstərir.

Son illər Əliköməktəpəsinə yaxın sahədə qazılmış Polutəpə yaşayış yeri də **(9)** bu mədəniyyətə aiddir. Polutəpədə aşkar edilmiş bütün tapıntılar az fərqlərlə Əliköməktəpəsi materiallarını təkrarlayır. Buna görə də daha zəngin olan Əliköməktəpəsi abidəsinin qazıntılarının nəticələri əsasında Muğan Xalkolit mədəniyyətinin əsas xüsusiyyətləri müəyyən edilir.

Əliköməktəpəsi və ümumiyyətlə Muğan mədəniyyəti onunla həmdövr olan Naxçıvandakı Ovçulartəpəsi, Gəncə-Qazax bölgəsində Keçili, Menteştəpə kimi abidələrin memarlıq qalıqları və arxeoloji materialları ilə müqayisəli təhlil edilə bilər. Muğan mədəniyyəti bu göstəriciləri, əhalinin həyat tərzi ilə həmin bölgələrin abidələrindən oxşar cəhətlərdən daha çox fərqli cəhətləri ilə seçilir. Bunu xüsusilə də əsas amillərdən biri olan tikinti ənənələrinin müqayisələrində aşkar müşahidə etmək olur. Belə ki, Əliköməktəpəsində çiy kərpiclə inşa olunmuş 100-ə qədər tikililər başlıca olaraq oval-düzbucaqlı planlıdırlar. Az sayda dairəvi tikililər yalnız alt qatlarda aşkar edilmişdir. Bir neçə tikili (yaşayış və ya təsərrüfat təyinatlı binalar) bir tərəfdən ümumi bir divara bitişik inşa edilmişdir. Mədəni təbəqənin II inşaat qatında aşkar edilmiş 8 №-li tikili qalığı xüsusilə maraqlıdır. İki otaqlı evin qalığından ibarət bu bina ikiqat kərpiclə tikilmişdir. Əsas otağın ölçüsü daha böyük olub (11 $m^2$) yaşayış üçün, ikinci otaq isə (5,5 $m^2$) anbar və emalatxana üçün nəzərdə tutulmuşdur. İkinci otağın içərisindən dən daşları, sürtgəc, maral buynuzundan toxa, çaxmaqdaşı və obsidiandan oraq dişləri və s. alətlər aşkar edilmişdir **(5, s. 56-57)**.



*Şəkil 1. Əliköməktəpədə 8№-li tikili qalığı (Mahmudov, 1984)*

Yarımqazma tipli 22 №-li tikilinin divarı suvaq üzərindən əhənglə ağardılmış, bu ağ fonun səthi isə qırmızı oxra ilə naxışlanmışdır. İbadət yeri olan bu binanın və ümumiyyətlə Əliköməktəpəsi tikililərinin mütləq əksəriyyətinin analoqları Cənubi Qafqazın həmdövr abidələrindən məlum deyildir.

Tikintidə dayaq sütunlarının qurulması Əliköməktəpəsinin fərqləndirici cəhətlərindən biridir. Evlərin içərisində və həyətlərdə divar diblərində aşkar edilmiş, üzərinə saxsı döşənmiş tumbaların oxşarları Qafqaz və Yaxın Şərq abidələrindən aşkar edilməmişdir. Cənubi Qafqazın və yaxın Şərqin Neolit və Xalkolit dövrləri yaşayış yerlərinin hamısı üçün ərzaq ehtiyatının saxlanması məqsədilə istifadə olunan təsərrüfat quyuları səciyyəvidir. Əliköməktəpəsində isə bunlardan fərqli olaraq təsərrüfat quyularından deyil, bu quyuları əvəz edən iri ölçülü gil küplərdən istifadə olunmuşdur **(5, s. 61-62)**.

.Polutəpədə 450 $m^2$ sahədə Xalkolit dövrünə aid 4 m qalınlığında mədəni təbəqə qazılsa da burada bəzi divar fraqmentləri istisna olmaqla tikili qalıqları aşkar edilməmişdir **(9, c. 85)**.

Muğan mədəniyyəti əhalisinin təsərrüfatı da müəyyən göstəriciləri ilə Azərbaycanın və ümumiyyətlə Cənubi Qafqazın erkən əkinçilik mədəniyyətlərində olduğundan fərqlidir. Bu ilk növbədə Muğanın Avrasiyada ən qədim atçılıq mərkəzlərindən biri olmasıdır. Əliköməktəpəsi bütövlükdə Qafqazda və Yaxın Şərqdə atların əhliləşdirildiyi ən qədim yaşayış məskənidir.

Əliköməktəpə yaşayış yerinin mədəni təbəqəsindən çoxsaylı əhliləşmiş at sümükləri, o cümlədən atların bütöv kəllə və çənə sümükləri aşkar edilmişdir. Belə tapıntılardan biri daha maraqlıdır. Yaşayış yerinin qazıntı sahəsində, ikinci inşaat qatında qarşıya yönəlmiş iri buynuzları olan iki öküz kəlləsi aşkar edilmişdir. Onların buynuzlarının uzunluğu müvafiq olaraq 55 və 35 sm olmuşdur. Nisbətən kiçik kəllənin buynuzlarının üzərində qırmızı oxra qalıqları saxlanmışdır. Məhz bu buynuzların arasında atın alt çənəsi qoyulmuşdur. Bu yaşayış yerində aşkar edilmiş at sümükləri say etibarilə iri və xırda buynuzlu heyvanlardan sonra üçüncü yerdədir və ümumilikdə osteoloji qalıqların 7,5 %-i təşkil edir. Bu sümüklərin əhliləşdirilmiş iki cins atlara aid olması, onlardan birinin iri dırnaqlı olması müəyyən edilmişdir. Bütün bunlar Muğan zonasında e.ə. V minillikdə atların əhilləşdirilməsini və atlardan təsərrüfatda geniş istifadəni sübut edən faktlardır. **(4, s. 23-24; 10, c. 16: 11, c. 153)**.

Fikrimizcə Əliköməktəpəsi yaşayış yerində belə bir vəziyyət, yəni öküz və at kəllə/çənə sümüklərinin məqsədli şəkildə yığcam yerləşdirilməsi kult təsəvvürləri ilə bağlı olmuşdur. Bu kəllə və çənə sümüklərinin bütöv halda aşkar edilməsi, onların məqsədli olaraq müəyyən qaydalara uyğun yerləşdirilməsi, burada oxradan istifadə belə düşünməyə əsas verir. Bu tapıntılar həmin dövrdə Muğanda atdan təsərrüfatda geniş istifadə ilə yanaşı atla bağlı sitayişin meydana çıxdığını göstərir.

Abidənin keramika məmulatı tipoloji xüsusiyyətlərinə və ornamentlərinə görə müəyyən yerli fərqlərə malikdir. Qabların yumruq şəkilli çıxıntılı qulpları arxeologiya elmində artıq “Əliköməktəpə tipli qulplar” statusunu almışdır. Burada aşkar edilmiş çəkmə formalı saxsı qabın bənzəri yalnız Mesopotamiyadakı III Yarımtəpə yaşayış yerindən məlumdur. Muğanın boya naxışlı keramikası Mil düzünün eyni kateqoriyadan olan saxsı qabları ilə yaxınlıq təşkil edir. Bu məsələnin daha geniş araşdırılmasına ehtiyac var.

Əliköməktəpədə çoxlu sayda gildən düzəldilmiş və bişirilməmiş ovalvari sapand “mərmiləri” aşkar edilmişdir. Yalnız 8 №-li binanın anbar təyinatlı kiçik otağından 149 belə “mərmi” tapılmışdır **(5, s. 57)**. Belə “mərmilər” Polutəpədə **(9, c. 82)** və yaxın ərazidə son illər tədqiqatları başlanmış çoxtəbəqəli yaşayış yeri olan Xudutəpənin Xalkolit dövrü Muğan mədəniyyətinə aid alt təbəqəsindən aşkar edilmişdir **(1)**. Cənubi Qafqazın digər erkən əkinçilik dövrü abidələrindən çay daşlarından olan “sapand daşları (mərmiləri)” aşkar edildiyi halda Muğan mədəniyyəti üçün yumurtaşəkilli gil “sapand mərmiləri” səciyyəvi olmuşdur.

Gildən sapand mərmiləri Mil düzündə Neolit dövrünün sonlarına aid “MPS (Mil Plain Survey) 103” yaşayış yerində aşkar edilmişdir **(3, fig. 47, p. 48).**

Muğan mədəniyyətinin maraqlı tapıntıları sırasında gildən antropomorf fiqurları da qeyd etmək lazımdır. Belə sxematik fiqurlar Polutəpədən **(9, рис. 7, № 9)** və Xudutəpədən **(1)** aşkar edilmişdir. Bu fiqurların arxa və alt hissələri düz və hamardır. Belə forma onları digər həmdövr abidələrin fiqurlarından fərqləndirir.




*Şəkil 2. Xudutəpə yaşayış yerindən aşkar edilmiş gil fiqur (Ağalarzadə, 2023)*

Daşdan hazırlanmış alətlərin də xammal növü diqqəti cəlb edir. Belə ki, Cənubi Qafqazın həmdövr yaşayış yerlərində obsidiandan hazırlanmış kəsici alətlər çaxmaq daşından olan alətlərdən dəfələrlə çoxdur. Əlikөməktəpəsində isə bunun tam əksi müşahidə edilir: çaxmaq daşından alətlər obsidiandan olan alətlərdən qat-qat çoxdur. Bu vəziyyəti yalnız yaşayış yerinin obsidian yataqlarından (Kəlbəcər) nisbətən uzaq məsafədə yerləşməsi ilə izah etmək doğru olmazdı. Bu, həm də çaxmaq daşından alət hazırlanmasının yerli ənənələri ilə bağlı idi.

Maraqlı faktlardan biri yaşayış yerinin sümük məmulatının özünəməxsus xüsusiyyətidir **(5, s. 63-64)**. Belə ki, xırdabuynuzlu heyvanın dirsək sümüyündən hazırlanmış biz tipli alətlər yalnız Əliköməktəpəsi üçün səciyyəvidir. Toxaların da yalnız maral buynuzundan düzəldilməsi məhz bu yaşayış yerinin fərqləndirici xüsusiyyətlərindən biridir. İlk dəfə Əliköməktəpəsində aşkar edilmiş qoyunun kürək sümüyündən düzəldilmiş qaşovvari bıçaqlar, öküzün kürək sümüyündən hazırlanmış biçin aləti yalnız Muğan mədəniyyəti üçün xasdır.

Muğan Xalkolit mədəniyyətinin əhalisi təkərli nəqliyyatla tanış idilər. Polutəpə yaşayış yerindən aşkar edilmiş araba təkərinin gildən hazırlanmış modeli **(8, рис. 3, № 17)** bunu sübut edir. E.ə. V minilliyin ortalarına aid olan bu model Cənubi Qafqazda və Yaxın Şərqdə bu qəbildən olan ən qədim tapıntıdır **(6, s. 5)**.

Ümumiyyətlə, Muğan mədəniyyətinin nəzəri problemləri arxeoloji materialların geniş təhlili əsasında araşdırılmalıdır. Əliköməktəpəsi yaşayış yerinin qazıntılarının nəticələri Muğanın Xalkolit dövrü mədəniyyətini, o dövr əhalinin həyat tərzinin başlıca lokal xüsusiyyətlərini səciyyələndirir. Muğan mədəniyyəti Mil-Qarabağın, eləcə də Yaxın Şərqin erkən əkinçilik mədəniyyətləri ilə sıx təmaslar şəraitində təşəkkül tapmışdır. Təəssüflər olsun ki, mühüm elmi əhəmiyyətə malik belə bir abidənin materialları, abidə ilə bağlı elmi informasiyalar bu günə qədər tam olaraq nəşr edilməmişdir. Fərman Mahmudovun həyatdan vaxtsız getməsi səbəbindən bu iş sona çatdırılmamışdır. Hazırda AMEA Arxeologiya və Antropologiya İnstitutunun qarşısında duran elmi vəzifələrdən biri də budur. Ümid edirik ki, Əliköməktəpəsi yaşayış yerinin qazıntılarının bütün nəticələri sanballı bir monoqrafiya halında, Fərman Mahmudovun adının müəllif kimi saxlanması şərtilə nəşr ediləcəkdir. Bu, Azərbaycan arxeologiya elmində zəruri bir tədbir olmaqla yanaşı abidəni uzun illər tədqiq etmiş alimin xatirəsinə hörmət əlamətinin ifadəsi olardı.

## Ədəbiyyat siyahısı

1. Ağalarzadə A. Muğanın qədim mədəniyyətinə aid yeni tapıntılar // "Elm" qəzeti, 6 oktyabr 2023-cü il.
2. Baxşəliyev V., Marro C., Berthon R., Quliyeva Z., Sarıaltun S. Kültəpədə arxeoloji qazıntılar. Bakı: "Elm və təhsil", 2017. 164 s.
3. Bianca D'Anna Maria. The 2013 Sounding at site MPS 103:Preliminary Report. Some New Insights in the Neolithic 'Unpainted Ceramic Horizon' of the Mil Plain // The Kura Projects. New Research on the Later Prehistory of the Southern Caucasus. Berlin: 2017. Pp. 43-49.
4. Mahmudov F.R., Nərimanov İ.H. Muğan arxeoloji dəstəsinin 1972-ci il tədqiqatlarının hesabatı // ÇTŞ-nin arxivi, H-498.
5. Mahmudov F.R. Əlikömək təpəsində arxeoloji qazıntıların ilkin yekunları // Daş dövrü və Azərbaycanda eneolit. Bakı: ADU, 1984. S. 53-74.
6. Müseyibli N. Leylatəpə mədəniyyəti kurqanlarının mənşəyi "kurqanlar və qədim hind-avropalılar" nəzəriyyəsi kontekstində // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2015, №1, s. 3-9.
7. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: «Элм», 1987,260 с.
8. Ахундов Т.И. Памятники Муганской степи и предпосылки расселения ранних земледельцев на Южном Кавказе в эпоху неолита-энеолита // Stratum plus. Санкт-Петербург – Кишинев – Одесса – Бухарест: 2011, № 2, с. 219-236.
9. Ахундов Т.И., Махмудова В.А., Гасанова А.М., Рамазанлы, Г.Х., Рахманов А.А. Археологические исследования 2015-2016 гг. «Муганской неолит-энеолитической экспедиции» // Археологические исследования в Азербайджане – 2015-2016. Баку: 2017. С. 81-86.
10. Махмудов Ф.Р., Нариманов И.Г. Раскопки холма Аликемек тепеси // Археологические и этнографические изыскания в Азербайджане (1973). Баку: «Элм», 1974. С. 12-16.
11. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: «Элм», 1987,260 с.


## Резюме

**Наджаф Мусибли**

## Муганская археологическая культура халколита

Своеобразные археологические культуры характерны для всех этапов древней истории Азербайджана. В период халколита развитие земледелия и скотоводства, интенсивный характер культурно-экономических связей обусловили формирование на территории Азербайджана различных археологических культур. Одна из таких культур охватывала памятники середины/второй половины V тысячелетия до н. э. Муганской зоны. Памятники этой культуры, которую мы называем «Муганской археологической культурой халколита», были изучены в Джалилабадском районе. Среди них поселение Аликёмектепе, раскопки которого отражают практически все характеристики этой культуры. Отличительные черты муганской культуры от других халколитических комплексов региона проявляются в технике строительства, керамике, каменных, костяных изделиях, а также в хозяйственной жизни, где находит свое место и коневодство.

***Ключевые слова:*** *археологическая культура, Мугань, коневодство, керамика, каменные орудия, костяные орудия.*

**Summary**

**Najaf Museibli**

**Mughan archaeological culture of the chalcolithic period**

Unique archaeological cultures are characteristic for all stages of the ancient history of Azerbaijan. The development of agriculture and cattle-breeding, the intensive character of cultural and economic relations during the Chalcolithic period, determined the formation of various archaeological cultures in the territory of Azerbaijan. One of such cultures covered the monuments of Mughan zone dated to the middle/second half of the 5th millennium BC. The monuments of this culture, which we call “Mugan archaeological culture”, were studied in the territory of Jalilabad district. Among them, the excavations of the Alikomek tepe settlement reflect almost all the characteristics of this culture. The distinguishing features of the Mughan culture from other Chalcolithic complexes of the region are manifested in construction techniques, ceramics, stone and bone products, as well as in the economic life, where horse breeding also finds its place.

***Keywords:*** *archaeological culture, Mughan, horse-breeding, ceramics, stone tools, bone tools.*

UOT 902
https://doi.org/10.59849/2710-0820.2023.2.154

**Вели Б. Бахшалиев**
*Нахчыванское отделение Национальной Академии наук Азербайджана*
*velibahshaliyev@mail.ru*

# ПОСЕЛЕНИЕ ОСМАН ТЕПЕ – ПАМЯТНИК ЭПОХИ КАМЕННОГО ВЕКА

***Ключевые слова***: *Южный Кавказ, Нахчыван, мезолит, неолит, обсидиан, микролиты.*

**Введение.** Исследованиями археологических памятников Южного Кавказа, в том числе и Азербайджана, выявлены различные периоды каменного века, начиная с нижнего палеолита до неолита. При этом эпоха мезолита и переходный период от мезолита к неолиту не изучен должным образом. В настоящее время материально-культурные остатки эпохи неолита представлены памятниками культур Шомутепе-Шулавери и Кюльтепе. Все эти памятники относятся к керамическому неолиту. Самым же древним памятником керамического неолита является поселение Кюльтепе, которое находится на территории Нахчыванской Автономной Республики Азербайджана. Исследования показывают, что это поселение заселено во второй половине VII тысячелетия до н.э. [Marro et al., 2019. P. 81-113]. Однако до сих пор на территории Южного Кавказа памятники докерамического неолита не выявлены. Поэтому среди археологов-кавказоведов возникли два противоположных мнения. Некоторые исследователи на основе определенных находок предполагают, что неолит Южного Кавказа имеет местные корни [Nishiaki, Guliyev, Kadowaki, 2015. P. 279-294], а другие предполагают, что керамический неолит привнесена из стран Ближнего Востока, ссылаясь на то, что на Южном Кавказе производящая экономика представлена в готовом виде [Ахундов, 2019. С. 98]. Попытки некоторых исследователей связать памятники керамического неолита с культурами мезолита также не решали проблемы. Основной целью настоящей работы является ввод в научный оборот новых находок, выявленных в поселении Осман Тепе, которые в определенной степени могут способствовать восполнению пробела, существующего в изучении начального периода неолита на Южном Кавказе.

**Методы исследования**. Археологические материалы исследованы с применением типологического и сравнительного анализа. Материалы разделены, на два периода на основе стратиграфии поселения и особенностей культурного слоя. Для установления ресурсов обсидиана проведен геохимический анализ орудий из обсидиана. Анализ проведен при помощи аппаратов Bruker Tracer III-SD, LA-ICP-MS ESI NW213, Agilent 7700 ICP-MS.

**Поселение Осман Тепе.** Это поселение расположено на высоте 2400 м над уровнем моря, вблизи села Кюкю Шахбузского района (рис. 1). Поселение в настоящее время находится на террасе горы, расположенного на берегу искусственного озера. Окружающая местность богата кормовыми запасами и полноводными родниками, воды которых протекают к озере. Это озеро построено в 1865 году уездным начальником Шан Гиреем для сбора воды этих родников [Сафарли, 2017. С. 25-26]. Во время строительства плотины часть поселения разрушилась, а часть осталась под водой. В настоящее время окружающая местность исползуется в качестве летенего пастпища скотоводами из различных районов Нахчывана. Поселение исследовано нами в 2019-2021 годах. Этими исследованиями уточнено место расположения древнего поселка и выяснено, что поселение полностью не разрушено.

**Стратиграфия поселения.** В 2021 году на поселении заложен раскоп размером 5х5 м. В результате раскопок выявлено два культурных слоя. Общая толщина культурных слоев 0,8-1 м. Нижний слой, обозначенный нами как первый, как по составу, так и по происхождению отличается от второго. Толщина первого слоя в переделах 30-40 см (рис. 2). Этой слой представлен плотным грунтом коричневого цвета, смншанной маленькими камнями, золой и древесеым углем. В некоторых местах прослеживается серые пятна. План строительных остатков в этом слое точно не прослеживается, ввиду того, что они полностью разрушены естественной эрозией и последующим заселением. В этом слое находились разнообразеые отщепы обсидиана. На основе радиоуглеродного анализа, первый слой можно датировать 5735-5620 гг. до н.э. (Таблица 1).

| № | Шифр образца | Лабораторный индекс | Дата (BP) | $\delta^{13}C$ (‰) | Cal BC (95,4%) |
|---|---|---|---|---|---|
| 1 | Osmantepe 2021A | LTL21746 | 6179 ± 45 | -18.9 ± 0.6 | 5218-5000 BC |
| 2 | Osmantepe 2020 | LTL21054 | 6774 ± 45 | -26.1 ± 0.5 | 5735-5620 BC |

Таблица 1. Результаты анализов угля из поселения Осман Тепе.

Толщина верхнего, второго культурного слоя колеблется от 60 до 70 см. Этот слой состоит из грунта, смешанной с золой и кусками древесного угля. Во время раскопок в верхнем слое выявлены остатки прямоугольного помещения, построенного из необтесанного камня (рис. 2, 1). Вблизи этого помещения выявлен овальный очаг, пол которого сложен маленькими булыжниками. Подобные очаги хорошо известны из поселения Кюльтепе [Marro et al., 2019. P. 89]. В результате раскопок выявлен разрез культурного слоя, из которого видно, что первый слой образовался из неоднородного грунта разного цвета смешанной древесным углем. Ниже расположена кориченевый твердый грунт с камнями и песком, иногда смешанный с золой (Рис. 2, 2). Для второго слоя характерно грунт светлого цвета с остатками керамики и обсидиана, ниже расположена серый слой с остатками угля, на котором находится очаг с полом, выложенным камнями. Между этими пластами выявлена часть стенки полуземлянки. Второй слой заканчивается грунтом коричневого цвета (Рис. 2, 2). Эти прослойки, которые сменяли друг друга, которые отличались также по цвету. Несомненно, что они образовались в результате разновременных заселений древних людей. Анализ угля из первого (верхнего) слоя показал 5218-5000 гг. до н.э. (Таблица 1).

| Первый слой | Количесво Находок | Второй слой | Количесво Находок |
|---|---|---|---|
| Сегментовидные орудия | 7 | - | |
| Геомнтрические орудия | 30 | + | 20 |
| Орудияс коротким черешком | 10 | - | - |
| Острия | 5 | + | 12 |
| Отщепы и оскольки различной формы | 85 | + | 154 |
| Пластины со скошенным краем | 4 | - | - |
| Пластины | 4 | + | 30 |

Таблица 2. Распределение обсидиановых изделий по слоям.

**Находки первого слоя.** Материалы этого слоя представлены обсидиановыми изделиями (Таблица 2). Среди них 6 нуклеусов и разнообразные орудия, среди которых присутствуют также микролиты (30 шт.). Размеры некоторых орудий колебают от 1 до 2 сантиметра, а другие изготовлены из отщепов размером 3-4 сантиметров. Среди находок первого слоя привлекает внимание нуклеусы имеющие призматическую (3 шт.) и пирамидальную форму (3шт.). Почти все нуклеусы сильно сработаны. Среди находок имеются также необработанное обсидиановое сырье шаровидной формы (2 шт.).

Сегментовидные орудия различаются по форме (рис. 3, 1-7). Все они с дугообразным ретушированным краем. Некоторые из них оформлены двусторонней (рис. 3: 1, 5), а другие – односторонней (рис. 3: 2, 6,7) ретушью. Подобные орудия известны из поселения Хелоуан [Haïdar-Boustani, 2002. Fig. 6, 1-3], Клисоура [Kaczanowska, Kozłowski, 2014. Fig. 5, 20], Франчти [Reingruber 2011. Fig. 5], памятников бассейна Средиземноморья [Guilaine, Manen, 2005. Fig. 3] и Натуфийской культуры [Bar-Yosef 1998. Fig. 6, 1-2].




Рис. 1. Географическое расположение поселения Осман Тепе.
Fig. 1. Geographical location of Osman Tepe settlement.

Геометрические орудия этого слоя, изготовлены из отщепов треугольной (рис. 3, 8, 10-12, 21, 23-25) и трапециевидной (рис. 3, 13- 20, 22) и многогранной (рис. 3, 26-27) формы. На краях остались следы использования. Иногда использовался один край, а иногда оба края орудий. Подобные орудия известны из мезолитического слоя Клисоура [Kaczanowska, Kozłowski, 2014. Fig. 5, 13], Шинариа [Kaczanowska, Kozłowski, 2014. Fig. 23, q], памятников Средиземноморья [Guilaine, Manen, 2005. Fig. 3] и Натуфийской культуры [Bar-Yosef, 1998. Fig. 6, 4]. На рабочей части некоторых орудий имеются сколы от использования (рис. 3, 17, 19, 23). Почти идентичные трапециевидные орудия известны из Франчти [Perles, 2004. Fig. 2,5; Reingruber, 2011. Fig. 5]. Близкие параллели известны также из поселения Ени Махелле [Çelik, 2011. Fig. 22]. Подобные трапециевидные орудия из пещеры Франчти датируются 8200-7500 гг. до н.э. [Reingruber, 2011. P. 295]. На нескольких экземплярах следы обработки не встречаются (рис. 3, 24), однако часть лезвия их сломана, что говорить об их использовании. Аналогичные орудия, выявленные из пещеры Киклоп [Kaczanowska, Kozłowski, 2014. Fig. 18, 6] исследователями датируются 7800-6900 гг. до н.э. [Kaczanowska, Kozłowski, 2014. P. 47].




Рис. 2. План (1) и разрез раскопа (2) поселения Осман Тепе: **a** – слой с остатками керамики и обсидиана; **b** – стенка полуземлянки; **c** – слой с остатками угля; **d** – очаг с полом, выложенным камнями; **e** – слой с коричневым цветом; **f** – слой с остатками угля; **i** – твердый грунт с включениями угля; **g** – слой с камнями и песком; **h** – твердый грунт, смешанный с золой. Fig. 2. Plan [1] and section of the excavation site (2) of the Osman Tepe settlement: **a** – layer with remains of ceramics and obsidian; **b** – semi-dugout wall; **c** – layer with coal residues; **d** – hearth with a stone-lined floor; **e** – layer with brown color; **f** – layer with coal residues; **i** – hard soil with coal inclusions; **g** – layer with stones and sand; **h** – hard soil mixed with ash.

Пластина из серебристого обсидиана представлена одним экземпляром (рис. 3, 9). Это орудие имело трапециевидное сечение. На лезвиях следы ретуши отсутствуют. Кроме того, имеются еще два фрагмента подобной пластины, которые подвергнуты ретуши с обеих сторон. Подобные орудия хорошо известны на памятниках эпохи мезолита и раннего неолита [Cauvin, Aurenche, Cauvin, Balkan-Atlı, 2011. P. 29. Fig. 14, 2].

Среди находок первого слоя особого внимания заслуживают орудия, имеющие треугольную или овальную форму (рис. 4, 1-10). Нижняя часть некоторых орудий в виде черенка выступают внизу (Рис. 4, 1-5). Подобные орудия представлены разнообразными формами. Лезвие одного из них обработаны односторонней, а другие двусторонней ретушью. На лезвиях всех этих орудий имеются следы от использования в виде параллельных линий.




Рис. 3. Геометрические орудия пеового слоя.
Fig. 3. Geometric tools of first layer.

Следует сказать, что подобные орудия из неолитических памятников Южного Кавказа пока неизвестны. Они обычно находились в памятниках эпохи мезолита. Аналогичеые орудия известны из Гусир Уюк [Karul, 2011. P. 15, fig. 14], поселения Мароулас [Kaczanowska, Kozłowski, 2014. Fig. 14; Sampson, Koslowski, Kaszanowska, Giannouli, 2002. P. 59. Fig. 15, 12, fig. 16], Клисоура [Kaczanowska, Kozłowski, 2014. P. 36. Fig. 5, 4-7] и других памятников. Подобные орудия, выявленные на поселении Мароулас датируются 9-8 тысячелетиями до н.э. [Sampson, Koslowski, Kaszanowska, Giannouli, 2002. P. 62]. Приблизительно этим периодом датируются также находки Гусир Уюк.




Рис. 4. Орудия с коротким черенком (1-10) и острия (11-15).
Fig. 4. Tools vith short stem (1-17) and points (11-15).

Острия представлены четырьмя экземплярами. Три из них имеют треугольную форму с коротким черенком (рис. 4, 11-12; рис. 4, 14), а лезвие четвертого имеет четырехугольную форму (рис. 4, 13). Подобные орудия из неолитических памятников Южного Кавказа неизвестны. Однако аналогичные орудия выявлены из неолитических памятников Иордании [Wasse, Rowan, Rollefson, 2012. Fig. 12] и из Акарчай Тепе [Özbaşaran, Duru, 2011. Fig. 25]. Подобные орудия из разных горизонтов поселения Джафар Уюк датируются 8000-7700 гг. до н.э. [Cauvin, Aurenche, Cauvin, Balkan-Atlı, 2011. P. 8-16, fig. 14, 8; fig. 22, 4-7]. Острия же из Ени Махелле датируются еще более древним периодом [Çelik, 2011. P. 147; fig. 20]. Аналоги подобных орудий известны также из памятников, которые датируются 6500-6000 гг. до н.э. [Wasse, Rowan, Rollefson, 2012. P. 22], что новорить о длительном бытовании этих орудий.




Рис. 5. Острия (1-7, 9, 14-15), пластины со скошенным краем (8, 10-13).
Fig. 5. Points (1-7, 9, 11), plates with beveled edge (8, 10-13).

Имеется также одно миндалевидное орудие, которое, по-видимому, также использовалось в качестве наконечника метательного орудия (рис. 4, 15). Подобные орудия также хорошо известны из ранненеолитических памятников Ближнего Востока [Cauvin, Aurenche, Cauvin, Balkan-Atlı , 2011. P. 35. Fig. 22, 2; Karul, 2011. Fig.12, a, b, e, f].




Рис. 6. Геометрические орудия второго слоя.
Fig. 6. Geometric tools of second layer.

**Археологические материалы второго слоя.** Из второго слоя выявлены обсидиановые орудия и керамические изделия. При этом следует отметить, что обсидиановый инвентарь (Таблица 2) составляет большинство археологических находок, а керамические изделия выявлены в небольшом количестве. Орудия этого слоя изготовлены из пластин несколько более крупного размера, имеющие длины 3-7 сантиметров. В этом слое нуклеусы не выявлены.




Рис. 7. Османтепе. Вкладыши серпов и ножи: 1-15, 17-19 – обсидиан, 16 –кремень.
Fig. 7. Osman tepe. Sickle blades and knives: 1-15, 17-19 – obsidian, 16 – flint.

Острия в основном имеют треугольную форму (рис. 5, 1-7, 9). Концы этих изделий заострены, а лезвия с одной стороны обработаны ретушью. Некоторые со сломанным концом (рис. 5, 9). Возможно, что некоторые из подобных орудий (рис. 5, 1-3) использовались в качестве сверла, а другие как развертки. На поверхности по продольной оси одного из них сохранились следы использования в виде параллельных линий. Подобные орудия известны из Мароулас [Sampson, Koslowski, Kaszanowska, Giannouli, 2002. P. 58, fig. 14, 1-10], Гусир Уюк [Karul, 2011. Fig. 15], Франчти [Douka, Perl`es, Valladas, Vanhaeren, 2011. P. 1139, fig. 5, 8-13], Роахол Тепе [Bahrami, Sabzi Doabi, Nikzad, 2012. Fig. 6, 12] и других памятников.

Определенная группа острий имеют треугольную форму. Некоторые из них дополнительно заострены ретушью (рис. 5, 14-15).




Рис. 8. Керамические изделия из поселения Осман Тепе.
Fig. 8. Pottery from the settlement Osman Tepe.

Орудия со скошенным краем представлены тремя экземплярами. Они имеют дуговидную форму (рис. 5, 8, 10-13). Лезвия этих орудий с одной стороны обработаны ретушью (рис. 5, 8, 12). При этом на одном из них имеются также следы использования на обеих частях (рис. 5, 13). Близкие аналоги подобных орудий известны из Нисси-Бич [Kaczanowska, Kozłowski, 2014. P. 56. Fig. 28, 8], Франчти [Perles, 2004. P. 33. Fig. 2, 5; Douka, Perl`es, Valladas, Vanhaeren, 2011. P. 1139. Fig. 5, 3], Мерижело [Bahrami, Sabzi Doabi, Nikzad, 2012. Fig.10, 10] и других поселений.

Геометрические орудия второго слоя имеют треугольную, трапециевидную (рис. 6, 1-11), четырехугольную а иногда округлую форму (рис. 6, 12-17). Некоторые орудия обработаны с одного края, другие с двух, а третьи с трех краев. На рабочих частях орудий нередко заметны следы использования. Подобные орудия хорошо известны из памятников эпохи мезолита и раннего неолита. Они известны из таких памятников Эгейского мира, как Клисоура, Мароулас [Kaczanowska , Kozłowski, 2014. P. 36, fig. 5, 9, 13. Fig. 14, 25. Fig.23, l, n], а также из памятников Средиземноморья [Luglie`, Le Bourdonnec, Poupeau, Atzenia, Dubernet, Moretto, Serani, 2007. P. 435. Fig. 7, 13]. Подобные орудия известны также из таких памятников Южного Кавказа как Кюльтепе [Marro, Bakhshaliyev, Berthon, Thomalsky, 2019. Fig. 16, 5], Шомутепе [Ахундов, 2012, с. 126] и Шулавери [Kiguradze, 1986. abb. 5, 10. Abb. 10, 11-12].

Некоторые пластины, выявленные в этом слое, имеют треугольное или же четырехугольное сечение. По-видимому, этот тип пластин использовался в качестве вкладышей составных серпов. Следы использования даже видны невооруженным глазом. На лезвиях этих орудий сохранились следы многочисленных параллельных линий, направленных на острия. Как известно, в эпоху неолита существовали прямые и дуговидные формы составных серпов. Костяная основа дуговидного серпа найдена в Кюльтепе [Абибуллаев, 1982. С. 206. Таблица VII, 10], а прямого – в памятниках Джейтунской культуры [Массон, 1971. С. 29]. Этот тип орудий представлен небольшим количеством экземпляров (20 шт.) Они изготовлены из пластин треугольного и трапециевидного сечения (рис. 7, 1-16, 18,19). Некоторые из них обработаны ретушью, а другие использовались в естественной форме, так как они имели очень острые лезвия. Поверхность некоторых вкладышей полностью покрыта ретушью. Некоторые вкладыши, по-видимому, использовались также в качестве скребков. Об этом говорит дополнительная обработка концевой части вкладышей (рис. 7, 5). Подобные орудия хорошо известны из памятников эпохи раннего неолита. Они найдены в Аргисса-Магоула [Perles, 2004. Fig. 5, 3. Fig. 10,1; Reingruber, 2011. Fig. 6], Кюльтепе [Абибуллаев, 1982. Таблица III, 12], Шомутепе [Ахундов, 2012. С. 67, 72, 116] и Шулавери [Kiguradze, 1986. Abb. 6, 8,10. Abb. 9, 15]. Однако некоторые из них (рис. 7, 13, 17) отличаются особенно архаичным обликом и грубой выделкой.

Пластины в виде ножа представлены двумя экземплярами. Один из них изготовлен из большой трапециевидной в сечении пластины. Края обработаны мелкой ретушью. Концевая часть затуплена. На лицевой стороне по продольной оси сохранились следы в виде параллельных линий, направленные к концу (рис. 7, 17). Второй экземпляр по размеру несколько меньше. Это орудие изготовлено из трапециевидной в сечении пластины. Концевая часть затуплена. Острия подвергнуты ретуши. На лицевой стороне также сохранились следы в виде параллельных линий, направленные к концу.

**Керамические изделия**. Керамические изделия найдены в небольшом количестве (23 шт.). Они представлены черепками кувшинов и мисок. Большинство из них не поддается определению. Большинство из них изготовлены из глины с примесью мелкозернистого песка. По цвету глины их можно разделить на две группы. Первая группа керамики обожжена в красном, а вторая на сером цвете. Наружная часть некоторых красноглиняных изделий украшена тонкими вдавленными линиями (рис. 8, 5-6).

Кувшины имеют загнутый наружу венчик и конусовидную шейку (рис. 8, 1-2), подобные изделия хорошо известны из таких неолитических памятников, как Кюльтепе [Абибуллаев, 1982. Таблица IX, 3-4], Шомутепе [Ахундов, 2012. Таблица 208, 2-3], Имирис-гора [Kiguradze, 1986. Abb. 46, 2-8], Арухло I [Kiguradze, 1986. Abb. 53, 21], Шулавери [Kiguradze, 1986. Abb.13]. Миска изготовлена из глины с примесью рубленой соломы. Аналоги подобных мисок хорошо известны из вышеупомянутых поселений Южного Кавказа. Керамические изделия с вдавленным орнаментом также известны из памятников Южного Кавказа [Kiguradze, 1986. Abb.13, 3], Иранского Азербайджана [Voigt, 1983. Fig. 80, f] и Ближнего Востока [Mellart, 1975. Fig.84, g].




Рис. 9. Карта обсидиановых ресурсов Южного Кавказа (карта составлена Мари Оранжом).
Fig. 9. Map of obsidian resources of the South Caucasus (by Marie Orange).

**Источники обсидиана.** На Южном Кавказе выходы обсидиана присутствуют на территории Азербайджана, Армении и Грузии. Богатые залежи обсидиана существуют также на территории Восточной Анатолии и Северного Кавказа (рис. 9). Исследования показывают, что древние поселенцы Нахчывана в основном использовали обсидиановые залежи, расположенные на территории Южного Кавказа и Восточной Анатолии [Baxşəliyev, 2019. C. 17-18]. При этом большая часть обсидиана прибывала из месторождении Сюник и Гегам, которые расположены вблизи озера Севан (рис. 9). Обсидианы из залежей Восточной Анатолии представлен в малом количестве. Такое явление прослеживалось также в материалах Осман Тепе. Исследование показывает, что[6] обсидианы поселения Осман Тепе прибывали из Гегам (2 шт.) и Сюника (89 шт.). Результаты анализа показывают, что на поселении Осман Тепе обсидианы из залежей Сюника составляли доминирующее положение. Следует сказать, что обсидиан как сырье на территории Нахчывана использовался уже в эпоху среднего палеолита. Однако источники его до сих пор не уточнены.

[6]Анализ обсидианов проведен Мари Оранж

**Оценка полученных результатов.** На основе исследований можно сказать, что поселенцы Осман Тепе в начальном периоде жили в полуземлянках. Использование подобных помещений известно из ряда поселений Южного Кавказа [Marro, Bakhshaliyev, Berthon, Thomalsky, 2019. P. 81-113] и Ближнего Востока [Mellart, 1975. P. 135]. Подобные помещения и в настоящее время используются скотоводческими племенами Нахчывана. Однако строительные остатки, выявленные из верхнего слоя, показывают, что использовались также наземные помещения, выстроенные из камня. Подобные помещения, по-видимому, покрывались палатками. Этнографические параллели подобных помещений хорошо известны из Башюрта в Нахчыване. Как уже сказано, большинство археологических материалов представлено обсидиановыми изделиями. Следы использования на орудиях труда, показывают, что некоторые из них были многофункциональными. Эти орудия свои аналогии находят в памятниках эпохи мезолита и раннего неолита. Учитывая расположения поселения в высокогорной местности и холодный климат, можно сказать, что в эпоху неолита Осман Тепе являлось сезонным поселением скотоводов. На основе анализа орудий труда можно сказать, что в этом периоде в занятиях древних поселенцев наряду со скотоводством, основное место занимало собирательство и охота. А керамические изделия говорят о существовании домашнего ремесла. Исследование поселения Осман Тепе позволяет также уточнить пути передвижения древних поселенцев Нахчывана к обсидиановым ресурсам. В настоящее время можно сказать, что древние жители края, передвигаясь по долинам Нахчыванчай и Кюкючай, добрались до обсидиановых ресурсов Сюника. Исследования показывают, что при изготовлении обсидиановых орудий в основном использовались обсидиановые залежи Гегам и Сюника.

**Заключение.** На основе исследований можно сказать, основными занятиями поселенцев были охота, собирательство и животноводство. О существовании земледелия мы пока не имеем никаких данных. Так как ботанические остатки пока не выявлены. Накопление культурного слоя показывает, что это поселение скотоводами использовалось в течение длительного промежутка времени. При этом микролиты первого слоя аналогичны материалам ряда памятников мезолита и неолита. Анализ угля, взятого из нижнего слоя, показал 5735-5620 гг. до н.э. Возможно, что жизнь в поселении начиналась еще раньше.

**Благодарность**

Приносим благодарность руководству Нахчыванского отделения Национальной Академии наук Азербайджана, которое разрешило исследование поселения, а также Мари Оранж за исследование обсидианов и Саваш Сарыалтун за прорисовку разреза раскопа и доработку графических рисунков.

## Литература

1. Ахундов Т. У истоков Кавказской цивилизации. Шомутепе. Баку: Наука, 2012. 388 с.

2. Абибуллаев О.А. Энеолит и бронза на территории НахчыванскойАССР. Баку: Элм, 1982. 316 с.

3. Бахшалиев В. Археологические исследования 2018 года в Нахчыване. Нахчыван: Аджеми, 2019. 104 с.

4. Массон В.М. Поселение Джейтун (проблемы становления производящей экономики) // Материалы и исследования по археологии СССР (МИА), № 180. Ленинград: Наука. 1971, 208 с.

5. Сафарли Г. Эпиграфические памятники Нахчывана. Нахчыван: Аджами, 2017. 200 с.

6. Albrecht G., Albrecht B. G., Berke H., Burger D., Moser J., Rähle W., Schoch W., Storch G., UerpmannH.P., Urban B. Late Pleistocene and Early Holocene finds from Öküzini : A Contribution to the Settlement History of the Bay of Antalya, Turkey // Paléorient 1992. Vol. 18/2. P. 123-141.

7. Bahrami M., Sabzi Doabi M., Nikzad M. Note on Three New Neolithic Sites in Pish-e

Kuh Region, Central Zagros // Neolithics. 2012, № 1/12. P.8-14.

8. Barge O., Azizi Kharanaghi H., Biglari F., Moradi B., Mashkour M., Tengberg M., Chataigner Ch. Diffusion of Anatolian and Caucasian obsidian in the Zagros Mountains andthe highlands of Iran: Elements of explanation in 'least cost path' models // Quaternary International. 2018. № 467. C. 297-322

9. Bar-Yosef O. The Natufian Culture in the Levant,Threshold to the Origins of Agriculture // Evolutionary Anthropology. 1998. № 6/5. P. 159-177

10. Cauvin J., Aurenche O., Cauvin M.C., Balkan-Atlı N.The Pre-Pottery Site of Cafer Höyük // The Neolithic in Turkey. İstanbul, 2011. –P. 1-40.

11. Çelik B. Şanlıurfa- Yeni Mahelle // The Neolithic in Turkey. 2011. № 2. P. 139-164.

12. Douka K., Perl`es C., Valladas H., Vanhaeren M. Hedges R.E.M. Franchthi Cave revisited: the age of the Aurignacian in south-eastern Europe // Antiquity. 2011. № 85. P.1131–1150.

13. Garfinkel Y., Nadel D.The Sultanian Flint Assemblage from Gesher and its Implications for Recognizing Early Neolithic Entities in the Levant // Paléorient. 1989. Vol. 15/2. P. 139-151.

14. Guilaine J., Manen C. From Mesolithic to Early Neolithic in the western Mediterranean. Going over // The Mesolithic-Neolithic Transition in the North-West Europe. 2005. P. 21-51.

15. Haïdar-Boustani M. Le Néolithique Du Liban Dans Le Contexte Proche-Oriental État Des Connaissances // Annales D'histoire Et D'archéologie Université Saint-Joseph. 2001-2002. Vol. 12-13. P. 1-39.

16. Kaczanowska M., Kozłowski J. K. The Aegean Mesolithic: Material Culture, Chronology, Networks of Contacts // Eurasian Prehistory. 2014. 11 (1–2). P. 31–62.

17. Karul N. Gusir Höyük // The Neolithic in Turkey. 2011. № 1. P. 2-17.

18. Kiguradze T. Neolithische Siedlungen von Kvemo-Kartli, Georgien, München: Verlag C.H. 1986, 62 p.

19. Luglie` C., Le Bourdonnec F.X., Poupeau G., Atzenia E., Dubernet S., Moretto Ph., Serani L.Early Neolithic obsidians in Sardinia [Western Mediterranean]: the Su Carroppu case // Journal of Archaeological Science, 2007. № 34. P. 428-439.

20. Marro C., Bakhshaliyev V., Berthon R., Thomalsky J. New light on the Late Prehistory of the South Caucasus: Data from the recent excavation campaigns at Kültepe I in Nakhchivan, Azerbaijan (2012-2018) // Paleorient. 2019. Vol. 45.1. P. 81-113.

21. Mellaart J. The Neolithic of the Near East, London: Thames and Hudson Ltd., 1975.154 p.

22. Özbaşaran M., Duru G. Akarçay Tepe. A PPNB and PN Settlement in Middle Euphrates-Urfa // The Neolithic in Turkey. 2011. №2. P. 165-202.

23. Perles C. The Early Neolithicin Greece. New York, 2004. 372 p.

24. Reingruber A. Early Neolithic settlement patterns and exchange networks in the Aegean // Documenta Praehistorica. 2011. № XXXVIII. P. 291-305.

25. Sampson A., Koslowski J.K., Kaszanowska M., Giannouli B. The Mesolithic settlement at Maroulas, Kythnos // Mediterranean Archaeology and Archaeometry. 2002. 2(1). P. 45-67

26. Wasse A., Rowan Y., Rollefson G.O., A 7thMillennium BC Late Neolithic Village at Mesa 4 in Wadi al-Qattafi, Eastern Jordan // Neolithics. 2012. № 1/12. P.15-24.

27. Voigt M.M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983. 396 p.

**Xülasə**

**Vəli B. Baxşəliyev**

**Osmantəpə yaşayış yeri Daş dövrünün abidəsidir**

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ilə Daş dövrünün müxtəlif mərhələləri Paleolit dövründən başlayaraq Neolit dövrünədək aşkar olunaraq öyrənilmişdir. Lakin Mezolid dövrü və Mezolitdən Neolitə keçid mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Cənubi Qafqazda keramikasız Neolit dövrünün abidələri isə indiyədək öyrənilməmişdir. Buna görədə keramikalı Neolit dövrünün mənşəyi ilə bağlı qafqazşünas arxeoloqlar arasında bir-birinə zidd iki nəzəriyyə meydana çıxmışdır. Bəzi tədqiqatçılar müəyyən tapıntılara əsaslanaraq ehtimal edirlər ki, Cənubi Qafqazın Neolit mədəniyyəti yerli zəmində yaranmışdır, digərləri isə Cənubi Qafqazda Neolit mədəniyyətinin hazır şəkildə ortaya çıxmasına əsaslanaraq keramikalı Neolit mədəniyyətinin başqa ölkələrdən gətirildiyini söyləyirlər. Bu baxımdan Cənubi Qafqazda keramikasız Neolit dövrünün öyrənilməsindəki boşluğu dolduran Osmantəpə yaşayış yerinin yeni tapıntıları müəyyən əhəmiyyətə malikdir. Bu tapıntılar Cənubi Qafqazda, həmçinin Azərbaycanda Neolit dövrünün öyrənilməsindəki boşluğu doldurmağa imkan verir. Osmantəpənin birinci təbəqəsinin materialları başlıca olaraq obsidiandan hazırlanmış mikrolitlərdən ibarətdir. İkinci təbəqədə isə alətlərin çeşidi artmış və keramika ortaya çıxmışdır. Daş alətlərin tipoloji analizi bu yaşayış yerində insanların uzun müddət yaşadığını və yerli xammaldan istifadə etdiyini göstərir. Yaşayış yerindən götürülmüş karbon nümunələrinin analizi yaşayış yerini keramikalı neolitin erkən mərhələsi ilə tarixləndirməyə imkan verir.

**Summary**

**Veli B. Bakhshaliyev**

**Osman Tepe settlement monument of Stone Age**

Studies of archaeological sites of the South Caucasus, including Azerbaijan, revealed various Stone Age periods, from the Lower Paleolithic to the Neolithic Age. At the same time, the Mesolithic Age and the transition period from Mesolithic to Neolithic have not been adequately studied. Moreover, site of the aceramic Neolithic in the South Caucasus remain unearthed. Therefore, two opposing theories appeared among archaeologists of the Caucasians. Based on small finds, some researchers suggest that the Neolithic of the South Caucasus have local roots, while others put forward opinions on the imported nature of the ceramic Neolithic, citing the fact that in the South Caucasus, the producing economy is presented in its finished form. At the same time, to a certain extent, new finds identified at the Osman Tepe settlement attract attention. These materials give the possibility to supplement the gap existing in the study of the Neolithic Age in the South Caucasus, including Azerbaijan. Since the materials of the first layer of Osman Tepe settlement are represented by obsidian microsites, and in the second layer, there are various shapes of obsidian tools and a small number of ceramic products. Based on a typological analysis of the settlement tools, we can say that people lived here for an extended time and used local raw materials. Moreover, radiocarbon dates taken from the settlement allow dating settlements to the early period of the Neolithic Age.

***Keywords:*** *South Caucasus, Nakhchivan, Mesolithic, Neolithic Age, obsidian, microliters.*

**UOT 1(091)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.169**

**Araz Əliyev**
*Bakı Dövlət Universitetinin doktorantı*
*Azərbaycan*
*arazaliyev1606@gmail.com*

# FRANSIZ TƏDQİQATÇILARIN ƏSƏRLƏRİNDƏ TÜRK OBRAZININ TARİXİ XARAKTERİSTİKASI

***Açar sözlər:*** *Səyyah, türkuri, barbar, müsəlman, türk dostu, türkologiya*

**Giriş.** Fransada türklər haqqındakı ilkin təsəvvürlərin formalaşması fransız səyyahların Şərqə səfərləri ilə eyni vaxta təsadüf edir. XVI əsrdən etibarən Fransa və Osmanlı imperiyası arasında münasibətlərin inkişafı və bir-birini tanıma cəhdləri orta əsrlərə xas xristianlığın sterotipli yanaşmasında fərqli olaraq türklər haqqında daha empirik məlumatların formalaşmasına imkan yaratmışdır. Bu ikitərəfli münasibətlərin formalaşmasına qədər keçən dövrlərdə "türk" obrazının digər Avropa cəmiyyətlərində olduğu kimi bütövlükdə "*şərqli*", "*müsəlman*" kimliyi içərisində dəyərləndirildiyi müşahidə olunur.

Lakin XIV əsrdən etibarən ilk olaraq fransız səyyahları vasitəsilə başlanan araşdırmalar "türk" obrazının müstəqil şəkildə dəyərləndirilməsinə və bu obraza münasibətdə yeni yanaşmaların meydana çıxmasına şərait yarat yaratmışdır. Sonrakı dönəmlərdə Fransız tədqiqatçıların "türk" obrazına olan münasibətinin digər Avropa ölkələri ilə müqayisədə ciddi ölçüdə fərqləndiyi nəzərə çarpır. Müəyyən dövrlərdə "*heyranlıq*" səviyyəsinə yüksələn münasibətlərdə, periodik olaraq ənənəvi rəqabət və düşmənçilik motivlərinə də yer verildiyi görülür.

**Orta əsrlərdən XVII əsrə qədər fransız ictimai rəyində "türk" obrazı.** Fransız səyyahlar tərəfindən yazılmış əsərlər Fransada "türk" obrazı barədəki düşüncələrin formalaşmasında və inkişafında özünəməxsus yerə malikdir. Türk tədqiqatçı Serpil Gürer-in bu mövzuda yazmış olduğu doktorluq dissertasiyası bir çox istiqamət üzrə Fransız səyyahların formalaşdırdığı "türk" obrazını anlamaq baxımından əvəzolunmaz mənbədir. Gürer XVII, XVIII və XIX əsrlərdə Osmanlı imperiyasına səyahət etmiş Fransız səyyahların "türk" obrazı haqqında təsvirlərini sistemləşdirir. Onun fikrincə, Fransada türklər haqqındakı ilkin təsəvvürlər Xaç yürüşləri dövrünə təsadüf edir və "*müsəlman*" kimliyi içərisində yer alan "*türk*" obrazı bu dönəmdə "*barbar*", "*vəhşi*", "*zalım*" formasında təsvir edilir [10, s. 36].

Bir digər türk tədqiqatçısı A. İldem də "*Fransız səyyahların gözü ilə türklər və yunanlılar*" (2000) adlı əsərində Fransada "türk" kimliyi ilə bağlı ilkin təsəvvürləri ətraflı şəkildə təqdim edir. O da fransızların türklər haqqında təbii olaraq neqativ düşüncələrə sahib olduğunu və bu düşüncələrin birbaşa Xaç yürüşləri dövründə formalaşan obrazla əlaqəli olduğunu bildirir. Fransızlar üçün bu dövrdə türk obrazı "*babar və istilaçı bir qövm*" xarakterinə malikdir. Onlar barbar türklərin Şərqi Roma imperiyasını və onun mirasını məhv etdiklərini düşünürlər [7, s. 24].

Türklərin Qərbə doğru genişlənməsi və Avropa üçün artan təhdidi bu düşüncənin sonrakı dönəmdə də qorunub saxlanmasına və daha da körüklənməsinə şərait yaratmışdır. Lakin XV əsrdən etibarən Fransız səyyahların türkləri "*barbar*" yox, bu yanaşmadan olduqca fərqli şəkildə "*digər dinlərə qarşı dözümlü, onlara qarşı ədalətli davranan*" qövm kimi təsvir etdikləri müşahidə olunur. Müəllif bu cür qeydlərin Xaç yürüşləri ilə əlaqədar məşhurluq qazanmış "*barbar*" düşüncəsini yalanlanması ilə nəticələndiyini yazır. Fransız müəlliflərin əsərlərində türk obrazına qarşı yanaşmada baş verən bu dəyişikliyin böyük ölçüdə siyasi proseslərin tə-

siri, Almanlara qarşı türk-fransız ittifaqı, eyni zamanda türklər haqqında birbaşa və empirik məlumatların əldə edilməsi ilə bağlılığı müşahidə olunur.

İldem öz əsərində XVI və XVII əsrlərdəki fransız ictimai şüurunda "türk" obrazının "yunan" obrazı ilə müqayisəli şəkildə təsvir edildiyini və türklərin yunanlılardan daha üstün dəyərləndirildiyini qeyd edir. Bunun əsas səbəbi kimi isə yunanların inanc etibarilə ortodoks olmasını və fransızlar tərəfindən dindən çıxmış şəxslər kimi qiymətləndirilməsini göstərir. Bu yanaşma səbəbilə fransız icimai şüurunda türklərə qarşı dini zəmində ciddi nifrətin formalaşmadığına və bu yanaşmanın XVIII əsrin sonlarına qədər davam etdiyinə yer verir [7, s 25].

**XVII və XVIII əsr fransız səyyahlarının əsərlərindəki "türk" obrazı**. İctimai şüurdakı dəyişiklik dalğasının Fransada XVIII əsrə qədər davam edən "türk heyranlığı"-nın yaranması ilə nəticələndiyi və artıq "*barbar*" obrazından çıxarılan türk kimliyinin yeni, əvvəlkindən tamamilə fərqli keyfiyyət qazandığı nəzərə çarpır. Bu dəyişikliyin əsas nümunələrindən biri fransız səyyah Jan Tevenotun qeydləridir. Bir çox mənbədə "*tərəfsiz səyyah*" adlandırılan Jan Tevenot "*1655-1656-cı illərdə Türkiyə*" adlı əsərində XVII əsrdə türklərin həyat tərzi, düşüncə səviyyəsi və məişəti haqqında ətraflı məlumatlar təqdim edir.

Türkləri qüvvətli və sağlam olaraq təsvir edən Tevenot, türk dilinin orijinal xarakterə malik olduğunu və qərb dillərinin heç birinə bənzəmədiyini, olduqca xoş və öyrənilməsinin rahat olduğunu yazır. Ərəb və fars dillərindən bir çox söz alsa da, bu sözlərin türk dilini zənginləşdirdiyini qeyd edir. Türklərin elmə münasibətinə də toxunan müəllif, onların elmlə o qədər də maraqlanmadığını, lakin hüquq, astrologiya və ədəbiyyatın türklər arasında daha geniş yayıldığını, musiqiyə xüsusi önəm verildiyini qeyd edir. Tevenotun qeydləri türklərin daha çox ilahiyyat və ədəbiyyatla məşğul olduğunu, Avropalıların başa düşdüyü formada pozitiv elmlərlə yönəlmədiyini ortaya qoyur [17, s. 82, 96-97].

O, xristianların çoxunun türkləri *şeytan, barbar* və *imansız* olduğunu düşündüklərini, lakin türkləri tanıyan və onlarla ünsiyyət qurmuş olan şəxslərin tamamilə fərqli düşüncələrə sahib olduqlarını qeyd edir. Onun fikrincə, şübhəsiz ki, türklər yaxşı insanlardır və özlərinə edilməsini istəməkdikləri şeyləri başqasına etməmək prinsipinə çox yaxşı əməl edirlər. Tevenot haqqında danışdığı şəxslərin məhz *həqiqi türklər* olduğunu, şər əməllərin daşıyıcılarının isə başqa dinlərdən İslama keçən şəxslər olduğunu yazır. O, türklərin müsəlman, musəvi və xristian olmasından asılı olmayaraq hər kəsə qarşı xoş niyyətli olduqlarını, müsəlmanlara qarşı olduqları kimi, xristianlara qarşı da diqqətli davrandıqlarını vurğulayır [17, s. 143].

XVII əsr fransız düşüncəsində "türk" obrazının formalaşmasında ciddi təsirə malik bir digər səyyah və tacir Jan-Baptist Tavernyedir. "*Tavernye səyahətnaməsi*" (1676) adı altında yayımlanan səyahətnamə qeydlərində onun Türkiyə və İrana səfərləri ərzində müşahidə etdiyi məqamlar öz əksini tapır. O, türklərin hakimiyyətləri altındakı ərazilərdə az qala hər il kütləvi xəstəliklərin baş qaldırdığını, bunun əsas səbəbinin isə türklərin taleyə inanmaları ilə izah edir. O, açıq şəkildə türklərin mədəni olmadığını, rüşvətxor və yalan danışmağa meylli olduqlarını, pulu isə hər şeydən üstün tutduqlarını yazır. Onun sözlərinə görə, türklər öz hakimiyyətləri altındakı xristianlara qarşı zorakı davranır, kilsələri və heykəlləri dağıdaraq, onların yerində məscidlər inşa edirlər [16, s. 117, 120-125].

Tavernyenin səhayətnaməsində türklərə qarşı mənfi münasibət, Antik dünya mirasının türklər tərəfindən dağıdılması və bu ərazilərdə yaşayan əhalinin türk "zülmü" altında əzilməsi kimi dönəmin Avropa düşüncəsi üçün xarakterik yanaşmalar nəzərə çarpır.

Digər fransız səyyah, təbiətşünas Piton de Turnefor "*Tournefort səyahətnaməsi*" (1717) adlı əsərinin ilk fəslində türklərin yaşadıqları ölkə ilə bağlı ətraflı məlumat verməyə çalışır. Lakin onun təqdim etdiyi məlumatlar mənfi və subyektiv xarakterli olması ilə seçilir. Turnefor türklərin demək olar ki, bütün həyatlarını işsizlik və tənbəllik içərisində keçirdiklərini, plov yemək, su, tütün və qəhvə içməyin bir müsəlmanın bütün həyatını təşkil etdiyini yazır. Aralarında sayca çox az, amma hünərli olanların isə Qurani-Kərimi oxumaqla məşğul olduqlarını bildirir. Ümumilikdə bu ərazilərdə Qədim

mədəniyyəti və təbiət tarixini araşdırmaqdan, ticarətdən başqa cəlbedici heç nəyin olmadığını qeyd edir [18, s. 57].

Turnefor türklərin idarə etdikləri ərazilərdəki xristianların dinlərinə müdaxilə etmədiyini, qadağalar qoymadığını və həyatlarında heç bir dəyişiklik etmədiklərini də əlavə edir. Türklərin dini tolerantlıq baxımından üstün keyfiyyətlərini dilə gətirən Tournefort, əsas problemin xristianlarda, daha doğrusu onlara rəhbərlik edən din xadimlərinin cəhalətində görür. Müəllif, xeyirxahlıq və heyvanlara qarşı mərhmətli, ürəyi təmiz və xoş niyyətli türklərin yoluxucu xəstəliklərə qarşı entinasız yanaşdığını və hər şeyi taleyin ümidinə buraxdıqlarını bildirir. Bunun əsas səbəbinin din olduğunu qeyd edir və inancları səbəbilə türklərin yaşdıqları ərazilərdəki Antik mirasdan yararlanmadıqlarını yazır [18, s. 97, 355].

Tavernye və Turneforun türklər haqqındakı fikirlərində XVII və XVIII əsrdə bütün Avropa üçün xas olan "*klassik mirası məhv edən*", "*xristianlara zülm edən*", "*xəstəliklərə qarşı etinasız*", "*taleyə inana*" türk kimi bir sıra klassik sterotiplərlə yanaşı, fransızların özlərinə məxsus yeni fikrilərinin də formalaşdığı müşahidə edilir. Ümumilikdə XVII və XVIII əsr fransız səyyahları üçün türklər Antik mirasın daşıyıcısı olan tarixi əsərlərə qarşı olduqca laqeyd, onları ya dağıdıb məhv edən, ya da sökərək fərqli məqsədlər üçün istifadə edən kimsələrdir. "Türk" obrazının bu dövrdə ümumiləşdirilmiş xüsusiyyətləri içərisində "*tənbəl*", "*rüşvətçi*", "*xəyalpərəst*" və "*qədərci*" olmaları yer alır. Türklər "*kafir*" olaraq adlandırdıqları xristianların gətirdikləri yeniliklər heç bir halda qəbul etmir, "*imperiyanın ən yüksək vəzifəliləri arasında rüşvət geniş yayılır, hakimin hökmü, şahidlərin ifadəsi əmtəə kimi alınıb-satılır, yoluxucu xəstəlikdən ölən şəxslərin əşyaları bazarlarda satılırdı*" [10, s. 137-138].

Bütün mənfi dəyərləndirmələrlə yanaşı fransız səyyahların türklərin müsbət keyfiyyətlərini də vurğuladığı, lakin bu müsbət keyfiyyətlərin daha çox şəxsi həyat və məişət sahələrini əhatə etdiyi nəzərə çarpır. Qeyd olunan dövrdə fransız səyyahların təsvir etdiyi "türk" obrazı "*dürüstlük*", "*qonaqpərvərlik*" və "*yardımsevərlik*" kimi müsbət keyfiyyətlərin daşıyıcısı kimi göstərilir. Bütün şərin qaynağı "*dönmələr*" olduğu, türklərin inandığı dinin onlara şiddəti və düşmənçiliyini qadağan etdiyi, alicənab, qonaqpərvər və yardım sevər olduqları, heyvanlara və bitkilərə qarşı mərhəmətli davrandıqları qeyd olunur [10, s. 140-144].

**XIX əsr fransız səyyahlarının əsərlərindəki "türk" obrazı.** İldem qeyd edir ki, XVIII əsrin ortalarından etibarən fransız səyyahlar türklərin hakimiyyəti altında yaşayan digər xalqların varlığının və onlar qarşı münasibətin daha çox fərqinə varırlar. Lakin bu münasibət türklər haqqındakı müsbət fikirlərin davam etdirilməsinə əngəl törətmir. Əsrin sonlarında isə bu yanaşma bir qədər dəyişilir və yunanların türklərin əsarəti altında yaşadığı, kölələşdirildiyi, tez bir zamanda xristian Avropa tərəfindən öz azadlıqlarına qovuşdurulmasının zəruriliyini qeyd edilir. Xüsusilə Antik Yunan və Roma mədəniyyətinin dağıdıcısı qismində məhz türklər göstərilir, yunanların isə bu qədim mədəniyyətin davamçısı və varisi olaraq nəzərdə keçirilməsi başlanır. Nəticədə əvvəlki əsrlərə xas olan türklərin müdəfiə olunduğu, ortodoks yunanların tənqid olunduğu yanaşma, öz yerini yunanların müdafiə, türklərin isə günahlandırıldığı yanaşmaya verir. XIX əsrin əvvələrində də davam etdirilən bu yanaşma türklərə qarşı formalaşdırılan mənfi münasibətin təməllərini təşkil edir [7, s. 27-30].

Bu yanaşmanın tipik nümayəndəsi, türklər haqqında olduqca mənfi fikirlərə malik olan fransız səyyah, diplomat və tarixçi Fransua Rene de Şatobriandır. O, özünü "*Parisdən Qüdsə səyahət*" (1811) adlı əsərində türkləri açıq şəkildə "*barbar*" olaraq təsvir edir. Türklərin Qədim Yunanıstanın xarabalıqları və xristian yunanların cəsədləri üzərində qurulan nizamlı "*barbarlıq sivilizasiyası*" olduqlarını, türklərin tarixən olduğu kimi öz doğma vəhşiliklərini qoruyub saxladıqlarını qeyd edir [4, s. 8-9].

Şatobrianın yanaşmasında hər şeydən öncə türklərə qarşı ciddi qərəz nəzərə çarpır. O, türklərə insanlığı tövsiyə etmək, onları gözəl duyğularla şirnikləndirməyin, onlara millətlərin qanunlarını başa salmağın, sülhə və danışıqlara təşviq etməyin vaxt itkisi olduğunu yazır. Yunanların mövqelərini açıq şəkildə müdafiə edən Şatobrian, "*türklərin vəhşi ordularını yenidən diriltdən mədəniyyəti, dünya sivilizasiyasını mə-*

*zarda boğmağa çalışdığını, xristianları səssizcə qətlə yetirdiyini qeyd edir və xristian dünyasını baş verənlərə reaksiya verməyə*" dəvət edir [4, s. 10, 24].

Şatobrianın nümunəsində türklərin açıq şəkildə mənfi obrazda təqdim edilməsinin, XIX əsrin əvvəllərində Yunan problemi ilə bağlı Avropada formalaşan anti-türk fikirlərdən qaynaqlandığını ehtimal etmək mümkündür. Bu baxımdan fransız ictimai şüurundakı "türk" obrazının da siyasi konyukturaya uyğun şəkildə formalaşdığı nəzərə çarpır. Bunun ən yaxşı nümunələrindən biri, XIX əsrin ortalarına doğru Fransada qeyd etdiyimiz mənfi yanaşmanın sıradan çıxması və onun yerinə türklər haqqında müsbət meyllərin canlanmasıdır.

XIX əsrin ortalarından etibarən fransız tədqiqatçıların əsərlərində "türk" obrazı öz mənfi xüsusiyyətlərini itirməyə və yenidən müsbət keyfiyyətlərlə təsvir edilməyə başlayır. Bu yanaşmanın əsas səbəbi isə həmin dövrün siyasi konyukturası fonunda Osmanlı imperiyasının və türklərin Avropa ölkələrinin Rusiyaya qarşı mübarizəsində müttəfiqə çevrilməsi ilə bağlı idi. XIX əsr fransız səyyahları içərisində xüsusi yerə malik olan Cerard de Nerval özünün "*Şərqə səyahət*" (1851) adlı əsərində türklərlə bağlı fikirlərini dilə gətirir. O, türklərin evlərindəki xidmətçilərinə qarşı münasibətini qeyd edərək, onları xristian Avropalılar ilə müqayisə edir. Kölələrə qarşı amansız davranan Avropalıların türklərin insanpərvərliyi qarşısında necə də zalım göründüklərini və bunu düşünməyin utanc verdiyini yazır. Türklərin hətta heyvanlara qarşı belə mərhəmətli davrandıqlarını qeyd edən Nerval, türk teatrlarının qədim Yunan və Romadakılara xas cəhətlərə malik olsa da, çox inkişaf etmədiyini, türklərin dininin və müsəlman cəmiyyətinin strukturunun bu cür sənətlərin inkişafına imkan vermədiyini qeyd edir [15, s. 48-49, 55, 62].

Nerval türklərin zərif və incə qonaqpərvərliyə malik olduğunu, müəyyən mədəni səviyyəyə yüksəlmiş türklərin fərqli dinə mənsub olan şəxslərə sərt və qeyri-tolerant davranmadığını bildirir. O, Avropa mədəniyyətinin türklər içərisində yavaş-yavaş yayıldığına diqqət çəkir və türklərin Avropada zənn edildiyi kimi heykəl sənətinə düşmən olmadığını yazır. Əsərinin sonunda isə türklərin İstanbulunda universal tolerantlığı, anlayış və incəliyi gördüyünü vurğulayır [15, s. 231, 240-245].

XIX əsrdə "*Türk dostu*" adlandırılan fransız səyyahlardan biri də Alfons de Lamartindir. Lamartin 1832 və 1850-ci illərdə Şərqə iki səyahət həyata keçirmiş və hər iki səyahəti ilə bağlı qeydlərini yayımlamışdır. Səyahətnamələri ilə yanaşı özünün 8 cildlik "*Türkiyə tarixi*" (1854) adlı əsərinin birinci cildində, türklərdən olduqca müsbət tonda bəhs edir. Türkiyə ilə Fransanın Rusiyaya qarşı müttəfiqliyini ön plana çıxaran Lamartin təkcə türklərin müqəddəs torpaqlardakı təhlükəsizliyi, tərəfsizliyi, sülhü və hörməti təmin edəcəyini qeyd edir. O, mərhəmətli və tolerantlıq sahibi olan Türklərin qədərçi olduğunu, lakin bu qədərçiliyin qəhrəmanlıq səviyyəsində olduğunu əlavə edir. Rusların bu xalqı məhv etmək istərkən diriltdiyinə diqqət çəkən Lamartin, türklərin əslində xristianlığı müdafiə edərək Avropanın vəzifəsini icra etdiyini, "*dünya sahillərində kainatın azadlığını müdafiə etdiklərini*" yazır. Lamartin türkləri Avropanın azadlığının qarantiyası adlandırır və öldü zənn edilən bir xalqın içərisində hələ də canlı bir millətin yaşadığın gördükləri üçün Avropalıları təbrik edir [11, s. 25, 30].

Lamartin "*Şərqə səyahət*" adlı digər əsərində də türklər haqqındakı fikirlərini davam etdirir. O, bir türkü on Avropalının arasında qoysanız, hər zaman yuxarı baxışlarından, vərdişlərinin üzündəki düşüncə ciddiliyindən və ifadəsindəki alicənab sadəliyindən tanımağın mümkün olduğunu yazır. Lamartin türklərin sağlam, yaxşı və əxlaqlı olduğunu, inandıqları dinin Avroplıların düşündüyü kimi batil olmadığını qeyd edir. Lakin bu din daha çox təslimiyyətçidir və hər şeyi tanrının iradəsinə buraxır və nəticədə insanın mahiyyətini öldürür. Bu baxımdan türklər heç bir şeyi məhv etməsələr də, hər şeyin məhv olmasına izləyici qalırlar. Lamartin müsəlmanların hakimiyyətinin qurutduğu bu yerləri daha faydalı insanlara yenidən açmağı təklif edir [12, s. 276, 439].

Lamartinin fikrincə, türklər olmasaydı, yunanlar və katoliklər arasında mübahisə mövzusu olan müqəddəs tarixi abidələr mənfur və rəqib qüvvələr arasında mübarizə predmeti olardı. O, türklərin xristian mirasına qarşı münasibətində türkləri ittiham edəcək, təhqir edəcək bir şey görmədiyini qeyd edir. Yalnız cahillərin

türkləri qəddar dözümsüzlükdə günahlandırdığını, lakin onların əslində başqa insanların pərəstiş etdiyi şeylərə qarşı dözümlülük və hörmətə sahib olduqlarını yazır. Onun fikrincə, türklər müsəlman qardaşlarının düşüncələrində Allah fikrini harada görsələr, ona baş əyir və hörmət edirlər. Çünki türklər düşünür ki, ideya formanı müqəddəsləşdirir. Türklər Lamartinin fikrincə, yeganə tolerant insanlardır. O, yazır: "*Xristianlar türkləri ittiham etmək əvəzinə özlərinə sual versinlər və vicdanla özlərindən soruşsunlar ki, əgər Məkkə və Kəbə onlara təhvil versəydi, nə edərdilər? Türklər Avropanın və Asiyanın hər yerindən gəlib islamın qorunub saxlanmış abidələrini bu cür dinclik ilə ziyarət edə bilərdimi?*" [11, s. 317].

Ümumilikdə, XIX əsr fransız səyyahlarının təsvirlərində türklərə aid edilən "*tənbəllik*", "*xəyalpərəstlik*", "*rüşvətxorluq*" kimi keyfiyyətlərin əvvəlki dönəmlərlər müqayisədə daha az dilə gətirildiyi müşahidə olunur. Bunun əvəzində isə türklərin "*qonaqpərvər*", "*yardımsevər*", "*dürüst*" və "*mərhəmətli*" obrazı daha çox vurğulanır. Səyyahların bir çoxu türkləri Avropalıların düşündüyünün əksinə daha tərbiyyəli olduqlarını, xeyirxahlıqlarının xarakterlərindən gəldiyini, kölələrə qarşı Qərb ölkələrindən daha ədalətli şəkildə davrandıqlarını qeyd edirlər [10, s.306-312].

Digər tərəfdən əvvəlki əsrlərin səyahətnamələrində rast gəlinən yanaşmaların XIX əsr səyyahları tərəfindən davam etdirilmədiyi və ya fərqli şəkildə təsvir edildiyi nəzərə çarpır. Əgər əvvəllər türklər tarixi abidələrin dağıdılmasının tək günahkarı hesab olunurdusa, XIX əsrdə digər xalqlar və yerli xristianlar da tənqid hədəfinə çevrilirdi. Türklərin elmi və təhsil cəhətdən geriliyi çox qabardılmır, daha çox eqzotik və təsvir üslubuna üstünlük verilirdi. Türklərin bəzilərinin yaxşı təhsil gördüyü, mədəni xalqlar səviyyəsinə yüksəlməyə can atdığı, sadəcə yaşadıqları cəmiyyətin və inanc sistemlərinin bir çox sahədəki inkişafa əngəl olduğu qeyd olunurdu [10, s. 312-319].

**Fransız filosoflarının əsərlərindəki türk obrazı.** Məşhur fransız filosofu **Volter** "*Türklər, müəlmanlar və digərləri*" adlı əsərində türklərin tarixi məskənlərinin Xəzər dənizinin şimalından Sakit okeana qədər uzanan "İskitiya" olduğunu qeyd edir. Onun sözlərinə görə bu gün orada məskunlaşan ibtidai insanlar sadəcə atalarının dünyaya hökmran olduqlarından xəbərdardırlar. Volter, "türk", "tatar" və "türkmən" kimi adları fərqləndirir və onlar eyni mənşədən, Orta Asiyanın köçəri qəbilələrindən gəldiklərini yazır [19, s. 13-14].

Volter türklərin məğlub olsalar da heç vaxt boyunduruq altına düşmədiklərini yazır. O, türklərin öz hakimiyyətləri altında yaşayan xristianlara qarşı düşünülüdüyü kimi, qəddar və barbar şəkildə davranmadıqlarını xatırladır. Onun sözlərinə görə, heç bir xristian dövləti öz torpaqlarında bir məscidin olmasına icazə verməz, lakin türklər bütün rumların kilsələrinə dözümlü şəkildə yanaşır. Türkləri Romalılarla müqayisə edən Volter, romalıların qalib gəldiyi xalqlarla qaynayıb qarışdıqlarını, türklərin isə hər zaman onlardan kənar qaldıqlarını qeyd edir [19, s. 37, 46-47].

Volter həmçinin türk idarəçiliyinə qarşı yönəldilən ittihamları də açıq şəkildə tənqid edir. Onun sözlərinə görə, bu cür ittihamlar olduqca mənasızdır və yanlış şəkildə türklərdə hər kəsin hökmdarın köləsi hesab olunduğu deyilir. Lakin əgər belə bir sistem mövcud olsa belə, o gərək özü-özünə məhv olardı. Türklər Volterin fikrincə, deyilənlərin əksinə azad və müstəqildirlər, aralarında heç bir sinfi fərqlər yoxdur, xarakterləri həm sərt, həm də yumşaq və səbrlidir. Türklər yırtıcılığı iskitlərdən, yumşaqlı və səbri isə yunan və romalılardan alıblar. Onun fikrincə, türk imperiyası heç bir Avropa dövlətinə bənzəmir, ordakı qanunların bir nəfərin keyfindən asılı olduğunu düşünmək isə olduqca xətalıdır. Türk idarəçiliyində qorxunc qanunsuzluqların olduğu, yüksək ədalət mexanizminin olmadığı bəllidir. Lakin burada hökmdar belə öz taxt-tacının taleyindən əmin deyil. Volter türklərdə hökmdarın belə öz vəzifəsini itirmək qorxusunun olduğunu, bu səbəblə də azad və istədiyi şəkildə hərəkət edə bilmədiyini qeyd edir. O, türklərin bu sistemi yunanlılardan aldıqlarını, fransız tarixçilərin isə türkləri istibdad altında yaşadığı və istibdada əsaslanan bir dövlət qurduqlarını deməklə əslində insanları aldatdıqlarını bildirir [19, s. 54].

Volter türklərin belinə yüklənən nəhəng iftiraları toplamaq mümkün olsaydı, bunun böyük bir kitab olacağını yazır. Türklərin dünya-

nın ən böyük və gözəl hissələrinə hakimlik etdiklərini, onları təhqir etməkdənsə, bu yerləri geri almağa çalışmağın vacibliyini vurğulayır. O, qadınları əsarət altında saxlayan və incəsənətə laqeyd yanaşan türkləri sevmədiyini, lakin onlara edilən iftiralara da nifrət etdiyini qeyd edir. Türklərin xarakter baxımından təzadlı, həm dağıdıcı, həm də mərhəmətli olduqlarını, xristianları kafir adlandırsalar və xor görsələr də, onların ibadətgahlarını qoruyub saxladıqlarını xatırladır. [19, s. 58].

Volter türk idarəetmə quruluşunu insanlara söz haqqı və davranış azadlığı verməyən sistem kimi təqdim edən tarixçiləri açıq şəkildə tənqid edir. Türk sultanının hakimiyyətini hər iki tərəfi kəskin qılınca bənzədir və bəzən bu qılıncın öz sahibini də kəsdiyini yazır. Türklərin dəfələrlə öz qonaqpərvərlikləri və tolerantlıqlarını təsdiq etdiklərini, lakin "*fransızların cahil və özünübəyənmiş yazarlarının onları hər zaman zalımlıqla ittiham etdiyini*" yazır [19, s. 85, 123].

Volterdən fərqli olaraq Şarl-Lui Montesque türklər haqqında mənfi fikirlər səsləndirməkdədir. O, özünün *"İran məktubları"* (1721) və *"Qanunların ruhu"* (1748) adlı iki əsərində türk obrazına xüsusi yer verir. O, türklərin qorxunc bir "*istibdad*" ilə idarə olunduğunu, bu cür dövlətlərdə heç bir şeyin düzəldilə bilməyəcəyini, islah olmayacağını yazır. Türklərin hər şeyi torpaqdan aldıqlarını, ancaq torpağa heç nə vermədiklərini, nəticədə hər yerin çölə çevrildiyini yazır. O, türklərin insanların mülkiyyətinə və canına çox da dəyər vermədiyini, məhkəmə sisteminin tamamilə sıradan çıxarıldığını qeyd edir [13, s. 107, 125, 219].

Montesquenin əsərlərində türklər haqqında fransın səyyahlar tərəfindən formalaşdırılan obrazın izlərini açıq şəkildə görmək mümkündür. Fransız səyyahlar kimi o da türklərin taleyə inandığını və bu səbəblə də yoluxucu xəstəliklərdən qorunmadığını, başlarına gələnləri sadəcə seyr etdiklərini qeyd edir [14, s. 317]. Türklərin nəzarətində olan ərazilər və şəhərlərin xaraba qaldığını və dağıdıldığını, torpaqların əkilib-biçilməsi və ticarət bütünlüklə sıradan çıxarıldığını, buralarda yaşayan xristianların və pulları əllərindən alınan yəhudilərin şiddətlə qarşı qarşıya qaldığını qeyd edir. O, önəmli şəhərlərin yalnız Avropalıların əlində inkişaf etdiyini, əgər türklərin ixtiyarında olsa idi, digərləri kimi olacağını qeyd edir [13, s. 26, 45].

**Fransada və Avropada türk heyranlığı – "Turquiere".** Villiams Haydn "*XVIII əsrdə Avropada türk modası*" (2021) adlı əsərində XVI əsrdən etibarən Avropada türklərə xas xüsusiyyətlərin, geyim tərzi, musiqi və moda kimi bir çox amillərin təqlidinə əsaslanan axım, "*turquiere*" haqqında məlumat verir. "*Turquiere*" türklərə və türk həyat tərzinə müxtəlif sənət növlərində meydana gələn Avropa baxışını ifadə edir. Əsasən həzz almaq və əyləncə, bəzən də mövcud nizamın tənqidi məqsədilə istifadə olunurdu. Xüsusilə "*Min bir gecə*" nağıllarının fransız dilinə tərcümə olunması, Avropanın Şərq haqqındakı eqzotik təsəvvürlərinin canlanmasına və cəmiyyətin yuxarı sinifləri tərəfindən "*türk həyat tərzinin*" təqlidinə gətirib çıxarmışdı. Bu baxımdan "*turquiere*" həm Avropada, həm də Şərqdən tamamilə fərqli şəkildə inkişaf edən xəyal aləminə çevrilmişdi. Bəzi insanlar üçün həzz vasitəsinə çevrilən bu fenomen bəziləri üçün də ciddi tənqid hədəfi idi. Didro Fransada yayılmaqda olan "*turquiere*"-ni əxlaqi cəhətdən çökmüş cəmiyyətin inkası adlandırırdı [20, s. 7-8].

Haydn İstanbulun fəthindən sonra bütün Avropada böyüyən "*türk qorxusu*"na baxmayaraq türklərin həyat tərzinə və sənət nümunələrinə olan marağın inkişaf etməsini olduqca ironik adlandırır. Bu qorxunun XVIII əsrdə öz yerini heyranlığa buraxdığını, türklər haqqındakı təhdidkar bir obrazın dəyişməsinin əsas səbəbinin isə Avropalıların Osmanlı türklərinin dəbdəbəli həyat tərzi ilə tanışlığından qaynaqlandığını qeyd edir. Xüsusilə XVII əsrin sonunda Vyananın uğursuz mühasirəsindən sonra türklərin "*yenilməz*" obrazı sıradan çıxmış və təbii olaraq türk qorxusu da böyük ölçüdə zəifləmişdi. Vyana yaxınlığında ələ keçirilən türk çadırlar, türklərin həyat tərzi və yaşayışları haqqında Avropalar üçün əvəzolunmaz mənbələrə çevrilmiş və bütün Avropada sərgilənmişdi. Bu dövrdən etibarən türklər haqqında əldə olunan məlumatlar onlara qarşı marağın daha da artmasına, əyləncə və xəyal dünyasına xitab edən "*turquiere*"nin bəzi hallarda ifrat dərəcədə eqzotikləşməsinə səbəb olmuşdur [20, s. 27-29].

Türklər, ümumilikdə isə Şərq haqqındakı məlumatlar isə müxtəlif səyyahların səfər qeyd-

lərinə və səyahətnamələri əsasında əldə edilirdi. Bu səyahətnamələrdə təsvir olunan türklərin həyat tərzi, saray və eyş-işrət həyatı, türk hamamları Avropada eqzotik zövqlər kimi qəbul edilir və təqlid edilirdi. Türk geyimləri Fransa başda olmaqla bir çox Avropa sarayında təşkil olunan şənliklərin və karnavalların əsas predmetinə çevrilir, türk qiyafəli portretlər geniş yayılırdı. Xüsusilə XVII və XVIII əsrdə fransız teatrında Volter, Rasin, Molyer kimi xadimlər tərəfindən türklərin təsvirlərinə yer verilən tamaşalar sərgilənir, opera və balet oyunları göstərilir, türk modası isə qabardılırdı. Saraylarda türk tərzində otaqlar hazırlanırdı, türk memarlığına və saraylarına uyğun məkanlar inşa edilir, türk tərzi dekorasiyalara üstünlük verilirdi [20, s. 80-84].

Ümumilikdə isə "*turquiere*" Avropalıların türklər haqqında sərhədli və stereotiplərə əsaslanan baxışları əsasında formalaşan xəyali bir Şərq obrazının təmsilinə çevrilmiş, daha sonrakı dönəmdə güclənəcək orientalist baxışların təməllərini atmışdı.

**Fransada türkoloji tədqiqatlarda "türk" obrazı.** Fransada türklərlə bağlı akademik səviyyədə aparılan tədqiqatların tarixi də fransız səyyahların fəaliyyətlərinin genişləndiyi dövrlə üst-üstə düşür. Fransada türkoloji tədqiqatların ilkin formalaşma mərhələsində iki istiqamətin mövcudluğu xüsusilə nəzərə çarpır.

*İlk istiqamət* Fransa-Osmanlı imperiyası arasında diplomatik əlaqələrin formalaşması və inkişafı ilə bağlı ortaya çıxan, türk kimliyini "Şərq" kontekstində nəzərdən keçirən yanaşmadır. *İkinci istiqamət* isə Fransada sinoloji tədqiqatların daxilində formalaşan və əsasən Mərkəzi Asiya, burada məskunlaşan türk xalqlarının tarixini və mədəniyyətini öyrənən yanaşmadır. Türk dili ilə bağlı tərcümələr əsasında inkişaf edən birinci yanaşmadan fərqli olaraq, ikinci yanaşma əsasən tarixi kontektdə, türk xalqlarının tarixi və mənşəyi ilə bağlı araşdırmalara üstünlük vermişdir.

Mərkəzi Asiya və burada yaşayan türk xalqlarının tarixi və dilləri ilə bağlı tədqiqatların Fransada Almaniya və İngiltərədən daha öncə başladığı diqqət çəkir. Bunun əsas səbəbi Fransız müstəmləkəçilərinin və din xadimlərinin Çinlə əlaqələrinin daha əvvəl formalaşması və Çin mənbələri əsasında türklərlə bağlı fikirlərin ortaya çıxmasıdır. Bu istiqamətin nümayəndələri sırasında "*Türklərin, hunların, monqolların və digər tatarların ümumi tarixi*" (1758) adlı əsərlərin müəllifi Cozef de Gin xüsusi yerə malikdir. "Avarlar"-ın "Juan-juanlar"ın davamçısı olduğu iddiası ilə tanınan Gin, əsərinin son hissəsində müxtəlif tarixçilərin qeydləri əsasında Osmanlı türklərinin mənşəyini araşdırmağa və o vaxta qədərki əsas xronoloji dönüm nöqtələrini qeyd etməyə çalışır. Gin türklər, hunlar, monqollar və digər "barbar" qövmlərin kainatın simasını dəyişdirdiyini, böyük imperiyasını kölgədə qoyduqlarını və yür üzünü yerlə-yeksən edərək insanları barbarlığa sürüklədiklərini qeyd edir [9, s. 337].

Fransız sinoloqları içərisində yer alan bir digər önəmli türkoloq tədqiqatçı Eduard Şavandır. Onun müəllifi olduğu "*Çin qaynaqlarına görə Qərb türkləri*" əsəri türk tarixi və xüsusilə də Göy türklər haqqında önəmli əsərlər sırasında yer alır. Daha çox tarixi xarakteri ilə seçilən əsərdə Çin mənbələrində türklər və türk qəbilələri haqqındakı xronoloji məlumatlara yer verilir. Şavan Orxan yazılarının ortaya çıxarılmasının bu xalqın yenidən dirilişinin simvoluna çevrildiyini qeyd edir. Bu yazıların türklərin əsrarəngiz əlifbalarının sirrini və türk xaqanlarının möhtəşəm dastanlarını ortaya çıxardığını qeyd edir.

Lakin Şavan Orxon yazılarının ancaq Şimal və Şərq türklərinin tarixinə işıq tutduğunu, Qərb türkləri barədə isə məlumatların hələ də qeyri-müəyyən olduğunu bildirir. Türklərin qüdrətli imperiyalar qurmamasının səbəbini Şavan, daxili çəkişmələrdə və boylar arası parçalanmalarda olduğunu, əgər bu parçalanma olmasaydı, türklərin çox-çox əvvəllər Monqollar qədər qüdrətli imperiya qura biləcəyini qeyd edir. Eyni zamanda Şavan, Göy türk dövlətinin qurulmasını türklərin avtonom bir millət kimi formalaşmalarının sübutu olduğunu yazır [5, s. 244-248].

O, Avropalıların "*barbar*" olaraq görməyə vərdiş etdiyi türklərin əslində o qədər də qaba olmadığını, əksinə özlərinə məxsus sənətkarlıq nümunələrinin mövcud olduğunu yazır. Lakin Şavan türklərin siyasi həyatda olduğu kimi incəsənətdə və ədəbiyyatda da yetərsiz olduğunu qeyd edir. O, türklərin qonşuları İran və Çinin bu sahələrdə yüksək səviyyədə inkişaf etdiklərini, ancaq iki od arasındakı türklərin onların işı-

ğından faydalanmadığını bildirir. Bir neçə tarixi kitabənin türklərin yazılarındakı və dillərindəki həqiqi dahiliyi gün üzərinə çarması mümkün olsa da, çox güman ki türklərdən bu ada laiq heç bir ədəbi əsərin qalmadığını vurğulayır [5, s. 267, 329].

Qeyd olunan tarixi və lingvistik istiqamətlər Fransada türkologiyanın sonrakı inkişaf dövrlərində də inkişaf etmişdir. XIX əsrdə yaşamış tanınmış türkoloqlardan olan Leon Cahun "*Asiya tarixinə giriş*" (1896) adlı əsərində türklərin və monqolların qədim zamanlardan etibarən 1405-ci ilə qədərki tarixini nəzərdən keçirir. Cahun əsərin girişində türk və monqolları Çin və İran mədəniyyəti arasında vasitəçi olduğunu, öz varlıqlarından isə qalıcı heç bir şey yaratmadıqlarını qeyd edir. Qurduqları özünəməxsus cəmiyyətlər nə düşüncələrinin gücünü göstərəcək qədər əhəmiyyətli fəlsəfi doktrina, nə bir sənət əsəri, nə də ədəbi əsər yaratmadıqlarını yazır. Müharibələrdən doğulmuş və fəthlər üçün təşkilatlanmış bu xalqların qonşu mədəniyyətlərin intellektual bazası içərisində yavaş-yavaş əridiklərini bildirir.

Cahun türklər və monqolların qılıncla ediləcək hər şeyi etdiklərini, eyni zamanda da incəsənət və intellektual fəaliyyətlərə şərait yaradığını qeyd edir. Lakin özünəməxsus düşüncə qəliblərinin digər mədəniyyətlərin intellektual yükünü həzm etməyə imkan verməyəcək qədər dar və inkişaf etməmiş olduğunu iddia edir. Dürüst və doqmatizmdən uzaq olan türklərin Çinlilərdən və İrandan öyrəndiklərini özləri müstəqil şəkildə yaratmadıqlarını, bir sıra istisnalara baxmayaraq hər zaman bu ölü bədəndə qapalı qaldıqlarını yazır.

Cahun dini düşüncənin türklər və monqolların hərbi ruhunu məhv etdiyini, cəmiyyətləri mistisizmin tənbəlliyində zəiflədiyini, zəka səviyyələrinin azaltdığını, doğuşdan gələn dürüstlük və tolerantlıqdan uzaqlaşdırdığını, nəticədə dövlətlərinin parçalandığını və xalqlar sürüsünə çevirdiyini qeyd edir. O, türklərin Çin, İran və Ərəb düşüncələrini mənimsədiklərini qeyd etsə də, türklərin hərəkət qabiliyyəti və hərbi gücü olmadan Asiyadakı kiçik hövzələrindən kənara çıxa bilməyəcəyinin də reallıq olduğunu əlavə edir [3, s. 6, 27].

Cahun Mərkəzi Asiya xalqlarının, xüsusilə də türklərin XV əsrdə Teymurilər dönəmində özünməxsus intibah yaşadığını qeyd edir. Lakin onun fikrincə, bu intibah Avropada özünü göstərən dəyişikliklərin fonunda sadəcə olaraq Orta əslərin yeni bir başlanğıcıdan başqa bir şey deyildi [3, s. 317].

**Müasir dövr fransız tədqiqatlarında "türk" obrazı.** XX əsrdə Fransada türkologiya sahəsində tanınmış mütəxəssislərdən biri hesab olunan Claude Cahen özünün "*Xaç yürüşləri zamanında şərq və qərb*" (2010) adlı əsərində türk obrazını o dövrün xüsusiyyətləri içərisində dəyərləndirməyə çalışır. O, Avropalıların iddia etdiyi kimi, xaç yürüşlərinin əsas səbəbinin türklərin şərqdəki xristianlara qarşı zülmü olmadığını, bu iddiaların yanılğılara əsaslandığını bildirir. Bir çox müəllifin qeyd etdiyinin əksinə türklərin hakimiyyəti dövründə Qüdsə həcc səfərlərinin dayandırılmadığını, əksinə davam etdiyini xatırladır [2, s. 32, 37].

Cahen "*İslamiyyət, doğuşundan Osmanlı imperiyasına qədər*" (1990) adlı əsərində türklərin tarixin müxtəlif mərhələlərində hər yanda hegemon olduqlarını, lakin XIX əsrdə Avropalılar qarşısında geri düşdüklərini yazır. Məhz bu geriliyin nəticəsində Avropalıların onları xor gördüyünü, İslam tarixinin bütün fəlakətlərini onların üzərinə atdığını qeyd edir. Qərbli tədqiqatçıların türklərin hər hansı yenilənmə cəhdi etmədiyini düşündüyünü, buna reaksiya olaraq türk tədqiqatçıların isə tarixdəki müsbət və yararlı işlərə fokuslandığını bildirir. Hər iki baxışı da problemli olduğunu qeyd edən Cahen, tarixlə bağlı mövzularda tərəf tutmağın faydalı olmadığını vurğulayır. O, xəlifə Mötəsim dövründən etibarən Bağdadda və İslam aləmində tanınmış türk şəxsiyyətlərin öz vətənlərindən uzaqda olan tək-tük şəxslər olduğunu, öz ənənəsi içərisində bir dövlət kimi formalaşmış türklərin isə İslam mədəniyyətindən kənarda mövcud olduğunu qeyd edir. Türklərin nə qədər köçəri olsalar da, ətraflarından mədəniyyətlərdən o qədər də fərqli olmadığını, əksinə daim onlarla əlaqədə olduqlarını, təcrübə mübadiləsi apardıqlarını xatırladır [1, s. 266-268].

Cahen türklərin Orta Asiyaya hökmran olmaları ilə ənənəvi mədəniyyəti zəiflətdiklərini, lakin bunun yerinə başqa bir yenilik olan "türk-islam" ədəbiyyatını gətirdiklərini qeyd edir. Bilinən ilk türk əsəri adlandırdığı "*Qutadqu-Bi-*

*lik*”-in iranlaşmış türklər arasında öyrədici mənzumələr kitabı olduğunu yazır. Nizamülmülkün “*Siyasətnamə*” əsərinin isə zaman-zaman türk dövlət nəzəriyyəsi kimi görüldüyünü, bunun əsas səbəbini isə oradakı bir çox məqamın bütünlükdə türk dövlətləri üçün keçərli olması ilə izah edir [1, s. 270, 272].

O, türklərin İslam mədəniyyəti içərisində özülərinə məxsus yeni ideya və fikir yaratmadığını, əksinə var olanı seçərək onu inkişaf etdirdiyini qeyd edir. Cahenin fikrincə, türklərin müdafiə etdikləri və yaydıqları İslam belə sadəcə özlərinə öyrədilmiş forma olduğunu və türk dilinin Orta Asiyada Əhməd Yəsəvi ilə ədəbiyyat dili səviyyəsinə yüksəldiyini əlavə edir [1, s. 274, 293].

Müasir dönəm fransız türkoloqları içərisində türk millətçiliyi ilə bağlı tədqiqatların müəllifi olan Fransua Qurjon “*Türk millətçiliyinin mənşəyi*” (1996) adlı əsərində Yusuf Akçuranın obrazında Çar Rusiyasında “türk” millətçiliyinin formalaşmasını nəzərdən keçirir. O, XIX əsrdə türklərin İslamdan əvvəlki mədəni kimliklərini və mənşələrini tamamilə unutduqlarını, bu anlayışların kollektiv yaddaşlarından silindiyini qeyd edir. Türklüyün tək göstərici olaraq dil faktorunu qeyd edən Gourgeon, XIX əsrdə türkologiyanın Avropada özünəməxsus bir elm sahəsi kimi formalaşması və Rusiya İmperiyasına gəlməsi qısa zamanda türk mütəfəkkir və alimlərinin İslamdan əvvəlki türklərin mədəniyyəti, mənşəyi və kimlikləri ilə bağlı ideyların formalaşmasına şərait yaradı. Bu elm sahəsi türkləri Asiyadakı itmiş tarixləri barədə məlumatlandırır, İslamdan əvvəlki parlaq tarixlərini tanıdırdı.

Qurjon Rusiya imperiyası içərisində yaxşı təhsil görmüş və burjuaziya səviyyəsinə yüksəlmiş, lakin siyasi iqtidardan məhrum qalan türk şəxsiyyətlərinin Osmanlı imperiyasına köç etdiyini qeyd edir. İlk öncə Azərbaycanlıların başlatdığı bu axını, daha sonra Rusiyada yaşayan tatarların davam etdirdiyini, bu şəxsiyyətlərin Osmanlı imperiyasında öz dünyagörüşlərinə uyğun şərait taparaq, çox asan inteqrasiya olunduğunu və “əzilən” obrazından “əzən” obrazına yüksəldiyini qeyd edir. Bu axını təşviq edən əsas amilin isə Rus İmperiyasında geniş yayılmağa başlamış panslavizm düşüncəsinin varlığını, müsəlman reformistlərdən və Rusiyadakı digər fikir cərəyanlardan təsirləndiklərini qeyd edir [8, s. 10-12].

O, Rus imperiyasında geniş yayılan panslavizmin və zorakı ruslaşdırma siyasətinə qarşı reaksiya kimi yaranan tatar dini və mədəni maarifçiliyinin tatar millətçiliyini formalaşdırdığını qeyd edir. Bu ideya yanaşı Osmanlı imperiyasında Əbdülhəmid despotizminə qarşı başlanan “hürriyyət” mücadiləsinin Yusif Akçuranın formalaşmasına təsir edən iki əsas amil kimi qiymətləndirir [8, s. 15].

Osmanlı imperiyasının siyasi və sosial həyatı, o cümlədən müasir Türkiyə tarixi ilə tədqiqatların müəllifi olan Paul Dumont da “türk millətçiliyi”-nin formalaşmasını Rusiyada genişlənən panslavizm fonunda ortaya çıxdığını qeyd edirdi. O, Fransua Qurjonla birgə yazdığı “*Bir imperiyanın çöküşü*” (1997) adlı əsərində 1908-ci ildə türk dünyasında İslamçı və Qərbçi olan iki meyllə yanaşı üçüncü yolun, yəni türk millətçiliyinin ortaya çıxdığını bildirir. O türk millətçiliyinin iki əsas ideyanın birləşməsindən yarandığını qeyd edirdir. Bu ideyalardan ilkinin Rusiyada panslavizmə qarşı mübarizəni türklərin tarixi birliyində axtaran İsmayıl Qaspiralının “Tərcüman” qəzetinin öncülüyündə formalaşan ideya, ikincisi isə Osmanlı imperiyasında formalaşan, Qərb tədqiqatçılarının təsiri ilə türklərin keçmişi və kimliyinin araşdıran yüksək səviyyədə mədəni hərəkat hesab edirdi [6, s. 32].

Fransız türkologiyasının qeyd etdiyimiz inkişaf dövrləri və əsas istiqamətləri “türk” obrazına yanaşmanın *lingvistik* və *tarixi* olmaqla təməldə iki ənənə üzərində inkişaf etdiyini göstərir. Bir-birindən kəskin xəttlərlə ayrılmayan bu iki ənənənin bəzən birləşdiyi, bəzən də elmi ixtisaslaşma səviyyəsində ayrıldığı müşahidə olunur. Ümumilikdə isə XX əsrə qədərki fransız türkologiyasında rast gəlinən və “türk” kimliyinə kompleks yanaşmaya əsaslanan metodikanın tədricən parçalandığını, müəyyən tarixi dövlərə, hadisələrə, faktlara və konkret türk xalqına fokuslandığı nəzərə çarpır.

**Nəticə.** Ümumilikdə Fransada türklər haqqındakı ilkin təsəvvürlər xristianlıq dininin təsiri ilə formalaşsa da, daha sonra bu sterotiplərin təsirindən xilas olaraq türklər haqqında olduqca müsbət ideyaların yarandığı müşahidə olunur.

Əsasən siyasi konyukturaya uyğun şəkildə nizamlanan yanaşma tərzləri zaman-zaman mənfiyə doğru meyllənmiş, ümumilikdə isə öz müsbət aurasını qoruyub saxlamışdır. XIX-XX əsrə qədərki fransız müəlliflərin yanaşmaları əksərən dövrün siyasi tələblərinə uyğun formalaşdığı, bəzi hallarda isə obyektiv dəyərləndirmələrə əsaslandığı nəzərə çarpır.

Başlanğıcda Fransada da digər Avropa ölkələrində olduğu kimi "*türk*" obrazının "*müsəlman*" kimliyinin içərisində nəzərdən keçirildiyi, "*türk*" adı altında əsasən Osmanlı İmperiyasında yaşayan əhalinin ifadə edildiyi məlum olur. Bu yanaşma uzun müddət dəyişməsə də, XVIII əsrdə sinoloji tədqiqatların inkişafı ilə birlikdə Mərkəzi Asiyada məskunlaşan türkdilli xalqların araşdırma predmetinə çevrilməsi yeni reallıqları şərtləndirmişdir. Lakin yenə də türk kimliyi "*türk*", "*tatar*" və "*türkmən*" olmaqla fərqli başlıqlar altında nəzərdən keçirilmiş, kompleks şəkildə "*türk*" anlayışına az yer verilmişdir.

Aparılan tədqiqatlar əsasən türk dili üzərində sıxlaşdırılmış, tarixi yanaşma isə ikinci dərəcəli istiqamət kimi inkişaf etmişdir. Müasir dövrdə Fransada türkologiya istiqamətində aparılan fəaliyyətlər isə türklərin tarixdəki yerinə və roluna dair fərqli yanaşmaların ortaya çıxması ilə nəticələnmişdir. Ümumilikdə Fransız tədqiqatçıların əsərlərində yer verdikləri türk obrazının vahid bir yanaşma çərçivəsində qiymətləndirilmədiyi, dövrün siyasi abu-havasından asılı olduği və mənfi yanaşmaların olmasına baxmayaraq müsbət meyllərində hakim olduğu nəzərə çarpır.

## Ədəbiyyat siyahısı


1. Cahen, C. İslamiyyet, Doğuşundan Osmanlı devletinin kuruluşuna kadar, (tr. E.N. Erendor), Ankara: Bilgi yay, 1990, 325 s.
2. Cahen, C. Haçlı seferleri zamanında doğu ve batı, (tr. M. Daş), İstanbul: Yeditepe, 2010, 398 s.
3. Cahun, L. Asya tarihinə giriş, (tr. S.İ. Kaya), İstanbul: Seç, 2006, 326 s.
4. Chateaubriand, F. R. İtineraire de Paris a Jerusalem et de Jerusalem a Paris, Bernardin-Bechet, 1859, 461 p.
5. Chavennes, E. Çin kaynaklarına batı türkleri, (tr. M. Koç), İstanbul: Selenge, 2007, 491 s.
6. Dumont, P., Georgeon, F. Bir imparatorluğun ölümü, 1908-1923, (tr. S. Tanilli), İstanbul: Cümhuriyyet, 1997, 145 s.
7. İldem, A. E. Fransız gezginlerin gözüyle türkler ve yunanlılar, İstanbul: Boyut, 2000, 287 s.
8. Georgeon, F. Türk milletçiliğinin kökenleri, (tr. A. Er), Ankara: Yurt, 1996, 244 s.
9. Guignes, J. Histoire generale Huns, des Turcs, des Mogol, et des autres Tartares occodentaux, Paris: Desaint & Saillant, 1758, 518 p.
10. Gürer, S. XVII, XVIII və XIX yüzyıllarda fransız seyahatnamelerinde osmanlı toplumu, Ankara, 2010.
11. Lamartin, A. Aşiretten devlete, Türkiye tarihi, I cild, (M.R. Uzmen), İstanbul: Tercüman, 1978, 270 s.
12. Lamartine, A. d. Voyage en Orient, Paris: Pagnerre-Hachette-Furne, 1845, 480 p.
13. Montesguieu, C. L. Persian letters, (tr. M. Mauldon), Oxford University Press, 2008, 301p.
14. Monteskie, Ş.L. Kanunların ruhu üzerine, (tr. F. Baldaş), İstanbul: Hiperlik, 2011, 877 s.
15. Nerval, G. Doğuya yolculuk, (tr. M. Taşçıoğlu), Ankara: TTKB, 2002, 300 s.
16. Tavarnier, J. P. Tavernier seyahatnamesi, (tr. T. Tunçdoğan), İstanbul: Kitap, 2006, 346 s.
17. Thevenot, J. 1655-1656-da Türkiye, (tr. N. Yıldız), İstanbul: Tercüman, 1978, 237 s.
18. Tournefort, J. Tournefort seyahatnamesi, (tr. T. Tunçdoğan), İstanbul: Kitap, 2013, 601 s.
19. Volter. Türkler, müslümanlar, ötekiler, (tr. C. Orhan), İstanbul: İgus yay, 2008, 157 s.
20. Williams, H. 18. Yüzyılda Avrupada türk modası: Turquiere, (tr. N. Elhüseyni), İstanbul: Yapıkredi, 2021, 232 s.

## Summary

**Araz Aliyev**

### Historical characterization of the Turkish image in the works of French researchers

The article includes the researches conducted by French researchers on the Turks in the period between the 16th and 20th centuries. The main goal of the article is to determine the approaches of French researchers to the Turks and, based on these approaches, to determine the general attitude towards the image of the Turk in the French public consciousness. Secondly, it is to determine the reasons for these approaches, the changes that occurred in them and the historical character of these approaches, and to evaluate the obtained results in a uniform. Methods such as comparative analysis, analysis and synthesis were used in writing the article.


***Keywords:*** *traveller, Turkuri, barbarian, Muslim, Turkic friend, Turkology*


## Резюме

**Араз Алиев**

### Историческая характеристика турецкого образа в трудах французских исследователей

В статью включены исследования французских исследователей о тюрках в период XVI-XX вв. Основная цель статьи - определить подходы французских исследователей к туркам и на основе этих подходов определить общее отношение к образу турка во французском общественном сознании. Во-вторых, определить причины этих подходов, произошедшие в них изменения и исторический характер этих подходов и единообразно оценить полученные результаты. При написании статьи использовались такие методы, как сравнительный анализ, анализ и синтез.


***Ключевые слова:*** *путешественник, Туркури, варвар, мусульманин, тюркский друг, тюркология.*

**UOT 1(091)**
**https://doi.org/10.59849/2710-0820.2023.2.180**

**Arzu Hacıyeva**
*Fəlsəfə elmləri doktoru*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*Azərbaycan fəlsəfə tarixi şöbəsinin müdiri*
*Azərbaycan*
*arzuhaciyeva@mail.ru*
*ORCID ID: https://orcid.org/0000-0001-9078-0327*

# MƏDƏNİ-TARİXİ İRSİMİZƏ DAHA BİR BAXIŞ BUCAĞI

***Açar sözlər:*** *fəlsəfə, tarix, irs, mənbələr, yanlış, yanaşma, Heydər Hüseynov, M.C.Topçubaşov, M.C.Rzayev*

**Giriş.** Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) monoqrafiyasının ən böyük məziyyətlərindən biri və başlıca üstünlüyü, tədqiqatçı alimlərin vurğuladığı kimi, həm Azərbaycan, həm də Rusiya arxiv və kitabxanalarından əldə edilən zəngin materiallar təməli üzərində inşa edilməsi idi. Bir çox sənədlər ilk dəfə tədqiqata cəlb edilmişdi. Xeyli mənbə isə qısa müddətdə, o cümlədən 1947-ci ildə ÜKP MK-nin təşkil etdiyi G.F.Aleksandrovun "Qərbi Avropa fəlsəfəsi tarixi" kitabının müzakirəsindən sonra toplanılmışdı. Zira, "Azərbaycan xalqının fəlsəfəsinə" dair əsər yazmaq ideyası onda həmin müzakirədən sonra baş qaldırmış və dərhal gərgin fəaliyyətə başlamışdı. Artıq 1948-ci ildə o, "Azərbaycanda fəlsəfi və ictimai fikrin inkişafı tarixinə dair məqalələri"ni çap etdirir. Cəmi bir il sonra isə sözügedən məşhur fundamental monoqrafiyası işıq üzü görür. O əsər ki, Azərbaycan fəlsəfə tarixi adlı yeni elmi istiqamətin başlanğıcını qoydu. Lakin Heydər Hüseynovun tələsməsi, əsəri nəyin bahasına olursa-olsun tez üzə çıxarmaq istəyindən (obyektiv və subyektiv səbəblərindən asılı olmayaraq) dolayı, ciddi müzakirədən keçməməsi – hətta A.O.Makovelski redaktoru olduğu bu kitabla çap edildikdən sonra tanış olmuşdu, – istinad edilən dəyərli mənbələrin çoxluğuna rəğmən, bəzən ciddi sərf-nəzər edilməməsi nəticəsində yol verilən səhvlər kitabın bu şəksiz məziyyətinə, təəssüf ki, müəyyən məqamlarda kölgə salır. Bəzi konkret yanlışlıqlar haqqında A.O.Makovelski hələ 1949-ci ildə "İnqilab və mədəniyyət" jurnalındakı resenziyasında bəhs etmişdi (1, s.162-163). Yeri gəlmişkən, bu, həmin ərəfədə yazılan və kitab haqqında hər hansı tənqidi qeydin söylənildiyi yeganə müsbət resenziya idi. Mənbələrdən istifadədə sezilən daha bir mənfi meyl bəzən ideoloji maneələrdən yayınmaq naminə tədqiqat obyektləri olan alim və mütəfəkkirlərin həyat və yaradıcılıqlarını sırf müsbət planda göstərilməsi cəhdi ilə bağlı idi. Bütün bu məqamları biz kitabın "XIX əsrdə Azərbaycanın sosial-iqtisadi vəziyyəti" adlanan I fəslində Mirzə Cəfər Topçubaşovdan bəhs edilən hissədə görürük (16, s. 95-99).

**Belinskinin qəribə tərifi.** S.Peterburq imperiya universiteti və xarici işlər nazirliyinin Asiya departamenti nəzdindəki şərq dilləri institutunun fars dili üzrə professoru, müşavir, II Müqəddəs Anna, IV dərəcəli müqəddəs Vladimir, I dərəcəli Stanislav, İranın "Şiri-Xurşid" ordenləri kavaleri, London Kral Asiya cəmiyyətinin üzvü, şair və tərcüməçi Mirzə Cəfər Topçubaşov (1790 /1784/-1869) XIX əsr çar Rusiyasının yüksək dairələrində yaxşı tanınan hörmətli simalardandı. Heydər Hüseynovun 1944-cü ildə "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində dərc etdirdiyi "Azərbaycan alimi və şairi Mirzə Cəfər haqqında böyük rus mütəfəkkiri V.Q. Belinskinin rəyi" başlıqlı kiçik məqaləsi Azərbaycan mətbuatında məşhur şərqşünasa həsr edilmiş ilk yazı idi. "Rus xalqının tərəqqipərvər filosofları və məşhur yazıçıları Azərbaycan xalqının, habelə o zamanki Rusiyanın bütün xalqlarının mədəniyyətinə böyük hörmət bəsləyirdilər" deyə o, burada fikrinin

təsdiqinə M.Lermontovun fransız dilini Avropada bilməyin vacib olduğu qədər, Azərbaycan dilinin (o, tatar dili deyir) də Qafqazda və ümumiyyətlə Asiyada vacib olması barədə məşhur sözlərini yada salır, sonra oxucunun diqqətini V.Q. Belinskinin 1834, 1835-ci illərdə çap olunmuş şeirlər, o cümlədən Mirzə Cəfər Topçubaşovun iki şeirinin tərcüməsi haqqındakı icmal səciyyəli rəyinə yönəldir. Əvvəlcə, Belinskinin aşağıdakı fikrini iqtibas gətirir: .

"Bu dörd şeir aydın göstərir ki, bizdə şeirin guya öldüyünü və hətta heç bir bəhrə verməyən çiçək kimi solub töküldüyünü haqsızlıqla iddia edən bəzi cahillərin fikrinə zidd olaraq şeirimiz hələ çox gözəl tərəqqi edir və ətir saçır. Biz həmin cahil çığırqanlara rus rübabının bu əsərlərini təntənəli surətdə göstərməklə, onların ağzını yuma biləcəyimizlə çox sevinirik".

Və sonra öz yanından əlavə edir:

"Belinski "hörmətli Mizə Cəfərin... şərq dillərində yazılmış şeirlərindən" danışarkən, "bu şeirlərin əslinin tərcümədən qat-qat yaxşı" olduğuna əmin olduğunu bildirir" (3; 14).

Məqalənin bu sonuncu cümləsi "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabında eynilə verilmişdir (16, s. 95). Bu cümlə belə təəssürat yaradır ki, Belinski bu qənaətə Topçubaşovun "şərq dillərində yazdığı şeirlərin" əslini rus dilinə tərcüməsi ilə müqayisə etməklə gəlmişdir. Lakin burada bir çox mətləblər, məhz onun həmin şeirlərin məzmunu haqqında fikirləri və ümumiyyətlə, söhbətin Mirzə Cəfərin hansı "şərq dillərində" yazdığı və hansı şeirlərindən getməsi qaranlıq qalır.

Cavab axtarışında Belinskinin əsərlərinin tam külliyyatına müraciət edib, üçü qraf Xvostova, biri M.C.Topçubaşova aid olmaqla həmin dörd şeir haqqında yığcam icmalı (11, s. 257-258) tapıb oxudum.[7] Kitabın sonunda verilmiş şərhdə Belinskinin bu resenziyasının qraf D.İ.Xvostovun ünvanına deyilmiş istehza hesab edildiyi bildirilirdi. Əslində rus şairi, poetik klassisizmin nümayəndəsi, hərbi və dövlət xadimi Dmitri İvanoviç Xvostov (1757-1835) bütün həyatı boyu kinayə, həcv obyekti olmuşdur. Onu həcv edənlər arasında A.S.Puşkin də vardı. Müasirimiz, Priston Universitetinin professoru, ədəbiyyatşünas alim İ.Y.Vinitski də Xvostovu "əsas rus antişairi, qrafomanların kralı, ləyaqətsiz mədhiyyələrin, gülməli rəvayətlərin, darıxdırıcı poetik tərcümələrin müəllifi" kimi xarakterizə edir. Qrafı parodiya obyektinə çevirənsə köhnəlmiş klassisizm ənənələrinə sədaqətində hədsiz ifratçılığa varması və özünü canlı klassik hesab edəcək qədər təşəxxüsü və təkəbbürü idi. Belinskinin bu "qocaman" rus şairi haqqında ikibaşlı təriflərində həqiqətən kinayəsini duymaq olur. Məsələn, o yazır: "Bu şeirlərdə uzun ömrün soyuğunun soyutmadığı, isdedaddan gələn o qədər çox şeiriyyət, təravət və qüdrət vardır ki, bunları gənc təxəyyülün ilk coşğuları sanmaq olar" və s.

V.Q.Belinski M.C.Topçubaşovun "İmperator I Aleksandrın abidəsinə" adlanan türk və fars dillərindəki şeirləri haqqında isə belə yazır: "Möhtərəm Mirzə Cəfərin şeirləri haqqında biz heç nə deyə bilmərik, əvvəla, ona görə ki, bunlar rus ədəbiyyatına məxsus deyil, ikincisi, ona görə ki, şərq dillərində yazıldığından bizim üçün anlaşılmazdır; bununla belə, əminik ki, onların əsli tərcümələrindən müqayisəedilməz dərəcədə yaxşıdır" (11, s. 258). Qısası, bu şeirlər haqqında heç nə deyə bilmərəm, amma bilirəm ki, tərcüməsindən daha yaxşıdır. Yəni tərcümələri bəyənməyib. Digər tərəfdən, tərcümənin orijinaldan, xüsusilə də əgər şeirdirsə, geri qalması, hətta müşküllüyü hamıya məlumdur. Üstəlik Belinskinin kiçik yazıda bilərəkdən, yaxud diqqətsizlikdənmi özü-özünü inkarı etməsi; əvvəlcə, Topçubaşovun şeirlərini Xvostovunkularla birlikdə "ətir saçdığını" söyləyib "Rusiya rübabının əsərləri" kimi təqdim etməsi, sonra isə bunların rus ədəbiyyatına aid olmadığını bildirməsi, müəllifin niyyətindən asılı olmayaraq, rişxənd təsiri oyadır.

Heydər Hüseynov, bu, onsuz da kiçik rəydə ixtisarlarla mənanı xeyli təhrif edib, görkəmli rus publisisti, ədəbiyyat tənqidçisinin sadə məlumatını Topçubaşovun şeirlərinə verdiyi xüsusi qiymət, tərif kimi dəyərləndirir (qeyd etmək lazımdır ki, bu dəyərləndirmə o vaxtdan bu günə kimi dəyişilməz qalmışdır — A.H.), şeirlərin çar I Aleksandrın abidəsinə ithafını isə, görünür, ideoloji səbəbdən gizlədir.

**"İmperator I Aleksandrın abidəsinə" digər rəylər.** Mirzə Cəfər Topçubaşovun şərqli şair kimi şərq dillərində qələmə aldığı, Aleksandrın Napoleon üzərində qələbəsi şərəfinə inşa edilmiş və 1834-cü ildə Sankt-Peterburqun Saray meydanında açılışı keçirilmiş Aleksandr

[7] V.Q.Belinskinin bu resenziyası ilk dəfə "Molva" qəzetində («Молва» 1835, ч. X, № 31-34) dərc edilmişdi. – A.H.

sütunu qarşısındakı heyranlığını ifadə edən şeirləri təbiidir ki, Rusiya ziyalıları üçün qürurverici olub, diqqətdən kənarda qala bilməzdi. Kitabça haqqında kiçik məqalələr "Molva" qəzetindən başqa, "Журнал Министерства Народного Просвещения" və "Библиотека для чтения" dərgilərində də dərc edilmişdi. Belinskinin rəyindən daha informatik səciyyə daşıyan bu iki rəydən Topşubaşovun şeirlərdən birini Azərbaycan dilində qələmə aldığını öyrənirik.

Xalq Maarif Nazirliyinin jurnalında dərc edilən resenziyada "Bu gözəl şeirlərin dünyanın ən böyük hökmdarlarından birinin şərəfinə ucaldılan nəhəng abidəni görüb ilhamlanmış fars[8] şairinin qələmindən süzül"düyünü, hər iki şeirin "öz Şərq koloritinə və hisslərin səmimiliyinə görə böyük məziyyətlərə malik" olduğunu qeyd edən naməlum müəllif hər halda farsca şeiri fikirlərin daha canlı ifadəsinə, Asiya üslubunun poetik gözəlliklərinin çoxluğuna, üstəlik "ən təmiz İsfahan ləhcəsi"ndə qələmə alındığına görə türkcə şeirdən üstün tutur. O, sözünə davam edərək yazır: "Türkcə şeir isə mükəmməl sayılan Konstantinopol ləhcəsində deyil, Kiçik Asiya və Azərbaycanda əhalinin danışdığı və türklərin daha çox poetik əsərlərdə istifadə etdikləri ləhcədə yazılmışdır." Buradaca "hər iki orijinala nəzmlə tərcümə əlavə edilmişdir" deyə qeyd edilir (17, s.177-178).

Rusiyanın ilk qalıncildli jurnalı "Biblioteka dlya çteniya" («Библиотека для чтения»)[9] isə Mirzə Cəfərin həmin şeirləri haqqında belə yazırdı:

"Biz çox heyfsilənirik ki, bu jurnalın oxucuları farsların və türklərin poetik frazeologiyalarının sirlərinə bələd deyillər, və biz onlarla birlikdə şərqli şairin unudulmaz Rus hökmdarına ucaldılan əzəmətli abidəsi qarşısında öz duyğularına geydirdiyi özəl gözəllikləri qiymətləndirə bilmirik. Bu frazeologiyanın gücünü və incəliyini anlamaq üçün onu uzun müddət işlədib öyrəşmək gərəkdir, belə ki, bu frazeologiya biz qərblilərin poetik formalar adlandırdığımıza uyğun gəlmir. Təəssüf doğuran ikinci hal budur ki, hər iki şeir rus dilinə nəsrlə deyil, nəzmlə tərcümə edilib: bəzi yerlərdə bu poetik tərcümə orijinalın məzmunu haqqında hətta təsəvvür belə yaratmır.

Farsca şeir bizə türkcə şeirdən müqayisəedilməz dərəcədə daha yaxşı təsir bağışlayır. Bəlkə də, bu üstün tutmanın səbəbi sonuncunun gözəl və möhtəşəm Osmanlı dilində deyil, Qafqaz vilayətində işlədilən türk ləhcəsində yazılmasıdır. Və bəzi provinsionalizmlər (məhəlli söz və ifadələr), məsələn, *görünüyur* yerinə *görünən dür* yaxud *oldı* yerinə *olup tur* bizim qulağımıza xoş gəlmir.

Biz hər iki şeiri böyük məmnuniyyətlə oxuduq, lakin onun məzmununu oxucularımıza anlatmağa girişmirik, çünki onu tam anlaşıqlı etmək üçün, orijinalın, demək olar ki, hər sözünə ayrıca şərh yazmaq lazım gələrdi" (12, s.3).

Yuxarıdakı rəylərin müəllifi göstərilməsə də, açıq-aydın görünür ki, belə dəyərləndirmələr yalnız şərq dillərini gözəl bilən mütəxəssis tərəfindən verilə bilərdi. Bu mütəxəssis kim olar – deyə məsələni xeyli araşdırdım. İndi tam əminlikdə deyə bilərəm ki, "Библиотека для чтения" jurnalındakı rəyin müəllifi – elə həmin jurnalın ilk redaktoru, rus oriyentalizminin yaradıcılarından sayılan məşhur alim, 28 yaşından İmperator Elmlər Akademiyasının müxbir üzvü, poliqlot, yazıçı, jurnalist O.İ. Senkovskidir (1800-1858). O, S.Peterburq universitetində 1822-ci ildən çalışmağa başlamışdı, o vaxtdan da onu Topçubaşovla səmimi dostluq münasibətləri birləşdirirdi. Təbiidir ki, özündən yaşca böyük dostu, həmkarı, məsləhətçisinın yenicə nəşr olunmuş şeirlərinə laqeyd qala bilməzdi. Şeirlər barədə fikirləri ilə bölüşdüyü kiçik məqələsini redaktoru olduğu jurnalın özü apardığı məşhur "Ədəbi salnamə" rubrikasında yerləşdirmişdir.

"Журнал Министерства Народного Просвещения"dakı rəyə gəlincə, düşünürəm ki, onu da böyük ehtimalla Senkovski yazmışdı. Çünki bu iki rəyin mətnlərini bir-birilə müqayisə etdikdə, məzmun və formaca yaxınlığı, hətta eyniliyi görməmək mümkün deyil – hər ikisində şeirlərin məziyyətləri xüsusi qeyd edilir, farsca şeir türkcədən üstün tutulur və bu üstünlüyün səbəbi şeirin Konstantinopol yox, Azərbaycan ləhcəsində yazılması göstərilir. Bəzi

[8] Çar Rusiyasında azərbaycanlılara fars, tatar, ya Qafqaz müsəlmanı deyirdilər. Məsələn, M.C.Topçubaşovun tələbəsi V.V.Qriqoryev onun "природный персиянин»", yəni fars əsilli olduğunu yazır. // Императорский С.Петербургский университет в течение первых пятидесяти лет его существования. Санкт-Петербург, 1870, с. 22, 76.

[9] "Библиотека для чтения" – Rusiyada 1834-1864-cü illərdə nəşr edilən jurnaldır.

məqamlarda bu rəylər bir-birini sanki tamamlayır. Erkən gəncliyindən bir çox dövrü mətbu nəşrlərlə yaxından əməkdaşlıq edən Senkovski, çox güman, hazırladığı rəylərdən birini də Xalq Maarifi Nazirliyi jurnalına vermişdir, bəlkə də bu, jurnalın ona sifarişi idi.

Məsəl var, deyirlər, zövqlər barədə mübahisə etmirlər. Lakin Senkovskinin ərəb-fars tərkibləri ilə dolu Osmanlı dilini digər ləhcələrdən, o cümlədən əsl xalq türkcəsi olan Azərbaycan dilindən üstün olması haqqında subyektiv fikri əslində onun jurnallardakı rəylərin müəllifi olduğuna daha bir sübutdur. O, türk dilləri adına yalnız osmanlı dilini yaxşı bilirdi və bu dilin qrammatikasını 1835-1838-ci illərdə özünün məşhur iki cildlik "Türk hərbi yürüşlərində rus əsgərləri üçün cib kitabı" (SPb., 1828-1829) üzrə tədris etmişdi. Demək lazımdır ki, Peterburq universitetində digər türk dillərinin tədrisinə 1845-ci ildən, birinci olaraq "Azərbaycan ləhcəsin"dən başlanılmışdır. Birinci dekanı Mirzə Kazımbəy olan Şərq Dilləri fakültəsi açıldıqdan sonra "Azərbaycan ləhcəsinin" "praktiki əhəmiyyəti" nəzərə alınaraq fakültənin I dərəcəli tələbələri üçün məcburi fənnə çevrilmişdi (14, s. 264).

Topçubaşovun azərbaycanca şeiri və onun tərcüməsinin bir çox məziyyətlərinə görə farsca şeirə nisbətən güzəştə getdiyi ilə, görünür, ədalət naminə razılaşmaq lazımdır. Belə ki, professor Vilayət Quliyev də həmin şeirin dilinin "Vaqifin yaxud Zakirin sadə, xəlqi, anlaşıqlı dilindən fərqləndiyini" qeyd edərək yazır: "... bununla belə Mirzə Cəfərin şeirində ərəb-fars sözlərinin nisbi üstünlüyünə baxmayaraq dilin poetikliyi, musiqiliyi, axıcılığı da diqqətdən yayınmamışdır. Şeirləri rus dilinə alimin Şərq dilləri institutundakı tələbələri (farscadan V.V. Qriqoryev, azərbaycancadan P.S. Savelyev) tərcümə etmişdilər. Savelyev professional tərcüməçi deyildi. Buna görə də Azərbaycan mətninin təksə poetik gözəlliyini deyil, məzmun dolğunluğunu da tərcümədə görə bilmirik" (5, s. 22-23).Topçubaşovun bu şeiri Osmanlıca yox, "Qafqazda işlək olan" türk dilində, azərbaycanca yazması rus rəyçilərinin ürəyindən olmasa da, hər bir halda bizləri soydaşımızın vətəndən uzaqda öz doğma torpağına, doğma dilinə sevgi və hörmətinin ifadəsi kimi sevindirir. Təəssüf ki, Heydər Hüseynov yuxarıda bəhs etdiyiniz məxəzlərdən xəbərsizdi, yoxsa, əlbəttə ki, bu şeirlərin "şərq dillərində" yazıldığını deyib keçməzdi, onlardan birinin ana dilində qələmə alındığını mühüm fakt kimi fəxrlə qeyd edərdi. Hələlik isə o, kitabında Topçubaşovun 1812-ci ildə rus ordusunun Napoleon üzərində qələbəsinə həsr etdiyi "Zəfər nəğməsi" poeması haqqında məlumat verirdi.

**Dünya qayaya yoxsa nara bənzəyir?!** Rusiyada vətənpərvərlik hisslərini coşduran bu tarixi hadisəyə zəmanəsinin bir çox məşhur rus şairləri (Q.P.Derjavin, V.V.Kapnist, N.M.Şatrov, V.A.Jukovski, A.A.Delviq və b.) şeirlər həsr etmişdilər. Lakin Topçubaçovun "Zəfər nəğməsi" şərqli tərəfindən və fars dilində qələmə alındığından məqamı bir başqadır. Yazılma tarixi bizə dəqiq bəlli olmasa da poemanın imperator I Aleksandra təqdim edilməsi, mətnin əvvəlində I Aleksandra həsr olunmuş kiçik müqəddimənin verilməsi onun 1825-ci ilə qədərki dövrə təsadüf etdiyini göstərir. "Zəfər nəğməsi"nin orijinalı ruscaya sətri tərcüməsi ilə birlikdə Moskvada Qədim Aktların Mərkəsi Dövlət arxivində (ЦГАДА), Qış sarayının fondunda I Aleksandra aid qovluqların arasında saxlanılır. Əlyazmanı ilk dəfə burada, H.Hüseynovun da qeyd etdiyi kimi, o zaman Azərbaycan SSR EA-nın Tarix institutunda işləyən t.e.d. S. P.Aqayan aşkar etmiş və 1947-ci ildə EA-nı Xəbərlərində dərc etdirdiyi məqalədə təsvirini vermişdir (8, s. 53-61).

Heydər Hüseynov kitabında poema haqqında təsəvvür yaratmaq üçün, ondan bir parçanı nümunə gətirir, sonra Mirzə Cəfərin fəlsəfi mülahizələrinə diqqət yetirir. Şairin varlığın qanunları haqqında danışarkən, varlıq "bəzən şərbət içirdir, bəzənsə zəhər. Bu dünyanın, ikidarvazalı qəsrin qaydası belədir! ... Darvazalardan biri girmək, o biri çıxmaq üçün qoyulub" söylədiyini vurğulayır. Onun "Dünya nara, biz isə dənələrə bənzəyirik" sözlərində isə dünyanın vəhdəti, hissənin tama münasibəti haqqında düşüncələrinin inikasını görür (16, s. 99). Yeri gəlmişkən, bu tərcümə də rusca qranit (*süxur*) və qranat (*nar*) sözlərindəki bir hərf fərqi ucbatından kazuszuz ötüşməyib. Aqayan məqaləsinin Azərbaycanca xülasəsində "qraniti" bir qədər obrazlı "qaya" kimi tərcümə edib yazır: "dünya qayaya, biz isə dənələrə bənzəyirik". H.Hüseynov isə "Dünya nara, biz isə (onun) dənələr(in)ə bənzəyirik" deyir. Əslində həm qranit, həm də nar dənəvər quruluşa malikdir. Bəlkə poemanın ruscaya sətri

tərcüməsində hərf səhvinə yol verilib və Heydər Hüseynov farsca mətni ruscaya tərcüməsi ilə tutuşdurub, "nar" yazıb, bəlkə də kitabın redaktəsi zamanı qraniti qranat ediblər. Bənzətmə mətndə kontekst içində verilmədiyindən demək çətindir. Farsca orijinalı isə əlimizdə yoxdur. Lakin əslən gəncəli şərqşünas alimin dünyanı daha canlı, yumru, qan rəngində olan nara bənzətməsi daha ağlabatan görünür. Hərçənd bu mənim subyektiv fikrimdir.

**A.O.Makovelskinin bir qeydi.** Heydər Hüseynovon monoqrafiyasının bəhs etdiyimiz hissəsində yol verilən bir yanlışlığı hələ Makovelski öz resenziyasında qeyd etmişdi. Söhbət əslində müəllifin öz səhvindən yox, istinad etdiyi mənbədəki yanlışlığı təkrar etməsindən gedir. Aydındır ki, istifadə etdiyimiz ədəbiyyat və mənbələr səhvlərdən, dürüst olmayan faktlardan xali deyil. Lakin bu, tədqiqatçını məsuliyyətdən qurtarmır, onun öhdəsinə düşən vəzifələrdən biri elə onların səhihliyini yoxlamaq, rast gəldiyi, aşkar etdiyi uyğunsuzluqları göstərməkdir. H.Hüseynov 1874-cü ildə çıxan "Russkaya starina" jurnalının 10-cu cildindən A.S.Qriboyedovun Peterburqda Kazımbəy və Mirzə Cəfərin (yəni Topçubaşovun) rəhbərliyi altında şərq dilləri ilə məşğul olması haqqında bir məlumatı iqtibas gətirir. Halbuki bu məlumat yalnız Topçubaşova münasibətdə doğru idi. Mirzə Kazımbəyin Qriboyedova dərs deməsi isə onların həyat tarixləri arasındakı uyğunsuzluğa görə sadəcə mümkün deyildi və Makovelski haqlı olaraq bu xronoloji uyğunsuzluğu nəzərə çatdırmaq lüzumunu vurğulayırdı (1, s. 162).

**Mirzə Cəfər Rzayev haqqında bir neçə söz.** Ən çox təəssüf oyadan yanlışlığın səbəbi isə iki şərqşünas soydaşımızın Mirzə Cəfər adı daşıması ilə bağlıdır. H.Hüseynov kitabında Lazarevin Şərq dilləri İnstitutunun fars dili müəllimi işləmiş Mirzə Cəfər Rzayevin əsərlərini Mirzə Cəfər Topçubaşovun adına çıxmışdır. Mirzə Cəfər Rzayevin həmin bu beş əsəri bunlardır: "Farsca-rusca danışıq kitabı", Kazan, 1883; "Fars dilinin müxtəsər qrammatikası" (1884); Farsca-rusca-fransızca danışıq kitabı. M. 1896; Qoşa sözlərin (Reimwörter)[10] süni surətdə düzəldilməsi haqqında (1900), "Fars dilinin qrammatikası" (İkinci nəşr, F.Y.Korşun iştirakı ilə) (1901).[11]

Mirzə Cəfər Rzayev haqqında internetdə araşdırma apardım, çox olmasa da bəzi məlumatlar əldə etmək mümkün oldu. O, əslən Təbrizdən idi, 1855-ci ildə təvüllüd etmiş, ölüm tarixi dəqiq deyil. 1880-cı illərdən Lazarevin şərq dilləri institutunda işləmişdir. Məlumdur ki, 1925-ci ildə artıq Nərimanovun adını daşıyan Moskva şərqşünaslıq institutunun (Lazarev institutunun varisi) ən qocaman müəllimlərindən sayılırdı. Və həmin il İnstitutun tələbə cəmiyyətlərinin qərarı ilə müstəsna pedaqoji xidmətlərinə görə ona professor adı verilmişdir. Bu barədə "İzvestiya" («Известия») qəzetində hətta kiçik bir yazı da getmişdi (13, s. 231-232) .

Mirzə Cəfər Rzayevin Moskva arxeoloji cəmiyyətinin Şərq komissiyasında yaxından çalışması qeyd edilir. Onun yuxarıda göstərilənlərdən əlavə daha bir sıra əsərləri vardır. Fars dili üzrə praktiki dərs vəsaiti, "farsca-rusca lüğət" hazırlamışdı. İnstitutun direktoru V.F.Miller bu lüğət haqqında popiçitelə belə yazırdı: "İşlər bütün rus orientalistlərinin zərurətini çox aydın duyduqları farsca-rusca tam lüğətin nəşrinə doğru irəliləyir" (13, s.176). Mirzə Cəfər həmçinin M.Attay və S.Sakovla birlikdə kalliqrafiya üzrə xüsusi proqram tərtib etmişdi.

O, həm də tərcüməçi idi. Farscadan ruscaya və ruscadan farscaya tərcümələri var. Sənainin divanından tərcümə etdiyi 14 şeir 1914-cü ildə "Əl-Şərqiyət" dərgisində çap olunmuşdu. Bu istedadlı insan, görünür, bədii əsərlər də ya-

[10] Kitabda məqalənin adında səhvən "qoşa sözlərin" yerinə "tam sözlərin" getməsi, üstəlik mötərizə arasındakı izahedici Reimwörter (almanca *qafiyələnmiş sözlər* deməkdir) sözünün ixtisara salınması mənanı tamamilə təhrif etmişdir.

[11] Книга персидско-русских разговоров, составленная мирза Джафаром, преподавателем персидского языка в специальных классах при Лазаревском институте восточных языков. Ч. 1. Казань, 1883.; Мирза Джафар «Краткая грамматика персидского языка» (Казань, 1884); Книга персидско-русско-французских разговоров, составленная мирза Джафаром, преподавателем персидского языка в специальных классах Лазаревского института восточных языков. 2-е изд., испр. и доп. Ч. 1. М., 1896.; Об искусственном образовании парных слов (Reimwörter) // Юбилейный сборник в честь Всеволода Федоровича Миллера, изданный его учениками и почитателями. Под ред. Н.А. Янчука. М., 1900, с. 311-313; Грамматика персидского языка / Сост. Мирзою Джафаром, преп. перс. яз. в спец. классах Лазар. ин-та вост. яз. 2-е изд. (с участием акад. Ф.Е. Корша). М., 1901. (Труды по востоковедению, изд. при Лазаревском институте восточных языков. Вып. 6).

zıb. Tədqiqatçı alim İ.B.Zaytsev Mirzə Cəfər Rzayevin Moskvanın Mərkəzi Tarix Arxivində saxlanılan, 16 səhifəlik dəftərdə fars dilində bir pyesinin əlyazmasını [12] tapıb təsvir etmişdir. Mətnin yazıma tarixi h.t. ilə 1291-ci il – 18 fevral 1874 – 6 fevral 1875-ci il göstərilir. Zaytsevin pyesin personajlarının adlarını qeyd etməsi ötəri də olsa pyes haqqında təsəvvür oyadır: "İştirakçılar: mərhum Hacı Qafurun 18 yaşlı qızı Səkinə, onun qulluqçusu Gülsabah; nişanlısı Əzizbəy; bibisi Zibeydə; tacir Ağa Həsən; dəllalbaşı Ağa Kərim; iki antipod —məhkəmə məmurunun pis və yaxşı oğulları ağa Süleyman və ağa Mərdan; ağa Abbas – Hacı Qafurun siğə arvadı Zeynəbin qardaşı; Zeynəbin özü; Nasir – fərraqi (nökər); bazar nəzarətçisi, qazi; onun nökəri; dörd əsgər; məhkəməyə gələn dörd davaçı (adları); fərraşbaşı və hətta yeddiaylıq uşaq" (18, s. 268).

Demək lazımdır ki, M.C.Rzayevin elmi əsərləri həm öz sağlığında, həm də sonra mütəxəssislərin diqqətində olub. Görkəmli şərqşünas-türkoloq alim, akademik V.A Qordlevski öz araşdırmalarında dəfələrlə onun nüfuzuna istinad etmişdir. Bu gün də onlar öz elmi əhəmiyyətini itirməmişdir. O, XX əsrin əvvəllərində Rusiyada qoşa sözlərin (reduplikasiya, bəzən təkrar yaxud əkiz-sözlər də deyirlər) təbiəti haqqında yazan ilk müəlliflərdəndir. Mirzə Cəfər bu mövzuya həsr etdiyi məqaləsində[13] türk dillərində qoşa sözlərdə həmahəngliyin süni surətdə *m* səsi ilə düzəldilməsinin "geniş türk dünyasının ən uzaq qərbindən ən uzaq şərqinədək" hər yerdə, bütün türk ləhcələrində geniş yayıldığını göstərir. Ona görə də türk dillərində bu qrammatik hadisənin digər dillərdən əxz edilməsinin mümkünsüzlüyünü vurğulayıb öz qəti qənaətini bildirir: "Şübhəsiz *m* səsi ilə bu cüt-tərkibli ifadələr orijinal türk hadisəsidir. Odur ki, bu hadisəyə başqa dillərdə rast gələndə onu, türk təsirinə aid edirəm" (20, s. 312). Mirzə Cəfərin *m* səsi vasitəsilə qoşalaşmanın türk kökləri barədə mülahizəsi sonralar yaxşı öyrənilmiş, XX əsrin linqvistlərinin əksəriyyəti tərəfindən qəbul edilmişdir (10, s. 360). Ümumiyyətlə, qoşa sözləri tədqiq edən dilçi alimlər mütləq Mirzə Cəfərin "Qoşa sözlərin (Reimwörter) süni surətdə düzəldilməsi haqqında" məqaləsinə müraciət edirlər (10; 7; 19; 21). Təəssüf ki, İnternetdə rast gəldiyim Azərbaycanda bu mövzuya həsr edilmiş yeganə bir dissertasiya avtoreferatında bunu görmədim.

**Elmin "zakonu" və "zakon-makonu".** Qoşa sözlər haqqındakı məqaləsində Mirzə Cəfər *zakon-makon* (yəni *qanun-manun*) ifadəsi ilə bağlı A.Krımskidən eşitdiyi məzəli bir hadisəni nəql edir. Beyrutun baş konsulu K.N.Lişinin danışdığı bu əhvalat onun tanışının başına gəlmişdi. Həmin tanışı idarəsinin çox böyük vəzifəli başçısından ona himayə göstərib, növbədən kənar vəzifəsini qaldırmasını xahiş edir. Rəis etiraz edir: "Olmaz. Zakon (yəni Qanun) buna icazə vermir". "Zakon-makon, Zati-aliləri!" – deyə iltimasçı bu türk ifadəsinin köməyi ilə, eyham vurur ki, bəs qanundan yan keçmək də olar. Cavabında: "Mən şübhə etmirəm ki, sənin Makondan xəbərin var" – deyə rəis məşhur fransız şərab növü Makona işarə edib qımışır, – "amma qanundan xəbərin yoxdur"" (20, s.313).

XIX əsrin sonlarında baş vermiş bu əhvalat yadıma artıq XXI əsrdə baş vermiş bir başqa əhvalatı saldı. Axı qoşa sözlərin xalqımız arasında geniş yayılmış daha bir variantı (daha onu bilmirəm, bu qrammatikaya daxildir, yoxsa yox) var. Məsələn deyirlər, puldan-zaddan olsaydı maşından-zaddan alardıq, yaxud gəzməyə-zada gedək, dükana-zada baş çəkək, süfrəyə xörək-zad gətirin, paltar-zad almaq lazımdır, adam-zad görmürəm, qanun-zad hərləmirəm və s. və i.a., yəni dilimizdə elə bir söz yoxdur ki, bu *zad*ı ona əlavə etmək olmasın. Bu əhvalatı qardaşıma tanınmış cərrah-oftalmoloq Qalib İskəndərov danışıb. Minlərlə insanın gözünə şəfa verən sadə, xeyirxah insan kimi xatirələrdə qalan Qalib doktora Allah qəni-qəni rəhmət eləsin. Bir gün "respublikanski" xəstəxanasında yanına rayondan bir yaşlı qadın gəlib deyir ki, "Bakıya gəlirdim, dedim, qoy gedib gözüməzadıma da baxdırım." Rus təhsilli Qalib doktora xalq danışıq dilindəki *zad* kəlməsi xoş gəlmir. Deyir: "Xanım, burda gözə baxırlar, zada baxanlarsa aşağı mərtəbədədir".

Nə isə bu qoşa sözlərdə ayrı bir məna var.

Əslində elmdə də zakon da var, zakon-makon da, qanun da var, qanun-manun da, hətta

---

[12] ЦИАМ. Ф.213 (Лазаревский институт восточных языков), оп. 1, д. 806.

[13] Dilçi olmayan oxuculara aydın olsun deyə, Mirzə Cəfərin məqaləsində söhbət müxtəlif dillərdə mövcud olan, məsələn, xırda-mırda, sandıq-mandıq, qanun-manun və s. bu kimi ikinci ünsürü öz-özlüyündə məna daşımayıb süni şəkildə yaradılan həmahəng ifadələrdən gedir. – A.H.

qanun-zad da. Qanun odur ki, elmi tədqiqat zamanı həqiqəti üzə çıxarasan, obyektiv olasan, dürüst olasan, səndən əvvəl gələnlərin haqqına girməyəsən, başqasının fikirlərinin mənimsəməyəsən, təhrif etməyəsən. Qanun, yazmadığın əsərə imza atmağı, başqasının zəhmətinə həmmüəllif kimi şərik çıxmağı, oxumadığın haqqında rəy bildirməyi, yarınmaq naminə kimisə tərif, qərəzlə kimisə tənqid etməyi yolverilməz sayır. Qanun deyir, elmdə avtoritetlər olması labüddür, lakin onlara sədaqət həqiqəti üstələməməlidir. Lakin təəssüf ki, elmdə, xüsusilə də humanitar və ictimai elmlərdə qanun-manuna əməl edənlər daha çoxdur. Ən acınacaqlısı isə Qanunun pozulmasının, hətta ənənə halını almasının gənclərin şüuruna mənfi təsiridir.

Deyirlər, insan səhvsiz olmaz. Tədqiqatçı (burada söhbət həqiqi tədqiqatçıdan gedir) da insandır, səhv edə bilər (bəzən bu səhvlərin obyektiv səbəbləri olur, ya biliklərin müəyyən səviyyəsi ilə bağlı ola bilir), bu, hətta onun hüququdur. Hələ XVI əsrdə Mişel Monten nə qədər qəribə olsa da, dünyanı dərk etməyin bilməzliklə nəticələndiyini deyirdi: O, məşhur “Təcrübələr”ində yazır: “Hər cür fəlsəfənin başlanğıcında heyrət durur, onun inkişafı tədqiqat, sonu bilməzlikdir”. Əslində onun bilməzliyi də elə bilikdir, lakin nisbi bilikdir. Ağıl isə heç vaxt nisbi biliklə qane olmur, dərkedilməzi dərk etməyə can atır. Monten skeptisizmində faydalı rasional ideya var: idrak hər dəfə bilməzliklə qurtarıb yenidən başlayan sonu olmayan prosesdir. Yəni elm nisbi biliklərin, səhvlərin və onların tənqidi, təhlili üzərində inkişaf edir. Qanun deyir: səhvi bilirsənsə söylə, təkrar olunmasın, yeni biliklərə yol açılsın.

Bu mənada filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin Heydər Hüseynovun səhvini görüb xəbər verməsi təqdirəlayiqdir. Bu barədə çoxları yəqin ki, ilk dəfə onun 2019-cu ildə verdiyi müsahibəsindən xəbər tutub (6). O, səhvi aşkar etdiyi günləri belə xatırlayır: “Moskva arxivlərində işləyəndə Mirzə Cəfər Topçubaşovun arxivini sifariş verdim, içini açanda gördüm tamam başqa adamdır. İki Mirzə Cəfər –Topçubaşovla yanaşı Mirzə Cəfər Rzayev də olub. Topçubaşovun adına yazılanlar Mirzə Cəfər Rzayevindir. Bunu Mətbuat və informasiya naziri işləyəndə Sabir Rüstəmxanlıya dedim, o da başını yuxulu-yuxulu qaldırıb söylədi ki, “hamı gedib quş gətirir, Şahqulu bayquş gətirir”. Nə oldu, yüz ildir Azərbaycan alimləri Moskva arxivlərində işləyirlər, heç kim görmədi?... Mən də qayıtdım ki, yeni alim gətirmişəm, Topçubaşovla bağlı yalanları üzə çıxarmışam...” Daha sonra kitaba rəy almaq üçün yanına getdiyi “hüquqşünas Ağababa Rzayev” ona deyib ki, “sən bu məsələni indi bilirsən, mən keçən əsrin 60-cı illərindən, ancaq Heydər Hüseynovun qorxusundan danışa bilməzdik”. Düzü, Mirzə Kazımbəy və digər şərqşünaslarımız haqqında sanballı, dəyərli əsərlər müəllifi Ağababa Rzayevin 1950-ci ildə, əzablı günlərində özünə bir həmdəm belə tapmayıb, faciəvi şəkildə intihar etmiş Heydər Hüseynovdan 60-cı illərdən başlayaraq qorxması çox qəribə təsir bağışlayır. Lakin əsərlərinin ilk mənbələrə dayandığı hörmətli mərhum alimin, təbiidir ki, bu səhvdən xəbəri olduğuna şübhə etmirəm. Lakin birilərinin “yuxulu” laqeydliyi, o birilərin “ölüdən qorxub” susması elmə nə qədər ziyan vurmuşdur. Səhvin Heydər Hüseynovun əsərinin ardından gələn bir sıra kitablarda, Nadir Məmmədlinin qeyd etdiyi kimi, Azərbaycan Sovet Ensiklopediyasında, akademik Feyzulla Qasımzadənin (müsahibədə nədənsə səhvən Böyükağa Qasımzadə gedib) “XIX əsr Azərbaycan ədəbiyyatı tarixi” dərsliyində, daha hansısa əsərlərdə tirajlanmasına rəvac vermişdir. Yeri gəlmişkən, F.Qasımzadənin “XIX əsr Azərbaycan ədəbiyyatı tarixi” ali məktəblər üçün dərslik kimi ilk dəfə 1956-cı ildə, təkmilləşdirilmiş variantı sovet dövründə daha 2 dəfə (1966, 1974) nəşr edilmişdir. 2017-ci ildə kitab “XIX əsr Azərbaycan ədəbiyyatı” adı altında yenidən, xeyli ixtisarlarla işıq üzü görmüşdür. Burada artıq əvvəlki nəşrlərdə getmiş Mirzə Cəfər Topçubaşovun fars dilində qrammatika əsərlərinin olması haqqında yanlış informasiya ilə bahəm, akademikin azərbaycanlı şərqşünas haqqında yazdığı hissə bütünlüklə silinib atılıb. Ləyəndəki çirkli su ilə bərabər körpəni də tullamağa nə ehtiyac vardı?! Üstəlik ixtisar edilmiş yerin ardınca gələn “.....Mirzə Cəfər Topçubaşovdan sonra” sözləri anlamsız qalır (4, s. 127).

Təəssüf edirəm ki, elmlər doktorları, professorlarla təmsil olunmuş sanballı redaksiya heyəti (məsləhətçi, nəşrə hazırlayan, elmi redaktor, rəyçilər) olmasına rəğmən, kitabda şərhlər demirəm, heç kiçik bir giriş belə verilməmişdir. Tələbələr, ümumilikdə oxucu dərsliyin müəllifi, əvvəlki nəşrləri, yenidən nəşrinin lü-

zumu barədə məlumatsız qalmışdır. Dərsliyin əvvəlki adındakı "tarixi" sözünün götürülməsinin, edilən çoxlu ixtisarların səbəbi nə imiş kimi çoxlu suallar doğur. Faktiki olaraq, izahedici mətnlərsiz Azərbaycan sovet ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, akademik Feyzulla Qasımzadənin (1898-1976) uzaq 60-70-ci illərdə yazdığı tarixi səciyyə daşıyan dərsliyi ictimaiyyətə müasirlərimizdən kiminsə yeni əsəri kimi təqdim olunub. Halbuki hər bir əsərin unikallığının əsas göstəricilərindən biri onun başqalarına bənzəməyən öz dövrünün məhsulu olmasıdır. Hər bir əsərdə müəllifin öz düşüncələri, inandıqları, etiqadı, öz doğrusu və öz yanlışı əksini tapır. Onu ixtisarlarla guya müasirləşdirmək yolverilməzdir, əvvəla, ona görə ki, müəllifə qarşı böyük ədalətsizlikdir, onun zəhmətinə, fikirlərinə hörmətsizlikdir; sonra ona görə ki, keçmiş irsə bu cür yanaşma gələcək nəsillərə təhrif olunmuş informasiya ötürülməsinə səbəb olur, tarixini bilməyən, anlamayan gənclər formalaşdırıb, nəsilləri bir-birindən ayırır.

**Erməni məkri yoxsa diqqətsizlik?!** Heydər Hüseynova olduqca gərgin qrafikdə işləyirdi. 1945-ci ildən 1950-ci illərdə bir neçə məsul vəzifə ona tapşırılmışdı. Eyni zamanda Azərbaycan EA-nın vitse-prezidenti, həm onun "İctimai elmlər" şöbəsinin müdiri; Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru və Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri idi. Moskvada ezamiyyətdə olarkən, yəqin ki, arxivlərə baş çəkirdi, lakin burada günlərlə oturub işləməyə nə vaxtı, nə də imkanı vardı. Bu işləri o, köməkçilərinə həvalə edirdi. N.Məmmədli müsahibəsində deyir ki, "Heydər Hüseynovun köməkçisi başqa millətdən idi, biri deyirdi erməni, biri deyirdi yəhudi idi, onu Moskvaya Topçubaşovla bağlı arxivdən sənədləri gətirmək üçün göndərmişdi". Deməli, onu aldadan "köməkçisi" idi. Lakin bilərəkdən M.C.Rzayevin əsərlərini M.C.Topçubaşovunku kimi qələmə vermək onun nəyinə lazımdı. Bu cür məkri yalnız gizli düşməndən gözləmək olar. Mənə elə gəlir ki, bu "köməkçi" 1941-1948-ci illərdə Bakıda Elmlər Akademiyasının Tarix institutunda "böyük elmi işçi, elmi, katib, direktor müavini işləmiş" (9) artıq adı çəkilən S.P.Aqayandır. Ola bilsin ki, ondan, xahiş ediblər ki, Azərbaycan şərqşünası haqqında Moskvadakı arxivlərdən material gətirsin. O isə əldə etdiyi sənədlər əsasında Topçubaşov haqqında özü iki məqalə yazıb dərc etdirdikdən sonra, səhv məlumatları H.Hüseynova verib. Bu, mənim ehtimalımdır. Lakin Azərbaycanda elmlər doktorluğunu müdafiə etdikdən sonra Ermənistana köçüb, orada akademik olan bu "sovet aliminin" erməni xisləti orada tam mənasında özünü göstərmişdir. Təsadüfi deyil ki, onu bu gün Ermənistanda "erməni azadlıq mübarizəsinin və ermənilərin genosidinin elmi cəhətdən öyrənilməsi problemini qaldıranlar arasında birincilərdən" olduğu üçün, əsərlərində Andronik və onun kimi türk xalqlarının qəddar düşmənlərini, Azərbaycanda qırğınlar və vəhşiliklər törətmiş erməni cəlladlarını xalq qəhrəmanları kimi mədh etdiyinə görə hörmətlə anırlar (9).

Bununla belə, tələskənlik, diqqətsizlik, yorğunluq olmasaydı, məlumatlar diqqətli yoxlamadan keçsəydi, əlbəttə, bu səhvi rahatlıqla aradan qaldırmaq olardı. Təkcə Mirzə Cəfər Rzayevin Mirzə Cəfər Topçubaşova aid edilmiş kitabının titul vərəqinə baxmaq yetərdi. Heydər Hüseynovun kitabında çap edilmiş bu vərəqin üzərində açıq-aydın oxunur: "Lazarevin Şərq dilləri institutunun xüsusi siniflərində fars dili müəllimi Mirzə Cəfər tərəfindən tərtib edilmiş Fars dili qrammatikası". Bu institut Moskvada yerləşirdi, Topçubaşov isə Peterburqda yaşamış, Peterburq universitetində çalışmışdı.

**Nəticə.** Heydər Hüseynov Azərbaycan elm tarixində müstəsna xidmətləri olan bir şəxsiyyətdir. Azərbaycan fəlsəfə tarixi elminin təməli onun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" (1949) əsəri ilə qoyulub. Mürəkkəb dövrün kəskin təzadlarını əks etdirən bu əsər bütün siyasi-ideoloji güzəştlərinə rəğmən totalitarizm şəraitində milli ideyanın təcəssümü idi və müəllifinin faciəsinin gətirib çıxardı. Görkəmli alimə həsr etdiyim "Akademik Heydər Hüseynov" (2) kitabını yazdığım vaxtdan artıq 8 il ötür. Odur ki, o zaman mənə məlum olmayan faktları oxucularla bölüşmək istədim. Heç kəs səhvlərdən sığortalanmayıb. Tədqiqat prosesində mənbələr, müxtəlif mətnlər üzərində işləyərkən, eyni məsələ haqqında ilkin fikirlərin, rəylərin necə dəyişərək tədricən dürüstləşdiyini hər bir araşdırmaçı öz təcrübəsindən bilir. Əfsuslar olsun ki, bu gün problemin tarixşünaslığının yaxşı öyrənilməməsi, faktları öz qurama konseptinə uyğunlaşdırmaq cəhdləri, səhlənkarlıq səbəbin-

dən mənbələrdən istifadədə müxtəlif səciyyəli təhriflər o qədər geniş yayılmışdır ki, özü ayrıca bir tədqiqatın mövzusu ola bilər. Odur ki, yanlış, səhv, təhrif gördünsə, müəllifinin avtoritetinə baxmadan, hətta avtoritetdirsə mütləq, bunu söyləmək, səbəblərini izah etmək lazımdır ki, yanlış-"naxış" məqalədən məqaləyə, kitabdan kitaba, əsrdən əsrə köçərək, altından həqiqətin artıq görünmədiyi qara ləkəyə çevrilməsin. Həm də ona görə ki, yanlışları təhlil irsimizi unutmamağın daha bir vəsiləsidir.

### Ədəbiyyat siyahısı


1. Makovelski A.O. H.Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" kitabı haqqında. // İnqilab və mədəniyyət, 1949, № 11, s. 152-164.
2. Hacıyeva Arzu. Akademik Heydər Hüseynov. Bakı: Elm, 2015.
3. Hüseynov H. Azərbaycan alimi və şairi Mirzə Cəfər haqqında böyük rus mütəfəkkiri V.Q. Belinskinin rəyi. // "Kommunist", 1944, 5 noyabr.
4. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2017.
5. Quliyev V. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı, Ozan, 2000.
6. Şok faktlar: Topçubaşovla bağlı böyük səhvi Heydər Hüseynov etmişdi... – Brifinq. 2 Fevral 2019. https://teleqraf.com/news/toplum/199553.html (26.07.2021).
7. Аверкиев С.С. Влияние татар на жизнь русского народа / Составитель И.В. Зайцев, отв. ред. И.М. Миргалеев. – Казань: Институт истории им. Ш.Марджани АН РТ; Изд-во «ЯЗ», 2015.
8. Агаян Ц.П. Мирза Джафар Топчибашев и его «Победная песнь». // Известия АН Азерб.ССР. Отделение общественных наук, вып.1, 1947, № I, с.53-61.
9. Академик В. Бархударян, профессор П. Оганесян. Портрет историка. № 6 (189) Апрель (1–15) 2012 года. https://noev-kovcheg.ru/mag/2012-06/3152.html (17.03.22).
10. Андрианова, Д. В. Парные словосочетания в славянских языках (как потенциальный материал лексикографирования). // Проблемы истории, филологии, культуры. – Вып. 2 (24). – Москва; Магнитогорск; Новосибирск, 2009, с. 359–364.
11. Белинский В.Г. Полное собрание сочинений. Т. 1. М.: Издательства Академии Наук СССР, 1953.
12. Библиотека для чтения. Т. 11, (Литературнвя летопись). СанктПетербург, 1835.
13. Главы из истории московского востоковедения. Лазаревский институт – Московский институт востоковедения – МГИМО. / Под общ. ред. Академика РАН А.В. Торкунова. – М.: Издательство «Аспект Пресс», 2014.
14. Григорьев В.В. Императорский С.Петербургский университет в течение первых пятидесяти лет его существования. Санкт-Петербург, 1870.
15. Гусейнов Г. В.Г.Белинский об азербайджанском ученом и поэте Мирза Джафар Топчибашеве. // "Бакинский рабочий", 1944, 5 ноября.
16. Гусейнов Г. Из истории общественной и философской мысли Азербайджана XIX века. Баку, 1949.
17. Журнал Министерства Народного Просвещения. Часть 8, СанктПетербург, 1835, № 10 (октябрь), с. 177-178.
18. Зайцев И.В. Арабские, персидские и тюркские рукописи и документы московских собраний: итоги и перспективы изучения (опыт справочнобиблиографического указателя. // Письменные памятники востока, «Наука» Издательская фирма «Восточная литература», 2007 2(7) , 2007, с. 252-278.
19. Кайдаров Абду-Али Т. Парные слова в современном уйгурском языке. – Алма-Ата, 1958. 20. Мирза Джафар. Об искусственном образовании парных слов (Reimwörter) // Юбилейный сборник в честь Всеволода Федоровича Миллера, изданный его учениками и почитателями. Под ред. Н.А. Янчука. М., 1900, с. 311-313.
21. Grannes A.. Turco-Bulgarica. Articles in English and French concerning Turkish influence on Bulgarian, Wiesbaden, 1996.

## Summary

**Arzu Hajiyeva**

**Another angle of view on our cultural and historical heritage**

Academician Heydar Huseynov had exceptional merits in the development of the history of science in Azerbaijan. His studies, especially the epoch-making monograph “From the history of social and philosophical thought of Azerbaijan in the 19th century” (1949), laid the foundation for the science of the history of Azerbaijani philosophy. This work, which led to the tragedy of its author, was the embodiment of the national idea, despite all the political and ideological concessions under the conditions of totalitarianism. One of the greatest merit and main advantage of the monograph was that it was built on the basis of valuable sources obtained from both Azerbaijani and Russian archives and libraries. Many documents were introduced into scientific circulation for the first time. However, regardless of the objective and subjective reasons (Heydar Huseynov's haste, the fact that the work did not pass a serious discussion, the desire to overcome ideological barriers, etc.), mistakes were made in the use of sources. Considering, that the problem is still relevant today, the article considers the cultural and historical heritage from the angle of error analysis in a broad retrospective and perspective plan. In the author's opinion, errors, distortions and their causes must be indicated so that they do not recur. This approach to our heritage is also another way of memory.


***Keywords***: *philosophy, history, heritage, sources, mistakes, approach, Heydar Huseynov, M.J. Topchubashov, M.J. Rzayev.*


## Резюме

**Арзу Гаджиева**

**Еще один угол зрения на наше культурно-историческое наследие**

Академик Гейдар Гусейнов имел исключительные заслуги в развитии истории науки Азербайджана. Его исследованиями, особенно эпохальной монографией «Из истории общественной и философской мысли Азербайджана XIX века» (1949) были заложены фундамент науки истории философии Азербайджана. Это произведение, приведшее к трагедии своего автора, явилось воплощением национальной идеи, несмотря на все политические и идеологические уступки в условиях тоталитаризма. Одним из самых больших достоинств и главным преимуществом монографии было то, что она была построена на основе ценных источников, полученных как из азербайджанских, так и из российских архивов и библиотек. Многие документы впервые вводились в научный оборот. Однако, вне зависимости от объективных и субъективных причин (поспешность Гейдара Гусейнова, то, что работа не прошла серьезного обсуждения, стремление преодолеть идеологические барьеры и др.) были допущены ошибки в использовании источников. Учитывая, что проблема актуальна и сегодня, в статье культурно-историческое наследие рассматривается под углом анализа ошибок в широком ретроспективном и перспективном плане. По мнению автора, ошибки, искажения и их причины должны быть указаны, чтобы они больше не повторялись. Такой подход к нашему наследию также является еще одним способом памяти.


***Ключевые слова:*** *философия, история, наследие, источники, ошибки, подход, Гейдар Гусейнов, М.Дж.Топчубашов, М.Дж..Рзаев.*

UOT. 5908.01
https://doi.org/10.59849/2710-0820.2023.2.190

**Xatirə Quliyeva**
*Fəlsəfə elmləri doktoru, dosent*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Multikulturalizm və Tolerantlıq Fəlsəfəsi" şöbəsinin müdiri*
*khatireguli@gmail.com*
*https://orcid.org/0000-0002-4889-6569*

# HEYDƏRİZM KONSEPSİYASI
## (Problemə Giriş)

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Heydərizm konsepsiyası, Kamalizm, Qandiizm.*

**Giriş**

Siyasət, eləcə də siyasi-nəzəri məsələlərə aid yüzlərlə əsər yazılsa da, zəngin kitabxanalar yaransa da bu bəşəri mövzu hər dövrdə, hər bir tarixi mərhələdə və hər bir dövlətin, xalqın şüurunda mühüm düşüncələrə yol açmış və həmçinin daha yeni-yeni tədqiqatların meydana çıxmasına təkan vermiş bir fenomen kimi öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

Siyasi-nəzəri, əslində fəlsəfi, fəlsəfi-siyasi "izm"-lər də bu sahədə maraq doğuran aktual problemlərdəndir. İlk öncə "İSM"-dən qaynaqlanan bizim şüurumuzdakı "İZM" nədir?" sualına cavab verək.

Fəlsəfə tarixi və eləcə də bir çox elmlər, terminlər kimi "İZM"lərin də tarixi Qədim Yunan -ισμός (-ismós), -ίζειν (-ízein) dili zənginliyindən qaynaqlanır və rasional düşüncənin aydınlıq, dəqiqlik, digər tərəfdən də bütövlük, tamlıq, daha böyük mahiyyətində termindir. "İZM"lər ilk əvvəl (məsələn, VIII əsrdə) Latın və Fransız dillərində işlənmişdir. Maarifçilik dövründə (XVI əsr) xüsusən ingilis maarifçilliyində yunan və latın sözlərinə şəkilçi olaraq əlavə edilmiş İZMlər geniş şəkildə yaranmış və XVIII əsrdə artıq dünya dillərində olan İZM-li terminlər yaranmışdır. "İZM"-lərin istifadə olunduğu dövr kimi məşhurdur. artıq bir neçə əsr boyu siyasətçilərin, filosofların, eləcə də müxtəlif elm sahələri nümayəndələrinin qəbul etdikləri doktrina, ideologiya,fəlsəfə, nəzəriyyənin əsasslılığının, xüsusiliyinin və ya özəlliyinin ifadəsidir.

"Here and Now"- İndi və burada adlı məqalədə İZM şəkilçisi ilə olan müstəqil ingilis dilli sözün (blackguardism - qaraguruhçuluq) ilk istifadəçisinin Edvard Pettit (1680) olduğu göstərilmişdir. Həmçinin bu məqalədə İZMlərlə olan terminlər və ideologiyaların 18-ci əsrin ortalarından etibarən geniş yayıldığı, 1930-cu illərdən başlayaraq "ism"lərin yeni məzmunda (racism (1932) or sexism (1936)) işlədildiyi, 1970-ci illərdə isə daha da inkişaf etdiyi hətta 2004-cü ildə OED-ə, yəni Üstünlüyə əsaslanan ideologiyalar üçün terminlərin Məlumat reyestrinə əlavə Layihə kimi daxil edilmişdir (40).

Onu da qeyd edək ki, utilitarizm kimi elə "İZM"-li nəzəriyyələr vardır ki, onlar həm təbiətə həm bəşərə - İnsana aiddir. Necə ki, elə "atalar sözləri", "misallar, deyimlər" var ki, təbiət (məsələn, "saxla samanı, gələr zamanı"), canlılar aləmi(məsələn, it hürər, karvan keçər) üzvlərinə aid olsalar da İnsana münasibətdə də dərin məzmun və məna kəsb edirlər.

Bundan başqa "IZM"-li terminlər tarixinin əvvəllərində məzmununa görə bu və ya digər məktəbi, nəzəriyyəni nəzərdə tuturdusa (məsələn, romantizm, classism, pessimism, agnoticism, dualism, realism və s.), zamanla bu məzmunlarla bərabər dini, elmi və s. sahələr üzrə peyğəmbərlərin alimlərin, filosofların, (məsələn, Mohammedanism, Plotonism, Kantianism, Darvinism) və onlarla məşhurların ideologiyasını ehtiva etmişdir.

Ancaq daşıdığı ideyadan asılı olmayaqraq "İZM"lərlə olan nəzəriyyə, ideologiyalar əsasən fəlsəfi dərk olunurlar. Bu fikri belə də ifadə et-

mək olar ki, İZMlər bir sistemdirlər və onları düşüncə sahəsi adamları olan filosoflar meydana çıxardıqları kimi onlar fəlsəfi tədqiqatların da mövzusudurlar.

Heç də təsadüfi deyil ki, fəlsəfi nəzəriyyələrə, filosoflara, din və din təmsilçilərinə, habelə ədəbiyyat, sənət sahəsinə aid "İZM"lər daha çoxdur.

Bundan başqa "İZM"lər tarixinə xüsusi olaraq diqqət yetirildikdə siyasi məzmunlu o cümlədən siyasətçilərin və habelə siyasi liderlərin (məsələn, Marksizm, Leninizm, Qandizm, Kamalizm) həyatı, fəaliyyəti ilə bağlı olan "İZM"lərlə ratlaşmaq olur ki, bu məktəb, siyasət yolu düşüncəsini ifadə edir.

Əlbəttə "IZM"-li nəzəriyyələr, ideologiyalar "külliyyatında" müsbət səciyyəli olanlarla bərabər məsələn, racism, Stalinism, fascism, Hitlerism, Pahlaviism və s. kimi neqativ xarakterli İZMlər də vardır.

Beləliklə, "IZM"-li terminlər tarixi əlifba sırası və hətta termindəki hərflərin sayı baxımından (6 hərfli, 7, 8, 9 VƏ S. hərfli və s.) çox geniş və zəngindir.

"IZM"-lər konsepsiyasını təhlil edərkən konkret bir məsələyə də aydınlıq gətirməyi zəruri hesab edirik. Bu "İZM"-lər və kult düşüncəsi doqması ilə bağlıdır.

Bəziləri öz dövrü üçün nəhəng inqilabi işlər görmüş, eyni zamanda üsul-idarəçilik baxımından diktator, despot kimi yaddaşlarda qalmış bu və ya digər hökmdarın, siyasi liderin İZMlərlə adlanmasını, tədqiq olunmasını əsas götürərək bu şərtiliyə, fərqliliyə "qara eynəklərlə" baxırlar. Halbuki, tarixi şəxsiyyətlərin mütərəqqi, işıqlı əməlləri, dövlət yaratmaları, xalqlarının xilaskarı olmaları, rəhbəri olduqları dövlətin və xalqın mənafeyi üçün fədakarlıqları, bütövlükdə inqilabi fəaliyyətləri və ən əsas məsələ milyonların təbii sevgisini qazanması onları da fərqləndirir. Digər tərəfdən İZMləri birmənalı şəkildə kultçuluq kimi görən, "qiymətləndirən" yüzlərlə müsbət kimi mənfi məzmunlu İZMli nəzəriyyələrə yanaşmada səssiz qalırlar ki, onların siyasi liderlərə münasibətdə "solçu" mövqeləri ən yaxşı mənada gerilik kimi qəbul edilir.

Fikrimizi tarixin yüzillər boyu tanıdığı və təqdir etdiyi – Aristotelianizm, Buddhism, Confucianizm, Darvinism, Epicureanizm, Hegelianizm və s. o cümlədən Marksizm, Leninizm, Qandiizm, Kamalizm kimi saysız- hesabsız siyasətçi, peyğəmbər, filoosof, dindar, yazıçı, sənətkar nəsllərinin İZMləşən adları təsdiq edir.

Bu baxımdan Azərbaycan xalqının Ulu öndəri, XX əsrin dühalarından biri Heydər Əliyevin siyas irsinin "Heydərizm" konsepsiyasının tarix və müasirlik kontekstində tədqiq və təhlil edilərək dəyərləndirilməsi siyasi-fəlsəfə, eləcə də ictimai elmlər sahəsində aktuallıq kəsb edən mövzudur.

Ulu öndər, tarixi şəxsiyyət, Heydər Əliyevin zəngin siyasi idarəçilik məktəbinə əsaslanan Heydərizm konsepsiyası bu həm tarixi xronoloji aspektlərdən, eyni zamanda müasir dövrün elmi problemləri, fəlsəfi yanaşmalar kontekstində çox sayda istiqamətlərdən əhatəlidir və tədqiqat üçün zəngin mənbədir. İndiyə kimi yüzlərlə alimin, tədqiqatçının, siyasi şərhçinin fikir yürütdüyü Heydər Əliyev siyasi məktəbi bir elmi tədqiqat mövzusu olaraq sanki heç işlənməmiş mahiyyətdədir və bu gün də yeni-yeni müasir araşdırmalara, məsələn, elə hər dövrdə yeni, aktual olan – **Heydərizmin** öyrənilməsini zəruri edir. Çünki Heydərizmin dərki milli ideya, identiklik, milli tarix, dövlət-millət, vətəndaşlıq fəlsəfi əxlaq kimi əbədi və bəşəri bir qayəni ehtiva edir və bu mahiyyəti ilə hər dövrdə yenidir, aktualdır.

Eyni zamanda qeyd etməliyik ki, Heydərizm mövzusu tarixi dövrlər, dövlətlər və siyasi liderlik kontekstində müqayisəli şəkildə təhlil olunduqda onun fəlsəfi, siyasi-fəlsəfi, habelə fəlsəfi-etik kontekstlərdə yeni-yeni, olduqca xarakterik, dolğun, dinamik və özünəməxsus keyfiyyətləri qabarıq şəkildə üzə çıxır və elmi cəhətdən maraq doğurur.

Bu baxımdan Heydər Əliyevin siyasi idarəçiyinə əsaslanan Heydər Əliyev məktəbi - "Heydərizm" dünya "İzm"lər konsepsiyasına yeni bir əlavə, eyni zamanda zəngin siyasi dünyagörüşü, dərin elmi mənbədir.

Bundan başqa Heydərizm bütün mahiyyəti ilə yeni məzmunlu siyasi maarifçilik konsepsiyasıdır. Biz Heydər Əliyev siyasi idarəçilik məktəbini - Heydərizmi ilk dəfə olaraq siyasi maarifçilik terminini tədqiata tətbiq etməklə hərtərəfli şəkildə araşdırarkən uzun onilliklərin təcrübəsində yaranmış rasional və peşəkar li-

derlik nailiyyətləri ilə qarşılaşırıq ki, bunlar milli dövlət, vətəndaş cəmiyyəti, xalq və dövlət vəhdəti şüurunu ehtiva edir.

“Heydərizmin” bir konsepsiya olaraq keçmişin məşhur “izm” sahibləri habelə fəlsəfi cərəyanların mahiyyətində təhlil edilərkən müasir “izm” dünyagörüşü hasil olur. Bu baxımdan klassik “izm”lə şərtlənən hadisələr və o cümlədən məşhur şəxsiyyətlər, liderlərlə yanaşı nisbətən yaxın tarixi keçmişin Qandizim, Kamalizm, o cümlədən rasionalizm, multikulturalizm və s. kimi örnəkləri ən xarakterik dəyərli mənbələrdir.

Bunu da xüsusilə qeyd etməliyik ki, ilk dəfə tədqiqata cəlb olunan “Heydərizm” konsepsiyasının əsaslandırılması üçün Ulu öndər Heydər Əliyevin 46 cilddə toplanmış siyasi irsi, Heydər Əliyevə həsr olunmuş, “Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr”, “Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə I-II cild)”, “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi”, “Heydər Əliyev Atatürk haqqında”, “Əsrin müqaviləsi”-10 il”, “Heydər Əliyev və mənəvi-estetik dəyərlər”,“Heydər Əliyev siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat” və başqa onlarla elmi tədqiqat əsərinin daxil olduğu hebelə bu mövzuya aid zəngin elmi kitabxanalar mövcuddur.

Heydərizm konsepsiyasının elmi tədqiqat sahəsinə tətbiqinin reallığa uyğunluğunu, tarix və müasirlik baxımından çox zəruri olduğunu Heydər Əliyevin siyasi irsi ilə, böyük siyasətçiyə həsr olunmuş əsərlərlə bərabər, dünya siyasəti kitabxanasının klassik və müasir əsərləri, məsələn, “Aristotelin “Nikomax etikası”,“ “Müasir siyasi tədqiqatlarda ideologiya anlayışı”, “Qanunların təbiəti haqqında”, “Müasir Fransanın mənşəyi”, E.Craig. “6 ‘izm’ haqqında”, “Modernizm ve postmodernizm”, ”Təsəvvür azadlığı və fəlsəfi “-izmlər”, “Qandizmin Əsas Prinsipləri, “Ahimsa: Qandizmdə Onun Nəzəriyyəsi və Təcrübəsi, “Kamalizm – Dünyəvi Cümhuriyyətin Türk Modeli” və o cümlədən sonluğu “izm”lər mövzuda tarixi və müasir tədqiqatlar, həmçinin siyasi fəlsəfəyə aid “izm”-li, “izm” siz yeni-yeni əsərlər təsdiqləyir.

“Heydərizm konsepsiyası (problemə giriş)” mövzusunda olan bu məqalədə Ulu öndər Heydər Əliyevin 4 onilliyi əhatə edən siyasi fəaliyyəti XIV əsrdə yaşamış, Azərbaycanda Səfəvilər dövlətini yaratmış, bu müstəqil dövləti siyasi və mədəni sahələr üzrə sistemli surətdə inkişaf etdirmiş, xarici və daxili düşmənlərdən qorumuş və bütün dünyaya tanıtmış Şah İsmayıl Xətai “məktəbi”, tarixdə ən çox öyrənilmiş 100 şəxsiyyət sırasında xüsusi dəyərə malik, türk dünyasının əvəzsiz Lideri Mustafa Kamal Atatürkün siyasət təliminə- Kamalizmə, Hindistanın Azadlıq hərəkatının banisi, hindilərin “ulu ruh”- mahatma, “xalqın atası-- Bapu” adlandırdıqları Mohandas Karamçan Qandinin - Qandizmin siyasət fəlsəfəsi kontekstində elmi-obyektiv və məntiqi aspektlərdən lakonik şəkildə təhlil edilir və bütövlükdə XX əsrin görkəmli dövlət xadimi Heydər Əliyevin zəhgin siyasi irsi - Heydərizm konsepsiyası “izm”lər konsepsiyası kontekstində müxtəlif aspektlərdən əsaslandırılır.

**Əsas hissə**

Tarixi faktlardan çıxış edərək deyə bilərik ki, Heydər Əliyevin 40 il qədər geniş bir dövrü əhatə edən müdrik siyasi nəzəri və praktiki mahiyyətdə idarəçilik fəaliyyəti güclü siyasi məktəb, eyni zamanda Azərbaycanın milli dövlət quruculuğu salnaməsidir. Azərbaycan xalqına məxsus bütün geosiyasi yeraltı və yerüstü milli sərvətlər, milli iqtisadiyatımız, milli mədəniyyətimiz, milli elmimiz, milli təhsiliz, milli ədəbiyyatımız, milli teatrımız, milli musiqimiz, milli muzeylərimiz, milli məscidlərimiz, milli kitabxanarımız, milli idmanımız, o sırada milli səhiyyəmiz və neçə-neçə sosial-iqtisadi, habelə hərbi, diplomatiya kimi sahələr Heydər Əliyevin müdrik siyasəti, böyük cəsarəti və fədakarlığı, peşəkar idarəçilik imkanları ilə sistemli şəkildə dəyərləndirilib, inkişaf etdirilərək milli dövlət ideyasına tam cavab verən səviyyəyə yüksəlmiş, bununla da hələ sağlığında ona "böyük lider, dövlət rəhbəri, ata, Ulu öndər titullarını qazandırmaqla “Heydərizm” konsepsiyasını əsaslandırmışdir.

Azərbaycan xalqının Ulu öndəri, tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın tarixi dövlətçilik ənənələrindən qaynaqlanan zəngin siyasi idarəçilik ideologiyası - **Heydərizm. Heydər Əlirza Oğlu Əliyevin Siyasət Yolu** dünya siyasi düşüncəsində çoxdan tanınan və tətbiq olunan məşhur siyasi liderlərin, məsələn, Mahatma Qandinin “izm”i, bizə mənəvi, eləcə

də coğrafi region olaraq yaxın olan Türkiyə Dövlətinin əfsanəvi Lideri Mustafa Kamal Atatürk siyasi təcrübəsinə əsaslanan Kamalizm kimi hərtərəflidir və dövrünün siyasi-iqtisadi, sosial-mədəni həyatının dolğun salnaməsi kimi dünya ölkələrində qəbul edilib, istifadə oluna bilər.

Bundan başqa  Heydərizm. Heydər Əlirza Oğlu Əliyevin Siyasət Yolu bu iki nəhəng dövlət rəhbəri, dünya siyasətçisi, milli liderin ideologiyası ilə bir çox siyasi strategiya və taktika baxımından eyniyyət, o cümlədən uyğunluq və həmçinin bənzərlik kəsb edir.

Bu fikrimizin obyektiv-məntiqi təsdiqi üçün əvvəlcə təhlillərimizin istiqamətində Ulu öndər Heydər Əliyevin siyasi idarəçilik tarixində ən çox öyrənilmiş 100 şəxsiyyət sırasında xüsusi dəyərə malik türk dünyasının əvəzsiz Lideri Mustafa Kamal Atatürkün və Hindistanın Azadlıq hərəkatının banisi, hindilərin "ulu ruh"- mahatma, "xalqın atası-bapu", "Ata", "Ulu Öndər" adlandırdıqları "Doğruluk Tanrı'-dır" həyat fəlsəfəsinin sahibi  Mohandas Karamçand Qandinin dünya siyasət tarixində əvəzsizliyinin əsaslarına diqqət yönəltmək məqsədəuyğundur.

İlk əvvəl qeyd edək ki, fikrimizcə, dünya Karamçand Qandi ideologiyasının nəzəriyyəsi olan Qandiizm ifadəsinin bütün dillərdə "i" səsini bir dəfə yazılmaqla işlədilməsi doğru deyil. Biz istər Azərbaycan, istər ingilis(bəzi tədqiqatlarda Qandihian daişlədilir), istər rus və digər dillərdə Qandizm sözündə beləcə "i" bir dəfə yazıldığının şahidi  oluruq ki, əslində sözün kökü "Qandi"dirsə ikinci izm və ya ism və s. yazılmalıdır.

Beləliklə, Mustafa Kamal Atatürk və Mohandas Karamçand Qandinin siyasi fəaliyyəti Heydər Əliyevin dövrə, daha konkret XX əsrin ikinci onilliyinin əvvəllərinə təsadüfv edir. Hər iki ideoloq ideologiya sözünün məna çalarlarının fövqündə olaraq qarşılarına öz xalqlarının azadlıq, müstəqillik ideyasını həyta keçirmək prinsipini qoymuş və bu yolda dərin ağıl, böyük daxili inam və müdriklik gücü ilə öz ideyalarını həyata keçirmişlər.

Əlbəttə ki, bu Siyasi Liderlərin  sözsüz olaraq bu və ya digər dərəcədə bəhrələnmiş olduqları Şah İsmayıl Xatai "məktəbi"i, hətta İslam dini tarixi və hüququ əsasları onların həyat və siyasət amallarına yetmələrində tarixi rol oynamışdır.

Mustafa Kamal Atatürk və Mohandas Karamçand Qandinin siyasi ideoloq olaraq meydana atılmasının eyni mahiyyəti xarici istilaçıların vətənlərini və xalqlarını (millətlərini) işğal etməsi və əsarət ideyasında birləşən bütün məhrumiyyətlərin milli müstəqilliyə qarşısını kəsməsi idi.

Məsələn, 1922-1927-ci il mərhələsi Hindistan yarımadasının müstəmləkə həyatının və milli mücadilə tarixinin mühüm səhifələrini təşkil etmişdir ki, burada İngiltərə siyasi, iqtisadi hakimiyyət maraqları təbii surətdə ölkənin çoxmillətli cəmiyyətini formalaşdırmışdı. İngiltərənin müstəmləkəçilik hərakatı zamanı Hindistan çoxkonfessiyalı təbəqələri də ictimai-siyasi cəhətdən fəallaşaraq dinc şəraitdə öz mövqelərini irəli sürərək müstəqilliyin qazanılmasına nail olmağa çalışmışlar ki, bunlar  Hindistanda Mahatma Qandi fəlsəfi ideologiyasını meydana çıxarıb formalaşdırmışdı.

Mahatma Qandinin həqiqətə bağlılıq ideyasından qaynaqlanan "Satyagraha" təlimi, - yəni zülmə, şərə qarşı şiddət və zorakılıqsız qətiyyətli müqavimət  fəlsəfi-siyasət konsesiyası XX əsrin əvvəlləri Hindistanında hətta sonralar başqa ölkələrdə İngiltərə müstəmləkəçiliyi ilə mübarizədə nəzəri və təcrübi əhəmiyyətə malk olmuşdur.

Bir əsrlik tarixi olan Qandizmin (əslində Qandi izmin-X.Q) kökündə Mahatma Karamçand Qandinin 1906-cı ildə Cənubi Afrikadakı Britaniya müstəmləkə hökuməti tərəfindən asiyalılara qarşı qəbul edilmiş və tətbiq edilən ayrı-seçkilik qanununa cavab olaraq düşündüyü satyagraha -, sülh və sevgi ruhunda həqiqəti axtar, həqiqətə sığın,- dinc, müqavimətsiz mübarizə ideologiyası dayanırdı və bu təlim 1917-ci ildə Hindistanda ilk olaraq indiqo – (Çivit-boya otu) yetişdirən Çamparan rayonunda qəbul edilib həyata keçirilmişdir. Beləcə, **Satyagrahi** Zəifliyə boyun əyməkdən və ya onun hər hansı bir şəkildə təsiri altına düşməkdən imtina edərək həqiqətə söykənmək düşüncəsini ifadə edir. Şərlə qarşıdurma zamanı satyagrahi zorakılığa dözməlidir, çünki zorakılıq tətbiq etmək düzgün düşüncəni itirmək olardı"(38).

Bütövlükdə götürüldükdə **Satyagrahi** də daxil olmaqla Mahatma Karamçand Qandini

Hindistanın Quru – böyük rəhbəri, millət atası nüfuzuna yüksəldən dini-mənəvi və social-siyasi və soaial-psxoloji mahiyyətli Qandizm ideologiyası 1893-cü ildən 1914-cü ilə qədər əvvəl Cənubi Afrikada, bütün Hindistanda daha sonar dünyanın Almaniya, İngilrə kimi qabaqcıl ölkələrində qəbul edilib, inkişaf etdirilmişdir.

“Qandi ideologiyası” adlı bir məqalədə Əsas Qandi ideologiyaları belə şərh edilmişdir: **“**Həqiqət və Qeyri-zorakılıq: Onlar Qandi düşüncələrinin əkiz sütunlarıdır. Mahatma Qandi üçün həqiqət sözlərə və əməllərə çevrilir. Onun üçün son həqiqət Allah və əxlaq idi. Beləliklə, əxlaqi qanunlar və məcəllə Qandizmin əsasını təşkil edir. Mahatma Qandiyə gəlincə, qeyri-zorakılıq zorakılığın birbaşa əksi olan aktiv sevgi idi. Satyagraha: Satyagraha ədalətsizliyin, zülmün və istismarın bütün formalarına qarşı ən təmiz ruh gücünün həyata keçirilməsini nəzərdə tuturdu. Metod şəxsi mənəvi əzab verməklə və xəsarət yetirmədən hüquqları təmin edir. Sarvodaya: Sarvodaya “Universal yüksəliş” və ya “Hamının Tərəqqisi" mənasını verən bir termindir. Termini ilk dəfə Mahatma Qandi Con Ruskinin siyasi iqtisad üzrə traktatının “Bu sonuncuya qədər” tərcüməsinin adı kimi işlədib. Svaraj: Svaraj sözü “özünü idarə etmə” mənasına gəlsə də, Mahatma Qandi ona həyatın bütün sahələrini əhatə edən ayrılmaz bir inqilab məzmununu vermişdir”(39).

İndisə çox Heydərizm konsepsiyasının dərki üçün lokonik şəkildə Mustafa Kamal Atatürk milli Dövlət Quruculuğu ideologiyasına əsaslanan Kamalizmlə tanış olaq. Belə ki, XX əsrin ikinci onilliyinin Türkiyəsi də işğalar, böhranlarla tarixə iz salmışdır. 1914-cü ildə başlayan I Dünya müharibəsində Türkiyə Osmanlı Dövləti Almaniya ilə müttəfiq olaraq başda dünyanın ən güclü imperiyaları İngiltərə və Rusiya, habelə Fransa ilə döyüşmuş və təbii 4 illik bu ağır müharibə Osmanlı Dövlətinin məğlubyyəti ilə nəticələnmişdi.

XX əsrin ikinci onilliyinin son iki ili də Türkiyə üçün ağır mərhələ olmuşdur. Birincisi, Mudros (1918-ci il) müqaviləsindən sonra İstambul və Türkiyənin Qars, Ərdahan, Antalya İtaliya, İzmir Yunanıstan, Urfa, Antep, Maraş və Adana erməni-gürcü və fransa hərbi dəstələri tərəfindən işğal olunuş, Sevr müqaviləsini qəbul edən Türrkiyə Britaniya işğal qüvvələri ilə üz-üzə qalmış, Türkiyə Cümhuriyyətinin əfsanəvi Lideri Mustafa Kamal Atatürkün köməyə yetişmişməsi sayəsində İşğalçı dövlətlərin istilasının qapşısı alınmış və Türkiyə tarixində yeni siyasi etap başlamışdır.

Birinci Dünya müharibəsində Osmanlı ordusunda - Çanaqqala cəbhəsində polkovnik, Suriya-Fələstin cəbhəsində İldırım Ordular qrupunun komandiri vəzifəsində xidmət edən, Müharibənin sonunda Osmanlı imperiyasının məğlub olmasının ardınca İstiqlaliyyət müharibəsi - Türk Milli Hərəkatına qətiyyətli lider olan, Türkiyə İstiqlaliyyət müharibəsi ərəfəsində Ankara Hökumətini quran, Türkiyə Ordusunun baş komandanı kimi Sakarya döyüşündə qələbəsinə görə 19 sentyabr 1921-ci ildə “Qazi" ləqəbini alan və marşal rütbəsinə yüksələn (28) ) Mustafa Kamal Atatürk Hərbi və siyasi fəaliyyəti ilə Antanta dövlətləri və onların dəstəkçiləri üzərində qələbə qazanmışdır. Bu, tarixdə analoqu olmayan, dünyanın heç bir yerində görünməmiş bir istiqlal mücadiləsi idi və böyük türk xalqının bu qələbəsi bütün dünyanın güclü ölkələrinin Türkiyəni bir dövlət kimi qəbul etməsi ilə nəticələndi. Bu qələbə Türk xalqının yenilməz cəsarəti ilə böyük Atatürkün dühasının, məharətinin birliyi sayəsində mümkün oldu.

Qazi Mustafa Kamal Türkiyənin Böyük Millət Məclisni Anadoluda (23 aprel 1920-ci ildən etibarən) yaradıb ona rəhbərlik etməklə ən mühüm siyasi işləri həyata keçirdi və artıq 1 oktyabr 1922-ci il tarixində Türkiyədə Osmanlı imperatorluğu ləğv edildi, 1924-cü ildə isə Osmanlı ailəsindən bütün səlahiyyətlər geri alındı, o cümlədən Xəlifə II Əbdülməcidin dini hakimiyyəti parlament qərarı ilə ləğv edildi və davamda sultan ailəsinin bütün üzvləri ölkədən çıxdılar. Bununa 1876-cı ildə qurulmuş ən uzun ömürlü Osmanlılar imperiyası süqut edərək yerini Türk Cümhuryyətinə vermiş oldu.

Əlbəttə, XX əsrin ilk iki onilliyinin Azərbaycanın ən yaxın qonşusu Türkiyədə baş verən hadisələr, xüsusən də 1923-cü il Türkiyə Cümhuriyyətinin Qurulması – Kamalizmin formalaşması və təşəkkülü bir məqalədə bu çox qısa şərhlərlə, iki-üç cümləlik tarixi faktlarla ifadə oluna bilməz. İstər Qandiizm və istərsə də Kamalizm ideologiyaları və onların Heydərizmlə uzlaşan və eyni zamanda fərqlənən cəhətləri haqqında “Heydərizm – Heydər Əlirza oğlu

Əliyevin siyasət yolu" monoqrafiyamızda (əsər çap prosesindədir) geniş bəhs etmişik. Burada böyük Mustafa Kamal Atatürkün Türkiyənin işğaldan azad olunmasında, türk xalqının inqilab, döyüş ruhunun güclənməsində, bütün Türkiyənin Milli Azadlıq hərəkatına qalxmasında və nəhayət monolit Türkiyə Cümhuriyyətinin qurullmasında rolu miqyassız dərəcdə böyük olduğunu və kamalizmin təşəkkülündə əvəzsiz rol oynadığu haqda Kamalizm tədqiqatçi Demiriz Sara-Marienin "Kamalizm – Dünyəvi Cümhuriyyətin Türk Modeli" əsərindən bir iqtibası diqqətə çatdırmaq istərdik. Tədqiqatçi Demiriz Sara-Marieu dövrü belə qiymətləndirmişdir: "Milli dəyərlər üzərində qurulacaq türk birliyi ideyası (dini təmələ söykənən Osmanlı cəmiyyətindən fərqli olaraq), tərəqqiyə, sivilizasiyaya və dünyəvi nizama inanc həm kamalist elitanın baxışlarına uyğunlaşdırılaraq inkişaf etdirilmişdir. Onun ideoloji öncülləri Osmanlı elmi, Gənc Türklər dövründə qərbləşmə və 1910-1920-ci illərdə ortaya çıxan türk millətçiliyi idi. 1920-1930-cu illərin türk hakim elitasının ideoloji təfəkkürünə ən böyük təsir Gənc türklər ətrafında cərəyan edən millətçi hərəkat tərəfindən olmuşdur"(38) .

Təsadüfi deyil ki, Mustafa Kamal Atatürk tarixə əfsanəvi Lider kimi daxil olmuş, onun banisi olduğu Türkiyə artıq 100 ildir ki, bütün dünyada hərbi, iqtisadi, siyasi, diplomatik və çoxsayda sahələrdəki nəhəng nailiyyətləri ilə tanınmaqdadır. Bu dolğun tarixi dövrün və hadisələrin Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin həyatında və əmək fəaliyyətində yeri və rolu son dərəcə böyükdür və sözsüz ki, dahi şəxsiyyətin dövrünün və dünyagörüşünün öyrənilməsində əhəmiyyəti qabarıq şəkildə təsdiqlənəcəkdir.

Bu məqamda "Bizim hamımızın bir vətəni var - bu Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq - bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir"- amalı ilə yaşamış və Azərbaycanın Müstəqil Respublikasını yaratmış Ulu öndər Heydər Əliyevin həyat bioqrafiyasına, Dövlət rəhbəri yüksək vəzifəsinə kimi keçdiyi tarixi yola nəzər salmağı məqsədəuyğun hesab edirik. Beləki, Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarları Sovetində məxfı arxiv şöbəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetinin ümumi şöbəsinin rəisi, həmçinin 1944-1949 - Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi orqanlarında əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili – NDTK-DTN-də şöbə rəisi vəzifələri ilə iş fəaliyyətinə başlamışdır. Heydər Əliyev Təhsil sahəsində bilik və dünyagörüşünü zənginləşdirməklə ölkənin Dövlət Təhlükəsizlik Komitəsinə irəli çəkilmiş, zamanla siyasi idarəçilikdə və dövlət quruculuğu istiqamətində irəli çəkilmiş – SSRİ-nin tərkibində olan 15 Respublikadan biri Azərbaycan KP MK-nin -1ci katibi kürsüsünə, daha sonra SSRİ MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini vəzifələrinə təyin olunmuş, eləcə də tarixi təcrübədən bəhrələnməklə, bütün elm sahələrini dərindən mənimsəməklə və ən əsas fitri istedadla Liderlik sənətini öyrənib özünəməxsusluqla inkişaf etdirmiş, Azərbaycanın müstəqillik dövründə ümumxalq arzusu ilə yüksək hakimiyyətə -- gənc müstəqil dövlətin nəhəng qurucusu, memarı -prezidenti vəzifəsinə yüksələ bilmişdir.

Heç də təsadüfi deyil ki, bu qısa, lakonik şərhlə ifadə etdiyimiz dolğun bioqrafiya qədim yunan filosofu Sokratın müdrik hakim haqqında fikirlərini sanki tamamlayır. Dahi Sokrat demişdir: "...bəzi adamlar heç bir istedada malik olmadığları halda dövləti idarə etmək sahəsində məharət sahibi olduqlarından danışırlar. Heç kəs dənizdə belə olmadığı və gəmi sürməyi bacarmadığı üzündən gəmiçiliyə cəsarət eləmədiyi halda, qəribədir ki, hər yerindən qalxan bir an belə tərəddüd etmədən çox asan iş kimi dövlətə başçılıq etməyə hazır olduğunu bildirir. Fleytaçılıq sənətinə böyük zəhmət hesabına yiyələnmənin zəruri olduğunu bir adam belə danmadığı halda, bir nəfər belə tapılmayır ki, şəhəri idarə etmək üçün əvvəlcədən böyük hazırlıq keçməyin lazım gəldiyni etiraf etsin" (Naxçıvan Muxtar Respublikası Heydər Əliyev dövründə(1991-1993) (31).

Digər yunan filosofu Platon da hökmdarın - rəhbərin əsas cəhəti kimi kütlədən fərqləndiyi, xüsusi istedada və bacarığa, təcrübəyə, idarəetmə qabilliyyətinə malik olduğu qənaətini irəli sürmüş və öz düşüncələrini "əsl usta-ədalətli qanunvericidir. Filosof-hakimdir! - mahiyyətində, deməli ədalətlilik və filosofluq mənalarının

daşıdığı məzmundan çıxış edərək birbaşa müdriklik kimi əsaslandırmışdır.

Hətta Platon böyük Homer sənətini qanun yaratmaq, dövlət qurmaq, sülh, həmrəylik məharəti ilə müdriklik sınağına çəkir və müdrik Lider fenomenini tamamlayan əhəmiyyətli fikirlərini irəli sürür: ”Homer əgər sən belə müdriksən, de görək nə vaxtsa bir gözəl qanun kodeksi yazmısanmı? Hər hansı bir dövlət quruculuğu işlərini əsasını qoymusanmı? Elə bir müharibə olubmu ki, sənin köməyinlə qələbə ilə bitsin?”( Sipovski V. Sokrat və onun dövrü.B..”Elm”,1995.37)(32).

Burada Rusiyanın “Nezavisimaya” qazetinin müxbiri Viktoriya Panfilovanın “Heydər Əliyev uğurlarının formulası” adlı məqaləsindəki fikirləri də xarakterikdir. Müəllif yazır:

“Heydər Əliyev bir çoxları üçün SSRİ-nin ən yüksək hakimiyyət strukturlarında azərbaycanlıların “self made” - uğur simvolu oldu. Sovet İttifaqı Nazirlər Sovetində xidmət vəzifəsinə gəldikdə, Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Dövlət Televiziya və Radio Şurası, səhiyyə və təhsil, mühəndislik, ticarət, yüngül sənaye, nəqliyyat və kommunikasiyaların bütün növlərinə rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə ilk kompleks diaqnostika mərkəzləri yaradılmışdır. Onun dəstəyi sayəsində, Sovet cərrahları ilk əməliyyatları açıq ürəkdə aparmağa icazə verildi. Əliyev, Göz Mikrocərrahi Mərkəzinin açılışına kömək etdi. Svyatoslav Fyodorov və onun Volqa boyunca seyr edən çay qayığında bir mobil laboratoriya yaradılması üçün lobbiçilik etdi” (34).

Problemə bu tarixi tipoloji qiymətləndirmələr kontekstindən və eləcə də müasir politoloji aspektlərdən yanaşdıqda xalqımızın görkəmli şəxsiyyəti, bu il anadan olmasının 100 illiyi qeyd olunan Ulu öndər Heydər Əliyevin yeritdiyi idarəçilik siyasəti rasional, ənənəvi, situatsiya və eləcə də xarizmatik keyfiyyətləri ilə Heydərizm konsepsiyasını doğruldur. Həm də xüsusilə vurğulamalıyıq ki, Heydərizm heç də təsadüfi, ”anidən” deyil, pillə-pillə, onun ömür sınaqları və peşə təcrübələrindən inamla çıxması ilə, müdrik siyasətçi Lider zirvəsinə yüksək peşəkarlığa yiyələnməsi ilə formalaşmışdır.

“Heydər Əliyev SSRİ-nin prezidenti olsaydı” adlı digər araşdırmada önə çəkilən faktlar da Heydər Əliyevin həm milli dövlət quruculuğu fəaliyyəti, həm də onun müdrik Milli Lider, Ulu Öndər təbiəti, yüksək siyasi peşəkarlığı, bütövlükdə Heydərizmi əsaslandırır. Dolğun faktlar baxımından maraq doğuran yazının müəllifi yazır: “Heydər Əliyev Moskvada SSRİ hakimiyyətində gərgin və məsuliyyətli dövlət xadimi vəzifəsində çalışmasına, bir çox sahələrdə məşğul olmasına baxmayaraq respublikanın inkişaf nəbzini tuturdu. Bu mərhələni “Əliyev Azərbaycan üçün”, “Əliyev Rusiya üçün” adlandırmaq olar. O, Rusiya və Azərbaycan ziyalılarının, Sovet İttifaının yüksək hakimiyyət strukturlarında azərbaycanlıların müqəddəratının “self-made”- uğur qarantına çevrildi. Təsadüfi deyil ki, sovet dövründə də, postsovet mərhələsində də Heydər Əliyevi Azərbaycan Atatürkü adlandırmışlar. Digər tərəfdən, Moskvada super gücün liderlərindən biri olaraq məhz O, daha geniş miqyaslı tarixi irs qoymuşdur” (33).

Heydər Əliyevin şəxsiyyətində peşəkar siyasətçi Lider fenomeni ilə müdrik siyasətçi, həmçinin də qeyri-adi – xarizmalı xarakter keyfiyyətləri birləşmişdir ki, bunlar məktəb - Heydərizm konsepsiyası olaraq ciddi şəkildə təsdiqlənir. Yeri gəlmişkən xüsusi olaraq vurğulamaq istərdik ki, Ulu öndər Heydər Əliyev sahibi olduğu, əsl peşəsi siyasəti həm müdrikliyin mənbəyi olan bir elm hesab etmiş, həm də fitri yaradıcılığın təzahürü - sənətkarlıq kimi dəyərləndirmişdir. Məsələn, Heydər Əliyev siyasəti elm və sənət mahiyyətində özünəməxsus orjinal şəkildə qiymətləndirərkən yeritdiyi dövlət siyasətinin tərifini belə şərh etmişdir: “Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi fəaliyyət göstərmək, həm də bu sahədə nailiyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir” (Quliyeva Xatirə. Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı, 2019.səh.47.416 səh.). Hətta Ulu öndər Heydər Əliyev bu ideyası ilə həm politologiyaya yeni bir nəzəri müddəa əlavə etmiş, həm də özünün zəngin təcrübə və dolğun biliyə əsaslanan siyasi idaəçilik məktəbinin əsas qayəsini, Lider missiyasını, deməli Heydərizm konsepsiyasını bilavasitə ifadə etmişdir.

Ulu öndər Heydər Əliyevin bir peşəkar Lider olaraq daxili və xarici siyasi strategiyasının

"izm" mahiyyətini təsdiqləyən, - Heydərizmi şərtləndirən əsas qayə əlbəttə ki, Milli Dövlət quruculuğu missiyası idi. Heydər Əliyev bu missiyanı nəinki ölkəmizin müstəqillik əldə etdiyi mərhələdəki siyasi fəaliyyətində, hətta sərt totalitar sovet imperiyasında ən yüksək siyasi kürsülərdə təmsil olunduğu dövrdə nəhəng bir dövləti idarəetmə siyasətində xüsusi diqqətdə saxlamış, öz məqsəd və amalı olaraq dərk edib bütün gücü ilə həyata keçirmişdir. Görkəmli siyasi xadim Heydər Əliyev bu ağır və ikiqat məsuliyyətli işin öhdəsindən məhz qüdrətli Milli Lider şəxsiyyətindən irəli gələn güclü iradə, mətinlik, qəhrəmanlıq keyfiyyətlərinin cəmləndiyi müdrik siyasət vasitəsilə gəlmişdir.

Bu baxımdan Heydərizmin Liderlik modelində xalqımızın görkəmli tarixi şəxsiyyəti Ulu öndər Heydər Əliyevin ilk Müstəqil Azərbaycan Konstitutsiyasının yaradıcısı, müəllifi olması hadisəsi xüsusi əhəmiyyət təşkil edir.

Heydər Əliyevin dünya dövlətlərinin və vətəndaşlarının Qanunlar kodeksi, hakimiyyət Toplusu – Konstitutsiya haqqında düşüncələri də müdrik Heydərizm konsepsiyasını ehtiva edir. Məsələn, çox xarakterikdir ki, Ulu öndər Konstitutsiyanı məhz xalq-dövlət qarşılıqlı münasibətləri mahiyyətində, vətəndaş əxlaq fəlsəfəsi kontekstindən dəyərləndirmişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunların hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir" (25).

Respublikanın Əsas Qanular Kodeksinin 158 maddəsinin 48-inın sırf insan hüquq və azadlıqlarının təminatına həsr olunması da Ulu öndər Heydər Əliyevin sədri olduğu Konstitutsiya Komissiyasının tarixyüklü fəaliyyətini və bu ağır işin məsuliyyətini aydın surətdə göstərir.

Ulu öndər Heydər Əliyev 30 sentyabr 2002-ci il tarixində Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq ana dilimizin Dövlət Dili kimi qəbul olunması haqqında milli mənafeyə xidmət edən dolğun Qanun toplusu imzalamaqla bir daha xalqı qarşısında müdrik milli Lider missiyasını təsdiqləmiş oldu.

Heydər Əliyev bu tarixi hadisəyə qədər,- hələ 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitutsiyasına digər sovet respublikalarında tətbiq edilməmiş 73-cü maddənin daxil edilməsinə şəxsi təşəbbüsü və ən əsas milli ruhunun diktəsi, xarakterinin cəsarət və fədakarlıq cəhətləri ilə nail olmuşdur ki, bunun da kökündə qeyd-şərtsiz olaraq Ulu öndər məktəbinin – Heydərizmin Azərbaycanın Müstəqil Milli Dövlət Quruculuğuna bağlı müdrik siyasi marağı, eyni zamanda ana dilimizə milli vətəndaş münasibəti dayanırdı.

Belə ki, "1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" (30)

Sənədlərə əsaslanmaqla, müxtəlif xalq nümayəndələrinin, ziyalıların, yazıçıların, alimlərin xatirələrindən məlumatlanmaqla alınan obyektiv qənaət ondan ibarətdr ki, Heydər Əliyevin 1978-ci il Konstitusiyasına bu maddənin daxil edilməsinə nail olmasını dünya maarifçilər nəslinin konstitusion tələblərini həyata keçirməsi mahiyyətində bir çətin və tarixyüklü hadisə hesab etmək olar. Bir tərəfdən dövrün siyasi sisteminin xarakterik rejim təhlükəsi, bir tərəfdən belə bir praktikanın olmaması və hətta çox böyük və imperiyaya müəyyən amillərlə yaxın respublikalarda onun tətbiq edilməməsini nəzərə aldıqda Heydər Əliyevin həqiqətən öz xalqı, öz vətəni qarşısında göstərdiyi bu böyük xidməti əsl inqilabi qəhrəmanlıqdır. Moskvada sonsuz gərginliklərlə keçən müzakirələrin nəticəsində böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olunan Azərbaycan Konstitusiyası Azərbaycan dilinə dövlət dili statusu verməklə çox da uzaqda olmayan gələcək müstəqil dövlətçiliyin və Heydərizmin möhkəm bünövrəsini qoymuş oldu.

Həmin maddə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə - Azərbaycan dilinin

qorunması, yaşaması, inkişaf etdirilməsi üçün həyata keçirdiyi tarixyüklü işə start verməklə bərabər bütün Sovetlər Birliyi ideologiyasına qarşı ilk və ciddi müstəqillik təbili idi.

Müstəqil Azərbaycan dövlətiniin ilk Konstitusiyasında hakimiyyətin 3 bölgüsünə daxil olan sahələrə aid çoxsaylı istiqamətləri sistemli şəkildə yaradan, formalaşdıran və inkişaf etdirən Heydər Əliyevin 10 il ərzində həyata keçirdiyi işlər öz məzmunu, çəkisi etibarilə inqilab və eyni zamanda məktəb mahiyyətindədir və əlbəttə ki, Ulu öndərin sovet quruluşu illərində təmsil olunduğu yüksək siyasi vəzifələrdə bu fəaliyyətin təcrübi əsasları qoyulmuşdusa, Azərbaycanın müstəillik qazandığı keçid dövrü kimi mürəkkəb, çətin mərhələdə dövlət və vətəndaş mənafeyi üçün məqsədə çevrilməklə əsl mənada Heydərizm konsepsiyasını inkişaf etdirmişdi.

Ulu öndər Heydər Əliyev 30 sentyabr 2002-ci il tarixində Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq ana dilimizin Dövlət Dili kimi qəbul olunması haqqında milli mənafeyə xidmət edən dolğun Qanun toplusu imzalamaqla bir daha xalqı qarşısında müdrik milli Lider missiyasını təsdiqləmiş oldu ki, bu hadisə də Heydərizmin mühüm əsaslarından biridir.

Heydər Əliyevin "Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin"(15.s.174-175) - düşüncəsi onun Azərbaycan xalqına, onun tarixinə, milli mənəvi xəzinəsinə, müasir inkişaf yoluna münasibətini, eyni zamanda Heydərizmin əsas prinsipini aydın əks etdirir.

Məlumdur ki, milli dövlət və dövlət quruculuğu problemini həmişə aktual edən ən əsas faktor vətəndaş və daha konkret desək vətəndaş cəmiyyəti məsələsidir. Vətəndaş cəmiyyəti məsələsi mahiyyətcə dövlətin ali məqsədi- xalq-millət maraqlarına münasibətini əks etdirməklə, öz üzərinə azadlıq, plüralizm, müstəqil şəxsiyyət, normalarına hörmət bəsləmək və onu inkişaf etdirək vəzifəsini götürür.

Azərbaycan Respublikasının Konstitusiyanın II - Əsas hüquqlar. Azadlıqlar və Vəzifələr bölməsinin 25, 26, 28, 29, 36, 47,48,49-cu maddələri, habelə digər bölmə, fəsil və müddəaları da ölkədə vətəndaş cəmiyyətinin tam olaraq maraqlarını əhatə edirdi.

Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsi mülkiyyət hüququ vətəndaş cəmiyyətinin dünyanın hər bir nöqtəsində dövlət və xalq kütlələri müstəvisində hüquqi və mənəvi mahiyyətdə ən həssas probleminin həllini təsbit edir: "I. Hər kəsin mülkiyyət hüququ vardır. II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur. VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər. VII. Dövlət vərəsəlik hüququna təminat verir" (1)

Heydər Əliyev 1993-cü il, 03 oktyabr tarixində ümümxalq səsverməsi yolu ilə prezident seçildikdə ilk etapda yeni qurulan müstəqil dövlətin iqtisadi inkişafı üçün mühim əhəmiyyət kəsb edən Neft strategiyasının həllinə xüsusi diqqət yönəltdi və bu istiqamətdə 1994-cü il, sentyabrın 20-də Əsrin müqaviləsi tarixi rəsmi sənədini imzaladı. Dünyanın 7 dövlətinin 11 neft şirkəti ilə Azərbaycan arasında imzalanan Neft müqaviləsi dünya neft şirkətlərinin 60 milyard ABŞ dollarını əhatə etməklə Azərbaycanı həm iqtisadi-siyasi cəhətdən gücləndirmək, həm də siyasi baxımdan tanıtmaq məqsədini daşımaqla bərabər Heydər Əliyev məktəbinin – gələcək Heydərizmin İqtisadi proqrqamını ehtiva edirdi.

Tarixi əhəmiyyət kəsb edən bu iqtisadi-siyasi proqramda 1999-cu ilin noyabrında İstambulda ATƏT-in sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Türkmənistan, Qazaxstan rəhbərlərinin Baki-Ceyhan neft kəmərinin yaradılmasına dəstək imzalarını atması gerçəkliyi də xüsusi önəm daşıyır.

Heydər Əliyevin 1999-cu ildə neft siyasəti sahəsində həyata keçirdiyi daha bir əhəmiyyətli hadisə Azərbaycan-Neft Fondunun yaradılması ilə bağlıdır ki, bununla yeni müstəqil dövlətin iqtisadi bünövrəsi qoyulmuş oldu.

Məlumdur ki, yeraltı milli sərvətlərimizin müstəqil dövlətimizin inkişafına yönəldilməsi məqsədinə xidmət edən Neft iqtisadi-siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-ci illərdən sistemləşmişdi. Belə ki, Ulu öndər hələ sovet idarəçiliyi zamanında böyük uzaqgörənliklə öz ölkəsinin, xalqının taleyini düşünərək Rusiyanın ziddinə gedərək (Rusiya bu zavodu Həştərxan vilayətində qurmaq niyyətinə idi) “Dənizdə Dərin Özüllər Zavodu”-nun məhz Azərbaycanda yaradılmasına nail olmuşdu.

Ulu öndər Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanan Heydərizmi Vətəndaş Cəmiyyəti kontekstindən də ciddi təhlil edib qiymtləndirmək zəruri olan məsələlərdəndir.

Heydər Əliyev 1993-cü ilın oktyabr ayının 10-da Respublika sarayında müstəqil Azərbayan Respublikasının Prezidentinin Andiçmə mərasimindəki nitqində bəşərin ən ali hissi və əxlaq anlamının ən yüksək keyfiyyəti İnsan azadlığı, vicdan azadlığı, söz, dil azadlığını xalqının bütün vətəndaşlarına nisbətdə müasir siyasi müstəvidə demokratik prinsiplər olaraq önə çəkib bunlara sahib çıxacağını və deməli milli dövlət ideyasını tamamlayan milli Ümummilli Lider mövqeyini ifadə edirdi. Bu isə ölkədə vətəndaş cəmiyyətinin əsası kimi böyük əhəmiyyət daşıyır.

Ulu öndərin andiçmə mərasimindəki nitqindən gətirəcəyimiz bir misalla bunu təsdiqləyə bilər: “Azərbaycanda insan azadlığı, söz azadlığı, din azadlığı, dil azadlığı, vicdan azadlığı bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən şərtlərdir. Biz bu şərtlərin bərqərar olmasını təmin edəcəyik. Azərbaycanda çoxpartiyalı cəmiyyət yaranmaqdadır, bir çox partiyalar yaranıb və bundan sonra da yaranacaqdır. Bunların yaranması və inkişaf etməsi üçün Azərbaycan dövləti bütün imkanları təmin edəcəkdir və çoxpartiyalı cəmiyyət, demokratik prinsiplərin bərqərar olduğu cəmiyyət, şübhəsiz, Azərbaycanın müstəqil bir dövlət kimi inkişafına kömək edəcəkdir” (13).

Xalqımızın tarixi şəxsiyyəti Heydər Əliyev iqtidar hakimiyyətinə alternativ qüvvənin-çoxpartiyalılığın yekrəngliyinin demokratiyanın inkişafına mane olacağını rasional qiymətləndirmə qəbul etməyərək “Çoxpartiyalı cəmiyyətdə müxalifətin də böyük rolu var. Biz müxalifətə bundan sonra da böyük hörmətlə münasibət göstərəcəyik və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan cəmiyyətində müxalifət mövqeyində olan partiyalar, siyasi qüvvələr konstruktiv əməkdaşlıq mövqeyindən çıxış edəcəklər və bu da Azərbaycanda həqiqi demokratiyanın inkişafı üçün daha geniş imkanlar yaradacaqdır. Bir sözlə, biz Azərbaycanda müxtəlif qüvvələr olmasını təbii bir hal hesab edirik, eyni zamanda dövlət müxalif qüvvələrlə konstruktiv əməkdaşlığa həmişə hazır olduğunu bildiririk”(13)kimi prinsipal mövqeyini açıqlayır.

Biz Heydər Əliyevin demokratiya anlayışını politoloji və təcrübi biliyinin təzahürü olan xarakterik təhlilləri ilə də qarşılaşırıq. Hətta böyük Lider demokratiyanı milli geosiyasi məkanda inkişaf dinamikasını düşünüb şərh etmiş, bununla vətəndaş cəmiyyətinin, onun əsasını təşkil edən İnsan əxlaqı- azadlıq və vicdan azadlığının proqram-layihəsini irəli sürürdü. Bu

dediklərimizi Heydər Əliyev çıxışlarından gətirdiyimiz bir neçə iqtibasla təsdiqləyə bilərik

"Bəziləri belə hesab edir ki, Azərbaycanda demokratiya Böyük Britaniya, Fransada, yaxud ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir"(13) "Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı təmin edilməli, insan haqları qorunmalı, vicdan azadlığı, din azadlığı təmin edilməlidir" (13) ."Demokratiya dövlətçiliyimizin əsasını təş kil edəcəkdir.Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var"(13) .

Azərbaycan dövlətinin tarixi şəxsiyyəti, Müstəqil Respublikamızın böyük qurucusu Ulu öndər Heydər Əliyevin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır";, "Fikir müxtəlifliyi təbii hadisədir"; "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz" kimi dillər əzbəri olan fikirləri, o cümlədən "Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir"(14) - düşüncəsi, əslində siyasi mövqeyi ölkəmizdə vətəndaş cəmiyyətinə onun milli lider münasibətini - Heydərizmi dolğun əks etdirir.

Heydər Əliyevin "Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın", "Ədalətsizliklə ədaləti bərpa etmək olmaz" (14), -fikirləri buradan qaynaqlanmaqla bərabər ölkə vətəndaşlarının demokratik ruhda yetişməsinini ehtiva edirdi.

Əlbəttə Vətəndaş cəmiyyəti hadisəsini əsas insan azadlıqları və müstəqillik ideyaları təşkil etdiyi üçün güc Söz azadlığı, bu istiqamətdə də mətbuat üzərinə düşür və Heydər Əliyev yeni qurulan müstəqil respublikanın idarəçilik siyasətində milli mətbuatın müstəqilliyini, jurnalustlərin sərbəst fəaliyyətini dəstəkləyir və bu sahənin demokratik prinsiplər əsasında inkişafına əzmlə çalışırdı. Təsadüfi deyil ki. müstəqil dövlət kimi ilk addımını atan Azərbaycan Respublikası ilk Konstitutsiyasına 50-ci maddə kimi KİV-nin inkişafına bağlı tarixi və həmişə əhəmyyətli olan bir qanunu daxil edilmişdir.

Konstitusiyamızın verdiyi hüquq və azadlıqları təcrübədə həyata keçirən Heydər Əliyev elə 1995-ci ildə milli mətbuat tariximiz üçün öz zamanında olduğu kimi bugündən baxanda da son dərəcə mühüm əhəmiyyətli olan veb-virtual informasiya kanalının Azərbaycanda əsasının qoyulmasına nail olmuşdur.

Əgər nəzərə alsaq ki, internet sözü ilə bərabər veb-virtual şəbəkənin bütün dünyada tətbiqinə 1980-ci ildə start verilib, o, 1985-ci ildə ABŞ-da ilk dəfə olaraq sınaqdan çıxıb və 1990-cı illərdən etibarən dünyanın ən qabaqcıl Avropa dövlətlərində istifadəyə verilib, o zaman internet sisteminin müqayisədə gənc və kiçik bir dövlət olan müstəqil Azərbaycan Respublikasında 1995-ci ildə yaranması və istifadə olunmasının tarixi hadisə dəyəri və əhəmiyyəti, ən əsas da dövlətin bu işə xüsusi rəsmi münasibəti aydın olar.

Heydər Əliyevin Azərbaycan mətbuatına diqqət və qayğısı sovet dövründən mövcud olan və müstəqillik illərində saxlanmış senzura adlanan avtoritar və totalitar rejim təzyiq maşınını 1998-ci il 6 avqust tarixli xüsusi Sərancamla ləğv etməsi, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında Azərbaycan Respublikasının Qanununu, habelə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı"nı təsdiqləməsi, həmçinin 2003-cü ildə Jurnalistlərin I Qurultayında jurnalistlər tərəfindən irəli sürülən qeyri-hökumət təşkilatı olan "Mətbuat Şurası yaradılması" təklifini dəstəkləməsi və hətta qazetlərin çap və s. üzrə böyük məbləğdə borclarının dondurulması və digər hüquqi, mənəvi məsələlərin həllində özünü təsdiq edir .

Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldiyi dövrdə Azərbaycanın ərazi bütövlüyü pozulmuş. Dövlətin Dağlıq Qarabağ torpaqlarının 25 faizi mənfur qonşu ermənistan tərəfindən işğal olunmuşdu və ölkə Dağlıq Qarabağ və Ermənistandan 2 milyona yaxın qaçqın və məcburi köçkün problemnin məngənəsində idi. Heydər Əliyev bu ağır problemin həlli üçün var qüvvəsi ilə çalışır, hətta şəxsiyyətindən irəli gələn sadəlik və səmimiyyətlə əlində müəllim çubuğu dünya siyasətçilərinə başçısı

olduğu ölkənin qarşılaşmış olduğu problemlərdən bəhs edir, Azərbaycan torpaqlarının işğaldan azad olması məqsədilə gecəsini-gündüzə qatıb, beynəlxalq tədbirlərdə xalqının, millətinin səsini çatdırırdı ki, bu da öz növbəsində onun müdrik siyasi Lider fenomenini bir daha təsdiq edir.

Bu tədbirlər sırasında "1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət başçılarının Lissabon Zirvə görüşü (1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşü (19) xüsusilə seçilir.

"Heydər Əliyevin Zirvə toplantısında dövlətlərin başçılarına Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ ərazisində ikinci erməni dövləti yaratmaq məqsədini ciddi və tutarlı faktlarla diqqətə çatdırması, həmçinin qətiyyətlə Azərbaycanın öz torpaqlarını azad edəcəyini bəyan etməsi tarixi bir imkan idi (1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşü (19) .

Bundan başqa Ulu öndər Dövlət Təhlükəsizlik Orqanlarında yüksək vəzifədə çalışarkən peşəkar milli çekist kimi ermənilərin türk millətinə qarşı öz düşmən münasibətlərindən çıxış edərək əsas niyyətlərinə - Azərbaycan torpaqlarının işğalı ilə bağlı arzularına çatmaq üçün intihar səhnəcikləri düzəltməklə və bunu Qarabağ əhalisinin üzərinə atmaqla, hətta bu süni şoularından sonra azərbaycanlılara divan tutmaqla milli zəmində kəskin mürəkkəb vəziyyət yaratmalarının da qarşısını almış, cəsarətlə kütləvi təxribat qruplarının qanuni həbsinə, hətta 5 nəfər haqqında ölüm hökmünün çıxarılmasına nail olmuşdu. Bu da çox maraqlı bir tarix izdir ki, xalqını qəlbən sevən, ölkə başçısı seçilənə kimi də onun əsl milli təəssübkeş rəhbəri olmuş Heydər Əliyev həmin hadisə vaxtı 15 gün Azərbaycan SSR DTK-nin sədri məsul iş qrafikini və rahat şəraitini münaqişə olan ərazində gərgin, narahat iş rejiminə dəyişmişdir(21) .

Heydər Əliyevin bu cür qlobal mahiyyətli dövlət quruculuğu işlərini reallaşdırması və eləcə də uğurla başa çatdırmasını, ümumiyyətlə bütün fəaliyyətində böyük nailiyyətlərə imza atmasını şərtləndirən yüksək intellektual səviyyəsi, hadisələri rasionallıqla qiymətləndirmə bacarığı, məsuliyyət hissi, illər uzunu toplanmış idarəçilik təcrübəsi onun Azərbaycan müstəqilliyinə ikinci dəfə qovuşduqda ümumxalq səsverməsi ilə prezident seçildikdən sonra xalqının, milli dövlətinin daxili siyasi idarəçiliyində olduğu kimi, xarici inkişaf xəttinə də yönəldi.

Hər bir Siyasi Liderin Dövlət Quruculuğu Siyasətində Sosial İnkişaf Proqramı əsas təşkil etdiyi kimi hər bir ölkənin və şəhərin həyatında praktik "gözəllik" sahəsi olan muzeylər xüsusi yer tutur. Bu baxımdan Heydər Əliyevin Sosial-İqtisadi İnkişaf Proqramı öz dövründə olduğu kimi, indi də mühüm əhəmiyyət kəsb edir.

İnamla və qürur hissi ilə deyə bilərik ki, onillər boyu Azərbaycan vətəndaşlarının geniş şəkildə faydalandığı sosial-iqtisadi, gerçəklərdən çıxış edərək deyə bilərik ki, xalqımızın Ulu Öndəri, tarixi şəxsiyyət Heydər Əliyevin uzun onillikləri əhatə edən Dövlət Quruculuğu Siyasətində Sosial İnkişaf Proqramı Heydər Əliyev məktəbi – Heydərizm baxımından praktiki mahiyyətdə olduğu kimi elmi-nəzəri məzmunda da mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalqına məxsus bütün geosiyasi yeraltı və yerüstü milli sərvətlər, milli iqtisadiyatımız, milli mədəniyyətimiz, milli elmimiz, milli təhsilimiz, milli ədəbiyyatımız, milli teatrımız, milli musiqimiz, milli muzeylərimiz, milli məscidlərimiz, milli kitabxanalarımız, milli idmanımız, milli səhiyyəmiz və həyatın neçə-neçə sahəsi Heydər Əliyevin müdrik siyasəti, böyük zəhməti, peşəkar idarəçilik imkanları ilə sistemli şəkildə dəyərləndirilib, inkişaf etdirilərək milli dövlət ideyasına tam cavab verən səviyyəyə yüksəlmiş Azərbaycanın Dövlət Quruculuğu Siyasətində Heydərizm modelidir.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətdə ilk peşəkar Lider xidmətləri sırasında Heydərizm konsepsiyasının formalaşmasını üçün böyük əhəmiyyət kəsb edən hadisələrdən biri, Azərbaycanı beynəlxalq aləmlə birləşdirən və ölkə iqtisadiyyatının inkişafının güclənməsinə hesablanan "tarixi İpək Yolu"nun bərpası layihəsi bu dediklərimizi dolğunluqla əks etdirir.

“Heydər Əliyevin "İpək yolu"nun bərpası sahəsindəki böyük təşkilatçılıq fəaliyyətinin və nüfuzunun nəticəsi olaraq 2000-ci ilin mart ayının 10-u və 11-i tarixində Gürcüstanda keçirilmiş konfransda TRASEKA Hökumətlərarası Komitəsinin Daimi Katibliyinin Bakıda açılması qərara alındı. Heydər Əliyevin peşəkar milli lider kimi əsl cizgiləri onun 1997-ci il sentyabrın 3-də YUNESKO-nun “İnsanların Sülh Hüququ haqqında Bəyannaməsinin qəbul edilməsi” təklifini müsbət qarşıladığı barədə qurumun baş direktoru F. Mayora ünvanladığı məktub da yaxşı ifadə edir.

Azərbaycan milli-mədəni irsinin qorunması və mənəvi əsaslarımızın dünyaya tanıdılmasına Milli dövlət, Milli lider məqsədi kimi baxan Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi haqqında fərman imzalamış və bu rəsmi sənədə, onunla müəyyən olunan məsələlərə YUNESKO da öz növbəsində diqqət ayıraraq “Kitabi Dədə Qorqud Dastanının” 1300 illik yubileyi ilə əlaqədar 2000-ci ildə Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində, həmçinin Azərbaycanın paytaxtı Bakı şəhərində yubiley tədbirləri keçirilməsini rəsmi olaraq həyata keçirmişdir.

Ümumiyyətlə, Heydər Əliyev ikinci dəfə Azərbaycan siyasi hakimiyyətinə rəhbər gəldikdən sonra Azərbacanın bütün sahələrdə olduğu kimi xarici siyasət kursunda da ciddi proqram mahiyyətli irəliləyişlər baş verdi və bütün bunlar inkişaf strategiyası olaraq Ulu öndər tərəfindən hazırlanıb idarəçiliyə tətbiq olunmuş konkret plan əsasında həyata keçirildi.

Aşağıdakı iqtibasda cəmlənən fikirlər Ulu Öndəri Heydər Əliyevin Dövlət Quruculuğu Siyasətində Sosial İnkişaf Proqramına sistem halında yanaşmasını daha aydın ifadə edir: “... Mən mədəniyyətə öz münasibətimi əməli işimlə həmişə bildirmişəm. Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlqədar layihələrə birlikdə baxıb, öz mülahizələrimi bildirmişəm. Hətta zavod tikiləndə, Bakı kondisionerlər zavodu tikiləndə də mən onun memarlıq cəhətdən gözəl olmasına çalışırdım. Həmin zavodda olanlar görüblər ki, onun xarici görünüşü memarlıq cəhətdən dəyərlidir"(15).

Heydər Əliyev 1970-ci illərdən başlayaraq respublikada muzey işinin zənginləşməsinə də çalışmış,1980-ci ildə Muzey İşinin İnkişafı haqqında Qərar qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyevin ayrı-ayrı sənətkarların həyat və yaradıcılığına həsr olunmuş ev muzeylərinin yaradılması ilə bağlı qərarları sistem halında Azərbaycanın bütün rayon və kəndlərini də əhatə etmiş, hətta bu tarixi əhəmiyyətli iş Azərbaycanın “Tarix-Diyarşünaslıq muzeyləri”-nin yaradılması hadisəsi ilə daha da genişlənmişdir.

Azərbaycanın ikinci Müstəqillik illərində Ulu öndər Heydər Əliyevin muzeylər sahəsində həyata keçirdiyi ciddi işlər arasında Respublikamızın işğal altında olan Qarabağ torpaqlarında talan edilmiş, dağıdılmış, “güllələnmiş” muzeylərimizlə bağlı məsələlər də xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev Ermənistanın 1988-1993-cü illərdə 12 muzeyimizə vəhşi münasibətini YUNESKO və onun ixtisaslaşdırılmış təşkilatı olan Beynəlxalq Muzeylər Təşkilatı - İKOM-un qarşısında tələbkarlıqla qaldırmış, bu mənəvi məsələ haqqında dünya ictimaiyyətinə rəsmi məlumatlar verilməsinə nail olmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, Heydər Əliyev sosial rifah sahəsində maariflənmənin ən mühüm sahəsi kitab nəşrini də diqqətdə saxlamış, ölkədə kitabxanaların genşlənməsi və zənginləşməsi işinə öz rəhbər qayğısını göstərmişdir. Ulu öndərin bu haqda söylədiyi dəyərli fikirləri kitab yaradıcılığının əhəmiyyəti ilə bərabər qarşıda duran problemləri də işıqlandırır və onların həlli yolları göstərilirdi.

Məsələn, Heydər Əliyevin Respublika Milli Kitabxanasında (keçmiş M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında) təşkil olunmuş təqdimat mərasimindəki müdrik çıxışı bu gün də əhəmiyyət kəsb edir.

“Kitab nəşri hər bir xalqın mədəniyyətində ümumiyyətlə, ölkənin mənəvi, icimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etdirmək əsas vəzifələrimizdən biridir.

Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikamızın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" (Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 3-cü kitab, Bakı, Azərnəşr, 1997. 413 s.).

Heydər Əliyevin dövlətin mənəvi kitab xəzinəsinə diqqət və qayğısı onun Dövlət Kitabxanasına özünün qiymətli kitablarından ibarət dolğun bir kolleksiyanı bağışlamasında öz ifadəsini tapmışdır.

Heydər Əliyevin dövlət quruculuğunda zavod, fabrik və digər istehsalat sahələrinin yaradılması, yenidən qurulması proqramı yuxarıda da qeyd etdiyimiz kimi əsas təşkil etmişdir.

Ulu öndər XX əsrin 70-ci illərində ölkənin neft planını artıqlaması ilə yerinə yetirən, dövlət büdcəsinə yüz milyardlarla xeyir verən Bakı neft zavodlarının köhnə avadanlıqlarının yenilənməsi məqsədi ilə ciddi addımlar atmış, hətta müasir avadanlıqlarla təchiz olunmuş iki böyük Neftayırma zavodunun tikilməsinə nail olmuşdur.

Bunun ardınca Respublikanın ayrı-ayrı şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında, Sumqayıtda, Gəncədə, Mingəçevir şəhərində elektrotexnika, cihazqayırma, dəzgahqayırma, kimya zavodları yaradılmışdır.

1980-ci illərdə Azərbaycanda 300-ə yaxın yeni zavod, fabrik və müxtəlif müəssisələrin yaradılması ölkə iqtisadiyyatının inkişafına böyük təkan verməklə bərabər Heydər Əliyevin dövlət quruculuğu platformasındakı sistemliliyi və mükəmməlliyi təsdiq edirdi.

Bu tarixi quruculuq işləri sırasında Azərbaycan xalqının Ulu öndəri, dünya şöhrətli siyasətçi, ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda Kondisionerlər zavodunun iki il müddətinə tikilib istifadəyə verilməsi hadisəsi də diqqəti cəlb edir. Zavodun əhatə etdiyi 1500 min kilometr sahədə 4 min texnoloji və texniki avadanlıq quraşdırılmış, min kilometrə yaxın boru və kabel xətti çəkilmişdir.

Bütün tikililərin qarşısında isə "Bakı" sözü, məsələn, Bakı "Azon" zavodu, Bakı "Ulduz" zavodu, Bakı "Dərin özüllər" zavodu, Bakı Qaz Aparatları zavodu, Bakı Fəhləsi və s. yazılırdı ki, bu da Heydər Əliyevin iqtisadi-sosial sahələrlə bərabər, Azərbaycanın paytaxtı Bakı şəhərini dünyaya tanıtmaq məqsədini ifadə edir, həmçinin yüksək siyasi peşəkarlığa malik ümummilli Lider Heydər Əliyevin uzaqgörən müdrik Dövlət Quruculuğu Siyasətində Sosial – iqtisadi İnkişaf Proqramının uğurlu nəticələrini əks etdirirdi.

Məhz Heydər Əliyevin yüksək idarəetmə peşəkarlığı və ölkə vətəndaşlarına böyük diqqət və qayğısı nəticəsində keçən əsrin 70-ci illərində "Ulduz", "Əzizbəyov", "Qara Qarayev", "Neftçilər", "Nizami", "Elmlər Akademiyası", "İnşaatçılar", "20 yanvar", "Memar Əcəmi" metro stansiyaları yaradılaraq insanlarımıza rahatlıq, şəhərimizə müasirlik, gözəllik bəxş etmişdir ki, bütün bunlar Heydər Əliyevin böyük siyasi məktəbinin – Heydərizmin real əsasları olaraq əhəmiyyət daşıyır.

Burada Rusiyanın "Nezavisimaya" qazetinin müxbiri Viktoriya Panfilovanın yuxarıda da iqtibas gətirdiyimiz "Heydər Əliyev uğurlarının formulası" adlı məqaləsində paylaşdığı fikirləri nəzərdən keçirmək yerinə düşər.

"Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə – mahiyyətcə milli lider postuna, Sosialist Əməyi Qəhrəmanı adına layiq lider idi. Bu 10 ildə Azərbaycanın sənaye potensialı iki dəfədən çox artdı. Onun şəhər və kəndlərinin siması tanınmaz dərəcədə dəyişdi. 15 respublikadan yalnız Rusiya və Azərbaycan SSRİ-in dövlət büdcəsindən subsidiyalara yol vermədi. Gələcəyin prezidenti Heydər Əliyev o vaxtlar doğma respublikanın çiçəklənməsi haqqında taleyinə minnətdarlıqla yazırdı: "Gözəl illər idi. ... İşdən sonra mən evə getmədən "gələcək" üçün yeni planlar düşünərdim. Düşünürdüm vəzifəmin mənə verdiyi imkanlardan necə istifadə edim ki, xalqıma faydalı olsun". Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər yaradıcılıq və quruculuq mərhələsi oldu. 313 sənaye müəssisəsi tikilib istifadəyə verildi. Azərbaycan xalq təsərrüfatının müxtəlif sahələrində inkişaf uğurlarına görə ardıcıl olaraq 12 dəfə qalib gəldi" (34).

Məqalə müəllifi həmçinin "Sovet İttifaqı Nazirlər Sovetində xidmət vəzifəsinə gəldikdə, Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Dövlət Televiziya və Radio Şurası, səhiyyə və təhsil, mühəndislik, ticarət, yüngül sənaye, nəqliyyat və kommunikasiyaların bütün növlərinə rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə ilk kompleks diaqnostika mərkəzləri yaradılmışdır.

Onun dəstəyi sayəsində sovet cərrahlarına ilk əməliyyatları açıq ürəkdə aparmağa icazə verildi. Əliyev Göz Mikrocərrahi Mərkəzinin açılışına kömək etdi. Svyatoslav Fyodorov və onun üçün Volqa boyunca seyr edən çay qayığında bir mobil laboratoriya yaradılması üçün lobbiçilik etdi” (34) - kimi dolğun faktlarla Azərbaycan xalqının yetirdiyi tarixi şəxsiyyətin ömür yolunu və dövlət quruculuğu fəaliyyətini işıqlandırır.

Heydərizmin mahiyyətini və əhəmiyyətini dolğun ifadə edən daha bir fakt. Ulu öndər Heydər Əliyev dünyanın iki imperiyasından biri olan Sovet siyasi quruluşunda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, deməli mühüm vəzifə sahibi ikən SSRİ-nin təhsil sisteminə, o cümlədən sovet məktəblərində islahatlar komissiyasına, (RF-nın H.Əliyev rəhbərliyi ilə hazırlanmış və 2012-ci ilə kimi qüvvədə olmuş Təhsil Qanunu burada istisna deyil-X.Q) o cümlədən, 14 nazirliyə, dövlətin iqtisadi əsasını təşkil etmiş bütün nəqliyyat növlərinə, qaz istehsalına, sosial sahəyə rəhbərlik etməsi və bu istiqamətdə əldə etdiyi naliyyətlər yada düşür. Məsələn, Heydər Əliyev 1984-cü il kimi Rusiyanı ən şaxtalı ildə peşəkar siyasəçi kimi ölkəni xilas etmişdir ki, bu hadisə xaricdə belə yüksək əks-səda doğurmuşdur”(35).

Azərbaycan xalqının Ulu öndəri Heydər Əlyev Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi illərdə əsl həqiqətdə blokada şəraitində olan həmvətənlərinin bütün ehtiyaclarını nəzərə alaraq Sosial İnkişaf Proqramı həyata keçirmişdir.

Ulu öndər Heydər Əliyev yazıçı Aleksandr Proxorovla müsahibəsində Naxçıvanın blokada dövründə orada olarkən qarşılaşdığı pronlemlərdən bəhs edərkən respublikamız üçün çox böyük tarixi əhəmiyyəti olan İran və Türkiyə Respublikalarına yol çəkilməsi məsləsini də vurğulayır ki, bu da heç şübhəsiz, Ulu öndərin yuxarıda da qeyd etdiyimiz kimi milli dövlət quruculuğu siyasətinin Sosial İnkişaf Proqramı modelini təsdiq edir. O demşdir:

“İran və Türkiyə rəhbərləri ilə aramızda şəxsi dostluq münasibətləri yarandı. İran prezidenti öz təyyarəsini Naxçıvana göndərdi. Mən Tehrana gedib onunla yardım barəsində razılığa gəldim. Biz elektrik xətti çəkdik və İrandan enerji almağa başladıq. Eləcə də, yanacaq və ərzaq... Türkiyə prezidenti Dəmirəlin özü mənə 100 milyon dollar kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən onun yanına, Ankaraya uçdum. Mən Türkiyəyə yol çəkdim. Araz çayı üstündən körpü saldırdım və mal təchizatını təşkil etdim”(Heydər Əliyev Müstəqilliyimiz əbədidir.2-ci kitab.Bakı.,Azərnəşr.1997.59).

İqtibasdakı fikirləri bir qədər geniş şərh edərək Heydər Əliyevin hələ SSRİ-nin paytaxtı Moskvanı tərk etdikdən sonra öz doğulduğu Naxçıvan Muxtar Respublikasında yaşayarkən blokada şəraitində ciddi məhrumiyyətlərlə üzləşən həmvətənlərinin problemlərini düşünərək Naxçıvan MR Milli Məclisinin sədri kimi dövrünə, mahiyyətinə görə nəhəng məzmununzda həyata keçirdiyi işlərin əslində onun Sosial İnkişaf Proqramının məqsədini göstərmək zəruridir.

Belə ki, Heydər Əliyev peşəkar dövlət qurucusu səriştəsi ilə və ciddi səylər nəticəsində qısa müddətdə Türkiyə və İran İslam Respublikası ilə əlaqələr quraraq Sədərək rayonu ərazisinndə Azərbaycanla Türkiyə arasında Araz çayı üzərində “Ümid” adlanan körpünün açılışına, habelə 1992-ci il 22-25 mart tarixində Türkiyədə Baş nazir Süleyman Dəmirəllə Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalamışdır (Quliyeva Xatirə. Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı,2019.səh.47.416 səh). Onu da xüsusi olaraq vurğulamalıyıq ki, Heydər Əlievin “Ümid” körpüsünün 1991-ci il 29 oktyabr tarixində müvəqqəti, 1992-ci il 28 may tarixində tam rəsmi açılışı Azərbycan və Türkiyə dövlətlərinin yaranması tarixlərini ehtiva edir və bu Heydərizmin yenilməz Azərbaycan-Türkiyə birliyi, həmrəyliyi, bütövlükdə millilik qayəsini təsdiqləyir.

Millilik hissi, milli mənəvi dəyərlərə diqqət və qayğı Heydər Əliyev xarakterinin və siyas idarəçilik məktəbinin ən mühüm təlimlərindən biri olaraq təcrübədə təsdiqlənmiş və tarixə iz salmışdır. Heydər Əliyev milliliyə-identikliyin bütün sahələrinə bağlılığını milli etnosdan, milli dildən, milli adət-ənənələrdən, milli rənarəng

sənətkarlıq sahəsindən, milili bayramlar, milli rəmzlər, milli dövlət atributlarına diqqətindən tutmuş daxili və xarici siyasətdə, iqtisadiyyat, din, dil, təhsil və s. çox müxtəlif istiqamətlərdə dinamik inkişafla təsdiq etmişdir.

Heydər Əliyev müdrik siyasi idarəçilik sistemində ən əsas proqram, Heydərizmin ən əsas prinsipi isə sözsüzdür ki, millilik, tarixilik, xalq, onun keçmişi, gələcəyi, yeraltı və yerüstü sərvətləri qarışıq bütün milli varlığında cəmlənən Azərbaycançılıq ideyası idi.

Bu bir reallıq və həqiqətdir ki, Ulu öndər Heydər Əliyevin 40 il ərzində bütün qüvvəsi ilə, öz mənafeini, hətta öz təhlükəsizliyini gözləmədən belə güclü eridutsiya ilə yaratdığı Azərbaycançılıq milli ideyası Dövləti Millətdə, Milləti Dövlətdə və bu iki nəhəng gücü Milli Lider amilində birləşdirən müdrik siyasətin zirvə nöqtəsidir.

Bu baxımdan görkəmli dövlət xadimi, akademik İsa Həbibbəylinin Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev haqqında elmi-obyektiv qənaəti çox xarakterikdir: "Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, həyatını bütünlüklə xalqına və ölkəsinə həsr etmişdir. Xalqın mənafeyini hər şeydən üstün tutmuş Ulu öndərin "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri atalar sözünə çevrilmişdir: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam" - kimi fikirləri görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq təliminin dərinliyini və dönməzliyini, əbədiyaşarlığını bütün ruhu ilə ifadə edir"(30).

Heydər Əliyevin 2001-ci avqustun 13-də idarəçiliyə tətbiq, ictimaiyətə təqdim olunan milli mənəvi dəyərlərin qorunması ilə bağlı son dərəcə dərin məzmunlu tarixi bəyanatı da onun müdrik Milli Lider olmasını əsaslandırır. Həmin bəyanatda Heydər Əliyevin zəkasından qopmuş, fiziki ömrünün son illərində şərh olunsa da bütün həyatı və siyasi fəaliyyəti boyu daima təkrarlanmış və real hadisələrlə təsdiqini tapmış aşağıdakı iqtibasda cəmlənmiş fikirlərini nəzərdən keçirək: "...biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir.Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə,saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik" (6).

Sözün həqiqi mənasında XX əsr Azərbaycanın ictimai-siyasi, mədəni həyatında Ulu öndərlik missiyasını həyata keçirmək üçün sanki ilahi qüvvənin qüdrəti ilə seçilmiş dünya şöhrətli siyasətçi, ümummilli Lider, çoxmilyonlu Azərbaycan xalqının inandığı, yekdilliklə səs verdiyi Ulu öndər Heydər Əliyevin ziyalılıq probleminə münasibəti, onu şərh və qiymətləndirməsi, başqa cür desək, Ziyalı sözünün əhəmiyyətli dərəcədə düzgün və dolğun tərifini verməsi xüsusilə maraq doğurur. Belə ki, Ulu öndər 1995-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinin ilk iclasındakı nitqində demişdir. "Hər bir xalqın onu təmsil edən qüvvələri var, onlar da bir gündə meydana çıxan qüvvələr deyil. Xalq öz içində illər boyu,əsrlər boyu istedadlı, bacarıqlı insanları, yüksək təhsilə malik olan, yüksək intelektə malik olan, yüksək tərbiyəyə malik olan, yüksək əxlaqa malik olan insanları yetişdirir və onlar xalqın tanınmış adamları, ziyalı adamları hesab olunur. Ziyalı sözü məhz bu mənanı daşıyır və bu baxımdan hesab edirəm ki, yeni seçilmiş parlament Azərbaycanın, xalqımızın intelektual səviyyəsini, mədəni səviyyəsini, əxlaqımızın mənəvi varlığını təmin edən, təcəssüm edən bir parlamentdir"(18).

Heydər Əliyevin ziyalılara münasibəti baxımından aşağıdakı iqtibasda verilmiş fikirlər də Heydərizmin vətəndaş-əxlaq münasibətləri prizmasından prinsipal mahiyyətdə özünü doğruldur.

"Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir - bunlar fitri istedada malik olan nadir adamlardır və

öz mədəniyyəti, yaradıcılığı, ziyalılığı, fəaliyyəti ilə bizim cəmiyyətimizin mədəni səviyyəsini qaldırır. Bu adamları təhqir etmək, onlara hörmət etməmək cəmiyyətimizdə rast gəlinən eybəcərliklərdəndi. Biz bunlara son qoymalıyıq"(18)

Ulu öndərin həmin fikirlərinin davamında cəmiyyət qarşısında qoyduğu tələblər artıq vətəndaş ziyalının şəxsiyyət azadlığını və bütün insan hüquqlarını ehtiva etməsi baxımından son dərəcə qiymətlidir: "Ziyalının hörməti qalxmalıdır, müəllimin hörməti qalxmalıdır, şairin, yazıçın, alimin hörməti qalxmalıdır. Onlara hörmət olmalıdır. Həmişə bu məsələ məni narahat edir. Bu şübhəsiz ki, sizdən asılı deyil - siz hamınız ziyalı adamlarsınız. Bu bizim cəmiyyətdən asılı deyil, bizdən asılıdır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalıların cəmiyyətdə hörmətini qaldıraq" (18).

Heydər Əliyevin, bütövlükdə Heydərizmin ziyalılara müraciət məsələsində dialoq xarakteri, xalqla, millətlə dövlət və hakimiyyət əlaqələri, əsas məqsəd və ideyaya bağlılıq amili də önə çəkilməklə qarşılıqlı surətdə dövləti gücləndirmək missiyasını ehtiva edir.Məsələn, aşağıdakı iqtibasda ziyalıların dövlət quruculuğuna dəstək olması vəzifəsi belə məntiqi-obyektiv şəkildə irəli sürülür: "Ancaq siz də çalışmalısız. O tərəfdən də, bu tərəfdən də təşəbbüs olmalıdır ki, bu işləri görək. Məhz bu yolla-mədəniyyətin, ədəbiyyatın, təsiri ilə biz cəmiyyətimizdə olan mənfi halları, bizi biabır edən halları aradan götürəcəyik. Cəmiyyətimiz sağlamlaşacaq. Müstəqil dövlətimiz yaşayacaq, böyüyəcək, inkişaf edəcəkdir!"(18).

Heydər Əliyevin Respublikaya hələ sovet dövrü siyasi rəhbərliyi illərində xalqının elminə və konkret alimlərə qarşı böyük diqqəti, qayğısı olmuş, eyni zamanda bu sahənin inkişafı məqsədi ilə ümummilli lider mühüm işlər görmüşdür. Məsələn, 1969-cu ildə Azərbaycan Sov.İKP-nin birinci katibi seçilən Heydər Əliyev elə həmin ilin avqust plenumunda bu sahənin problemlərini və qarşıda dayanan məqsəd və vəzifələri müəyyənləşdirmişdi: "Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər... Dissertasiyaların heç də hamısı lazımi nəzəri səviyyədə yazılmır. Aspiranturada vəziyyət yaxşı deyildir... Alimlik dərəcəsi alanlar arasında nazirliklərin və digər mərkəzi idarələrin rəhbər işçiləri də az deyildir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən zənginləşdirməyə, irəlilətməyə qabil olan adamlar gəlsinlər..." (22).

Akademik İsmayıl Hacıyevin "Heydər Əliyev və Azərbaycan elminin inkişafı" məqaləsində yuxarıdakı iqtibasda şərh olunan nöqsanaların 70-80-cı illərdə məhz ölkə rəhbəri Heydər Əliyevin xüsusi diqqəti və nəzarəti sayəsində sürətlə aradan qaldırıldığına dair göstərdiyi statistik dəlillər Ulu öndərin hələ avtoritar siyasi sistem içərisində milli lider kimi fenomen xüsusiyyətlərini ifadə edir.

"Ümummilli lider Azərbaycanı ölkə elminin mərkəzlərindən birinə çevirmək məqsədilə elmi-tədqiqat institutlarının, elmi işçilərin sayının artırılmasına çalışır və onlara qayğı göstərirdi. Bu sahədə onun fəaliyyəti kifayət qədər uğurlu idi. Əgər 1969-cu ildə Azərbaycanda fəaliyyət göstərən 89 elmi-tədqiqat institutlarında, digər layihə müəssisələri və problem laboratoriyalarında 12850 elmi işçi, o cümlədən 55 akademik və müxbir üzvü, 329 elmlər doktoru və 3000 elmlər namizədi var idisə, 1978-ci ildə elmi-tədqiqat, layihə və sahə institutlarının sayı 118-ə, elmi işçilərin sayı 21407 nəfərə, akademik və müxbir üzvlər 100 nəfərə, elmlər doktorları 853, elmlər namizədlərinin sayı 7594 nəfərə çatmışdı"(220).

Məlumdur ki, ölkə ziyalılarının yüksək faizlə təmsil olunduqları Azərbaycan Milli Elmlər Akademiyası Heydər Əliyevin xalqın ümumi arzusu və tələbi ilə ikinci dəfə hakimiyyətə gəldiyi vaxta qədər naşı siyasi rəhbərliyin əlində maqar oyuncuğuna dönmüşdü. Təcrübəsiz, əksəriyyətlə savadsız və siyasətdən, dövlət quruculuğundan tam xəbərsiz bu müvəqqəti "hakimlər" sovet hakimiyyəti vaxtında yaranıb inkişaf etmiş və təşəkkülünün yarım əsrlik tarixi ərəfəsində nəhəng palıda bənzəyən Azərbaycan elminin, əsl alimlərin mənəvi genosidini reallaşdırmaq niyyəti ilə Azərbaycan Elmlər Akademiyasını bağlayacaqlarını bəyan edir, bununla xalqın ziyalı "mənini" sarsıdırdılar. Belə bir vaxtda – 1993-cü il sentyabr ayının 31-ində

Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasına - daim güc aldığı, daim etibar etdiyi, inandığı və arxalandığı ziyalıları ilə görüşə gəldi və onlarla bu tarixi görüşünü “böyük bayram adlandırmaqla” bir anda ölkənin ən sadə, ən müdrik, ən məsuliyyətli və cəfakeş vətəndaşlarının narahatlığına, nigarançılığına təskinlik, ümid duyğuları ilə son qoymuş oldu. Böyük Ziyalı Heydər Əliyev alimlərlə görüşdə həmin məsələləri vurğulamaqla problemlə bağlı öz qəti və prinsipal mövqeyini bildirmişdir: “Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir.

Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki. Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir" (15.162). İqtibasdan da göründüyü kimi Heydər Əliyevin xalqın elmi təfəkkür sahəsinə xüsusi diqqət və qayğısı dövlət quruculuğunun əsas prinsiplərindən biri olmuşdur ki, bu Heydərizmi ifadə edən önəmli amillərdən biri olaraq bu gün də öz əhəmiyyətini qoruyur.

Heydər Əliyevin 1996 cı il 2 fevral tarixində müstəqil Respublika Gənclərinin I formunda etdiyi dərin məzmunlu və dəyərini həmişə qoruyub saxlayacaq tarixi nitqində də Heydərizm nəzəriyyəsnə öz əlavəsini etmişdir.

Xalqın və müstəqil respublikanın gələcək vətəndaşlarına müraciətlə səslənmiş həmin müdrik fikirləri burada yada salmaq yerinə düşər. “Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir, Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır”(6).

Milli tariximizi öyrənməyə çağıran, vətənpərvərlik maariflənməsini əsas dövlət quruculuğu prinsipi olaraq irəli sürən Ulu öndərin bu düşüncələri də Heydərizmin müdriklik qayəsini tamamlayır: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq- budur vətənpərvərlik”(6).

Əlbəttə bütün həyatı və siyasi rəhbərliyi dövründə xalqın mənəvi dəyərlərinə bağlı olmuş, milli mirasa daim sahib çıxmış, eyni zamanda xalqla bərabər olmuş, ən çətin vaxtlarında xalqdan güc almış Ulu öndər Heydər Əliyevin güclü siyasi lider kimi və həmçinin Heydərizm konsepsiyasının düzgün və dərindən dərki üçün siyasi nəzəriyyələr tarixində liderlik hadisəsinin təhlillərində xüsusi önəm daşıyan Rasional Lider kimi, çox müxtəlif sosial-psixoloji, sosial-mədəni, əxlaqi-mənəvi keyfiyyətləri birləşdirən Xarizmalı lider xarakteri və xüsusiyyətlərini nəzərə almaq mühümdür.

Qədim yunan sözü olan “xarizma” əsas Allah vergisi mənasını daşıdığı üçün biz ilk növbədə Ulu öndər Heydər Əliyevin təbiətən inanclı şəxsiyyət olmasını, xalqın dini hissinə ehtiram bəsləməsini, müqəddəs İslam dinini daim nitq və çıxışlarında yüksək qiymətləndirməsini yada salmaqla Heydərizmin mahiyyətində dayanan bu mühüm əsası önə çəkməyi məqsədəuyğun hesab edirik. Məsələn, Heydərizm bütün xarizmalı liderlərə xas kütləni qeyri-adi qüvvənin təsiri ilə irəli ararakən forma ümumiliyinə əsaslanmır, həmçiniin qəhrəmanlıq, azadlıq, milli mentalitet, əxlaq, mənəviyyat, inanc və b. keyfiyyətlərdə üstünlüyü ilə fərqlənir.

Bu baxımdan Heydər Əliyevin inanclı şəxs olması xarakterik keyfiyyətləri həm xarizmalı lider fenomenini həm də Heydərizmin əsas qa-

yəsini tamamlayır. Məsələn, Ulu öndər müsəlmanların müqəddəs Həcc ziyarətinə də getmiş və Kəbədə hamı ilə bərabər namaz qılmışdı. Onun dinə, şəriətə münasibətinə aid çoxsaylı misallar da vardır və bu məqamda həmin müdrik fikirlərdən biri, 1994-cü il iyunun 20-də Təzəpir məscidində Aşura günü münasibətilə mərasimdə Ulu öndərin çıxışından bir lokonik misalla bunu təsdiqləyə bilərik: "Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm. Bütün müsəlmanlar, o cümlədən biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da Qurani-Şərifın, Həzrəti Məhəmməd peyğəmbərin (s) qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şahidliyini heç vaxt unutmayacağıq"(24).

Beləliklə, Xarizmalı liderlik nəzəriyyəsini klassik alman filosofu Kantın "Azadlıq gücü"- əsərindən qaynaqlanan "özünəməxsus özünütərbiyə konsepsiyası"ilə zənginləşdirmiş F.Nitşenin "içlərindəki qulu məhv edə bilmək" ideyası burada Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin 1990-cı ilin 20 yanvar tarixində Sovet Ordusunun əliyalın Azərbaycan xalqına qəddarcasına divan tutmasına etiraz olaraq (Cəsarətliliyinin SSRİ Nazirlər Sovetindəki yüksək vəzifəsindən, Siyasi Büro və Sov.İKP MK üzvlüyündən azad edilməsi kimi "nəticələrinə" baxmayaraq-X.Q.) faciədən 2 gün sonra, səhhəti ilə bağlı sanatoriyada olduğu ərəfədə Moskvada Azərbaycan SSR-in daimi nümayəndəliyinə gələrək M. Qorbaçovun birbaşa göstərişi ilə həyata keçirilmiş bu tarixi (əsl) terror hadisəəsini kəskin tənqid etməsi kimi zamanına və hər zamana görə böyük bir qəhrəmanlıq xarizması ilə də təsdiqlənir.

Tarixən təsdiqlənmiş həqiqətdir ki, hər hansı bir xalqın, millətin, hətta kiçik etnik toplumların özünüdərk və milli özünütəsdiqində milli identiklik hadisəsi həmişə öndə dayanmış, terminin ifadə anlamlarından biri olan kimlik mənasında çıxış etmişdir. Bunu identikliyin müxtəlif tiplərinin, məsələn fərd, ailə, vətəndaş, geosiyasi, etnomilli identiklik mənalarının izahında dolğun şərh və izah etmək olar.

Məlumdur ki, milli identiklik,- milli özünüdərk və özünütəsdiqin bariz izahı kimi hər dövlətin vətəndaşlarının ideya yolunu müəyyən edir. Eyni zamanda aşağıdakı iqtibasda ifadə olunan fikirlər Ulu öndərin fərdi milli identiklik xüsusiyyətlərini aydın surətdə təsdiqləyir: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"(20).

Bu məqamda Ulu öndər Heydər Əliyevin xalqımızın yaddaşına tarixi milli proqram xarakterində iz salmış dəyərli fikirləri yada düşür. Belə ki, Heydər Əliyev 1993-cü ildə Respublikanın Ali Sovetində Gənclərin nümayəndələri ilə görüşdə "Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir" (15.s.174., 175)- kimi müstəqil Azərbaycan dövlətinin milli ideya məsələsi haqqında müdrik siyasətçi və həmçinin müdrik filosof ideyalarını bölüşmüşdür ki, bu konsepsiya birbaşa Azərbaycanın gələcəyi olan gənclərə "İndiki ideyamız isə milli tarixi ənənələrin, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdıqları bəşəri dəyərlər əsasında, Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsrəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir" (15.s.174.,175)-düşüncəsini, maarifçiliyini aşılayır və Ulu öndərin 10 il

sonra bütün Azərbaycan cəmiyyətinə daha konkret olaraq bəyan edəcəyi "Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası Azərbaycançılıqdır" (26) - ideya və ideologiyasına – bugündən baxdıqda Heydərizmin əsaslanmasına real zəmin yaradırdı.

"Azərbaycançılıq" – bu ideya və ideologiya tarixin yetirdiyi, zamanında tarix yazmış və özlərindən sonra böyük intibah gücünə malik sistemləri ilə yadda qalan fenomen liderlər timsalında Ulu öndərin ən ali siyasi məqsədi - milli dövlət quruculuğu konsepsiyasının, milli dövlət siyasətinin əsas prinsipi kimi səciyyələnir və fəlsəfi-siyasi baxımdan böyük əhəmiyyət kəsb edir.

Beləcə, müstəqil respublikanın milli siyasi ideologiyasını, idarəçilik strategiyasını xalqımızın milli- mənəvi əsasları üzərində düşünən Heydər Əliyevin nəhayət millət-dövlət, xalq və hakimiyyət vəhdətindən qaynaqlanan və hər cümləsindən müdrik Ulu öndər, ümummilli Lider missiyası ucalan "Azərbaycan Xalqına Müraciət"i Azərbaycanın müstəqil dövlət quruculuğunun əsl salnaməsi mahiyyətində olan Heydərizmin təsdiqi baxımından böyük əhəmiyyət kəsb edir.

Heydər Əliyevin əziz xalqına, həmvətənlərinə nəsihət-vəsiyyət etdiyi - bütün Azərbaycan Xalqına Son Müraciəti də onun missiyasını, müdrik siyasi Lider fenomenini dolğunluqla tamamlayır .

Çox xarakterik haldır ki, xalqımızın görkəmli şəxsiyyəti, XX əsrin ən qüdrətli siyasətçisi kimi dünya siyasət tarixinə dərin iz salmış Heydər Əliyevin bu Müraciətinin yekun hissəsi, son nəticə, "nöqtə" mənasında - sonluq mahiyyətində deyil, davam, gələcəyə böyük inam ruhundadır. Buradaca dünya siyasətşünaslığının xarizmalı lider tipinin mühüm prinsiplərnindən birini yada salmaq istərdik. Beləki, elmi nəzəriyyəyə görə "xarizmalı liderlər davamçılarını öyrədirlər, yetişdirirlər, müdafiə edirlər və eyni zamanda öz zəfərlərini paylaşırlar" (9) .

Bu nöqteyi-nəzərdən deyə bilərik ki, Ulu öndərin Xalqa Müraciətindəki, nəticə hissəsi onun davamçısını təqdim etmək və nikbin şəkildə estafetin ötürülməsi, deməli öz müdrik milli lider yolunun davamı, başqa bir tərəfdən tamamlanmalı böyük məqsədlərə doğru əsl yenilənmə-başlanğıc mahiyyətində sırf siyasi-nəzəri mövqedən bir qərar idi. "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. .... Ümidvaraın ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərhaycan Partiyası bundan sonra da xalqımızım ən layiqli övladlarını Öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızım firavanlığı yolunda çox işlər görəcəklər. ...Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" (9).

Müdrik Heydərizm siyasi konsepsiyasının bir prinsipi də gələcəyə İnam hissidir. Budur! Bu müdrik, uzaqgörən düşüncədən ucalan inam artıq 20 illik, deməli heç də qısa olmayan bir müddətdə ölkənin bütün sahələrdə ən yüksək nəticələrdə əks olunan dinamik inkişafında öz təsdiqini tapmaqdadır və Ulu öndərin sonsuz fədakarlıqlar bahasına qurduğu gənc Müstəqil Azərbaycan Respublikası onun inandığı, etibar etdiyi həqiqi və siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük intellektual siyasi idarəçilik gücü, xalqla həmrəylik, dünya ictimai-siyasi düşüncəsinin modern cəmiyyət standartlarına uyğun şəkildə yeritdiyi ənənəvi milli, rasional-hüquqi modern idarəçilik siyasəti ilə XXI əsrin yeni onilliklərinə doğru addımlamaqdadır.

**Nəticə**

Beləliklə, biz Azərbaycan, onun tarixi, dövlətçiliyimiz, milli ideyamız, milli şüurumuz, bütövlükdə milli varlığımızla bağlı zəngin salnamə dəyərində Ulu öndər Heydər Əliyevin siyasi irsinə əsaslanan Heydərizm siyasi konspsiyasını "Heydərizm konsepsiyası (problemə giriş)" məqaləsində elmi məqalə formasının həcm imkanları daxilində hətta formatı aşaraq əhatələməyə çalışdıq.

Lakin etiraf etməliyik ki, bu əhəmiyyətli mövzu elə geniş və dolğundur ki, onu bir məqalə, hətta bir monoqrafiya həcmində tədqiq etmək çox çətindir. Son dərəcədə aktuallıq kəsb

edən bu elmi mövzu haqqında yalnız qısa və konkret bu elmi qənaəti bölüşmək istərdik ki, Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin müdrik siyasətinin gücü Müstəqil Azərbaycan Respublikasının və onun çoxmilyonlu vətəndaşlarının arxada qalan bir qərinəlik tarixdə və həmçinin bu günü və sabahının monolit qarantı olmasında təsdiqlənir.

Elmi-obyektiv təhlillərimizlə gəldiyimiz ümumi elmi-obyektif bir nəticə də bundan ibarətdir ki, Heydərizm konsepsiyası Ulu öndəri Heydər Əliyevin siyasi idarəçilik strategiyasını modern dünya siyasetinə tam tətbiqinə, yeni dünya nizamında Liderlik modeli kimi qiymətləndirilməsinə ciddi əsaslar verir. Eyni zamanda bu il 100 illiyi qeyd olunan Azərbaycan Respublikasının ümumilli Lideri – çoxmilyonlu Azərbaycan xalqının müdrik Ulu öndəri Heydər Əliyevin siyasi məktəbinin nəzəri və təcrübi mahiyyətdə xəritəsi olan Heydərizm konsepsiyasının elm inteqrasiyası ilə dünya ictimai-siyasi elmi fikrində geniş və məzmunlu təbliği yeni-yeni dəyərli elmi əsərlərin meydana çıxmasına, elm tarixinin zənginləşməsinə təkan vermiş olar.

### Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitutsiyası. http://azerbaijan.az/portal/General/Constitution/doc/konstitutsiya.pdf.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi. Bakı - "Respublika" sarayı, 10 oktyabr 1993-cü il http://lib.aliyevheritage.org/az/66679364.html
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda nitqi - Respublika Sarayı, 2 fevral 1996-cı il. http://lib.aliyevheritage.org/az/1228447.html
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996. Bakıda Türk Yazıçılarının III qurultayında nitqi http://elibrary.bsu.az/yenii/ebookspdf/H.%C6-%8Fliyev_8ci_kitab.pdf
5. Azərbaycan Milli Elmlər Akademiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 15 may 2001-ci il., № 484. http://www.e-qanun.az/framework/2992
6. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bəyanatı.13 avqyst 2001-ci il.http://lib.aliyevheritage.org/az/8137356.html
7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev: "Biz həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və həzrət İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq http://deyerler.org/113679-heydjrzhliyev-biz-hjzrjt-mjhjmmjdpeydjmbjrin-qoydudu-yol-ilj-gedjcjk-vj-hjzrjt-dmam-hgseynin-vj-onun-bgtgn-silahdaela rd ndnqjhrjmanldddnd-ejhidliyini-heg-vaxt-unut-mayacaddq.html
8. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az/framework/1865
9. Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Azərbaycan xalqına Müraciət http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf
10. Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 2003-cü il 31 oktyar tarixində And içmə mərasimindəki nitqi http://files.preslib.az/site/ialiyev/2003.pdf
11. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə İlham Əliyevin nitqi. http://www.president.az/articles/8098
12. Azərbaycan Respublikası prezidenti İlham Əliyevin 2018-ci il 18 aprel tarixində And içmə mərasimindəki nitqi. https://www.president.az/articles/28019
13. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) – (Azərnəşr, Bakı, 1993, I cild, səh.201) http://lib.aliyevheritage.org/az/66679364.html)
14. Heydər Əliyev müdrik fikirlər. http://www.heydar-aliyev-foundation. org/az/ content/ index/85/
15. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Bakı., Azərnəşr.1997.
16. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 3-cü kitab, Bakı, Azərnəşr, 1997.
17. Heydər Əliyev Müstəqilliyimiz əbədidir .5-cikitab, Bakı; Azərnəşr-1998.500 s.

18. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı; Azərnəşr 1998.s. 16. səh.488

19. 1994-1996-cı illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində atılan addımlar və ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşü (2-3 dekabr 1996-cı il). http://lib.aliyev-heritage.org/az/5718479.html.

20. Heydər Əliyevin Dünya Azərbaycanlılarının 1-ci qurultayında nitqi https://az.wikisource.org/wiki/D%C3%BCn-ya_Az%C9%99rbaycanl%C4%B1lar nitqi

21. Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=21280.

22. Hacıyev İsmayıl. Heydər Əliyev və Azərbaycan elminin inkişafı. http://www.xalqqazeti.com /az/ news/ politics /71061

23. Həbibbəyli İsa. "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr". Naxçıvan.2013

24. Babayev Hacı Xanəli Mənəvi özünüdərk nümunəsi.Bakı- Borçalı, 2004. 144 səh http://-ebooks.azlibnet.az/book/191907201733.pdf.

25. Mehdiyev R. Milli intibah. Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan – Ümummilli Lider Heydər Əliyevin qadir siyasətidir.http://files.preslib.az/projects/toplu/books/45.pdf

26. Mehdiyev Ramiz. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi Bakı, BDU nəşriyyatı-2002. 232 s.

27. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: yanvar 2002-dekabr 2006: I cild Bakı. 2006; 2007

28. Quliyeva Xatirə Heydər Əliyev və mənəvi-estetik dəyərlər.Bakı,Azərnəşr.2002.

29. Quliyeva Xatirə. Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Bakı,2019.səh.47.416 səh.

30. Naxçıvan Muxtar Respublikası Heydər Əliyev dövründə(1991-1993). http://www.nax-representation.com/nuh_leader.php

31. Sipovski V. Sokrat və onun dövrü. B.. "Elm", 1995

32. Гилберт К.КУН Г.История эстетики. М.изд.Инд.1960, с.(32.37).

33. Если бы Гейдар Алиев стал президентом СССР https://ok. ru/bizim killer/ topic /75 63 61 43 366144

34. Панфилова Виктория. Формула успеха Гейдара Алиева http://vestikavkaza.ru/articles/Formula-uspekha-Geydara-Alieva-1.html

35. Странитцы.http://www.sultanov.azeriland.com/books/protivostoyanie/pages/page04html

36. Харизматическое лидерство: еще один шаг к пониманию. http://www.elitarium.ru/liderstvo-harizma-kachestva-rukovoditel-vlijanie-priznanie-sposobnosti/)

37. Demiriz Sara-Marie. Kemalism – The Turkish Model of a Secular Republic http://ieg-ego.eu/en/threads/models-and-stereot yp es/from-the-turkish-menace-to-orientalism/sara-marie-demiriz-kemalism-the-turkish model-of-a-secular-republic

38. History & Society Satyagraha philosophy. https://www.britannica.com/topic/satyagraha-philosophy

## Резюме

### Хатира Гулиева

### Понятие Гейдаризма (Введение в проблему)

Хотя написаны сотни работ, касающихся политики, а также «измов», относящихся к политическим и теоретическим школам, и созданы богатые библиотеки, эта человеческая проблема открывала путь важным мыслям в каждый период, на каждом историческом этапе и в в сознании каждого государства и народа, а также и для более новых - сохраняет свое значение как явление, стимулировавшее появление новых исследований.

С этой точки зрения, в число тем, актуальных в междисциплинарной научной системе мирового общественного мнения, входит Гейдар Алирза оглы Алиев, великий лидер Азербайджанского народа, историческая личность, осуществившая миссию становления и создания независимое государство своего народа и завоевавший при жизни титулы «великого лидера, главы государства, отца. Стратегия политического управления – гейдаризм – это богатый источник для серьезных исследований, но также и ценная школа, путь политики, который принесет пользу как сегодняшнему, так и будущему миру политики.

Для понимания гейдаризма в научно-теоретическом контексте философские течения, возникшие с древнейших времен до модернизма и прославившиеся многими «измами», а также известные философы, исторические деятели, всемирно известные политические лидеры, в том числе Махатма Ганди, Мустафа Кемаль Ататюрк деятельность национального лидера, основанные на нем политические школы - гандизм, кемализм, а также марксизм, являющийся основой нового мирового конфликта и т. д. Также большое значение имеют модели политической стратегии, изучаемые и применяемые под названием «нео».

Разумеется, в одной статье невозможно проанализировать и обосновать научно-методологические теории, известные в сущности школе исторического опыта со значением суффикса «Изм», а также концепцию «гейдаризма» как лидерства. мировоззрение, принципы и положения этой огромной школы. Поэтому статья называется «Концепция «гейдаризма (Введение в проблему)», и мы изложим наши идеи, подходы и полученные результаты в рамках содержания, выраженного этим названием.


***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, концепция Гейдаризма, кемализм, гандизм.*


## Summary

### Khatira Guliyeva

### The concept of Heydarısm (Introduction to the Problem)

Although hundreds of works related to politics and "isms" related to political schools have been written, and rich libraries have been created, this human problem has led to important thoughts in the minds of every state and people in every period, every historical stage, and has also led to new researches. maintains its importance as a phenomenon that gave rise to it.

From this point of view, among the topics that are relevant in the interdisciplinary scientific system of the world public opinion is Heydar Alirza oglu Aliyev, the great leader of the Azerbaijani people, a historical figure, who carried out the mission of establishing and creating an independent state of his people and who won the titles of "great leader, head of state, father, great leader" during his lifetime. The Strategy of Political Governance - Heydarism is a rich source for serious research,

but also a valuable school from which the world of politics, both today and in the future, will benefit.

In order to understand Heydarism in a scientific-theoretical context, philosophical currents and famous philosophers, historical figures, world-famous political leaders, including Mahatma Gandhi, Mustafa Kemal Atatürk, national state, national leader, which appeared from ancient times to modernism and are famous for many "isms" political schools that include activities - Gandhism, Kemalism, as well as Marxism, which is the basis of the new world order, etc. of great importance in modern timesis.

Of course, it is impossible to analyze and justify the scientific-methodological theories known in the essence of the school with the meaning of the suffix "Izm" in one article, as well as the concept of "Heydarism" as a leadership worldview, the principles and provisions of this huge school. Therefore, the article is called "Heiderism Concept Introduction to the Problem" and we will present our ideas, approaches, and results obtained within the content expressed by this title.

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, concept of Heydarism, Kemalism, Gandhism*

**UOT 342; 349**
**https://doi.org/10.59849/2710-0820.2023.2.214**

**Oruc Məmmədov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Biznesin idarə edilməsi kafedrasının dosenti*
*oruc_mammadov@mail.ru*
*Azərbaycan*

# KORRUPSİYA HÜQUQPOZMALARINA GÖRƏ DÖVLƏT QULLUQÇULARININ XÜSUSİ NÖV İNTİZAM MƏSULİYYƏTİ: NƏZƏRİ-HÜQUQİ MODELİ

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət qulluqçusu, korrupsiya hüquqpozmaları, xüsusi növ intizam məsuliyyəti*

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə korrupsiyaya qarşı mübarizəyə dair məsələ hər bir dövlətin qarşısında duran həlli zəruri olan aktual problemlərdən biri hesab edilir. Buna görə də, müasir dünyanın hər bir ölkəsində və beynəlxalq təşkilatlarda korrupsiyaya qarşı mübarizə geniş vüsət almış, dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə məsuliyyətinin daha da artırılması, milli və beynəlxalq qanunvericilik bazasının təkmilləşdirilməsi aktual və həlli zəruri olan problemlərdən birinə çevrilmişdir. Təbii və qaçılmaz olaraq bu problem Azərbaycan Respublikasında da bu və ya digər dərəcədə mövcuddur. Lakin, müsbət hal kimi qeyd etmək lazımdır ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirləri dövlət rəhbərliyinin daimi diqqət mərkəzində olmuşdur. Azərbayanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda isə bu siyasət Prezident İlham Əliyev cənabları tərəfindən əzmlə, uğurla davam və inkişaf etdirilərək qətiyyətlə həyata keçirilir, qanunvericilik bazası təkmilləşdirilir, əməli tədbirlər görülür və bir sıra səmərəli institusional mexanizmlər tətbiq edilir.

Dövlət qulluqçularının hüquqi statusunun tərkib elementləri, dövlət və cəmiyyət qarşısındakı öhdəlikləri onların sosial məsuliyyətinin mürəkkəbliyi ilə xarakterizə edilir. Dövlət qulluqçularının hüquqi məsuliyyəti sistemində korrupsiya ilə əlaqədar hüquqpozmaları öz məzmununa və növ müxtəlifliyinə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin bütün növləri dövlət qulluğu sistemində təzahür edir. Bu cəhət dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının səlahiyyət həddi və məsuliyyətinin dərəcəsi ilə xarakterizə edilir. Fikrimizcə, dövlət qulluqçularının intizam məsuliyyətini həm ümumi, həm də xüsusi aspektdə xarakterizə etmək olar. Bu baxımdan demək olar ki, müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının hüquqi məsuliyyətinin xüsusiyyətlərinin, onun intizam məsuliyyəti ilə qarşılıqlı əlaqəsinin və xüsusi növ intizam məsuliyyəti kimi xarakterik cəhətlərinin elmi təhlili böyük maraq kəsb edir.

“Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı”nda “Dövlət qulluqçularının intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi”nə dair məsələ öz əksini tapmışdır (6.2-ci yarımbənd) [6]. Fikrimizcə, bu fakt seçilmiş mövzunun aktuallığını xarakterizə edən əsas cəhətlərdən biridir.

Yuxarıda qeyd edilən amillər belə qənaətə gəlməyə əsas verir ki, müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair məsələ elmi-nəzəri və təcrübi baxımdan **aktuallığı** ilə seçilir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətinin ümumnəzəri, hüquqi və təcrübi aspektlərinə dair məsələ bu və ya digər dərəcədə elmi cəhətdən təhlil edilmişdir. Belə ki, dövlət qulluqçularının intizam məsuliyyətinin ümumnəzəri və təcrübi aspektləri: Ə.H.Rzayev, C.S.Vəliyeva, O.C.Məmmədov, M.B.Dobrobaba, S.Y.Çannov, M.V.Presnyakov, V.İ.Mayorov, R.A.Pestov, E.L.Leşina, A.Y.Pankratov, E.İ.Slepnyeva, S.A.Savin, S.S.Tereşuk, L.A.Çernışeva, M.A.Jiltsov və s. müəlliflərin əsərlərində araşdırılmışdır. Lakin, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair məsələyə toxunulmamış, əsaslı təhlillər aparılmamış, onun müasir konsepsiyası ifadə edilməmiş və nəzəri-hüquqi modeli formalaşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti üzrə yaranan ictimai münasibətlər təşkil edir, predmetini isə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətini şərtləndirən beynəlxalq hüquqi aktlarda və Azərbaycan Respublikasının qanunvericiliyində təsbit olunan hüquqi normalar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın **məqsədi** korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinə dair elmi və normativ müddəaların təhlilindən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat zamanı qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur: korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair - dövlət siyasətinin nəzərdən keçirilməsi; elmi-nəzəri baxışların ümumiləşdirilməsi; qanunvericilik bazasının təhlil edilməsi; dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin tərkib elementlərinin müəyyən edilməsi; onun müasir nəzəri-hüquqi modelinin formalaşdırılmasına aid müddəaların ifadə edilməsi və qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsi.

**Tədqiqat metodları.** Tədqiqatın **nəzəri-metodoloji əsasını** idrakın ümumi elmi metodları, o cümlədən obyektivlik, ardıcıllıq, elmi-nəzəri və normativ hüquqi mənbələrin təhlili, ümumiləşdirmə, hüquq tətbiqetmə təcrübəsinin təhlili, xüsusi elmi metodlar, müqayisəli-hüquqi metod, hüquqi şərh və s. təşkil edir. Seçilmiş metodların kompleks şəkildə tətbiqi korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinin formalaşdırılması və qanunvericiliyin təkmilləşdirilməsi üzrə müəyyən nəticələrə gəlməyə, ümumiləşdirmələr aparmağa və praktiki tövsiyələr təqdim etməyə imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi onunla şərtlənir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modeli ilk dəfə olaraq sistemli şəkildə təhlil edilir. Bu amil Azərbaycan hüquq elmi üçün seçilmiş mövzunun **aktuallığını**, onun təhlilinin zəruriliyini, **elmi yeniliyini** və **təcrübi əhəmiyyətini** özündə ehtiva edir.

**Əsas materialın şərhi.** Təəssüflə qeyd etmək lazımdır ki, müasir dövrdə korrupsiya problemi hər bir dövlətdə aşkar formada özünü biruzə verir, korrupsiya, o cümlədən siyasi korrupsiya beynəlxalq səviyyədə böyük təhlükəyə, bütün bəşəriyyət üçün açıq təhdidə çevrilibdir. "Siyasi korrupsiya hökumət siyasətinin, qərarların və qanunların manipulyasiyasını nəzərdə tutur. Bu yolla səlahiyyətli şəxslər atdıqları addımlarla vəzifələrini, statuslarını və ya sərvətlərini ya qoruyur, ya da artırırlar" [34]. Korrupsiya hər bir ölkənin təhlükəsizliyinə təhdid yaradır, cəmiyyətin inkişafına xələl yetirir, əlverişli biznes mühitinin yaranmasına mane olur və hüquqi nihilizmə gətirib çıxarır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən konstitusion islahatlar kompleksi inkişafın Azərbaycan modelinin formalaşmasında mühüm yer tutur. Konstitusion islahatlar sistemində elektron hüquq münasibətlərinin tətbiq edilməsi, dövlət hakimiyyəti, dövlət idarəetməsi və dövlət qulluğu sisteminin təkmilləşdirilməsi, dövlətin peşəkar kadrla təminatı, dövlət sektorunda sosial məsuliyyətin daha səmərəli bərqərar edilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, insan hüquqlarının asan hüquqi metodlarla

və müasir modellərlə təmin edilməsi, əlverişli biznes mühitinin yaradılması və s. əsas hədəflərdən biridir. Bu hədəflər sırasında dövlət hakimiyyəti, dövlət idarəetməsi və dövlət qulluğu sistemində dövlət vəzifəli şəxslərin, o cümlədən dövlət qulluqçularının hüquqi məsuliyyətinin artırılması böyük yer tutur.

Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının dövlətə, xalqa və bəşəriyyətə xidmət edən ülvi ideyaları, inkişafın Azərbaycan modelinin əsasını təşkil edən kompleks xarakterli islahatları Azərbaycanın dövlətçilik tarixində və ölkədaxili, regional və beynəlxalq ictimai-siyasi mühitdə **"İlham Əliyev islahatları", "Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** statusu qazanmış və dövlət başçıları üçün mütərəqqi təcrübə mənbəyinə çevrilmişdir. **"Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** özündə müasir Azərbaycanın inkişaf modelinin nümunəvi göstəricilərini, dünya liderləri üçün örnək olan dövlət idarəetmə metodlarını və institusional mexanizmləri ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən dövlət siyasətinə, o cümlədən dövlət vəzifəli şəxslərin fəaliyyətində şəffaflığın təmin edilməsinə dair dəyərli fikirləri, dövlət başçısı olaraq açıq mövqeyi böyük siyasi, hüquqi, mənəvi və elmi əhəmiyyət kəsb edir.

**Prezident İlham Əliyevin siyasi mövqeyi.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki nitqində (18 aprel 2018) ifadə etmişdir ki: "Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk" [15, s.206].

Prezident İlham Əliyev cənablarının yuxarıda istinad olunan elmi xarakterli, dəyərli fikirləri dövlət başçısının bəşəri bəla olan korrupsiyaya qarşı mübarizə sahəsində mövqeyini açıq ifadə edir, dövlət idarəetməsi və dövlət qulluğu sistemində, dövlət vəzifəli şəxslərin və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya səbəb ola biləcək halların qarşısının alınmasına, dövlət idarəetməsində səmərəliliyin təmin edilməsinə yönəlmişdir.

**İslahatların qısa xülasəsi.** Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə: "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"; "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)", "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı"; "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı isə vətəndaş məmnunluğunun təmin edilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan modelinin əsasını təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın "Dövlət qulluğunun inkişaf istiqamətləri" sırasında "Dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi (5.10-cu yarımbənd)" aşağıdakı kimi ifadə edilmişdir: "Dövlət qulluqçularının etik davranışı korrupsiyaya qarşı mübarizədə əsas alətlərdən biri olmaqla, dövlət qulluğuna ictimai etimadın və vətəndaş məmnunluğunun artırılmasında mühüm rol oynayır. Dövlət qulluqçuları vəzifə funksiyalarının icrası zamanı bu qaydaları və bu sahədə müəyyən edilmiş dəyərləri rəhbər tutmalı, dövlət orqanlarının rəhbərləri davranışları ilə tabeliyindəki dövlət qulluqçuları-

na nümunə olmalı, etik qaydaların tələblərinə onların əməl etməsini təmin etməlidirlər" [5].

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq edilibdir. Həmin Fəaliyyət Planının 6-cı bəndi "Dövlət qulluğuna dair normativ hüquqi aktların təkmilləşdirilməsi və onların icrasına nəzarət" adlanır. Burada "Dövlət qulluqçularının intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi"nə dair məsələ də öz əksini tapmışdır (6.2-ci yarımbənd) [6].

Fikrimizcə, həm Strategiyada, həm də, onun icrası ilə bağlı Fəaliyyət Planında nəzərdə tutulmuş dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin və intizam məsuliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair məsələ özündə xüsusi növ intizam məsuliyyətinin nəzəri-hüquqi modelinin yaranması üçün əsas hüquqi baza kimi çıxış edir.

**Nəzəri baxışların xülasəsi.** Hüquq nəzəriyyəsində intizam məsuliyyəti hüquqi məsuliyyətin növlərindən biri kimi təqdim edilir və haqlı olaraq "fiziki şəxsin əmək, xidməti, vəzifə öhdəliklərinin icrası ilə bağlı məsuliyyətindən ibarətdir" [50, s.281] kimi ifadə edilir. Elmi tədqiqatlarda dövlət qulluqçularının hüquqi məsuliyyətinin təbiətinə və növlərinə dair differensial yanaşmalar, fərqli baxışlar ifadə edilmiş, əsasən dar intizam spektrinə malik [40, s.38-41] və ya iqtisadi zərər, korrupsiya davranışının xüsusiyyətləri [37], hadisənin genezisi [36, s.59-69] baxımından təhlil olunmuş, dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarını xarakterizə edən bir sıra ümumi və xüsusi mülahizələr irəli sürülmüşdür [42, s.25-24; 43, s.16, 54; 48, s.86; 22; 23; 24; 27; 28; 29; 45; 38].

Ə.H.Rzayevin fikirincə, "dövlət aparatında neqativ hallar, o cümlədən bürokratizm dövlət qulluqçularının mənəviyyatının aşağı səviyyəsi ilə sintez olunanda dövlət siyasətində və dövlət qulluğunun qanunvericilik bazasında göstərilən hüquqi davranış korrupsiyaya deformasiya olunur" [32, s.401-402]. Ə.H.Rzayev haqlı olaraq dövlət aparatında korrupsiyaya səbəb olan elementlər sisteminə "neqativ hallar, bürokratizm, mənəviyyat, dövlət siyasəti və dövlət qulluğunun qanunvericilik bazası" kimi mühüm əhəmiyyət kəsb edən anlayışları daxil edir. Fikrimizcə, "neqativ hal, bürokratiya, mənəviyyat, dövlət siyasəti və dövlət qulluğu" kimi elementlər bir tərəfdən, dövlət vəzifəli şəxslərin peşəkar dövlət qulluğu fəaliyyətinin və ya peşəkar əmək fəaliyyətinin qiymətləndirilməsinin mühüm aspektlərini müəyyən edir. Digər tərəfdən isə, dövlət orqanlarının daxili intizam qaydalarının strukturunun əsas istiqamətlərini özündə ifadə edir. Bu yanaşma özülüyündə dövlət qulluqçusunun intizam məsuliyyətinin ümumi elementlərindən fərqli olan, xüsusi elementlərini isbat etmiş olur. Hesab edirik ki, dövlət qulluğu sistemində korrupsiya ilə əlaqədar hüquqpozmalarına qarşı preventiv tədbirlərin zəruriliyi məcmu olaraq xüsusi növ intizam məsuliyyətinin mövcudluğunu şərtləndirir.

C.A.Süleymanov yazır: "müasir dövrdə xalq hakimiyyətinə əsaslanan modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün "Elektron demokratiyanın" yaradılması əsas amillərdən biridir" [33, s.246]. C.A.Süleymanov haqlı olaraq xalq hakimiyyətinin bərqərar ediməsi üçün "moderin və çevik idarəetməni, dövlət orqanlarında şəffaflığın artırılması və korrupsiyanın aradan qaldırılması"nı "Elektron demokratiya"nın yaradılmasında görür. Fikirmizcə, müasir dövrdə dövlət qulluğu sistemində elektron hüquq münasibətləri daha da geniş vüsət almalı və rəqəmsal hökumətə keçid təmin edilməlidir. Yeni növ ictimai münasibətlərin formalaşması və inkişafı, dövlət qulluğu sistemində elektron hüquq münasibətlərinin daha geniş bərqərar edilməsi özündə dövlət qulluqçularının intizam məsuliyyətinin xüsusi növünün formalaşmasına səbəb olur.

A.R.Qədiməliyevin fikrincə, "müasir konstitusionalizmdə mərkəzsizləşdirmə konseptual olaraq adətən cəmiyyətin daha çox demokratikləşməsinin təzahürü kimi çıxış edir, çünki publik hakimiyyətin mərkəzsizləşdirilməsi idarəetmə strukturlarının nisbi müstəqilliyini nəzərdə tutur, onlara öz səlahiyyətləri daxilində qərarlar qəbul etmək və həyata keçirmək, həmçinin belə qərarlara görə hüquqi və siyasi məsuliyyət daşı-

maq hüququ verir" [20, s.51]. Qeyd etdiyimiz kimi, "siyasi məsuliyyət müxtəlif statuslu və səlahiyyət hədli dövlət vəzifəli şəxslərin xalq, cəmiyyət, dövlət, dövlət hakimiyyəti orqanları qarşısında yaranır və ona edilmiş etibarın itirilməsi nəticəsində özünü büruzə verir. Fikrimizcə, müasir qanunvericilik baxımından demək olar ki, siyasi məsuliyyət dövlətin konstitusiya ilə müəyyən edilmiş siyasi məqsədlərinin və funksiyalarının icraçısı olan dövlət vəzifəli şəxslərin konstitusiyaya zidd hərəkətinin və ya hərəkətsizliyinin nəticəsində yaranır" [27, s.123]. M.B.Dobrobaba və b. hesab edirlər ki, "korrupsiya hüquqpozuntusu törətmiş vətəndaşa münasibətdə dövlət və bələdiyyə qulluğu vəzifəsini tutma hüququndan məhrumetmə kimi təsir tədbirinin tətbiqi avtomatik xarakter daşımamalıdır, yəni bu, sadəcə olaraq, belə bir hüquqpozuntusu törədildikdə və hətta işəgötürənin nümayəndəsi tərəfindən ona etimadın itirilməsi müəyyən edildikdə tətbiq edilməlidir" [38, s.281]. N.Karaqodin və İ.Karaqodina hesab edirlər ki, "korrupsiya nöqteyi-nəzərindən ictimai müsabiqə, attestasiya, ixtisas imtahanı, xüsusən zəif hesab olunan vəzifələrin tutulması üçün kadrların seçimi, hazırlığı və rotasiyası kimi prosedurları dövlət və bələdiyyə qulluğu sistemində korrupsiyanın üzə çıxacağına imkan verir, qulluq fəaliyyətindən şəxsi, yaxud korporativ mənafelərdə istifadə etməyə çalışan şəxslərə maneə yaradır" [41, s.78]. A.X.Qədirovun fikrincə, "neqativ sosial hadisələrdən biri də hakimiyyətin və idarəetmənin müxtəlif səviyyələrində və strukturlarında təzahür edən korrupsiya hallarıdır" [19, s.5]. V.Novruzov yazır: "Azərbaycanda iqtisadi inkişaf modelini səciyyələndirən xüsusiyyətlərdən biri də idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsidir. Çox səciyyəvidir ki, şəffaflıq və korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasının dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuş, bu istiqamətdə bir sıra mühüm normativ hüquqi aktlar qəbul edilmişdir" [31, s.4]. V.Q.Məmmədovun fikrincə, "korrupsiya - dövlət qulluqçularının və onlara bərabər tutulan şəxslərin vəzifələrindən öz şəxsi maraqları naminə, qabaqcadan əlbir olub sui-istifadə və saxtakarlıq edərək qeyri-qanuni qərarlar qəbul etməklə normal prosesləri pozması və başqasına məxsus pul, qiymətli kağız, əmlak xarakterli mənfəət və üstünlüklər əldə etməsi və ya digər maraqlı tərəflərin sərəncamına verməsi və ələ alınmasıdır ki, bunun nəticəsində dövlətin, ictimai təşkilatların, bələdiyyələrin və vətəndaşların qanunla qorunan mənafelərinə ciddi ziyan dəyir" [30, s.37]. A.Y.Pankratov və E.İ.Slepnyeva yazır: "... korrupsiya hüquqpozması qanunverici tərəfindən ayrıca şəkildə müəyyən edilmiş intizam tənbehi nəzərdə tutduğu üçün intizam xətasından obyektivləşdirilir" [49, s.7]. Müəlliflər daha sonra qeyd edirlər ki, "dövlət və bələdiyyə qulluqçularının intizam tənbehi anlayışını özündə əks etdirən qanunvericilik normalarının təhlili belə nəticəyə gəlməyə imkan verir ki, intizam tənbehlərinin tətbiqi xidməti intizamın pozulması ilə bağlıdır" [49, s.10]. Müəlliflərin "xidməti intizamın pozulması"na dair fikirlərini dəstəkləyərək hesab edirik ki, bu mövqe həm ümumi, həm də xüsusi növ intizam məsuliyyətini xarakterizə edir.

L.A.Çernışevanın fikirincə, "korrupsiya hüquqpozmalarının qarşısının alınmasının effektiv üsullarından biri də törədilmiş korrupsiya hüquqpozmalarına görə məsuliyyətin qaçılmazlığını təmin etməkdir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyəti bir sıra xüsusiyyətlərə malikdir. Onların arasında aşağıdakıları vurğulamaq olar: 1) hüquqpozmaların məhdud dairəsi; 2) intizam məsuliyyətinin tətbiq dairəsi; 3) dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətinə cəlb edilməsi proseduruna qanunverici tərəfindən tətbiq edilən vahid yanaşma" [54, s.45]. S.A.Savin yazır: "dövlət qulluqçusu tərəfindən korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam məsuliyyəti institutunun qabaqlayıcı funksiyasını da qeyd etmək lazımdır. Bu mexanizmin köməyi ilə əslində bu növ hüquq pozuntularının qarşısının alınması həyata keçirilir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyəti mexanizminin tətbiqi ilə bağlı problemli məsələlər sırasında onu da göstərmək olar ki, qanunvericiliyin özündə korrupsiya hüquqpozması anlayışının özü işlənib hazırlanmamışdır" [51, s.143]. M.B.Dobrobaba və S.Y.Çannov hesab edir ki: "... dövlət qulluqçularının korrupsiya hüquqpozmalarının törədilməsinə

görə məsuliyyətinin hüquqi mahiyyətini onun qulluq hüququnda ümumi intizam məsuliyyətindən (əgər varsa) fərqləndirən xüsusiyyətlərini müəyyən etmək, habelə korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam icraatının aparılmasının xüsusiyyətlərini, onun differensiallaşdırma səbəblərini izah etmək olar" [39, s.91]. V.İ.Mayorov və R.A.Pestov haqlı olaraq yazırlar ki: "intizam məsuliyyəti hüquqi məsuliyyətin digər növləri arasında mühüm yer tutur, onların arasında əmək və qulluq vəzifələrinin icrası zamanı və yalnız xidmətdə tabeçilik qaydasında baş verməsi kimi xarakterik xüsusiyyəti ilə seçilir. Korrupsiya hüquqpozmalarının törədilməsi intizam tənbehi tədbirlərinin tətbiqinə səbəb olan ən çox yayılmış hüquqpozmalardan biridir. Eyni zamanda, dövlət qulluqçularına münasibətdə bu hüquqpozmalara görə məsuliyyətin tənzimlənməsində hüquqi normaların təkrarlanması müşahidə edilir ki, bu da dövlət qulluqçularının korrupsiya hüquqpozmalarına görə məsuliyyəti ilə intizam məsuliyyətinin nisbəti məsələsində mübahisələrə səbəb olur" [46, s.36]. M.V.Presnyakov və S.Y.Çannov haqlı olaraq qeyd edirlər ki, "dövlət qulluqçularının intizam məsuliyyəti müvafiq normalara tabe olan şəxslər dairəsində, intizam tənbehi tətbiq etmək səlahiyyətinə malik olan şəxslər və orqanlar dairəsində, müəyyən edilmiş qaydada fərqlənən intizam məsuliyyətinin xüsusi növüdür [53, s.381]. E.L.Leşina yazır: "dövlət qulluqçularının intizam tənbehi işləri üzrə icraat şəxsin hüquqları, azadlıqları və qanuni mənafelərinin əhəmiyyətli dərəcədə toxunulduğu ictimai fəaliyyət sahəsidir. Vəzifəli şəxslərin intizam tənbehi işlərinin başlanması, baxılması, iş üzrə icraatının təmin edilməsi üçün tədbirlərin tətbiqi ilə bağlı hər hansı hərəkəti intizam icraatının əsas vəzifələrinin həyata keçirilməsini, onun subyektlərinin və iştirakçılarının hüquq və qanuni mənafelərini, dövlət qulluqçusunun əsassız intizam məsuliyyətindən müdafiəsini təmin etməlidir" [44, s.152]. S.S.Tereşuk haqlı olaraq yazır: "intizam xarakterli korrupsiya hüquqpozmaları ilə intizam xətasının nisbəti müəyyən edilərkən nəzərə alınmalıdır ki, hüquq mühafizə orqanının əməkdaşı iş üzrə icraata başlamazdan əvvəl müəyyən vəzifə və qadağaların tətbiqi məqsədlərini: korrupsiya hüquqpozmalarının qarşısının alınması məqsədilə tətbiq edilib-edilməməsini, çıxarılan nəticələr əsasında "ümumi" əsaslarla və ya korrupsiya hüquqpozması ilə əlaqədar müvafiq intizam icraatına başlamağı müəyyən etməyə borcludur" [52, s.140]. S.A.Savin hesab edir ki, "dövlət qulluqçusu korrupsiya hüquqpozması törətdikdə onun əməllərində təqsirliliyin olub-olmamasının müəyyən edilməsi də çox vacibdir, çünki bu, hər hansı hüquqpozmanın ən mühüm və ayrılmaz əlaməti kimi çıxış edir [51, s.143].

Yuxarıda istinad edilən elmi baxışlar belə qənaətə gəlməyə əsas verir ki, müəlliflər korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətində xüsusi elementlərə bu və ya digər aspektlər üzrə toxunurlar, lakin, onu xüsusi növ intizam məsuliyyəti kimi təqdim və təhlil etmirlər.

**Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizənin hüquqi mexanizmləri.** Azərbaycanda dövlət qulluğunun inkişaf tarixi göstərir ki, keçmiş sovet ittifaqı dövründə dövlət qulluğu institutu lazımi səviyyədə hüquqi institusionallaşmaya məruz qalmamışdır, intizam tənbehi tədbirləri mənəvi-əxlaqi xarakter daşıyan vasitələrlə əvəz edilmişdir. Müstəqil Azərbaycan Respublikasında isə dövlət qulluğu institutu 2000-ci ildə Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu [11] ilə bərqərar edilmiş, korrupsiyaya qarşı mübarizə isə 2004-cü ildən Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun [16] qəbulu ilə rəsmiləşdirilmişdir. Eyni zamanda dövlət sektorunda korrupsiyaya qarşı mübarizəni, şəffaflığı, daxili intizamı özündə ifadə edən bir sıra etik davranış qaydaları qəbul edilmişdir. Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydalarını və həmin qaydalara əməl olunmasının hüquqi mexanizmini müəyyən edən xüsusi Qanun - Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2017-ci il tarixli Qanunu qəbul edilmişdir [7]. Dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edən ümumi Qanun - Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2007-ci il tarixli Qanunu qəbul edilmişdir [13] və s.

Dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növüdür [21, s.128-141]. Buna görə də, dövlət qulluqçularının fəaliyyətində əmək hüquqi elementlər, o cümlədən intizam məsuliyyəti xüsusi yer tutur. Dövlət qulluqçularının intizam məsuliyyətinə səbəb olan hallardan biri də korrupsiya ilə əlaqədar hüquqpozmalarıdır. Müasir dövrdə korrupsiya halları bütün dünya üçün bəşəri bəla kimi çıxış edir. Korrupsiya adlı bəşəri bəlanın əsas subyektləri, hərəkatverici qüvvələri sırasında dövlət hakimiyyət səlahiyyətli şəxslər, dövlət vəzifəli şəxslər, dövlət qulluqçuları daha çox diqqəti cəlb edir.

Fikrimizcə, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini şərtləndirən əsas cəhətlərdən biri dövlət qulluğu fəaliyyəti həyata keçirilərkən qanunun aliliyini və intizamı təmin edən müasir hüquqi mexanizmlərin mövcud olmasıdır. Bu cəhət mülkiyyət və təşkilati-hüquqi formasından və işçilərin əmək vəzifələrindən asılı olmayaraq hər bir müəssisənin fəaliyyətində səmərəliliyi və ya məhsuldarlığı bilavasitə şərtləndirir. Qeyd etdiyimiz kimi: "cəmiyyətin dövlət hakimiyyətinə münasibətini özündə ehtiva edən təzahürlərdən biri məhz korrupsiyadır. Korrupsiya hüquqpozmaları isə dövlət hakimiyyət səlahiyyətli və dövlət vəzifəli şəxslərin, ümumi kontekstdə ifadə etsək dövlət qulluqçularının fəaliyyətində özünü daha çox büruzə verir. Bunu həm korrupsiyaya qarşı mübarizəyə dair beynəlxalq hüquq normaları, həm də dövlətlərin milli hüquq normaları və təcrübələri özündə ehtiva edir [22, s.16]. Fikrimizcə, korrupsiyaya qarşı mübarizənin əsas hədəflərindən biri dövlət qulluğu sahəsidir. Korrupsiya hüquqpozmaları dövlət vəzifəli şəxslərin, dövlət qulluqçularının fəaliyyətində özünü daha çox büruzə verir. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizə tədbirləri və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya şərait yaradan hallara qarşı mübarizə sistemli və kompleks xarakter daşımalıdır. Dövlət qulluğu sistemində korrupsiya hüquqpozmaları dövlət qulluqçularının hüquqi məsuliyyətinin müxtəlif növlərinin, o cümlədən intizam məsuliyyətinin yaranmasına səbəb olur. Sosial, siyasi və hüquqi əhəmiyyətinə görə dövlət qulluqçularının intizam məsuliyyəti ümumi və xüsusi elementlərə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsi hüquqi və sosial əhəmiyyət kəsb edir.

**Dövlət qulluqçularının intizam məsuliyyətinin ümumi və xüsusi elementləri.**

Müəlliflərin elmi müddəalarını ümumi əsaslarla qəbul edərək dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinin müasir nəzəri-hüquqi modelini formalaşdırmaq olar. Yuxarıda qeyd edilən elmi müddəalarda dövlət qulluqçularının intizam məsuliyyətinin əsasən ümumi, qismən isə xüsusi elementləri ifadə edilir, lakin xüsusi növ intizam məsuliyyəti kimi xarakterizə edilmir.

Ümumi intizam məsuliyyətinin strukturuna aşağıdakı elementlər daxildir:

1) intizam məsuliyyətinin hüquqi və faktiki əsasları (intizam xətasının törədilməsi);

2) intizam məsuliyyətinin şərtləri;

3) intizam məsuliyyətinin predmeti;

4) intizam tənbehinin tətbiqi;

5) intizam icraatı və onun həyata keçirilməsi.

Bu struktur şübhəsiz ki, korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə də şamil edilir. Bu baxımdan demək olar ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının hüquqi məsuliyyətinin xüsusiyyətləri və onun intizam məsuliyyəti ilə qarşılıqlı əlaqəsi təbii olaraq mövcuddur. İntizam məsuliyyəti dövlət qulluqçusunun hüquqi statusunun əmək hüquqi tərkib elementlərini özündə ifadə edir. Belə ki: "Dövlət qulluqçularının əmək hüquqi statusu bir tərəfdən ümumi statuslu işçi kateqoriyasından fərqlənir, digər tərəfdən isə dövlət qulluğunun növündən, dövlət orqanlarının və dövlət qulluqçularının təsnifatından asılı olaraq dəyişir. ... Dövlət qulluğu vətəndaşın konstitusion əmək hüququnu həyata keçirmək üçün əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə seçdiyi fəaliyyət növüdür. Fikrimizcə, dövlət qulluqçularının konstitusion əmək hüquq subyektliyi dedikdə, qanunla müəyyən edilmiş qaydada dövlət qulluğuna qəbul, müvafiq hüquq və vəzifələri həyata keçirmək, hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür" [25, s.39]. Qeyd etdiyimiz kimi: "Dövlət qulluğu hüquq münasibətlərinin ictimai və fərdi xarakterinin əsas səciyyəvi cəhətlərindən biri də onun strukturuna daxil olan elementlərin əmək

hüquq münasibətləri ilə əsasən üst-üstə düşməsindən ibarətdir. Dövlət qulluqçularının əmək münasibətləri dövlət qulluğu hüquq münasibətləri sisteminin tərkib hissəsi kimi çıxış edir. Burada əsasən iki aspekt üzrə hüquq münasibətləri daha çox diqqəti cəlb edir. Bu münasibətlərdən biri hakimiyyət-tabeçilik prinsipinə əsaslanan dövlət idarəetməsi üzrə yaranan hüquq münasibətləridir. Digəri isə, əməyin azadlığı prinsipinə əsaslanan konstitusion əmək hüququnun dövlət orqanlarında həyata keçirilməsi və əmək müqaviləsi üzrə yaranan hüquq münasibətləridir" [55, s.16].

Dövlət qulluqçularının hüquqi statusunun tərkib elementlərindən biri onların məsuliyyətidir. Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilir ki: "Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur" (maddə 80); "... Hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır" (maddə 68) [1].

Qeyd etdiyimiz kimi, "dövlət qulluğu haqqında qanunvericilik sistemi dövlət qulluğu hüquq münasibətlərinin vahidliyini və differensiasiyasını şərtləndirir. Bu amil dövlət qulluqçularının hüquqi statusundan və onların əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətindən irəli gəlir [26, s.86]". Dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş səviyyədə səlahiyyət həddinə və vəzifə öhdəliklərinə malikdirlər. Dövlət qulluqçusunun səlahiyyətindən sui-istifadə etməsi hüquq pozuntusunun yaranmasına səbəb olur. O.C.Məmmədov və C.S.Vəliyeva dövlət qulluğu hüquq münasibətlərinin xüsusi subyektlərinə münasibətdə qeyd edirlər ki, "korrupsiya hüquqpozmalarının törədilməsinə görə intizam tədbirlərinin tətbiqi çox vaxt problemlidir, çünki onların məsuliyyəti, bir qayda olaraq, siyasi xarakter daşıyır" [45, s.10]. Qeyd etdiyimiz kimi: "Dövlət qulluğu sistemində korrupsiyaya dair hüquqpozmaları əsasən korrupsiyaya şərait yaradan, həmçinin qanuna zidd olaraq nemətlər və üstünlüklərin verilməsi və ya əldə edilməsi yolu ilə həyata keçirilən, nəticə etibarı ilə dövlət qulluqçularının intizam, mülki-hüquqi, inzibati, cinayət və konstitusion hüquqi məsuliyyətinə səbəb olan hərəkət və hərəkətsizliyin məcmusu kimi xarakterizə etmək olar" [24, s.64].

**Korrupsiyaya qarşı mübarizə sahəsində çoxtərəfli sənədlərin xülasəsi:**

Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarını xarakterizə edən, korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə sahəsində çoxtərəfli sənədlər qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası (31 oktyabr 2003) korrupsiyaya qarşı mübarizə sahəsində böyük hüquqi əhəmiyyət kəsb edir. BMT-nin Korrupsiya əleyhinə Konvensiyasında göstərilir ki, "korrupsiya artıq lokal problem deyil, bütün ölkələrin cəmiyyət və iqtisadiyyatına toxunan, buna görə də qarşısının alınması və əleyhinə mübarizə aparılması sahəsində beynəlxalq əməkdaşlığın müstəsna dərəcədə əhəmiyyət kəsb etdiyi transmilli bir təzahür olaraq, dövlət və bələdiyyə qulluğuna, ictimai hakimiyyətin bütün sferasına zərbə vurur. Həmin Konvensiya Azərbaycan Respublikası tətəfindən 30 sentyabr 2005-ci ildə ratifikasiya edilibdir" [10].

Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmalarına dair çoxtərəfli sənədlərdən biri də Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasıdır (27.01.1999). Bu Konvensiya Azərbaycan Respublikası tərəfindən 30 dekabr 2003-cü ildə təsdiq edilibdir [17]. Avropa Şurasının "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyası (04.11.1999) Azərbaycan Respublikası tərəfindən 30 dekabr 2003-cü ildə ratifikasiya edilibdir [18]. MDB dövlətlərinin Parlamentlərarası Assambleyasının "Antikorrupsiya siyasəti haqqında qanunvericliyin əsasları" model Qanunu korrupsiyanın daha geniş tərfini özündə ehtiva edir" [47].

Yuxarıda qeyd edilən çoxtərəfli sənədlər sübut edir ki, dövlət idarəçiliyi və dövlət qulluğu sistemində fəaliyyətin səmərəliliyini artırmaq üçün korrupsiya hüquqpozmalarına qarşı mübarizə mühüm əhəmiyyət kəsb edir. Bu tezis dünyanın bir sıra ölkələrində dövlət idarəçiliyinin inzibati-hüquqi mexanizmlərinin dəyişdirilməsi, dövlət qulluqçularına münasibətdə qada-

ğaların və məhdudiyyətlərin islahatı üçün əsas olmuşdur. ÇXR-in təcrübəsi göstərir ki, rütbəsindən asılı olmayaraq dövlət qulluqçuları üçün ciddi cinayət məsuliyyəti tədbirləri müəyyən edilir və səlahiyyətlər müvafiq olaraq əmtəə sayılmır, satıla bilməz. Eyni zamanda, göstəricilər sistemində kəmiyyət göstəriciləri üçün stimullar nəzərdə tutulmur, məsələn, təyin edilmiş cəzalar (açılan cinayətlər) və s. Fransa Respublikasında dövlət qulluqçuları üçün korrupsiya deliktlərinə görə yalnız cinayət və inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının qanunvericiliyinə və elmi təhlilə əsaslanaraq qeyd etmişik ki: "Dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, qadağalara və məhdudiyyətlərə əməl edilməməsi onların hüquqi məsuliyyətinin yaranmasına səbəb olur. Fikrimizcə, dövlət qulluqçularının hüquqi məsuliyyətinin növlərini aşağıdakı kimi ifadə etmək olar: 1) dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyəti; 2) dövlət qulluqçularının inzibati məsuliyyəti; 3) dövlət qulluqçularının intizam məsuliyyəti; 4) dövlət qulluqçularının maddi məsuliyyəti; 5) dövlət qulluqçularının mülki-hüquqi məsuliyyəti; 6) dövlət qulluqçularının cinayət məsuliyyəti; 7) dövlət qulluqçularının peşəkar məsuliyyəti" [28, s.200].

**Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətini şərtləndirən hüquqi normalar və qanunvericiliyin təkmilləşdirilməsi.**

Azərbaycanda korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsinin hüquqi əsasları Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir [16]. Həmin Qanun dövlət qulluqçularının intizam məsuliyyəti institutunun ümumi və xüsusi növə ayrılmasına səbəb olmuşdur. Dövlət qulluqçularının intizam məsuliyyəti institutuna ümumi normalarla yanaşı, korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətini tənzimləyən xüsusi normalar daxil edilmişdir. Bunun hüquqi mahiyyəti və intizam məsuliyyəti ilə əlaqəsi nə elmdə, nə də hüquq tətbiqi təcrübəsində hələ də özünü tam ifadə etməmişdir.

Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair tədbirlərin səmərəli tətbiqinin hüquqi tənzimlənməsi ardıcıllıq, hüquqi terminologiyanın vəhdəti, hüquq tətbiqi üçün aydın və bir sıra əsas tələblərə cavab verməlidir. Fikrimizcə, bu amillərin birliyi dövlət qulluqçularının intizam məsuliyyəti institutunun keyfiyyətini təmin etmiş olar.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli Qanunu [12] ilə həmin Qanunun 1-ci maddəsi yeni redaksiyada verilmiş, Qanunda istifadə olunan əsas anlayışların mənaları yeni məzmunda təsbit edilmişdir. Qanunvericinin bu yanaşması, Qanunda dövlət qulluğuna dair leqal anlayışların ifadə edilməsi təqdirəlayiq hesab edilir. Dövlət qulluğu haqqında Qanunun 1.1.26-cı maddəsinə əsasən: "intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyət növü" kimi xarakterizə edilir. İntizam məsuliyyətinə verilmiş anlayışın məzmunundan onun xüsusiləşdirilmiş xarakteri aydın görünür. Başqa sözlə, dövlət qulluğu sistemində intizam məsuliyyətinə verilmiş anlayış üç tərkib hissədən ibarətdir:

1) dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə (intizam xətasına) görə;

2) dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına) görə;

3) Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə.

Fikrimizcə, burada təsbit edilmiş tərkib elementlər dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətini ifadə edir. Bununla yanaşı, Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan hüquqi məsuliyyətə dair norma isə intizam məsuliyyətini xüsusiləşdirir, yəni, məhdudiyyətlərə əməl edilmədikdə dövlət qulluqçusunun

məxsusi intizam məsuliyyətinin yaranmasını özündə ifadə edir.

Qeyd etmək lazımdır ki, intizam məsuliyyətinə verilmiş anlayışın məzmunu dövlət qulluqçusunun fəaliyyətinin əmək hüquqi xarakterini bir daha qanunvericilik vasitəsilə leqal olaraq təsdiq edir. Digər müsbət cəhət isə ondan ibarətdir ki, intizam məsuliyyəti dövlət qulluğu sistemi üçün xüsusiləşdirilmişdir, lakin tam ifadə edilməmişdir. Digər tərəfdən isə, Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş intizam məsuliyyətinin tərkib elementləri ilə uyğunsuzluq müşahidə edilir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun intizam məsuliyyətinə dair məsələ həmin anlayışda təsbit edilmir. Bu hal tərəfimizdən qanunvericilikdəki uyğunsuzluq kimi qiymətləndirilir. Buna görə də, hesab edirik ki, həmin maddənin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

"1.1.26. dövlət qulluğu sistemində intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan ümumi xarakterli hüquqi məsuliyyət növü (ümumi növ intizam məsuliyyəti); korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) xüsusi xarakterli hüquqi məsuliyyət növü (xüsusi növ intizam məsuliyyəti);".

Dövlət qulluqçularının intizam məsuliyyətinin tənzimlənməsinin hüquqi əsasları Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluqçusunun məsuliyyəti" adlanan 25-ci maddəsində təsbit edilibdir. Həmin maddə ilə müəyyən edilir ki: "Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur (maddə 25.1) [11]. Fikrimizcə, bu maddə də natamamdır, həmin Qanunun korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətini nəzərdə tutan 25.2 və 25.11-ci maddələri ilə uzlaşmır. Qanunda mövcud olan uyğunsuzluğu aradan qaldırmaq üçün

Dövlət qulluğu haqqında Qanunun 25.1-ci maddəsini aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəuyğun heab edilir:

"25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması (ümumi növ), korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (xüsusi növ) qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.".

Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsinə əsasən dövlət qulluqçusu həmin Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər. Qanunla dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olan üç ümumi, iki xüsusi istiqamət müəyyən edilir. Həmin istiqamətləri aşağıdakı kimi ifadə etmək olar:

**dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin səbəbləri:**

➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu tərəfindən qanunla dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

**dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin səbəbləri:**

➢ dövlət qulluqçusu Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;

➢ dövlət qulluqçusu Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti

yaratmadıqda) bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olan hüquqi normalar Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluqçusunun əsas vəzifələri" adlanan 18-ci maddəsində təsbit edilibdir. Dövlət qulluqçusu tərəfindən həmin maddə ilə müəyyən edilmiş əsas vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olan digər hüquqi normalar isə Dövlət qulluğu haqqında Qanunun "Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər" adlanan 20-ci maddəsində təsbit edilibdir [11]. Belə ki, dövlət qulluqçusu tərəfindən həmin maddə ilə dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun intizam məsuliyyətinin xüsusi növünü özündə ifadə edən normalar Dövlət qulluğu haqqında Qanunun 25.11-ci maddəsində aşağıdakı kimi təsbit edilibdir: "Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) intizam məsuliyyətinə cəlb olunur". Bu normalar belə qənaətə gəlməyə əsas verir ki, korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusu ümumidən fərqli tərkib elementlərinə malik xüsusi növ intizam məsuliyyətinə cəlb olunur. Burada diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, həmin norma ilə məsuliyyətə cəlb olunma imperativ xarakter daşıyır. Başqa sözlə, dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə, onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadığı halda intizam məsuliyyətinə cəlb olunmalıdır. Eyni zamanda Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsi ilə müəyyən edilir ki, "Dövlət qulluqçusu bu Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər". Bu normanın tətbiqi isə imperativ xarakter daşımır. Başqa sözlə, dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər.

Aparılmış elmi təhlilin nəticəsi olaraq Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25.11-ci maddəsinin ləğv edilməsi və aşağıdakı məzmunda 25-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 25-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

25-1.1. Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı və 9-1-ci maddələrinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.

25-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularına intizam tənbehi bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilə bilər.

25-1.3. Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə dair digər məsələlər qanunvericiliyə uyğun olaraq tənzimlənir.".

Hesab edikrik ki, dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti korrupsiya ilə əlaqədar hüquqpozmaları ilə şərtlənir və heç bir şübhə doğurmur. Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun "Maliyyə xarakterli tələblər" adlanan 5-ci maddəsi ilə müəyyən edilmiş maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olur. Vəzifəli şəxslər, o cümlədən dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə xarakterli məlumatları təqdim etmədikdə intizam məsuliyyətinə cəlb olunur və onun barəsində intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər [16].

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 6-cı maddəsində "Maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyət"i müəyyən edən normalar aşağıdakı kimi təsbit edilibdir: "Vəzifəli şəxslər və ya vəzifə tutmaq istəyən şəxslər bu Qanunun 5.1-ci maddəsində nə-

zərdə tutulmuş tələblər və bu tələblərə əməl olunmamasının hüquqi nəticələri barədə qanunvericiliklə müəyyən edilmiş qaydada xəbərdar edilirlər (maddə 6.1). Bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmasına nəzarətin həyata keçirilməsi qaydaları qanunvericiliklə müəyyən edilir (maddə 6.2). Vəzifəli şəxslər tərəfindən bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl olunmaması, yəni bu maddədə nəzərdə tutulmuş məlumatların üzürsüz səbəbdən vaxtında təqdim edilməməsi və ya qəsdən natamam, yaxud təhrif edilmiş məlumatların təqdim olunması həmin şəxslərin intizam məsuliyyətinə cəlb olunmasına səbəb ola bilər. Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə barələrində intizam məsuliyyətinə cəlb olunmanın xüsusi qaydası nəzərdə tutulmuş şəxslər intizam məsuliyyətinə həmin qaydalara riayət edilməklə cəlb oluna bilərlər (maddə 6.3). Komissiya bu Qanunun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etməyən şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirə bilər (maddə 6.4)" [16]. Maddənin əmək hüquqi xarakterini nəzərə alan qanunverici haqlı olaraq maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyətə cəlb olunma halında intizam məsuliyyətini nəzərdə tutur. Bu hal belə qənaətə gəlməyə əsas verir ki, həmin maddənin adının məzmununa uyğunlaşdırılmasına və yeni redaksiyada verilməsinə ehtiyac vardır. Həmin uyğunsuzluğu aradan qaldırmaq üçün Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunun 6-cı maddəsinin adının aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq olardı: **"Maddə 6. Maliyyə xarakterli tələblərin pozulmasına görə xüsusi növ intizam məsuliyyəti.".**

"Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli Qanunu [35] ilə təsdiq edilibdir. Bu Qaydalar "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulmuş maliyyə xarakterli məlumatların təqdim edilmə formasını, maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxsləri, bu məlumatları qəbul edən orqanları və həmin məlumatların yoxlanılması qaydalarını müəyyən edir (maddə 1) [35]. Həmin Qaydaların 2-ci maddəsi ilə "Maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxslər"in dairəsi müəyyən edilmişdir.

Qaydaların pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati və ya intizam məsuliyyətinə səbəb olur (maddə 10).

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9.1-ci maddəsinə əsasən korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalarından və korrupsiyaya şərait yaradan hüquqpozmalardan ibarətdir. Deməк, həmin Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmaları dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur. Bu müddəalar belə qənaətə gəlməyə əsas verir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti iki istiqamət üzrə təzahür edir:

1) bilavasitə korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti;

2) korrupsiyaya şərait yaradan hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9-cu maddəsində sadalanan korrupsiya ilə əlaqədar hüquqpozmalar vəzifəli şəxs olaraq dövlət qulluqçularına münasibətə birbaşa tətbiq edilir. Bununla bağlı normalar yuxarıda qeyd edildiyi kimi Dövlət qulluğu haqqında Qanunun 25.11-ci maddəsində təsbit edilibdir.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10-cu maddəsi ilə korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyətinin növləri müəyyən edilmişdir. Həmin maddəyə əsasən korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur. Vəzifəli şəxs (dövlət qulluqçusu) tərəfindən Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, vəzifəli şəxsin (dövlət qulluçusunun) məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir. Korrupsiya ilə əlaqədar hüquqpozmalara görə intizam məsuliyyə-

ti tədbirləri isə Korrupsiyaya qarşı mübarizə haqqında Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

Korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadığı halda dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsinə dair məsələ Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.4-cü maddəsi ilə tənzimlənir. Həmin maddədə deyilir ki, "Bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur". Burada mövzunun obyekti və predmeti baxımından diqqəti cəlb edən məqam "xüsusi hallara" dair normanın mövcudluğudur. Fikimizcə, "xüsusi hallara riayət etməklə" müddəaları dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsini özündə ifadə edir. Aparılmış elmi təhlilin nəticəsi olaraq, Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununa aşağıdakı məzmunda 9-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 9-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

9-1.1. Dövlət qulluqçusu bu Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı maddəsinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.

9-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının dövlət qulluğu haqqında qanunvericiliyi və əmək qanunvericiliyi ilə tənzimlənir.".

Dövlət qulluğu haqqında Qanunun 25.2-ci maddəsinə əsasən dövlət qulluqçusu həmin Qanunun 18-ci, 20-ci və ya 25.11-ci maddələrində nəzərdə tutulmuş tələbləri pozduqda, onun barəsində aşağıdakı intizam tənbeh tədbirlərindən biri tətbiq edilə bilər:

- töhmət (maddə 25.2.1);
- bir il müddətinədək vəzifə maaşının 5 faizin-dən 30 faizinədək azaldılması (maddə 25.2.2);
- həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi (maddə 25.2.3);
- daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi (maddə 25.2.4);
- ixtisas dərəcəsinin bir pillə aşağı salınması (maddə 25.2.5);
- dövlət qulluğundan azad edilməsi (maddə 25.2.6) [11].

Dövlət qulluğu haqqında Qanunun 25.7-ci maddəsinə əsasən həmin Qanunun 25.2.1-25.2.6-cı maddələrində nəzərdə tutulmuş intizam tənbeh tədbirləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən, 25.2.1-ci maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri - töhmət isə, habelə dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən səlahiyyət verilmiş vəzifəli şəxs (şəxslər) tərəfindən tətbiq oluna bilər.

Dövlət qulluğu haqqında Qanunun 25.3-cü maddəsi ilə müəyyən edilir ki, bu Qanunun 25.2-ci maddəsinə uyğun olaraq intizam tənbehinin tətbiqinə əsaslar olduqda aşağıdakı hərəkətlər həyata keçirilir:

1) müvafiq dövlət orqanı rəhbərinin əmri ilə araşdırma aparılır;

2) dövlət qulluqçusundan yazılı izahat alınır;

3) zərurət olduqda, müvafiq dövlət orqanının rəhbəri xidməti yoxlama təyin edir;

4) dövlət qulluqçusunun yazılı izahat verməkdən imtina etməsi rəsmiləşdirilir;

5) dövlət qulluqçusunun imtinası intizam tənbehinin tətbiqinə mane olmur;

6) dövlət qulluqçularına intizam tənbehi Qanununda nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər;

7) dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

Dövlət qulluğu haqqında Qanunun 25.6-cı maddəsinə əsasən dövlət qulluqçusu barəsində "dövlət qulluğundan azad edilməsi" intizam tənbeh tədbirləri aşağıdakı əsaslar olduqda tətbiq edilə bilər:

1) dövlət qulluqçusu vəzifələrin icrası zamanı kobud pozuntulara yol verdikdə;

2) dövlət qulluqçusu vəzifələrin icrası zamanı mütəmadi olaraq pozuntulara yol verdikdə;

3) Qanunla nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə.

Göründüyü kimi, Dövlət qulluğu haqqında Qanunun 25.6-cı maddəsində korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti diqqətdən kənar qalmışdır. Fikrimizcə, bu hal qanunvericilikdəki boşluqlardan biridir. Bu boşluğu aradan qaldırmaq və dövlət qulluqçusunun intizam məsuliyyətini daha da gücləndirmək məqsədilə həmin maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir:

"25.6. Bu Qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə və ya "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə tətbiq oluna bilər.".

Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsində dövlət qulluqçusunun məsuliyyəti ilə bağlı digər məsələlər də nəzərdə tutulmuşdur. Belə ki, dövlət qulluqçusu barəsində xidməti yoxlama aparıla bilər. Xidməti yoxlamanın aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (maddə 25.4). Burada nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. İntizam tənbeh tədbirinin tətbiq edilməsi barədə əmrdən, onun imzalandığı gündən 7 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına şikayət vermək olar. Burda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabelik qaydasında yuxarı dövlət orqanı həyata keçirir. Bu zaman həmin orqan tərəfindən intizam tənbeh tədbiri 10 iş günü müddətində ləğv olunmalı və ya qüvvədə saxlanılmalıdır. Tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir (maddə 25.8) [11].

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilibdir [14]. Bu Əsasnamə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmış və dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi ilə əlaqədar yaranmış məsələləri tənzimləyir. Hər bir dövlət qulluqçusunun ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsinə və yaxud lazımi şəkildə yerinə yetirilməməsinə, həmçinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə barəsində tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət vermək hüququ vardır. Əsanamənin 3-cü bəndində nəzərdə tutulur ki, "Tətbiq olunmuş intizam tənbeh tədbirinin ləğv edilməsi üçün dövlət qulluqçusu 7 gün ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya) şikayət verə bilər. Dövlət qulluqçusunun xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir".

"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı [8] ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya ləğv edilmişdir. Hesab edirik ki, sözü gedən Əsasnamənin 3-cü bəndində nəzərdə tutlmuş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya)" sözləri "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə" (bundan sonra – Dövlət Əmək Müfəttişliyi Xidmətinə)" sözləri ilə, o cümlədən Əsanamənin müvafiq hissələrində "Komissiya" sözü ismin müvafiq hallarında "Dövlət Əmək Müfəttişliyi Xidməti" sözləri ilə əvəz edilməldir.

Dövlət qulluğu haqqında Qanuna əsasən dövlət qulluqçusu qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb oluna bilər (maddə 25.9) [11]. Təəssüflə qeyd etmək lazımdır ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının inzibati məsuliyyətini müəyyən edən hallar qanunvericiliklə birbaşa müəyyən edilməmişdir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində demək olar ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə inzibati məsuliyyət anlayşından istifadə edilmir. Yalnız İnzibati Xətalar Məcəlləsin 594-2-ci maddəsində “Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması”na dair normalar vardır [3].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin otuz üçüncü fəsli "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" adlanır [2]. Bu fəsildə korrupsiya hüquqpozmalarının cinayət hüquqi əlamətləri xarakterizə olunur və subyekt tərkibi müəyyən edilir. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizə sahəsində vəzifəli şəxslərin subyekt tərkibinin müəyyən edilməsi baxımından "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş “vəzifəli şəxs” anlayışının şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2013-cü il 19 iyul tarixli Qərarıda mühüm əhəmiyyət kəsb edir [4].

Dövlət qulluğu haqqında Qanuna əsasən dövlət qulluqçusu onun təqsiri üzündən dəymiş zərər üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır. Dövlət qulluqçusunun qanuna uyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi tam həcmdə Azərbaycan Respublikasının dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikasının büdcəsinin vəsaiti hesabına ödənilir (maddə 25.10) [11]. Azərbaycan Respublikasının Konstitusiyasının “Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ” adlanan 68-cı maddəsinin 4-cü hissəsində dövlətin dövlət qulluqçuları ilə birlikdə mülki məsuliyyətinə dair normalar təsbit edilibdir. Orada deyilir: “Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır. ... Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır” [1].

Dövlət qulluğu haqqında Qanunun 25-ci maddəsinin elmi təhlili belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsini iki növ üzrə xarakterizə etmək olar:

1) intizam xətasına görə dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyəti;

2) korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətini tənzimləyən normativ müddəalar göstərir ki, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluqçuları üçün bir sıra məhdudiyyətlər və qadağalar müəyyən edilmişdir. Çünki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin əsas subyektlərindən biri məhz korrupsiyaya qarşı mübarizəyə dair vəzifələr həvalə edilmiş dar aspektdə dövlət qulluqçularıdır, daha geniş aspektdə isə dövlət vəzifəli şəxslərdir.

Fikrimizcə, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusu barəsində intizam tənbeh tədbirlərindən birinin seçimi zamanı ilk növbədə hüquqpozuntusunun ağırlıq dərəcəsi müəyyən edilməlidir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarının törədilməsinə görə dövlət qulluğundan azad edilmə kimi intizam tənbehi kifayət qədər konkret əməllərə görə təyin edilir. Belə olan halda, digər intizam tənbeh tədbirlərinin seçimi ilə bağlı məsələ daha mürəkkəb xarakerə malik olur. M.B.Dobrobaba və S.Y.Çannov haqlı olaraq yazırlar ki: "məhdudiyyətlərə və qadağalara, maraqların toqquşmasının qarşısının alınması və ya həllinə dair tələblərə əməl edilməməsi və korrupsiyaya qarşı mübarizə məqsədilə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməməsi" son dərəcə qeyri-müəyyəndir, çünki dövlət qulluqçularının korrupsiyaya qarşı olan qadağaları və vəzifələri ilə "ümumi" məhdudiyyətləri bir-birindən ayırmaq çox vaxt çətin olur [39, s.91]. Eyni zamanda nəzərə almaq lazımdır ki, dövlət qulluqçularına intizam tənbehi korrupsiya ilə əlaqədar hü-

quqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. Dövlət qulluqçusunun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində xidməti yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir. Fikrimizcə, dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranma əsaslarının ciddiliyini nəzərə alaraq yuxarıda təklif etdiyimiz kimi, dövlət qulluqçularına intizam tənbehi korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilməsi məqsədəmüvafiq olardı.

Yuxarıda istinad edilən müəddəalar belə qənaətə gəlməyə əsas verir ki, qanunvericiliklə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin növünü müəyyən edən konkret meyarlar yoxdur. Bu hal, korrupsiya ilə əlaqədar hüquqpozmaları ciddilik dərəcəsinə görə, universal olmasalar da, təcrübədə fərqli yanaşmaların formalaşmasına səbəb olur.

Fikrimizcə, intizam məsuliyyəti ilə korrupsiya ilə əlaqədar hüquqpozmalara görə vəzifəli şəxslərin məsuliyyətinin oxşarlığını inkar etmək çətindir. Belə ki, Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.1-ci maddəsi ilə müəyyən edilir ki, korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur, 10.4-cü maddəsində isə təsbit edilir ki, həmin Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, aşağıdakı xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qulluqçusunun intizam məsuliyyətinə səbəb olur. Xüsusi hallar dedikdə isə, "dövlət orqanlarına seçilmiş şəxslər"ə, "yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər"ə, "dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər"ə və "hakimlər"ə münasibətdə korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətinə səbəb olan hallar nəzərdə tutulur.

Korrupsiyaya qarşı mübarizə haqqında Qanunun 10.1-ci maddəsi ilə müvafiq subyektlərin korrupsiya ilə əlaqədar hüquqpozmalara görə "intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti daşıdığı" müəyyən edilir. Fikrimizcə, dövlət qulluqçularının korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyətinin tənbehlərin xarakterinə və digər xüsusiyyətlərinə əsaslanaraq sonrakı üç növə aid edilməsi məqsədəmüvafiq hesab edilmir. Bu isə o deməkdir ki, korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusunun əməli xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur. Buna görə də, həmin şəxsə münasibətdə yalnız intizam tənbehi tətbiq edilə bilər. Fikrimizcə, korrupsiya ilə əlaqədar hüquqpozmalara məsuliyyətin hüquqi mahiyyəti və növ xüsusiyyəti qanunvericiliklə aydınlaşdırılmadan onun tətbiqində yaranan qeyri-müəyyənliyi aradan qaldırmaq mümkün olmayacaqdır. Buna görə də, Dövlət qulluğu haqqında və Korrupsiyaya qarşı mübarizə haqqında Qanunlara müvafiq dəyişikliklərin edilməsi zəruri hesab edilir. Bundan əlavə olaraq, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası [9] dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin daha da artırılması, aşkar edilmiş nöqsanların aradan qaldırılması, dövlət qulluqçuları tərəfindən törədilən korrupsiya ilə əlaqədar hüquqpozmaların ağır nəticələri və tətbiq ediləcək tənbehlər barədə metodiki tövsiyələr hazırlamalıdır.

**Nəticə.** Tədqiqatın yekunu olaraq aparılmış təhlillər və ümumiləşdirmələr əsasında elmin zənginləşməsinə və qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsinə dair aşağıdakı mühüm nəticələr əldə olunmuşdur:

1) Azərbayanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasəti Prezident İlham Əliyev cənabları tərəfindən əzmlə, uğurla davam və inkişaf etdirilərək qətiyyətlə həyata keçirilir, qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir, əməli tədbirlər görülür və bir sıra səmərəli institusional mexanizmlər tətbiq edilir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının dövlətə, xalqa və bəşəriyyətə xidmət edən ülvi ideyaları, inkişafın Azərbaycan modelinin əsasını təşkil edən kompleks xarakterli islahatları Azərbaycanın dövlətçilik tarixində, ölkədaxili, regional və beynəlxalq ictimai-siyasi mühitdə **"İlham Əliyev islahatları", "Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi"** statusu qazanmış və dövlət başçıları üçün mütə-

rəqqi təcrübə mənbəyinə çevrilmişdir. **“Dövlət idarəetməsində İlham Əliyev təcrübəsi”** özündə müasir Azərbaycanın inkişaf modelinin nümunəvi göstəricilərini, dünya liderləri üçün örnək olan dövlət idarəetmə metodlarını və institusional mexanizmləri ifadə edir. Prezident İlham Əliyev cənablarının elmi xarakterli, dəyərli fikirləri dövlət başçısının bəşəri bəla olan korrupsiyaya qarşı mübarizə sahəsində mövqeyini açıq ifadə edir, dövlət idarəetməsi və dövlət qulluğu sistemində, dövlət vəzifəli şəxslərin və dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya səbəb ola biləcək halların qarşısının alınmasına, dövlət idarəetməsində səmərəliliyin təmin edilməsinə yönəlmişdir.

2) Korrupsiya hər bir ölkənin təhlükəsizliyinə təhdid yaradır, cəmiyyətin inkişafına xələl yetirir, əlverişli biznes mühitinin yaranmasına mane olur və hüquqi nihilizmə gətirib çıxarır. Dövlət qulluğu sistemində korrupsiya ilə əlaqədar hüquqpozmalarına qarşı preventiv tədbirlərin zəruriliyi məcmu olaraq xüsusi növ intizam məsuliyyətinin mövcudluğunu şərtləndirir. Dövlət qulluğu sistemində elektron hüquq münasibətləri daha da geniş vüsət almalı və rəqəmsal hökumətə keçid təmin edilməlidir. Yeni növ ictimai münasibətlərin formalaşması və inkişafı, dövlət qulluğu sistemində elektron hüquq münasibətlərinin daha geniş bərqərar edilməsi özündə dövlət qulluqçularının intizam məsuliyyətinin xüsusi növünün formalaşmasına səbəb olur.

3) Elmi baxışlar belə qənaətə gəlməyə əsas verir ki, müəlliflər korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətində xüsusi elementlərə bu və ya digər aspektlər üzrə toxunurlar, lakin, onu xüsusi növ intizam məsuliyyəti kimi təqdim və təhlil etmirlər. Dövlət qulluğu sistemində korrupsiya hüquqpozmaları dövlət qulluqçularının hüquqi məsuliyyətinin müxtəlif növlərinin, o cümlədən intizam məsuliyyətinin yaranmasına səbəb olur. Sosial, siyasi və hüquqi əhəmiyyətinə görə dövlət qulluqçularının intizam məsuliyyəti ümumi və xüsusi elementlərə görə fərqlənir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsi hüquqi və sosial əhəmiyyət kəsb edir.

4) Azərbaycanda korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə cəlb edilməsinin hüquqi əsasları Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir. Həmin Qanun dövlət qulluqçularının intizam məsuliyyəti institutunun ümumi və xüsusi növə ayrılmasına səbəb olmuşdur. Dövlət qulluqçularının intizam məsuliyyəti institutuna ümumi normalarla yanaşı, korrupsiya hüquqpozmalarına görə intizam məsuliyyətini tənzimləyən xüsusi normalar daxil edilmişdir. Bunun hüquqi mahiyyəti və intizam məsuliyyəti ilə əlaqəsi nə elmdə, nə də hüquq tətbiqi təcrübəsində hələ də özünü tam ifadə etməmişdir. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyətinə dair tədbirlərin səmərəli tətbiqinin hüquqi tənzimlənməsi ardıcıllıq, hüquqi terminologiyanın vəhdəti, hüquq tətbiqi üçün aydın və bir sıra əsas tələblərə cavab verməlidir. Bu amillərin birliyi dövlət qulluqçularının intizam məsuliyyəti institutunun keyfiyyətini təmin etmiş olar.

5) Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanununda intizam məsuliyyətinə verilmiş anlayışın məzmununda onun xüsusiləşdirilmiş xarakteri təsbit edilir. Burada verilmiş tərkib elementlər, o cümlədən, Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə intizam tənbehinin tətbiqini nəzərdə tutan normalar dövlət qulluğu sistemində intizam məsuliyyətini xüsusiləşdirir, dövlət qulluqçusuna münasibətdə məxsusi intizam məsuliyyətinin yaranmasını özündə ifadə edir. İntizam məsuliyyətinə verilmiş anlayışın məzmunu dövlət qulluqçusunun fəaliyyətinin əmək hüquqi xarakterini bir daha qanunvericilik vasitəsilə leqal olaraq təsdiq edir. Digər tərəfdən, intizam məsuliyyəti dövlət qulluğu sistemi üçün xüsusiləşdirilmişdir, lakin tam ifadə edilməmişdir. Bununla yanaşı, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25-ci maddəsində nəzərdə tutulmuş intizam məsuliyyətinin tərkib elementləri ilə uyğunsuzluq müşahidə edilir. Belə ki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun intizam məsuliyyətinə dair məsələ həmin anlayışda təsbit edilmir. Buna görə də, Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun 1.1.26-cı maddəsinin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

**"1.1.26. dövlət qulluğu sistemində intizam məsuliyyəti – dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsinə (intizam xətasına), habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə bu Qanunda nəzərdə tutulmuş intizam tənbehinin tətbiqini nəzərdə tutan ümumi xarakterli hüquqi məsuliyyət növü (ümumi növ intizam məsuliyyəti); korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) xüsusi xarakterli hüquqi məsuliyyət növü (xüsusi növ intizam məsuliyyəti);".**

6) Elmi təhlil belə qənaətə gəlməyə əsas verir ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun "Dövlət qulluqçusunun məsuliyyəti" adlanan 25-ci maddəsi natamamdır, həmin Qanunun korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə intizam məsuliyyətini nəzərdə tutan 25.2 və 25.11-ci maddələri ilə uzlaşmır. Qanunda mövcud olan uyğunsuzluğu aradan qaldırmaq üçün Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsinin aşağıdakı məzmunda yeni redaksiyada verilməsi məqsədəuyğun heab edilir:

**"25.1. Dövlət qulluqçusuna həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi və ya lazımi şəkildə yerinə yetirilməməsi, habelə bu Qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması (ümumi növ), korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (xüsusi növ) qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur.".**

7) Dövlət qulluqçusunun intizam məsuliyyətinin yaranmasına səbəb olan aşağıdakı üç ümumi, iki xüsusi istiqamət müəyyən edilir:

**dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyətinin səbəbləri:**

- ➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- ➢ dövlət qulluqçusu tərəfindən qanunla müəyyən edilmiş vəzifələrin lazımi şəkildə yerinə yetirilməməsi onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- ➢ dövlət qulluqçusu tərəfindən qanunla dövlət qulluğu ilə əlaqədar müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması onun ümumi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

**dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin səbəbləri:**

- ➢ dövlət qulluqçusu maliyyə xarakterli tələblərə əməl etmədikdə bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur;
- ➢ dövlət qulluqçusu korrupsiya ilə əlaqədar hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) bu hal onun xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur.

Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinin yaranma əsaslarının ciddiliyini nəzərə alaraq korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə hüquqi əsaslar aşkar edildiyi gündən üç ay keçənədək dövlət qulluqçularına intizam tənbehinin verilməsi məqsədəmüvafiq olardı.

Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanunun 25.11-ci maddəsinin ləğv edilməsi və aşağıdakı məzmunda 25-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**"Maddə 25-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

**25-1.1. Dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı və 9-1-ci maddələrinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.**

**25-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularına intizam tənbehi bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən üç ay keçənədək verilə bilər.**

**25-1.3. Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyətinə dair digər məsələlər qanunvericiliyə uyğun olaraq tənzimlənir.".**

8) Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 25.6-cı maddəsində korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsu-

liyyəti diqqətdən kənar qalmışdır. Bu hal qanunvericilikdəki boşluqlardan biridir. Bu boşluğu aradan qaldırmaq və dövlət qulluqçusunun intizam məsuliyyətini daha da gücləndirmək məqsədilə həmin maddənin aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq hesab edilir:

**“25.6. Bu Qanunun 25.2.6-cı maddəsində nəzərdə tutulmuş intizam tənbeh tədbiri vəzifələrin icrası zamanı kobud və ya mütəmadi olaraq pozuntulara yol verildikdə və ya bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlərə əməl edilmədikdə və ya “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə tətbiq oluna bilər.”.**

9) Dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti korrupsiya ilə əlaqədar hüquqpozmaları ilə bilavasitə şərtlənir və heç bir şübhə doğurmur. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində “Maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyət”ə dair normalar əmək hüquqi xarakterlidir, buna görə də, maliyyə xarakterli tələblərin pozulmasına görə məsuliyyətə cəlb olunma halında intizam məsuliyyəti nəzərdə tutulur. Həmin maddənin adının məzmununa uyğunlaşdırılmasına və yeni redaksiyada verilməsinə ehtiyac vardır. Həmin uyğunsuzluğu aradan qaldırmaq üçün Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin adının aşağıdakı redaksiyada verilməsi məqsədəmüvafiq olardı:

**“Maddə 6. Maliyyə xarakterli tələblərin pozulmasına görə xüsusi növ intizam məsuliyyəti”.**

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində təsbit edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarına dair normalarla dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti bilavasitə xarakterizə edilir. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının xüsusi növ intizam məsuliyyəti iki istiqamət üzrə təzahür edir:

1) bilavasitə korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti;

2) korrupsiyaya şərait yaradan hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununa aşağıdakı məzmunda 9-1-ci maddənin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir:

**“Maddə 9-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti**

**9-1.1. Dövlət qulluqçusu bu Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda) 6-cı maddəsinə müvafiq olaraq xüsusi növ intizam məsuliyyətinə cəlb olunur.**

**9-1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti ilə əlaqədar digər məsələlər Azərbaycan Respublikasının dövlət qulluğu haqqında qanunvericiliyi və əmək qanunvericiliyi ilə tənzimlənir.”.**

10) “Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə”də nəzərdə tutulmuş “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya”nın ləğv edilməsinə baxmayaraq həmin Əsasnamənin məzmununda müvafiq dəyişiklik aparılmamışdır. Buna görə də, həmin Əsasnamənin 3-cü bəndində nəzərdə tutlmuş “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiyaya (bundan sonra - Komissiya)” sözlərinin “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə” (bundan sonra – Dövlət Əmək Müfəttişliyi Xidmətinə)” sözləri ilə, o cümlədən Əsanamənin müvafiq hissələrində “Komissiya” sözü ismin müvafiq hallarında “Dövlət Əmək Müfəttişliyi Xidməti” sözləri ilə əvəz edilməsi məqsədəmüvafiq hesab edilir.

11) Elmi müddəaların və qanunvericiliyin təhlili belə qənaətə gəlməyə əsas verir ki, dövlət qulluqçularının intizam məsuliyyətinə

cəlb edilməsini iki növ üzrə xarakterizə etmək olar:

1) intizam xətasına görə dövlət qulluqçusunun ümumi növ intizam məsuliyyəti;

2) korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçusunun xüsusi növ intizam məsuliyyəti.

Korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə dövlət qulluqçularının intizam məsuliyyətini tənzimləyən normativ müddəalar göstərir ki, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluqçuları üçün bir sıra məhdudiyyətlər və qadağalar müəyyən edilmişdir. Çünki, korrupsiya ilə əlaqədar hüquqpozmalarına görə məsuliyyətin əsas subyektlərindən biri məhz korrupsiyaya qarşı mübarizəyə dair vəzifələr həvalə edilmiş dar aspektdə dövlət qulluqçularıdır, daha geniş aspektdə isə dövlət vəzifəli şəxslərdir. Korrupsiya ilə əlaqədar hüquqpozmaları törətmiş dövlət qulluqçusunun əməli əsasən xüsusi növ intizam məsuliyyətinin yaranmasına səbəb olur və buna görə də, intizam tənbehi tətbiq edilə bilər. Dövlət qulluğu haqqında və Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunlarında müvafiq dəyişikliklərin edilməsi zəruri hesab edilir. Bundan əlavə olaraq, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası dövlət qulluqçularının fəaliyyətində korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin daha da artırılması, aşkar edilmiş nöqsanların aradan qaldırılması, dövlət qulluqçuları tərəfindən törədilən korrupsiya ilə əlaqədar hüquqpozmaların ağır nəticələri və tətbiq ediləcək tənbehlər barədə metodiki tövsiyələrin hazırlanması məqsədəmüvafiq hesab edilir.

## Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2016, 92 s.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı: Qanun, 2023, 672 s.

3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2023, 504 s.

4. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş “vəzifəli şəxs” anlayışının şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2013-cü il 19 iyul tarixli Qərarı // Respublika. – 2013, 7 avqust. №171

5. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, №11, maddə 2395

6. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, №12, maddə 1524

7. Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 766-VQ nömrəli Qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №08, maddə 1515

8. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №04, maddə 665

9. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 06, Maddə 470

10. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2005-ci il 30 sentyabr tarixli 1003-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, №10, maddə 890

11. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 01, maddə 1

12. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edil-

məsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, №4, maddə 459

13. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli 352-IIIQ nömrəli Qanunu // Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2007, №08, maddə 750

14. Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 571 nömrəli Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №09, maddə 586

15. Əliyev, İ.H. İnkişaf – məqsədimizdir. Səksən altıncı kitab / – Bakı: Azərnəşr, 2019. – 392 s.

16. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli 580-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №03, Maddə 125

17. "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2003-cü il 30 dekabr tarixli 570-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №01, maddə 11

18. "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının 2003-cü il 30 dekabr tarixli 571-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №01, maddə 12

19. Qədirov, A.X. Korrupsiya cinayətlərinin anlayışı, mahiyyəti və kriminalistik xarakteristikası. Monoqrafiya / A.X.Qədirov. – Bakı: Elm və təhsil, 2014. – 196 s.

20. Qədiməliyev, A.R. Konstitusiya islahatları: konseptual modellər və realizə problemləri: / hüquq üzrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2023. – 58 s.

21. Məmmədov, O.C. Dövlət qulluğu peşəkar əmək fəaliyyətinin xüsusi növü kimi: hüquqi modeli // – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, – 2017. №1, – s.128-141.

22. Məmmədov, O.C. Dövlət qulluğu sistemində korrupsiyaya qarşı mübarizənin hüquqi təminatları. Dərs vəsaiti / O.C.Məmmədov. – Bakı: Elm və təhsil, – 2018. – 180 s.

23. Məmmədov, O.C. Dövlət vəzifəli şəxslər korrupsiya hüquqpozmalarının subyekti kimi // – Bakı: Dirçəliş – XXI əsr, – 2018. №185, – s. 88-102.

24. Məmmədov, O.C. Korrupsiya hüquqpozmalarına görə dövlət qulluqçularının məsuliyyətinin konstitusion-hüquqi elementləri // – Bakı: Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın Aktual Məsələləri, Elmi əsərlər məcmuəsi, – 2019. №67, – s. 61-74.

25. Məmmədov, O.C. Dövlət qulluqçularının konstitusion əmək hüquq subyektliyi: ümumnəzəri və sahəvi xüsusiyyətləri // – Bakı: Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2018. №1, – s. 24-42. : http://static.bsu.az/w1/PDF%202019/sosial-1-2018.pdf

26. Məmmədov, O.C. Dövlət qulluqçularının əmək münasibətlərinin tənzimlənməsi sistemində konstitusiya, inzibati, əmək və sosial təminat hüquq normalarının nisbəti // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2019. №02, – s. 77-90. : https://socialsciences.az/az/magazine-detail/54

27. Məmmədov, O.C. Dövlət qulluqçularının konstitusion-hüquqi məsuliyyətinin tərkib elementləri: elmi-nəzəri və konseptual yanaşma // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2019. №01, – s. 119-128.: https://socialsciences.az/az/magazine-detail/53

28. Məmmədov, O.C. Dövlət qulluqçularının hüquqi məsuliyyəti: nəzəri-konseptual və metodoloji yanaşma // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, – 2021. №1, – s. 187-204. : https://socialsciences.az/az/magazine-detail/59

29. Məmmədov, O.C. Dövlət qulluqçularının fəaliyyətində korrupsiya hüquqpozmaları: nəzəriyyə və təcrübə // – Bakı: Qanun, – 2021. №04 (318), – s. 21-30.

30. Məmmədov, V.Q. Korrupsiya ilə bağlı cinayətlərlə mübarizənin problem məsələləri / V.Q.Məmmədov. – Bakı: Adiloğlu, – 2006. – 186 s.

31. Novruzov, V.T. İqtisadi siyasətdə şəffaflıq amili // Azərbaycan. – 2010, 1 avqust. – s. 4.

32. Rzayev, Ə.H. Dövlət qulluğunun hüquqi əsasları / Ə.H.Rzayev. – Bakı: Elm, – 2011. 480 s.

33. Süleymanov, C.A. Azərbaycan Respublikasının Konstitusiyasında xalq hakimiyyəti konsepsiyası (monoqrafiya): - Bakı: - 2021. - 754 s. (elektron nəşr), https://www.lhri.az/az/library-books/Azərbaycan%20Respublikasının%20Konstitusiyasında%20xalq%20hakimiyyəti%20konsepsiyası%20%28monoqrafiya%29

34. Siyasi və ictimai müzakirələr zamanı tez-tez "korrupsiya" sözünü eşidirik. Nədir bu danışılan korrupsiya? Necə işləyir? Hansı növləri var? Bizə necə təsir edir? // http://xocavend-ih.gov.az/az/news/siyasi-ve-ictimai-muzakireler-zamani-tez-tez-korrupsiya-sozunu-esidirik-nedir-bu-danisilan-korrupsiya-nece-isleyir-hansi-novleri-var-bize-nece-tesir-edir.html

35. "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, №08, maddə 690

36. Авдеева, О.А., Авдеев, В.А. Антикоррупционное законодательство России: ретроспективный анализ формирования механизма правового воздействия // – Москва: Lex russica (Русский закон), 2020. 73(1): с.59-69. https://doi.org/10.17803/1729-5920.2020.158.1.059-069

37. Ванновская, О.В. Психология коррупционного поведения государственных служащих: монография / О.В.Ванновская. – Москва: Юрайт, – 2019. – 251 с.

38. Добробаба, М.Б. Дисциплинарная ответственность: правовые механизмы обеспечения эффективности в системе государственной службы / М.Б.Добробаба, М.В.Пресняков, С.Е.Чаннов. – Москва: Норма, – 2023. – 352 с.

39. Добробаба, М.Б., Чаннов С.Е. Ответственность государственных служащих за коррупционные правонарушения: проблемы оптимизации модели // – Москва: Журнал российского права, – 2021. – Т. 25, №11. – с. 88-101.

40. Жильцов М.А. Проблемы привлечения к дисциплинарной ответственности медицинских работников // – Москва: Трудовое право в России и за рубежом, – 2021. №4, – с. 38-41.

41. Карагодин, Н., Карагодина, И. Формирование корпуса государственных служащих: зарубежный опыт для России // – Москва: Международная экономка и международные отношения, – 1993. № 2, – с.78-90.

42. Костенников, М.В., Куракин, А.В. Административно-правовые средства противодействия коррупции в системе государственной службы Российской Федерации // – Москва: Государство и право. 2009. №12, – с.15-24

43. Куракин, А.В. Государственная служба и коррупция. Монография / А.В.Куракин. – Москва: Nota Bene, – 2009. – 328 с.

44. Лещина, Э.Л. Гарантии законных прав государственных служащих при привлечении их к дисциплинарной ответственности за нарушение служебной дисциплины // Актуальные проблемы административного и административно-процессуального права. Сборник статей по материалам международной научно-практической конференции. – Санкт-Петербург: Санкт-Петербургский университет Министерства внутренних дел Российской Федерации, – 27 март 2020, 2020. с. 151-155.

45. Мамедов, О.Д., Велиева, Д.С. Юридическая ответственность государственных служащих за коррупционные правонарушения (опыт Азербайджана и России) // – Саратов: Вестник Поволжского института управления. Научный журнал. (Учредитель - Российская академия народного хозяйства и государственной службы при Президенте Российской Федерации). Поволжский институт управления имени П.А.Столыпина. – 2020. Том 20, №04, – с. 4-16.

46. Майоров, В.И., Пестов, Р.А. Специфика дисциплинарной ответственности государственных служащих за коррупционные

правонарушения // – Ростов-на-Дону, Юристъ-Правоведъ, 2023. №1(104), – с. 35-41.

47. "Модельный закон основы законодательства об антикоррупционной политике" Постановление №22-15 от 15 ноября 2003 года Межпарламентская Ассамблея государств-участников Содружества Независимых Государств / Информационный бюллетень, 2004, №33, с.225 / http://iacis.ru/upload/iblock/e78/151.pdf

48. Овсянко, Д.М. Государственная служба Российской Федерации / Д.М.Овсянко. – Москва: Юрист, – 2008. – 447 с.

49. Панкратов, А.Ю., Слепнева, Э.И. Привлечение к ответственности за дисциплинарные проступки и коррупционные правонарушения: Практическое пособие / А.Ю.Панкратов, Э.И.Слепнева. – Казань: – 2017, 38 с.

50. Перевалов, В.Д. Теория государства и права: учебник и практикум / В.Д.Перевалов. – Москва: Юрайт, – 2019. – 341 с.

51. Савин, С.А. Проблемы применения механизма дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения // Научный электронный журнал "Академическая публицистика", – 2023. №3-1, – с. 141-147.

52. Терещук, С.С. К вопросу о разграничении дисциплинарного проступка и дисциплинарного коррупционного правонарушения // – Саратов: Вестник Саратовской государственной юридической академии, – 2023. №1(150), – с.137-142.

53. Чаннов, С.Е. Служебное право Российской Федерации. Учебное пособие / С.Е.Чаннов, М.В.Пресняков. – Москва: Норма; ИНФРА-М, 2011. – 448 с.

54. Чернышева, Л.А. Дисциплинарная ответственность государственных служащих за предоставление недостоверных или неполных сведений о доходах и расходах // – Санкт-Петербург: Криминалистъ, – 2015. №2 (17), – с. 44-47.

55. Mammadov, O.J.O. (2023). State Administrative and Contractual Character of Labor Law Relations of Civil Servants. International Journal of Professional Business Review, 8(8), e03152. p.1-18 https://doi.org/10.26668/businessreview/2023.v8i8.3152

## Резюме

**Орудж Мамедов**

## Специальный вид дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения: теоретико-правовая модель

В статье проанализированы научные и нормативные положения о теоретико-правовой модели особого вида дисциплинарной ответственности государственных служащих за совершенные ими правонарушения, связанные с коррупцией. Впервые систематически анализируется теоретико-правовая модель особого вида дисциплинарной ответственности государственных служащих за правонарушения, связанные с коррупцией. Этот фактор включает в себя актуальность выбранной темы для азербайджанской юридической науки, необходимость ее анализа, научную новизну и практическую значимость данной темы.

В статье рассмотрена государственная политика по особому виду дисциплинарной ответственности государственных служащих за правонарушения, связанные с коррупцией; обобщены теоретические положения; проанализирована законодательная база, предусматривающая особый вид дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения, выявлены противоречия в законодательстве и даны пути их решения; выделены составные элементы общего и специального вида дисциплинарной ответственности государственных служащих; высказаны научные положения, характеризующие теоретико-правовую модель особого вида дисциплинарной ответственности государ-

ственных служащих за коррупционные правонарушения, а также сделаны предложения по совершенствованию законодательства.

В статье отмечается, что коррупция представляет угрозу для безопасности каждой страны, подрывает развитие общества, мешает созданию благоприятной деловой среды и способствует юридическому нигилизму. В системе государственной службы необходимость совокупности превентивных мер против правонарушений, связанных с коррупцией, обуславливает существование особого вида дисциплинарной ответственности. Привлечение государственных служащих к дисциплинарной ответственности можно охарактеризовать по двумя видам: 1) общий вид дисциплинарной ответственности государственных служащих за дисциплинарные проступки; 2) особый вид дисциплинарной ответственности государственного служащего за правонарушения, связанные с коррупцией.

В заключении была выражена научная концепция теоретико-правовой модели особого вида дисциплинарной ответственности государственных служащих за коррупционные правонарушения и выдвинуты предложения по совершенствованию законодательства.

***Ключевые слова:*** *государственная служба, коррупционные правонарушения, особый вид дисциплинарной ответственности*

## Summary

**Oruj Mammadov**

## Special type of disciplinary liability of civil servants for corruption offenses: theoretical-legal model

In the article, the scientific and normative provisions on the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for their corruption-related offenses were analyzed.

For the first time, the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for corruption-related offenses is systematically analyzed. This factor contains the relevance of the topic chosen for Azerbaijan legal science, the necessity of its analysis, scientific novelty and practical significance.

In the article, the state policy on the special type of disciplinary liability of civil servants for corruption-related offenses was reviewed; theoretical provisions was summarized; the legislative framework that stipulates the special type of disciplinary liability of civil servants for corruption offenses was analyzed, contradictions in the legislation were revealed and solutions were given; the constituent elements of general and special type of disciplinary liability of civil servants are distinguished; the scientific clauses characterizing the theoretical-legal model of the special type of disciplinary liability of civil servants for corruption offenses were expressed and suggestions were made for improving the legislation.

The article it was shown that corruption threatens the security of every country, undermines the development of society, prevents the creation of a favorable business environment and causes to legal nihilism. In the civil service system, the need for preventive measures against corruption-related offenses collectively determines the existence of a special type of disciplinary responsibility. Disciplinary liability of civil servants can be characterized by two types: 1) general disciplinary liability of civil servants for disciplinary errors; 2) special type of disciplinary liability of a civil servant for corruption-related offenses.

In conclusion, the scientific concept of the theoretical-legal model of the special type of disciplinary liability of civil servants due to corruption offenses was expressed and a proposal was nominated to improve the legislation.

***Keywords:*** *civil service, civil servant, corruption offences, special type of disciplinary responsibility*

UOT 3.327
https://doi.org/10.59849/2710-0820.2023.2.238

**Orxan Musa**
*Azərbaycan Turizm və Menecment Universiteti "Beynəlxalq münasibətlər" kafedrasının doktorantı*
*ORCİD İD: 0000-0002 -3947 -5594*
*Azərbaycan*
*o.musa@atmu.edu.az*

# HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCAN – İTALİYA HUMANİTAR VƏ MƏDƏNİ ƏMƏKDAŞLIĞINDA İŞTİRAKI

***Açar sözlər:*** *Heydər Əliyev Fondu, Azərbaycan – İtaliya, İlham Əliyev, Mehriban Əliyeva, mədəni əlaqələr, humanitar əməkdaşlıq, müddəa və qənaətlər.*

**Giriş.** Azərbaycan və İtaliya respublikaları arasında hazırda çoxşaxəli, səmərəli humanitar – mədəni əməkdaşlıq mövcuddur. Bu, işbirliyi onların müvafiq dövlət strukturları – qurumlarının və qeyri – hökümət təşkilatlarının vasitəsilə, birgə fəaliyyətlərilə, yəni müvafiq humanitar: proqramlar, layihələr və tədbirlərlə gerçəkləşdirilir. Bu, çoxyönlü və nəhəng işin vəsiləsi və vasitəçisi rolunu isə ölkəmiz tərəfindən Heydər Əliyev Fondu oynayır. (Yeri gəlmişkən, İtaliya mətbuatının yekdil rəyinə görə, Heydər Əliyev Fondu "Azərbaycan xalqının mənəvi – mədəni dünyası, xəzinəsi, irsidir" (10, s.21 ).

Fondun bu sahədəki faydalı səyləri elmi araşdrma problemi və predmeti kimi də diqqətçəkicidir. Buna görə də çoxsaylı əlaqədar sənəd – materialların dərindən öyrənilməsi və elmi axtarışların aparılması zəruridir.

**Fondla bağlı qısa nəzəri - əməli dəyərləndirmə.** Bu dəyərləndirməni aşağıdakı bir sıra mühüm məsələlər və məqamlar üzrə şaxələndirmək də olar. Yəni fondun:

a) yaradılma zərurəti və önəmi;
b) missiyası- hədəfləri və potensialı;
c) ölkəmizdə və xaricdə təqdirolunan praktiki işi (təcrübəsi – modeli) və s.

Burada vurğulanan şaxələrin və sadalanmayan sahə - istiqamətlərin əhatə etdikləri çoxlu məsələlərin müəyyən dərəcələrdə (yetərincə və qismən) araşdırılması əsas götürülməklə belə bir qənaətə gəlinmişdir. (Sözgəlişi, bu, araşdırılma səviyyəsi ilə bağlı əminlik hasil etməkdən ötrü, fikrimizcə, elə təkcə "Heydər Əliyev Fondu" – 10: biblioqrafiya"sına (9) nəzər salmaq da kifayət edər). Belə ki, bu məqalədə fondun iş təcrübəsinin, xüsusilə və konkret olaraq da, onun Azərbaycan – İtaliya humanitar/mədəni əməkdaşlığındakı rolunun tədqiqatı faydalı və vacib sayılmışdır.

Bizcə, fondun Azərbaycan Respublikasının İtaliya dövləti ilə humanitar əməkdaşlığındakı yeri və rolunun təhlili zamanı bunların önə çəkilməsi lazımdır.

**Birincisi,** qurumun nəzərə aldığı, vurğuladığı və üstünlük verdiyi: müasir reallıqlar – çağırışlar – müddəalar və s. Onların da ən başlıcalarından sayılırlar:

• sivilizasiyalararası dialoq (uzlaşma), yoxsa qarşıdurma seçimi (alternativi);
• beynəlxalq münasibətlərdə bəzən qüvvətlənən (irəliçıxan) və bəzən də zəifləyən (geriqalan) "yumşaq güc" fenomeni;
• xeyli problemlərli və fəsadlarlı qloballaşmada iştirakın qaçılmazlığı;
• dünyada humanitar/mədəni: siyasət – diplomatiya - əməkdaşlıq çağırışları;
• qlobal barışa və sülhə təmənnasız xidmətlə qayğının yeni modelinin axtarışı;
• adamların kütləvi yerdəyişməsi şəraitində insan kapitalını qoruma;
• müasir elmi – texniki tərəqqinin humanitar inkişafla müşaiəti;
• bütün xalqların milli – mənəvi/mədəni dəyərlərinin mühafizəsinə yeni yanaşma.

*Azərbaycan Turizm və Menecment Universiteti "Beynəlxalq münasibətlər" kafedrasının doktorantı, ORCİD İD: 0000-0002 -3947 -5594

Yeri gəlmişkən, bu kimi və digər köklü müddəa və çağırışlar I – V Bakı Beynəlxalq Humanitar forumlarında (2011 – 2016 – cı illər) səsləndirilmişdir (4). Məsələn: planetar miqyaslı təhdidlər; sivilizasiyaların irimiqyaslı münaqişəsi təhlükəsi; yeni beynəlxalq humanitar gündəlik; humanitar əsaslarlı yeni dünya nizamı; qloballaşmada ədalətsizlik; Bakının beynəlxalq dialoq mərkəzi olma potensialı və s.

**İkincisi,** fondun ikitərəfli (Azərbaycan – İtaliya) humanitar və mədəni əlaqələrlə bağlı prioritet saydığı, davamlı diqqət yetirdiyi konkret məqamlar:

• dövlətlərarası münasibətlərdə ikitərəfli humanitar – mədəni işbirliyinin önəmi;

• Azərbaycan multikulturalizmi: insanların nadir birgəyaşayış təcrübəsi – nümunəsi – modeli;

• AR – in (Qarabağın) həqiqətlərini "Xocalıya ədalət" kampaniyası müstəvisində və s. dünyaya tanıtma;

• Azərbaycan – İtaliya mədəni əlaqələrində tarixilik, ənənəvilik – varislik, humanizm və başqa meyarlar;

• İtaliya Respublikası Azərbaycanın dostları sayılan dövlətlər cərgəsində;

• ölkələrimiz (cəmiyyətlərimiz) arası yüksək səviyyəli, məhsuldar humanitar – mədəni anlaşma və perspektivlər.

**Fondun əməkdaşlığa dəstəyi və töhfələri.** Qurum Azərbaycanla İtaliya arasındakı humanitar- mədəni əməkdaşlığın genişlənməsi və möhkəmlənməsində aparıcı rol oynayır. Onun bu sahə - yöndəki fəaliyyətinin araşdırılması aşağıdakı baxış və yanaşmaların önə çıxarılmasını və təhlil olunmasını da şərtləndirir.

1. Qurumun bu işbirliyinə qatılması AR-İR strateji tərəfdaşlığına və müvafiq tutarlı hüquqi bazaya (çoxsaylı saziş, protokol, birgə bəyannamə və s.) əsaslanır. (Sözgəlişi, bu cür diplomatik – hüquqi sənədlər barədə "Azərbaycan – İtaliya ikitərəfli münasibətləri. Qısa məlumat" başlıqlı rəsmi materialdan (3) yetərli obyektiv məlumatlar əldə etmək olar).

2. Tanınmış fondun xətti, birbaşa iştirakı, çoxşaxəli (maliyyə və s.) dəstəyi ilə görülən işlər (tədbirlər) bu cəhətlərdən də yüksək qiymətləndirilir:

a) tarixi – bəşəri dəyər;

b) müsəlman ölkəsi (Azərbaycan) tərəfindən xristian – katolik aləminə töhfələr;

c) fərqli sivilizasiyalararası dialoqa əvəzsiz xidmət;

ç) xeyli qiymətli göstəricilər – dəyərlərlə səciyyələnən çağdaş Azərbaycan dövlətçiliyinin və onun böyük nüfuzunun təsbiti və s.

Heydər Əliyev Fondunun Azərbaycan – İtaliya mədəni əlaqələrinə və humanitar işbirliyinə qoşulmasının çoxşaxəli önəmini diqqətçəkici "işlər – tədbirlər bolluğu" da kifayət qədər təsdiqləyir. Belə bir qənaətin hasil olunmasına fondun İtaliya – Azərbaycan Assosiyasiyası və başqa qurumlarla birlikdə ərsəyə gətirdikləri layihələr, tədbirlər və s. sırasından vurğulayıb seçdiklərimizin siyahısı da yetərli əsaslar verir. Belə ki, 2004 – 2023-cü illərdə fond və onun prezidenti M.Əliyeva tərəfindən çoxlu qiymətli layihələr həyata keçirilmiş və xeyli əhəmiyyətli işlər – tədbirlər görülmüşdür. Məsələn (3):

• 2004 – cü ildə İtaliyada keçirilən "Uşaq və yeniyetmələrin qorunmasına dair dünya qadın parlamentarların konfransı " nda iştiraka dəstək verilmişdir;

• 2005 – ci ildə AR ilə İR arasında imzalanan "Mədəniyyət abidələrinin qorunması və oğurlandıqları halda geri qaytarılması sahəsində əməkdaşlığa dair Bəyannamə" nin icrasına yardım göstərilmişdir;

• 2007 – ci ildə İtaliyada Azərbaycan Dillər Universiteti ilə onun Siena, Peruca Əcnəbilər universitetləri arasında əməkdaşlıq barədə sazişlərin həyata keçirilməsinə yönəlik tədbirlər görülmüşdür;

• 2011 – ci ildə: AR -ə rəsmi səfərə gələn dost dövlətin parlamentinin İtaliya – Azərbaycan dostluq qrupunun rəhbəri xanım R.Baldi ilə görüş - müzakirə keçirilmişdir; həmçinin Azərbaycanın Birinci xanımının İtaliyaya səfəri düzənlənmişdir. (Yeri gəlmişkən, bu səfər zamanı senatda" İtaliya – Azərbaycan münasibətlərinin iyirmi illiyi" mövzusunda konfrans da keçirilmişdi);

• 2012 – ci ildə: AR-in əlaqədar strukturları ilə birlikdə İtaliyada ilk dəfə Azərbaycan Mədəniyyət Günləri təşkil olunmuşdur. (Sözgəlişi, az öncə də qeyd edildiyi kimi, bu tədbirin çərçivəsində keçirilən konsertlərə M.Əliyeva da qatılmşdı); Nizami Gəncəvinin yubileyi ilə bağlı keçirilən silsilə tədbirlər ərzində dahi şairimizin

Romanın məşhur Villa Borgeze xiyabanında abidəsinin açılışı olmuşdur. Fondun dəstəyi ilə ucaldılan abidə İlham Əliyev tərəfindən də ziyarət edilmişdir;

• 2013 – cü ildə: a) Romadakı Müasir İncəsənət muzeyində “Fly to Baku” çağdaş Azərbaycan incəsənəti sərgisinin açılışı gerçəkləşdirilmişdir. (M.Əliyeva tədbirdə iştirak etmişdir); b) Bakıdakı 132-134 saylı təhsil kompleksində italyan dilinin tədrisinə başlanılmasına yardım göstərilmişdir; c) İtaliya paytaxtında Heydər Əliyevin xatirəsinə həsr edilən kamera musiqisi konsertinin təşkili məsləhət görülmüşdü. (Konsert şəhərin çoxtanınan Brankaçço sarayında Ü.Hacıbəyli adına Bakı Musiqi və İtaliyanın isə Müqəddəs Çeçeliya Milli akademiyalarının köməyi ilə baş tutdu); ç) Romanın Konsorti İncəsənət Qalereyasında “Nizami dünyasının rəngləri” adlı sərginin açılışına uğurlu təşəbbüs göstərildi; d) Azərbaycanın əzəli torpağı olan Qarabağın türk – müsəlman qaçqın ailələrinin 15 uşağının İtaliyaya səfərinin təşkilinə ciddi səylər edildi. (Nəticədə səfər alındı və hətta uşaqlar Roma Papası ilə də görüşdülər) (1,s.48-49);

• 2013 – 2014-cü illərdə: AR-in İtaliyanın regionlarında yaxından tanıdılmasından ötrü uğurlu təşəbbüsün və yeni orijinal, fərqli layihənin icrasına rəvac verildi. Bu çərçivədə ilk tədbir Florensiyada təşkil edildi. (Belə bir seçim əsla təsadüfi deyildi. Çünki həmin şəhər tarixi dövlətçilik ənənələri, mədəni irsi və məşhur sakinləri – L.da Vinçi, Mikelancelo, Dante, Qaliley və b. ilə tanınır. Tədbir zamanı AR-in İtaliyadakı səfiri V.Sadıqovun və şəhər Şurasının sədri E.Gianinin etdikləri çıxışlarda Azərbaycan (fond) – Florensiya humanitar əlaqələrinə geniş yer ayrıldı); Romada İtaliya – Azərbaycan turizm forumunun və “Müxtəlif millətlərin və dini təriqət nümayəndələrinin birgəyaşayışı: Azərbaycan multikulturalizm və tolerantlıq nümunəsi” adlı beynəlxalq konfransın keçirilməsinə hərtərəfli dəstək verdilər; “Əli və Nino” romanının italyancaya çevrilməsinin təşkilinə və İtaliyanın “ Nəşnıl Geografik” televiziyasında Azərbaycana aid sənədli filmin nümayişinə müvəffəq olundu; Şuşalı köçkün uşaqlar üçün nəzərdə tutulan “Həmrəylik yolu düşərgəsi” layihəsinin gerçəkləşdirilməsi önə çəkildi; “Fori İmperial – Mercati di Traiano” muzeyinin yerləşdiyi ərazidə aparılacaq arxeoloji qazıntılardan ötrü maliyyə vəsaiti məsələsi həllini tapdı (onu fond ayırdı); irəli sürülən maraqlı təşəbbüsü, yəni İtaliyada ali təhsil alan azərbaycanlı tələbələrin Romada aparılan arxeoloji qazıntılarda yaxından iştirakı fikrini şəhər meriyası bəyəndi. (İtaliyanın nüfüzlu “İl Tempo” qəzet saytı həm bu təşəbbüs – fakt, həm də Roma meri İ.Marinonun Heydər Əliyev Fonduna minnətdarlığı barədə məlumatlar yaydı) (7);

• 2015 – ci ildə: 1) “Milan Expo -2015 “ adlı beynəlxalq sərgidə Azərbaycan pavilyonunun təşkilinə tutarlı və təsirli dəstək verilmişdir. (Bu pavilyonla bağlı məsələlər başqa bir tədqiqatımızda ətraflı təhlil olunur); 2) İDEA İctimai Birliyinin dəstəyi ilə Venezia – Biennale Beynəlxalq İncəsənət sərgisi çərçivəsində AR-in iki pavilyonunun açılışına müvəffəq olunmuşdur; 3) Romadakı məşhur “Casa del Sinema” kino evində Birinci Azərbaycan Film Festivalının keçirilməsi baş tutmuşdur;

• 2016 – cı ildə Bakıda təşkil olunan “Daşın nəğməsi” I Beynəlxalq Heykəltaraşlıq Simpoziumuna italiyalı mütəxəssislər də qatılmışdılar (5). Bakının Qala qəsəbəsindəki açıq hava şəraitində yaradılan incəsənət əsərləri arasında İtaliya heykəltaraşı C.Stranonun “Xaosun balansı № 3” də özünə yer almşdı. (Yeri gəlmişkən, bu simpozium VII “Qız qalası” Beynəlxalq İncəsənət Festivalı çərçivəsində keçirilmişdi. Simpoziumun hər il təşkil olunması və onun məhsulllarından açıq səma altında muzey – heykəltaraşlıq parkının yaradılması da razılaşdırılmışdı); İtaliya – Romada və Vatikanda görülən xeyriyyəçilik işlərindən biri (məşhur katakombaların bərpası) xristian aləmində geniş əks –səda doğurdu. (Sözgəlişi, Romadakı 60 katakombadan yalnız bir neçəsi ziyarətə açıqdır). İtaliya və Vatikan mətbuatında, siyasi – dini – elmi (akademik) çevrələrində bu məsələlərlə bağlı aparılan faydalı, obyektiv müzakirələrdə M.Əliyevanın belə bir önəmli yanaşması vurğulandı: Azərbaycan tolerantlıq ünvanıdır, həyat tərzidir, ənənədir və multukultural məkandır. (Sözgəlişi, bütün bunlarla bağlı İ.Sarıyevanın araşdırmalarında xeyli maraqlı faktiki material toplanılmışdır). Qeyd etdiyimiz müzakirələrdə

belə bir faydalı ideya - səmərəli təklif də səsləndirilmişdi. Yəni Azərbaycanın çoxsaylı tarixi abidələrinin İtaliya – Vatikan ictimaiyyətlərinə tanıtılması məsləhət bilinmişdi;

• 2017 – ci ildə daha bir önəmli rəsmi qəbul tədbiri düzənləndi; belə ki, “İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması” mövzusundakı VI Qlobal Bakı Forumuna qatılan İtaliya Senatının vitse – prezidenti L.Lanzilotta ilə görüş – müzakirə oldu. Bu zaman fondun forumlara dəstəyi məsələlərinə də nəzər salındı;

• 2018 – ci ildə İtaliyaya Birinci vitse – prezident səviyyəsi və statusunda rəsmi səfər reallaşdırıldı. Səfər çərçivəsində İR-in yüksək səviyyəli rəsmiləri ilə aparılan danışıqlarda həm də Heydər Əliyev Fondunun İtaliyadakı humanitar fəaliyyəti dəyərləndirildi (5;6);

• 2019 – cu ildə Avropada təhsil alan azərbaycanlı gənclərin Roma forumu himayə olundu. (Bunu da mütləq nəzərə almaq lazmdır ki, fond xarici dövlətlərdə, o cümlədən də İtaliyada təhsil alan gənclərimizə hərtərəfli yardımlar edir);

• 2020 – ci ildə: “İtaliyada Azərbaycan Mədəniyyəti İli” nin keçirilməsi ilə əlaqədar olaraq xeyli faydalı işlər görüldü; İlham Əliyevin Vatikanda Roma Papası Fransisklə görüşünə müəyyən hazırlıq aparıldı. Görüş – müzakirələrə M.Əliyeva da qatıldı. Papa fondun Vatikanda gördüyü bərpa – təmir işlərinə görə onun prezidentinə təşəkkür etdi. Həmin görüş – danışıqlar həm də Fransiskin “Azərbaycan əsl tolerantlıq və birgəyaşayış nümunəsidir” kimi tarixi qiyməti və kəlamı ilə diqqət çəkdi;

• 2021 – ci ildə AXC-nin yaranması, yəni Respublika günü ilə əlaqədar olaraq Romada tədbirlərə başlanıldı. Onların arasında İtaliyada Üçüncü Azərbaycan Film Festivalı xüsusilə fərqlənirdi. Bu festivalda Azərbaycanın tarixi – sənədli filmlərindən “Son iclas” (AXC parlamentinin axırıncı toplantısından bəhs edir), “ Əbədi ezamiyyət” (AXC-nin dövlət başçısı Ə.Topçubaşovun fəaliyyətinə aid), “Əli və Nino”, habelə bəzi bədii filmlər göstərildi;

• 2022 – ci ildə verilən dəstəklə AR-in İtaliyadakı səfirliyinin yeni binasında xeyli mədəni tədbirlər həyata keçirildi. Məsələn: Romada Azərbaycan Mədəniyyət Mərkəzinin təsisi ilə bağlı hazırlıq işləri görüldü; “Mənim Azərbaycanım” adlı rəsm sərgisi nümayiş etdirildi və mədəniyyət otaqları ayrıldı; “Xarı Bülbül” maketləri sərgiləndi; elm – təhsil sahələrində mübadilələri planlaşdırıldı; musiqimizin təbliği, kitab nəşri və s. fəaliyyətlər nəzərdə tutuldu;

• 2023 – cü ildə də geniş əhatəli xeyli tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır.

Burada üzərində mütləq dayanılması lazım olan bir vacib məsələ də vurğulanmalıdır. Belə ki, bizcə, AR-in (fondun) İtaliya ilə humanitar əməkdaşlığı müəyyən səbəblərə görə, təbii olaraq və paralel surətdə Vatikanla da müvafiq işbirliyini zəruri, qaçınılmaz edir. Belə bir danılmaz zərurət Şərq (müsəlman) – Qərb (xristian/katolik) sivilizasiyalarının münasibətləri müstəvisi və kontekstində də dəyərləndirilə bilər.

Məsələnin bu cəhətini də qeyd edək ki, Azərbaycan dövlətinin və, konkret olaraq da, fondun Müqəddəs Taxt – Tacla çoxşaxəli və köklü, sanballı nəticələrli humanitar əlaqələri müxtəlif səpkilərdən araşdırılmışdır. Bununla bağlı da İ.Sarıyeva, N.Bayramlı, Z.İbrahimov, Ş.Allahverdiyeva, N.Budaqov və b. tərəfindən müəyyən tədqiqatlar aparılmışdır. Ancaq, doğrudur, bütövlükdə, AR – Vatikan münasibətlərinə dair fundamental araşdırmalara az-az rast gəlinir və monoqrafiya, digər səciyyəli əsərlər yazılmayıbdır). Buna görə də, fikrimizcə, burada ayrıca, əlavə araşdırmaya və konkret təfərrüatlara varmağa ehtiyac qalmır. Sadəcə, fondun Vatikanla çoxşaxəli, səmərəli humanitar əməkdaşlğına dair qənaət və müddəalarımızın bir qismini burada qeyd edə bilərik.

Yəni Heydər Əliyev Fondu – Vatikan humanitar əməkdaşlığı:

1. Azərbaycanın multikultural və tolerantlıq nümunəsinə verilən dəyərdir.

2. Sivilizasiyalar, dinlər (konfessiyalar) arası müsbət nəticələrli anlaşma və dialoq təcrübəsidir.

3. Papalığın mədəniyyətlə bağlı problemlərinin uğurlu həllinə dəstək verən ilk islam dövləti modelidir.

4. Milli – etnik və dini – konfessional fərqliliklərin birgə mövcudluğu misalıdır.

5. Ölkəmizin beynəlxalq siyasətində təsirli “yumşaq” gücdür və s.

**Nəticə və elmi qənaətlər.** Elmi araşdırmadan irəli gələn nəticələrlə bağlı aşağıdakıları vurğulamaq olar. Belə ki, Heydər Əliyev Fondunun AR-İR humanitar və mədəni əməkdaşlığında iştirakı:

a) dəyərli və dəqiq hədəfləri ilə seçilir. Məsələn:

• sivilizasiyalararası dialoqu Azərbaycanın – beynəlxalq birlik tərəfindən bəyənilən - təcrübəsi (nümunəsi) ilə faydalandırma. (Bu müstəvidə AR-in Vatikanla humanitar – mədəni işbirliyini də dəstəkləmə və sürdürmə);

• Azərbaycanla İtaliyanın bir – birlərini hərtərəfli tanımalarına nail olma;

• AR-İR strateji tərəfdaşlığının ikinci (enerji əməkdaşlığından sonra) özülü – sütunu mövqeyini statusunu qazanma və s.

b) rəngarəng, orijinal, qarşılıqlı sərfəli, diqqətçəkici, təqdirolunası və bu araşdırmamızda müvafiq illər üzrə nəzərdən keçirdiyimiz layihələr – fəaliyyətlər – tədbirlərlə də səciyyələnir və bir sıra fərqli xüsusiyyətlərə malikdir. Fikrimizcə, burada onlarla bağlı daha konkret məqamlar üzrə belə bir qruplaşdırmaya da lüzum vardır:

• bizcə, bu xüsusiyyətlər və fərqliliklərin önündə gələnlərdən birini AR və İR prezidentlərinin, xüsusilə də, İlham Əliyev – S.Mattarella cütlüyünün (2;11) humanitar əməkdaşlığa verdikləri yüksək qiymət, mədəni tədbirlərin hazırlanması və keçirilmələrində fəal iştirak və s. təşkil edir. Yeri gəlmişkən, fondun, bütövlükdə, səmərəli fəaliyyətində, o cümlədən də AR – in İtaliya ilə (Vatikanla da) humanitar əməkdaşlığında qazanılan müvəffəqiyyətlərdə qurumun prezidenti M.Əliyevanın zəhməti və xidməti danılmazdır) (8);

• tarixi mirasla ənənəvi irsdən qaynaqlanan və hazırkı humanitar – mədəni potensiala arxalanan, söykənən fəaliyyətlər (tədbirlər) kompleks təşkil edir. (Bu zaman, əsla təsadüfən deyil, təbii olaraq, inkişaf səviyyəsi və s. üzündən Azərbaycanla İtaliyadan ötrü ortaq məxrəcli sayıla biləcək sahələr (musiqi, memarlıq və digərləri önə çıxır);

• AR hökuməti – fondun İtaliya ilə birlikdə ərsəyə gətirdikləri çoxsaylı layihələr və onların çərçivəsində düzənlənən tədbirlər də fərqləndirici əlamətləri ilə diqqəti cəlb edirlər. Belə ki, bir tərəfdən, fondun”Həmrəylik yolu düşərgəsi” layihəsinin əsasında qarabağlı köçkün türk – müsəlman uşaqlarının İtaliyaya səhayəti, ələlxüsus da, Roma Papası ilə görüşləri tarixi hadisə - fakt kimi də dəyərləndirilə bilər. Digər yandan da, xristianlıq – islam münasibətlərində yaşanan ibrətamiz, bəşəri bir hərəkət (hal) çox düşündürücüdür. Yəni xristianlığa aid məşhur Roma katakombalarının bir qismində Heydər Əliyev Fondunun hərtərəfli dəstəyi ilə təmir – bərpa işləri aparıldı. Bununla da AR xristianlıq abidələrini bərpa etdirən ilk müsəlman ölkəsi oldu.

### Ədəbiyyat siyahısı


1. Abdullayeva, U, Əsgərov N. Azərbaycanın xarici siyasətində İtaliya önəmli yerlərdən birini tutur. //”Milli Məclis” analitik informasiya jurnalı, Bakı, 2014, iyun, s. 46-51.
2. Azərbaycan və İtaliya prezidentlərinin çıxışları // hhtps:mehribanaliyeva.az.news/node/847349
3. Azərbaycan – İtaliya ikitərəfli münasibətləri. Qısa məlumat. Azərbaycan Respublikasının İtaliyadakı səfirliyi. Rəsmi saytı.https://rome.mfa.gov.az/az/content/86/azerbaycan-italiya
4. Bakı Beynəlxalq Humanitar forumlarının bəyannamələri //az.trend.az/azerbaijan/politics/2207078.html;old.bakuforum.az/news/ index.html
5. Bakıda “Daşın nəğməsi” I Beynəlxalq Heykəltəraşlıq Simpoziumu. //”Azərbaycan” qəzeti, Bakı,2016,4 oktyabr.
6. Birinci vitse – president Mehriban Əliyevanın çıxışı/https://president.az/az/articles/view/30096/print
7. Dadaşov, M. İtaliya və Vatikan mətbuatı Heydər Əliyev Fondunun xristian mədəniyyətinə töhfələrindən yazır/mehriban

aliyeva.preslib.az/media- c 827e9317e.html; “Xalq qəzeti”, Bakı, 2016, 26 fevral.
8. Əhmədzadə, M. Azərbaycan – İtaliya diplomatik əlaqələrinin 25 ili: strateji tərəfdaşlığa aparan yol. İtaliyanın “Notizie Geopolitiche” analitik portalı/https://azvision.az/news/116950/azerbaycan-italiya elaqeleri – haqda-meqale.html
9. Heydər Əliyev Fondu- 10: biblioqrafiya/tərtib edəni M.Vəliyeva və b.Bakı: Azərbaycan Milli kitabxanası. Bakı: 2014, - 585 s.
10. İbrahimov Z., S.Heydər Əliyev fondu: şəxsiyyətin fenomeni və milli – mənəvi dəyərlərimiz. Bakı: Çıraq, 2013, - 192 s.
11. Məmmədova, N., İtaliya – Azərbaycan münasibətləri yeni mərhələdə/ https://www.bizimyol.info/az/news/84760.html

**Summary**

**Orkhan Musa**

**Partıcıpatıon of the Heydar Alıev Foundatıon ın Azerbaıjanı - Italıan humanıtarıan and cultural cooperatıon**

The mission and significance of the Heydar Aliyev Foundation briefly characterizes in the article. Further, it examines the issues of the Foundation's participation in the development of cultural and humanitarian cooperation between Azerbaijan and Italy. The study is summarized by some provisions and conclusions.

***Keywords:*** *Heydar Aliyev Foundation, Azerbaijan-Italy, Ilham Aliyev, Mehriban Aliyeva, cultural ties, humanitarian cooperation, provisions and conclusions.*

**Резюме**

**Орхан Муса**

**Участие фонда Гейдара Алиева в Азербайджано – Итальянском гуманитарном и культурном сотрудничестве**

В статье коротко характеризуются миссия и значение Фонда Гейдара Алиева. Далее в ней исследуются вопросы участия фонда в развитии культурного и гуманитарного сотрудничества между Азербайджаном и Италией. Исследование обобщается некоторыми положениями и выводами.

***Ключевые слова:*** *Фонд Гейдара Алиева, Азербайджан – Италия, Ильхам Алиев, Мехрибан Алиева, культурные связи, гуманитарное сотрудничество, положения и выводы.*

УДК 327
https://doi.org/10.59849/2710-0820.2023.2.244

**Сергей Климов**
*Научный сотрудник Центра Россиеведения, преподаватель кафедры международных отношений Азербайджанского университета языков*
*Азербайджан*
*seriydoc19@gmail.com*

# ИДЕЙНО-ПОЛИТИЧЕСКИЕ ИСТОКИ КОНЦЕПЦИИ «МЯГКОЙ СИЛЫ»

***Ключевые слова:*** *«мягкая сила», власть, международные отношения, привлекательность, философия.*

Политика "мягкой силы" представляет собой стратегию и подход в области международных отношений и политики, основанный на использовании ненасильственных и мирных методов для достижения политических, экономических и культурных целей. Она обращает внимание на необходимость убеждения и привлечения других акторов и народов путем создания позитивного воздействия, стратегического взаимодействия и сотрудничества.

В целом, политика "мягкой силы" стала неотъемлемой частью современной мировой политики. Она является мощным инструментом для достижения национальных и глобальных интересов. В условиях быстро меняющегося мира и геополитической напряженности политика "мягкой силы" представляет привлекательную и эффективную альтернативу применению насилия и силы для достижения согласия и мира в современной мировой политике.

Мягкая сила представляет новый подход к политическому взаимодействию и взаимодействию между странами и народами, однако, политика мягкой силы, как стратегия воздействия на другие государства и общества, имеет долгую историю. Эта концепция развивалась и формировалась под влиянием различных теоретиков и политических мыслителей, которые исследовали эффективность использования мощи ненасильственных методов в политике и международных отношениях. На протяжении человеческой истории "мягкая сила" многократно оказывала значительное влияние на развитие мировых событий.

Знание корней и исторического развития концепции "мягкой силы" имеет несколько важных значений:

1. Понимание контекста и смысла: знание корней "мягкой силы" позволяет понять истоки и основные принципы этой концепции. Это помогает построить более глубокое и полное понимание сути и смысла понятия и использования "мягкой силы", ее потенциала и эффективности.

2. Исторические примеры и уроки: изучение корней "мягкой силы" позволяет извлечь уроки из исторических примеров использования мягкой силы и понять, как она может быть эффективной в определенных ситуациях. Понимание прецедентов помогает нашим политическим и внешнеполитическим решениям и стратегиям.

3. Контекстуальное применение: знание корней "мягкой силы" помогает понять, как взаимодействие и концепция эволюционировали на протяжении времени и какие были основные движущие силы и факторы. Это контекстуальное знание помогает применять концепцию "мягкой силы" с учетом особенностей и вызовов современного мира.

4. Сопоставление с другими стратегиями и подходами: изучение корней и исторического контекста "мягкой силы" позволяет сравнить ее с другими стратегиями и подходами в политике и международных отношениях, такими как силовая политика. Это сравнение помогает лучше понять, как раз-

ные инструменты и подходы можно сочетать и использовать синергетически для достижения оптимальных результатов.

Понятие "мягкой силы" было введено в современную науку американским политологом Дж. Най. Несмотря на то, что сам термин относительно молодой, ему около 30 лет, феномен "мягкой силы" существовал всегда [25]. С тех самых пор, как люди, говоря словами Аристотеля, ощутили себя «политическими животными», стали объединяться в союзы и создавать государства, а государства вступали в отношения друг с другом [1]. Причем отношения между странами обусловлены не только и не столько военными факторами, сколько торговыми, культурными и дипломатическими.

Научный консенсус свидетельствует о том, что концепция "мягкой силы" получила свое формирование в результате предшествующих теоретических разработок. Безусловно, также не вызывает сомнений, что технологии "мягкой силы" стали результатом более ранних исследований. Более того, история свидетельствует, что акторы мировой политики на протяжении всей истории человечества широко использовали технологии "мягкой силы".

Политика мягкой силы, как стратегия воздействия на другие государства и общества, имеет долгую историю. От Древней Греции до Великого Китая, многие цивилизации использовали концепцию мягкой силы для достижения своих политических целей и укрепления своего влияния.

Одной из ранних и наиболее известных практик мягкой силы была дипломатия в Древней Греции. Афины, известные своим демократическим правлением, умело использовали переговоры и дипломатические соглашения для укрепления своего влияния на другие города-государства и создания союзов. Они предлагали финансовую и военную помощь, предпочитая подключение к союзническим силам, а не использование силы.

Формула влияния более высокой культуры, выраженная в словах Горация "Греция, взятая в плен, победителей диких пленила" («Graecia capta ferum victorem cepit»), отражает историческую ситуацию, когда Древний Рим завоевал Грецию силой оружия. Римская государственная идеология придавала особое значение mores maiorum, т.е. "нравам предков", и стремилась презирать "маленьких греков" (graeculi). Однако, превосходство греческой культуры заставило Рим добровольно принять ее парадигмы.

Греки и римляне, например, распространяли свою культуру и образование через посольства, университеты и философские школы. Это позволяло им проникать в другие общества и влиять на них, создавая культурные и интеллектуальные связи.

"Мягкая сила" Египта возникает из впечатляющих достижений этой древней исторической цивилизации. Египет не только проявлял военную и политическую силу, но и славился своим интеллектуальным богатством, культурным великолепием, а также терпением и старанием его народа.

Основная идея политики "мягкой силы" заключается в том, что зачастую привлекательность и убеждение эффективнее силы и принуждения.

"Мягкая сила" не заменяет "жесткую" силу, а гармонично с ней взаимодействует. В истории мира существует ряд примеров, когда могущественные государства, полагаясь только на "жесткую силу", отталкивали от себя народы, которые прежде находились под их властью, и самостоятельно подкрепляли свою собственную гибель. Одним таким примером была Ассирия, древнее государство на Ближнем Востоке.

Владыки Ассирии, кроме чрезмерной жестокости, также явно своевольствовали и бравировали своими деяниями. Саргон II завладел Израильским царством и отправил его жителей в рабство. В результате, десять из двенадцати колен Израиля пропали из исторической сцены. Его сын Синнахериб хвастался: "Телами их воинов я покрыл всю равнину, словно скошенную траву". Ашшурбанипал, последний великий царь Ассирии, продолжал вести себя в том же духе [15].

Однако, безудержная "жесткая сила" не обеспечила счастья, богатства и стабильного управления. Ассирийская империя рухнула

и уступила место Вавилону и Мидии. Персия, Греция и Рим, в свою очередь, стали преобладающими силами, используя в качестве ключевого инструмента именно "мягкую силу".

Эти великие империи понимали ценность ненасильственных методов и искусства дипломатии. Они смогли приобщить народы к своим идеалам и стандартам, не только через военные завоевания, но и через культурные, экономические и политические взаимодействия. "Мягкая сила" играла важную роль в сохранении мира, стабильности и процветания этих цивилизаций.

Таким образом, в процессе исторического развития понятно, что "мягкая сила" имеет колоссальное значение. Она способна поддерживать устойчивые и гармоничные отношения, которые не только достигают успеха, но и продолжают процветать на протяжении времени. Еще одним примером использования политики мягкой силы в древности является Китай в эпоху Цинь и Хань. Великая Китайская стена была не только оборонительным сооружением, но и символом силы и величия китайской империи. Однако, помимо физической обороноспособности, китайские императоры разрабатывали тактику дипломатического мягкого воздействия. Они использовали дипломатию, восточные обычаи, подарки и межкультурные связи для подкрепления влияния и установления мирных отношений с соседними странами и народами. В древнекитайских сочинениях мы также можем обнаружить пацифистские взгляды. Мо-цзы (V–IV вв. до н.э.), основатель школы моистов разработал теорию "всеобщей любви и взаимной выгоды", согласно которой каждый человек должен проявлять любовь ко всем окружающим его людям. Используя этот подход, человек получит в ответ любовь, что в конечном итоге приведет к взаимной выгоде. Мо-цзы считал, что именно мягкий и добрый образ действий в повседневной жизни способствует достижению желаемых результатов [17, с. 160.].

Мэн-цзы также выступал против насилия и выделял два типа правителей: истинного правителя (ван) и гегемона (ба). Истинный правитель руководствовался человеколюбием и благой силой, в то время как гегемон опирался на принуждение и игнорировал гуманность. По Мэн-цзы, применение силы для подчинения людей не сможет подчинить их сердца. Применение добродетелей позволит вызвать радость из самых глубин сердец людей, и они будут искренне ему подчиняться [8].

Идеи «мягкой силы» могут быть найдены в учении Конфуция и в его подходе к государственному управлению. Особенно четко «мягкий» характер конфуцианства проявляется, когда мы сравниваем его с концепциями школы легистов, которые были противниками конфуцианских взглядов на управление.

Как метод социальной регуляции, легисты придерживались жесткого и неоспоримого закона (фа), который Конфуций противопоставлял мягкому ритуалу (ли), основанному на традиционных родовых ценностях. В «Аналектах Конфуция» говорилось: «Если наставлять народ путем введения правления, основанного на законе, и поддерживать порядок угрозой наказания, то народ станет избегать наказаний и лишится чувства стыда. Если наставлять народ путем введения правления, основанного на добродетели и поддерживать порядок путем использования правил, в народе появится чувство стыда, и он исправится» [12, с. 306.].

В свою очередь Конфуций, рассуждая об образе великого правителя Поднебесной, наставлял: «Тот, кто хочет снискать расположение людей, не должен применять к ним насилие» [7].

Конфуций придавал большое значение внутриполитической системе иерархических отношений для успешного установления международных отношений государств. В этом контексте, он выделял важную роль обрядов и ритуалов, которые помогали сохранить порядок в обществе и достичь гармонии. Примером в этом отношении является 20-е суждение из трактата «Следование середине», где Конфуций подчеркивает значимость применения мягкой силы в международных отношениях. Заявление "если мягко обращаться с чужеземцами, то люди

со всех четырех сторон света будут стекаться к себе" отражает его мысль о том, что имидж государства формируется не через ведение войн и захват территории, а скорее через грамотную дипломатию [11].

Идеи Конфуция стали основой для развития идеологии и практики императоров древнего Китая, которые использовали моральное лидерство и мягкую силу для управления государством и распространения своего влияния.

Заметим, что даже известный стратег Древнего Китая Сунь-цзы не отдавал предпочтения "жесткой силе". Военные действия, по его мнению, были связаны с обманом и являлись неизбежным злом, которого следовало избегать, насколько это возможно. Один из его афоризмов гласил, что сразиться и сто раз победить – не есть лучшее из лучшего, лучшее из лучшего – покорить чужую армию не сражаясь [13, с. 17.].

Хотя термин "мягкая сила" отсутствует на страницах трактата, анализ высказываний философа позволяет понять, что даже во время военных действий он акцентировал внимание на личных качествах полководца и возможности ослабить противника без прямого вступления в конфликт. Эти факторы имели для него большее значение, чем простая сила армии.

Ещё древнекитайский военный стратег и мыслитель Сунь-цзы о воздействии на умы писал: «Лучше завоёвывать сердца людей, чем города, в которых они живут» [13].

Взгляды Сунь-цзы заключаются в том, что война является всего лишь одним из множества способов достижения выгоды. Однако, он считает, что военное противостояние часто является самым затратным и не всегда эффективным. Поэтому использование жестких средств должно быть ограничено и правитель должен прибегать к ним только в исключительных случаях.

Аналогичные идеи, поддерживающие предпочтение ненасильственных методов "покорения" оппонента, можно найти и в трактате У-цзы, древнекитайского военного стратега. Он предупреждал о том, что «Мало таких, кто овладел Поднебесной частыми победами, но много таких, кто от этих побед погибал». Суть его стратагемы заключается в том, что "мудрый правитель ведет войну редко, тем самым сберегая силы своего государства, а наивысшего успеха достигает тот, кто вступает в войну только тогда, когда это полностью неизбежно" [14].

В «Книге правителя области Шан» в Древнем Китае было записано: «Совершенно мудрый, управляя людьми, должен непременно овладеть их умом и сердцами, и тогда он может использовать их силу» [18].

Одним из наиболее известных азербайджанских философов, отражающих идеи мягкой силы в своих произведениях, является Низами Гянджеви. В его поэзии прослеживается идея использования "мягкой силы" в различных сферах человеческой жизни. Он освещал важность этических ценностей, моральных норм, взаимопонимания и диалога между людьми. Поэт рассматривал "мягкую силу" как способ достижения гармонии и преодоления конфликтов.

Творчество Низами Гянджеви является не только красивой литературой, но и запечатлевает уникальный взгляд на мир, показывая, что "мягкая сила" может быть сильной и эффективной формой воздействия. Его работы оставили большое влияние на культурное наследие Азербайджана и продолжают вдохновлять и формировать сознание современных поколений.

Значительный вклад в развитие концепции "мягкой силы" внес итальянский мыслитель и государственный деятель Н. Макиавелли. Макиавелли утверждал, что грубая сила должна сопровождаться "мягким" воздействием, так как военная мощь одна по себе не может вызвать добровольное приятие от подданных. По его мнению, для достижения наилучших результатов необходимо использовать не только силовые, но и другие методы влияния на объект. Он полагал, что власть основана на силе и согласии, и лидер должен внушать своим подданным как чувство страха, так и любовь. Макиавелли считал, как утверждал в своей работе "Государь", что лучше всего властителю, чтобы его и боялись и любили, хотя любовь и страх могут плохо сочетаться. Однако, ес-

ли приходится выбирать между ними, то он считал, что страх более надежен [10].

При этом государь должен внушать страх таким образом, чтобы, если не приобрести любви, то хотя бы избежать ненависти, поскольку возможно вызывать страх без вызывания ненависти. Дж. Най, исходя из этих идей, делал вывод, что между реализмом и "мягкой силой" нет противоречий [9].

В этом контексте можно также выделить британского ученого Т. Гоббса, который также рассматривал идеи "мягкого воздействия" в своей теории власти. В его известном труде "Левиафан" можно увидеть прототип теории мягкой силы, как отмечают многие исследователи [16].

Ставить под сомнение значимость "мягкой силы" не приходится. Эта концепция не только приносит ощутимые пользы, но и доказала свою эффективность в прошлом. Древние греки оказали огромное духовное влияние на формирование европейской цивилизации. А на другом конце света, китайцы способствовали приобщению народов Восточной и Центральной Азии к высоким стандартам управления государством, передовым методам градостроительства, уникальным школам философии, музыки, литературы, архитектуры и т.д. Философско религиозные истоки буддизма и индуизма, основанные на принципах ненасилия (ахимсы) и мирного сосуществования, являются основой для внешнеполитического курса, основанного на ненасильственных ценностях, которые практически реализуют принцип "мягкой силы". В эпоху Возрождения Италия стала неоспоримым авторитетом и законодателем моды в Европе во всех сферах жизни. Все серьезные дела на континенте требовали предварительного знакомства с итальянскими достижениями. Итальянцы были учителями в живописи, банковском деле, архитектуре, судебных делах и даже в мореплавании. Заменявшие итальянцев французы тоже внесли значительный вклад в европейскую цивилизацию, достигнув большего с помощью своих политических теорий, литературы, архитектуры, моды, гастрономии и парфюмерии, чем с помощью завоеваний.

Интересно отметить, что Иммануил Кант, выдающийся представитель либеральной политической мысли, еще в конце XVIII века прогнозировал, что экономическое сотрудничество, основанное на взаимной выгоде между государством и его гражданами, будет определять внешнеполитические стратегии международных акторов. В своем труде "К вечному миру", написанном в 1795 году, он писал: "Дух торговли, в конечном счете овладевающий каждым народом, несовместим с войной. Силой, которая подчинена государственной власти, сила денег, пожалуй, является самой надежной, и поэтому государства вынуждены (не всегда по моральным побуждениям) способствовать благородному миру и противостоять угрозам войны повсеместно" [5]. Таким образом, Кант предсказал, что взаимодействие на основе экономической выгоды будет иметь превалирующее значение в международных отношениях. Он полагал, что сила денег, которая связана с экономической мощностью и преуспевающим бизнесом, будет способствовать сохранению мира и предотвращению войн. Он призывал государства содействовать благородному миру и ясно указывал на взаимосвязь между торговлей и миром.

Идеи Канта до сих пор актуальны, и его предсказания о влиянии экономического сотрудничества на политику и международные отношения оказались верными. Принципы свободной торговли и экономической интеграции стали неразрывной частью современной мировой системы и играют значительную роль в поддержании стабильности, мира и процветания.

Гибкость власти является основополагающим принципом эффективной политики, как внутренней, так и внешней. В XVIII веке французский философ-моралист Люк де Клапье де Вовенарг сформулировал точную политическую максиму: "предел хитроумия – умение управлять, не прибегая к силе" [2].

В контексте данной проблематики, Э. Карр, один из предшественников Дж. Ная, обратил внимание на феномен привлекательности нацистского режима еще в 1939 году. Он классифицировал и выделял три

типа силы (власти) государств на международной арене: экономическую силу, военную силу и "власть над мнениями", которая в то время была синонимична современной концепции "мягкой силы". В своем влиятельном труде "Двадцатилетний кризис, 1919–1939" он проводил серьезные размышления по этому вопросу и отмечал возрастающую значимость такой силы. По его мнению, без широкого использования этой силы Германия не смогла бы так быстро набрать необходимую мощь для успешной реализации своей агрессии в Европе [20, с. 21–25].

Упоминая идейные истоки концепции "мягкой силы", невозможно обойти вниманием итальянского философа, деятеля коммунистического движения, одного из основоположников неомарксизма А. Грамши. О влиянии его трудов на разработку концепта «мягкой силы» говорил непосредственно Дж. Най. Опираясь в том числе на идеи Макиавелли (в интерпретации итальянского коммуниста они получили название «макиавеллиевский Кентавр»), Грамши создал учение о «культурной гегемонии» [4]. Грамши подчеркивал, что гегемония предполагает активное и благожелательное согласие общества, при котором граждане желают того, что требуется господствующему классу. Грамши придерживался мнения, что господствующий класс удерживает свою власть не только с помощью физической силы, но и на основе согласия. Он считал, что механизм власти включает в себя как формы принуждения, так и убеждения.

Однако, проведя параллель между концепциями Грамши и Ная, мы можем сделать следующий вывод: в то время как гегемония Грамши представляет собой "внутреннюю" власть буржуазии над классами внутри страны, "мягкая сила" Ная, напротив, стремится распространить свои культурные и социальные ценности за пределы своей страны. Однако в обоих случаях "мягкость" всегда подразумевает несиловое воздействие.

У Дж. Ная были предшественники как в теории международных отношений, так и в смежных областях знания. Британский исследователь международных отношений Хедли Булл поднял вопрос о необходимости минимизации физического насилия при защите национальных интересов и обращении внимания на альтернативные политические, правовые и гуманитарные методы [19].

Китайский профессор Лю Цзаици считает, что Р.С. Клайн, выдвинувший формулу совокупной мощи государства, является предшественником Ная. Согласно теории Лю Цзаици, основные элементы этой формулы можно разделить на материальные и духовные, и последние представляют собой концепцию "мягкой силы" [6].

Среди элементов, на которых основывается государственная мощь, основоположник реализма в теории международных отношений Ганс Моргентау выделял не только материальные ресурсы. Упоминая "культурный империализм" он отмечает, что этот вид империализма направлен на завоевание и контроль над умами людей, на воздействие на их мышление и культурные предпочтения [24].

Среди работ, посвященных данной теме во второй половине XX века, выделяются теоретические наработки таких исследователей, как С. Льюкс, П.Бурдье, М. Баратц, П. Бахрах, М. Фуко, Ж. Липовецки и других.

Британский политический и социальный теоретик С. Льюкс различает три "измерения силы". Первое измерение включает способность принимать и осуществлять решения. Второе измерение относится к способности устанавливать повестку дня и формировать пространство дискурса. Третье измерение предполагает способность манипулировать желаниями и предпочтениями других людей, убеждать их желать того же, что и субъект силы [22].

Небезынтересна и созданная также в 1970-е годы концепция символической власти П. Бурдьё. Французский социолог определяет символическую силу как особую форму власти, способную изменять и формировать оценочные и восприимчивые категории общества, влияя на его организацию. Эта власть является трансформированной, невидимой и неузнаваемой; она проявляется в полной мере, когда те, кто подчинены ее

воздействию, не догадываются о ее существовании [26, с. 405–411] Такое понимание процесса коммуникации имело значительное влияние на политическую концепцию Мишеля Фуко. По его мнению, любое высказывание или коммуникативный акт несет в себе явные или скрытые проявления власти, через которые она проявляется и предписывает обществу, как мыслить [21].

В контексте Фуко, коммуникация рассматривается как средство выражения и поддержания власти. В каждом высказывании заключены социальные отношения власти, которые влияют на то, как мы понимаем и интерпретируем мир. Власть проникает в каждый аспект нашей жизни через коммуникацию и формирует наши сознание и субъективность.

Фуко утверждает, что коммуникационные акты выполняют роль инструментов власти и способствуют формированию определенных мыслительных моделей и поведенческих стандартов в обществе. Через коммуникацию, власть конструирует определенные дискурсивные системы, которые определяют, какие мысли и идеи считаются приемлемыми и легитимными.

Таким образом, у Фуко коммуникация представляется как инструмент и проявление власти, определяющий способы мышления и формирования сознания в обществе. Он подчеркивает, что власть самопрезентуется через коммуникацию и задает рамки и правила мысли для общества.

Исследователи концепции "мягкой силы" анализируют теории о различных формах силы, которые появились в эпоху глобализации, и рассматривают их в качестве предшественников идей Джозефа Ная, автора концепции "мягкой силы".

Такие теоретики «мягкой силы», как Дж. Галларотти, Дж. Маттерн, А. Вавин и другие писали о том, что концепция «мягкой силы» коррелируется с третьим «лицом» силы, о котором писал С. Льюкс. Дж.

По мнению Галларотти, специфика мягкой силы зачастую заключается в умении доминантной нации выдавать свои интересы как интересы стран, на которые оказывается влияние [3, с. 58–71]

В результате этого, субъекты, контролирующие властный дискурс, приобретают способность оказывать незаметное влияние на сознание и поведение людей, позволяя им конструировать социальную и политическую реальность без прибегания к открытой конфронтации и использованию "грубой" силы.

В соответствии с исследованиями Дж. Маттерна, "привлекательность" представляет собой социолингвистически конструированную "истину" о привлекательности определенной идеи; это интерпретация, которая преобладает над всеми другими в процессе коммуникации [23].

Исследование концепции "мягкой силы" через работы Жиля Липовецки и Зигмунда Баумана, которые рассматривают ее с точки зрения соблазна, является особенно актуальным. Такой подход акцентирует внимание на главной цели данной стратегии - привлечении широких масс и обращении к их привлекательности.

"Мягкая сила" в своей сути связана с дискурсом и трансляцией информационных сообщений с целью влиять на реципиента и переориентировать его восприятие в определенном направлении, в конечном итоге, воздействуя на его поведение. Дискурс обольщения в постмодернистском обществе становится неотъемлемой частью политической сферы и служит основой для современных политических технологий.

Приходим к выводу, что "мягкая сила" представляет собой коммуникативный ресурс, который используется для создания смысла. Ненавязчивая привлекательность, реализуемая через коммуникацию и образы, может быть использована как эффективный инструмент воздействия на мысли и поведение людей.

Использование мягкой силы в международных отношениях может быть эффективным инструментом для достижения политических, экономических и культурных целей. Она позволяет странам и организациям достигать своих интересов через позитивное воздействие на другие государства и акторов. Осознание и исследование идейно-политических истоков концепции «мягкой

силы» помогает формированию стратегий внешней политики и пониманию ее роли в современном мире. Это позволяет развивать более эффективные подходы и методы для достижения глобальной стабильности и сотрудничества.

**Список литературы**


1. Аристотель: Никомаховая этика / Пер. Брагинская Н.В. – Москва: Азбука, – 2022. – 448 с.
2. Вовенарг. Размышления и максимы / Пер. Корнеева Ю., Линецкая Э. – СПб.: Наука, – 1988. – 439 с.
3. Галларотти Дж. Бремя могущества как парадокс мировой политики // – Полис. 2011. No 3. С. 58-71.
4. Грамши, А. Избранные произведения: [в 3 томах] / А. Грамши. – Москва: Издательство иностранной литературы, – т. 3. – 1959. – 565 с.
5. Кант, И. Сочинения в шести томах: [в 6 томах] / Под общ. ред. В. Ф. Асмуса. А. В. Гулыги, Т. И. Ойзермана. Москва: Мысль, – т. 6. – 1966. – 743 с.
6. *Лю, Ц.* «Мягкая сила» в стратегии развития Китая // – Полис. Политические исследования, 2009. No 4. С. 149-155.
7. Малявин, В.В. Китайская военная стратегия. – Москва: Астрель, – 2002. – 429 с.
8. Меньшикова, Л.Н. Мэн-цзы. – СПб.: Петербургское Востоковедение, – 1999.– 272 с.
9. Най, Дж. С. Будущее власти / Пер. Верчено, В.Н. – Москва: АСТ, – 2014. – 448 с.
10. Никколо Макиавелли: Государь / Пер. Муравьева, Г. – Москва: Мартин, – 2022. – 128 с.
11. Переломов, Л.С. Конфуцианское «Четверокнижие» («Сы шу»). – Москва: Восточная литература, – 2004. – 431 с.
12. Переломов, Л.С. Конфуций: «Лунь юй» с комментариями Чжу Си. – Москва: Восточная литература, – 1998. – 588 с.
13. Сунь-Цзы: Искусство войны / Пер. Михайлов, М. – Москва: АСТ, – 2019. – 160 с.
14. Сунь-Цзы: Трактаты о военном искусстве / Пер. Конрад Н. И. – Москва: АСТ, – 2019. – 608 с.
15. Толчинский, Б. А. «Мягкая сила» великих империй: [Электронный ресурс] / URL: http://picreadianalitika.ru/soft_power_egypt
16. Томас Гоббс: Левиафан / Пер. Гутерман А. – Москва: Рипол-Классик, – 2021. – 624 с.
17. Янгутов, Л.Е. Духовные истоки политической стратегии «мягкой силы» Китая // Проблемы Дальнего Востока, – Москва: – 2016. № 4, – с. 160.
18. Ян Шан: Книга правителя области Шан / Пер. Переломов, Л.С. – Москва: Рипол-Классик, – 2020. – 424 с.
19. Bull, H. The Anarchical Society: A Study of Order in World Politics. – New York: Macmillan, – 1977. – 335 p.
20. Carr, E.H. The Twenty Years' Crisis, 1919-1939 / Cox, M. – London: Palgrave Macmillan, – 2016. – 233 с.
21. *Foucault, M.* Power/knowledge: selected interviews and writings 1972-1977. – Brighton: Harvester, – 1980. – 282 p.
22. Lukes, S. Power: A Radical View. – Macmillan: London, – 1974. – 66 p.
23. Mattern, J. B. Why Soft Power Isn't So Soft: Representational Force and the Sociolinguistic Construction of attraction in World Politics // – London: Millennium: Journal of International Studies, – 2005. № 3, – p. 585
24. Morgenthau, H. J. Politics Among Nations. The Struggle for Power and Peace. – New York: Knopf, – 1949. – 91 p.
25. Nye Jr., J. S. Bound to Lead: The Changing Nature of American Power. – New York: Basic Books, – 1990. – 370 p.
26. Bourdieu, P. Sur le pouvoir symbolique // – Paris: Annales. Economies, sociétés, civilisations, – 1977. № 3, – p. 405–411.

## Xülasə

**Serqey Klimov**

## "Yumşaq güc" anlayışının ideoloji və siyasi mənşəyi

Bu məqalədə beynəlxalq münasibətlərdə "yumşaq güc" anlayışının ideoloji və siyasi əsaslarının tədqiqi təqdim olunmuşdur. Elmi məqalənin əsas məqsədi "yumşaq güc" siyasəti anlayışının mənşəyini, onların nəzəri əsaslandırmasını və praktik əhəmiyyətini aydın və dərin anlayışını, teoretik əsaslarını və müxtəlif müəlliflərin, mütəfəkkirlərin və tədqiqatçıların rolu və "yumşaq güc"ün inkişafında töhfələrinin təhlilini və təsirini analiz etməkdir. Məqalənin elmi yeniliyi "yumşaq güc" anlayışının ideoloji və siyasi mənşəyinin hərtərəfli öyrənilməsi və sistemləşdirilməsindədir ki, bu da "yumşaq güc" fenomeninin daha yaxşı başa düşülməsinə kömək edir. "Yumşaq güc"ün əsas prinsiplərini və mənşəyini anlamaq münaqişəsiz təsir və əməkdaşlıqdan istifadəyə əsaslanan daha effektiv və cəlbedici xarici siyasət və diplomatik strategiyalar qurmağa kömək edir. Bu konsepsiyanın mənbələrinin araşdırılması effektiv xarici siyasət strategiyalarının formalaşdırılması üçün əhəmiyyətlidir, çünki bu, bizə onun əsasında duran əsas prinsipləri və dəyərləri anlamağa imkan verir.

***Açar sözlər:*** *"yumşaq güc", güc, beynəlxalq münasibətlər , cəlbedicilik, fəlsəfə.*

## Summary

**Sergey Klimov**

## Ideological and political origins of the concept of "soft power"

This article presents a study of the ideological and political foundations of the concept of "soft power" in international relations. The main objective of this scientific article is to provide a clear and in-depth understanding of the origins of the concept of "soft power," its theoretical justification and practical significance, as well as an analysis of the role and contribution of various authors, thinkers, and researchers to the development of "soft power." The scientific novelty of this article lies in its comprehensive examination and systematization of the ideological and political origins of the concept of "soft power," which contributes to a better understanding of the phenomenon of "soft power." Understanding the fundamental principles and origins of "soft power" helps to build more effective and appealing foreign policy and diplomatic strategies based on the use of non-coercive influence and cooperation. Exploring the origins of this concept is important for the formation of effective foreign policy strategies as it allows for an understanding of the key principles and values that underlie it.

***Keywords:*** *"soft power", power, international relations, attractiveness, philosophy.*

UOT 316
https://doi.org/10.59849/2710-0820.2023.2.253

**Validə Cəfərova**
*Azərbaycan, Azərbaycan Universiteti Sosial işinin təşkili kafedrasının dissertantı*
*Azərbaycan*
*sharifovavalida@gmail.com*

# UŞAQLAR ARASINDA İNSAN ALVERİNİN BAŞ VERMƏSİ SƏBƏBLƏRİ

Uşaq alveri insan alveri cinayətinin digər formalarına nisbətən daha latent xarakter daşıyır. Aparılan araşdırmalar ölkə və beynəlxalq səviyyədə uşaq alveri haqqında ədəbiyyatın, uşaq alverinin müəyyən edilməsi metodologiyasının, rəsmi statistikanın, hüquq mühafizə orqanlarına müraciətin aşağı səviyyədə olduğunu göstərir. Cinsi istismara, köləliyə, məcburi əməyə, köləliyə bənzər adətlərə məruz qalmış 18 yaşdan kiçik vətəndaşlar uşaq alverinə məruz qalmışlar hesab edilirlər. Cəmiyyətimizin uşağın cinsi istismarı, uşaq əməyinin istismarı, uşaqlara qarşı edilən psixoloji, fiziki, iqtisadi zorakılıq haqqında kifayət qədər informasiya almaması bunun pis rəftarla eyniləşdirilməsinə səbəb olmuşdur. Cinsi istismarın, uşaq əməyinin istismarının uşağın hüquqlarının pozulması kimi təbliğ olunması bu problemin aktuallaşmasına, düzgün təhlilinə gətirib çıxarar. Uşaq alverinin qarşısının alınması üçün cəmiyyətin hər bir üzvünün yeni doğulmuş körpələrin, uşaqların, yeniyetmələrin müdafiəsinə səfərbər edilməsi vacibdir. XXI əsrdə uşaqların istismarının ifrat formaları: cinsi istismar, pornoqraiya filmlərinin istehsalı, dilənçilik, erkən yaşda zorla ərə verilmə, uşaq fahişəliyi, müharibə zonalarında əsgər kimi istismar olunmaları, uyğun olmayan şəraitdə əmək, uşaqların satılması, istismarın digər formaları ölkə, regional və qlobal səviyyədə pislənən sosial problemlərdəndir. Buna baxmayaraq, uşaq alveri qurbanlarının sayı ilbəil artır. Uşaqların insan alveri qurbanı olmasının səbəbləri müxtəlidir. Bu səbəbləri araşdırarkən insan alveri qurbanı olmuş uşaqların ailə vəziyyətləri öyrənilməlidir. Yeni doğulmuş körpələrin insan alveri qurbanı olması arzuolunmaz hamiləlikdən, valideynlərin məsuliyyətsiz yanaşmasından, ailənin maddi durumunun aşağı səviyyədə olmasından, surroqat ananın övladı olmasından, təbii fəlakətlərdən (zəlzələ, daşqınlar), valideynlərin psixoloji vəziyyətlərinin anormal olmasından və sair səbəblərdən ola bilər. Bəzən arzuolunmayan körpələr yetkinlik yaşına çatmayan yeniyetmələrin məcburi nigaha girməsindən doğulurlar. Bu uşaqlar insan alveri qurbanına çevrilirlər. Azərbaycan Respublikasının Uşaq Hüquqları Haqqında Qanuna görə 18 yaşına çatmayan, həyatını tam təmin etmək qabiliyyəti olmayan şəxslər uşaq hesab edilir. Bəzi cinayətkar qruplar birbaşa doğum evlərində yeni doğulmuş uşaqların satılması kimi cinayətkar fəaliyyətlə məşğul olurlar. Məsələn, "Durna yuvası" kimi xüsusi ləqəbi olan analar Moskva şəhərində özəl xəstəxanada yeni doğulmuş körpələrini iki il ərzində satmaqla məşğul olmuşdurlar[5,4]. Uşaqların satılması cinayət fəaliyyəti olduğuna görə adətən, uşaqlar övladlığa götürülür, bundan sonra xarici ölkələrə çıxarılaraq satılırlar. Orqanların transplantasiyası mütəşəkkil cinayətkarlığın subyektlərinin qazanc mənbəyidir. Uşaq orqanlarının vətəndaşı olduğu ölkədə istiadə edilməsi haqqında inormasiyanın sıza biləcəyi qorxusu bu cinayətkarların xarici ölkələrdə fəaliyyət göstərdikləri fikrini irəli sürməyə əsas verir.

Müharibələr zamanı valideynlərini, yaxınlarını itirmiş, zəlzələ və daşqınlar kimi təbii fəlakətlər zamanı kimsəsiz qalmış, quraqlıq, işsizlik, çox uşaqlı ailələrdə tələbatların ödənilməməsi səbəbindən çətin sosial şəraitdə yaşayan uşaqlar insan alverinin qurbanına çevrilirlər. Bəzən yeniyetmələr valideynlərlə yaşamaq istəmir, kənddən çıxıb müstəqil olaraq şəhərdə yaşamaq istəyirlər. Bəziləri valideynlər tərəfindən fiziki zorakılığa məruz qalır, valideynlərinin tələblərini yerinə yetirmək istəmirlər [12,9-10]. Belə səbəblər yeniyetmələrin küçə uşaqlarına çevrilməsinə səbəb olur. Son dövrlərin statistik

məlumatlarına əsasən insan alveri qurbanı olmuş insanların 20%-i uşaqlardır [6]. BMT Baş Məclisinin 1989-cu 20 noyabr tarixində qəbul etdiyi Uşaq hüquqları haqqında konvensiyaya əsaslanaraq 1998-ci ildə Azərbaycan Respublikasında Uşaq hüquqları haqqında qanun qəbul edilib. Nəzərə almaq lazımdır ki, respublika əhalisinin 2 800 000 nəfəri uşaqdır, əhalinin 29%-ni uşaqlar təşkil edir . Uşaq hüquqları haqqında qanunun 28-ci maddəsi uşaqların zorakılığın bütün növlərindən, cinsi istismardan, qumar, dilənçilik, narkomaniya və sair kimi zərərli məşğuliyyətlərdən müdafiə edir.

"Uşaq hüquqları haqqında" qanun uşaqların yaşamaq və inkişaf etmək, həyatı və sağlamlığının mühafizəsi, ad və vətəndaşlıq almaq, tərbiyə almaq, azadlıq və şəxsi toxunulmazlıq, zəruri maddi təminat, vicdan, fikir və söz azadlığı, məlumat azadlığı və s. hüquqlarını təsdiq edir. Təqdirə layiq haldır ki, "Uşaq hüquqları haqqında" qanun respublikanın orta məktəblərində dərs vəsaitlərinə salınmış, tədris prosesi zamanı tədris və təbliğ olunur. Uşaq hüquqlarının tədrisi məktəblilərdə öz hüquq və vəzifələrinin şəxsinə və qanunvericiliyə hörmət hissi aşılayır.

Hər bir yenidoğulmuş körpə uşaq valideyn himayəsində böyüməlidir. Əgər müəyyən səbəblərdən onlar valideynlərini itirərlərsə, yaxınlarının himayəsində böyüməlidirlər. Əgər yaxınlarının himayəsindən də məhrum olarlarsa, belə uşaqlar 18 yaşına kimi tam dövlət təminatında olurlar. Hər bir uşağın orta ümumtəhsil məktəblərində icbarı təhsil almaq, yazıb-oxumağı öyrənmək, biliklərə yiyələnmək hüququ var. Uşaqlar təhsildən yayınmamalıdırlar. İcbari təhsil uşaqların ümümbəşəri və milli-mənəvi dəyərləri mənimsəməsinə, dünyagörüşünün formalaşmasına, vətənpərvərlik ruhunda böyüyərək, uşaq hüquqlarının və azadlıqlarının öyrənməsində mühüm rol oynayır. Çoxuşaqlı ailələrdə, aztəminatlı ailələrdə valideynlər övladlarına icbari təhsildən başqa təhsil (müxtəlif kurslar, rəqs, idman, rəsm, musiqi və s.) verə bilmədikləri üçün uşaq hüquqlarının təlim-tərbiyənin tərkib hissəsi kimi tədrisi faydalıdır. Uşaqların iştirak hüququ müxtəlif rəsmi və qeyri-rəsmi, dövlət və qeyri-dövlət tədbirlərində uşaqların böyüklərlə birlikdə iştirak etməsini təsdiq edir. Bu böyüməkdə olan nəsildə fəallıq, sərbəst düşüncə formalaşmasına xidmət edir. Bütün bunlar mənəvi cəhətdən sağlam gələcəyin, cevik, öz hüquqlarını dərk edən vətəndaşların formalaşmasına xidmət edir. Yaşamaq hüququ körpələrin doğulduğu andan onun qidaya, tibbi müayinəyə, doğulduğu ünvanda yaşamağa hüquq verir. Uşaqların müdafiə hüquqları vardır. Müdafiə hüququ onların narkomaniya, cinsi istismar, dilənçilik, uşaq parnoqrafiyası, ailə zorakılığı, hərbi münaqişələrdə iştirak kimi hüquq pozuntularına aydınlıq gətirir[9]. Uşaq hüquqlarının geniş təbliği, tədrisi orta məktəblərdə təhsil alan uşaqların hüquqlarını öyrənməsi sosiallaşma zamanı onların daha adekvat qərarlar qəbul etməsinə, insan alveri qurbanlarının toruna düşməməsinə xidmət edir. Azyaşlılar cəmiyyətin həssas qruplardan olduqları üçün onların asayışının təmin olunması aktual problemdir. Yeniyetmələr arasında cinayətkarlığın artması gələcək nəsillər üçün narahatlıq yaradır. Cinayətkarlığın yeniyetmələr arasında yayılması probleminin öyrənilməsi onların hüquqazidd əməllərə sövq edən amillərini tədqiq etməyə imkan verir. Beləliklə, yetkinlik yaşına çatmamışlar çox zaman böyüklərin mənfi təsirlərinə düşərək narkotik istifadəçilərinə, spirtli içki düşkünlərinə çevrilirlər ki, bu da sonda onların insan alveri qurbanlarına çevrilmələrinə səbəb olur. Ötən əsrlərdə narkotik vasitələr dərman vasitəsi, ağrıkəsici kimi istiadə edilirdisə, müasir dövrümüzdə psixoloji və fiziki asılılığın bir növü hesab edilir. Narkotik maddələr tez bir zamanda istifadəçidə asılılıq yaradır. Beləliklə, narkotik istifadəçiləri narkotik maddələri satanların müştərisinə cevrilir[13,17-21]. Narkotik vasitələrin aludəçisi olan şəxs fikrini məktəbə, dərslərə, universitetə fokuslaya bilmir və yaxud işə əvvəlki kimi aktiv şəkildə gedə bilmir. Bundan başqa narkotik maddələrdən asılılıq, onları əldə etmək üçün pulun tapılması kimi problem yaradır. Müxtəlif mənbələrdən əldə edilmiş faktlar narkomanların narkotiklərin əldə edilməsi üçün hətta ailə üzvlərinə, yaxınlarına zərər verməsi faktlarını təsdiqləyir. Bu bəlaya düçar olan gənclər asanlıqla insan alverinin qurbanlarına çevrilirlər. Azərbaycan Respublikasının qanunvericiliyində narkotik maddələrin istifadəçilərinə qarşı sənət və peşə seçimində müxtəlif qadağalar tətbiq olunmuşdur. Narkomaniyaya düçar olmuş gənclər həkim (onkoloq, aneste-

zioloq-reanimotoloq və s.), bütün məktəbəqədər tərbiyə və təhsil müəssisələrində, hüquq mühafizə sistemində, inkasatorlarda və sair müxtəlif perestijli peşələrdə əmək fəaliyyəti ilə məşğul ola bilməzlər. Gənclərin bu səpgidən olan məlumatlara malik olması onların bu zərərli vərdişdən uzaq olmağa və nəticədə insan alverinin qurbanı olmaqdan xilas edər. Gənc nəslin nümayəndələrinin fiziki və mənəvi deqradasiyasına səbəb olan narkotik və psoxotrop maddələrin istehsalına, paylanmasına və istiadəsinə cəlb edilməsi qanunla qadağandır. Yeniyetmələri narkotik maddələrin istifadəsinə cəlb etmək, narkotik vasitələrdən istiadəyə asılılıq yaratmaq və bundan sonra onları müxtəlif məqsədlər (dilənçilik, kölə əməyi, cinsi istismar, cinayət əməlləri və s.) üçün istiadə edənlər cinayətkarlardır və qanun qarşısında cavab verməlidirlər. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, son zamanlar məktəblərdə, parklarda, küçələrdə, istirahət mərkəzlərində tərkibində narkotik vasitələr olan şirniyyat, konfet kimi məhsullar məktəblilərə təklif edilməsi faktları mövcuddur. Bu faktlar DİN-nin əməkdaşları tərəfindən aşkar edilir və həmin cinayətkarlar qanunla cəzasını alırlar.

Qədim zamanlarda quldarlar qulları "danışan əmək" alətləri hesab edirdilər, qulları istismar edərək varlanırdılar. Qulun şəxşi həyatı, əmlakı, təsərrüfatı, hisləri ola bilməzdi. Uzun illər bəşəriyyət insanı alçaldan qul, kölə, təhkimçilik kimi insan alveri formaları ilə mübarizə aparmışdır. Bu mübarizədə müxtəlif cəmiyyətlər bir-birini əvəz etmişdir. XX əsrdə dünyanın əksər dövlətləri tərəfindən insanın kölə kimi istiadə edilməsi pislənmişdir. Köləliyə, insan əməyindən sui-istiadəyə təkcə yetkin insanlar deyil, uşaqlar da məruz qalırlar. Bu Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağandır. Əmək fəaliyyətinə başlayan şəxslərin 15 yaşı tamam olmayıbsa işə götürülə bilməz [2]. İşə qəbul edildikləri halda valideyn, övladlığa götürən və yaxud bu gənci qanuni himayə edən şəxs yazılı surətdə icazə verməlidir. İşə götürən 15 yaşdan kiçik şəxslə əmək müqaviləsi bağlayarsa, cərimə olunar. 15-18 yaşlı gənclər işə götürülərkən əmək şəraiti, onların fiziki gücü, əmək müəssisəsinin xarakteri və s. nəzərə alınmalıdır. Ağır əmək şəraiti mövcud olan, əxlaqi səviyyəsi aşağı olan müəssisələr, yeraltı tunellər, şaxtalar bu yaş qrupundan olan gənclər üçün qadağandır. Həmçinin spirtli içkilər, toksik maddələr, narkotiklərin istehsalı, saxlanması, çatdırılması kimi fəaliyyətlər uşaq və gənclərə qanunla qadağan edilir.

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" ölkə başçısı tərəfindən təsdiq edilmişdir. Stategiya 18 yaşına kimi müxtəlif sosial qruplarda təmsil olunan uşaqların fiziki və psixoloji cəhətdən sağlamlığını, müasir tələblərə uyğun təhsil almasını, sağlam mühitdə böyüməsinin təmin edilməsi üçün gələcək tədbirlərin planlaşdırılmasını nəzərdə tutur. Sosial yönümlü proqramlar müxtəlif səbəblərdən valideynlərini itirmiş, sağlamlıq imkanı məhdud, qaçqın və köçkün ailələrdə böyüyən gələcək nəslin qayğısı ilə əhatə olunmasını nəzərdə tutur. Bu proqramlar təhsil, tibb, hüquq, əmək sahəsində monitorinqlərin aparılmasını nəzərdə tutur. Monitorinqlər vasitəsilə bu sahələrdə yeniyetmə və gənclərin qarşılaşdığı problemlər öyrənilir [1]. Aztəminatlı ailələrin övladlarının, sağlamlıq imkanları məhdud uşaqların, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil ala bilməsi üçün daha əlverişli şərait yaradılmışdır. Bundan başqa uşaq istismarının qarşısını almaq üçün vaxtaşırı monitorinqlərin, yoxlamaların aparılmasını və qiymətləndirilməsini nəzərdə tutan tədbirlər həyata keçirilir. Uşaq əməyinin istismarının qarşısının alınması üçün valideynlərin, sahibkarların, uşaqların özlərinin maarifləndirilməsinə ehtiyyac vardır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti mütəmadi olaraq respublikanın müxtəlif rayonlarında seminarlar təşkil edir. Seminarlar uşaq əməyinin istismarının onun fiziki inkişafına, təhsilinə, mənəvi keyfiyyətlərinin formalaşmasına vurduğu zərəri ictimaiyyətə çatdırmaq məqsədi daşıyır. Uşaqların icbari təhsildən yayınmaması üçün təkcə valideyn və yaxud himayəçilər deyil, onları icbari təhsilə yönəldən, icbari təhsillərinin davamlı olmasına nəzarət edən mexanizmin olması vacibdir. Çünki uşaq əməyinin istismarı adətən, aztəminatlı, çoxuşaqlı, iş qabiliyyəti olmayan, işsiz, zərərli vərdişləri olan valideynlər olan ailələrdə olur. Uşaq əməyinin istismarının kökü cəmiyyətin sosial rifahının aşağı səviyyədə olmasından irəli gəlir. Bu

problemin aradan qaldırılması üçün işsizlik aşağı səviyyədə olmalı, dövlət məşğulluq xidmətləri orqanları tərəfindən məşğulluq proqramları həyata keçirilərkən hədəf qrupu olaqar çətin həyat şəraitində yaşayan ailə başçıları seçilməli, birincı növbədə onlar məşğulluğa cəlb edilməlidir.

Beynəlxalq konvensiyalara əsaslanaraq milli qanunvericilikdə yaşı 18-dən kiçik olanların ağır şərtlərlə əmək fəaliyyətilə məşğul olmaması, çətin sosial şəraitdə yaşayan uşaqların müəyyən edilərək, dövlət himayəsinə verilməsi nəzərdə tutulur. Uşaq əməyinin istismarının qarşısını almaq üçün nəzərdə tutulan regional qurumlarda dövlət proqramları həyata keçirilərsə, daha optimal nəticələr verə bilər. Müxtəlif dövlətlərin, regional və beynəlxalq təşkilatların bu sahədə ortaq qərarları bütün dünya dövlətləri tərəfindən dəstəklənir[10].

Qeyd etmək istərdik ki, "Save the Children" təşkilatının 2018-ci il reytinqində 175 ölkə arasında 841 xalla 89-cu yeri tutan Azərbaycanda məktəb yaşında uşaqlar arasında təhsildən yayınanlar 4,6 faiz, uşaq əməyi göstəricisi isə 6,5 faiz olub[11]. Münaqişələr səbəbindən daimi yaşayış yerlərini tərk etməyə məcbur olan uşaqlara dair bölümdə Azərbaycanın göstəricisi 6.4 faiz təşkil edib. Uşaqların vəziyyəti ilə bağlı dünya üzrə durum keçən ilə nisbətən yaxşılaşsa da, irəliləyişin sürətinin istənilən səviyyədə olmadığı vurğulanıb.Uşaqların münaqişələrə cəlb edilməsi, onlardan əsgər kimi istifadə edilməsi, uşağın həyatına müharibə zonasında son qoyulması  və başqasının həyatına uşaq tərəfndən son qoyulması dünya ictimaiəti tərəfindən qəbul edilməyən hadisələrdəndır. Uşaqların münaqişələrə cəlb edilməsinin tarixini araşdırsaq, qədim zamanlardan başlayaraq hal-hazırki dövrümüzə qədər faklarla rastlaşa bilərik. Baxmayaraq ki, qadınlar və uşaqlar cəmiyyətin ən həsas, müdafiəsiz, fiziki cəhətdən zəif, köməyə ehtiyyacı olan təbəqəsidir. Uşaq Hüquqları haqqında Konvensiya 15 yaşına çatmamış uşaqların müharibəyə cəlb edilməməsini beynəlxalq səviyyədə qadağan etdi. Bu konvensiyaya qoşulan dövlətlər tərəfindən dəstəklənirdi. Ancaq 2000-ci ildə Uşaq Hüquqları haqqında Konvensiyanın Fakültativ Protokoluna əsasən uşaqların müharibədə iştirak yaşları 18-ə qaldırıldı. Baxmayaraq ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi liseylərinə 15 yaşı tamam olan yeniyetmələr qəbul olunur ancaq onların müharibə zonalarında əsgər kimi iştirak etmələri qeyri-qanunidir. Azərbaycan Respublikasında vətəndaşların hərbi xidmətə çağırılma yaşları 18-dir [4].

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, beynəlxalq hüququn uşaqların silahlı münaqişələrdə iştirak etməməsi ilə bağlı tələblərinə bəzi dövlətlər tərəfindən məhəl qoyulmur. 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəs rejiminin şərtlərinə məhəl qoymayaraq müharibə zonasına daxil olmayan Azərbaycan Respublikasının şəhərləri, kəndləri kaset bombaları, raket və ağır artilleriya zərbələrinin hücumlarına məruz qalmışdır. Bərdə şəhəri, Bərdə rayonunun Qarayusifli kəndi, Gəncə şəhəri, Beyləqan, Tərtər şəhərinin məktəb, xəstəxana və digər yaşayış obyektləri Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı rayonları atəşə məruz qalmışdılar. Bu hücumlar nəticəsində dinc sakinlər o cümlədən, 12 uşaq həyatını itirmişdi[3].

Bildiyimiz kimi ailə formalaşmaqda olan uşağın şəxsi keyfiyyətlərinin formalaşdığı "təhsil institutudur". Ailə institutu uşaqların sosiallaşması üçün sosial mikromühit kimi uşaqlara sosial dəyərlər ötürür. Ailənin sosiallaşma institutu kimi unikallığı uşağın həyatının əhəmiyyətli dövrünün burada formalaşması və başqa sosiallaşma institutlarından daha təsirli olması ilə əlaqədardır. Ailə cəmiyyətin ilkin strukturu olaraq yeni dünyaya gəlmiş uşaq üçün əhəmiyyətli sosial mühitdir. Ailə uşaqların zehni inkişafına, emosional vəziyyətinə böyük təsir göstərir. Uşağın sosiallaşmasına valideynlərin təhsil səviyyəsi, mədəni səviyyəsi, həyat tərzi, maddi vəziyyəti təsir edir. Ailə formalaşmaqda olan nəslin psixi və fiziki sağlamlığına böyük təsir edir. Ailə uşağı sərbəst həyata hazırlayır [7, 148-151].

Azərbaycan cəmiyyətində dinin təsiri, milli mentalitetimiz hər bir qız övladının ərə verilməsini, gənc yaşda ana olmasını dəstəkləyir. Valideynlər qızlarının "çörək verəni" olmasını, başının üstündə kişi xeylağı olmasını arzu edirlər.  Ancaq erkən nigaha daxil olma məqbul  və ya qeyri-məqbul hadisə kimi daim mübahisə obyekti olmuşdur. Erkən nigaha daxil olanların aldıqları maddi və mənəvi zərərin miqyası ge-

niş tədqiq edilir, onun bioloji, sosial-psixoloji, iqtisadi, hüquqi cəhətləri tədqiq edilir. Beynəlxalq araşdırılmalar dünyanın müxtəlif ölkələrində olan reallığı fərqli statistik məlumatlarla təqdim edir. Respublikamızda real vəziyyət müxtəlir regionlar, rayonlar üzrə fərqlidir. Məsələn, cənub bölgəsi, Lənkəran, Masallı, Astara rayonlarında erkən yaşda qızların təhsildən yayındırılması, ərə verilməsi adət-ənənələrin davam etdirilməsi reallıqdır. Bu zonada, xüsusilə kənd yerlərində valideynlər qızlarını erkən yaşda ərə verməklə, bir növ " evdə qalmış qız" qınağından övladlarını xilas etmiş olduqlarını fikirləşirlər. Ancaq erkən yaşda zorla ailə qurmağın bir sıra mənfi xüsusiyyətləri haqqında valideynlərin, ailə quranların, ictimaiyyətin maariflənməsi lazımdır. Beləliklə, erkən nigahın baş vermə səbəbləri əvvəldə qeyd etdiyimiz kimi dini inanclarla, milli mentalitetlə sıx bağlıdır. Bundan başqa bir sıra sosial-iqtisadi problemlər erkən yaşda nigaha daxil olmağa zəmin yaradır. Bu problemlərə qızların valideynlərinin çətin sosial şəraitdə yaşaması, işsizlik, çoxuşaqlı ailənin övladı olması, valideynlərin təhsilsiz olması və sair səbəblər ola bilər. Acınacaqlı hal ondan ibarətdir ki, qızlar ərə verilərkən, təhsildən ayrılarkən, nişanlı seçilərkən onların fikri nəzərə alınmır. Ailə qurmağa hazırlaşan qızın şəxsi arzu və istəklərinə önəm verilmir, sərbəstliyə, müstəqilliyə can atan gənc qızlar stiqmaya məruz qalır, ailə həyatı qururlar. Erkən yaşda zorla ərə verilən yeniyetmə qız nə itirir sualına cavab axtararkən, ilk növbədə onun şəxsi azadlığının, daha sonra təhsil hüququnun tapdanmasının şahidi oluruq. Təhsil hər bir uşağın, gəncin əldə edə biləcəyi özünü müdafiə sistemidir. Təhsili olan insan həyat yolunda məktəbdə, universitetdə, peşə məktəbində alığı biliklərə, informasiyalara, ümümdünyəvi dəyərlərə istinad edir. Buna görə də xalqımızin fəxri, dahi şəxsiyyət H.Əliyev "Təhsil millətin gələcəyidir." demişdir. Təhsili olmayan, heç bir ixtisasa, peşəyə yiyələnməyən gənc gələcəkdə qazanc mənbəyindən məhrum olur. Sabahın anası, ailə başçısı ailəsini təhsilli qadın kimi maddi cəhətdən təmin etməkdən məhrum olur, cəmiyyətimizdə yoxsul ailələrin, aztəminatlı ailələrin sayı artır. Psixoloqlar isə bu qrupdan olan anaların uşaqlara tərbiyə, təhsil verilməsində, həyata adaptasiyasında aktiv iştirak edə bilməməsini söyləyirlər. Gənc anaların övladlarını uşaq evlərinə verməsi, başqa insanlara övladlığa verməsi kimi faktlar mövcuddur. Bütün bunlar insan hüquqlarının kobud şəkildə pozulmasına və insan alveri qurbanlarının artmasına səbəb olur.

Uşaqlara qarşı zorakılığın, cinsi istismarın, uşaq alverinın, uşaq əməyi və zərərli ənənəvi təcrübələrin qarşısının alınması BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasında nəzərdə tutulub. Konvensiya dünya dövlətlərini zorakılığa tədbirlərin həyata keçirilməsinə çağırır. Zorakılığın qarşısının alınması üçün tibbi və psixoloji, sosial və pedaqoji xidmət yuksək səviyyəyə çatdırılmalı, hüquq mühafizə sistemi, qəyyumluq və himayə orqanlarının xidmətlərindən istifadə edilməlidir [8,7-8].

Milli uşaq müdafiə sistemlərinin təkmilləşdirilməsi hər bir ölkənin vətəndaşı olan uşaqları mühafizə etmək üçün nəzərdə tutulub. BMT uşaqların mühafizəsinə dövlət tərəfindən işə qəbul edilən sosial işçilər və hüquq müdafiəçilərinin cəlb edilməsini məsləhət görür. Milli uşaq müdafiə sistemlərinin təşkilində lazımi bilik və resurslara malik işçilərin fəaliyyət göstərməsi dövlətin məsuliyyətindədir[14, 18-19].

Çətin sosial şəraitdə yaşayanların maddi vəziyyətlərinin yaxşılaşdırılması üçün Aərbaycan Respublikasının "Sosial xidmət haqqında" qanunu 30 dekabr 2011-ci il tarixlində qüvvəyə minmişdir. Bu qanunun valideyn himayəsindən məhrum olmuş uşaqları, sosial təhlükəli vəziyyətdə olan uşaqları, beş uşağı olan qadınları, sağlamlıq imkanı məhdud 18 yaşadək uşaqları, şəhid və müharibə əlillərinin, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarını əhatə edir. Sadaladığımız qrupdan olan vətəndaşlar hər ay sosial müavinətlə təmin edilir. Buna əlavə olaraq, qeyd etmək istərdik ki, aztəminatlı ailələrin uşaqları 1 yaşa qədər sosial müavinətlə təmin edilir. Ölkəmizdə yeni doğulan hər bir uşağa birdəfəlik müavinat ödənilir. Valideynlərini itirmiş hər bir uşağa və onların qəyyumlarına aylıq sosial müavinatlar ödənilir. Sosial müavinatların məbləği ilbəil artırılır. Vətəndaşların sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması dövlətimizin qarşısında duran prioritet məsələlərdən hesab edilir.

Hesab edirik ki, uşaqların insan alveri qurbanlarının siyahısında payının azaldılması üçün vətəndaşlara dövlət tərəfindən edilən sosial dəs-

təkdən əlavə bu problemi cəmiyyətə çatdırmaq üçün onların maariflənməsinə ehtiyyac var. Təbliğatın ümümtəhsil məktəblərindən başlanması, 11 illik tədris proqramında aşağı sinifdən başlayaraq, insan hüquqlarını təbliğ edən mövzuların ilbəil genişləndirilərək tədris olunması məqsədə müvafiq olar. Maarifləndirmə tədbirləri təşkilatlarda, müəssisələrdə müxtəlif vasitələrlə aparılmalıdır. Bunlar videoçarxların nümayişi, braşuraların paylanması, iclasların keçirilməsi, açıq havada kütləvi tədbirlərin keçirilməsi şəklində olmalıdır. Maarifləndirmə tədbirlərinin həm də cəmiyyətimizin sosial təhlükəli vəziyyətdə yaşayan vətəndaşlarla aparılması lazımdır. Beləliklə, bütün fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Uşaq alverinin metodologiyasının, terminologiyasının, baş vermə səbəblərinin elmi cəhətdən araşdırılması gənc nəslin formalaşmasına təsir edən mənfi sosial-mədəni, sosial-iqtisadi, sosial-hüquqi problemlərin müəyyən olunmasına səbəb olar.
- Uşaqlar arasında hüquq və azadlıqlarının təbliğatına aid dərslər, seminarlar, filmlərin nümayişi kimi tədbirlərin keçirilməsi məqsədəmüvafiq olardı.
- Hökumət və qeyri-hökumət təşkilatları tərəfindən çətin sosial-şəraitdə yaşayan ailələrin, uşaqların, yeniyetmələrin fəaliyyətilə bağlı görüşlər keçirilməli, onların sosial, hüquqi, iqtisadi problemləri monitorinq edilməlidir.
- Ailənin uşaqların formalaşmasında mühüm rolu onun sosial müdafiəsini, sosial-iqtisadi problemlərə, ailədaxili problemlərə, alkoqol və narkotikdən istifadəyə, deviant davranışa, məişət zorakılığına qarşı mübarizədə dövlət institutu qarşısında təxirə salınmaz tədbirlər görülməsini vəzifə kimi qarşıya qoyur.
- Respublikanın müxtəlif rayon və şəhərlərində məşğulluq proqramları çətin sosial şəraitdə yaşayan ailələrə şamil edilməli, daimi iş yerləri, stabil gəlirlərlə vətəndaşlar təmin edilməlidir.
- BMT-nin uşaq fondunun (UNİCEF) uşaqların müxtəlif növ istismarının qarşısının alınması sahəsində apardıqları nəzəri və praktik təcrübə öyrənilərək sosial iş təcrübəsinin tətbiqində, uşaq alverinə məruz qalanların müəyyən olunmasında, reabilitasiyasında, təhsilə, məşğulluğa yönəldilməsində tətbiq edilməlidir.

## Ədəbiyyat siyahısı


1.Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan respublikasi prezidentinin sərəncamı. URL:https://e-qanun.az/framework/45086

2.Azərbaycan Respublikasının Əmək məcəlləsi. URL: https://e-qanun.az/framework/46943

3.Azərbaycan Respublikasının baş Prokurorluğunun saytı. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi

4. Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının Qanunu. URL: https://e-qanun.az/framework/23021

5.İnsan alveri ilə mübarizə. – Bakı – 2015, - 25 s.

6.Konvensiya.URL: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya

7.Sosiologiya. Dərslik. / Z.İ.Məmmədovun və X.H.Orucovun ümumi elmi redaktəsi ilə.- Bakı: İqtisad Universiteti nəşriyyatı, - 2006, - 243 s.

8. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait.// Azərbaycan Respublikası Səhiyyə Nazirliyi kollegiyasının 15 fevral 2017-ci il tarixli08 saylı qərarı ilə təsdiq edilmişdir. – Bakı - 2017, - 60 s

9.Uşaq hüquqları haqqında Azərbaycan respublikasının qanunu. URL: https://e-qanun.az/framework/3292

10.Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan respublikasinin qanunu. URL: https://e-qanun.az/framework/541210

11.Yusubova A. Uşaqların məcburi əməyin qurbanına çevrilməsi qlobal problem kimi: [Elektron resurs]/ - Sosial Tədqiqatlar Mərkəzi. – Bakı, - Dekabr 12, 2019. URL: https://stm.az/ru/news/316/usaqlarin-mecburi-

emeyin-qurbanina-cevrilmesi-qlobal-problem-kimi-arasdirma

12.Бархатов, Д.Е. Социальный статус работающих «уличных детей:/ Автореф. дис. … канд. соц. наук /- Москва, - 2004, - 24 с.

13.Гутник, М.С., Кравцов Д.А. Актуальные вопросы исполнения уголовных наказаний в отношение несовершеннолетних, осужденных без лишения свободы // - Norwegian Journal of development of the International Science No - № 53, - 2021, - 17-21 с.

14. Торговля детьми и защита несовершеннолетних: Обеспечение защиты прав и удовлетворения потребностей детей, пострадавших от торговли людьми, в рамках существующих механизмов защиты детей// ОБСЕ/Бюро Специального представителя и координатора ОБСЕ по борьбе с торговлей людьми. - Вена, - 2019,- 80 с.

## Summary

**Valida Jafarova**

### Causes of human trafficking among children

Child trafficking is more latent than other forms of human trafficking crime. The conducted studies show that the literature on child trafficking, the methodology of determining child trafficking, official statistics, and appeals to law enforcement agencies are at a low level at the national and international level. Citizens under the age of 18 who have been subjected to sexual exploitation, slavery, forced labor, slavery-like practices are considered to be victims of child trafficking. The fact that newborn babies are victims of human trafficking can be due to unwanted pregnancy, irresponsible attitude of parents, low financial status of the family, being a child of a surrogate mother, natural disasters (earthquakes, floods), abnormal psychological conditions of parents and other reasons.

Based on international conventions, the national legislation stipulates that those under the age of 18 should not work under difficult conditions, children living in difficult social conditions should be identified and placed under state protection. If the state programs are implemented in regional institutions to prevent the exploitation of child labor, it can give more optimal results. Joint decisions of various states, regional and international organizations in this field are supported by all world states. In order to reduce the share of children in the list of victims of human trafficking, in addition to the social support provided by the state to the citizens, there is a need to educate them, show videos, distribute brochures, hold meetings, and hold outdoor mass events in order to convey this problem to the society.

***Keywords:*** *Stigma, minor, adolescent, rights, freedom, social work, social problem, non-governmental organizations, peacekeeping, sexual exploitation, violence, psychological, right to participation, right to life, right to education, difficult social conditions, unemployment, employmenta*

## Резюме

**Валида Джафарова**

### Причины торговли людьми среди детей

Торговля детьми носит более латентный характер, чем другие формы преступлений, связанных с торговлей людьми. Проведенные исследования показывают, что литература по вопросам торговли детьми, методика определения торговли детьми, официальная статистика,

обращения в правоохранительные органы находятся на низком уровне на национальном и международном уровне. Жертвами торговли детьми считаются граждане в возрасте до 18 лет, подвергшиеся сексуальной эксплуатации, рабству, принудительному труду, практикам, сходным с рабством. То, что новорожденные дети становятся жертвами торговли людьми, может быть связано с нежелательной беременностью, безответственным отношением родителей, низким материальным положением семьи, нахождением ребенка от суррогатной матери, стихийными бедствиями (землетрясения, наводнения), ненормальным психологическим состоянием родителей. и другие причины.

На основании международных конвенций национальным законодательством предусмотрено, что лица до 18 лет не должны работать в тяжелых условиях, дети, живущие в тяжелых социальных условиях, должны выявляться и помещаться под защиту государства. Если в региональных учреждениях будут реализованы государственные программы по предотвращению эксплуатации детского труда, это может дать более оптимальные результаты. Совместные решения различных государств, региональных и международных организаций в этой области поддерживаются всеми государствами мира. Для снижения доли детей в списке жертв торговли людьми, помимо социальной поддержки, оказываемой государством гражданам, необходимо их обучать, показывать видеоролики, распространять брошюры, проводить встречи, проводить массовые мероприятия на открытом воздухе с целью донести эту проблему до общества.

***Ключевые слова:*** *Стигма, несовершеннолетний, подросток, права, свобода, социальная работа, социальная проблема, неправительственные организации, поддержание мира, сексуальная эксплуатация, насилие, психологическое, право на участие, право на жизнь, право на образование, тяжелые социальные условия, безработица, занятость*

UOT 159.923
https://doi.org/10.59849/2710-0820.2023.2.261

**Aytən Mütəllimzadə**
*Doktorant, Bakı Dövlət Universitetinin Psixologiya kafedrası*
*Azərbaycan*
*aytanmutallimzada@bsu.edu.az*

# ŞƏXSİYYƏTİN İNKİŞAFINA SOSİAL MEDİA PLATFORMALARININ MÜSBƏT VƏ MƏNFİ TƏSİRLƏRİ

***Açar sözlər:*** *internet texnologiyaları, sosial media platformaları, şəxsiyyətin psixologiyası, fərd, şəxsiyyət, özünüqiymətləndirmə*

## Giriş

Müasir dövrümüzdə sosial media platformalarından demək olar ki, hər kəs istifadə edir. Demək olar ki, çox az hallarda sosial media platformalarında şəxsi hesabı olmayan insanlara rast gəlmək olur. Məhz hal-hazırda bu müasir internet resursları vasitəsilə insanlar artıq rahatlığa alışıblar. İnternetin inkişafı ilə ortaya çıxan sosial media platformaları hal-hazırda insanların həyatının bir parçasına çevrilmişdir.

Sosial media platformaları internet qlobal kompüter şəbəkəsində istifadəçilər arasında ünsiyyət və sosial əlaqələrin qurulması, əks etdirilməsi və təşkili üçün nəzərdə tutulmuş olan onlayn xidmət, vebsaytdır [4, s. 1]. Sosial media platformaları isifadəçilərinə özləri haqqında məlumat yerləşdirərək şəxsi hesablarını yaratmağa imkan verir. Hər bir istifadəçi səhifəsində yerləşdirmiş olduğu məlumatlarla xarakterizə olunur. İnsanlar şəbəkə (“web”) səhifəsində şəxsi anketlərini doldurduqda, öz şəxsi xüsusiyyətlərini ifadə etməyə çalışırlar. Müşahidələrə əsasən deyə bilərik ki, gündəlik həyatda insanlar sosial media platformalarından şüursuz şəkildə istifadə edirlər və bu vəziyyət insanların psixoloji sağlamlığına ciddi surətdə təsir göstərmiş olur. Bu platformalardan sui-istifadə edilməsə, onlar prinsipcə daha çox müsbət təsir etmiş olacaqlar.

Sosial media platformalarında hər şey sadə və şəxsiyyətsizdir. Burada üz ifadələri, hərəkət, göz təması, duruş və jestlərin dili və həqiqi emosiyalar demək olar ki, yoxdur. Bəzi insanlar üçün öz şəxsi hesablarını ziyarət etmək gündəlik ayin halına gəlir, onlar hesablarında bəzi yeniliklər (dostluq təklifi, ismarış, yeni bəyənmələr və s.) görmək ümidi ilə gün ərzində bir neçə dəfə şəxsi hesablarına daxil olurlar. Xüsusilə də gənclər izləyici sayını artırmaq, bloqer, influenser və ya fenomen ola bilmək üçün mümkün qədər çoxlu sayda dost əlavə edib, çoxlu sayda paylaşımlar etməyə meyllidirlər (bəzən çox mənasız və vaxt itkisi olan paylaşımlar olsalar belə). Təbii ki, bu kimi paylaşımlar etmək çox zaman faydasız və mənasız məşğuliyyət hesab edilir. Lakin az da olsa sosial media platformalarında maarifləndirici səhifələr açıb, faydalı paylaşımlar olunan səhifələrində olduğunu müşahidə etmək olar (kitab müzakirəsi, elmi məlumatları ehtiva edən mətnlər). Ancaq bir sıra sosial media platformalarında (TikTok kimi) açılan hesabların mənfi təsirləri daha çoxdur, bu kimi platformalarda vaxtın mənasız və əsassız itkisi baş verir, heç bir müsbət nəticə olmur.

Yeniyetmə və gənclərdə olan əylənmə və maraq hissi, pis niyyətli insanlar tərəfindən real həyatda və virtual mühitdə də “yaxşı bir fürsət” kimi istifadə edilir. Aşağı yaş qruplarının kütləvi psixoloji deqradasiyası cəmiyyət və bütövlükdə bəşəriyyət üçün olduqca təhlükəlidir. Xüsusilə də yeniyetmələr inanılmaz dərəcədə asanlıqla başqalarının təsirinə düşə bilirlər. Sosial media platformaları zorakılığa, irqçiliyə və ekstremizmə çağıran materiallarla doludur. Bütün bunlar isə həssas psixologiyaları olan uşaqların şəxsiyyətinə çox güclü təsir etmiş olur. Təbii ki, uşaqlar sosial media platformalarından kənarda da oxşar problemlər ilə qarşılaşa bilərlər, sadəcə bu platformalar bu kimi problemlər üçün “əlverişli” mühitdir. Yeniyetmə və genc-

lərin internetdə xüsusilə nəslərsə axtarmasına ehtiyac belə yoxdur. İnternetdə hər bir şey sərbəstdir və hamısı bir yerdədir. Həmyaşıdlarının və böyüklərin şəxsi sosial media hesablarının uşaqlar üçün necə bir nümunə olacağını təxmin etmək asandır. Bu gün hətta ibtidai məktəb yaşındakı uşaqlar da sosial media platformalarına daxil olmaqla, internetdə boş vaxt keçirirlər. Müasir uşaqlar bu platformalarda digərləri ilə "ayaqlaşmaq" üçün asudə vaxtlarını da eyni şəkildə keçirtmək istəyirlər.

Yetkinlik yaşına çatmayan və gənc istifadəçilər öz psixi sağlamlıqlarını sosial media platformalarında riskə atırlar. Planşet və ağıllı telefonların istifadə edilməsinə qadağa qoyulanda isə, valideynlərlə anlaşılmazlıqlar, münaqişələr yaranır ki, bu da təbii olaraq uşağın psixi sağlamlığına və ətrafdakılarla münasibətlərinə təsir göstərmiş olur.

Texnoloji yeniliklər təbii ki, yaxşıdır, amma texnologiyanın harada, necə və hansı məqsədlər üçün istifadə edilməsi məsələsi olduqca vacibdir. Xüsusilə də yeniyetmə və gənclər tərəfindən sosial mediadan şüursuz şəkildə istifadə olunmasını nəzərə alsaq, belə bir vəziyyət onların psixoloji sağlamlığına ciddi şəkildə təsir göstərmiş olur. Belə ki, sosial medianın təqdim etmiş olduğu əlçatan imkanlardan sui-istifadə edilməsə, əgər patformalardan şüurlu və məqsədli olaraq istifadə olunarsa, o zaman daha çox bu platformaların müsbət təsirlərini də müşahidə etmiş olarıq.

Sosial media platformalarının müsbət və mənfi tərəfləri.

Sosial media platformalarının tamamilə zərərli olmadığını, çoxlu sayda müsbət təsirləri olduğunu qeyd etmək lazımdır. Çünki, hal-hazırda texnologiya əsridir, internet texnologiyalarının sürətli inkişafı ilə ayaqlaşmaq üçün sosial media vasitələrindən istifadə etmək zəruridir. Əsasən də sosial medianın müsbət tərəflərini nəzərə alaraq onun təqdim etmiş olduğu imkanlardan doğru istifadə edilməsini öyrənmək lazımdır. Belə ki, sosial media platformalarının müsbət tərəflərinin əsas bir neçəsini aşağıda qeyd edirik:

- Lazımi məlumatların, həmfikirlərin sürətli axtarışı, dostlar, qohumlar, ölkənin və dünyanın müxtəlif yerlərində yerləşən digər insanlarla ünsiyyət qurmaq, özünü ifadə etmək imkanı, yaradıcı potensialın reallaşdırılması, fərdlər arasında deyil, həm də qruplar arasında ünsiyyət qurmaq üçün əlverişli vasitə olması sosial media platformalarının əsas müsbət tərəfidir.

- Maraqlı, tanınmış şəxsiyyətlərin paylaşımlarını oxumaq, onlara şərh vermək, ənənəvi mediada toxunulmayan və ya səssiz qalan məsələlərin və mövzuların işıqlandırılması mümkündür.

- Peşəkar fəaliyyətin təşkilində, öz gördüyü işlərin internetdə təbliğində və reklamında köməklik göstərmək üçün əlverişli mühitdir. LiveJournalda düşüncələri, həyəcanlandıran mövzuları qələmə alırlar. VKontakte dərslər, tapşırıqlar və s. cədvəli haqqında lazımi məlumatları almaq, bir şey satmaq və almaq, LinkedIn-də iş, biznes tərəfdaşları tərəfdaşları axtarmaq, Instagramda faydalı marafonların və rahat reklam işlərinin aparılması, malların satışı, biznesin qurulması və inkişaf etdirilməsi mümkündür [4, s. 2]. Müasir dövrümüzdə sosial media platformaları reklam üçün ən əlverişli mühitdir, çünki burada böyük istifadəçi kütləsi vardır.

- Hal-hazırda insanlar bir şey almadan əvvəl, müvafiq dəyərləndirmə forumlarına daxil olur və məhsulun keyfiyyəti haqqında rəyləri oxuyurlar, sosial media platformaları məhsulu almadan əvvəl ehtimal olunacaq problemlərdən qaçmağa və ya lazımı sualları almağa kömək edir.

- Bu platformalarda xeyriyyə məqsədi ilə tez bir zamanda yardım üçün lazım olan vəsaiti toplamaq mümkündür.

- Kəskin sosial problemlər və ya fövqəladə hallar sosial media platformalarında qızğın müzakirələr aparılır, böyük bir kütlə medianı da onları dinləməyə, bu məlumatları öz kanalları ilə ötürməyə məcbur edir.

- Sosial media platformaları ilə məsafədən təhsil almaq, zaman və məkan fərqi olmadan tədbirlər və görüşlər təşkil etmək mümkündür (Covid-19 pandemiyası vaxtı sosial media platformalarının bu kimi müsbət tərəfindən daha çox yararlanmaq mümkün olmuşdur).

- Məlumat əldə etmək, elektron resurslardan istifadə etmək üçün sosial media platformaları əlçatan və rahatdır. Xüsusilə də təhsil sahəsində olan şəxslər (istər təhsil alan istərsə də təhsil verən) sosial media platformalarından kitab, məqalə və ya digər zəruri məlumatları asan və hətta ödənişsiz əldə edə bilirlər.

Sosial media platformalarının müsbət tərəfləri yuxarıda qeyd etdiklərimiz ilə kifayətlənmir. Təbii ki, həm ümumi olaraq həm də konkret hansısa sahədə bu platformaların müsbət tərəfləri olduqca çoxdur. Lakin, internet texnologiyalarının istifadə qaydası haqqında kifayət qədər geniş məlumata sahib olmayan, onun zərərli və ya faydalı təsirlərini bilməyən şəxslər (əsasən də azyaşlılar) sosial media platformalarının zərərli təsirlərinə daha çox məruz qala bilirlər. Belə ki, bu zaman biz sosial medianın müsbət tərəflər ilə yanaşı mənfi tərəflərini də müşahidə etmiş oluruq. Onların əsas bir neçəsini aşağıda qeyd edirik:

- Sosial media platformalarına çox bağlananda və onlardan asılı olmağa başlayanda virtual mühiti reallıqla qarışdırmaq mümkün ola bilir. Belə bir hal isə bir müddət sonra şəxsiyyətin deqradasiyasına gətirib çıxarmış olur.

- İnsanlar hər hansısa faydalı fəaliyyət ilə məşğul olmaq və istirahət etmək əvəzinə sosial media platformalarında daha çox vaxt "itirirlər". İnternetdə özünə heç bir fayda vermədən vaxt sərf etmək təkcə psixoloji deyil fizioloji sağlamlığa da təsir edir- görmə, sinir sistemi, yuxu rejimi və s.

- Sosial media platformaları müxtəlif xüsusi xidmətlər üçün şəxsi məlumat mənbəyi ola bilər. İstifadəçilər heç tərəddüd etmədən sosial şəbəkələrdə özləri, eləcə də ailələri və dostları, uşaqları haqqında məlumatlar yerləşdirirlər. Bəzən isə bu vəziyyət onlar üçün problemə çevrilə bilər. Platformaların bazalarında öz şəxsi hesabını və məlumatları silmək mümkün olmur.

- Sosial media bu gün marketinqin alətinə çevrilmişdir, reklamçıların və PR mütəxəssislərinin ehtiyaclarını birbaşa istifadəçilərdən daha çox ödəyir. Çox zaman istifadəçilər sosial media marketinqinin qurbanı olurlar.

- Elə olur ki, platformalarda "ləqəb" (nickname) və fotoların arxasında tamamilə fərqli insanlar gizlənir, belə hallar həmişə yaxşı niyyətlə olmaya bilər. Sosial media platformalarında kiminsə maraqlarına uyğun müxtəlif qruplar yaratmaq çox asandır.

- Sosial şəbəkələr kütləvi informasiya vasitələrini əvəz edə bilməz, çünki onların etibarlılığı, reallığın obyektiv əksi yoxdur (bir sıra rəsmi idarələrin sosial şəbəkələrdə ki, hesabları istisna olmaqla).

- Sosial media platformaları canlı ünsiyyəti əvəz etmir: internetdə ifadələr real emosiyaları, hissləri və əhval-ruhiyyəni ifadə edə bilməz.

Sosial media platformalarının şəxsiyyətin inkişafına təsiri.

Müasir dövrümüzdə insanlar virtual ünsiyyətə real ünsiyyət prosesindən daha çox üstünlük verirlər. Xüsusilə də bu problem yeniyetmələri və gənclərdə daha çox müşahidə edilir [4, s. 3]. Yeniyetmə və gənclərin virtual ünsiyyətə belə bir asılılığının olması başa düşüləndir- orada heç kim onları xoşagəlməz bir həmsöhbətlə əlaqə saxlamağa məcbur edə bilməz, heç kim yeniyetməyə "tərbiyə vermir" və ona necə davranmağı öyrətmir. Belə olan hallarda sosial media platformaları yeniyetmə və gənclərə xüsusilə zərərli təsir göstərmiş olur.

Sosial media platformalarda virtual ünsiyyət qurmaq, real ünsiyyət fəaliyyətinə mənfi təsir edir, xüsusilə də yeniyetmə və gənclər ağıllı telefonlardan və sosial media platformalarından asılı vəziyyətə düşürlər. Onların gerçək həyatda yaşlılar və öz həmyaşıdları ilə real təmas bacarıqları zəifləmiş olur. Bundan əlavə, bu platformalar insanın ünsiyyət keyfiyyətlərinə mənfi təsir göstərir. İnternetdə nə qədər çox vaxt sərf edilirsə, canlı ünsiyyətə o qədər az vaxt sərf etmiş olunur. Müasir yeniyetmələr və gənclər zamanla ünsiyyət bacarıqlarını itirir və öz düşüncələrini şifahi nitq vasitəsilə ifadə etmək onlar üçün daha çətin olur. İnternet jarqonu gündəlik həyatı zəbt edir (sözlər ixtisar olunur (salam-slm, necəsən-ncsn), qrammatik səhvlərə əhəmiyyət verilmir və s.) və kitab oxumaq ümumiyyətlə böyük çətinliyə çevrilir. Bir çox yeniyetmələr və gənclər sosial media hesablarında bilərəkdən səhv yazılan sözlər, söyüşdən istifadə edir və virtual həyatda bunun sosial baxımdan məqbul olduğuna inanırlar. Onlar fərqində olurlar ki, real həyatda hər şey bu qədər də sadə deyil.

Sosial media platformalarında şəxsiyyətə təsir etdiyi müşahidə edilən problemlərdən biri də, son dövlərdə internetdə kiber hücumların və təhdidlərin artmış olmasıdır. Kiber hücumlarda elektron hücumlar virus daşıyan mesajlar və spam mesajlar göndərilərək tətbiq olunur. Kiber zorakılıq ilə bəzən gənclər digər həmyaşıdlarına mənfi təsir edə bilir və ya özləri də belə mənfi təsirlərin qurbanı ola bilirlər. Gənclər kiber zo-

rakılığa məruz qalanda intihar barədə də düşünə bilir və ya depressiyaya düşürlər. Bu vəziyyət qurbanlarda ciddi psixoloji problemlər yarada bilər və yaşadıqları bu problemlərə görə intihar edə bilərlər.

Gənclər yaşıdları ilə ünsiyyət qurmaq və yeni tanışlıqlar etməyi sevirlər. Sosial mediada çox güclü bir cazibə vardır ki, gənclər üçün bir asılılığa çevrilə bilir. Digər insanların, xüsusilə də sosial media fenomenləri və bloqerlərin Photoshop kimi (FaceApp və s.) proqramlardan istifadə edərək, özlərini qüsursuz təqdim etməkləri, onları izləyən gənclərə mənfi təsir etmiş olur. Görünüşlərini fiziki olaraq dəyişdirmək və özlərini sosial mediada gördükləri hər növbəti insanla müqayisə etmək ehtiyacını hiss edə bilirlər.

Son zamanlarda müşahidə etmiş oluruq ki, gənc qızlar sosial media platformalarındakı bloqer və sosial media influenserlərin paylaşımlarını müqayisə edərək bədən çəkisi nisbətlərini bəyənmədikləri üçün özlərinə inamsızlıq hiss etmiş olurlar. Bu kimi müqayisə gənclərin şəxsiyyətinə mənfi təsir etmiş olur. Onların özünüqiymətləndirməsi aşağı olur, qida pozuntusu və digər problemlər təzahür edə bilir (bulemiya, anoreksiya, dismorfofobiya və s.). Aparılan tədqiqat nəticələrinə görə qızların oğlanlardan çox sosial media platformalarında vaxt keçirmiş olduğu müəyyən edilmişdir. Belə olan halda qızlar oğlanlara nisbətən platformaların daha çox zərərli təsirlərinə məruz qaldığını müəyyən etmək olar [2, s. 440].

Sosial media platformalarının tez-tez istifadəsi narahatlıq və depressiya əlamətlərini [5, s. 361], tənhalıq hissini artırır, aşağı özünüqiymətləndirməyə səbəb olur, yuxu problemlərinə səbəb ola bilir və ya qida vərdişlərindəki bəzi dəyişikliklərə və problemlərə zəmin yarada bilir və s. qeyd edilən bənzər mənfi təsirlərə səbəb olur. Misal olaraq, müasir dövrdə gənclər artıq stolda deyil, kompüterdə və ya bir əllərində telefon idarə edərək yemək yeyirlər.

Bəzən insanlar gündəlik stress və çətinliklərdən qurtulmaq üçün sosial mediaya üz tuturlar. Ancaq aparılan tədqiqatlar göstərir ki, sosial media stressi azaltmaqdan daha çox stress səviyyəsinin artmasına səbəb olur. 1800 nəfər üzərində aparılan tədqiqatda qadınların kişilərdən daha çox stressli olduğunu göstərir. İstifadəçilərin öz stresslərini bölüşdüyü Twitter əslində sosial mediada ən böyük stress mənbəyidir.

30 ildir utancaqlıq hissi ilə bağlı tədqiqatlar aparan psixoloq, professor Rovland Miller təəccüblü bir nəticə ortaya qoymuşdur: Facebook və Twitter kimi sosial şəbəkələr utancaqlıq hissini məhv edir. İnsanın öz şəxsi həyatı özəldir, yəni məxfidir. Şəxsi həyata dair paylaşımların (xüsusən də şəxsi foto və hadisələrin) sayı artdıqca utanma hissi də azalmış olur. Nəticədə Facebook-da şəxsi həyat şəxsi olmaqdan çıxar, sosial həyata çevrilir. Həmçinin, Facebook-da bəzi insanlar bəyənilmək istəyi ilə hərəkət etdikləri üçün fərdiliklərini də itirirlər (trend olan paylaşımları təqlid edirlər). Sosial mediada Norbert Eliasın "Utancaqlıq sivilizasiyadan yaranıb" tezisindən xeyli uzaqlaşırlar.

Sosial media platformalarının yeniyetmə və gənclərə müsbət təsirinin olması da danılmazdır. Belə ki, onlar istənilən zaman bir-birlərini görmək istədikdə dostları ilə rahat və tez əlaqə yarada bilirlər. Sosial media hal-hazırda dünyanın hər bir yerində baş verən vacib hadisələr barədə sürətli şəkildə məlumat ötürür. Gənclərin özlərini rahat ifadə edərək daha yaxşı hiss etmələrinə və cəmiyyətdə müəyyən bir mövqe tutmaqlarına şərait yaratmış olur. Sosial media gənclərdə sosial bacarıqların inkişaf etdirilməsinə kömək edir və ən yaxşı tərəfi bir çox dostluğun bu platformalardan başlaya bilməsidir. Gənclər ümumiyyətlə burada yeni dostlar qazanmağı yaxşı bacarırlar. Bu platformaların gənclərə daha bir maraqlı təsiri isə ondadır ki, həmyaşıdları ilə sosial media vasitəsilə ünsiyyət qurmaq onlara daha əyləncəli gəlir (smile, sticker, gif və s. vasitəsilə).

Belə ki, sosial media platformalarından istifadə etmək insanların subyektiv rifahına müsbət təsir edir, qəbul olunan sosial dəstəyi, həmyaşıdları arasında ünsiyyətin davamlılığını təmin etdiyi üçün onlara müsbət etmiş olur. Emosional qeyri-sabitlik problemi olan insanlar, bu platformalarda hisslərini bölüşərək, ifadə edərək kömək almaq imkanlarını artıra bilərlər.

Müasir dövrümüzdə sosial media təhsil sahəsində də şagird və tələbələrin müəllim ilə asanlıqla ünsiyyət qurmasını təmin edir. Xüsusilədə Covid-19 virusunun yayılması səbəbi ilə pandemiya şəraitində dünyada, həmiçinin də öl-

kəmizdə məsafədən təhsilə keçməklə sosial media platformalarının, texnoloji inkişafın müsbət istiqaməti özünü göstərmişdir. Təhsilin fasiləsizliyi prinsipinə əsasən dərslərin təşkil edilməsi mümkün olmuşdur.

Sosial media platformalarının köməyi ilə insanlar köhnə dostları ilə də ünsiyyət qura bilirlər və bu inkişaf etmiş ünsiyyət aralarındakı əlaqəni gücləndirmiş olur. Belə ki, münasibətlərin saxlanılması və davam etdirilməsi bu platformalarda olduqca rahatdır.

Şəxsiyyətin inkişafına sosial media platformalarının təsiri (həm mənfi həm də müsbət) olduqca güclüdür. Belə ki, sosial media platformaları mənlik şüuruna, xüsusən də "Mən obrazı"na əhəmiyyətli səviyyədə təsir göstərmiş olur. Belə ki, "virtual mən" "ideal mən" obrazına yaxınlaşır və "real mən" ilə arada böyük bir boşluq yaranır ki, bu da özünüqiymətləndimənin aşağı olmasına səbəb olur, adekvatlıq pozulur. Zamanla virtual aləm insanların real həyatını dəyişdirmiş olur [4, s. 6]. Sosial media platformaları fəaliyyət prosesinə nə təsir göstərmiş olur. Real münasibətlər, ünsiyyət fəaliyyəti virtual münasibətlər və virtual ünsiyyət ilə əvəz edilir. Peşə fəaliyyəti sosial mediada özünə məxsus yeni formada həyata keçirilir (bloqer, sosial media influenseri, sosial media marketinqi və s.). Real oyunlar (yaş qrupuna müvafiq olaraq: əşyalar və oyuncaqlar ilə oyunlar, rollu oyunlar, stol üstü oyunlar və s.) artıq vitual oyunlar ilə əvəz olunur. Bu kimi virtual oyunların bir qismi isə şəxsiyyət üçün təhlükə hesab olunur (misal olaraq, "Mavi balina"). Sosial media platformaları şəxsiyyətin idrak proseslərinin inkişafına da təsir göstərmiş olur. Təfəkkür proseslərinin, yaradıcı təxəyyülün inkişafı zəifləyə bilir. Sosial media vasitəsilə hazır məlumatlar əldə etmək daah rahat və əlçatan olduğu üçün araşdırmaq, öyrənmək motivasiyası aşağı olur.

Son illərdə sosial media platformalarının psixoloji təhlilinə dair aparılan tədqiqatların sayında nəzərəçarpacaq dərəcədə artım olmuşdur. Bu araşdırmalara görə kompüter vasitəçiliyi ilə ünsiyyət və onlayn platformalar istifadəçilərə fərqli imkanlar təqdim edir. Ancaq sosial medianın bütövlükdə pis bir yer olduğunu söyləmək də səhv olardı, çünki həyatımıza əlavə etdiyi müsbət tərəflər də var. Sosial mediadan konstruktiv və məhsuldar şəkildə istifadə etmək mümkündür.

**Yekun**

İlk yarandığı vaxtlarda sosial media platformaları insanları həmfikir qruplarda birləşdirmək, həmçinin digər insanlar və ya insan qrupları arasında sürətli ünsiyyət prosesini həyata keçirmək üçün yaradılmışdır. Belə ki, zamanla bu platformalar öz həqiqi məğzini itirməyə başlamışdır. Lakin nəzərə almaq lazımdır ki, müasir dövrümüzdə insanlar texnoloji inkişaf baxımdan bacarıqlı və səriştəli olsalarda, sosial medianın zərərli təsirlərinə daha çox məruz qalırlar. Xüsusilə də zərərli təsirə məruz qalan çoxluq müasir dövrün yeniyetmə və gəncləridir. Dövrümüzün insanları bu günlərdə sosial mediaya o qədər çox əhəmiyyət verirlər ki, artıq sosial media onların əsas prioritetinə çevrilmişdir. İstifadəçilər sosial mediada nəinki vaxt itirmiş olurlar, həmçinim psixi sağlamlıqlarınıda qurban etmiş olurlar. Sosial media platformalarında insanların ancaq virtual tərəfini görmək mümkündür. Bu o deməkdir ki, virtual aləmdə istifadəçilərin yalnız göstərmək istədikləri tərəfləi görmək olur. Bir çox insanlar sosial mediada özlərini başqalarına əslində olmadıqları biri kimi göstərməyə çalışırlar. Bu da zamanla şəxsiyyətin deqradasiyasına səbəb olur.

Həyatımızda texnologiyanın rolunun artması, yeniyetmə və gənclərin internetdə keçirdikləri vaxtı uzatmış, internet aşlılığı ilə bərabər bir sıra psixoloji problemləri də artırmışdır. Sosial media platformalarının şəxsiyyətə təsiri əvvəlki illərdə də müzakirə olunub, indi də müzakirə olunur və uzun müddət də müzakirə olunacaq. Çünki, texnologiya əsrində olduğumuz üçün texnoloji inkişaf dayanmadan artmaqdadır. Psixoloqlar, həmçinin analitiklər, marketoloqlar və bir çox digər mütəxəssislər də daxil olmaqla bir çox akademik tədqiqatçılar bu istiqamətdə araşdırmalar aparırlar. Bu istiqamətdə çoxlu sayda tədqiqat işləri aparmaq, sosial media platformalarından düzgün istifadə etməyi yeniyetmə və gənclərə öyrətmək, maarifləndirici işlər görmək lazımdır.

**Ədəbiyyat siyahısı**

1. Tarhan, N. Sosyal medya psikolojisi: / N.Tarhan - İstanbul: Der, - 2021. - 400 s.

2. Kıran, S., Küçükbostancı, H., Emre, İ. Sosyal medya kullanımının kişiler üzerindeki etkilerinin incelenmesi: / S.Kıran, H.Küçükbostancı, İ.Emre // Bilişim teknolojileri dergisi - 2020, Sayı: №4, - s. 435-441.

3. Waseem, A. A Study on positive and negative effects of social media on society: / A.Waseem // International journal of computer sciences and engineering - 2018, №5(10), - s. 347-354

4. Влияние социальных сетей на молодежь: / Пинский колледж УО "БРГУуниверситет имени А.С. Пушкина" / [Электронный ресурс] / - URL: https://pinskcol.brsu.by/sites/default/files/%D1%81%D0%BE%D1%86%D1%81%D0%B5%D1%82%D0%B8.pdf - 7 с.

5. Желатова, Д.В. Влияние социальных сетей на ментальное здоровье: / Д.В.Желатова // Вестник науки - 2023, №2(59), - с. 361-363.

**Summary**

**Aytan Mutallimzada**

**Positive and negative effects of social media platforms on personalıty development**

Social media platforms are used by almost everyone nowadays. It is rare to see people without personal accounts on social media platforms. It is through these modern internet resources that people have become accustomed to convenience. Social media platforms that emerged with the development of the Internet have now become a part of people's lives. Technological innovations are of course good, but it is very important to analyze how and for what purpose these innovations are used. Especially if we take into account the unconscious use of social media by teenagers and young people, such a situation seriously affects their psychological health. If the opportunities provided by social media are not misused, but if they are used consciously and purposefully, we will in principle observe more positive effects of these platforms. Both positive and negative effects of social media platforms on personality development are analyzed in detail in the presented article.

***Keywords:*** *internet technologies, social media platforms, psychology of personality, individuality, personality, self-esteem*

**Резюме**

**Айтан Муталлимзада**

**положительное и негативное влияние социальных медиа-платформ на развитие личности**

Платформами социальных сетей сегодня пользуются практически все. Редко можно увидеть людей без личных аккаунтов в социальных сетях. Именно благодаря этим современным интернет-ресурсам люди привыкли к удобству. Платформы социальных сетей, появившиеся с развитием Интернета, теперь стали частью жизни людей. Технологические инновации – это, конечно, хорошо, но очень важно проанализировать, как и для каких целей эти инновации используются. Особенно если принять во внимание неосознанное использование социальных сетей подростками и молодыми людьми, такая ситуация серьезно влияет на их психологическое здоровье. Если возможности, предоставляемые социальными сетями, не будут использоваться неправильно, а будут использоваться сознательно и целенаправленно, мы в принципе увидим более позитивный эффект от этих платформ. В представленной статье подробно анализируется как положительное, так и отрицательное влияние социальных сетей на развитие личности.

***Ключевые слова:*** *интернет-технологии, социальные сети, психология личности, индивидуальность, личность, самооценка*

UOT 159.9
https://doi.org/10.59849/2710-0820.2023.2.267

**Şəhla İbrahimova**
*258 saylı tam orta məktəbin psixoloqu, BDU-nun doktorantı*
*Azərbaycan*
*shahla.aqill@gmail.com*

# PSİXOTERAPİYADA BORDERLİNE

***Açar sözlər***: *tərkedilmə, sərhəd, saxta kimlik, köçürmə, şəxsiyyət, bağlanma.*

Müasir dövrdə borderline anlayışı müxtəlif aspektlərdən öyrənilmişdir. Cəmiyyətdə borderline olan şəxslərə çox tez-tez rast gəlirik. Borderline anlayışı ilk dəfə 1938-ci ildə Adolf Stern tərəfindən elmə gətirilmişdir [5]. Statistikaya əsasən, borderlinedən əziyyət çəkən şəxslərin 75%-i qadınlardır. Bir zamanlar psixiatrlar borderlinenin düzəlmə ehtimalının olmadığını qeyd edirdilər, hətta bu problemə daha qərəzli baxış mövcud olmuşdur. Lakin, günümüzdə bu problemin psixoterapiya ilə çox yaxşı nəticələr əldə edildiyi sübuta yetirildi. J.Masterson və O.Kernbergin tədqiqatlarında borderline şəxslər xüsusi yer tutur. O.Kernberg şəxsiyyət pozuntularının müalicəsində Transfer Fokuslu terapiyanın yaradıcısıdır. Eyni zamanda koqnitiv davranış terapiyası və psixoloanaliz də borderlinenin müalicəsində effektivdir. O.Kernbergə əsasən, bu pozuntunun ağırlıq dərəcəsindən aslı olaraq terapiya növü dəyişməlidir, yəni daha ağır formalarda transfer fokuslu terapiya, daha yüngül formalarda isə koqnitiv davranış terapiyası və psixoanaliz uğurlu nəticələr verir.

Bu pozuntu qeyri-sabit əhval-ruhiyyə, xaotik münasibətlər və impulsiv davranış (cinsi əlaqə, maddə istifadəsi, həddindən artıq xərcləmə və ehtiyatsız davranış) ilə xarakterizə olunur. Borderline, şəxsin özü və başqaları haqqında düşünmə tərzinə təsir göstərən, eyni zamanda günlük həyatına neqativ təsir edən bir problemdir. Bu insanlar özünə zərər verməyə meyilli və ən önəmlisi isə bütünləşmiş mənlikdən məhrumdurlar[4, 12]. Borderline şəxslər özlərini adətən pis və əzilmiş hiss edirlər. Şəxsin göstərdiyi həddən artıq əsəb, impulsivlik, tez-tez emosiyalarının dəyişməsi, ətrafında olan insanları onlardan uzaqlaşdırmasına gətirib çıxarır. Borderline şəxsiyyət pozuntusu olan şəxslər istər ikili münasibətlərdə, istərsə də sosial münasibətlərdə problemlər yaşayırlar. Onlar hər bir duyğunu sərhəd halında yaşayırlar. Bu insanlarda tez-tez əhval-ruhiyə dəyişikliyi, əsəbləri idarə edə bilməmə, özünə zərər vermə, intihar düşüncəsi çox sıxlıqla görülür.Həmçinin, onlar həyatdakı rollarını tez-tez sorğulayır və bu haqda çox düşünürlər, hadisələri kəskin bir şəkildə dəyərləndirirlər. Bu insanlar asanlıqla hirslənir və çox zaman manipulyativ olurlar [1, 59]. Borderline şəxs üçün bir insan və ya hadisə ya yaxşıdır ya da pisdir, ortalama yoxdur. Borderline 2 qütb seçimi arasında qalmaqdır. Yaxşı seçimdə özlərini dəyərli, sevimli hiss edərlər, pis ucda isə özlərini dəyərsiz, günahkar hiss edərlər. Çox səmimi olduqları birinə qarşı asanlıqla soyuq davranışlar sərgiləyə bilirlər. Bu insanların təməlində saxta kimlik, bütünləşə bilməmək vardır. Buna görə də davamlı olaraq kim olduqları haqda dərin düşünürlər. Onlar təkcə insanların ideallaşdırılması və dəyərsizləşdirilməsi qütbləri arasında deyil, həm də insanlara yapışıb qalma və uzaqlaşma qütbləri arasında da gedib-gəlirlər. Bir sözlə, onlar yalnız qalmaqdan həm qorxur, həm də uzaqlaşmaq davranışı sərgiləyirlər və bir çox hallarda xaotik cinsi münasibətə meyilli olurlar, bu isə onları olduqları pis duyğu vəziyyətindən qaçmağa kömək edir. Yəni, xaotik cinsi münasibət qaçınma davranışıdır.

Müasir psixoanalizdə, xüsusilə, psixodinamik istiqamətə nəzər salsaq, burada iki əsas terminin, “Borderline şəxsiyyət pozuntusu” və “Borderline şəxsiyyət strukturu” anlayışlarının mövcudluğunu görə bilərik. Bunlar eyni deyil və bir sıra fərqli xüsusiyyətlərə sahibdirlər. O.Kernberg bu iki anlayışın hər birini psixoana-

liz istiqamətində dəyərləndirmişdir. Eqo və obyekt münasibətlərini birləşdirərək, ilkin müdafiə mexanizmləri, eqo yetərsizliyi və problemli insan münasibətləri ilə özünü göstərən bir qrup şəxsi borderline şəxsiyyət strukturu adı altında birləşdirmişdir [2, 266]. Borderline şəxsiyyət strukturu 1967-ci ildə O.Kernberg tərəfindən elmə gətirilmişdir[4, 33]. Borderline şəxsiyyət pozuntusu olan şəxslər davamlı hirs, ideallaşdırma və dəyərsizləşdirmə ilə özünü göstərən, özünə zərər verməyə daha çox meyilli olan şəxslərdir. Qeyd olunduğu kimi, borderline şəxsiyyət pozuntusuna inteqrasiya etməmiş mənlik və natamam obyekt münasibətləri xasdır. Bunun əksinə, borderline şəxsiyyət strukturunda isə obyekt və mənlik arasında ayrışma vardır, lakin, real mənlik bütünləşməmişdir. Yəni, borderline şəxsiyyət strukturunun, borderline şəxsiyyət pozuntusundan əsas fərqi obyekt münasibətlərinin yüksək səviyyədə olmasıdır. Hər ikisində bölünmə əsas müdafiə şəkli olsa da, borderline şəxsiyyət pozuntusunda bu daha üstündür. Daha bir fərq isə ondan ibarətdir ki, borderline pozuntu halında psixotik qrupa aid edilir, lakin borderline şəxsiyyət strukturu isə psixotik qədər dərin deyil, nevrotik qədər də yüngül deyil, bu struktur sərhəddədir, bir növ bu iki vəziyyətlər arasındadır. Bu insanlar gah nevrotik, gah da psixotik tərəflər arasında get-gəl yaşayırlar.

Borderline olan şəxslərdə təkrarlanan intihar cəhdləri, intihara meyillilik çox sıxlıqla görülür. Statiskaya əsasən bu insanların 4-6%-i intihar edir. Ümumiyyətlə, intihar hər hansı pozuntunun ən faciəvi nəticəsidir. Terapevtik dəstək ilə bu meyli azaltmaq mümkün olsa da, davamlı olaraq nəzarət tələb edir. Eyni zamanda, bu insanlarda özünə zərər vurma davranışları da çox sıxlıqla görülür, lakin bu davranış ölmək istəyindən daha çox diqqət çəkmə istəyindən və emosiyalarını tənzimləyə bilmədikləri halda meydana çıxır. Stressli uşaqlıq, uşaqlıq dönəmində fiziki, cinsi istismarlar, etinasız yanaşmalar da bu problemin ortaya çıxmasına səbəb olur. Borderline şəxslər adətən, sevgi münasibətlərində yaşadıqları uğursuzluqlara və tərkedilmə qorxusuna görə intihara meyl edirlər.

Borderline olan şəxs 1-3 yaşında olan uşağa bənzəyir. Uşaq oyun oynarkən anası oyuncağını onun əlindən alır, uşaq ağlayır və ana onun üçün “pis ana” olur. 5 dəqiqə sonra uşaq gedib anasına sarılar və onu sevdiyini söyləyər. Uşaqlıq dövründə şəxsin təcavüz, istismar, etinasızlıq və tərkedilmə hadisələrinə məruz qalması onun gələcəkdə borderline olma riskini artırır. Uşaq doğulduğu ilk dövrlərdən başlayaraq ayrılma dönəminə qədər özünü ana ilə eyni şəxs kimi qavrayır. Uşaq, ona yaxşını hiss etdirən ananı “yaxşı ana”, ona pisi hiss etdirən ananı isə “pis ana” olaraq qavrayır. Bir növ fərqli situasiyalarda uşaq üçün 2 fərqli anası var olmuş olur. Yaxşı ananın qarşısında özünü sevimli hiss edən uşaq, pis ananın qarşısında özünü dəyərsiz hiss edir. Hər bir şəxs belə dissonans yaşayır, amma bir müddət sonra adi şəxs koqnitiv problemlərini həll edə bilir, bütünləşir. Bütünləşə bilməyən şəxslər yetkinlik dövründə də bu dissonansı yaşayırlar. Adətən, real mənliyi inteqrasiya etməmiş şəxslər başqalarını idarə etməyə və ya başqalarının işinə müdaxilə etməyə çalışırlar, çünki bu insanlar idarə və ya müdaxilə etdikləri insanları özləri ilə eyni qavrayır, hər ikisinin ayrı-ayrı insanlar olduğunu qavramır, bu isə erkən uşaqlıq dövründə anadan ayrılmanın tamamlanmaması və natamam ayrılma ilə əlaqəlidir. Uşağın koqnitiv inteqrasiya edə bilməsi üçün baxım verən şəxsin tutarlı davranması çox önəmlidir. Əgər ana gərgindirsə, eyni hadisəyə fərqli reaksiyalar verib, tutarsız davranışlar göstərirsə, uşaq bütünləşə bilmir. Yəni, “yaxşı və pis mən” inteqrasiya oluna bilmir və uşaq şəxsiyyət kimi ikiyə bölünmüş hiss edir.Uşaq özünü 2 şəxsiyyətin məna daşıyıcısı kimi hiss edir. Anadan ayrılma dönəmində ətraf aləmi qavramaq, anadan ayrılmaq üçün ananın da bu ayrılmanı dəstəkləməsi lazımdır. Amma uşaq anadan ayrılmaq istəyən zaman ana gərginlik keçirirsə, uşağın etdiyi müstəqil hərəkətləri cəzalandırırsa, deməli, ana bu ayrılmanı dəstəkləmir, uşağın bir ayağı getmək istəsə də, bir ayağı gedə bilmir.Uşaq anasından ayrılmaq istəyərkən onu itirməmək üçün yenidən ona yapışır və beləcə tərkedilmə qorxusu yaranmış olur. Bu tərkedilmə qorxusu şəxsin həyatı boyu davam edir, bir çox hallarda intihar hallarına da gətirib çıxarır. Psixodinamik istiqamətdə aparılan araşdırmalara əsasən, bölünmə müdafiə mexanizminin kökü preedipal dövrə bağlanır. Ana tərəfindən dərhal doyurulan ac uşaq bu vəziyyətdə məmnunluq hiss etdiyi halda, eyni uşaq,

baxım verən şəxs tərəfindən səbəb nə olursa olsun, ehtiyacları qarşılanmadıqda, uşaq özünü tərkedilmiş hiss edir və bu da uşaqda tərkedilmə qorxusunu formalaşdırır.

Preedipal dövr(edip kompleksindən öncəki dövr) uşaq həyatında çox önəmli rol daşıyıcısıdır və erkən uşaqlıq dövrünü(1-3 yaş) əhatə edir. Edipal dövr isə 4-6 yaş dövrünü əhatə edir. Borderline şəxslər preedipal dövrü uğurla tamamlaya bilmədikləri üçün edipal dövrü də uğursuz tamamlayırlar. Bir sözlə, preedipal dövrdə olan problemlər edipal dövrdə də problemlərə gətirib çıxarır. Bu dönəm, uşağın, dünyanın güvənilir olub-olmadığını dərk etdiyi dövrdür. Predipal dövr uğurla başa çatarsa, uşaqla baxım verən şəxs arasında güvənli bağlanma mövcud olur. Borderline olan şəxslərdə isə ana ilə uşaq arasında və bunun nəticəsi olaraq obyekt münasibətlərində güvənsiz bağlanma özünü göstərir. Uşağın ehtiyaclarının düzgün və uyğun şəkildə qarşılanması uşaqda təməl güvən duyğusunu yaradır. Baxım verən şəxslə uşaq arasında qurulan güvənli münasibət, uşağın həyatının digər dövrlərində başqa insanlarla qurduğu münasibətlərə müsbət təsir edir. Borderline şəxsiyyətlər isə güvənsiz bağlanmanın nəticəsi olaraq, digər şəxslərlə münasibətlərində ciddi problemlər yaşayırlar. Bu insanlar qurduqları münasibətlərdə(dostluq, sevgi və s.) təşviş, həyəcan yaşayır və münasibəti uzun müddət davam etdirə bilmirlər. Erkən uşaqlıq dövründə anaya yapışıb qalmaq davranışını yetkinlik dövrünə daşıyır və münasibətlərinə proyeksiya edirlər.

Borderline şəxsiyyətlərdə, həmçinin digər pozuntulardan əziyyət çəkən şəxslərdə erkən uşaqlıq dövründə (0-36 ay), yəni preedipal(edip kompleksindən öncəki dövr) dönəmdə uşağın optimal qırılma yaşaya bilməməsi özünü göstərir, yəni uşaq tolere edə bilməyəcəyi qırılmaya məruz qalır, bu da uşağın ətraf dünyaya güvənsiz bağlanması ilə nəticələnir. Xüsusilə, 1 yaşın sonlarına doğru olan dövr, yəni, uşağın müstəqil hərəkətlər etməyə başladığı dövrdə ananın bu hərəkəti əngəlləməsi, "sən bacara bilməzsən" mesajını verməsi nəticəsində uşaqda aşağı öz dəyər formalaşır və ana ayrılmanı dəstəkləmədiyi üçün uşaq anadan asılı olur, ona yapışıb qalır. Bu şəxslər böyüyən zaman "sən bacara bilməzsən" deyən ana modelini mənimsəyir və həyat təcrübəsində yeni fəaliyyətlərə cəhd göstərmək istədiyi zaman mənimsədiyi ana modelinin səsi ona mane olur, şəxsdə depressiv hallar yaradır. Mənimsənilən ana modelinin səsi hər davranışda, hər yeni təcrübədə şəxsə mənfi təsir edir. Preedipal dövrdə ayrılmanı dəstəkləməyən ana, uşaqda tərkedilmə qorxusu və bu qorxunu yaşamamaq üçün yapışıb qalmaq davranışını yaratmış olur, bu da uşağın gələcəkdə borderline şəxsiyyət olmasına gətirib çıxara bilər.

Borderline istər pozuntu halında, istərsə də struktur halında psixozla ortaq əlamətləri çoxdur. Əsas fərq isə psixozların reallıqdan qopuq olmasıdır, yəni borderline şəxsiyyət gerçək, real dünyanı qəbul etdiyi halda, psixozlar bir növ real dünyadan uzaqlaşmış olur və halüsinasiyalar özünü göstərir. Terapiyada psixozlara dəstəkləyici terapiyanın olması önəmli hesab edilir. Terapiya müddətində, üzləşdirmə zamanı borderline pasiyentin müəyyən qədər fərqindəlik yaşadığını görə bilərik, lakin, üzləşdirmə, psixozların narahatlığını kəskin şəkildə artırır.

Borderline şəxslərin ilkin müdafiə mexanizmləri bölünmə, tədbir görmək, proyektiv köçürmə, yapışıb qalma və uzaqlaşmadır.

Bölünmə, daha öncə qeyd edildiyi kimi erkən uşaqlıq dövründə ananın uşağa qarşı etdiyi tutarsız davranışların nəticəsi olaraq ortaya çıxır. Valideyn, uşağı oyuncaqları ilə oynayan zaman uşağına sevgi ilə davranarkən, oyuncaqları dağıtdığı zaman əsəbləşirsə, uşaq oynamağın yaxşı ya da pis olduğunu bilməz. Yəni, uşaq bu reaksiyanın tək bir ana tərəfindən edildiyini anlamaz. Yaxşı və pis ana tərəfindən edildiyini anlayır. Uşaq böyüdükcə duyğularını uclarda yaşamağa başlayar, çünki onun üçün ətraf aləm ağ və qaradır, cənnət və cəhənnəmdir. Bəs terapiya zamanı bu özünü necə göstərir? Bir hadisəni danışıb ağlayan pasiyent dərhal qəhqəhə ilə gülməyə başlayar.

Yapışıb qalma erkən uşaqlıq dövründə uşağa baxım verənin, uşağın müstəqil hərəkətlər etməsini əngəlləməsi ilə əlaqəlidir. Bir tərəfdə müstəqil hərəkət etməyə çalışan uşaq və onu buraxmaq istəməyən ana vardır. Uşaq anadan ayrılmaq istədikcə, ana onu buraxa bilmir, hətta uşaq böyüdükcə, ana ona yemək yedizdirir, paltarını geyindirir, bir sözlə, uşağın müstəqil hərəkətlər etməsinə mane olur. Bunun nəticəsi olaraq, uşaq özünü anadan asılı hiss edir və san-

ki ona yapışıb qalır. Borderline olan şəxslər bir müddət sonra münasibətlərində sanki boğulma yaşayırlar, buna görə də bir çox hallarda uzaqlaşmanı müdafiə mexanizmi kimi istifadə edirlər. Müdafiə mexanizmi kimi həm uzaqlaşmaqdan, həm də yapışıb qalmadan istifadə edən bu şəxslər hər iki halda diqqət və qayğıya çox ehtiyac duyurlar[3, 237]. Borderline şəxslər sevgi münasibətlərində də əks cinsə yapışıb qalma nümayiş etdirirlər, çünki bu insanlarda dərin tərkedilmə qorxusu vardır, partnyorları onlara əzab versələr də onlar tərkedilmək istəməzlər. Amerikalılar borderline şəxsləri bir cümlə ilə bu şəkildə ifadə edirlər: "Sənə nifrət edirəm, amma məni tərk etmə". Bu cümlədən də göründüyü kimi borderline şəxsiyyət tərkedilməmək üçün yapışıb qalma müdafiə mexanizmindən istifadə edirlər.

Tədbir görmək dedikdə, bu şəxslərin mövcud cəhənnəmdən qaçmaq üçün psixoaktiv maddələrə, içkiyə, siqaretə meyl etməsi, eyni zamanda həddən artıq cinsi münasibət yaşamaq istəyi nəzərdə tutulur. Bu insanlar, bu tədbirlər ilə acılarını bir növ yüngülləşdirmiş olurlar.

Proyektiv köçürmə isə çox geniş yayılmış müdafiə mexanizmidir, hansıki təkcə borderlinedə deyil, bir çox şəxsiyyət pozuntularında da özünü göstərir. Proyektiv köçürmə şəxsin özündə tolerə edə bilmədiyi bir şeyi qarşısındakına yansıtmasıdır. Yəni şəxs müəyyən duyğuları yaşamaq istəməz və bunu başqasına yaşadar. Məsələn, dostunun hirslənəcəyini bildiyi halda görüşə çox gecikər, dostunun əsəb duyğusu yaşaması isə borderline olan şəxsi rahatladar, bununla da özündə tolerə edə bilmədiyi duyğunu dostuna yansıtmış olar. Başqa bir nümunə, şəxs özü çox əsəbi, aqressivdir, lakin qarşısındakı insanın çox əsəbi və ona qarşı aqressiv olduğunu, o insanın bu duyğuları yaşadığını qeyd edir.

Müasir psixologiyada müxtəlif terapiyalar vasitəsi ilə borderline olan şəxslərdə yüksək nəticələr əldə edilir. Bunlardan biri O.Kernbergin müəllifi olduğu transfer fokuslu terapiya daha öncə də qeyd edildiyi kimi psixoterapyada çox effektiv nəticələr verir. Transfer fokuslu terapiya pozitiv və neqativ transferlər üzərindən aparılan seanslardan ibarətdir. Terapiya seansı necə qurulmalıdır? Üzləşdirmə nədir və hansı hallarda tətbiq edilməlidir? Bu terapiya pozitiv və neqativ köçürmələr üzərində qurulsa da, obyekt münasibətlərinə əsaslanır və seans zamanı simptomların gözlə görünən təzahürləri deyil, daxili amillər və emosional vəziyyətlərinin təhlilini əsas götürür. Digər terapiyalarda olduğu kimi transfer fokuslu terapiyada da terapevtin pasiyentdə güvən yaratması əsas faktordur, xüsusi ilə borderline şəxsiyyət ilə iş zamanı tərkedilmə qorxusu yaşayan pasiyentə güvən hissinin aşılanması onun daha rahat hiss etməsinə şərait yaradacaq. Bu terapiyada şəxsin zehnini, duyğularını, təkrarlanan davranış nümunələrini (xüsusilə borderline şəxsiyyətlərdə təkrarlanan və qeyri-adekvat olan müdafiə mexanizmləri) araşdırmaq və yenidən nəzərdən keçirmək çox önəmlidir. Çünki terapevt təkrarlanan davranış nümunələri (qeyri-adekvat müdafiə mexanizmləri) üzərində işləməyə başladıqda, pasiyentdə müxtəlif duyğu vəziyyətləri yarana bilər, aqressivlik, emosional qeyri-sabitlik və s. hallar baş qaldıra bilər. Bu duyğu vəziyyətlərinin olması pasiyentin fərqindəlik yaşaması ilə əlaqədardır, fərqindəliyn yaranması isə terapiya müddətinin uğurlu davam etməsi deməkdir. Terapiya müddətində ilk növbədə borderline şəxsin ilkin müdafiə mexanizmi olan bölünmə ələ alınmalıdır. Bölünmə üzərində iş terapevt üçün prioritet olmalıdır. Çünki bölünmə qeyri-adekvat müdafiə mexanizmidir və bunun aradan qalxması pasiyentin fərqindəliyinin artması deməkdir. Daha sonra pasiyent özünə daha adekvat olan müdafiə mexanizmi seçəcək və bununla da qeyri-adekvat müdafiə mexanizmi daha adekvat olan müdafiə mexanizmi ilə əvəz olunacaq. Transfer fokuslu terapiya, adından da göründüyü kimi transfer və qarşı transfer üzərində qurulub. Burada önəmli olan terapevtin pasiyentin transferlərinə neytral, daha soyuqqanlı yanaşa bilməsidir. Seans başladıqdan bir müddət sonra terapevt ilə pasiyent arasında transfer yaranır. Yəni, pasiyent uşaqlığında ona baxım verən şəxsə qarşı duyduğu nifrət və sevgini terapevtə köçürür. Valideyninə duyduğu, hiss etdiyi sevgini terapevti öyməklə, tərifləməklə ona transfer edir. Bir çox hallarda isə pasiyent, tərketmə qorxusu yaşadığı üçün terapevti xoş sözləri ilə mükafatlandırır [3, 216]. Transfer həm də pis duyğularla da meydana çıxır. Pasiyent nifrətini terapevtə xoş olmayan sözlər deməklə də göstərə bilər. Burada önəmli olan terapevtin pozitiv və neqativ transferlərə neytral və soyuqqanlı

duruşudur. Bu pasiyentə sağaldıcı təsir göstərəcək. Əks halda, terapevt, pasiyent onu təriflədikcə sevinir, pis duyğuların transferində isə yaxşı hiss etmirsə, bu terapiyanın sağaldıcı gücü olmaz, pasiyent sağalmaz. Borderline olan şəxsin müalicəsində ən böyük əngəl terapevtin əks transferidir [3, 375]. Bir sözlə, burada önəmli olan şey terapevtin yaxşı və pis duyğuları öz üzərinə almamasıdır. Əks transfer terapevtin şüursuz şəkildə öz ehtiyaclarını və ya uşaqlıq dövründə yaşadığı konflikti pasiyentə ötürməsidir. Bir çox hallarda terapevt borderline pasiyenti daha zəif görüb, ona həddən artıq diqqət, qayğı göstərə bilər. İkinci halda isə, terapevt borderline pasiyentə sərhədlərinin harada başlayıb, harada bitdiyini göstərmək üçün daha tələbkar ola bilər, hətta cəzalandırıcı davranışlar sərgiləyə bilərlər. Hər iki halda əks transferin mövcudluğundan danışmaq olar, bu da terapiyada pasiyentin sağalmasının qarşısını alır. Qeyd edildiyi kimi, terapevtin neytallığı, əks transferin olmaması borderline pasiyentə sağaldıcı təsir göstərir. Üzləşdirmə ilkin müdafiə mexanizmlərinə qarşı edilən terapevtik müdaxilələrdir. Üzləşdirmə necə olur? Məsələn: "Əvvəlki seansda mənim pis biri olduğumu dediniz, amma bugün sizin üçün çox sevimli, yaxşı biriyəm. Nə düşünürsüz, sizə görə mən yaxşı yoxsa pis bir insanam? Bu kimi suallar vasitəsi ilə borderline şəxslərdə fərqindəlik yaratmaq mümkündür.

Saxta mənlik və real mənlik arasında münasibətə nəzər yetirdikcə, real mənin əvvəlki mən modellərini inkişaf və inteqrasiya etdirdiyini görürük. Şəxsiyyət pozuntularının mərkəzində duran problem tutarlı, müstəqilləşmiş, inteqrasiya etmiş bir mənlik yarada bilməməkdir. Borderline olan bir şəxs başqsının diqqət və qayğısı olmadan yaşaya bilməyəcəyini düşünər. Uğurlu birləşmə-ayrılma bacarığı bu şəxslərdə mövcüd deyildir. Əksinə, bu şəxslərə daha çox uşaq kimi bağlanmaq xasdır. Borderline olan bir şəxs güclü tərkedilmə duyğusu yaşayar və belə bir hadisə yaşamamaq üçün, yəni tərkedilməmək üçün başqalarını məmnun etməyə çalışdığı zaman öz saxta mənliyini yaratmış olur. Bu saxta mənlik onun özünü müdafiəsidir, borderline olan bir şəxs hər zaman müdafiə vəziyyətindədir. Terapevtin borderline şəxs ilə seans zamanı üzləşdirmə etməsi, saxta mənlik, tərk qorxusunun olduğunu, real mənliyinin inkişafındakı axsaqlıqları üzə çıxarır. Daha sonra şəxs qeyri-adekvat özünümüdafiədən uzaqlaşaraq, daha adekvat müdafiə mexanizmləri yaradır və bir növ eqosu təmir edilir. Bu insanların real mənliyə sərmayəsi azdır. Aydındır ki, özünə sərmayəsi az, obyekt münasibətlərinə sərmayəsi çox olan, öz düşüncə və istəklərini ayırd etməkdə çətinlik çəkən insanlar, başqaları ilə münasibətdə də özlərini ifadə etməkdə çətinlik çəkərlər [3, 247]. Üzləşdirmə, terapevt ilə pasiyent arasında terapevtik ittifaqı möhkəmləndirir. Üzləşdirmədə əsas məqsəd pasiyentin diqqətini saxta mənlikdən real mənliyə yönləndirmək olmalıdır. Pasiyent tərk duyğusundan qaçmaq üçün birləşmə-ayrılma cəhdlərini buraxmaq əvəzinə təşviş və narahatlıqlarını idarə etməyə başladığı zaman terapiya uğurlu olar. Həmçinin, üzləşdirmə zamanı saxta mənliyin zərərləri, real mənlikdəki axsaqlıqların üzə çıxması, real mənliyin inkişafı üçün təməl rolunu oynayır. Yəni, real mənliyi təmir etmək üçün borderline olan bir şəxsin saxta mənliyi ilə üzləşməsi mütləqdir. Bu insanlar, başqalarından gözləntiləri istədikləri şəkildə qarşılanmadıqda onu, uyğun olmayan şəkildə, qəzəblə ifadə edərlər. Təməldə öz real mənliyini ortaya qoymağı bacarmayan, saxta mənlik ilə mükafatlandırılan çarəsiz bir uşaq modeli vardır. Bu insanlar "pis" biri olduqlarını düşünərək saxta mənliklə "yaxşı" olduqlarını göstərməyə çalışırlar. Terapiya zamanı şəxs tərk şeması üzərində işlədikcə, bölünmə müdafiə mexanizmini təmir edərsə, pasiyent öz real mənliyini tanıyar və qəbul edər. Bu insanların bağlanma tərzləri güvənli olmadığı üçün başqaları ilə münasibətdə də güvən problemi yaşayırlar. Buna görə də terapiya müddətində güvənli bağlanma üçün pasiyent və terapevt arasında daha yaxşı terapevtik ittifaqın qurulması pasiyent üçün önəmlidir. Əgər güvənli terapevtik ittifaq olarsa, pasiyent öz ehtiyac və duyğularını rahatlıqla dilə gətirə biləcək. Borderline şəxsiyyət ətrafı ağ və qara rəngdə qavrayırsa, terapevtin işinin əsas hədəfi pasiyentə başqa rənglərin də mövcudluğunu göstərməkdir. Qütblər arasında get-gəl yaşayan bu pasiyentlərin böhran vəziyyətində onu olduğu kimi qəbul edib, dinləməsi pasiyentə olduqca sağaldıcı təsir edir.

Borderline olan şəxslər münasibətlərində birləşmə-müstəqilləşmə mövzusunda onun kimi olan insanlarla münasibət qurmağa çalışılar. Onlar sevgi münasibətlərini uzun müddət davam etdirməkdə çətinlik çəkərlər, bəzi hallarda isə tərkedilməmək üçün göstərdikləri ifrat qayğı qarşısındakı partnyorunu boğar. Onlar digər şəxsiyyət pozuntuları ilə müqayisədə münasibətlərində daha çox dilemma yaşayırlar[3, 66]. Narsist şəxs ilə borderline şəxs arasında oxşar və fərqli cəhətlərə nəzər yetirək. Beləki, bu şəxsiyyətlərin hər ikisində bölünmə əsas müdafiə mexanizmidir. Yəni, asanlıqla ideallaşdırdıqları insanı tez bir zamanda dəyərsizləşdirə bilirlər. Borderline şəxsiyyət kifayət qədər bütünləşməmiş, psixoza və bunun nəticəsi olaraq psixoaktiv maddələrə meyilliliyi yüksək şəxslərdir. Narsist şəxslərdə isə şişirdilmiş mənlik üstünlük təşkil edir və borderline şəxslərə nisbətən daha bütünləşmiş və inteqrasiya etmiş mənliyə sahib olurlar. Hər iki şəxslər öz dəyərin aşağı olması ilə xarakterizə olunur. Borderline və narsist şəxsiyyətlərin erkən uşaqlıq dövrlərinə nəzər salsaq, narsistlərin uşaqlıq dövründə həddən artıq, qeyri-adekvat təriflənmiş uşaqlar olduğunu görürük. Borderline şəxslərdə isə bu tamamilə fərqlidir. Onlar ailədə daha çox etinasızlıq, şiddət görmüş və boşanmış ailələrdə böyüyən uşaqlar olurlar. Bu insanlara narsistlər daha cəlbedici görünür və daha çox onlarla münasibət yaşayarlar, lakin, bir müddət sonra empatiyadan məhrum olmuş, eqosunu məmnun etməyə çalışan narsist və bundan əzab çəkən borderline şəxs münasibəti uzun müddət davam etdirə bilməzlər, buna baxmayaraq tərkedilmə qorxusu yaşayan borderline şəxs, narsisti ona əzab verməsinə rəğmən buraxmaq istəməz, ona yapışıb qalar, bir növ ondan asılı vəziyyətə düşər. Narsist şəxsiyyət ilə qurulan münasibətdə borderline şəxs özünü yaxşı hiss etsə də, sonradan bu münasibət onun üçün ağrıya, acıya çevrilir. Bunun səbəblərindən biri narsist şəxsiyyətin empatiya qura bilməməsi olsa da, digər səbəbi narsistin özünü sevdirmək, münasibətdə olduğu şəxsi cəlb etmək üçün etdiyi çabalar və daha sonra onu dəyərsizləşdirməsidir. Borderline olan pasiyentlər adətən bu çəkdikləri acıya görə terapiya almaq istəyərlər. Terapiyada isə əsas hədəf real mənliyin inteqrasiyası və buna mane olan əngəllərin aradan qaldırılmasıdır.

**Ədəbiyyat siyahısı**


1. Ertuğrul Köroğlu, Sinan Bayraktar. Kişilik bozuklukları. Ankara: HYB Basım Yayın - 2010.- 298 s. №202.
2. Engin Geçtan, Psikodinamik psikiyatri ve normaldışı davranışlar. Ankara: Remzi Kitabevi - 1995.-305 s. №11.
3. James F.Masterson, M.D, Ralph Klein, M.D.Kendilik bozukluklarının psikoterapisi Masterson yaklaşımı.İstanbul: Yaylacık Matbaacılık - 2011.- 594 s.
4. Salman Akhtar, Ağır kişilik bozukluklarının tanı ve sağaltımı için başvuru kitabı. İzmir: Meta Basım Matbaacılık Hizmetleri - 2009. – 145 s.
5.The British Psychological Society and The Royal College of Psychiatrists, https://www.ncbi.nlm.nih.gov/books/NBK55415/ , National Library of Medicine, 2009.



**Резюме**

**Шахла Ибрахимова**

**Пограничный в психотерапии**

В современном психоанализе проведены весьма существенные исследования в направлении пограничного состояния и его лечения. Пограничные люди сегодня составляют большинство, и терапевтическое вмешательство может помочь предотвратить социальную изоляцию этих людей, а также негативное отношение к их дружбе, любви и работе. В представленной статье были рассмотрены пограничная личность и ее психологические особенности. В то же время были подчеркнуты терапия, ориентированная на перенос, которая является эффективной терапией для пограничных личностей, позитивный и негативный

перенос, его влияние на пациента и терапевта, а также важность конфронтации, которая является терапевтическим вмешательством. Также на основе обзора литературы проведен анализ актуальных вопросов, связанных с важностью семейного фактора в раннем детстве.

***Ключевые слова***: *заброшенность, граница, ложная идентичность, проекция, личность, вложение.*

**Summary**

**Shahla Ibrahimova**

**Borderline in psychotherapy**

In modern psychoanalysis, very substantial studies have been conducted in the direction of borderline and its treatment. Borderline individuals are the majority today, and therapeutic intervention can help prevent social isolation of these individuals, as well as negative attitudes in their friendships, love and work lives. In the presented article, borderline personality and its psychological characteristics were reviewed. At the same time, transference-focused therapy, which is an effective therapy for borderline individuals, positive and negative transference, its effect on the patient and the therapist, and the importance of confrontation, which is a therapeutic intervention, were emphasized. Also, an analysis of current issues related to the importance of the family factor in early childhood was carried out based on the literature review.

***Keywords:*** *abandonment, border, false identity, projection, personality, attachment.*

# RESENZİYALAR

# РЕЦЕНЗИИ

# REVIEWS

## ЭЛЬХАН ЗАЛ КАРАХАН: ВЗГЛЯД НА ИСТОРИЮ ХАЗАР И НА ХАЗАР В МИРОВОЙ ИСТОРИИ

Нынешний директор Санкт-Петербургского Эрмитажа Михаил Борисович Пиотровский во вступительном слове к новому изданию классической работы М.И. Артамонова «История хазар» сказал: «Хазары интересны всем. Одна из лучших книг XX века – «Хазарский словарь» Милорада Павича – обязана своим успехом, при несомненном великом таланте писателя, и таинственной загадке, которая всегда будет окутывать слово «хазары», сколько бы серьезных работ ни писали кабинетные ученые».[14] Действительно, то, что известно нам о хазарах из научных работ, сформировало противоречивые восприятия в общественном мнении и надолго обеспечило их присутствие в художественной литературе. Мировым бестселлером XX века стала книга известного британского писателя еврейского происхождения Артура Кестлера (1905-1983) «Тринадцатое колено» .[15] Эта книга благополучно сочетала в себе оригинальное исследование с интригующим художественным повествованием. Первая часть книги представляла сведения об истории хазар, почерпнутые автором из существовавшей к тому времени научной литературы, среди которой основное место занимали труды израильского ученого А. Поляка и британского исследователя Д. Данлопа. Вслед за этим А.Кестлер представлял известия, свидетельствовавшие, на его взгляд, о связи хазар с восточно-европейскими евреями и о возможном переселении хазарских евреев в Восточную Европу - в Россию, Украину, Польшу, Венгрию и Германию в XII-XIII вв. Содержание книги составили также и наблюдения за сходными антропологическим признаками восточно-европейских евреев и кавказцев.

В списке художественных произведений о хазарах, увидевших свет за пределами бывшего СССР и России, только четыре произведения были выпущены до Второй мировой войны, а 17 после. Из числа последних - десять романов были опубликованы в 90-ых годах и в первое десятилетие XXI века. Статистика меняется в реальном времени. Все новые и новые книги посвящаются хазарам в наши дни. Причины, надо думать, понятны всем: после трагедии Холокоста интерес к судьбам еврейского народа значительно возрос, а известия письменных источников об иудейском исповедании хазарской элиты привлекли к истории некогда могущественного государства тюрков-хазар внимание историков и общественности во многих странах Европы и в США.

Отношение официальной советской историографии послевоенного периода к Хазарскому каганату можно охарактеризовать как нацеленное на принижение его значения в судьбах евразийских народов. Неоправданно критическое отношение к истории хазар было заявлено в публикации 25 октября 1951 г. в газете «Правда». Для знакомых с советскими реалиями не нужно объяснять, что публикация официального органа Коммунистической партии СССР служила установкой для историков, которым предписывалось характеризовать это мощное госу-

[14] М.И. Артамонов, *История хазар*, Изд. 2. ed., Классика Эрмитажа (Санкт-Петербург: Государственный Эрмитаж (Россия) 2002)., с. 8.

[15] Arthur Koestler, *The Thirteenth Tribe : The Khazar Empire and Its Heritage* (London: Hutchinson, 1976).

дарство тюрков-кочевников, предшествовавшее возникновению восточно-славянской государственности, «как небольшое паразитарное ханство, располагавшееся на территории современной Калмыкии».[16]

На территории исторической Хазарии ныне проживают многочисленные кавказские и тюркские народы. Изменения общественно-идеологической ситуации в постсоветское время оживило поиски новой идентичности у этих народов и, соответственно, в национальных историографиях. Поскольку тюркское происхождение хазар считается преобладающим мнением в международном научном сообществе, то популярными стали исследования, устанавливающие этническую и историческую связь кавказских тюрков с хазарами. Прежде всего речь идет о происхождении тюркоязычных кумыков, карачаевцев и балкарцев.[17] Об исторических и этнических связях казахов и хазар ведутся обстоятельные исследования и в Казахстане.[18]

Роль хазар в этнической и политической истории Азербайджана вообще не входила в повестку дня советского хазароведения. В азербайджанской национальной историографии постсоветского периода хазары также оказываются вне внимания азербайджанских исследователей, если не считать замечаний, апеллировавших к их тюркскому происхождению в описаниях соседних с Азербайджаном народов. Не исключается, что причиной тому является представление о решающей роли огузских племен в тюркизации Азербайджана, в то время как огузы в последний период существования Хазарского государства были враждебны власти хазарского кагана и фактически оказались могильщиками некогда могущественного государства, объединившись против них с русам князя Святослава Игоревича.

Выдающийся азербайджанский арабист и тюрколог академик З.М.Буниятов, пожалуй, единственный из историков Азербайджана, специально и профессионально исследовавший вопросы истории хазар на основании оригинальных источников. Он посвятил вопросу о политическом господстве хазар в Албании исследование, в котором отметил серьезное расхождение мнений ученых по вопросу об их влиянии на Южном Кавказе и пришел к выводу о том, что владычество хазар над Албанией было установлено еще в эпоху поздних Сасанидов и что шахиншахам Каваду (489-496/496-531) и Хосрову Ануширвану (531-579), пришлось вести с ними долгую и не во всем успешую борьбу, поскольку многие города Албании, в частности, древняя столица Габала, оставались в руках хазар. Кроме того, скрупулезное исследование известий об арабо-хазарских войнах дало основание азербайджанскому ученому утверждать, что после начала арабского завоевания на протяжении еще примерно полутора столетия, хазары, возможно, с некоторыми перерывами, сохраняли свой контроль над землями на юге от Главного Кавказского хребта.[19] Наши скромные исследования по многим своим направлениям были развитием предложенных вопросов и положений академика З.М. Буниятова и других исследователей, представителей советской хазарской историографии.[20]

---

[16] С.А. Плетнева, "Предисловие ко второму изданию," in *М.И. Артамонов. История хазар, Классика Эрмитажа. исследования по истории и культуре* (Санкт-Петербург: Государственный Эрмитаж, Филологический факультет СПбГУ, 2002)., с. 12-13.

[17] К.М. Алиев, "О влиянии хазарских евреев на этнос и культуру кумыков ", *История, историография и этнография горских евреев, Дербент, 29-30 марта 2009,* http://kumukia.ru/article-9391.html.; Камиль Алиев, "Кто Вы Будете, Кумыки?," (2014), http://kumukia.ru/%D0%BA%D1%82%D0%BE-%D0%B2%D1%8B-%D0%B1%D1%83%D0%B4%D0%B5%D1%82%D0%B5-%D0%BA%D1%83%D0%BC%D1%8B%D0%BA%D0%B8.html.; Г.-Р. А.-К. Гусейнов and Алав Алиев, "«Мы - Не Отуреченные Кавказцы» - Интервью С Гарун-Рашидом Гусейновым," http://kumukia.ru/article-8997.html.

[18] Б.Б. Ирмуханов, *Хазары и казахи: связь времен и народов.* (Алматы: «Наш Мир», 2003).

[19] З.М. Буниятов, "О длительности пребывания хазар в Албании В VII-VIII вв," *Известия АН Аз.ССР, Серия общественных наук*, no. №1 (1961)., с. 22, 32-33.

[20] Ф.М. Асадов, "Полемика о длительности доминирования хазар на южном кавказе в хазароведческих исследованиях второй половины XX Века," in *Средневековый Восток: проблемы историографии и источниковедения*, ed. Ш.М. Мустафаев (Баку: "Элм",

Отрадно заметить, что буквально в последние несколько лет у нас в стране наблюдается повышенный интерес к загадкам истории хазар. Наряду с вполне понятным интересом исследователей историков, особенно отрадно видеть, что общественность открывает историю хазар как неизведанные прежде страницы истории азербайджанского народа. Это вне всякого сомнения свидетельствует о меняющемся восприятии этого загадочного народа и истории его государства в исторической памяти и сознании азербайджанцев. Показателями такого меняющегося отношения к хазарам является отражение вопросов их истории в произведениях журналистов, писателей, в материалах популярных веб-сайтов.

Писатель и публицист Эльхан Зал Караман недавно опубликовал интересное произведение с интригующим названием «Хазарский простор».[21] В рецензии к этой книге известный азербайджанский общественный деятель Джаваншир Фейзиев отметил, что первоначально в намерения писателя входило написание художественного произведения о хазарах, однако погружение в вопросы истории хазар убедило автора в том, что роль хазар в истории Азербайджана была неоправданно обойдена вниманием и ожидает своего исследователя.[22] Следующая книга о хазарах была уже подготовлена к изданию в авторском содружестве этих двух исследователей, объединённых интересом к истории хазар и желанием просветить азербайджанскую общественность об исключительном значении исторического опыта этого таинственного тюркского народа, создавшего и на протяжении трех веков развивавшего сильное государство на северных границах и частично на территории современного Азербайджана – государство, которое успешно соперничало с мировыми державами своего времени, Византийской империей и Арабским халифатом, сменившим Сасанидский Иран на южных границах Хазарии.

Что можно поставить в заслугу авторам? Безусловно, это широкая эрудиция, информированность об известиях о хазарах, сохранившихся в письменных памятниках на разных языках и от различных эпох и книжных традиций. Практически все основные сведения о происхождения хазар, об их появлении на Кавказе, о взаимодействии с народами и государствами, современными существованию Хазарского каганата, попадаются внимательному читателю на страницах этой интересной книги. Автор словно сплетает различные узоры из этих сведений, создающие образ, мир, исторический опыт хазар как ядра истории всего региона, а конкретнее территории, которую можно условно обозначить как исторический Азербайджан, или пределы проживания нынешнего азербайджанского народа. Предлагается оригинальная концепция истории хазар, коренящаяся в этно-политической среде середины I тыс. до н.э., в периоде существования государства скифов и древней Мидии в Передней Азии. Скифское государство представляется политическим образованием, в котором ведущая роль отводилась древним предкам хазар, а сохранившееся у античных авторов название одного из скифских племен *катиаров* связывается лингвистически с термином *хазар* более поздних наших информаторов (с.76).

Любопытно, что повествуемое время ранней хазарской истории охватывается хронологией библейских исторических преданий. И связи хазар (или их далеких предков) с иудаизмом отсылаются в те самые

2015).; Ф. М. Асадов, "Хазария, Византия и Арабский халифат в борьбе за контроль над торговыми путями евразии в IX-X Вв.," *Кавказ и глобализация* 6, no. 4 (2012).; Фарда Асадов, "Хазары и барсилы в исследованиях С.Г.Кляшторного" in *Тюрко-Монгольский мир в прошлом и настоящем. Материалы международной конференции, посвященной памяти Сергея Григорьевича Кляшторного (1928-2014)* (Санкт-Петербург – Улан-Батор: Российская Академия Наук, Институт Восточных рукописей/Монгольская Академия Наук, Институт истории и археологии, 2016).; Ф.М. Асадов, "Хазария и Хорасан в VIII – IX вв.: политические и торговые связи," [Khazaria and Khorasan in 8-9 centuries: political and trade ties.] *Bulletin of International Institute for Central Asian Studies (UNESCO, Samarkand)* 15(2012).; Fərda Əsədov, *Xəzərlər və Azərbaycan* (Bakı: Elm və Təhsil, 2018).

[21] Эльхан Зал Карахан, *Хазарский простор* (Баку: Мутарджим, 2022).

[22] Cavanşir Feyziyev, "Elxan Zal Qaraxanın "Xəzər Məkanı" Kitabı Barədə," *Ədəbiyyat qəzeti* (2023), https://edebiyyatqazeti.az/news/diger/9929-elxan-zal-qaraxanin-xezer-mekani-kitabi-barede.

библейские времена, в чем, как представляется авторам, нужно видеть закономерность присутствия иудаизма в вероисповедании поздних хазар.[23] Высказывается также предположение, что евреи могли вместе с хазарами переселиться из Передней Азии в прикаспийские земли после разрушительных для «протохазарских»[24] государств Передней Азии завоеваний со стороны их соседей. Среди ряда доказательных аргументов есть довольно сложные но любопытные конструкции: например соединение известий Геродота о прародителях скифов, сыновей мифического Таргитая, в частности, Арпоксая, с библейским персонажем Арфаксадом и объяснение этимологии этих имен как сочетания имени Мидийского царя Арбака с тюркским титулом *шад/сад:* Арбакшад/=Арфаксад.

Очень остроумная этимология современного хоронима Азербайджан составляет органическое единство с описываемыми таким образом историческими событиями и лингвистическими аналогиями. Согласно выдвинутой гипотезе, происхождение термина Азарбайджан от имени правителя Малой Мидии Атропата через посредство лингвистических трансформаций от парфянского Атропатакан (страна Атропата) предлагается заменить лингвистическими трансформациями термина Хазарвайжа, названия скифского царства, предложенного автором книги, в котором ведушую роль играло скифское племя катиаров/хазар. Вторая часть слова объясняется из авестийского языка как «простор» ( *вайджа*, а слово полность: Atarvaējah – «Хазарский простор»: см. с 153). При этом выдвигается даже предположение о том, что первоначально древнейшие части Авесты были написаны на неиранском (предположительно тюркском) мидийском языке. Любопытно также отметить, что если в первой книге («Хазарский простор: очерки истории хазар») название древнего мидийского государства передавалось как Хазарвайджа, то во второй книге это же имя уже обозначается как Азарвайджа, то есть ближе к форме Азербайджан. Очевидно, что название «протохазарского» государства конструируется по аналогии с названием древней прародины иранцев Аирйнэм-ваэджа, упоминающимся в Авесте. Что же касается предложенного термина Хазарвайджа, то остается неясным, упомянут ли он в источниках, или же создан самим автором.

Не может не удивлять осведомленность автора о различных противоречивых мнениях относительно классификации языка древних мидийцев, об этнической характеристики скифов, о происхождении хазар, об их связях с евреями и иудаизмом. Не перестает также удивлять и остроумие выдвигаемых предположений, объединяющих различные сведения о народах и населении Передней Азии от 1-го тыс. до н.э. до господства Хазарского каганата в евразийских степях и на границе с Южным Кавказом в VII-X вв. Но по ходу размышлений появляется труднопреодолимая для авторов проблема источниковедческой оценки этих сведений. Фактически автор отрывает известия от среды и времени их создателей и легко приобщает их к сведениям из иной культурно-исторической среды без объяснения этапов эволюции реалий древности к реалиям и событиям времени, отделенного от исходного многими столетиями. Каждая новая логическая цепочка в повествовательной канве оперирует понятиями из различных эпох и исторических условий от времени противостояния скифов, Мидии и Ассирии в Передней Азии до соперничества Хазарии, Византии и Арабского халифата в Центральной Евразии. Стыковочные моменты этих логических соединений наряду с представленными оригинальными идеями немедленно создают необходимость изучения всего круга известий, связанных с используемыми фактами. Такого рода расширительные исследования, как лингвистические, так и и аналитические, в книге отсутствуют.

Нельзя сказать, что книга полностью лишена критического взгляда на сведения древних авторов. Можно, например, отметить весьма рассудительный анализ изве-

[23] Средневековые источники дают основание предположить, что принятие иудаизма хазарами могло произойти в промежутке от середины до конца VIII в.н.э.

[24] Этот термин авторы не используют, он восстанавливается и предлагается из их логики событий и связей хазар с населением Мидии и Скифского царства.

стий Геродота о скифах, сравнительно- источниковедческий подход к сообщениям Геродота и Ктесия. Однако, очевидно и то, что авторам недоступна работа с оригинальными текстами, их изыскания основаны на переводах, главным образом, на русский язык, а значит они заранее ограничены трактовками переводчиков текстов. Относительно древних персидских, клинописных ассирийских, армянских, грузинских и других источников возможности авторов кажутся еще более ограниченными.

Помимо оригинальной концепции прародины хазар Хазар-вайджа в книге имеются содержательные главы, например, о связях мадьяр и хазар до обретения новой родины в Трансильвании, об обращении хазар в иудаизм по сведениям источников VI-X вв., о караимах и иудаизме хазар, а в ранее опубликованной книге «Хазарский простор» была и глава о связях Сельджукидов с хазарами. Эти части написаны с использованием основной литературы по указанным вопросам, в них к месту и с пользой для иллюстрирования исследовательских работ приводятся цитаты из дошедших до нас текстов различных письменных памятников. Эти главы можно считать полезным обзором известных нам сведений о межплеменных отношениях, культурной и религиозной ситуации внутри хазарского государства VII-X вв. Однако, остается открытым вопрос, насколько эти очерки обнаруживают органическую и логическую связь с изложенными в первых главах предположениями об эволюции политической и культурной среды Передней Азии при лидирующей роли хазар? Невыясненными остаются в рамках выдвинутой концепции вопросы связи хазарской государственности, кульминацией которой, безусловно, было образование Хазарского каганата в северо-прикаспийских и восточно-европейских степях, с известиями о Кавказской Албании, существование которой определяется большинством историков на протяжении длительного времени от распада Ахеменидской державы до расцвета Хазарского каганата на его северных границах.

Авторы книги ставят перед предполагаемыми редакторами работы практически нерешаемую задачу выявления и выяснения неточностей суждений по широкому комплексу привлекаемых в работе проблем далекой древности и раннего средневековья. И таким образом, жанровая классификация, содержательная характеристика работы не может быть подведена к строгим требованиям научного издания. Не способствует этому и несоблюдение технических требований к научным произведениям: последовательного и неукоснительное цитирования источников информации, порядка оформления имеющихся ссылок на литературу – в одних случаях эти указания делаются после текста, в других случаях внутри текста. Имеющиеся ссылки не имеют указаний на страницы изданий.

Если, с одной стороны, отметить несоответствие работы параметрам и требованиям научных изданий, то, с другой стороны, можно указать и на избежание в ней недостатков свойственных профессионально оформленным, но зажатым в рамках социального заказа исследованиям. Выдающемуся французскому историку XX века Марку Блоку принадлежат такие слова о пределах возможностей историков в установлении картины прошлого: «Исторический феномен никогда не может быть объяснён вне его времени. Это верно для всех этапов эволюции. Для того, который мы переживаем, как и для всех прочих. Об этом задолго до нас сказано в арабской пословице: «Люди больше походят на свое время, чем на своих отцов». [25] Мысли французского историка нужно понимать так, что историки современного мира смотрят на события далекого прошлого иначе, чем их предшественники, тогда как задача стоит объяснить прошлое в понятиях современников событий. Из понимания этой непреодолимой трудности следует, что каждое поколение, представители каждой новой эпохи мерят события прошлого аршином своего времени. Видимо, поэтому со сменой эпохи в эволюции общества приходит и необходимость пересмотра взглядов на прошлое для установления связи с ним. Сегодня в эпоху расцвета нацио-

[25] Марк Блок, *Апология истории или ремесло историка*, перев. Е.М. Лысенко, Памятники Исторической Мысли (Москва: "Наука", 1973)., с. 23.

нальных государств историки ищут их корни в отдаленном прошлом. Отдает этому дань и автор представленной книги но при этом раздвигает национальные и культурные границы своей картины прошлого настолько, чтобы представить политическую и культурную среду Передней Азии в единстве и взаимосвязи. Для обоснования этой концепции ему служит малоизученная история хазарского государства, которое, однако, сыграло важную роль в становлении ранних государств нескольких современных народов Евразии. По мере прохождения нынешнего этапа истории народов Евразии, взгляды на прошлое могут сместиться в сторону поисков закономерностей развития, объясняющих не этно-национальные особенности действующих лиц истории, а типологию отношений цивилизаций Передней Азии и евразийских степей. Тогда многие труды сегодняшних историков, в том числе и автора этих строк, найдут себе место в архивах исторической науки, а мысли, сформулированные в книге Эльханом Залом и Джаванширом Фейзиевым могут стать потенциальным источником повестки дня завтрашней историографии Евразии.

**Список литературы**

1. Əsədov, Fərda. *Xəzərlər Və Azərbaycan*. Bakı: Elm və Təhsil, 2018.

2. Feyziyev, Cavanşir. "Elxan Zal Qaraxanın "Xəzər Məkanı" kitabı barədə." *Ədəbiyyat qəzeti* (2023). Published electronically 30.01.2023. https://edebiyyatqazeti.az/news/diger/9929-elxan-zal-qaraxanin-xezer-mekani-kitabi-barede.

3. Koestler, Arthur. *The Thirteenth Tribe : The Khazar Empire and Its Heritage*. London: Hutchinson, 1976.

4. Алиев, К.М. "О влиянии хазарских евреев на этнос и культуру кумыков ", *История, историография и этнография горских евреев, Дербент, 29-30 марта 2009*: 4-9. Published electronically 15.05.2009 http://kumukia.ru/article-9391.html.

5. Алиев, Камиль. "Кто вы будете, кумыки?", (2014). Published electronically 24.10.2014. http://kumukia.ru/%D0%BA%D1%82%D0%BE-%D0%B2%D1%8B-%D0%B1%D1%83%D0%B4%D0%B5%D1%82%D0%B5-%D0%BA%D1%83%D0%BC%D1%8B%D0%BA%D0%B8.html.

6. Артамонов, М.И. *История хазар*. Классика Эрмитажа. Изд. 2. ed. Санкт-Петербург: Государственный Эрмитаж (Россия) 2002.

7. Асадов, Ф. М. "Хазария, Византия и Арабский халифат в борьбе за контроль над торговыми путями Евразии в IX-X вв.". *Кавказ и глобализация* 6, no. 4 (2012): 159-72.

8. Асадов, Ф.М. "Полемика о длительности доминирования хазар на Южном Кавказе в хазароведческих исследованиях второй половины XX века./ *Средневековый Восток: проблемы историографии и источниковедения*, edited by Ш.М. Мустафаев, 16-35. Баку: "Элм", 2015.

9. ———. "Хазария и Хорасан в VIII – IX вв.: Политические и торговые связи." [In Russian]. *Bulletin of International Institute for Central Asian Studies (UNESCO, Samarkand)* 15 (2012): 70-82.

10. Асадов, Фарда. "Хазары и барсилы в исследованиях С.Г.Кляшторного". In *Тюрко-Монгольский мир в прошлом и настоящем. материалы международной конференции, посвященной памяти Сергея Григорьевича Кляшторного (1928-2014)*, 48-58. Санкт-Петербург – Улан-Батор: Российская Академия Наук, Институт Восточных рукописей/Монгольская Академия Наук, Институт Истории и Археологии, 2016.

11. Блок, Марк. *Апология истории или ремесло историка*. Translated by Е.М. Лысенко. Памятники исторической мысли. Москва: "Наука", 1973.

12. Буниятов, З.М. "О длительности пребывания хазар в Албании В VİI-VİİI вв." *Известия АН Аз.ССР, Серия общественных наук*, no. №1 (1961): сс. 22-34.

13. Гусейнов, Г.-Р. А.-К., Алав Алиев. "«Мы - Не отуреченные кавказцы» - Интервью С Гарун-Рашидом Гусейновым." Published electronically 11.07.2011. http://kumukia.ru/article-8997.html.

14. Ирмуханов, Б.Б. *Хазары и казахи: связь времен и народов*. [in Russian]. Алматы: «Наш Мир», 2003.

15. Карахан, Эльхан Зал. *Хазарский простор*. Баку: Мутарджим, 2022.

16. Плетнева, С.А. "Предисловие ко второму изданию." / *М.И. Артамонов. История Хазар*. Классика Эрмитажа. исследования по истории и культуре, 11-34. Санкт-Петербург: Государственный Эрмитаж, Филологический факультет СПбГУ, 2002.

**Фарда Асадов**
*Зав. Отделом истории и экономики арабских стран,*
*Институт востоковедения им. З.М.Буниятова*
*НАН Азербайджана*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ DÖVLƏTÇİLİK VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİNƏ ELMİ BAXIŞ

## (T.e.d. Eynulla Mədətlinin "Pakistan: qısa tarixi-siyasi oçerklər" adlı monoqrafiyası haqqında qeydlər)

Dünyanın ən qədim sivilizasiya məkanlardan biri də Pakistan bölgəsidir. Tarix boyu müxtəlif sivilizasiyaların qovşağında yerləşən bu bölgə islamaqədərki mədəniyyətlərə ev sahibliyi etmiş, islam sivilizasiyası dövründə isə daha da inkişaf edərək müxtəlif mədəniyyətlərin sintezindən yeni bir mədəniyyət sistemi formalaşmışdır.

Məlumdur ki, Pakistan bölgəsində siyasi sistemin və etno-mədəni mühitin formalaşmasında türk etnik-mədəni irsinin böyük rolu olmuşdur. Qədim zamanlardan etibarən bu bölgədə baş verən miqrasiya axınlarının, hərbi-siyasi və etnik proseslər və türk etnoslarının bu proseslərdə davamlı iştirakının, bölgənin müasir etnik-siyasi mənzərəsinin formalaşmasında müstəsna rolu olmuşdur. Xüsusilə də, orta əsrlər dövründə indiki Pakistan ərazilərini də öz hüdudları daxilinə alan türk imperiyaları bölgənin etno-siyasi və mədəni həyatında böyük iz buraxmışdır.

Müasir dövrdə Azərbaycan Respublikasını Pakistanla qırılmaz şəkildə bağlayan uzun tarixi keçmişə söykənən mədəni, tarixi və etnik bağlardır. Xüsusilə də, Səfəvilər və Əfşarlar sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın bu bölgə ilə çox yaxın siyasi, iqtisadi və mədəni əlaqələri mövcud olmuşdur. Yüz illər öncə mövcud olan Səfəvi-Moğol və Əfşar-Moğol münasibətləri Azərbaycan – Pakistan əlaqələrinin əsasını və təməllərini təşkil edən vacib amillərdəndir.

Pakistan İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 12 dekabr 1991-ci ildə tanıyaraq bu addımı atan ilk dövlətlər sırasına düşmüşdür. İki ölkə arasında diplomatik əlaqələr 9 iyun 1992-ci il tarixində yaradılmış, 1993-cü il martın 12-də isə Pakistanın Azərbaycanda səfirliyi açılmışdır [2, s.257]

Azərbaycan Respublikasının müstəqilliyinin bütün dövrlərində Pakistan dövləti həmişə Azərbaycan xalqının və dövlətinin yanında olmuş, Azərbaycanın Qarabağ bölgəsinin erməni faşistləri tərəfindən işğal olunması faktını beynəlxalq və regional müstəvidə dəfələrlə pisləmiş, açıq şəkildə Azərbaycanın ədalətli mövqeyini davamlı olaraq dəstəkləmişdir. II Qarabağ Müharibəsi dövründə də Pakistan dövləti Azərbaycan Respublikasına siyasi və mənəvi dəstək verərək öz ədalətlilik və dostluq mövqeyini bir daha təsdiq etmişdir.

Azərbaycan – Pakistan dostluq əlaqələrinin elmi-mədəni inkişafına böyük töhfə verən və qardaş Pakistan xalqının və onun dövlətçilik tarixinin ən ümdə məsələlərini özündə ehtiva edən, eyni zamanda Azərbaycan-Pakistan diplomatik-siyasi əlaqələrinin tədqiqinə və təhlilinə həsr olunmuş əsərlərdən biri də şərqşünas alim, t.e.d. Eynulla Mədətlinin "Pakistan: qısa tarixi-siyasi oçerklər" adlı elmi monoqrafiyasıdır.

Müxtəlif tarixi mənbələr, elmi əsərlər, müəllifin diplomatik fəaliyyəti dövründə keçirdiyi görüşlər və yazdığı gündəliklərdən faydalanaraq ərsəyə gətirdiyi bu əsər Azərbaycan tarixşünaslıq elminin zənginləşməsinə töhfə verən əhəmiyyətli əsərlərdən biridir. Digər tərəfdən müəllifin bu əsərini Pakistanın tarixini, Pakistan İslam Respublikasının beynəlxalq əlaqələrini, Azərbaycan-Pakistan münasibətlərini özündə əks etdirən ilk monoqrafiya adlandırsaq yanılmarıq. İlk öncə qeyd edək ki, bu monoqrafiya E.Mədətlinin ilk tədqiqat əsəri deyildir. Onun "Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəllərində) [5], "İranda Azərbaycan tarixi məsələləri" [6], "Tarix və tarixşünaslıq məsələləri (Məqalələr toplusu)" [7] və digər elmi tədqiqat əsərləri Azərbaycan tarix elminin zənginləşməsində olduqca böyük əhəmiyyətə malikdir.

Onun "Pakistan: qısa tarixi-siyasi oçerklər" adlı monoqrafiyasında tarixin müxtəlif dövrlərində Pakistan bölgəsinin siyasi tarixi şərh edilmiş, tarixlər boyu Pakistan bölgəsini də əhatə edən dövlət və imperiyaların fəaliyyəti elmi tədqiqat əsərlərinə və mənbələrə istinadən şərh olunmuşdur. Əsərdə Pakistan bölgəsinin islamaqədərki tarixi və bu bölgədə islam dininin

yayılması prosesi şərh edilmiş, bölgənin etnik və dini mənzərəsi təhlil edilmişdir.

Müəllif erkən orta əsrlərdə bölgənin etnik və dini mənzərəsini təhlil edərkən haqlı olaraq qeyd edir ki, "Xilafət valiləri bölgədə bir-birini əvəz etsə və hər dəfə mərkəzi hakimiyyəti bu bölgələrdə gücləndirmək cəhdləri edilsə də, yerli feodal hakimlər daha çox müstəqilliyə can atırdılar. Tədricən Sinddə, Multanda, həmçinin, Mərkəzi Asiyada Xilafət mərkəzindən az asılı olan müstəqil ərəb, türk, fars hakimlərinin meydana gəlməsi prosesi gedirdi və bu dövrdə türklərin yeri və rolu get-gedə artmaqda idi. Hətta Buxarada qurulan Samani hakimiyyətində belə türklərin mövqeyi güclənirdi. Xorasan və Qəznədə hakim olandan sonra Samani hökmdarı Alp-tekin üzünü Hind yarımadasına çevirmişdi və Xeybər keçidində puştulara qalib gələrək Peşavər vadisinə də sahib olmuşdu. Onun varisi Səbuk-təkin bu fəthləri davam etdirmişdi. Əfqanıstanda da türklərin mövqeləri daha da güclənmişdi. Hindi Türki-şahiləri zamanında islam mədəniyyəti bölgədə intişar tapırdı. Get-gedə daha çox yerli hakimlər islamı qəbul edirdilər. Ümumən, yarımadada islam dininin yayılmasında sufi təlimləri həlledici rol oynayırdı. Buddizmin hakim olduğu bölgələrdə belə sufi təlimləri yayılırdı**" [4, s.33].**

Məlumdur ki, Mərkəzi Asiyanın dövlətçilik sisteminin formalaşmasında Qəznəvi türk dövlətinin böyük rolu olmuşdur. Qəznəvilər sülaləsi 963-1186-cı illərdə dövrün və regionun güclü dövlətini qurmuş və geniş əraziyə sahib olmuşdur. Pakistanın şimal əyalətlərini də əhatə edən Qəznəvilər dövləti Sultan Mahmudun hakimiyyəti dövründə Pakistanın strateji bölgəsi olan Lahoru ələ keçirmiş, 1151-ci ildən etibarən Lahor şəhəri təqribən 30 il bu dövlətin paytaxtı olmuşdur [3, s. 303].

Müəllifin bu əsərində Qəznəvilər dövlətinin siyasi tarixi, dini və mədəni mühiti haqqında olduqca əhəmiyyətli məlumatlar yer almışdır. Əsərdə qeyd olunur ki, "Lahorda [Pakistanda şəhər] islamın yayılmasında, xüsusilə Quran və hədislərin mənimsənilməsində 1005-ci ildə buraya gəlmiş Şeyx İsmayıl Buxarinin, Şeyx Hüseyn Zəncaninin, onun müridi Həzrət Şeyx Əlinin böyük xidməti olmuşdur. Onun burada tikdirdiyi məscid və sufi təliminə həsr etdiyi "Kəşfül-Məhcub" əsəri islamın yaylmasında və Buxara-Lahor əlaqələrinin genişlənməsində əhəmiyyətli rol oynamışdır. Onun təsiri ilə Lahorun naibi Rai Raju islamı qəbul etmiş, Şeyx Hindi adını götürmüşdür" [4, s.34].

Təqdim olunan monoqrafiyada Pakistanın əyalətlərinin də daxil olduğu Dehli sultanlığı [1206-1526] və Böyük Moğol imperiyasının [1526-1857] siyasi, iqtisadi və mədəni inkişafında Pakistan bölgəsinin rolu əhəmiyyətli dərəcədə işıqlandırılmışdır.

Əsərdə diqqətçəkən məqamlardan biri də Səfəvilər və Əfşarlar sülaləsinin hakimiyyəti dövründə Azərbaycanın Böyük Moğol dövləti ilə siyasi, iqtisadi və mədəni əlaqələrinin ətraflı şəkildə şərh edilməsidir. Bu əsərdə Səfəvi-Moğol münasibətlərinin əsasının qoyulması, Babur şahla Şah İsmayılın münasibətləri, Səfəvi hökmdarı Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Moğol münasibətləri, Moğol hökmdarı Humayun Şahın Səfəvi sarayına sığınması və Səfəvi dövlətinin hərbi köməyi sayəsində hakimiyyətini bərpa etməsi, həmçinin Moğol hökmdarları Əkbər Şah, Şah Cahangir və digər Moğol hökmdarlarının hakimiyyəti dövründə Səfəvi-Moğol münasibətləri də ətraflı şəkildə işıqlandırılmışdır.

Müəllif Nadir Şah Əfşarın Böyük Moğol dövləti ilə münasibətlərini, Əfşar türk hökmdarı Nadir Şahın Hindistana yürüşlərini Avropa müəlliflərinin elmi əsərləri əsasında təhlil edən E. Mədətli Şərqin sonuncu fatehi Nadir Şahın spesifik siyasi cizgilərini də təsvir etməyi yaddan çıxarmamışdır.

Təqdim olunan kitabda Pakistanın XIX-XX əsrlər dövrü tarixi də işıqlandırılaraq elmi əsərlər əsasında təhlil edilmişdir. Xüsusilə də XIX əsrdən etibarən böyük dövlətlərin bölgədə həyata keçirdiyi müstəmləkəçilik siyasəti, region uğrunda amansız mübarizə, yerli xalqların müstəmləkə zülmünə qarşı azadlıq mübarizəsi, bölgədə hind-müsəlman qarşıdurmaları, baş verən milli-dini hərəkatlar kimi məsələlər əsərin əsas elmi istiqamətlərini təşkil edir.

Pakistanda milli dövlətçilik ideyasının yaranması, təşəkkülü, formalaşması və praktiki nəticələri bəhs olunan əsərin əsas istiqamətləri sırasındadır. Bu əsərdə Pakistan dövlətinin yaradılması prosesində Məhəmməd Əli Cinnah, Əllamə Məhəmməd İqbal kimi ictimai-siyasi xadimlərin rolu, Müsəlman Liqasının fəaliyyəti,

Pakistan dövlətinin yaradılması prosesi elmi əsaslarla şərh edilmişdir.

Tədqiq olunan əsərdə Pakistan İslam Respublikası yarandıqdan günümüzə qədərki dövrdə baş verən ictimai-siyasi proseslər təhlil edilmiş, dövlətin siyasi sistemi, hökumət dəyişiklikləri, həyata keçirilən islahatlar müqayisəli şəkildə şərh olunmuşdur.

Əsərin elmi və siyasi əhəmiyyətini artıran məsələlər içərisində Pakistan dövlətinin etnik və mədəni sisteminin təhlili, tarixlər boyu Pakistanda baş verən islami hərəkatlar və dini təriqətlərin şərhi, Pakistan dövlətçiliyində dinin rolu xüsusi olaraq təhlil edilmişdir.

Əsərdə Pakistan dövlətin həyata keçirdiyi xarici siyasət strategiyası, dövlətin regional və beynəlxalq müstəvidə ikitərəfli və çoxtərəfli münasibətlərinin əksi mühüm yer tutur. Pakistanın Türkiyə ilə münasibətləri, Pakistan-ABŞ əlaqələri, Pakistan-Çin əlaqələri, Pakistanın SSRİ, ardınca Rusiya Federasiyası ilə münasibətləri, Pakistanın Fransa ilə əlaqələri, Pakistan-Hindistan əlaqələri, Pakistan- Səudiyyə Ərəbistanı münasibətləri, Pakistan-Əfqanıstan münasibətləri, Taliban və Pakistanın Əfqanıstan siyasəti, Pakistan-İsrail münasibətləri, Pakistanın İranla münasibətlərin təhlili, Pakitanın beynəlxalq münasibətlər sistemində rolunu və yerini müəyyən etməyə imkan verir. Eyni zamanda monoqrafiyada Pakistanın beynəlxalq və regional təşkilatlarda fəaliyyəti, xüsusilədə terrorizmə qarşı apardığı mübarizənin təhlili diqqətçəkən məqamlardan biridir [4, s.213-252].

Bu əsərdə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında siyasi münasibətlərin təhlilinə də geniş yer verilmişdir.

Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının prezidenti seçiləndən sonra ölkəmizin xarici siyasətində Pakistanla dostluq münasibətlərinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. 1994-cü il yanvarın 24-də Prezident Heydər Əliyev Azərbaycana rəsmi səfərə gələn Pakistan Xarici işlər naziri Sərdar Asif Əhmədi qəbul etmiş, ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da genişləndirilməsinin zəruriliyini vurğulamış və Pakistan prezidentini Azərbaycana rəsmi səfərə dəvət etmişdi.

Prezident Heydər Əliyev 4-6 sentyabr 1994-cü il tarixində Qahirədə "Dünya əhalisi və inkişaf" mövzusunda keçirilən beynəlxalq konfransda iştirakı zamanı Pakistanın Baş naziri xanım Benəzir Bhutto ilə görüşmüşdü. Bu görüşü yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "Bu gün Pakistanın baş naziri Benəzir Bhutto ilə mənim çox əhəmiyyətli görüşüm və söhbətim olubdur. Biz ölkələrimiz arasında dostluq əlaqələrinin inkişaf etdirilməsi yollarını müzakirə etmişik, bu barədə həmfikir olmuşuq. Pakistan bir ölkə kimi, bir dövlət kimi Azərbaycan müstəqillik əldə edəndən indiyə qədər ölkəmizə həmişə müsbət münasibət göstərmişdir. Ona görə də, Pakistan ilə əlaqələrimizin bundan sonra daha da inkişaf etməsi üçün yaxşı əsas yaranmışdır" [1, s.131].

Əsərdə istər Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə, istərsə də Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın Pakistanla siyasi, diplomatik münasibətləri geniş şəkildə öz əksini tapmış, beynəlxalq və regional müstəvidə çoxşaxəli əməkdaşlıq münasibətləri təhlil edilmişdir.

Müəllifin müxtəlif dövrlərdə Pakistanla bağlı yazdığı bəzi məqalələrin, xüsusilə də, Azərbaycan-Pakistan münasibətlərinə həsr olunmuş araşdırmaların bu əsərdə yer alması monoqrafiyanın elmi və siyasi əhəmiyyətini artıran əsas amillərdəndir.

Hal-hazırda Azərbaycan Respublikası ilə Pakistan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri hər iki dövlətin və xalqlarının çoxistiqamətli mənafelərini ifadə etməkdədir. Hər iki dövlət arasında mövcud olan yüksək səviyyəli siyasi münasibətlər xalqlar arasındakı inteqrasiyanın da güclənməsi zərurətini ortaya qoymaqdadır. Həmçinin hər iki dövlətin elm və təhsil sahəsindəki əməkdaşlıq imkanlarının reallaşması da inteqrsiya prosesinə təkan verən amillər sırasındadır.

Heç şübhəsiz ki, tarix elmlər doktoru Eynulla Mədətlinin bu əsəri Azərbaycan-Pakistan əlaqələrinin inkişafında böyük bir elmi töhfə olmaqla yanaşı, eyni zamanda bu sahədə aparılacaq tədqiqatlara əhəmiyyətli dərəcədə işıq salacaqdır. Həmçinin, hər iki dövlətin elm və təhsil sahəsində əməkdaşlığının inkişafı istiqamətində bu istiqamətli əsərlər elmi baza rolunu oynayır. Ona görə də, bu kitabın elmi ictimaiyyət və bütünlükdə oxucular tərəfindən maraqla qarşılanacağı şübhəsizdir.

**Ədəbiyyat siyahısı**

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 clilddə, 2-ci kitab, Bakı: Azərnəşr, 1997.
2. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti [1991-2003]. Bakı: Mütərcim, 2015.
3. Jalal A. The Oxford Companion to Pakistani History. Oxford University Press, 2012.
4. Mədətli E. Pakistan: qısa tarixi-siyasi oçerklər. Bakı: Turxan NPB, 2022.
5. Mədətli. E. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında [XX əsrin əvvəllərində], Bakı: Turxan NPB, 2017.
6. Mədətli E. İranda Azərbaycan tarixi məsələləri, Bakı: Elm, 2020.
7. Mədətli E. Tarix və tarixşünaslıq məsələləri, [Məqalələr toplusu], Bakı: Turxan NPB, 2022.

**Mübariz Ağalarlı**

*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan Cümhuriyyəti tarixi” şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d, dosent*

## “AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI SOSİAL ELMLƏR” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRƏ DAİR TƏLƏBLƏR

1. “Azərbaycan Milli Elmlər Akademiyasi Sosial Elmlər” jurnalında orijinal elmi tədqiqatların nəticələrini özündə ehtiva edən, elmi yeniliyi, mühüm elmi və təcrübi əhəmiyyəti olan məqalələr çap edilir.
2. Materiallar (məqalə, resenziya və s.) Azərbaycan, rus və ingilis dillərində çap şəkildə, elektron daşıyıcıda və ya e-mail (socialsciences.anas@gmail.com) vasitəsi ilə təqdim edilə bilər.
3. Məqalə elmi (ali təhsil) müəssisənin müvafiq şöbəsində (kafedrasında) müzakirə edilərək müsbət rəy aldıqdan sonra elmi şurasında çapa məsləhət görülməlidir. Müəllif elmi şuranın iclasının protokolundan çıxarışını redaksiyaya təqdim etməlidir.
4. Redaksiyaya təqdim olunmuş məqalə müəllifin ixtisasına uyğun iki anonim eksperta rəyə göndərilir. Rəyləşdirmə prosesi nəticəsində iki müsbət rəy almış müəlliflərin məqalələri çapa göndərilir.
5. Məqalənin həcmi 6-12 səhifə (şəkillər, cədvəllər, qrafiklər, əlavələr, ədəbiyyat siyahısı, xülasələr daxil olmaqla) olmalıdır. Məqalələrin mətnləri Times New Roman – 12 şrifti ilə, 1 sətirarası intervalla çap olunmalıdır.
6. Hər bir məqalədə UOT indekslər və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməli və ən azı 5 sözdən ibarət olmalıdır.
7. Məqalədə istifadə edilmiş mənbələr və ədəbiyyat çap olunduqları dillərdə (əvvəlcə Azərbaycan, sonra türk, rus, ingilis, fransız, ərəb və s.) məqalənin mətnindən sonra **Ədəbiyyat siyahısı** başlığı altında verilməli, əlifba sırası ilə, ardıcıl nömrələnərək siyahıda göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları barədə” qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin tələbləri əsas götürülməlidir (daha ətraflı bax: http://aak.gov.az).
8. Istifadə olunmuş ədəbiyyat siyahısından sonra məqalənin xülasəsi verilməlidir. Azərbaycan dilində olan məqalələr üçün xülasə əvvəlcə ingilis, sonra rus dillərində, rus dilində olan məqalələr üçün isə əvvəlcə Azərbaycan, sonra ingilis dillərində tərtib edilməlidir. Hər bir xülasənin başında məqalənin adı, müəllifin adı, soyadı, təmsil etdiyi müəssisə və ölkə göstərilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr 100-200 sözdən ibarət olmalıdır.

**Məqalənin strukturu aşağıdakı ardıcıllıqla qurulmalıdır:**
- Məqalənin UOT indeksi
- Müəllifin adı və soyadı
- Müəllifin çalışdığı yer, vəzifəsi, elmi dərəci və elmi adı, təmsil etdiyi ölkə və e-mail ünvanı
- Məqalənin adı
- Məqalənin yazıldığı dildə açar sözlər
- Məqalənin mətni
- Ədəbiyyat siyahısı
- Məqalənin yazıldığı dildən əlavə digər iki dildə yazılmış xülasələr və açar sözləri.

Qoyulan tələblərə cavab verməyən, ciddi elmi, qrammatik səhvləri olan məqalələr dərc edilmir.. Redaksiyaya təqdim olunan əlyazmalar geri qaytarılmır. Redaksiya heyəti məqalələrdə redaktə xarakterli dəyişikliklər və ixtisarlar aparmaq hüququnu saxlayır.

# ТРЕБОВАНИЯ К СТАТЬЯМ, ПРЕДСТАВЛЯЕМЫМ В ЖУРНАЛ «ОБЩЕСТВЕННЫЕ НАУКИ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА»

1. В журнале «Общественные науки Национальной Академии Наук Азербайджана» издаются статьи, содержащие результаты оригинальных научных исследований, представляющие научную новизну, важное научное и практическое значение.
2. Материалы (статья, рецензия и др.) могут быть представлены на азербайджанском, русском и английском языках в печатном виде, на электронном носителе или посредством электронной почты (socialsciences.anas@gmail.com).
3. Статья должна быть рекомендована к печати научным советом научного (высшего учебного) учреждения, получив положительный отзыв в результате обсуждения в соответствующем отделе (на кафедре). Автор должен предоставить редакции выписку из протокола заседания научного совета.
4. Представленная редакции статья в соответствии со специальностью автора направляется двум анонимным экспертам на рецензирование. При получении двух положительных отзывов в результате процесса рецензирования статья направляется в печать.
5. Объем статьи должен составлять 6-12 страниц (включая изображения, таблицы, графики, приложения, список литературы, резюме). Статья должна быть напечатана шрифтом Times New Roman – 12, с межстрочным интервалом 1.
6. В каждой статье должны быть указаны индекс УДК и ключевые слова. Ключевые слова должны быть на трех языках (на языке самой статьи и двух резюме) и составлять не менее 5 слов.
7. В статье использованные источники и литература приводятся после текста статьи под заголовком **Список литературы** и пронумерованы в алфавитном порядке (сперва на азербайджанском, затем турецком, русском, английском, французском, арабском и др. языках). При указании библиографического описания использованного источника следует брать за основу требования раздела «Использованная литература» действующих инструкций Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики «О правилах оформления диссертаций» (подробнее см.: http://aak.gov.az).
8. После списка использованной литературы следует разместить резюме статьи. Для статей, написанных на азербайджанском языке, необходимо разместить резюме сперва на английском, а затем на английском, а для статей на русском языке, необходимо разместить резюме сперва на азербайджанском, а затем на английском. Над каждым резюме необходимо указать название статьи, имя, фамилия, место работы и страну автора статьи. Оба резюме должны быть идентичными и соответствовать содержанию статьи. В резюме должны быть кратко отражены научные выводы, к которым пришел автор, научная новизна работы, практическая значимость статьи и т.д. резюме должны состоять из 100-200 слов.

**Структура статьи должна быть составлена в порядке, указанном ниже:**

- УДК индекс статьи
- Имя и фамилия автора
- Место работы, должность, научная степень и научное звание, страна и адрес электронной почты автора
- Название статьи
- Ключевые слова на языке статьи
- Текст статьи
- Список литературы
- Два резюме и ключевые слова, написанные на двух других языках.

Статьи, не отвечающие требованиям, имеющие значительные научные, грамматические ошибки, не издаются. Представленные в редакцию рукописи не возвращаются. Редакция оставляет за собой право производить изменения редакторского характера и сокращения.

## REQUIREMENTS FOR ARTICLES SUBMITTED TO "THE JOURNAL OF SOCIAL SCIENCES OF THE AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES"

1. Articles of scientific and practical significance, which cover the results of original scientific studies and scientific innovations are published in the Journal of Social Sciences of the Azerbaijan National Academy of Sciences.
2. The documents (articles, reviews, etc) can be submitted in Azerbaijani, Russian and English in a hard copy form, on electronic media or via e-mail (socialsciences.anas@gmail.com).
3. The article shall be recommended for publication once it has received a positive feedback following the discussions at the relevant department (chair) of the scientific (higher education) institution. The author shall submit to the editorial office an extract from the minutes of the meeting of the Scientific Council.
4. The article submitted to the editorial office shall be sent to two anonymous reviewers according to the author's area of specialty. The articles of authors who received two positive feedbacks as a result of the review process will be published.
5. The article shall be 6-12 pages (including pictures, tables, charts, appendices, list of reference, and summaries). Texts shall be printed in 12 pt Times New Roman font with line spacing of 1.
6. Each article shall include UDC indexes and keywords. Keywords shall be provided in three languages (in which the articles and summaries are written) and consist of at least 5 words.
7. The sources and bibliography used in the article shall be listed in sequentially numbered alphabetical order, following the body text, titled **References**, in their original languages (starting from Azerbaijani, then followed by Turkish, Russian, English, French, Arabic, etc.). The bibliographic description of the referenced source shall be based on the requirements of the "Cited Bibliography" section of the "Guidelines for Drafting Dissertations" of the State Commission for Academic Degrees and Titles reporting to the President of the Republic of Azerbaijan (see: http://aak.gov.az).
8. The reference list shall be followed by the summary of the article. The summary for articles in Azerbaijani shall be written first in English, then in Russian, and for articles in Russian, first in Azerbaijani and then in English. The title of the article, the author's name and surname, the organization and the country he/she represents shall be provided at the beginning of each summary. Article summaries in different languages shall be identical and correspond to the content of the article. The summary shall provide a brief description of the scientific conclusions reached by the author(s), the novelty and practical importance of the scientific work, etc. Summaries shall consist of 100-200 words.

**The article shall be structured in the following order:**

- UDC index
- Author's name and surname
- Author's place of work, position, academic degree and rank, country and e-mail address
- Article title
- Keywords in the original language of the article
- Main body
- Reference list
- Summaries and keywords in other two languages in addition to the original language of the article.

Articles that do not meet the requirements, have serious scientific or grammatical errors will not be published. Manuscripts submitted to the editorial office will not be returned. The editorial staff reserves the right to make editorial changes and reductions in articles.

Nəşriyyatın direktoru: *Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{8}$
Həcmi 36 ç.v.
Tirajı 300

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28